AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

TOFİQ MUSTAFAZADƏ

# AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ

**XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində**

Şərq Qərb 1986-cı ildən
East West since 1986
BAKI 2013

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur

**Elmi redaktor:**
**Y.M.Mahmudov**
Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü,
əməkdar elm xadimi

**İxtisas redaktoru:**
**C.M.Mustafayev**
Tarix elmləri doktoru

**Redaktor:**
**F.Əhmədov**

**Rəyçilər:**
**Ş.F.Fərzəliyev**
Tarix elmləri doktoru, professor
**M.S.İsgəndərova**
Tarix üzrə fəlsəfə doktoru

**Azərbaycan-Rusiya münasibətləri**
**XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində**
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 528 səh.
**ISBN** 978-9952-34-984-9

Kitabda XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində mövcud olmuş müstəqil Azərbaycan dövlətlərinin – xanlıqların Rusiya ilə münasibətləri başlıca olaraq tədqiqata ilk dəfə cəlb edilən arxiv sənədləri əsasında dərindən və kompleks şəkildə tədqiq olunmuşdur. Kitab elmi işçilər, ali və orta məktəb müəllimləri, tarix istiqamətində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

BAKI 2013
www.eastwest.az
www.fb.com/eastwest.az
© AMEA Tarix İnstitutu, 2013
©"Şərq-Qərb" Nəşriyyat Evi, 2013

# MÜNDƏRİCAT

**Giriş** ............ 4

**I Fəsil. Müstəqil Azərbaycan xanlıqlarının yaranması və Rusiyanın bu hadisəyə münasibəti** ............ 18

§1. Müstəqil Azərbaycan xanlıqlarının yaranması. Azərbaycan və İranda siyasi vəziyyət ............ 18
§2. Müstəqil Azərbaycan xanlıqlarının yaranmasına Rusiyanın münasibəti ............ 38

**II Fəsil. XVIII əsrin II yarısında Azərbaycan-Rusiya ticarəti** ............ 47

§1. Rusiya-Azərbaycan ticarətinin başlıca mərkəzləri ............ 47
§2. XVIII əsrin 60-80-cı illərində Rusiya-Azərbaycan ticarəti ............ 58
§3. 90 əsrin sonlarında iki ölkə arasında ticarətin durumu ............ 68
§4. İdxal və ixracın xarakteri. Tacirlərin villi tərkibi ............ 77
§5. İpək bazarında rəqabət və Azərbaycan xanlarının pul siyasəti ..... 83

**III Fəsil. 70-80-cı illərdə Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi münasibətləri** ............ 89

§1. 70-ci illərdə Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi əlaqələri ............ 89
§2. 80-cı illərdə Rusiya və Azərbaycan xanlıqları ............ 124

**IV Fəsil. XVIII əsrin 90-cı illərdə Rusiyanın Azərbaycanı işğal etmək cəhdi** ............ 173

§1. Cənubi Qafqazda Rusiya-Qacar qarşıdurması ............ 173
§2. V.Zubova başçılığı ilə rus qoşunlarının Azərbaycanı işğal etmək cəhdi ............ 198

**V Fəsil. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətləri. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması** ............ 242

Nəticə ............ 286
İstifadə olunmuş mənbələr və ədəbiyyat ............ 301
Azerbaijan-Russian relations in the sekond half of the XVIII – early XIX senturies (the resume) ............ 318
Азербайджано-русские отношения во второй половине XVIII – начале XIX вв. (резюме) ............ 337
Əlavələr ............ 358

# GİRİŞ

Azərbaycanın tarixən ən çox münasibətlər saxladığı ölkələrdən biri Rusiya olmuş və olmaqdadır. İqtisadi münasibətlər hər iki ölkə üçün sərfəli idisə, siyasi münasibətlər heç də həmişə normal olmamışdır. Azərbaycan torpaqlarına ən çox təcavüz edən dövlətlərdən biri də məhz Rusiya olmuşdur. Bununla belə, Rusiyanın Azərbaycanın taleyində oynadığı müəyyən müsbət rolu heç kəs inkar edə bilməz. Keçmişsiz gələcək olmadığından Azərbaycanın gələcək inkişafının müəyyənləşməsində onun taleyində önəmli rol oynamış Rusiya ilə münasibətlərin tədqiqinin müəyyən siyasi əhəmiyyəti ola bilər.

Azərbaycanın Rusiya ilə münasibətlərini öyrənmək həm də böyük elmi aktuallıq kəsb edir. Bu münasibətlər tarixində XVIII əsrin II yarısı – XIX əsrin əvvəlləri xüsusi yer tutur. Həmin dövr bir tərəfdən müstəqil Azərbaycan xanlıqlarının meydana çıxması ilə bağlı iki ölkə arasında diplomatik əlaqələrin yaranması və genişlənməsi, digər yandan da Rusiyanın Azərbaycanı qəti işğal siyasətinə keçməsi və nəhayət ölkənin şimal hissəsini ilhaq etməsi ilə əlamətdardır.

Azərbaycan-Rusiya münasibətlərinin bu dövrü hələ XIX əsrdən bir çox tarixçilərin diqqətini cəlb etmiş, onların əsərlərində mövzunun bu və ya digər cəhətlərinə müxtəlif yönlərdən toxunulmuşdur.

XIX əsrin ilk illərində S.M.Bronevskinin "İvan Vasilyeviçin dövründən dövrümüzə qədər Rusiyanın İran, Gürcüstan və ümumiyyətlə Qafqazda yaşayan dağlı xalqları ilə əlaqələri haqqında tarixi qeydlər" adlı əsəri meydana çıxmışdır. Müəllif kitabı Rusiya Xarici İşlər Nazirliyinin sifarişi əsasında 1803-1804-cü illərdə yazmağa başlamış və 1810-cu ildə bitirmişdir. Məlumat kitabçası səciyyəsi daşıyan bu əsərin müəllifi həm də bir sıra hadisələrin bilavasitə şahidi olduğundan (o, 1796-cı ildə rus qoşunlarının yürüşünün iştirakçısı olmuş, P.Sisianovun komandanlığı dövründə isə baş komandan dəftərxanasının müdiri işləmişdir) əsər müəyyən qədər ilk mənbə təsiri bağışlayır.

XIX əsrin ortalarında görkəmli Azərbaycan tarixçisi A.A.Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ilə Rusiya arasında siyasi münasibətlərə xüsusi yer ayırmışdır.

P.Q.Butkovun 1869-cü ildə nəşr olunmuş üç cildlik əsəri 1722-ci ildən 1803-cü ilə qədər Rusiyanın Cənubi Qafqazda yeritdiyi siyasəti əks etdirir. Külli miqdarda arxiv materiallarından və əsərlərdən istifadə edən müəllif hadisələrə öz münasibətini çox az bildirmişdir ki, bu da əsərə xeyli dərəcədə ilkin mənbə səciyyəsi verir.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazda apardığı işğalçı müharibələrə dair daha ətraflı əsərlər meydana çıxır. Hərbi tarixçilər N.F.Dubrovinin və V.A.Pottonun əsərləri haqqında xüsusi danışmaq lazımdır. N.F.Dubrovinin 1803-cü ildən 1806-cı ilədək qısa bir dövrü əhatə edən "Zaqafqaziya 1803-1806-cı illərdə" adlı əsərində bu dövr ərzində Rusiyanın Azərbaycanda yürütdüyü işğalçı siyasət ətraflı təsvir olunmuşdur. O, general Qulyakovun Car-Balakənə ekspedisiyasını, Balakənin, Carın, Gəncənin tutulmasını, bir sıra döyüş səhnələrini təsvir etmişdir. Bunu qeyd etmək lazımdır ki, Böyük Rusiya dövlətçiliyi mövqeyindən çıxış edən müəllif Rusiyanın Azərbaycandakı işğallarına haqq qazandırmağa çalışır. Belə ki, Dubrovin Car-Balakəni Gürcüstanın ən narahat qonşularından hesab edib camaatların tez-tez Cürcüstana basqın etmələrini qabartmaqla, əslində bu bölgənin ruslar tərəfindən tutulmasını guya Cürcüstanın təhlükəsizliyinin təmin edilməsi istəyi ilə bağlayır [121, s.91]. Dubrovinin əsərində Gəncənin işğalı ərəfəsində Qafqazdakı rus qoşunlarının baş komandanı gen. Sisianovla Cavad xan arasında diplomatik danışıqlar geniş təsvir olunur. Rusiya himayəsinə keçmək haqqında Qarabağ və Şəki xanlarının imzaladıqları müqavilələr şərh edilir. Əsər gen. Sisianovun Bakıya doğru hərəkəti və burada qətlə yetirilməsinin təsviri ilə başa çatır.

Dubrovinin "Rusların Qafqazda müharibəsi və hökmranlığı tarixi" adlı altı cildlik iri həcmli digər əsəri Rusiyanın Qafqazdakı müharibələri tarixinə həsr edilmişdir. Müəllif hərbi əməliyyatları geniş təsvir etməklə yanaşı çarizmin regionda yürütdüyü siyasətin işıqlaşdırılmasına da xeyli yer vermişdir. Dubrovin əsərini yazarkən minlərlə əsər, sənəd və arxiv materiallarından istifadə etmişdir. Şərh olunan əsər 1782-ci ildən 1826-cı ilədək dövrü əhatə edir. Əsərdə Azərbaycan xanlıqlarının Rusiyaya tabe edilməsi prosesi tam təfərrüatı ilə təsvir edilmişdir. Sisianovdan sonra Qafqaza baş komandan təyin olunmuş Qudoviçin işğal rejimini möhkəmləndirmək üçün gördüyü tədbirlər, qarabağlı İbrahimxəlil xanın mayor Lisaneviç tərəfindən qətlə yetirilməsi, Şəkinin işğalı, Quba xanlığında rus işğalçılarına qarşı uzunmüddətli

müqavimət, I Rusiya-İran və 1806-1812-ci illər Rusiya-Osmanlı müharibələri, Rtişşev və Yermolovun baş komandanlığı dövründə cərəyan edən hadisələr ətraflı təsvir olunmuşdur.

V.A.Potto Rusiyanın Qafqaz müharibələrinə çox geniş həcmli beş cildlik bir əsər həsr etmişdir. Əsərin əvvəlində I Pyotrun 1722-ci ildə Azərbaycana yürüşündən başlayaraq – 1801-ci ilə qədər, yəni Şərqi Gürcüstanın Rusiyaya ilhaqına qədərki dövrdə Rusiyanın Cənubi Qafqazda yürütdüyü siyasət yığcam şəkildə şərh edilmişdir. XVIII əsrin 20-ci illərində Rusiya tərəfindən zəbt edilmiş torpaqların imperatriçə Anna dövründə İrana güzəşt edildiyini qeyd edən müəllif bundan sonra Rusiyanın Qafqaz siyasətinin müvəqqəti olaraq təxirə salındığını yazır [169.1, s.164]. Əsərdə V.Zubovun başçılığı ilə rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşünə xeyli yer verilmişdir. Pottonun əsərində diqqət daha çox rusların Azərbaycan xanlıqlarına, habelə Qafqazda İrana və Türkiyəyə qarşı apardıqları hərbi əməliyyatlara ayrılmışdır.

Gürcüstanın Rusiyaya birləşdirilməsinin 100 illiyi münasibəti ilə Pottonun redaktorluğu ilə tərtib edilmiş topluda [199] da bizi maraqlandıran mövzuya müəyyən dərəcədə toxunulmuşdur. Burada işğal ərəfəsində rus komandanlığı ilə Car-Balakən camaatları, Gəncə, Bakı, Şamaxı, İrəvan xanlıqları arasında münasibətlər haqqında məlumat var.

Digər rus dvoryan-burjua tarixçisi P.İ.Kovalevski Rusiyanın Qafqazı işğal etməsinin ümumi təsvirini əks etdirən əsər yazmışdır. Müəllif Rusiya-İran və Rusiya-Osmanlı müharibələrinin səbəblərini araşdırarkən haqsız olaraq günahı İran və Türkiyənin üzərinə yıxmağa çalışır [143, s.98].

Oktyabraqədərki rus tarixçilərinin ümumi cəhəti, onların Qafqazın Rusiya tərəfindən işğalı prosesini böyük dövlətçilik, rus şovinizmi mövqeyindən işıqlandırmalarında idi. Çar mütləqiyyətinin N.F.Dubrovin, V.A.Potto və digər məddahları imperiyanın işğalçılıq siyasətinə bəraət qazandırır, onun müstəmləkəçilik fəaliyyətinin hərbi-feodal metodlarını pərdələməyə çalışırdılar. Onların əsərlərində hərbi əməliyyatların təsvirinə böyük yer verilir, çarizmin diplomatik fəaliyyətinə isə az diqqət yetirilirdi.

XX əsrin 20-ci illərində Azərbaycanda elm və mədəniyyətin yeni inkişaf mərhələsinə daxil olması ilə Azərbaycan xalqının tarixi ayrıca elm sahəsi kimi tədqiq olunmağa başlayır. Azərbaycan tarixinə aid ümumiləşdirilmiş əsərlər meydana çıxır [161; 194]. Y.Paxomov Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı haqqında qısaca bəhs

edir, lakin işğaldan əvvəl xanlıqlarla Rusiya arasındakı münasibətlərə demək olar ki, toxunmur. Bununla belə əlamətdar haldır ki, Paxomov Rusiyanın da İran kimi Cənubi Qafqazda işğalçı məqsədlər güddüyünü yazır [161, s.22, 24]. V.M.Sısoyev də Azərbaycan xanlıqlarının Rusiya ilə münasibətləri haqqında demək olar ki, məlumat vermir. Yalnız Rusiyanın Cənubi Qafqazda işğalçı məqsədlər güddüynü yazıb hərbi əməliyyatlar haqqında qısa məlumat verməklə kifayətlənir. Təəssüf doğuran cəhət isə onun xanlıqlar dövrü Azərbaycanına İranın qopmuş bir parçası kimi baxmasıdır.

V.M.Sısoyevin Bakının qısa tarixini şərh etdiyi əsərində bakılı Hüseynqulu xanla rus hakimiyyət orqanları və zabitləri arasında münasibətlərə də toxunulmuşdur.

V.V.Bartoldun nəşr etdirdiyi "Xəzərsahili vilayətlərin müsəlman aləmində tutduğu yer" adlı mühazirəsində bu vilayətlərin Rusiya ilə XVIII-XIX əsrin əvvəllərində münasibətləri qısa şəkildə işıqlandırılmışdır.

1939-cu ildə SSRİ EA-nın Azərbaycan filialının nəzdində Tarix İnstitutu təşkil edilmiş və bu institutun ilk mühüm işi 1941-ci ildə Azərbaycan tarixinin qısa xülasəsini tərtib etmək olmuşdur.

"Qısa xülasə"də XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinə də xeyli yer verilmişdir. XVIII əsrdə rus-Azərbaycan ticarətinin azaldığı qeyd olunur [138, s.175]. Adı çəkilən əsərdə Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi əlaqələri haqqında da məlumat verilir. Bu zaman Azərbaycan hakimlərinin, qabaqcıl şəxslərin Rusiyaya meyl etdiyi iddia olunur [138, s.184]. Eyni zamanda müəlliflər haqlı olaraq qeyd edirlər ki, rus çarları Azərbaycan xalqının və digər xalqların taleyi haqqında qətiyyən düşünmürdülər və Rusiya Azərbaycana münasibətdə işğalçı məqsədlər güdürdü. Qubalı Fətəli xana öz düşmənlərinə qarşı mübarizədə Rusiyanın yardımından bəhs edən müəlliflər eyni zamanda qeyd edirlər ki, rus zadəganları və tacirləri Cənubi Qafqazda Rusiyanın işğalçı niyyətlərinə mane ola biləcək iri, birləşmiş müsəlman dövlətlərinin olmasını istəmirdilər [138, 182].

"Qısa xülasə" də 1796-cı ildə V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşündən də bəhs edilir. Yanlış olaraq bu yürüşün təşkilini Azərbaycan xanlıqlarının yardım haqqında müraciətləri ilə bağlayırlar. Halbuki, həmin yürüş Rusiyanın regiondakı mənafelərinə toxunduğu üçün Ağa Məhəmməd xan Qacarın hücumuna cavab kimi həyata keçirilsə də əslində Rusiyanın Cənubi Qafqazı ələ keçirmək barədə çoxdan bəri güddüyü niyyətləri gerçəkləşdirmək məqsədi daşıyırdı.

"Qısa xülasə" də Rusiyanın xanlara zorla qəbul etdirdiyi himayə müqavilələrinin bağlanması İran və Türkiyənin "daimi təhlükəsi" ilə əlaqələndirilmişdir. Əsərdə 1801-ci ildən Rusiyanın Cənubi Qafqazdakı işğalçılıq siyasətinin fəallaşması ilə əlaqədar hadisələr, Rusiya-İran və Rusiya-Osmanlı müharibələri yığcam şəkildə təsvir edilmişdir. Ancaq hadisələr elə qələmə verilir ki, guya Azərbaycan əhalisi rus hakimiyyətini arzulayırdı. Bununla da onlar çarizmin işğalçı siyasətinə bəraət qazandırmağa çalışırdılar. Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi yaranmış şəraitdə yeganə düzgün yol kimi səciyyələndirilərək "daha az bəla" hesab edilir [138, s.207-208].

İkinci dünya müharibəsi illərində R.P.Valuyevin Qubalı Fətəli xana həsr etdiyi elmi-kütləvi səciyyə daşıyan kitabında tanınmış dövlət xadiminin sərkərdəlik və diplomatik məharəti haqqında məlumat verilməklə yanaşı onun Rusiya ilə siyasi münasibətlərinə də toxunulur.

Müharibə illərində yazılmış digər kitabçada – Ə.Şükürzadənin Qarabağ xanlığının Ağa Məhəmməd şah Qacara qarşı qəhrəman müqavimətinə həsr olunmuş əsərində xanlığın Rusiya ilə əlaqələrinin işıqlandırılmasına da müəyyən yer verilmişdir. Müəllif xanın vəziri Vaqif başda olmaqla xan nümayəndələrinin Tiflisdə rus nümayəndəsi ilə danışıqlar aparılması haqqında məlumat verir. Ancaq sonrakı tədqiqatlarda bu fakt öz əksini tapmamışdır. Əvvəlki əsərlərdə olduğu kimi, Ə.Şükürzadənin əsərində də Rusiyanın Azərbaycanda öz maraqlarının olması barədə susulur. Müəllif qarabağlı İbrahimxəlil xanın Rusiyaya meylini Rusiyanın İran və Türkiyəyə nisbətən iqtisadi və mədəni cəhətdən inkişaf etməsi ilə sübut etməyə çalışaraq əslində bu meylə, eləcə də Rusiyanın işğalçılıq siyasətinə haqq qazandırmağa çalışır.

1941-1945-ci illər müharibəsi ölkədə bütün elmi müəssisələrin işinin yenidən qurulmasına səbəb oldu. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təşkil olundu. 1946-cı ildə Akademiya nın "Xəbərlər"ində Azərbaycan tarixi üzrə yeni ümumiləşdirilmiş əsər – "Azərbaycan tarixi üzrə xülasələr" nəşr olundu. Bu əsərdə XVIII yüzilin ikinci yarısı-XIX yüzillin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinə diqqət artırılmışdır. Diqqətin artması partiya direktivi ilə bağlı idi. Məsələ burasındadır ki, tədqiqatçıların qarşısında SSRİ-nin yaranmasının, qeyri-rus xalqların rus xalqı ilə əlaqələrinin tarixi köklərini araşdırmaq vəzifəsi qoyulmuşdu. Ancaq tarixçilərdən heç də münasibətlərin obyektiv araşdırılması yox, bu dövrdə meydana çıxan "birləşdirmə konsepsiyasını" təsdiq edən faktlar tapmaq və bu ruhda müddəaları əsaslandırmaq tələb olunurdu.

Müharibədən sonrakı dövrdə XVIII əsr hadisələrinə xüsusi əsərlər həsr etmiş ilk müəllif V.N.Leviatov olmuşdur. XVIII əsr Azərbaycan-Rusiya münasibətlərində kulminasiya dövrü olduğundan V.Leviatovun məlum kitabında [148] bu münasibətlər əsas yer tutur. Kitabda qubalı Fətəli xanın Rusiya ilə münasibətlərinə xüsusi diqqət yetirilir. Müəllif Rusiyanın Fətəli xana münasibətini əsasən düzgün səciyyələndirmişdir. Rusiya bir tərəfdən Fətəli xanın müsbət münasibətinə nail olmaq üçün ona müəyyən kömək göstərirdi, eyni zamanda onun çox güclənməsini, Rusiya sərhəddində yeni, iri dövlətin yaranmasını istəmirdi [148, s.137-138]. Fətəli xanın da Rusiyaya münasibəti əsasən düzgün səciyyələndirilərək onun öz müstəqilliyini saxlamaqda israrlı olması qeyd edilmişdir [148, 144].

Leviatov Azərbaycan xanlarının 1792-ci ildə Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. Qudoviçə münasibətlərindən bəhs edərək düzgün olaraq bildirir ki, xanlar Rusiya himayəsinə yalnız və yalnız Qacar təhlükəsindən qorunmaq üçün girmək istəyirdiər. Xanların Rusiyaya münasibəti dəyişkən idi, bu Rusiyanın onların müstəqilliyini saxlayacaqlarına inamın olmaması ilə bağlı idi [148, 63]. Ancaq Leviatov xanların manevr edərək öz hakimiyyətlərini saxlamaq naminə Rusiyaya müraciətlərini yanlış olaraq xanların həqiqətən rus təbəəliyini qəbul etmək istəkləri kimi qələmə verərək, bəzi xanların Rusiyaya ümumiyyətlə düşmən münasibətlərini demək olar ki, unudur. Leviatov 1796-cı ildə rus qoşunlarının Azərbaycana hərbi yürüşünü Ağa Məhəmməd Qacarın yürüşlərinə cavab kimi səciyyələndirir. Yürüşün işğalçı məqsədləri inkar edilir, Dərbəndin rus qoşunlarına müqavimətini yerli əhalinin işğalçılara qarşı mənfi münasibətinin təzahürü kimi deyil, Şeyxəli xan və onun ətrafındakıların subyektiv münasibəti kimi dəyərləndirir [148, 175-176]. Rus qoşunlarının Azərbaycandakı hərəkətlərini "əhaliyə qayğı" kimi səciyyələndirən Leviatov bunun sayəsində Azərbaycanın geniş xalq kütlələrində guya Rusiyaya meyl yarandığını iddia edir [148, 189].

Əvvəlki tarixçilərin Azərbaycanın Rusiyaya birləşdirilməsinin "daha az bəla" hesab etmələrini səhv sayan V.Leviatov daha artıq səhvə yol verir və bunu "uğurlu çıxış yolu" sayaraq, iddia edir ki, XVIII əsrin sonunda Azərbaycanın inkişafının digər alternativi yox idi.

Bütövlükdə V.Leviatovun xatırlanan əsəri XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəlləri Azərbaycan-Rusiya münasibətlərinin öyrənilməsində mühüm rol oynamışdır. Bu problemin ilkin qaynaqlar (ancaq çap olunmuş qaynaqlar olsa da) əsasında geniş tədqiq olunduğu ilk əsərlərdəndir.

50-ci illərin əvvəllərindən başlayaraq qeyri-rus xalqların Rusiyaya tabe edilməsi məsələsinə yenidən baxılmağa başlanır. 1952-ci ildə "Voprosı istorii" jurnalında Q.Q.Mehdiyevin "Azərbaycanın Rusiyaya birləşdirilməsinin tarixi əhəmiyyəti" adlı məqaləsi çıxır. Müəllif feodallara müharibələri nəticəsində ölkədə yaranmış iqtisadi tənəzzül və siyasi dağınıqlıq şəraitində Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələrinin xüsusi əhəmiyyəti olduğunu vurğulayır. Azərbaycanda əhalinin əksəriyyətinin Rusiyaya meyl etdiyini iddia edir. Həm də Mehdiyev yazırdı ki, əgər feodal hakimlər Rusiyaya meyldə öz məqsədlərini güdürdülərsə, xalq kütlələri arzularında təmənnasız və ardıcıl idilər. Gülüstan müqaviləsindən bəhs edən müəllif Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsinin işğalçı mahiyyətini inkar edir. M.Mehdiyevin adı xatırlanan məqaləsinin mənbə bazası da məhduddur.

1955-ci ildə nəşr olunmuş "Azərbaycanın Rusiya birləşdirilməsi və onun iqtisadiyyat və mədəniyyət sahəsində mütərəqqi nəticələri" adlı kollektiv kitabda (müəlliflər Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, Q.Q.Mehdiyev, M.M.Qasımov, M.D.Cəfərov) Rusiyaya birləşdirilənə qədər və birləşdirilmədən sonrakı dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafını təhlil etməyə (Azərbaycanın Rusiyaya birləşdirilməsinin onun daxili vəziyyətinin nəticəsi olduğunu sübut etmək üçün) cəhd göstərilmişdir. Kitabın birinci hissəsində Azərbaycanın Rusiyaya ilhaqının ilkin şərtləri, birləşdirmənin gedişi və "əhəmiyyəti" işıqlandırılmışdır. Müəlliflər XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi vəziyyətini qısaca təsvir edərək ölkənin iqtisadi tənəzzülünün dərinləşdiyini, xarici siyasi şəraitin kəskinləşdiyini yazırlar və yeganə xilas yolunu Rusiyaya birləşdirilməkdə görürlər. Şimali Azərbaycanın Rusiyaya işğalına bəraət qazandırmağa çalışırdılar.

Bu dövrdə "daha az bəla" konsepsiyasına son qoyulmuş, Mehdiyev digər tarixçilərlə birlikdə, Şimali Azərbaycanın Rusiyaya ilhaqına mütərəqqi addım kimi baxmağa başlayır, bu hadisədə "feodal dağınıqlığını ləğv etmək, türk, İran işğalçılarının qarşısını almaq, xalqın iqtisadi və mədəni həyatını inkişaf etdirmək üçün" yeganə çıxış yolu görürdülər [12, s.93]. Hətta bu birləşmə Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olması kimi qələmə verilirdi.

Ə.N.Quliyevin 1958-ci ildə çapdan çıxmış kitabçasında XV-XVIII əsrlərdə Azərbaycan-Rusiya münasibətləri ümumiləşdirilmiş şəkildə işıqlandırılmışdır. Kitabçada XVIII əsrdə baş vermiş hadisələrə daha

çox diqqət yetirmişdir. Müəllif o dövrün tələblərinə uyğun çıxış edərək yazırdı ki, Türkiyə və İrana qarşı mübarizədə guya Rusiyanın və Azərbaycan xalqının maraqları üst-üstə düşürdü [32, s.25-27]. Bir çox digər sovet müəllifləri kimi Ə.Quliyev də V.Zubovun başçılığı ilə yürüşün Azərbaycan xanlarının xahişinə cavab kimi təşkil olunduğunu iddia edir [32, s.48]. O, belə bir yanlış nəticə çıxarır ki, Azərbaycan xanlıqlarının XVIII əsrin sonunda İran və Türkiyə tərəfindən təhlükə gücləndiyi bir şəraitdə müstəqil varlıqlarını saxlamaq mümkün deyildi, buna görə də könüllü surətdə Rusiyaya birləşməyi üstün tutmuşlar [32, s.51]. Ə.Quliyevin əsərində Rusiyanın Azərbaycan xanlarına münasibətdə yürütdüyü siyasət öz obyektiv əksini tapmamışdır.

H.Abdullayevin Quba xanlığının tarixinə həsr olunmuş əsərində [59] XVIII əsrin 50-80-ci illərində bu xanlıqla Rusiya arasında münasibətlər ətraflı tədqiq olunmuşdur. Əsərin ən böyük məziyyəti Moskva şəhərindəki arxivlərdə mühafizə olunan bir çox sənədlərin ilk dəfə olaraq tədqiqata cəlb edilməsidir. Müəllif iki dövlət arasında siyasi münasibətlərə daha çox diqqət yetirmiş, eyni zamanda dövrün tələbləri onu vadar etmişdir ki, qubalı Fətəli xanı birmənalı şəkildə Rusiya meylli hakim kimi təqdim etsin.

Zəngin mənbə bazası H.Abdullayevə imkan vermişdir ki, XVIII əsrin 60-80-ci illərdə Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi, eləcə də ticarət-iqtisadi əlaqələrini dərindən işıqlandırsın. Rus diplomatları, məmurları, işgüzar adamlarının yazışmalarında Azərbaycan-Rusiya ticarət əlaqələri haqqında məlumatları üzə çıxaran müəllif yazışmalarda Azərbaycan-Rusiya əlaqələrinin yanlış olaraq "İran ticarəti" kimi qələmə verildiyini tənqid edərək bunu çar hökumətinin XVIII əsrin ikinci yarısında da Azərbaycan xanlıqlarının müstəqilliyini görmək istəməməsi ilə izah edir. Rus hökumətinin Quba xanlığına münasibətdə yürütdüyü gömrük siyasətinin timsalında Rus-Azərbaycan ticarətinin qeyri-bərabər xarakterdə olması qənaətinə gəlir.

Kitabın sonuna arxiv sənədlərinin surətlərinin əlavə olunması onun dəyərini daha da artırır. H.Abdullayevin 1965-ci ildə nəşr etdirdiyi sanballı əsərində isə Azərbaycan xanlıqları ilə Rusiya arasında XVIII əsrin 80-ci illərinə kimi mövcud olmuş münasibətlər geniş və dərindən tədqiq olunmuşdur. Bu kitab da müəllifin əvvəlki kitabı kimi çox geniş mənbə bazasına malikdir. Həm də H.Abdullayev Azərbaycan – Rusiya ticarət əlaqələrinə xüsusi diqqət yetirərək ticarətin dövriyyəsi, xarakteri, ticarətlə bağlı iki dövlət arasında meydana çıxan mübahisələr

haqqında dolğun məlumat vermişdir. Kitabda region uğrunda Rusiya, Osmanlı imperiyası və İran arasında rəqabətin işıqlandırılmasına da çox yer verilmişdir. Bu zaman müəllifin Rusiyaya rəğbəti açıq hiss olunsa, qərəzkar yanaşma göz önündə olsa da ədalət naminə qeyd etməliyik ki, H.Abdullayev rus çarizminin Cənubi Qafqaza, o cümlədən Azərbaycana münasibətdə yeritdiyi siyasətin müstəmləkəçi mahiyyət daşıdığını bildirməkdən də çəkinməmişdir. Ancaq bu zaman Rusiyanın siyasətinin Türkiyə və İranın siyasətindən daha mütərəqqi olduğunu yazmışdır.

O.P.Markovanın 1966-cı ildə nəşr olunmuş əsərində XVIII əsrin ikinci yarısında Rusiyanın Qafqazda yürütdüyü siyasət beynəlxalq münasibətlərlə əlaqədə tədqiq olunmuşdur. Əsərdə XVIII əsrin 80-90-cı illərində Rusiyanın Cənubi Qafqaz siyasətinin məqsədi və metodları, bu siyasətin həyata keçirilməsində kn. Q.A.Potyomkinin rolu öyrənilmişdir. Müəllif ilk dəfə olaraq Rusiyanın Azərbaycan ərazisində oyuncaq xristian dövlətləri yaratmaq planları haqqında qısa da olsa məlumat vermişdir. Markova Rusiyanın regionda güddüyü müstəmləkəçi niyyətləri gizlətməsə də, açıq-aydın qərəzkarlıq edərək Türkiyənin və qacarların siyasətinin guya daha mürtəce mahiyyət daşıdığını isbatlamağa çalışmışdır.

XX əsrin 60-cı illərindən başlayaraq ayrı-ayrı Azərbaycan xanlıqlarının tarixinə həsr olunmuş tədqiqatlar meydana çıxmışdır. Həmin tədqiqatlarda tədqiqat obyekti olan xanlığın qonşu iri dövlətlərlə, o cümlədən Rusiya ilə münasibətləri işıqlandırılmışdır. Belə tədqiqatlardan danışırkən ilk növbədə H.Ə.Dəlilinin Urmiya xanlığının tarixinə həsr olunmuş və 1967-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasının qeyd etmək lazımdır. Müəllif ilk dəfə olaraq Azərbaycan xanlıqları içərisində mühüm rol oynamış olan Urmiya xanlığının tarixini tədqiq etməklə yanaşı, Urmiya xanlarının rus hakimiyyət orqanları ilə münasibətlərinə aid bəzi məlumatlar da vermişdir.

N.A.Smirnovun XVI-XIX əsrlərdə Rusiyanın Qafqazda yürütdüyü siyasətə həsr olunmuş əsərində tədqiq etdiyimiz dövrdə Rusiya – Azərbaycan münasibətlərinə ötəri şəkildə toxunulmuşdur. 1958-ci ildə nəşr etdirdiyi əsərdə A.İoannisyan özünün qeyd etdiyi kimi Cənubi Qafqazın Rusiyaya birləşdirilməsi prosesini işıqlandırmaq məqsədi güdməmiş, o dövrün beynəlxalq şəraitini, Şərqdə ingilis-fransız münasibətlərini, İngiltərə və Fransanın İranda möhkəmlənmək uğrunda mübarizəsini, onların Rusiyanın Cənubi Qafqazı işğal siyasətinə qarşı müqavimət

cəhdlərini işıqlandırmışdır. Kitabda fransızların 1796-cı ildə İrana göndərdikləri elçilik, ingilis Qardanın elçiliyi və 1809-cu il ingilis-İran müqaviləsi haqqında geniş məlumat verilmişdir. Əlbəttə müəllif Cənubi Qafqazın Rusiyaya birləşdirilməsi məsələsinə ötəri də olsa toxunmuş və bu zaman açıq-aşkar yanlış fikirlər irəli sürmüşdür. Məsələn, o, bir yerdə yazır ki, "Zaqafqaziyanın bir sıra feodal dövlətlərinin və xanlıqlarının Rusiya imperiyasının tərkibinə daxil edilməsi demək olar ki, bütün Gürcüstan ərazisinin və Şimali Azərbaycanın, habelə Şərqi Ermənistanın yarıdan çoxunun (Lori-Pəmbək, Şirak, Zəngəzur) Rusiyaya birləşdirilməsi" demək idi [133, s.XXIV]. Göründüyü kimi, A.İoannisyan da digər erməni müəlliflərindən geri qalmayaraq Azərbaycan türk İrəvan xanlığının torpaqlarını əsassız olaraq erməni torpaqları kimi qələmə verməyə çalışmışdır. Digər yandan müəllif Car-Balakən, Gəncə, Şəki və bir sıra başqa yerlərdə rus qoşunlarına göstərilən ciddi müqaviməti görməməzliyə vuraraq iddia edir ki, guya Cənubi Qafqazın Rusiyaya birləşdirilməsi, demək olar ki, könüllü surətdə əhalinin rəğbəti şəraitində və yerli feodallar tərəfindən əhəmiyyətli müqavimətə rast gəlinmədən baş vermişdir [133, s.XXIV].

Z.T.Qriqoryan isə tarixi saxtalaşdıraraq İrəvan xanlığının, bu əzəli Azərbaycan torpağının Rusiya tərəfindən işğalını "Şərqi Ermənistan"ın Rusiyaya birləşdirilməsi kimi qələmə verən kitab [116, s.59] çap etdirmişdir.

C.Mustafayevin 80-ci illərin sonunda çapdan çıxmış əsərində XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqları ilə Rusiya arasındakı münasibətlər tədqiqat obyekti olmuşdur. V.Zubovun başçılığı ilə rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşü və xanların yerli əhalinin bu yürüşə münasibəti əsərdə öz əksini tapmışdır. Bu məsələləri əsasən düzgün açsa da Sovet dövrünün tələblərinə uyğun hərəkət edən müəllif Azərbaycan əhalisinin bu yürüşə guya müsbət münasibət nümayiş etdirdiyini vurğulamışdır.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinin xüsusi tədqiqat obyekti olduğu azsaylı əsərlərdən biri Q.R.Rəhimovun dissertasiyıdır (173). Ancaq təəsüf ki, müəllif mövzu ilə bağlı mənbələrin çoxunu tədqiqata cəlb etməmiş, mövzuya aid əsərlərin heç də hamısı ilə tanış olmamışdır. Rəhimov "XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində rus-İran və rus-türk münasibətlərində Azərbaycanın yeri məsələsi xüsusi tədqiqat obyekti olmamışdır" [173, s.3] yazmaqla S.M.Hacıyevanın bu məsələyə xüsusi olaraq həsr olunmuş

dissertasiyasından xəbəri olmadığını nümayiş etdirir. Q.Rəhimov arxivlərdən istifadə etdiyini iddia etsə də bəzi məqamlar bu fikrin doğruluğuna şübhə oyadır. Məsələn, F.M.Əliyevin səhvini təkrar edərək Rusiya Hərbi Tarix Arxivindəki "Voyenno-Uçenıy Arxiv" fondunun adını "Voyenno-Uçetnıy Arxiv" kimi yazır.

Rəhimovun əsərinin Azərbaycan-rus münasibətlərinin XV əsrdən başlayaraq XVIII əsrin ortalarınadək geniş bir dövrü əhatə edən birinci fəsli əslində xülasə səciyyəsi daşıyır. "Rus-Azərbaycan diplomatik münasibətlərində ticarət məsələləri" adlanan ikinci fəsildə yeni heç bir şey verilmir. Müəllif H.Abdullayevi təkrar edərək rus hökumətinin Xəzər ticarətinə Azərbaycanı mərkəz seçmək yönündə fəaliyyətini işıqlandırmaqla kifayətlənir. Gömrük siyasəti məsələlərinin işıqlandırılmasında da H.Abdullayevdən irəli getmir.

Rəhimov dissertasiyanın üçüncü fəslində Rusiya və Azərbaycan xanlıqları arasında siyasi əlaqələrin yaradılması və möhkəmləndirilməsində rus və Azərbaycan diplomatlarının fəaliyyətini işıqlandırır və bu zaman XVIII əsrin 80-ci illərinə qədər baş vermiş hadisələri təsvir edərkən eynilə H.Abdullayevi təkrar edir. 80-ci illərdə Əlimurad xanla Rusiya arasında danışıqlardan söhbət açarkən elə təsəvvür yaratmağa çalışır ki, guya ilk dəfə bu məsələyə o toxunur. Halbuki irəlidə qeyd olunduğu kimi, Rəhimovdan xeyli əvvəl S.Hacıyeva bu məsələni tədqiq etmişdir.

Fəslin adında XIX əsrin əvvəlləri əhatə olunsa da müəllif hadisələrin təhlilini yalnız 1801-ci ilə kimi aparıb çıxartmışdır. Həm də bu zaman səhvə yol vermişdir. Belə ki, 1797-1801-ci illərdə Qarabağ, Dərbənd, Quba, Lənkəran (Talış) və Bakı xanlıqlarının Rusiya himayəsi altına alındığını iddia edir [173, s.19]. Nəhayət müəllif əsərində Rusiyanın Azərbaycana münasibətdə yürütdüyü müstəmləkəçilik siyasətini səciyyələndirən bir cümlə belə işlətməmişdir.

Hələ, 1991-ci ilin lap sonunda, Azərbaycan artıq müsətəqilliyini elan etdikdən sonra Sadıqovun "Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829-cu illər)" adlı kitabı çap olunmuşdur. Kitabda Cənubi Qafqazın bir hissəsi kimi Azərbaycanın da adı çəkilən dövlətlərin münasibətlərində yeri araşdırılmışdır. Xüsusən də 1787-1791-ci illər Rus-Osmanlı müharibəsi və Azərbaycan, Azərbaycan xanlarının vuruşan dövlətlərə münasibətdə tutduqları mövqe kimi məsələlərin tədqiqat obyekti olması təqdir edilməlidir. Müəllif sovet dövründəki ənənəni qıraraq Rusiyanın Cənubi Qafqaza münasibətdə yeritdiyi siyasətin işğalçı mahiyyətini açmağa çalışmışdır.

Bu yaxınlarda – 2004-cü ildə isə H.Sadıqov "Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında (1747-1829)" adlı yeni, daha samballı bir monoqrafiya nəşr etdirmişdir. Ancaq bunu qeyd etmək yerinə düşər ki, müəllif tədqiqatın əsas ağırlığını XIX əsrin birinci otuzilliyinə salmışdır. Haqqında danışılan kitab bir sıra məziyyətləri ilə diqqəti cəlb edir: əvvəla, müəllif, Rusiya, İngiltərə və Fransanın şərq diplomatiyasında Azərbaycanın yerini yeni yanaşmaya uyğun tərzdə müəyyənləşdirməyə çalışmışdır; ikincisi müəllif Avropa və qismən də Türkiyə tarixşünaslığında yayılmış təhlil metodlarından geniş istifadə etmiş, bir sıra yeni terminləri tarixşünaslığımıza gətirmişdir. H.Sadıqovun İran anlayışı, X-XX əsrin əvvəllərində İranda mövcud olan dövlətlərin milli xarakteri, XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycandakı feodal dağınıqlığının Avropa ölkələrindəki feodal dağınığlığı ilə müqayisəsi barədə açdığı polemika da maraqlıdır. Ancaq bunu da qeyd etməmək olmaz ki, bu zaman müəllif heç də həmişə ardıcıllıq nümayiş etdirmir və ya tarixi paralellərdə yanlışlığa yol verir. Məsələn, o, Səfəvi dövlətini 1736-cı ilə, ta dağılana kimi, eləcə də onun yerində yarandığı Nadir şah Əfşar imperiyasını Azərbaycan dövləti adlandırır. Bu məntiqlə Ağa Məhəmməd xan Qacarın yaratdığı dövlət də Azərbaycan dövləti sayılmalı idi, lakin müəllif artıq nədənsə onu İran dövləti adlandırır. Digər yandan da H.Sadıqov İran adının heç də fars dövləti anlamında olmadığını (bu fikirlə biz də razıyıq) bildirir və onda sual olunur niyə görə Nadir Şah Əfşar dövlətinin İran dövləti adlandırılmasını onu fars dövləti adlandırmaq kimi başa düşür? Kitabda bəzən bir-birini təkzib edən fikirlərə rast gəlmək olar. Məsələn, 15-ci səhifədə Səfəvi dövlətinin (1594-cü il məlumatına görə 1621 min kv. km ərazisi və 15 mln nəfər əhalisi var idi) Osmanlı dövlətindən sonra dünyanın ikinci böyük dövləti olduğunu yazır. Halbuki, bu zaman Çin, Habsburqlar və Baburlular imperiyaları daha böyük əraziyə və daha çox əhaliyə malik idilər. Sadıqov yazır: "1700-cü illərdə Səfəvilər dövləti geriləmə dövrünü yaşamasına baxmayaraq yenə də Türkiyə, Hindistan və Çindən sonra dünyada dördüncü dövlət olaraq qalmaqda və ərazisi 1956791 kvadrat km, əhalisi 18000000 olmaqda idi. 1750-ci ildə (bu zaman nə Səfəvi, nə də Nadir şah Əfşar imperiyası mövcud deyildi! T.M.) 1751000 kvadrat km torpağı və 16500000 əhalisi var idi [46, s.15]. Halbuki 1700-ci ildə Rusiyanın ərazisi həm Səfəvi, həm də Osmanlı imperiyalarının ərazisindən qat-qat çox idi, əhalisi də Səfəvi dövlətinin əhalisindən çox idi.

Kitabın mühüm çatışmazlıqlarından biri budur ki, müəllif son on beş ildə Azərbaycanda bu problemlə bağlı meydana çıxmış tədqiqatların heç birindən istifadə etməmişdir. Belə tədqiqatlar isə heç də az deyil. Elə bu sətirlərin müəllifinin "XVIII-XIX yüzilliyin əvvəllərində Osmanlı Azərbaycan münasibətləri" kitabını, G.Nəcəflinin "Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri", M.Əliyevin "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı" adlı kitabını, M.S.İsgəndərova nın "Bakı xanlığı", V.Umudlunun Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına həsr olunmuş kitabının adlarını qeyd etmək olar.

F.Əliyevin M.Əliyevlə birgə yazdığı "Naxçıvan xanlığı" kitabında bu xanlığın, U.Həsənovla birgə yazdığı "İrəvan xanlığı" əsərində isə İrəvan xanlığının Rusiya ilə münasibətləri işıqlandırılmışdır. Y.Ağamalının əsərində isə Qarabağ xanlığının Rusiya ilə münasibətləri haqqında müəyyən məlumatlar verilir.

S.M.Hacıyevanın 2004-cü ildə işqıq üzü görmüş kitabı Rusiyanın XVIII əsrin ikinci yarısı Şərq siyasətində Azərbaycanın yerinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Əsərdə II Yekaterina hökumətinin isfahanlı Əlimurad xanla apardığı danışıqlara xeyli yer ayrılmışdır.

1990-cı ildə A.R.İoannisyanın rus-erməni münasibətlərinə həsr olunmuş kitabı təkrar nəşr olunmuşdur. Yeni nəşr əvvəlkindən onunla fərqlənir ki, naşirlər təkrar nəşrdə sənədləri çap etməmişlər, bunu onunla izah etmişlər ki, həmin sənədlər artıq erməni-rus münasibətlərinə aid külliyyatlarda çap olunmuşlar. Buna görə də biz müəllifin öz sağlığında nəşr olunan kitabından istifadə etmişik.

Mövzuya aid arxiv sənədlərinin bir hissəsi müxtəlif vaxtlarda, müxtəlif yerlərdə nəşr olunmuşdur. Bu baxımdan dördcildlik "Erməni-rus" münasibətləri sənədlər külliyatını xüsusi qeyd etmək lazımdır. Külliyatın tərtibçiləri əsassız olaraq Qarabağ və İrəvan kimi əzəli Azərbaycan torpaqlarını erməni torpaqları hesab etdiklərindən bu ərazilərin hakimlərinin və digər nümayəndələrinin rus hakimiyyət orqanları ilə yazışmalarının mətnlərini külliyata daxil etmişlər. Külliyatın 1760-1800-cü illəri əhatə edən dördüncü cildində tədqiq etdiyimiz mövzu ilə bağlı daha çox material var.

G.C.Nəcəflinin 2002-ci ildə və bu yaxınlarda nəşr olunmuş əsərlərində XVIII əsrin II yarısında Rusiyanın Azərbaycanda yürütdüyü siyasətin bəzi məqamlarına da toxunulmuşdur.

E.T.Babayevin 2003-cü ildə çapdan çıxmış və Gəncə xanlığının tarixinə həsr olunmuş əsərində isə rus hakimiyyət orqanlarının Gəncə

xanlığına münasibəti və xanlığın Rusiya tərəfindən işğalı tədqiq olunmuşdur.

T.T.Mustafazadənin 2002-ci ildə nəşr edilmiş və XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinə həsr olunmuş kitabında yeri gəldikcə Rusiyanın Azərbaycan siyasəti, Azərbaycan xanlıqlarının Osmanlı-Rusiya qarşıdurmasında rolu və təsiri araşdırılmışdır. Müəllifin 2005-ci ildə nəşr olunmuş digər əsərində isə Quba xanlığının Rusiya ilə münasibətlərinin obyektiv şəkildə tədqiqinə xüsusi diqqət yetirilmişdir.

E.Q.Caxiyevanın 2006-cı ildə işıq üzü görmüş kitabında 1802-ci ildə bir sıra Qafqaz və Azərbaycan hakimləri ilə Rus komandanlığı arasında bağlanmış Georqiyevsk traktatı və 1813-cü il Gülüstan müqaviləsi nəzərdən keçirilir və həmin müqavilələrə tarixi-hüquqi qiymət verməyə cəhd edilir.

2005-ci ildə müəlliflər kollektivi tərəfindən hazırlanmış kitabda 1805-ci il Kürəkçay müqaviləsinin bağlanması şəraiti və şərtləri öyrənilmişdir.

Son illərdə XVIII əsr Azərbaycan tarixinin müxtəlif məsələlərinə həsr olunmuş bir sıra əsərlər də (E.Qarayev, Z.Hacıyeva, F.Ağamalı N.Gözəlova) bizi maraqlandıran mövzunun müəyyən məqamlarına toxunulmuşdur.

# I FƏSİL

## MÜSTƏQİL AZƏRBAYCAN XANLIQLARININ YARANMASINA RUSİYANIN MÜNASİBƏTİ

### §1. Müstəqil Azərbaycan xanlıqlarının yaranması. Azərbaycan və İranda siyasi vəziyyət

1747-ci il iyun ayının 19-dan 20-nə keçən gecə Yaxın və Orta Şərqin son böyük fatehi Nadir şah Əfşar saray əyanlarının sui-qəsdi nəticəsində qətlə yetirildi. Müxtəlif dillərdə danışan xalqların və müxtəlif inkişaf səviyyəsinə malik ölkə və vilayətlərin qılınc gücünə birləşdirildiyi nəhəng Əfşar imperiyası çoxlu xırda hissələrə parçalandı.

Hələ Nadir şahın şahlığının son illərində Azərbaycanı, Dağıstanı, Xorasanı, Bəlucistanı və Əfşar imperiyasına daxil olan bir sıra başqa ölkə və vilayətləri şah əleyhinə yönəlmiş güclü çıxışlar bürümüşdü. 1747-ci il martın ikinci yarısında özünü Səfəvi şahzadəsi Sam Mirzə kimi qələmə verən bir nəfər Təbrizdə üsyan təşkil edib şəhərdə hakimiyyəti ələ almışdı (o, tarixə III Sam Mirzə adı ilə daxil olmuşdur). Bundan əvvəl, hələ 1743-cü ildə isə məlum olduğu kimi Şəkidə yerli iri feodal Hacı Çələbi özünü müstəqil hakim elan etmişdi. Lakin, 1746-cı ildə mühasirə şəkililəri taqətdən saldığı üçün Hacı Çələbi formal surətdə şahdan asılılığı etiraf etmişdi.

Nadir şahın qətli ilə onun yaratdığı dövlətin dağılması prosesi sürətləndi. Orta Asiyada və Əfqanıstanda müstəqil dövlətlər yarandı. Azərbaycan və İranda isə çoxlu daha kiçik dövlətlər – xanlıqlar yarandı. Hacı Çələbi müstəqil Şəki xanlığının yarandığını elan etdi.

Azərbaycanda vahid, 20-yə qədər müstəqil və yarım müstəqil dövlət – xanlıq yarandı. Ölkənin lap şimal-şərq ucqarında Dərbənd xanlığı, onun cənub qonşuluğunda Quba xanlığı, Abşeron

yarımadasında Bakı, Kür çayının mənsəbində Salyan, Xəzər dənizinin cənub-qərb sahilində Lənkəran (Talış) xanlıqları quruldu. Şirvan bəylərbəyliyinin mərkəz hissəsində - Şamaxı ətrafında birdən-birə iki xanlıq yarandı. Sərkarlar nəslindən olan qardaşlar Məhəmmədsəid və Ağası Köhnə Şamaxıda özlərinin hakimiyyətini qurdular. Yeni Şamaxıda – Ağsuda vaxtilə Nadirin təyin etdiyi hakim – Hacı Məhəmməd xan özünü müstəqil xan elan etdi. Kür və Araz çaylarının birləşdiyi yerdə ərazicə kiçik Cavad xanlığı yarandı. Kür və Araz çayları arasındakı ovalığı və dağlıq hissəni əhatə edən geniş ərazidə Cavanşir elindən olan Pənahəli bəy Qarabağ xanlığının, Ziyadoğlu nəslindən olan Şahverdi xan Gəncə (Qarabağ) bəylərbəyliyinin mərkəz hissəsində – Gəncə şəhəri ətrafında Gəncə xanlığının əsasını qoydular. Naxçıvan şəhəri ətrafında Naxçıvan, İrəvan ətrafında isə İrəvan xanlıqları təşəkkül tapdı. Azərbaycanın cənub hissəsində Ərdəbil, Sərab, Təbriz, Urmiya, Marağa, Maku, Qaradağ, Xoy, Zəncan xanlıqları yarandı.

Xanlıqlarla yanaşı, İlisu, Qəbələ (Qutqaşen), Ərəş, Qazax, Şəmşəddil Pəmbək, Şorayel və Borçalı sultanlıqları da yaranmışdı. İlisu sultanlığının simal-qərbində Car-Balakən icmaları yerləşirdi.

Qeyd edək ki, Quba və Lənkəran (Talış) xanlıqları hələ XVII yüzilin sonlarından daxili müstəqilliyə malik qurumlar kimi meydana gəlmişdilər. O zaman Talış vilayətində bir yox, bir neçə inzibati vahid vardı: Lənkəran, Astara xanlıqları və Qızılağac sultanlığı.

Şəki xanlığı isə Nadir şah istibdadına qarşı mübarizədə təşəkkül tapmışdır. Xanlığın banisi Hacı Çələbi Qurban oğlu XVI əsrdə Şəki hakimi olmuş Dərviş Məhəmməd xanın törəmələrindən idi. Məlumdur ki, Nadir şahın təyin etdiyi Məlik Nəcəfin idarəçiliyindən, daha doğrusu özbaşınalığından təngə gəlmiş şəkililərin təkidi ilə şah əhali arasında böyük nüfuza malik Haci Çələbini vəkil, yəni inzibati idarəçiliyə nəzarətçi təyin etmişdi. Lakin öz fəaliyyətinin məhdudlaşdırılmasından narazı qalan Məlik Nəcəf şaha şikayət etmişdi. Nadir şah ilk dəfə Hacı Çələbinin haqlı olduğunu görüb onu bağışlasa da, təkrar şikayət gəldikdə Hacı Çələbinin müstəqilliyə can atmasından şübhələnərək onu

cəzalandarmaq qərarına gəlmişdi. Bunu vaxtında başa düşən Hacı Çələbi şahın yanına getməkdən imtina edərək, 1743-cü ildə üsyan edib, Məlik Nəcəfi öldürmüş və özünü müstəqil xan elan etmişdi. Başı osmanlılarla müharibəyə qarışan Nadir şah yalnız 1744-cü ilin payızında Hacı Çələbini və onun tərəfdarlarını cəzalandırmaq üçün 15 min nəfərlik ordu ilə yürüş edə bilmişdi. Hacı Çələbi və onun tərəfdarlarının sığındığı Gələsən-Görəsən qalasının yolu dar dərələrdən keçdiyi üçün Nadir ordunun əsas qüvvəsini və artilleriyanı Daşbulaq kəndi yaxınlığında qoymalı olmuş və kiçik dəstə ilə qalaya hücum etmişdi. Bu dəstə şəkililərin və onların köməyinə gəlmiş carlılar, balakənlilər və dağıstanlıların müqavimətini qıra bilməmiş, Nadir geri çəkilmişdi [10, s.383-384].

1745-ci ilin əvvəllərində də Nadir Gələsən-Görəsən qalasını almağa cəhd etmiş, ancaq uğur qazanmamışdı. Qala qarşısında üç min döyüşçü qoyan Nadir özü buranı tərk etmişdi. Yalnız 1746-cı ilin martında ərzaq çatışmazlığı ilə əlaqədar çətin vəziyyətə düşmüş Hacı Çələbi Nadir şahın hakimiyyətini tanıdığını bildirməyə məcbur olmuşdu. Nadir Hacı Çələbinin bu etirafı ilə kifayətlənib onu yenidən Şəkiyə vəkil təsdiq etmişdi [10, s.384]. İrəlidə qeyd olunduğu kimi Nadir şah öldükdən sonra Hacı Çələbi artıq özünü müstəqil Şəki xanı elan edir.

XVIII yüzilin 40-cı illərinin sonlarında Şəki xanlığı ən güclü xanlıqlardan idi. Qəbələ və Ərəş sultanları da Hacı Çələbinin hakimiyyətini tanımış, 1751-ci ildə Qazax və Borçalı sultanlıqları müvəqqəti olaraq tabe edilmişdi. 50-ci illərin əvvəllərində Hacı Çələbi gürcü çarları Teymuraz və onun oğlu II İraklinin Gəncə və digər Azərbaycan torpaqlarını ələ keçirtmək cəhdinin qarşısını almışdı [22, s.40-44]. 1755-ci ildə Hacı Çələbinin ölümündən sonra hakimiyyət uğrunda mübarizələr nəticəsində Şəki xanlığı xeyli zəifləyir. Məhəmməd Həsən xanın dövründə xanlıqda vergi toplanmasını tənzimləyən "Dəstur ül-amal" ("Qanunlar məcmuəsi") hazırlanmışdı.

İrəlidə xatırlandığı kimi, Quba xanlığı bir inzibati vahid kimi hələ XVII əsrin son rübündə meydana çıxmışdı. Bu zaman Səfəvi şahı Qaytaq usmilərinin nəslindən olan Hüseyni Quba və Gülhan

xanı təyin etmişdi. Hüseyn xan 1689-cu ildə vəfat etmişdir. Hüseyn xanı oğlu Əhməd xan əvəz etmiş, Əhməd xan XVIII əsrin birinci onilliyində vəfat etmişdir. Xanlıqda hakimiyyətə onun azyaşlı oğlu Sultan Əhməd gəlmişdi [40, s.7-8]. 1718-ci ildə Şirvanda üsyan qaldırmış Hacı Davudun təhriki ilə Sultan Əhməd xan özünün yaxın adamları tərəfindən qətlə yetirilmişdi. Tərəfdarları xanın azyaşlı oğlu Hüseynəlini xilas edərək onu Samurun yuxarı axarındakı kəndlərdən birində gizlətmişdilər [186, 3, v.48; 88, s.102; 58, s.191]. XVIII əsrin 20-ci illərində Azərbaycanın digər xəzəryanı torpaqları kimi Quba xanlığının ərazisi də Rusiya tərəfindən işğal olunmuşdu. 1726-cı ilin sonu – 1726-cı ilin əvvələrində rus hakimiyyət orqanları Rusiyadan asılı olmaq şərtilə Hüseynəli bəyi Quba xanı elan edirlər [40, s.10-11].

Xanlığın mövcudluğunun ilk dövründə onun hakimləri Səfəvi şahları tərəfindən təsdiq edilsə də, xanların hakimiyyəti irsi səciyyə daşıyırdı və onlar daxili idarəçilikdə xeyli müstəqilliyə malik idilər. Xanlığın ərazisindən şah xəzinəsinin xeyrinə heç bir vergi toplanmır və Quba xanlarının mərkəzi hakimiyyət qarşısında yeganə borcu zərurət tələb etdikdə öz hərbi dəstəsi ilə Şirvan bəylərbəyinin sərəncamına daxil olmaqdan ibarət idi. Yarandığı vaxtdan xanlığın iqamətgahı Quba şəhəri olsa da, XVIII əsrin 20-ci illərində bu şəhər Şirvan üsyançılarının başçısı Hacı Davudun hakimiyyəti altına keçdiyindən Quba xanları öz iqamətgahlarını Xudat şəhərinə köçürmüşlər. Lakin Xudatın mövqeyi müdafiə üçün əlverişsiz idi və buna görə də 1735-ci ildən sonra xanlığın mərkəzi yenə Quba şəhərinə köçürülür [40, s.219].

1747-ci ildə Nadir şah öldürüldükdən sonra qubalı Hüseynəli xan da məqamdan istifadə edib tamamilə müstəqilləşdi. Quba xanlığı şimalda Dərbənd, cənubda Bakı, cənub-qərbdə Şamaxı xanlıqları ilə həmsərhəd idi. Xanlığın ərazisi o qədər böyük olmasa da yaşayış və təsərrüfat fəaliyyəti üçün əlverişli idi. Dağların və keçilməz meşələrin, müdafiə tikililərinin çoxluğu əhalinin həyatı üçün yaxşı şərait yaradırdı. Buna görə də Quba xanlığı gündən-günə güclənərək Azərbaycanın siyasi həyatında mühüm rol oynamağa başladı.

Hüseynəli xanın ölümündən sonra 1758-ci ildə hakimiyyətə gələn oğlu Fətəli xan zəmanəsinin görkəmli dövlət xadimi, bacarıqlı sərkərdəsi və mahir diplomatı olmuşdur. O, Quba xanlığının iqtisadi və hərbi qüdrətini artırmış və dağınıq Azərbaycan torpaqlarını birləşdirmək uğrunda gərgin və çətin mübarizə aparmışdır.

Qarabağ xanlığı da Şəki xanlığı kimi Nadir şah istibdadına qarşı mübarizədə təşəkkül tapmışdır. Xanlığın banisi Pənahəli bəy Cavanşir tayfasının Sarıcalı oymağından idi. Qardaşı ilə birlikdə Nadir şahın sarayında qulluq etmiş, lakin 1738-ci ildə qardaşı kiçicik bir günah üstündə qətlə yetirildiyindən Pənahəli bəy saraydan qaçmışdı. Bir müddət Zəngəzur yaylağında gizlənmiş, sonra tərəfdarlarını ətrafına toplayaraq Gəncə, Naxçıvan, Şəki və digər inzibati mərkəzlərə basqınlar etmişdi. Onun tərəfdarlarının sayı 20 min nəfərə çatırdı [10, s.406]. 1748-ci ildə Pənahəli xan Kəbirli mahalında Bayat qalasını salaraq onu xanlığın iqamətgahı etmişdi.

Qarabağ xanlığı Kür ilə Araz çayları arasında Göyçə gölünədək uzanan geniş bir ərazini əhatə edirdi. Qarabağın dağlıq hissəsinin xırda xristian feodal hakimlərinin separatçılıq meyllərinə son qoyuldu. Pənahəli xan eyni zamanda onun güclənməsindən narahat olan Hacı Çələbi xan Şəkilinin də hücumuna duruş gətirdi. Lakin məlum oldu ki, düzənlikdə yerləşən Bayat qalası düşmənin uzunmüddətli mühasirəsinə tab gətirmək iqtidarında deyil. Əvvəlcə Tərnəkütdə Şahbulaq adlı yerdə qala inşa olundu. Lakin az sonra daha əlçatmaz yerdə, daha möhkəm qala inşa etmək qərara alındı. Beləliklə, 50-ci illərin ortalarında məşhur Pənahabad (Şuşa) qalasının əsası qoyuldu. Bu qala xanlığın siyasi-iqtisadi mərkəzinə çevrildi. Qarabağ xanlığı Pənahəli xanın varisi İbrahimxəlil xanın hakimiyyəti dövründə (1763-1806) daha da gücləndi.

Abşeron yarımadasında mərkəzi Bakı şəhəri olan Bakı xanlığı yaranmışdı. Nadir şah Əfşarın ölümündən sonra, XVIII əsrin 20-30-cu illərində Bakı hakimi olmuş Dərgahqulu xanın törəməsi Mirzə Məhəmməd vaxtilə Nadir şahın Bakıya naib təyin etdiyi Səlimi qovaraq özünü müstəqil xan elan etmişdi (1747-1786). Bakı xanlığının ərazisi çox kiçik, hərbi qüvvəsi zəif idi. Lakin Bakının Xəzərin ən böyük və əlverişli limanı olması, xanlıqda

neft və duz hasilatının olması, dünyada nadir bitki növü zəfəranın yetişdirilməsi sayəsində xanlıq önəmli ticarət-iqtisadi və strateji əhəmiyyətə malik idi.

Keçmiş Qarabağ (Gəncə) bəylərbəyliyinin hakimlərinin nəslindən olan Şahverdi xan Ziyadoğlu bəylərbəyliyin kiçik bir hissəsində – Gəncəbasarda öz hakimiyyətini qoruyub saxlaya bilmişdi. Xanlığın mərkəzi Gəncə şəhəri hərbi-siyasi, iqtisadi-təsərrüfat baxımından öz əhəmiyyətini saxlayırdı. Bu cür mühüm əhəmiyyətə malik və zəngin Gəncə xanlığı hərbi qüvvə cəhətdən zəif olduğundan yarandığı gündən qonşu xanların və ələlxüsus gürcü çarlarının hücum obyektinə çevrilmişdi.

Azərbaycanın lap şimal-şərq ucqarında Dərbənd şəhəri və onun ətrafını əhatə edən kiçik Dərbənd xanlığı yaranmışdı. Xanlığın banisi Məhəmmədhüseyn xan uğursuz və sərt daxili siyasəti ilə həm xalq kütlələrini, həm də feodalları özündən narazı salmışdı. Bundan istifadə edən Fətəli xan Qubalı 1759-cu ildə Dərbəndi tutub Quba xanlığına birləşdirdi.

İrəlidə qeyd etdiyimiz kimi keçmiş Şirvan bəylərbəyinin mərkəzi hissəsində birdən-biri iki xanlıq yaranmışdı: Mərkəzi Yeni Şamaxı (Ağsu) və mərkəzi Köhnə Şamaxı olan xanlıqlar. Yeni Şamaxıda hakimiyyəti Nadir şahın vergi yığanı olan Hacı Məhəmmədəli xan ələ keçirmişdi. Mənbələrin verdiyi məlumata görə Nadir şahın ölümü ərəfəsində Şamaxıda Məhəmməd xan hakim idi və üsyan nəticəsində qovulmuşdu. İbrahim şah Hacı Məhəmmədəli xanı onun yerinə təyin etmişdi [162. 3, v.5 a.ü; 204, s.623, 59, s.100]. Köhnə Şamaxıda isə Xançobanı tayfasının Sərkarlar sülaləsindən iri feodal olan Əsgər bəyin oğlu Məhəmməd Səid özünü xan elan etmişdi. Məhəmməd Səidin hələ Nadirin sağlığında öz tərəfdarları ilə Köhnə Şamaxının xarabalıqlarında məskunlaşması haqqında məlumat var. O Kərim xan Zəndin fərmanı ilə xan elan olunubmuş [108, s.101]. Lakin bu elan sırf formal xarakter daşıyır və yalnız mövcud vəziyyəti təsbit edirdi. Əhalinin İranameyllі Hacı Məhəmmədəli xandan narazılığından istifadə edən Məhəmməd Səid xan qardaşı Ağası xanın yaxından köməyi ilə 1763-cü ildə Yeni Şamaxını ələ keçirib, Hacı Məhəmməd xanı əsir etdi. Lakin bir müddət sonra birləşmiş

Şamaxı xanlığı özü Quba xanlığının və onun müttəfiqi Şəki xanlığının təcavüzünə məruz qaldı, 1768-ci ildə bu iki xanlıq arasında bölüşdürüldü. Çox keçməmiş Fətəli xan Qubalı Şamaxı xanlığının Hüseyn xan Şəkiliyə güzəştə getdiyi hissəsini də zəbt edib öz xanlığına birləşdirdi. Məhəmməd Səid və Ağası xanlar Quba hakimiyyəti ilə barışmayaraq uzun müddət mübarizəni davam etdirdilər. Fətəli xan 1789-cu ildə vəfat etdikdən sonra Şamaxı ərazisində müstəqil xanlıq bərpa olundu.

Kür və Araz çaylarının qovuşduğu ərazidə (indiki Sabirabad və Saatlı rayonları ərazisində) yaranmış Cavad xanlığının əsasını Tale Həsən xan qoymuşdu. Qorxunc qonşularla mübarizədə qüdrətli himayədara ehtiyac hiss edən Həsən xan 1768-ci ildə könüllü surətdə Fətəli xan Qubalıdan vassal asılılığını qəbul etmişdi. 1778-ci ildə Fətəli xana düşmən Dağıstan feodallarının dəstəyi ilə Hidayət xan Gilanlı Cavada basqın edərək qalanı dağıtmış, Həsən xanı əsir götürmüşdü.

Kür çayının mənsəbində daha kiçik bir xanlıq (tarixi ədəbiyyatda çox vaxt onu sultanlıq adlandırırlar) – Salyan xanlığı yaranmışdı. XVII əsrin sonlarından XVIII əsrin 20-ci illərinə qədər müddətdə Salyan Quba xanlığının tərkibinə daxil olduğundan, Quba hakimləri dərhal bu yeri yenidən ələ keçirməyə çalışdılar. Hələ 1756-cı ildə Hüseynəli xan oğlu Fətəli bəyi kiçik bir qoşunla Salyana göndərdi. Fətəli bəy Salyan hakimi İbrahim Rudbarlını məğlub edib Salyanı Qubaya birləşdirdi [58, 52, s.185; 40, s.14-15].

Azərbaycanın lap qərb ucqarında Naxçıvan və İrəvan xanlıqları təşəkkül tapmışdı. Naxçıvan xanlığının əsasını Kəngərli tayfa başçısı Heydərqulu xan qoymuşdur. Heydərqulu xan daha güclü Qarabağ xanının himayəsinə arxalanırdı. 60-80-ci illərdə hakimiyyət uğrunda mübarizə Naxçıvan xanlığını zəiflətmiş, Xoy, Qarabağ, İrəvan xanlıqları, Kartli-Kaxeti çarlığı və İran arasında didişmə obyektinə çevrilmişdi.

İrəvan xanlığının əsasını keçmiş (Çuxursəd) İrəvan bəylərbəyliyinin ərazisində xalq üsyanına başçılıq etmiş Mir Mehdi xan Qacar qoymuşdur. Göyçə gölü ətrafında yerləşmiş bu xanlıq 15 mahaldan ibarət idi. 1751-ci ildə Urmiya hakimi Fətəli xanın

sərkərdəsi Azad xan İrəvan xanlığını zəbt etmiş, yalnız 1755-ci ildə Mir Mehdi xanın qardaşı Həsənəli xan İrəvanda öz hakimiyyətini bərqərar etməyə nail olmuşdu. Daha sonra hakimiyyətə keçən digər qardaş Hüseynəli xan İrəvan xanlığını xeyli gücləndirməyə, xanlığın müstəqilliyini möhkəmləndirməyə nail olmuşdu.

Azərbaycanın cənubunda ilk vaxtlar ən güclü xanlıq Urmiya gölünün qərb və cənub sahilində yerləşən eyni adlı xanlıq olmuşdur. Urmiya çox gözəl və münbit torpağa malik bir vilayət idi. Xanlığın mərkəzi Urmiya gölünun qərbində dəniz səviyyəsindən 1342m hündürlükdə yerləşən Urmiya şəhəri idi. XIX əsrin əvvəllərində burada olmuş məşhur Azərbaycan səyyahı Hacı Zeynalabdin Şirvani şəhəri təsvir edərək yazırdı: "Urmiya ruha qida verən, ürək açan sağlam havaya və bol suya malik olan bir şəhərdir. Onun həyətlərindən su axır... Çox gözəl sahə və xeyir verən kəndlərlə əhatə edilmişdir. Şəhərin rəngarəng meyvələrlə dolu səfalı bağları vardır" [Bax: 14, s.42-43]. Xanlığın əsasını Nadir şahın sərkərdələrindən biri olmuş Fətəli xan Əfşar qoymuşdur. Fətəli xan Əfşarın (1747-1763) öz ərazilərini artırmaq fəaliyyəti genişlənərək obyektiv surətdə Azərbaycan torpaqlarını birləşdirmə təşəbbüsünə çevrilmişdi. O, Nadir şahın sabiq sərkərdəsi Azad xanı 15 minlik əfqan qoşunu ilə birlikdə öz tərəfinə cəlb edə bilmişdi. Daha sonra Fətəli xan bir neçə cənub xanlığını özündən asılı hala salmağa nail olmuşdu. Tezliklə o, hətta Qarabağa hücum edərək Şuşa qalasını mühasirəyə aldı. Pənahəli xan böyük oğlu İbrahim ağanı girov verməklə mühasirənin aradan qaldırılmasına nail oldu. Bundan sonra Fətəli xan Əfşar şah taxtına iddiaçılar Kərim xan Zənd və Məhəmmədhəsən xan Qacarla toqquşdu. Əvvəlcə xeyli uğur qazansa da 1761-ci ilin sonunda məğlubiyyətə uğradı [13, s.118-124]. Bundan sonra Urmiya xanlığı bir müddət zəiflədi.

Urmiya xanlığından və Urmiya gölündən şimalda Xoy xanlığı yerləşirdi. Bu xanlığın banisi Şahbaz xanın atası Nadir şahın dövründə Xoy vilayətinin hakimi olmuş və şahın əmri ilə qətlə yetirilmişdi. Bununla belə Nadir şah Şahbaz bəyi atasının yerinə Xoy vilayətinin hakimi təyin etmişdi. Şahbaz xan Nadir şahın ölümündən sonra özünü müstəqil xan elan etmişdi (1747-1763).

Urmiya xanlığının şərqində əsası Əliqulu xan Müqəddəm tərəfindən qoyulmuş Marağa xanlığı mövcud idi. Marağa və Urmiya xanlığından şimalda Osmanlı imperiyası ilə sərhəddə kiçik Makı xanlığı yerləşirdi. Xanlığın əsasını Nadir şahın sərkərdələrindən biri – Bayat tayfa başçısı Əhməd Sultan (1747-1778) qoymuşdu. O qədər də böyük ərazisi və əhəmiyyətli iqtisadiyyatı olmayan Makı xanlığı çox önəmli coğrafi və strateji əhəmiyyətə malik idi. Xanlığın paytaxtı iki tərəfdən dağlarla əhatə olunmuş, alınmaz Makı qalası Türkiyə ilə Azərbaycanın və İranın bir çox vilayətlərini birləşdirən yolu nəzarət altında saxlamağa imkan verirdi.

Cənubi Azərbaycanın mərkəzi hissəsində əsası Dünbuli tayfasından olan Nəcəfqulu xan (1745-1780) tərəfindən qoyulmuş Təbriz xanlığı yerləşirdi. Nəcəfqulu xan, Təbrizdə Urmiyalı Fətəli xan Əfşarın yardımı ilə möhkəmləndiyindən bir müddət ondan asılı vəziyyətdə olmuşdu. Yalnız 1763-cü ildə Fətəli xan Əfşar Kərim xan tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra Nəcəfqulu xan müstəqilləşdi [10, s.415].

Təbriz xanlığı ilə qonşuluqda bünövrəsi Şahsevən tayfa başçısı Nəzərəli xan (1747-1783) tərəfindən qoyulmuş Ərdəbil xanlığı yerləşirdi. Nəzərəli xan qarabağlı İbrahimxəlil xanla və lənkəranlı Qara xanla dostluq münasibətləri yaratmışdı.

Təbriz və Ərdəbil xanlıqlarının arasında Sərab, bu xanlıqlardan cənubda isə Zəncan xanlıqları yerləşirdi. Sərab xanlığının banisi Şəqqaqi tayfa başçıı Əli xan (1747-1786) idi. O, Kərim xan Zənddən nominal asılılığını elan etsə də əslində xanlığı müstəqil idarə edirdi. Zəncan xanlığının banisinin adı da Əli idi.

Azərbaycan xanlıqları şah taxtına iddiaçılarla mübarizə şəraitində yaranıb inkişaf edirdilər. İddiaçıların hər biri öz hakimiyyətlərini möhkəmlətmək üçün əvvəllər Səfəvi dövlətinin tərkibinə daxil olmuş bütün əraziləri, o cümlədən böyük hərbi-strateji mövqeyə malik zəngin Azərbaycan torpaqlarını tutmağa can atırdılar.

Hələ Nadir şahın ölümünə bir az qalmış Təbrizdə hakimiyyəti ələ almış III Sam Mirzə Məşhəddə özünü şah elan etmiş Adil şahın (Əliqulu xan) qoşunlarının hücumuna məruz qaldı.

Qeyd edək ki, Nadir şahın ölümündən sonrakı ilk dövrdə taxt-tac üzərində əsas mübarizə Xorasanda getmişdir. Bu, tədqiqatçı S.Əliyevin qeyd etdiyi kimi, ilk növbədə onunla izah olunurdu ki, Nadir şahın xəzinəsi Məşhəddən bir qədər aralıdakı Kelat qalasında yerləşirdi və hər bir iddiaçı dövlət xəzinəsini ələ keçirəndə böyük siyasi nüfuz qazanırdı; ikincisi Nadir şahın nisbətən böyük döyüş qabiliyyətli qoşunları Məşhəddə idi; üçüncüsü, Nadir şahın birbaşa varisləri də daxil olmaqla bütün yaxın qohumları Məşhəddə yaşayırdı [68, s.28].

Hələ Nadir şahın sağlığında ona qarşı qiyam qaldırmış və güman ki, sui-qəsdçilərlə əlaqəsi olan qardaşı oğlu Əliqulu xan şahın öldürülməsi xəbərini alan kimi dərhal başçılığı altında olan ordu birləşmələri ilə Məşhədə yollandı. Məlumdur ki, Nadir şahın ordusu şiəməzhəb Azərbaycan qızılbaş tayfa çəriklərindən və sünnüməzhəb əfqan, kürd və özbək tayfa çəriklərindən təşkil olunmuşdu. Nadir şah şiələrlə sünnülər arasındakı ziddiyyətləri yumşaltmağa çalışırdı. Ancaq hakimiyyətinin zəiflədiyi 40-cı illərin sonlarında o, şiələrlə sünnülər arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışırdı və başlıca olaraq əfqan və özbəklərdən təşkil olunmuş dəstələrə arxalanırdı.

Nadir şah qətlə yetirildikdən sonra Məşhəddəki şiə və sünnü qruplaşmaları arasında mübarizə kəskinləşdi. Nadirin xidmətində olan əfqan və özbəklərin əhəmiyyətli hissəsi Xorasanı tərk edib vətənləri Əfqanıstana döndülər. Yolda onlar Nadir şahın keçmiş mühafizi abdali tayfasından Əhməd xanı öz şahları seçdilər. Əhməd şah Dürrani soyadını qəbul etdi [68, s.29].

Əfqan və özbək döyüşçülərinin əhəmiyyətli hissəsinin Xorasanı tərk etməsi əfşarların və bəzi başqa qızılbaş tayfalarının dəstəklədiyi Əliqulu xana 1747-ci il iyul ayının 6-da Məşhədə daxil olmağa imkan verdi: Əliqulu xanın göstərişi ilə Nəsrullah, Rzaqulu, İmamqulu və Nadir şahın başqa oğlanları öldürüldü, hətta Nadir şahın hamilə qadınları belə qətlə yetirildi, yalnız Nadirin nəvəsi Şahruxa toxunmadılar. Şahruxun anası Səfəvi şahzadəsi olduğundan Əliqulu xan gələcəkdə çətinliyə düşərsə onu taxta çıxarıb ölkəni onun adından idarə etmək niyyətində idi [207, s.263].

Əliqulu xan öz mövqelərini möhkəmləndirmək üçün ali şiə ruhaniləri və onun hakimiyyətini tanıyan qızılbaş tayfa başçıları ilə yaxşı münasibətlər yaratmağa çalışırdı. O, şiələri sıxışdırdığına görə Nadir şahı açıqcasına pislədi; Kelat qalasında ələ keçirdiyi qiymətli daş-qaşın bir hissəsini ruhanilərə payladı. Nadir şahın müsadirə etdiyi torpaqlar və əmlakın xeyli hissəsini əvvəlki sahiblərinə qaytardı. Məşhəddəki İmam Rza məqbərəsi və vəqfinin idarəçisi bütün İranın mülki idarəçiliyinin başçısı – sədr təyin olundu. Əliqulu xan eyni zamanda geniş kütlələrin rəğbətini qazanmaq məqsədilə əhalinin üç il müddətinə vergilərdən azad olunduğunu elan etdi. Bütün bu hərəkətlərinə görə şiə ruhaniləri Əliqulu xanı Adil (yəni ədalətli) şah adlandırmağa başladılar [68, s.29-30].

Lakin Adil şahın mövqeyi möhkəm deyildi. O, çox şərab içir və dövləti idarə etmək üçün lazımi qabiliyyətə malik deyildi. İmperiyaya daxil olan ölkələrin və vilayətlərin hakimlərinin çoxu onun hakimiyyətini tanımaqdan imtina edirdilər.

S.Qmelinin yazdığına görə, Adil şahın istəkli arvadlarından biri gürcü çarı Teymurazın qızı idi. Qaynatasının təlqini ilə Adil şah 1748-ci ildə Rusiya himayəsini xahiş etmək üçün Astrabada getmiş, qardaşı İbrahim xanı İsfahana, orada sakitlik yaratmaq üçün göndərmişdi. Ancaq İbrahim xan İsfahana çatan kimi Əmiraslan xanla danışıqlara başlamışdı. Bəzi məlumatlara görə Əmiraslan xan Nadir şahın ögey qardaşı idi. Artiq 60 yaşı olan Əmiraslan xanın da güman ki, ürəyində taxt-taca iddia var idi. Adil şah İbrahim xanla Əmiraslan arasında sövdələşmədən xəbər tutub yardım üçün Rusiyaya fövqəladə səlahiyyətli elçi göndərdi, özü isə Mazandarana gəldi [108, s.178-180]. III Sam Mirzə üsyanını yatırdıb Təbrizə daxil olmuş Əmiraslan xan Adil şahı tanımadığını bildirdi və Azərbaycanda müstəqil hökmdar olmaq fikrinə düşdü. Əmiraslan xan Ərdəbil və Qaradağ xanlıqlarını özündən asılı hala saldı. Lakin Azərbaycanın şimal xanları Əmiraslan xanın hakimiyyətini tanımaqdan qəti imtina etdilər. Şamaxı və Şəki xanlıqlarını silah gücünə tabe etmək cəhdi uğursuz oldu. Bu zaman Adil şah Təbrizə elçi göndərib Əmiraslan xan-

dan ona tabe olmasını tələb etdi. Xan isə bu təklifi rədd edib elçini öldürdü [39, s.41-42].

Adil şahın qardaşı İbrahim Mirzənin qiyam etməsi şahı lap çətin vəziyyətə saldı. İbrahim Mirzə İraqi-Əcəmin və Azərbaycanın cənub hissəsinin iri feodal hakimləri ilə ittifaq yaradıb 1748-ci ilin sonunda Adil şaha qarşı açıq çıxış etdi. Cənubi Azərbaycan ərazisində Süleymaniyyə və Zəncan şəhərləri arasında Samanarxı adlanan yerdə 1748-ci ilin sonunda Adil şahla İbrahim Mirzənin və Əmiraslan xanın qüvvələri arasında həlledici döyüş oldu. Əmiraslan xanın da yardımından istifadə edən İbrahim Mirzə qalib gəldi. Adil şah Tehrana qaçdı, lakin burada qardaşının tərəfdarları tərəfindən tutuldu. Tezliklə Adil şah kor edildi [68, s.30-31].

S.Qmelin isə döyüşün Soyuqbulaq yaxınlığında baş verdiyini qeyd edərək yazır ki, Adil şahın ordusu sayca üstün olduğundan Əmiraslan xan hərbi hiylə işlətmişdi. O, öz ordusunda olan beş min əfqan döyüşçüsünə tapşırır ki, Adil şahın ordugahına gedib guya ona qoşulduğunu bildirsin, həllediji anda isə ona zərbə endirsinlər. Döyüşün qızğın çağında Adil şahın qələbə çalmaqda olduğu bir zamanda həmin əfqanlar qəfil şahın arxa cəbhəsinə və hərəmxanasına həmlə etdilər. Adil şahın ordusunda bu qəfil zərbədən qarışıqlıq yarandı. Adil şah məğlubiyyətə uğradı və əsir düşdü. İbrahim xan qardaşı Adil şahın gözlərini çıxartdı, sonra isə qətlə yetirdi [108, s.180-181].

İbrahim Mirzə ilk növbədə ən təhlükəli düşmən saydığı Əmiraslan xanı zərərsizləşdirməyi qərara aldı. Baş verən döyüşdə Əmiraslan xan məğlub oldu və yardım almaq ümidiylə Qaradağa qaçdı. Lakin İbrahim xanın intiqamından ehtiyat edən qaradağlı Kazım xan onu tutub İbrahim xanın yanına göndərdi [13, s.108].

Qeyd olunduğu kimi Adil şah Nadir şahın nəvəsi Şahruxu öz sarayında əsir kimi saxlayırdı. Adil şah qətlə yetirildikdən sonra Şahrux Məşhədə getdi və Qmelinin yazdığına görə yolda kürd quldurları onun gözünü çıxartdılar. Şahruxun hakimiyyəti Məşhədə və onun ətrafına yayılırdı [108, s.182-183].

İbrahim Mirzə qızılbaş tayfalarının əyanlarını və ali şiə ruhanilərini öz tərəfinə çəkməyə çalışaraq əvvəlcə irəlidə adını

çəkdiyimiz şahzadə Şahruxun hakimiyyətinin bəqərar edilməsi şüarı ilə çıxış edirdi. Adil şah üzərində qələbədən sonra İbrahim xan Şahruxu təkidlə İraqi-Əcəmə dəvət etdi. Müasiləri belə hesab edirlər ki, bu yolla İbrahim xan dövlət xəzinəsini ələ keçirmək və Şahruxu taxt-tac uğrunda mübarizədən kənarlaşdırmaq istəyirdi. Xorasanın feodal əyanları İbrahim xanın dəvətində bir fitnə görüb Şahruxun getməsinə mane oldular və 1748-ci il oktyabrın 1-də Məşhəddə onu şah elan etdilər [68, s.31; 108, s.182-183]. Bundan xəbər tutan İbrahim xan bir həftə sonra özünü şah elan etdi və öz adından sikkə kəsdirməyə başladı. İbrahim şah Şahruxa qarşı yürüşə çıxdı. Lakin əfqan və özbək xanlarının daha üstün mövqelərə çəkilməsindən narazı olan azərbaycanlı qızılbaş tayfaları yürüş zamanı İbrahim şaha qarşı çıxdılar və onu tərk etdilər. Bir qədər sonra əfqan və özbək döyüşçüləri də İbrahim şahı tərk etdilər. Ordusuz qalan İbrahim şah qaçmaqla canını qurtarmaq istədi, lakin dekabr ayının sonlarında Şahruxun tərəfdarları tərəfindən ələ keçirildi. Məşhədə gedən yolda İbrahim şah öldürüldü [68, s.31].

1749-cu ilin sonunda Qum şəhərinin yaxınlığında yaşayan türk xələc tayfalarının nümayəndələri vaxtilə Adil şah tərəfindən sədr təyin olunmuş Mir Seyid Məhəmmədə Səfəvilərin nəslindən olduğu üçün şah taxtına çıxmağı təklif etdilər. Mir Seyid Məhəmməd əvvəlcə bu təklifdən imtina etdiyini bildirdi və Şahruxun dəvəti ilə sərəncamında olan dövlət sərvətləri ilə Xorasana hərəkət etdi. Mir Seyidi əhatə edən tayfa başçılarının niyyətlərindən xəbərdar olan Şahrux rəqibi aradan qaldırmaq qərarına gəldi, lakin uğursuzluğa düçar oldu. 1749-cu ilin dekabrında saray çevrilişi nəticəsində Şahrux taxtdan salındı və kor edildi. 1750-ci il yanvarın 14-də Mir Seyid Məhəmməd II Süleyman adı ilə şah elan olundu [142, s.224; 68, s.32].

Tezliklə Məşhəd hakimi Yusifəli xan Cəlairi II Süleymanı taxtdan saldı və kor Şahruxu yenidən taxta çıxarıb özü faktiki hökmdar olmaq istədi. Lakin saray dairələrindəki ixtilaflar ucbatından Yusifəli xan Xorasanı tərk edib öz tayfasının yaşayış yerinə döndü [142, s.224; 68, s.33].

Şahruxun Xorasanda yeni hökmranlığı fasilələrlə 1795-ci ilə kimi davam etmişdir. Onun hakimiyyəti bəzən Xorasanın əhə-

miyyətli hissəsinə yayılır, bəzən isə ancaq Məşhəd şəhəri və ətrafı ilə məhdudlaşırdı. 1754 və 1770-ci illərdə Şahrux şah iki dəfə Əfqanıstan hökmdarı Əhməd şahdan asılı olduğunu qəbul etdi [68, s.33].

XVIII əsrin 50-ci illərinin əvvəlinə şah hakimiyyəti uğrunda mübarizənin mərkəzi Xorasandan Mərkəzi İrana keçir. Bu, feodalara müharibələri və əfqanların yürüşləri nəticəsində Xorasanın var-yoxdan çıxması ilə əlaqədar idi.

Siyasi meydana zəndlərin iki nümayəndəsi – Kərim xan və Əlimərdan xan çıxır. S.Qmelinin yazdığına görə Kərim xan sadə mənşəli idi, Əlimərdan xan isə əsilzadə ailədən idi və Nadir şahın ordusunda sərkərdə olmuşdu [108, s.183-184].

Zəndlər farsdilli tayfa olub Mərkəzi İranda Malayir dairəsində yaşayırdı. 1750-ci ildə Kərim xan digər farsdilli tayfanın – bəxtiyari tayfasının başçısı Əlimərdan xanla birlikdə İsfahana hücum etdi. Bu zaman İsfahanı və bütövlükdə İraqi-Əcəmi Mirzə Əbu Turab adlı bir nəfəri III şah İsmayıl adı ilə (o Xəlifə Soltan kimi də tanınırdı) şah, özünü isə vəkil elan etmiş Əbülfət xan idarə edirdi. Müttəfiqlər İsfahanı aldılar və III İsmayıl yenidən formal olaraq şah elan olundu [142, s.226; 68, 62, s.42-44].

Əlimərdan xan III İsmayılı da özü ilə götürüb ordusu ilə Fars vilayətinə yönəldi. O, Şirazı alıb demək olar ki, bütün Farsı və Cənub-Qərbi İranın əhəmiyyətli hissəsini özünə tabe etdi. Bu zaman isə Kərim xan öz hakimiyyətini Həmədana və Kürdüstana yaydı. Ordusunu xeyli gücləndirən Kərim xan öz müttəfiqini siyasi səhnədən uzaqlaşdırmaq qərarına gəldi. O, tezliklə yenidən İsfahanı ələ keçirdi və Əlimərdan xanın təyin etdiyi məmurları vəzifədən kənarlaşdırdı. 1754-1755-ci illər arasında İsfahandan bir qədər aralıda baş vermiş döyüşdə Kərim xan Əlimərdan xanı əzdi. Əlimərdan xan həlak oldu. Əlimərdan xanın düşərgəsində olan bir sıra xanlar və III İsmayıl döyüş ərəfəsində Kərim xanın yanına qaçmışdılar [68, s.44-45; 108, s.188-189].

Mərkəzi İranda öz hakimiyyətini xeyli möhkəmləndirən Kərim xan Zənd böyük ordu ilə 1753-cü ildə Azərbaycanın cənubuna hücum etdi. Urmiyalı Fətəli xan Əfşarın və müttəfiqlərinin qoşunları 1753-cü il avqustun sonunda Qəzvindən cənubda

Kərim xanı məğlubiyyətə uğratdılar. Müttəfiq qoşunlarının sərkərdəsi Azad xan öz hakimiyyətini Mərkəzi İrana yaymaq qərarına gəldi. İsfahana qaçmış Kərim xan qorxusundan burada da qala bilmədi və Şiraza yönəldi, lakin əfşarların və əfqanların qəzəbindən qorxan Şiraz əhalisi qala qapılarını Kərim xanın üzünə bağladı. Qəmşə adlı yerdə baş vermiş döyüşdə Kərim xanın ordusunun qalıqları da məhv edildi. Kərim xan vahimə içində idi və Hindistana qaçmaq fikrinə düşmüşdü [13, s.113; 68, s.44-45]. Lakin İranın cənubundakı tayfaların başçıları yardım vəd edərək onu bu fikirdən döndərdilər. 1754-cü ilin iyul ayında Kamaric bölgəsində Kərim xan və onun müttəfiqləri əfşarların və əfqanların birləşmiş qüvvələrini darmadağın etdilər. Azad xan Şiraza, oradan İsfahana, daha sonra şimala qaçdı [68, s.47-48].

50-ci illərin əvvəllərində şah taxtına gerçək namizədlərdən biri də Məhəmmədhəsən xan Qacar idi. Gilandakı rus konsulu Çekalavski 1756-cı ilin may ayında Həştərxan qubernatoruna yazırdı ki, Məhəmmmədhəsən xan Qacar Kərim xan Zənd üzərində qələbə çalmış və sonra müqavimətə rast gəlmədən İsfahan şəhərinə daxil olmuşdur [111. 1, v.61].

Qacarlar hələ Səfəvilər dövründə böyük siyasi nüfuza malik idilər və səfəvilərin hakimiyyətə gəlməsində böyük rol oynamışdılar. I Şah Abbasın dövründə qacarların bir hissəsi dövlətin sərhədlərini dağıstanlılardan qorumaq üçün Gəncə ətrafında, digər hissəsi imperiyanın şimal-şərqində Xorasanda özbəklərin hücumlarını dəf etmək üçün, üçüncü, daha güclü hissəsi isə Astrabadda yerləşdirilmişdi [142, s.228].

Nadir şahın qətlindən sonra yuxarıbaş qacarların rəisi Məhəmmədhəsən xan Astrabada gəldi və Astrabad hakimini – aşağıbaş qacarların nümayəndəsi olan Zaman bəyi öldürüb həm də Mazandaran hakimi oldu. Bundan sonra o, şah taxtı uğrunda mübarizəyə qoşuldu. İsfahana yürüş etdi. Bu zaman İsfahanda hakimiyyətdə olan Kərim xan Zənd müqavimət göstərə bilməyəcəyini anlayıb Şiraza çəkildi. Məhəmmədhəsən xan İsfahanı aldı və qışı burada keçirib, 1756-cı ilin yazında Şiraza hərəkət etdi. Şiraz o zaman çox möhkəmləndirilmiş qala idi. Məhəmmədhəsən xan bir müddət qalanı mühasirədə saxlasa da uğur qazanmayıb

İsfahana çəkildi. Lakin İsfahan Kərim xanın tərəfinə keçdiyindən burada qala bilməyib Mazandarana getdi [142, s.229-231].

Tarixçilərin yazdığına görə cəlairi türklərindən olan qacarlar hələ XIII əsrdə Hülaki xan tərəfindən İrana və Azərbaycana köçürülmüşdülər. Çox keçməmiş qacarlar qərbə köç etmiş, bir hissəsi Anadoluda və Suriyada məskunlaşmışdı. XIV əsrin sonlarında isə əmir Teymur 50 min qacar ailəsini Cənubi Qafqaza köçürtmüş, qacarların xeyli hissəsi İrəvan, Qarabağ və Gəncə ətrafında məsukunlaşmışdı [88, s. 172].

XV əsrdən qacarların hərbi qüdrəti və siyasi nüfuzu artır və onlar regionun siyasi həyatında fəal iştirak etməyə başlayırlar. Qarabağ (Gəncə) və Çuxursəəd (İrəvan) bəylərbəyliklərinin idarəçiliyi adətən Qacar tayfasının başçılarına həvalə edilirdi. Qacarların döyüş keyfiyyətlərini nəzərə alan I Şah Abbas Xəzər dənizinin cənub sahillərinə tez-tez basqınlar edən köçəri türkmənlərin qarşısını almaq üçün Gəncə ətrafında yaşayan 30 min qacar ailəsini Xəzərin cənub sahillərinə köçürür. Onlar Mazandaranda, Astrabadda, Qorqan çayı sahilində yerləşdirildilər.

Tayfanın bir hissəsi dağlıq ərazidə, digəri isə Araz çayı boyunca düzənlik ərazidə yaşayır, ona görə bir hissəsinə Yuxarıbaş, digər hissəsinə Aşağıbaş qacarlar deyilirdi. Bu qollar da öz növbəsində daha kiçik qollara və qəbilələrə bölünürdü [124, s.271].

Astrabadda yerləşən qacarlara adətən Yuxarıbaş qolunun nümayəndələri başçılıq edirdi. Ancaq XVIII əsrin 20-ci illərindən vəziyyət dəyişdi. Aşağı qolun böyük bacarığa malik nümayəndəsi Fətəli xan nəinki tayfada rəhbərliyi ələ keçirdi, həm də dağılmaqda olan Səfəvi dövlətinin hökmdarı II Təhmasibin qoşunlarının sərkərdəsi vəzifəsinə yüksəldi. Şahın Məşhədə yürüşündə ona qoşulan Nadirqulu da tezliklə sarayda böyük nüfuz qazandı. O Fətəli xana başlıca rəqibi kimi baxırdı və 1726-cı ildə Nadir Əfşarın fitvası ilə Fətəli xan qətlə yetirildi [124, s.272]. Onun yeganə oğlu Məhəmmədhəsən xan Xəzərin cənub-şərq sahillərində köç edən türkmənlərə pənah apardı. Soydaşlarının bir hissəsi də Məhəmmədhəsən xanın ardınca getdi [124, s.272].

1744-1745-ci illərdə Məhəmmədhəsən xan Astrabad və Mazandaranda qacarları və qonşu türkmənləri Nadir şaha qarşı

üsyana qaldırmışdı və müvəqqəti olaraq Astrabadda hakimiyyəti ələ keçirtməyə nail olmuşdu. Lakin tezliklə Nadir böyük hərbi qüvvə göndərdi, Məhəmmədhəsən xan məğlub olub türkmən çöllərinə qaçdı.

Məhəmmədhəsən xan məğlub olsa da Nadir şaha qarşı mübarizəsini davam etdirdi. O, övladlarının şahın adamları tərəfindən qətlə yetiriləcəyindən qorxurdu. Məhz buna görədir ki, 1741-ci ildə anadan olmuş birinci oğlu Məhəmmədi hansısa bir seyidin oğlu kimi qələmə vermişdi. Yəqin ki, elə bu səbəbdən də onu Ağa Məhəmməd deyə çağırmışdılar.

Nadir şah 1747-ci ildə saray sui-qəsdi nəticəsində qətlə yetirildikdən sonra hakimiyyəti ələ keçirib özünü Adil şah adı ilə şah elan etmiş qardaşı oğlu Əliqulu xan ilk zamanlarda əmisi ilə düşmənçilik zəminində Məhəmmədhəsən xanla yaxınlaşdı və hətta onu öz eşikağası təyin etdi. Lakin tezliklə onların arasında ixtilaf yarandı. Məhəmmədhəsən xan Astrabada getdi. Əliqulu xan onun üzərinə hərbi dəstə göndərdi. Qüvvəsinin xeyli az olduğunu görən Məhəmmədhəsən xan yenidən türkmən çöllərinə qaçdı.

Əliqulu xan (Adil şah) türkmənləri məcbur etdi ki, Məhəmmədhəsən xanın iki oğlunu ona versinlər. O zaman 6 yaşı olan böyük qardaşı – Ağa Məhəmmədi axtalatdırdı [124, s.273]. Bu hadisə Ağa Məhəmməd xanın xarektirinə çox mənfi təsir göstərdi. Tarixçilərin qənaətinə görə məhz bunun nəticəsi idi ki, hakimiyyəti ələ keçirən zaman o düşmənlərinə qarşı çox amansız olmuş, məqsədlərinə çatmaq üçün hər cür vasitələrindən istifadə etmişdir. Ağa Məhəmməd çox dərrakəli uşaq idi və vaxtının çoxunu qiraətlə keçirirdi. Əliqulu xan öldürüldükdən sonra Ağa Məhəmməd azad olundu və atasının yanına getdi.

Əliqulu xan qətlə yetirildikdən sonra şah taxtını ələ keçirtmiş II Süleyman Məhəmmədhəsən xanı Astrabad vilayətinin hərbi rəisi təyin etdi. Məhəmmədhəsən xan mövqeyindən istifadə edərək hakimiyyətini 1750-ci ildə Mazandarana, 1752-ci ildə isə Gilana yaydı.

Xeyli hərbi qüdrət və nüfuz qazanmış Məhəmmədhəsən xan şah taxt-tacı uğrunda mübarizəyə qoşuldu. Bu işdə onun başlıca rəqibləri zənd tayfalarının başçısı Kərim xan, bəxtiyarı tayfa-

larının başçısı Əlimərdan xan, əfşar tayfalarının başçısı urmiyalı Fətəli xan idi.

Məhəmmədhəsən xan Qacar da öz hakimiyyətini Cənubi Azərbaycana və İrana yaymağa çalışırdı. O, 1752-ci ildə Kərim xan Zəndi darmadağın etdi. 1755-ci ilin yazında isə onu tamamilə məhv etmək üçün Mərkəzi İrana yürüş təşkil etdi. Sincan (Malair) adlı yerdə rəqibini məğlubiyyətə uğratdı. Məhəmmədhəsən xan İsfahana daxil oldu. Kərim xan 200-300 nəfərlə Şiraza qaçıb burada möhkəmləndi. Məhəmmədhəsən xan Şiraza yönəldi, Gülnabad yanında düşməni məğlubiyyətə uğradıb 1756-cı ilin martında şəhərə daxil oldu [68, s.49]. Məhəmmədhəsən xan Şirazı ələ keçirtmək istəsə də Fətəli xan Əfşarın və Azad xanın Gilanı tutması xəbərini alıb ora tələsməyə vadar oldu. 1757-ci ilin əvvəllərində Məhəmmədhəsən xan Azad xanı məğlub edərək Rəştdən çıxartdı [68, s.49].

1757-ci ildə Məhəmmədhəsən xan Təbrizi ələ keçirib Urmiya qalasını mühasirəyə aldı [68, s.49].

Fətəli xan Əfşar üzərində qələbədən sonra Məhəmmədhəsən xan hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəldi. O, əsas zərbəsini Qarabağ xanlığına yönəltdi. Qaradağlı Kazım xanı və gəncəli Şahverdi xanı da Pənahəli xana qarşı mübarizəyə cəlb etdi. Lakin Qarabağ döyüşçüləri Məhəmmədhəsən xanın ordusuna ağır zərbələr vurmağa başladılar. Şuşa qalasının mühasirəsi uzandı. Məhəmmədhəsən xan Cənubi Azərbaycanda və İranda şah taxtı uğrunda mübarizənin yeni qüvvə ilə qızışması xəbərini alıb, Şuşanın mühasirəsindən əl çəkdi və geri döndü [68, s.50].

1758-ci ilin yazında Məhəmmədhəsən xan Urmiyalı Fətəli xan Əfşarın və Xoylu Şahbaz xanın qüvvələrini də cəlb edib, İsfahan şəhərini ələ keçirtdi. Uğurlarını inkişaf etdirib, başlıca rəqibi Kərim xan Zəndi tamamilə məhv etmək qərarına gəlmiş Məhəmmədhəsən xan Şiraza yürüş etdi və oranı mühasirəyə aldı. Lakin tezliklə onun qoşunlarının vəziyyəti pisləşdi. Ərzaq çatışmazlığına dözməyən əfqanlar və özbəklər düşmən tərəfinə keçdilər. Qacar xanı 1758-ci ilin payızında Şirazın mühasirəsini

qaldırıb Mazandarana tərəf çəkildi. Yuxarıbaş qacarları da daxil olmaqla bir çox müttəfiqləri Məhəmmədhəsən xanı tərk etdilər. Mazandaranda Sarı və Əşrəf arasındakı bir yerdə Məhəmmədhəsən xan kiçik bir dəstə ilə zəndlərə qarşı qeyri-bərabər döyüşə girdi və məğlub edilib həlak oldu [68, s.51]. Bundan sonra Kərim xan Zənd bütün qüvvələrini Urmiyalı Fətəli xan Əfşara qarşı yönəltdi.

Məhəmmədhəsən xan Qacarın həlak olmasından istifadə edən urmiyalı Fətəli xan Əfşar yenidən Cənubi Azərbaycanda öz mövqelərini möhkəmləndirdi. O, Nəcəfqulu xan Dünbülini öz qoşunlarının sərkərdəsi təyin etdi və Təbriz xanlığının idarəsini də ona tapşırdı. Fətəli xan Şahbaz xanı da bağışlayıb, onu Xoy xanlığının taxtında saxladı. Bağdad paşasından yardım alan Azad xan Marağa şəhərinə yaxınlaşdı, lakin Binab adlı yerdə məğlubiyyətə uğrayıb qaçdı [s.115-117].

Bundan sonra Fətəli xan Əfşar əsas zərbəni Qarabağ xanlığına yönəltdi. Bu barədə bir qədər irəlidə məlumat verdik.

Fətəli xan Əfşarın Şimali Azərbaycanda olmasından istifadə edən Kərim xan Zənd öz qüvvələrini bərpa etdi və 1760-cı ilin payızında Azərbaycana ikinci yürüşə başladı. O, Təbrizi dörd ay mühasirədə saxlamasına baxmayaraq ala bilmədi. Əhalinin inadlı müqaviməti və havaların soyuması Kərim xanı Tehran ətrafına çəkilməyə məcbur etdi [68, s.52-53].

1762-ci il mayın sonunda Kərim xan yenidən Azərbaycana yürüşə başladı. Xoy və Salmas şəhərləri arasında Qaraçəmən düzündə Kərim xanla Azərbaycan xanları arasında həlledici döyüş baş verdi. Döyüşün birinci günü Azərbaycan xanları düşmənin sol cinahını dağıdıb zənd döyüşçülərini qaçmağa məcbur etdilər. Ancaq azərbaycanlı döyüşçülər arxayınlaşıb qarətlə məşğul olmağa başladılar və ertəsi günü düşmən əks-hücuma keçmək imkanı əldə etdi. Fətəli xan Urmiya qalasına çəkilməli oldu [68, s.53; 13, s.120-121].

Kərim xan Urmiyanı mühasirəyə aldı və bir sıra Azərbaycan xanlarını da yardıma çağırdı. Bəzi xanlar Fətəli xan Əfşardan narazı olduqlarına görə, bəziləri də Kərim xanın qəzəbinə düçar olmamaq üçün onun düşərgəsinə gəldilər. Kərim xanın düşər-

gəsinə gələnlər arasında qarabağlı Pənahəli xan, gəncəli Şahverdi xan, naxçıvanlı Hacı xan və başqaları var idi. 9 aylıq mühasirədən sonra vəziyyətin ümidsizliyini görən Fətəli xan 1763-cü ilin fevralın 20-də təslim oldu. Qardaşı Zəki xanın Əliməhəmməd xanla birləşərək İsfahanda ona qarşı qiyam qaldırdığını eşidən Kərim xan təcili İrana qayıtdı. O, Fətəli xanın uzaq qohumlarından biri Rüstəm bəyi Urmiyaya hakim təyin edib, Fətəli xanı ailəsi ilə birlikdə özü ilə apardı. Yolda Fətəli xan qətlə yetirildi. Kərim xan onun düşərgəsində olan Azərbaycan xanlarını guya Fətəli xan üzərində qələbəyə həsr olunmuş təntənələrdə iştirak etmək üçün özü ilə apadı və onları girov kimi Şirazda saxladı. Kərim xanın tələyə saldığı Azərbaycan hakimləri arasında qarabağlı Pənahəli xan, qaradağlı Kazım xan, xoylu Şahbaz xan, təbrizli Nəcəfqulu xanın böyük oğlu Fərzəli bəy, marağalı Əliməhəmməd bəy, naxçıvanlı Hacı xan Kəngərli, irəvanlı Hüseynəli xanın qardaşları, gəncəli Şahverdi xanın qardaşı Rzaqulu bəy, nüfuzlu əfşar feodalı Əmirgünə xan, sərablı Əli xan Şəqqaqi və başqaları var idi [68, s.53-54; 13; s.121-125 ].

## §2. Müstəqil Azərbaycan xanlıqlarının yaranmasına Rusiyanın münasibəti

Tarixən Azərbaycan qonşu iri dövlətlərin, o cümlədən Rusiyanın diqqətini cəlb etmişdir. Azərbaycan qonşu dövlətləri hər şeydən əvvəl təbii sərvətlərinin və xammal ehtiyatlarının bolluğu, zənginliyi ilə, həmçinin strateji mövqeyinə görə cəlb edirdi. Təbii zonaların rəngarəngliyi, dağ-meşə massivləri, isti düzənlikləri, geniş dənizsahili zolağı, məhsuldar çay vadiləri ölkəni qonşuları üçün çox cazibədar edirdi. Azərbaycan həm də neft, qızıl, mis, mərmər və digər faydalı qazıntılarla zəngindir. Azərbaycan satış bazarı kimi də cəlbedici idi. Xəz, kağız, mahud və digər rus malları Azərbaycan bazarlarında rəvan satılırdı.

Avropa ilə Asiyanı birləşdirən, Qafqaz bərzəxində yerləşən Azərbaycan qonşu Rusiya, Osmanlı dövləti və İran üçün önəmli strateji mövqeyə malik idi. Azərbaycan ərazisindən mühüm hərbi-strateji və karvan ticarət yolları keçir, burada Rusiyanın Şərq ölkələri ilə əlaqələrini genişləndirmək üçün mühüm rol oynaya biləcək dəniz limanları vardı.

Təsadüfi deyil ki, artıq XVI əsrin sonundan Rusiyada Azərbaycan torpaqlarını ələ keçirmək niyyətləri meydana çıxmağa başlayır. Ancaq bu zaman Rusiyada baş verən daxili çaxnaşmalar, kəndli müharibəsi və xarici hərbi müdaxilə Rusiyaya fəal xarici siyasət yürütmək imkanı vermədiyindən bu niyyətlər hələ bir müddət arxa planda qaldı.

Rus dövlətində daxili sabitlik yarandıqdan sonra onun hakim dairələrində yenidən işğalçılıq niyyətləri baş qaldırmağa başlayır. XVII əsrin 30-cu illərində Hamburq taciri Otto Bruqeman bəzi Qərbi Avropa dövlətlərinin yardımı ilə Gilanı və başqa Xəzəryanı əraziləri ələ keçirmək layihəsini rus hökümətinə təqdim etdi [126, s.9-18; 167 a, s.20]. Həmin dövrdə bu layihəni həyata keçirmək qeyri-mümkün idi. Çünki Xəzəryanı vilayətlər I Şah Abbasın səyləri nəticəsində öz qüdrətini bərpa etmiş Səfəvi dövlətinin tərkibində idi. Digər yandan bu zaman Rusiyanın başı şimalda İsveçlə, qərbdə Polşa ilə, cənub-qərbdə isə Krım xanlığı ilə mübarizəyə qarışmışdı. Ölkə hələ də öz əvvəlki qüd-

rətini tam bərpa edə bilməmişdi. Lakin məhz bu dövrdən Rusiya Xəzər ətrafı yola xüsusi maraq göstərməyə başlayır ki, bu da Bruqemanın layihəsi qəbul olunmasa da diqqəti cəlb etdiyini göstərir. Y.S.Zevakin yazır ki, XVII əsrin 30-cu illərində Rusiya Səfəvi dövləti ilə mehriban münasibətlər saxlasa da bu dövlətin Xəzəryanı mülklərində zəif nöqtələrini aşkara çıxarmağa çalışırdı [126, s.33]. Zevakin yazır ki, XVII əsrdə və XVIII əsrin əvvəllərində Rusiyanın Qafqaz siyasəti iki, bir-birilə çulğalaşan iki məqsəd güdürdü. Rus hökuməti Türkiyə əleyhinə Cənubu Qafqaz platsdarmı yaratmağa çalışırdı, digər yandan Cənubi Qafqazın şərq hissəsini (İlk növbədə Şirvanı və imkan olarsa Gilanı) zəbt etmək məqsədilə Səfəvi dövlətinə qarşı hücum hazırlayırdı [126, s.36-37].

XVIII əsrin əvvələrində Xəzər dənizi Rusiyanın sərbəst çıxışı olduğu yeganə dəniz idi. I Pyotr Xəzəri Rusiyanın "daxili gölünə" çevirmək, yəni onun bütün sahillərini işğal etmək istəyirdi. O, bu yolla Rusiyanı Qərblə Şərq arasında ticarətin vasitəçisinə çevirmək və böyük gəlirlər əldə etmək, eyni zamanda xam ipəyin bol olduğu Xəzəryanı vilayətləri tutmaqla Rusiyanın inkişaf etməkdə olan ipəkçilik sənayesini xammal bazası ilə təmin etməyə çalışırdı.

Cənubi Qafqazın bəzi xristian hakimlərinin, ilk növbədə Kartli çarı VI Vaxtanqın, gəzərgi həyat sürən, avantürist İsrael Orinin müraciətləri də I Pyotrda Səfəvi ərazilərinə hücum planının yaranmasında müəyyən rol oynamışdır. 1701-ci ildə Rusiyaya gələn Ori rus hökümətinə 25 minlik qoşunla Cənubi Qafqaza yürüşə başlamağı təklif etmiş, bu zaman Şamaxıda ona 10 min silahlı ermənininin, Gəncədə isə 30 minlik gürcü qoşununun qoşulacağını vəd etmişdi [150, s.15]. Az qüvvə ilə xeyli ərazilər ələ keçirmək perspektivi rus çarını çox tamaha salmışdı. Artıq 1710-cu ildə Rusiyadakı Danimarka nümayəndəsi Georq Qrand öz hökümətinə yazırdı ki, çar İsveçlə müharibə qurtaran kimi İranla müharibəyə başlamağa hazır olduğunu açıqça bəyan edir [126, s.35].

Məlumdur ki, 1721-ci ilin avqustunda Şamaxı şəhəri Hacı Davudun başçılıq etdiyi üsyançılar tərəfinlən alınarkən şəhərdə olan rus tacirlərinin qarət edilməsi ilə bir neçə tacirin qətlə

yetirilməsini bəhanə edən I Pyotr yüz minlik ordu ilə cənuba yürüş etmişdi. Məqsəd ilk növbədə Xəzəryanı vilayətləri zəbt etmək, daha sonra isə uğurları genişləndirib Cənubi Qafqazın çox hissəsini, İranı tutmaq, Hindistanın həndəvərinə çıxmaq idi. Avqustun 23-də bir neçə qat üstün qüvvəyə malik düşmənə müqavimət göstərməyi mənasız sayan Dərbənd qarnizonu təslim oldu. I Pyotr Dərbənddə bir həftə istirahət etdikdən sonra Bakıya tərəf hərəkət etdi [157, s.48].

Lakin, bir sıra səbəblər üzündən o, tezliklə öz yürüşünü dayandırmalı oldu. Ordu üçün ərzaq daşıyan gəmirlər dənizdə fırtınaya düşdüyündən ordu üçün gətirilən un islanmışdı, yorucu və çətin yürüş, cüzi yem, üzücü bürkü atların kütləvi qırılmasına səbəb olurdu. Yeni şəraitə uyğunlaşa bilməyən əsgərlər arasında xəstəlik halları artmışdı. Digər yandan osmanlı sarayı çarın yürüşündən bərk qəzəblənmişdi və dərhal onun Rusiyaya qayıtmasını tələb edirdi. Bu və digər səbəblər üzündən I Pyotr Mollakənd çayının yanından geriyə, Dərbəndə qayıtdı və sentyabrın 7-də polkovnik Yungerin rəisliyi ilə Dərbənddə qarnizon saxlayaraq özü ordunun əsas hissəsi ilə Rusiyaya döndü [157, s.49].

Lakin rus çarı Rusiyaya qayıtsa da Azərbaycan və İran torpaqlarına dair işğalçılıq niyyətlərindən əl çəkməmişdi. 1722-ci ilin dekabrında rus eskadrası desant çıxarıb Gilanın Ənzəli şəhərini tutdu. 1723-cü ilin iyul ayının 28-də isə general Matyuşkinin başçılıq etdiyi rus qoşunları Bakı qarnizonunun müqavimətini qırıb bu şəhəri tutdu.

Eyni zamanda, Səfəvi mirasını ələ keçirməyi qərara alan Osmanlı hökuməti də 1723-cü ilin yazında öz ordularını Cənubi Qafqaza, daha sonra isə İrana yeritdi: Bununla da iki imperiya arasında müharibə təhlükəsi yarandı. Rusiya üçün əlverişli olmayan müharibələrdən çəkinən I Pyotr Fransa diplomatlarının vasitəçiliyi ilə osmanlılarla sülh danışıqlarına başladı. İstanbulda keçirilən osmanlı-rus danışıqlarında əsas mübahisələr Azərbaycan torpaqları ilə bağlı idi. Osmanlı tərəfi Rusiyanın heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini, Rusiya tərəfi isə bütün sahilyanı zonanın özündə, Ərdəbil, Təbriz və Sultaniyyə şəhərlərinin isə səfəvilərin əlində qalmasını tələb edirdi [bax: 157, s.68-81].

Uzun danışıqlardan sonra 1724-cü il iyun ayının 12 (24)-də İstanbulda bağlanmış Osmanlı-Rusiya müqaviləsinə görə Osmanlı imperiyası Azərbaycanın çox hissəsinə nəzarət hüququ əldə edir, Bakı, Dərbənd və digər Xəzəryanı məntəqələrin Rusiya idarəçiliyinə keçməsinə razılıq verirdi [157, s.82-83].

Lakin, Rusiya Xəzəryanı vilayətləri əlində çox saxlaya bilmədi. I Pyotrun xələfləri bu əraziləri əldə saxlamağa çətinlik çəkirdilər. Digər yandan 1726-cı ildən II Təhmasibin yanına qulluğa girən və tezliklə faktiki hakimiyyəti ələ alan Nadir xan Əfşar əfqanları İrandan qovandan sonra osmanlılardan və ruslardan tutduqları səfəvi ərazilərini tərk etməyi tələb etdi. Rus hökuməti Cənubi Qafqazda yeni müharibəyə cəlb olunmaqdan çəkindi və 1732-ci ilin yanvarın 21-də Rəştdə bağlanmış müqaviləyə görə Kür çayından cənubdakı torpaqları "könüllü surətdə" qaytarmağa razı oldu, əvəzində isə öz tacirləri üçün imtiyazlar aldı [157, s.184-185]. Osmanlılar isə tutduqları əraziləri güzəştə getmək istəmədilər və Nadirlə Türkiyə arasında müharibələr fasilələrlə 1746-cı ilə kimi davam edərək, osmanlıların ələ keçirdikləri bütün ərazilərdən çıxarılması ilə nəticələndi. Osmanlı dövləti ilə yeni müharibə ərəfəsində olan Rusiya qüvvələrini cəmləmək, həm də Nadiri də osmanlılarla müharibəni davam etdirməyə təhrik etmək üçün 1735-ci ilin martında Gəncə yaxınlığında yeni müqavilə bağlayıb 1722-ci ildən sonra Terek çayından cənubda ələ keçirdiyi bütün əraziləri şah hökumətinə güzəştə getdi [157, s.196-197].

XVIII əsrin 30-cu illərinin ikinci yarısında Rusiya ilə Osmanlı imperiyası arasında müharibə davam etdiyi bir dövrdə Nadir şah Məhəmməd Rza xan Qacarı və Teyyub xan Əfşarı Peterburqa elçi kimi göndərərək Rusiya və Türkiyə arasında sülh müqaviləsi bağlanması üçün öz vasitəçiliyini təklif etmişdi. Ancaq feldmarşal Minixin başçılıq etdiyi rus ordusunun osmanlılar üzərində qələbəsi müharibənin taleyini həll etdi. 1739-cu ildə bağlanmış Belqrad sülh müqaviləsinə görə sultan Böyük və Kiçik Kabardanın Rusiyadan asılı olmaması tanındı. Azov qalasını dağıtmaq qərara alındı və Rusiya Azov dənizində donanma saxlamaq hüququndan məhrum edildi [92, s.80].

Hindistana yürüşdən qayıtdıqdan sonra Nadir şah Məhəmməd Hüseyn bəyin başçılığı ilə çoxlu hədiyyələrlə Rusiyaya möhtəşəm bir elçilik göndərdi. Hədiyyələrin arasında hind və İran üslubunda hərbi təlim keçilmiş 14 fil də var idi [92, s.81]. Məlum oldu ki, Nadir şah həm də I Pyotrun qızı Yelizaveta ilə evlənmək niyyətindədir.

Fəslin əvvəlki bölməsində qeyd etdiyimiz kimi, 1747-ci ildə Nadir şah Əfşarın sui-qəsd nəticəsində qətlə yetirilməsindən sonra Azərbaycanda təqribən 20 xırda dövlət-xanlıq yaranmışdı və bu xanlıqlar elə ilk gündən bir-birləri ilə çəkişirdilər.

Belə şəraitdə bəzi xanlar güclü Rusiyanın dəstəyinə nail olmaq istəyirdilər. Bu səbəbdən də bakılı Mirzə Məhəmməd xan Rusiyadan göndərilən rotmistr Adil Çerkasskiyə böyük hörmət və qayğı göstərirdi. 1749-cu ilin sonunda isə Mirzə Məhəmməd xan öz elçisi Hacı Fəhimi Həştərxana göndərib, Rusiya hökmdarının ona himayə göstərməsini xahiş etdi [112.2, v.45 və a-ü; 66, 228-229; 137, 124, s.95].

1753-cü ildə qubalı Hüseynəli xanın nümayəndəsi Hacı İmanquliyev Həştərxana gələrək şəkili Hacı Çələbiyə qarşı yardım xahiş etmişdi. Rusiyanı onlara köməyə təhrik etmək üçün həm Bakı, həm də Quba xanları qəsdən Türkiyənin Hacı Çələbi xana yardım göstərdiyini vurğulayırdılar [76.7, v.227-228]. Ümumiyyətlə, Azərbaycan xanları öz müstəqilliklərini qorumaq xatirinə iri dövlətlər arasında manevr edirdilər. Təsadüfi deyil ki, bir müddət əvvəl qubalı Hüseynəli xanın özü də Hacı Çələbi xanla birlikdə öz nümayəndələrini Osmanlı Sultanının yanına göndərərək onlara məxsus Dərbənd və Bakı şəhərlərini zəbt etməsi üçün qoşun göndərməsini xahiş etmişdi [76. 3, v.304].

Bakı, Şamaxı və Quba xanları saxta şahzadə Səfi Mirzənin oğlu Abbas xanın hakimiyyətini tanımaqdan imtina etmişdilər. Abbas xan yazırdı ki, guya o, Rusiyada olmuş və Rusiya hökmdarı onu İran şahı təyin etmiş, taxta çıxmasını təmin etmək üçün Rusiyada 40 min nəfərlik qoşun təşkil olunmuşdur. Xanlar cavab vermişdilər ki, əgər bütün bu deyilənlər doğru olsa onlar itaət göstərməyə hazırdırlar [76. 7, v.16 a. ü.-17].

Bakılı Mirzə Məhəmməd xan Həştərxan qubernatoru Brılkinə 1750-ci ildə yazırdı ki, o, ingilis Eltonun* bir botunu almaq istəmiş, Elton isə həmin botu zorla geri almışdır. Xan xahiş edirdi ki, Həştərxandan üç gəmi göndərilsin, yaxud sahildəki gəmilərin kapitanlarına əmr verilsin ki, Eltonu tapmaqda kömək etsinlər. Məlumdur ki, Mirzə Məhəmməd xan Nadir şahın dövründə dəniz qüvvələrinin rəisi – "ober-admiralı" olmuşdur vəLəngərudda gəmi inşasına başçılıq etmişdir. Buna görə də həmin bot onun rəhbərliyi ilə inşa edildiyindən ona çatmalıdır [76. 3, v.455 və a.ü.]. Bu zaman Bakı limanında 6 rus gəmisinin (3 hərbi və 3 ticarət gəmisi) durduğunu da qeyd etmək lazımdır [137, s.101].

Hələ 1748-ci ildə rus hökuməti Həştərxana Eltonun yaratdığı İran gəmilərini məhv etmək haqqında əmr göndərmişdi [137, s. 101]. Ancaq Mirzə Məhəmməd xanın xahişi yerinə yetirilmədi. Qubernatora tövsiyə olundu ki, xana belə cavab versin ki, Həştərxanda bu məqsəd üçün yararlı xəzinə gəmiləri yoxdur, oralarda sahildə dayanan gəmilərə gəldikdə isə onlar ticarət təyinatlı gəmilərdir, bu gəmilərdəki silahlar nəzərdə tutulan axtarışa və Eltonu ələ keçirməyə imkan vermir [76.5, v.12-13 a.ü].

Rus hakimiyyət orqanları Bakı xanının xatırlanan xahişini yerinə yetirməsələr də, onunla münasibətləri tamamilə korlamaq istəmirdilər. 1753-cü il mayın sonunda poruçik F.Baratov regionda vəziyyəti öyrənmək üçün Azərbaycana göndərilmişdi. O, bir ay ərzində Bakıda qaldı. Xanla söhbətində Baratov onu Rusiya hökmdarının himayəsi ilə ümidləndirmişdi [76.5, v.161 və a.ü.].

1752-ci ilin noyabr ayında Kartli çarı II Teymuraz və onun oğlu Kaxetiya çarı II İraklinin göndərdikləri elçilər – Tiflis mitropoliti Afanasi və knyaz Simeon Makayev Moskvaya gəlmişdilər. Çarların göndərdikləri məktubda ətrafdakı "müsəlman hakimlərin basqınlarından" qorunmaq üçün yardım xahiş olunurdu [83, v.113 və a.ü. 72, sən.210, s.278].

S.Makayev yazılı təqdim etdiyi müraciətnamədə bildirdi ki, çarlar ona əmr etmişlər ki, bildirsin ki, əgər Rusiya imperiyası lazım bilib çarlara yardıma qoşun göndərsə çarlar indiki vəziyyətdən

---

*Məlumdur ki, Nadir şah Xəzərdə hərbi donanma inşa etmək qərarına gəlmişdi və ingilis kapitanı Eltona bu işə rəhbərliyi tapşırmışdı.

istifadə edib "İranda" xeyli uğur qazanıb Gürcüstanın qonşuluğundakı "İran əraziləri"ni tuta bilərlər. Çarlar bildirdilər ki, onların özlərinin iyirmi minə qədər döyüşçüsü vardır [v.113 və a.ü. 72, sən.210, s.278]. Lakin Xarici İşlər Kollegiyası hesab edirdi ki, uzaqlığına görə gürcü çarlarına hərbi yardım göndərmək mümkün deyil [83, v.114 və a.ü; 72, sən.210, s.279].

Bir-birinə düşmən münasibətdə olan bəzi feodallar Rusiyada sığınacaq tapmağa meyl edir və rus hökümətı də beləlorini həvəslə qəbul edirdi. 1763-cü ildə Azərbaycanda olmuş rus casusu – Terek qoşun mirzəsi Sultanməmməd Şamurzin geri qayıdanda məlumat vermişdi ki, o, Dərbənd şəhərində olduğu zaman Kəlbəli xan adlı bir şəxs gizli surətdə onunla görüşüb bildirmişdi ki, atası Hüseyn vaxtilə – 1741-ci ildə Nadir şahın Rusiyaya göndərdiyi səfarətin tərkibində imiş. Hüseyn xan ruslarla gizli əlaqə yaratmış və səfir bunu sezmişdi. Geri qayıdarkən cəzalandırılacağından qorxan Hüseyn xan rus hökümətindən ona Rusiyada qalmasına icazə verməsini xahiş etmişdi. Rus hökümətı Hüseyn xana məsləhət görmüşdü ki, səfirliklə geri qayıtsın, sərhəddi keçəndən az sonra ayrılıb gizli yolla Rusiyaya gəlsin. Hüseyn xan 1742-ci ilin noyabr ayında Rusiya sərhəddini keçib, təxminən 10 verst getdikdən sonra öz oğlu, iki qardaşı oğlu və 5 xidmətçisi ilə qaçıb Rusiyaya qayıtmışdı. Rus hakimiyyət orqanları onları məxfi surətdə, Həştərxandan yan ötməklə Petrovsk şəhərinə aparmışdı. Sonra Hüseyn xan və yanındakılar Moskvaya, oradan da Kazana göndərilmişdilər. Onlar rus xəzinəsinin hesabına dolanırdılar. Nadir şah qətlə yetirildikdən sonra Hüseyn xanı gizlətməyə ehtiyac qalmamışdı və o, Sankt-Peterburqa aparılmışdı. Daha sonra, 1749-cu ildə isə öz xahişi ilə vətəninə qayıtmağa icazə almışdı. Hüseyn xan Peterburqdan yola düşmüş, ancaq nədənsə 1754-cü ilədək Həştərxanda qalmışdı. Həmin il o, Həştərxanı tərk etmiş və 1756-cı ildə öz vətənində ölmüşdü [78. 1, v.50].

Kəlbəli xan Şamurzinə bildirmişdi ki, özü və tabeliyində olan 3 min nəfərlə Rusiyaya pənah aparmaq istəyir, lakin yolda Fətəli xandan və Dağıstan hakimlərindən xətər yetiriləcəyindən

qorxur. Buna görə də Kəlbəli xan onun və təbəələrinin daşınması üçün rus gəmilərinin göndərilməsini xahiş edirdi. Rusiya Xarici İşlər Kollegiyası bu xahişi nəzərdən keçirib bildirmişdi ki, Kəlbəli xana bu qədər çox təbəəsi ilə Rusiyaya köçməkdə köməklik göstərilsə, Kərim xanın qəzəbinə səbəb ola bilər. Bu isə öz növbəsində Rusiyanın Xəzər ticarətinə böyük zərbə vura bilər. Buna görə də qərara alınmışdı ki, ancaq Kəlbəli xanın özünə və ailəsinə Rusiyaya keçməyə icazə verilsin [78.1, v.50].

Rusiya ilə Azərbaycan xanlıqları arasında münasibətlərdən danışarkən Quba xanlığı ilə münasibətlər üzərində ayrıca dayanmaq lazımdır. Məlumdur ki, qubalı Fətəli xan artıq XVIII əsrin 60-cı illərində öz torpaqlarını xeyli genişləndirmişdi. 1756-cı ildə Salyan, 1759-cu ildə Dərbənd Quba xanlığının tərkibinə daxil edilmişdi. Fətəli xan nikah diplomatiyası yolu ilə 1765-ci ildə Bakı xanlığını da özündən asılı hala salmışdı. Yəni o, öz bacısı Xədicə Bikəni Bakı xanı Mirzə Məhəmməd xanın oğlu və vəliəhdi Məlik Məhəmməd xana ərə vermişdi və bu xanlığı öz təsiri altına almışdı. Bakı xanı öz kiçik qoşununu, vergi və gömrük toplamaq hüququnu saxlasa da Fətəli xanın bütün əmrlərini yerinə yetirirdi. Bir neçə illik qanlı mübarizədən sonra isə 1768-ci ildə Şamaxı xanlığının ərazisi işğal edildi, burada xan hakimiyyəti ləğv edildi və Fətəli xanın təyin etdiyi naib tərəfindən idarə olunmağa başlandı. Həmin ildə Kür və Araz çaylarının qovşağında yerləşən kiçik Cavad xanlığı da könüllü surətdə Qubadan asılılığı qəbul etmişdi.

Fətəli xan bundan sonra keçmiş Şirvanşahlar dövlətinin sərhədlərini bərpa etmək fikrinə düşmüşdü. Həm də, Fətəli xan təkcə keçmiş Şirvanşahlar dövləti ərazisini birləşdirməklə kifayətlənmək istəmir və gələcəkdə bütün Azərbaycan torpaqlarını birləşdirməyi düşünürdü. O, qonşu dövlətlərin hakimləri ilə münasibətlərdə qeyd edirdi ki, Azərbaycan xanlarının "şərəf və hüquqlarını qorumağı" özünün vəzifəsi sayır [115, s.23].

Fətəli xan Şamaxı xanlığını ilhaq etdikdən az sonra rus konsulu Çekalovski Xarici İşlər Kollegiyasına məlumat verirdi ki, "Fətəli xan ordu toplayır və toplayıb qurtardıqdan sonra təcili

olaraq Kürün o tayına, orada yerləşən şəhərləri ələ keçirtmək üçün gedəcəkdir, sonra isə daha da güclənərək qələbə çalmaq üçün Kərim xanla mübarizəyə başlayacaq [76. 13, v.261]. 1770-ci ildə digər rus konsulu öz hökumətinə bildirirdi ki, Fətəli xan Şuşa şəhərini ələ keçirtmək üçün ordu toplayır və onu ələ keçirtdikdən sonra Təbrizə hərəkət etmək niyyətindədir" [76. 15, v.38].

Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək siyasətini olduqca mürəkkəb daxili və siyasi şəraitdə həyata keçirirdi. Həm Azərbaycan və Qafqazda əmələ gələn qruplaşmalar, həm də Rusiya və onun əlaltısı Kartli-Kaxetiya hər vəchlə Fətəli xanın birləşdirmə siyasətinə maneçilik törədirdilər. Bu işdə II İraklii daha çox fəallıq göstərirdi.

# II FƏSİL

# XVIII ƏSRİN II YARISINDA AZƏRBAYCAN-RUSİYA TİCARƏTİ

## §1. Rusiya-Azərbaycan ticarətinin başlıca mərkəzləri

XVIII əsrin ikinci yarısında (xüsusən də 60-80-ci illərdə) Azərbaycan – Rusiya ticarətinin vəziyyəti mərhum prof. H.Abdullayevin məlum əsərində çox geniş və dolğun şəkildə işıqlandırıldığından, burada həmin ticarətin vəziyyətinə dair təfərrüata varmayaraq, ümumi mənzərəsini yaratmağa çalışmışıq. Yalnız bəzi, fikrimizcə daha qabarıq verilməsi zəruri olan məsələlərin üzərində xüsusi olaraq dayanacağıq.

Orta əsrlərdə Azərbaycan ərazisindən Şamaxı-Ərəş-Gəncə-İrəvan-Hələb, Gəncə-Tiflis-Axısqa-Ərzurum-İstanbul, Şamaxı-Naxçıvan-Ərzurum-İstanbul, Təbriz-Mərənd-Naxçıvan-Ərzurum-İstanbul, Təbriz-Van-Diyarbəkr-Hələb, Bakı-Şəki-Kaxet (Qax)-Tiflis-İrəvan-Türkiyə şəhərləri kimi böyük karvan ticarət yolları keçirdi [147, s.31].

Azərbaycan Rusiyanın xarici ticarətində mühüm yer tuturdu. Mənbələrdə Rusiya – Azərbaycan ticarət əlaqələri Rusiya – İran ticarəti ilə qarışdırılır, Azərbaycan xanlıqlarının Rusiya ilə ticarət əlaqələri yanlış olaraq "İran ticarəti" kimi qələmə verilir. Bu, Rusiyanın Azərbaycan xanlıqlarının suverenliyini tanımaq istəməyərək, onları İran ərazisi hesab etməsi ilə izah olunur.

XVIII əsrin II yarısında Xəzər ticarəti Rusiya üçün ən əlverişli ticarət idi [163.1, v.7-8]. Bu ticarətin çox mühüm hissəsi isə Azərbaycanın payına düşürdü.

Rusiyanı Şərq ölkələri, o cümlədən Azərbaycanla birləşdirən əsas mərkəz Volqa ticarət yolunun Xəzər dənizinə çıxışında yerləşən Həştərxan şəhəri idi. Həştərxan öz dövrünə görə iri şəhər və liman idi. Şəhərdə üç böyük karvansara (rus, erməni və hind)

vardı. Bu karvansaraların daimi qonaqları içərisində azərbaycanlı tacirlər də az deyildi [58, s.285].

Həştərxandan Moskva və Peterburq vasitəsilə Avropaya və geriyə yol çox mühüm ticarət yolu idi. Həştərxandan cənuba iki yol vardı. Xəzər dənizi vasitəsilə əsas yol və Qızlardan keçən quru yol.

XVIII əsrdə malların çox hissəsi dəniz yolu ilə daşınırdı. Qızlardan keçən quru karvan yolu nisbətən az əhəmiyyətə malik olsa da, Qızlar Qafqazın və Rusiyanın quru yollarının qovşağında yerləşdiyindən bu şəhər də Həştərxan kimi mühüm ticarət mərkəzi hesab olunurdu. Qızların illik ticarət dövriyyəsi 200 min rubla yaxınlaşırdı [58, s.287].

Məlumdur ki, qış aylarında Həştərxan ətrafında Xəzər dənizi donur, buna görə də liman vasitəsilə hərəkət noyabr ayından mart ayınadək kəsilir. Qızlar yolu ilə ticarət isə il boyu davam edirdi. Rus ticarət gəmiləri qışlamaq üçün Azərbaycan və İranın donmayan limanlarında dayanır, bu zaman daxili daşınmalarla məşğul olaraq əlavə qazanc əldə edirdilər.

Qızlar yolu ilə Rusiyaya xeyli miqdarda Azərbaycan xam ipəyi daşınırdı. Bu işdə "Şəki, Şamaxı, Dərbənd, Bakı tacirləri – müsəlmanlar, ermənilər və gürcülər" fəal iştirak edirdilər [179.9, v.67 a.ü.].

Bununla belə, Qızlardan keçən karvan yolunun öz qüsurları var idi. Dəniz yolu ilə müqayisədə quru yolla yükdaşıma daha baha başa gəlirdi. Mallar təyinat yerinə gecikdirmə ilə çatdırılırdı. Karvan yollarında tez-tez baş verən qarətlər tacirlərin gəlirinə mənfi təsir göstərirdi. Kifayət qədər nəzarət olunmadığından bu yolla Rusiyadan gömrük məntəqələrindən yan keçməklə ixracı qadağan olunmuş mallar – qızıl, gümüş, atlar aparılırdı [179.3, v.11-12; 111.3, v.56-59]. Müasirin ifadəsinə görə Qızlar rayonunda Rusiya sərhədlərindən gizli yolla milyon rubldan çox dəyərində mallar aparılırdı [154, s.111]. 1768-ci ildə Bakıdakı Rusiya konsulu M.Y.Sulyakov Xarici İşlər Kollegiyasına Qızlar xəttinə lazımi səviyyədə nəzarət etmək imkanı olmadığından, qaçaqmalçılığın qarşısını almaq üçün quru yolla hərəkəti qadağan etməyi təklif etmişdi. Lakin konsulun təklifi

siyasi və ticari mülahizələrə görə hökumət tərəfindən bəyənilmədi. Yol üzərində nəzarəti gücləndirmək üçün tədbirlər görüldü, yeni sərhəd və gömrük məntəqələri quruldu [179. 7, v.21]. Yalnız 1787-ci ildə Rusiya hökuməti Qızlar yolu ilə əmtəə ixracını bir illiyə qadağan etmişdi [179.7, v.18-19; 58, 289]. 1774-cü ildə qarətlər üzündən bu yolda hərəkət demək olar ki, səngimiş, yalnız 1775-ci ildə rus qoşunlarının Dağıstana cəza yürüşündən sonra vəziyyət yaxşılaşmışdı [58, s.288].

Azərbaycanda Rusiya ilə ticarətin mühüm mərkəzlərindən biri Dərbənd idi. Bir çox Azərbaycan, gürcü, erməni və hind tacirləri öz mallarını satmaq üçün Dərbəndə gətirirdilər. Dərbənddə Rusiyadan gətirilən dəmir, polad, mahud, kətan və digər mallar satılır, Rusiya tacirləri burada yerli Azərbaycan mallarını və Dağıstanın qonşu mahallarından gətirilən malları alırdılar [86.1, v.5].

Dərbənd əlverişsiz liman idi. Sualtı daşlar gəmilərin sahilə yanaşmasına mane olurdu, gəmilərin təhlükəsiz dayanması üçün dayanacaq yox idi. Bu isə Dərbəndlə dəniz ticarətinə əngəl törədirdi [86.1, v.4 a.ü; 108, s.21-22].

V.Zubov tərəfindən XVIII əsrin sonlarına yaxın rus hökümət üçün hazırlanmış məruzədə deyilirdi ki, Dərbəndin limanı yoxdur, ona yaxınlaşan gəmilər açıq dənizdə, sahildən xeyli aralı dayanmalıdırlar. Məruzədə qeyd olunurdu ki, Dərbənd şəhərində və onun ətrafında başlıca olaraq zəfəran, qızıl boya, müəyyən qədər pambıq-parça istehsal olunur, müxtəlif meyvələr yetişdirilir. Dəmir, polad, qalın kətan, mahud və digər rus mallarına ehtiyac duyduqları üçün dərbəndlilər və qonşuları öz mallarını quru yolla Qızlara aparırdılar [86.1, v.4 a.ü.].

Rusiya ilə ticarətdə Niyazabad da uzun müddət mühüm rol oynamışdı. Burada karvan və dəniz yolları qovuşurdu. Niyazabad Rusiya, İngiltərə və digər ölkələrdən olan tacirlərin ticarətlə məşğul olduğu yer idi. Niyazabad Şamaxının dəniz qapıları sayılırdı. Niyazabaddan malları dəvələrlə və atlarla Şamaxıya daşıyırdılar. Lakin, XVIII yüzilliyin ikinci yarısında tranzit ticarətinin istiqamətlərində baş vermiş bəzi dəyişikliklər, ilk növbədə isə Bakının tranzit ticarətində mövqelərinin möhkəmlənməsi

Niyazabadın liman şəhəri kimi əhəmiyyətinin azalmasına səbəb oldu [58, s.289-290]. Bakı Niyazabada nisbətən daha əlverişli liman olduğundan, buradan Şamaxıya yol xeyli qısa və daha rahat olduğundan Rusiya ilə ticarət əsasən Bakı vıasitəsilə aparılırdı. XVIII əsrin sonlarına aid arxiv sənədində bu barədə deyilirdi ki, Niyazabad duracağı əlverişli olsa belə faydalı ola bilməz, çünki qubalılar və qonşuları məhsullarını qismən Dərbəndə, digər hissəsini isə quru yolla Bakıya aparırlar, burada əvəzində neft, duz və rus malları alırlar [86.1, v.5]. Niyazabaddan karvan yolu Xəzər dənizi sahili ilə Bakıya, digər yol isə Şamaxıya uzanırdı. Şamaxıya yol əvvəlcə Xəzər sahili ilə, sonra Şabrandan, Təngə dərəsindən, daha sonra isə dağlardan keçirdi.

Rusiya ilə ticarətin ən mühüm mərkəzi heç şübhəsiz Bakı idi. Bakı Xəzər dənizində ən yaxşı liman idi. Burada gəmilər təhlükəsiz dayana bilirdilər. Bakı körfəzinin sahilləri dərin olduğuna görə gəmilər burada lap sahilə yan ala bilir, 7 sajen dərinlikdə dayana bilir, Bakı buxtasında duran gəmi güclü dalğalardan qorunurdu [86.1, v.5]. Rusiyanın Gürcüstandakı nümayəndəsi polkovnik S.Burnaşov və Bakıdakı konsulu Sulyakov da Bakını ən əlverişli liman və ticarət yeri kimi səciyyələndirirdilər [96, s.10; 179.5, v.166, 168].

Bakı həm də Cənubi Qafqazın digər mühüm şəhərləri ilə geniş ticarət əlaqələrinə malik idi. Şimal-Şərqi Azərbaycan torpaqları Quba xanlığının ətrafında birləşdirildiyi dövrdə Bakının ticarət əhəmiyyəti xüsusilə artmışdı. Bakı həm də tranzit ticarət qovşağı, Xəzər ticarətinin mühüm mərkəzi idi. Ətraf bölgələrin sakinləri rus malları almaq üçün Bakıya gəlir, Mazandaran, Gilan, Lənkəran və Cənubi Azərbaycandan çoxlu tacirlər bura axışırdı [86.1, v.5]. S.Bronevski yazırdı ki, Bakıda kifayət dərəcədə əhəmiyyətə malik alver və ələlxüsus rus və Avropa malları ilə ticarət aparılır, Həştərxan mallarının bir hissəsi oradan uzağa – İrana aparılır, boşalmış gəmilər Gilana aparılmaq üçün neft, duz, zəfəran, qızıl boya ilə doldurulur [93.1, s.225].

XVIII əsrin sonunda Rusiyanın Xəzər ticarətinin vəziyyətini araşdıran müəllif belə nəticəyə gəlirdi ki, İran və Azərbaycanla Rusiya ticarəti üçün Bakı yeganə əlverişli və gəlirli yerdir

[86.1, v.6]. Bakıdan İran körfəzinədək, demək olar ki, təhlükəsiz quru karvan yolu da uzanırdı. Təbriz, Ərdəbil, Qəzvin, Sultaniyyə, Tehran, Kaşan və İsfahandan keçən bu yolun üzərində bir-birinə yaxın məsafələrdə karvansaralar var idi [86.1, v.6].

XVIII əsrin sonlarında Rusiyanın şərq ticarətinin vəziyyətini təhlil edən müəllif yazırdı ki, gebrlər təriqətinin Hindistanda başlıca məzhəb olduğu məlumdur və indi də hindlilərin bir çoxu ziyarət üçün Bakıya gəlirlər. “Bakının yenidən qurulması və orada ticarətin genişlənməsi Bakını hindlilərin Məkkəsinə çevirməzmi və hindlilərin Astrabadla quru ticarətini Həştərxana döndərməzmi?” [86.1, v.6 a.ü.-7]. Müəllifin fikrincə II Yekaterinanın Cənubi Qafqaza ordu göndərməsinin başlıca səbəbi Ağa Məhəmməd xan Qacarı cəzalandırmaq bəhanəsi ilə rus ticarətini “İranda möhkəm ayaq üstünə qoymaq” arzusu olmuşdur [86.1, v.7].

Dəniz yolu Bakıdan Salyana və Lənkərana uzanırdı. XVIII yüzildə bu limanların müəyyən əhəmiyyəti vardı. Kür çayının Xəzər dənizinə töküldüyü yerdən azca aralı yerləşən Salyan Rusiya ilə ticarətin mərkəzlərindən biri idi. Rus gəmiləri Kür çayı ilə Salyana üzürdülər. Salyandan Cavada Kürlə Arazın qovuşduğu yerə kimi malları kirjimlərdə və sallarda daşıyırdılar [93.1, s.250]. Həştərxanla Salyan arasında müntəzəm olaraq rus gəmiləri üzür, Salyana rus malları, geriyə – Rusiyaya balıq, ipək, başqa xammal və yerli məhsullar daşıyırdılar [164.3, v.474]. Rus tacirləri Salyan və Cavaddan quru yolu ilə Şimal-Qərbi Azərbaycana və Gürcüstana, yaxud Cənubi Azərbaycana və İrana gedirdilər.

Lənkəran və Qızılağac körfəzindəki Sara adası da rus gəmiləri üçün duracaq rolunu oynayırdı. Ruslar hələ XVII əsrdən Lənkərana gedib gəlirdilər. Rus məmuru Şubin 1785-ci ildə Lənkəranı Xəzər dənizində Rusiya-Azərbaycan ticarətinin əsas məntəqələrindən biri kimi səciyyələndirərək yazırdı ki, bu yerdə bütün “İran şəhərləri ilə” ticarət etmək olar [173.1.1, 201]. Ancaq Ənzəlidəki Rusiya konsulu M.Skibinevskinin rəsmi məlumatına görə XVIII yüzilin 90-cı illərində Lənkəranın ticarət əhəmiyyəti bir o qədər böyük deyildi [164.3, v.474].

Bakıdan, Salyandan və Lənkərandan keçən dəniz yolu daha sonra Ənzəliyə, Astrabada və Mazandarana uzanırdı. Rusiyadan başlayıb Şimal-Şərqi Azərbaycan və Şimali İran sahilləri ilə uzanan dəniz yolu cənuba gedən karvan yolları ilə əlaqəli idi. Bakı və Ənzəlidən quru yolları Mərkəzi İrana və Hindistana uzanırdı. Bu yol Ərdəbil, Təbriz, Qəzvin, Kaşan və İsfahandan keçirdi. İsfahanda yol haçalanırdı: bir yol Şiraza – İran körfəzinə doğru, digəri isə İraq şəhərləri Bağdad və Bəsrəyə doğru uzanırdı. İngilis taciri və səyyahı C.Forster Benqaliyadan Hindistana gedərkən Şərqi Hindistandan Kabilə, oradan da Barforuşa gəlmiş, sonra Xəzər dənizi vasitəsilə Bakıya yollanmış, oradan Rusiya vasitəsilə İngiltərəyə getmişdi [203, s.8-9].

Qədimdən Hindistandan Şimali İrandan keçməklə Cavad, Gəncə, Tiflis, Qori, Suram, Kutaisi, Qara dəniz yolu da mövcud idi. Bronevskinin sözünə görə XIX yüzilin əvvəlində bu yol tədricən öz əhəmiyyətini itirirdi [93.1, s., 249].

Malları Həştərxandan Dərbənd, Bakı, Salyan, Lənkəran, Ənzəli və Mazandarana və geriyə istisnasız olaraq rus gəmilərində daşıyırdılar. XVIII yüzildə Xəzər dənizində rus gəmilərinin sayı xeyli artmışdı. Həştərxanda və Volqaboyu şəhərlərdə çay donanması və Xəzər donanması üçün gəmilər inşa və təmir edən tərsanələr vardı. P.Q.Butkova görə, Həştərxanla Azərbaycan və İran limanları arasında üzən rus ticarət donanmasında gəmilərin sayı 38-ə çatırdı [97.2, v.126].

1752-ci ildə Senatın qərarı ilə Həştərxanda 25 gəmiyə malik özəl gəmiçilik kompaniyası təsis olundu [204, s.394]. 1785-ci ildə Həştərxanla Azərbaycan limanları arasında üzən rus şəxsi gəmilərinin sayı 57-yə çatmışdı [184.15.1, v.36-38].

Malların daşınması gəmi sahiblərinə böyük gəlir gətirirdi. Rus gəmiləri həm də Azərbaycan və İran tacirlərinə kifayət qədər yüksək məbləğə icarəyə verilirdi. Orta icarə müddəti 6 aya çatırdı [58, s.305]. Arxiv sənədində deyilirdi ki, 1773-cü ildə şirvanlı Ağa Mirzənin qardaşı Zeynalabdin Həştərxandan mallarını Ənzəliyə daşımaq üçün gəmi icarəyə götürmüşdü. Gəmi Ənzəliyə çatdıqdan sonra məlum olmuşdu ki, Ağa Mirzənin Mazandaranda Həştərxana daşınmalı hazır malı var. Buna görə də

gəminin icarə müddətinin artırılması xahiş olunurdu [179.8, v.115]. İcarə ilə yanaşı Azərbaycan tacirləri mallarını daşımaq üçün podryadçikə verirdilər. Azərbaycan tacirləri bir sıra hallarda rus tacirlərinin gəmiçilik yoldaşlıqlarına üzv yazılırdılar [58, s. 305].

Azərbaycan xanlıqlarının kirjim və sandal adlanan kiçik gəmiləri çıxmaqla öz dəniz donanmaları yox idi. Bu gəmilərlə daşınma yalnız sahil boyunca, yaxın məsafələrə həyata keçirilirdi. Kirjim və sandallar uzaq məsafəyə yaramırdılar, dəniz fırtınalarına qarşı davam gətirə bilmirdilər. Kirjimlərdə bir dəfəyə 50-dən 100-ə qədər adam daşına bilirdi. Kirjimlərin yelkənləri vardı. Sandallar vanna şəklində idilər və külək səmtində üzürdülər. Həm xanların, həm də ayrı-ayrı şəxslərin kirjim və sandalı ola bilirdi. Bakı xanlarının xüsusilə çox gəmisi vardı [103, s.109].

Kirjimlərdə və sandallarda mal daşınması elə bil ki, rus gəmilərində daşınmanı tamamlamaq səciyyəsində idi və yerli səciyyə daşıyırdı. Uzaq məsafəyə üzən dəniz donanmasının olmaması Azərbaycan ticarətini rus ticarət donanmasından asılı edirdi. Kirjimlər əsasən Bakıda və Ənzəlidə inşa olunurdu.

Gəmi inşası bir sıra rus materiallarına – kəndirə, yelkənlərə, gəmiçilik üçün yarayan taxta – şalbana və s.-yə ehtiyacı kəskin artırırdı. Rus hökuməti Azərbaycan və Gilanda gəmiqayırmaya mane olur və gəmiqayırma üçün zəruri olan materialların və gəmilərin satılmasını qadağan etmişdi [179.8, 113 a-ü, iş 637, v.37].

Rus hökümməti Xəzəryanı vilayətlərin hakimlərinin öz gəmilərini quraşdırmaq təşəbbüslərinə qısqanclıqla yanaşırdı. Rus casusu mayor Mirzəbəy Vahanov 1773-cü ildə xəbər vermişdi ki, gilanlı Hidayət xan ingilislərdən təcrübə almış bəzi yerlilərin köməyilə üç gəmi (1 qaliot, 1 bot və 1 şkout) inşa etdirmişdir. Təşvişə düşən Xarici İşlər Kollegiyası dərhal Rəştdəki rus konsulu Yablonskidən bu məsələ ilə bağlı izahat istəmişdi [78.1, v.59-60].

S.Q.Qmelin rus kompaniyasına mənsub olmayan Xəzərdəki bütün gəmilərin yandırılmasını təklif edirdi [163.1, v.28]. Bir il sonra – 1774-cü ildə bəzi yüksək rütbəli Rusiya məmurları analoji təklif etmişdilər. Lakin Dövlət Şurası belə hesab etdi ki, bu cür xırda gəmilər yalnız yaxın yerlərə yük daşıya bilər və

Rusiyanın Xəzərdəki mənafeləri üçün heç bir təhlükə törətməz [85.1, s.787]. Qafqaz xəttindəki rus qoşunlarının komandanı general P.S.Potyomkin hökumətin Xəzər dənizində rus gəmilərindən başqa gəmilərin olmaması üçün bütün limanlarda olan "İran gəmiləri"nin dərhal məhv edilməsinə icazə istəyirdi [184.13, a.ü.]. Qraf Voynoviç də Quba və Gilan xanlarına məktublarında yerli şəxslərə məxsus gəmilərin məhv edilməsini tələb edirdi [58, s.308].

Rus hökumətinin Xəzər dənizində digər gəmilərin üzməsinə imkan verməmək siyasəti nəticəsində nəinki uzaq, həm də yaxın məsafələrə daşımalar Rusiya gəmi sahiblərinin əlinə keçirdi. Rusiya gəmilərində daşınmanın ucuz, təhlükəsiz və daha sürətli olması da buna şərait yaradırdı.

Eyni zamanda Xəzər dənizində kifayət qədər Rusiya gəmiləri olmadığından bu cür siyasət bir çox hallarda limanlarda malların böyük miqdarda yığılıb qalmasına səbəb olaraq, son nəticədə ticarətin inkişafına mane olurdu. Xəzər dənizində yerli gəmilərin inşasının və üzməsinin qadağan olunması bir sıra hallarda rus hakimiyyət orqanları ilə Quba, Bakı və Gilan xanları arasında münaqişələrə səbəb olurdu.

Gəmilərin qəzaya uğraması da Xəzərdə mal daşınmasına mənfi təsir göstərirdi. Qəzalar aşağı dənizçilik keyfiyyətinə və istismar qaydalarının pozulmasına görə baş verirdi [58, s.310].

Məsələn, II Yekaterinanın 13 iyul 1776-cı il tarixli fərmanında deyilirdi ki, Samur çayına yaxın yerdə 1775-ci ilin sonu – 1776-cı ilin əvvəllərində Skvortsovun gəmisinin qəzaya uğramasına prikazçikin acgözlük edərək gəmiyə xeyli artıq yük yükləməsi səbəb olmuşdu [79.11, v.171].

Karvan yollarında yükləri dəvələr, atlar və qatırlarda daşıyırdılar. Dəvələrdən başlıca olaraq uzaq məsafələrə – Şamaxıdan İsfahana, yaxud Xorasana, bəzən də daxili yükdaşımalarda istifadə olunurdu. Quba, Bakı, Gəncə və Şamaxıda malların bir hissəsi arabalarda daşınırdı [186.3, v.30-32].

Karvan yolları boyunca karvansaralar yerləşirdi. Onların bəziləri çox geniş və möhkəmləndirilmiş binalar olub, təhlükəli vaxtlarda sığınacaq rolunu oynayırdılar. Mənbələrin məlumatına

görə Beşbarmaq dağının ətəyindəki karvansarada düşmən basqını zamanı 500 ailə gizlənə bilirdi [186.3, v.20-21].

Karvansaraları təkcə yollarda deyil, şəhərlərdə də inşa edirdilər. Şəki şəhərində Gəncə, Təbriz, Şamaxı, Ləzgi, Erməni karvansaraları vardı [26, s.66]. M.Çulkovun yazdığına görə Şamaxıda 20-yə yaxın karvansara və qonaq evi var idi [204, s.612].

Şəhərlərdə karvansaralar başlıca olaraq gəlmə tacirlərə xidmət edir və nəinki sığıncaq və müdafiə üçün, həm də anbar, yaşayış yeri, malların satış yeri və tövlə kimi istifadə olunurdu. Şəkidə qarət və qətllərin qarşısının alınması üçün karvansaraları qala kimi inşa edirdilər. Aşağı mərtəbələrdən anbar kimi istifadə olunur, yuxarı mərtəbələrdə tacirlər yaşayırdılar. Gecələr karvansaraların darvazaları bağlanırdı [15, s.15]. Karvansaralar xanlar və xüsusi şəxslər tərəfindən inşa olunur və icarəyə verilirdi.

İlk vaxtlar rus hökuməti Xəzər ticarətində Gilana daha çox önəm verirdi. Buna görə də konsulun Ənzəli şəhərində iqamət etməsi əmr olunmuşdu. Lakin, Ənzəlidəki rus konsulu Çekalevski 1755-ci il 23 may tarixli məlumatında yerli sakinlərin konsulu və rus tacirlərini sıxışdırmalarından gileylənirdi. O, həmçinin Ənzəlinin havası rütubətli olduğu üçün, xəstəliklər törəndiyini yazır və konsulluğu Bakıya köçürməyi təklif edirdi. Çekalevski hesab edirdi ki, əvvəlcə Məhəmmədhəsən xan Qacara müraciət edərək konsulluğun Ləngəruda köçürülməsinə icazə istənilməli, əgər belə icazə alınmazdısa Bakıya köçürülmək məsələsinə baxılmalı idi [179.1, v.70-71]. Xarici İşlər və Kommers Kollegiyalarda bu məsələ müzakirə edildi. Ancaq məsləhət görüldü ki, hələlik konsulun Ənzəlidə iqamət etməsi tövsiyyə olunsun. Yalnız bu halda İranda baş verən hadisələr haqqında lazımi məlumat əldə etmək olar [179.1, v.72-74]. İmperatriçə Yelizavetanın bu məsələ ilə bağlı 1755-ci ildə verdiyi fərmanda rus tacirlərinin təhlükəsizliyi üçün Ənzəlidə tədbirlər görülməsi tövsiyyə olunurdu [179.1, v.78-81]. 1754-cü ildə rus konsulunun iqamətgahı Gilandan Bakıya köçürüldü [58, s.342]. Bununla Rusiyanın Xəzər ticarətinin mərkəzi də Bakıya keçdi. Rus hökuməti Xəzəryanı ölkələrlə ticarətin mərkəzini Bakıya keçirməklə, Rəştdə və Ənzəlidə rusları hədələyən ara müharibələrini nəzərə

alır, Bakını rus ticarəti üçün daha təhlükəsiz və əlverişli yer sayırdı.

Lakin Bakıya köçən konsul Çekalevski ilə Bakı xanı Mirzə Məhəmməd xan arasında 1758-ci ildə münaqişə yarandı. Münaqişə "Müqəddəs İohann" adlı rus ticarət gəmisinin qəzaya uğraması ilə bağlı baş vermişdi. Konsul Bakı hakimiyyət orqanlarını qəzaya uğramış gəmidəki rus mallarını qarət etməkdə və gəminin bir neçə sərnişinini qətlə yetirib quyuya atmaqda ittiham etmişdi. Mirzə Məhəmməd xan bu cür ittihamları əsassız sayıb rədd edərək öz xidmətçiləri ilə birlikdə gəmidə olan konsulu şəhərə buraxmamağı əmr etdi [200.2, II h., əlavələr s.121]. Çekalevski hökumətə konsulluğu Bakıdan digər yerə köçürməyi, yaxud onu geriyə – Həştərxana çağırmağı təklif etdi. Lakin rus hökuməti hesab etdi ki, ticarət işlərinin mənafeyi konsulun Bakıda qalmasını tələb edir. Çekalevskiyə göstəriş verildi ki, çalışıb Quba və Şamaxı xanları ilə Bakı xanı arasında ixtilaf salsın, Quba və Şamaxı xanlarının dəstəyinə arxalansın [179.1, v.86-89]. Azərbaycanda qalmalı olan konsul hökumətdən Bakıdan Niyazabada köçməyə icazə istədi. Quba və Şamaxı xanları da konsulun Niyazabada köçməsinə razı idilər. Ancaq Niyazabad kifayət qədər əlverişli liman olmadığından Çekalevski ora köçməyə cəsarət etmədi və ticarət mərkəzini Salyana köçürməyi təklif etdi. Çekalevski yazırdı ki, Salyan ticarət üçün daha əlverişlidir və qubalı Fətəli xana hamıdan çox etibar etmək olar [58, s.343-344].

1759-cu ildə Çekalevski Həştərxana qayıtmağa icazə aldı, üç il sonra isə Bakıda konsulluq açmaq haqqında qərar qəbul edildi. Ənzəliyə İlya İqumnov, Bakıya isə Mixail Yemelyanoviç Sulyakov konsul təyin olundular. Konsullar rus tacirlərinin fəaliyyəti üçün əlverişli şərait yaratmalı, qadağan olunmuş malların ixracının qarşısını almağa çalışmalı, tacirlərin mal və əmlakının mühafizəsini təşkil etməli, yerlərdə rus tacirlərindən gömrük alınmasına yol verməməli və s. tədbirləri görməli idilər [179.4, 633, v.3].

İqumnov da Gilana gələn kimi burada olan konsulluğun Salyana köçürülməsini təklif etdi [200.1, s.603]. Lakin Gilandakı

konsulluğun bağlanması Rusiyanın İranla əlaqələrini zəiflədə bilər, rus tacirlərinin kommersiya fəaliyyətləri sahəsini daralda bilərdi. Buna görə də hökumət konsulluğu Ənzəlidə saxladı.

Bu zaman Azərbaycanın özündə də Rusiya ticarətinin mərkəzi bir yerdən ayrı yerə keçirdi. Qubalı Fətəli xan özündən asılı vəziyyətə salmaq üçün Bakı xanlığını iqtisadi məngənədə sıxmaq siyasəti yeridirdi və konsul Sulyakova Salyana köçməyi təklif edərək, rus tacirləri üçün hər şərait yaratmağı vəd etdi. Quba ilə Şamaxı arasında müharibə də Bakının ticarətinə mənfi təsir göstərirdi. Bakı xanından narazı olan konsul da Fətəli xanın təklifini bəyəndi [58, s.351-352]. 1768-ci ilin yazında Azərbaycanda rus ticarətinin mərkəzi və konsulun iqamətgahı Bakıdan Salyana köçürüldü (200.2, s.614).

Lakin, tezliklə Şamaxı xanlığı ilə müharibə Qubanın qalibiyyəti ilə bitdikdən sonra Bakının ticarəti yenidən canlandı.

1770-ci ildə Senatın qərarı ilə Ənzəli və Bakıdakı konsulluqlar birləşdirildi və bu zaman Bakıdakı konsulluq bağlandı. Ənzəlidə konsul Boqolyubov idi. Lakin buranın havası ona düşmədiyinə görə II Yekaterina 18 aprel 1771-ci il tarixli fərmanı ilə Vasili Yablonskini onun yerinə təyin etdi [179.10, v.1, 4-19].

Quba və Şamaxı xanlıqları arasında müharibənin davam etdiyi dövrdə (1765-1768) Bakıdan Həştərxana mal, xüsusən xam ipək ixracı müəyyən dərəcədə azalmışdı, Şamaxıdan Bakıya və Salyana yol təhlükəli olur, bəzən bütünlüklə bağlanırdı [58, s.362-364].

1768-ci ildə Şimal-Şərqi Azərbaycanın Quba xanlığının hegemonluğu altında birləşdirilməsi ticarətin inkişafı üçün əlverişli şərait yaratdı. Tacirlərə satış və alış bazarlarına azad giriş yaradılırdı. Quba hakimiyyət orqanları ticarət yollarını qoruyurdular. Rusiya ilə ticarətə xüsusi qayğı göstərilirdi. Rusiya Xarici İşlər Korllegiyasının rəhbəri N.İ.Panin Fətəli xana məktubunda rus tacirləri üçün hər cür şərait yaratdığına görə təşəkkür edirdi [76.12, v.82; 58, s.367].

## §2. XVIII əsrin 60-80-ci illərində Rusiya-Azərbaycan ticarəti

XVIII əsrin 60-cı illərindən başlayaraq Rusiya ilə Azərbaycan xanlıqları arasında ticarət dövriyyəsi genişlənməyə başlayır. Aşağıda gətirilən rəqəmlər bu fikri əyani surətdə sübut edir. Belə ki, 1766-cı ildə Həştərxandan İran və Azərbaycan şəhərlərinə 135 185 rubl 95 qəp., 1767-ci ildə 231 504 rubl 18 qəp., 1768-ci ildə isə 315 982 rubl 35 qəp. məbləğində mal buraxılmışdı. Azərbaycan və İran şəhərlərindən Həştərxana 1766-cı ildə 63 922 rubl 15 ½ qəp., 1767-ci ildə 247 508 rubl 60 qəp., 1768-ci ildə 157 505 rubl ¼ qəp. məbləğində mal gətirilmişdi. Üç il – 1766-1768-ci illər ərzində Həştərxandan Azərbaycan və İran şəhərlərinə cəmi 682 672 rubl 48 qəp. mal buraxılmış, həmin ölkələrdən isə 468 936 rubl 45 ¾ qəp. dəyərində mal gətirilmişdi [78.2, v.14-17].

Müqayisə üçün qeyd edək ki, Həştərxandan Xivə və Buxaraya 1766-cı ildə 28 930 rubl 83 qəp., 1767-ci ildə 9505 rubl 56 ¾ qəp., 1768-ci ildə 66 064 rubl 75 ¾ qəp. dəyərində mal buraxılmışdı. Xivə və Buxaradan Həştərxana 1766-cı ildə 28 930 rubl 50 qəp., 1767-ci ildə 4 197 rubl 30 qəp., 1768-ci ildə 33 448 rubl 64 ¾ qəp. dəyərində mal gətirilmişdi [78.2, v.14-17].

Həştərxandan Azərbaycan və İran şəhərlərinə buraxılan mallardan 1766-cı ildə 3 674 rubl 17 ½ qəp., 1767-ci ildə 4 762 rubl 56 ¼ qəp., 1768-ci ildə 6 376 rubl 57 ¾ qəp. gömrük haqqı alınmışdı. Azərbaycan və İran şəhərlərindən Həştərxana gətirilən mallardan isə 1766-cı ildə 63 922 rubl 15 ½ qəp., 1767-ci ildə 670 rubl 57 ¼ qəp., 1768-ci ildə 9 496 rubl 81 ½ qəp. gömrük rüsumu alınmışdı. Yenə müqayisə üçün deyək ki, Xivə və Buxaraya Həştərxandan buraxılan mallardan 1766-cı ildə 3 459 rubl 67 ¼ qəp., 1767-ci ildə 6 557 rubl 50 ¼ qəp., 1768-ci ildə 922 rubl 6 ½ qəp. gömrük rüsumu alınmışdı. Xivə və Buxaradan Həştərxana gətirilən mallardan isə 1766-cı ildə 6 557 rubl 50 ¼ qəp., 1767-ci ildə 670 rubl 57 ¼ qəp., 1768-ci ildə 6 537 rubl 6 ½ qəp. gömrük rüsumu alınmışdır [78.2, v.15-17]. Üç il – 1766-1768-ci illər ərzində Həştərxandan Azərbaycan və İrana buraxı-

lan mallardan 14 813 rubl 31 ½ qəp., Azərbaycan və İrandan Həştərxana gətirilən mallardan 22 641 rubl 65 ¾ qəp., Həştərxandan Xivə və Buxaraya buraxılan mallardan 4 804 rubl 13 qəp., Buxara və Xivədən Həştərxana gətirilən mallardan 13 765 rubl 95 ½ qəp. gömrük rüsumu alınmışdı [78.2, v.17].

*Cədvəl 1*

| İllər | Həştərxandan Azərbaycan və İran şəhərlərinə buraxılan malların dəyəri | Alınan gömrük rüsumu | Azərbaycan və İrandan Həştərxana gətirilən malların dəyəri | Alınan gömrük rüsumu | Ticarət dövriyyəsinin həcmi |
|---|---|---|---|---|---|
| **1766** | 138 185 rubl 95 qəp. | 3 674 r. 17½ qəp | 63 922 rubl 15 ½ qəp. | 5 439 r. 98 ½ qəp. | 202 108 rubl 10 ½ qəp. |
| **1767** | 231 504 rubl 18 qəp. | 4 762 r. 56¼ qəp. | 247 508 rubl 60 qəp. | 7 705 r. 7 ½ qəp. | 479 012 rubl 73 qəp. |
| **1768** | 315 982 rubl 35 qəp. | 6 376 r. 57¾ qəp. | 157 505 rubl ¼ qəp. | 9 496 r. 81 ½ qəp. | 473 487 rubl 35 ¼ qəp. |
| **Cəmi:** | 682 672 rubl 48 qəp. | 14 813 r. 31½ qəp. | 468 936 rubl 45 ¾ qəp. | 22 641 r. 65 ¾ qəp. | 1 151 608 rubl 93 ¾ qəp. |

1765-ci ildə Quba xanı rus hökumətinə müraciət edərək qarşılıqlı xeyir əsasında ticarəti genişləndirməyi, "İrana yola düşən gəmilərin" ilk növbədə Dərbəndə yan almasını təklif edirdi. Xan həm də bəzi qadağan olunmuş malların, ilk növbədə dəmirin ixracına yol verilməsini xahiş edirdi [112.1, v.18-19]. II Yekaterinanın göstərişi ilə Xarici İşlər Kollegiyasının sədri N.İ.Panin və Həştərxan qubernatoru N.A.Beketovun imzası ilə Fətəli xana cavab məktubları göndərildi. II Yekaterina və rus hökumətinin digər yüksək rütbəli şəxsləri Quba xanının Rusiya ilə ticarəti genişləndirmək cəhdlərini yüksək qiymətləndirirdilər. II Yekaterina İrana üzən gəmilərin əvvəlcə Dərbəndə yan almalarını tövsiyə edir, ancaq tacirlərə bu məqsədlə təzyiq göstərilməsini qadağan edirdi [112.1, v.18-19].

XVIII yüzilin ikinci yarısında Dərbəndə yan alan ticarət gəmilərinin sayı əhəmiyyətli dərəcədə artsa da, Dərbənd, Rusiya-Azərbaycan ticarətində Bakı, Şamaxı və Salyanı ötə bilməmişdi. Qonşu Dağıstan feodallarının Quba xanları ilə düşmənçiliyi, Dərbənd ətrafında yaşayan əhalinin alıcılıq qabiliyyətinin aşağı

olması və gəmiçiliyə mane olan sualtı sahilyanı daşlar Dərbəndin ticarət əlaqələrinin genişlənməsinə mane olurdu.

Fətəli xan Rusiya-Azərbaycan ticarətində Niyazabadın rolunu da yüksəltməyə çalışırdı. O, həm də irəlidə qeyd olunduğu kimi Salyanı Rusiya ilə ticarətin mərkəzinə çevirməyə çalışırdı. Qeyd etmək lazımdır ki, ticarət məsələləri ilə əlaqədar Rusiya və Quba hakimiyyət orqanları arasında ixtilaflar da olurdu. Məsələn, 1765-ci ildə Rusiyadan Dərbəndə gizli yolla 5 min pud dəmir gətirilibmiş. Bundan xəbər tutan Xarici İşlər Kollegiyasının rəhbəri N.İ.Panin Fətəli xandan həmin dəmiri axtarıb taparaq Həştərxana göndərməyi xahiş etmişdi. Quba xanı sözdə bu xahişi yerinə yetirəcəyini bildirsə də, əslində dəmirin xeyli hissəsini götürərək, Qaraqaytaq usmisi Əmir Həmzənin basqını zamanı onun bütünlüklə aparıldığını iddia edib, xatırlanan xahişi yerinə yetirməmişdi [76.12, v.205-206; 76.10, v.82-88; 123-124].

Rus tacirləri Azərbaycanda yalnız ticarətlə məşğul olmurdular. Onlardan bəziləri müəyyən istehsal obeyktlərini icarəyə götürməklə böyük gəlir əldə edirdilər. Məsələn, Həştərxan taciri Mixayle Knyazevə Kür çayında balıq tutmağa icazə verilmişdi. Doğrudur, çox zaman yerlilərə də Kür çayında balıq tutmaq qadağan olunmurdu. Onlar tutulan orta ölçülü hər nərə balığı və ağ balığa görə 5, uzunburuna görə 2 ½, qızıl balığa görə 25, şamayı balığına görə 5 qəpik ödəyirdilər. Kiçik ölçülü balıqların ikisi bir balıq sayılırdı. Balıqların duzlanması üçün lazım olan duz Salyan ərazisindəki göllərdən toplanırdı, bu zaman hər xarvar (20 pud) duza görə Quba xanının xəzinəsinə 2 rus rublu dəyərində pul ödənilirdi. Qızıl balıq və şamayı başlıca olaraq Dərbənd, Bakı, Quba, Rəştə və digər yaxın yerlərə, nərə balığı, ağ balıq və uzunburun, onlardan alınan kürü və digər məhsullar isə Rusiyaya aparılırdı [162.3, v.6 a.ü.].

1765-1768-ci illərdə Vasili Abramov adlı bir Rusiya tacirinin fırıldaqçı hərəkətləri ilə əlaqədar Rusiya və Quba hakimiyyət orqanları arasında ciddi ixtilaf yaranmışdı. Abramov 1765-ci ildə Salyan balıq vətəgələri və duz mədənlərini ildə 15 min rubl ödəmək şərtilə 5 il müddətinə icarəyə götürmüşdü. O, Fətəli xana yaxın Eldar bəyə min rubl rüşvət verərək icarə haqqının 3 min

rubl azaldılmasına nail olmuşdu. Daha sonra isə icarə məbləği ildə 6 min rubla endirilir [112.3, v.582].

Ancaq V.Abramov bu məbləği də tam ödəmirdi və 1765-1768-ci illər üçün xeyli borcu yığılmışdı. Xəbər gəzirdi ki, Abramov aradan çıxmaq istəyir. Bu zaman V.Abramovun cinayətkar keçmişi də üzə çıxır. Alınan məlumata görə o, tamahkarlıq məqsədilə Məhəmmədhəsən xan Qacarın saray xidmətçisi Qurqen Sultanın qətlinin iştirakçısı olmuşdu. Salyanlı Kəlbəli Sultan Abramovda Qurqenin əşyalarının olduğunu üzə çıxarmışdı [76.10, v.123]. Lakin Abramovu qətldə iştirakına görə cəzalandırmaq Rusiya hakimiyyət orqanlarının səlahiyyətində idi. Buna görə Quba hakimləri onu icarə borclarını vermədiyinə görə cəzalandırmağı qərara aldılar. Abramovu ölüncəyə qədər döymək barədə əmr verildi [76.10, v.123-124].

Lakin Salyandakı rus konsulu Rusiya təbəəsinə bazarda camaat qarşısında fiziki cəza verilməsinə qarşı çıxdı. 1768-ci ildə bu məsələ ilə əlaqədar Salyan sultanı Qubad bəylə konsul Sulyakov arasında mübahisə düşdü, Qubad bəy konsulu təhqir etdi, sonuncu isə bu barədə Fətəli xanla şikayət etdi [76.10, v.131]. Qızlar komendantı Adil bəy Çerkasski adlı bir şəxsi Salyana göndərib, Rusiyaya aparılmaq üçün V.Abramovun ona verilməsini xahiş etdi. Ancaq Fətəli xan V.Abramovun ona xeyli borclu olduğunu bildirib bu xahişi rədd etdi, Qubad bəyin kobudluğunu da onun cavanlığı ilə əlaqədar kiçik bir xəta kimi səciyyələndirdi [76.10, v.123].

Rusiya-Azərbaycan ticarət əlaqələrinin əsas problemlərindən biri gömrük və ticarət şərtləri məsələsi idi. Rus hökuməti 1732-ci il Rəşt müqaviləsinin müvafiq maddəsinə əsaslanaraq Azərbaycanda və İranda rus tacirlərindən gömrük rüsumu alınmamasını tələb edirdi. Lakin müstəqil xanlıqlar vaxtilə şahın götürdüyü öhdəliyə görə öz gəlirlərindən məhrum olmaq istəməyərək rus tacirlərindən gömrük rüsumu almağa çalışırdılar.

XVIII yüzilin 50-60-cı illərində Şamaxı xanlığında və Dərbənddə Rusiya təbəələrindən gömrük rüsumu (əsasən mizan rahdarisi) alınması barədə məlumat vardır. Rusiya konsulunun məlumatında deyilirdi ki, 1765-ci ildə həm Yeni, həm də Köhnə

Şamaxıda yerli və Rusiya tacirlərindən mizan və rahdari rüsumları alınırdı, həm də Köhnə Şamaxıda onların həcmi ikiqat çox idi [179.5, v.189]. Bakıdakı Rusiya konsulu 1766-cı ilin yanvarında Şamaxı hakimləri Məhəmmədsəid və Ağası xanlardan Rusiya tacirlərindən rahdar rüsumu alınmasını dayandırmağı xahiş etmiş, lakin xanlar həmin xahişi yerinə yetirməkdən imtina etmişdilər [179.5, v.189].

S.Q.Qmelin Rəşt müqaviləsinin maddələrinə qayıtmağı, rus mallarından gömrük rüsumu toplayan xanlıqlara qarşı qüvvə tətbiq etməyi təklif etmişdi [163.1, v.66].

S.Q.Qmelin Xəzər ticarətini inkişaf etdirmək üçün rus hökümətinə xüsusi şirkət təsis etməyi təklif edirdi. Şirkət holland və ingilis ticarət şirkətlərinin nümunəsi üzrə təşkil olunmalı idi. İran və digər Xəzəryanı ölkələrə Avropa mallarını aparmaq, həmin ölkələrdən istehsal olunan məhsulları Rusiyaya gətirmək həmin şirkətin inhisarında olmalı idi. Milliyətindən asılı olmayaraq hər bir tacir müəyyən olunmuş məbləğdə kapıtalı qoymaqla şirkətin üzvü ola bilərdi. Tacirlər şirkətə üzv olmaqla onlar arasındakı rəqabət aradan qalxacaqdı [163.1, v.24 a.ü.].

Qmelinin fikrincə, şirkət Xəzərin cənub sahilində bir yer götürməli və orada ticarət faktoriyası inşa olunmalı idi. Şirkət rus və Avropa mallarını ətraf kəndlərin sakinlərinə pulsuz verib əvəzində ipək məhsulu yetişən zaman əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə malın dəyəri həcmində xam ipəyi şirkətə verməli idi [163.1, v.38-39].

Faktoriyada qala da olmalı və qalada rus qarnizonu yerləşməli idi. Heyətin yarısı topçulardan ibarət olmalı idi. Faktoriyada sənətkarlar da məskunlaşdırılmalı, faktoriyanın öz əkin yerləri, bağları, mal-qarası da olmalı idi [163.1, v.39 a.ü.-40].

Qmelin faktoriyanı Gilanda salmağı təklif edirdi. Onun fikrincə Gilan rus Xəzər ticarətində mühüm rola malik idi, Hindistandan bura tacirlər gəlirdi, burada çoxlu ipək istehsal olunurdu. Ancaq Gilanda əlverişli liman olmadığından Rəştin yaxınlığında dənizin dibindəki lili təmizləyib süni liman inşa etmək lazım idi. Liman üçün əlverişli yeri Pəribazar kəndinin yanını sayırdı [163.1, v.40-42].

Qeyd edək ki, Rusiya ilə daha isti münasibətlər yaratmağa çalışan qubalı Fətəli xan mülayim gömrük siyasəti yeridirdi. 1765-ci il məlumatına görə Quba xanlığında gömrük rüsumları o qədər yüksək deyildi. Məsələn, 1 tay əla keyfiyyətli mahuddan – 5 rubl, nazik mahuddan – 3 rubl, 1 çəllək boyadan 1 rubl rüsum alınırdı [179.5, v.166].

Əgər Gilan xanlığında gömrük malın dəyərinin 5 faizi ölçüsündə hesablanırdısa, Fətəli xanın hakimiyyəti altında olan ərazilərdə gömrük rüsumunu əmtəənin qiymətindən asılı olmayaraq, çəkisinə görə təyin edirdilər. Bakıda hər növ ipək məmulatının 1 puduna görə 56,5 qəpik, yəni Gilanda olduğundan bir neçə dəfə az gömrük rüsumu alınırdı [164.3, v.485]. Bu üsulla gömrük haqqı toplanması xan xəzinəsinin gəlirlərinə mənfi təsir göstərirdi. Görünür Quba hakimiyyət orqanları gömrükdən çox gəlir əldə etməyi o qədər də zəruri hesab etmirdilər. Fətəli xan tacirlərin fəaliyyətini ölkənin çiçəklənməsi üçün əsas hesab edirdi [78.5, v.54; 58, s.342]. Quba xanlığında adətən ərzaq məhsullarından, habelə tikinti materiallarından gömrük rüsumu alınmırdı. Bu, xanlığa çox lazım olan un, taxıl və tikinti materiallarının gətirilməsini həvəsləndirmək məqsədi güdürdü.

Fətəli xan, digər Azərbaycan xanlarına və İran hakimlərinə nisbətən rus tacirlərinə böyük imtiyazlar, o cümlədən gömrüksüz ticarət hüququ vermişdi. Xanın rus hökumətinə 1768-ci ilin martında göndərdiyi məktubda deyilirdi ki, 12 il əvvəl Rusiya konsulu P.M.Çekalevski ilə bağlanan sazişə görə Salyanda Rusiya təbəəsi olan tacirlərdən gömrük və rahdar rüsumları alınmır [78.5, v.54]. 1765-ci ilə aid məlumata görə Bakıda da Rusiya təbəələrindən gömrük və rahdar rüsumları alınmırdı [179.5, v.186-240, 200.2, s.615].

Quba xanının 1782-ci ildə Rusiya qarşısında götürdüyü ticarət öhdəliyində Rusiya tacirlərinə gömrüksüz ticarət hüququ və digər imtiyazların verilməsi öz əksini tapmışdı [59, s.102-103]. Bu cür imtiyazlar sayəsində Azərbaycanda Rusiya ticarət kapitalının mövqeyi möhkəmlənirdi. Ancaq bu imtiyazlar birtərəfli səciyyə daşıdığından Rusiya çarizminin Azərbaycana münasibətdə yeritdiyi siyasətin müsətəmləkəçi istiqamətini göstərir və ağırlığı

Azərbaycan əhalisinin çiyninə düşürdü. Rusiya tacirləri tərəfindən gətirilən və aparılan mallardan alınmalı olan gömrük rüsumları yerli alıcılardan və satıcılardan alınırdı [58, s.395-396].

Beləliklə, Azərbaycan tacirləri ikiqat (həm özləri, həm də rus tacirlərinin yerinə) gömrük ödəyirdilər. Lazımi gəliri təmin etmək üçün onlar daxili bazarda Rusiya mallarını yüksək qiymətə almalı olurdular. Rusiya tacirlərinə gömrüksüz ticarət hüququ verilməsi Azərbaycan tacirlərinin fəal ticarət aparmalarına mane olsa da, yerli hakimlərin qazancına zərər yetirmirdi, çünki deyildiyi kimi, onlar Rusiya tacirlərindən alınmalı olan məbləği onlarla alver edən yerli tacirlərdən alırdılar. Rusiya hökumətinin Şərq ölkələrindən, o cümlədən Azərbaycandan ixrac olunan və eləcə də bu ölkələrə idxal olunan bəzi mallara yüksək gömrük tarifləri tətbiq etməsi də Azərbaycan tacirlərinin Rusiyada ticarətinə mənfi təsir göstərirdi. 1752-ci il tarifləri ilə hökumətin maliyyə maraqları nəzərə alınaraq idxal olunan məmulata, habelə pambıq, xam ipək və yuna yüksək gömrük rüsumu qoyulmuşdu. Bu rus sənayesinin bir sıra sahələrinə, ilk növbədə ipək manufakturalarına mənfi təsir göstərdi. Buna görə də 1756-cı ildə ipək manufakturalarının inkişafını təmin etmək və onları xammalla təchiz eimək üçün Həştərxana xam ipək gətirilməsi gömrükdən azad olundu [58, s.397].

1766, 1782, 1796-cı illərdə Rusiyada istehsal olunan hazır məhsul növlərindən olan məhsullara gömrüklər ardıcıl surətdə artırılır, eyni zamanda Rusiya manufakturalarının ehtiyac hiss etdiyi xammala gömrüklər azaldılırdı [58, s.397]. Göründüyü kimi, Rusiya hökuməti əmtəənin hansı Şərq ölkəsindən ixrac olunmasına fərq qoymur, bu ölkə və vilayətlərin bəzilərində rus tacirlərinə imtiyazlar verilməsini nəzərə almırdı. Halbuki Quba xanı haqlı olaraq Rusiya hökumətinin onun təbəələri olan tacirlər üçün qarşılıqlı imtiyazlar verməsini gözləyirdi. Belə ki, 1767-ci ildə Həştərxan gömrükxanasında Quba xanının naziri Mirzə bəyin mallarından gömrük haqqı alınmışdı. Yenə həmin il Fətəli xanın özünə məxsus mallara 1705 rubl gömrük rüsumu qoyulmuşdu. Xan taciri Kəlbəli buna etiraz edərək malları Həştərxanda qoyub Azərbaycana qayıtmışdı [76.11, v.32].

Quba xanının mallarından gömrük alınması və Quba tacirlərinin rus məmurları tərəfindən sıxışdırılması ilə əlaqədar Fətəli xan dəfələrlə rus hakimiyyət orqanları ilə mübahisəyə girmişdi. Xan Bakıdakı rus konsuluna bildirmişdi ki, onun mallarından Həştərxanda gömrük haqqı alınması düzgün deyildir. Buna görə də o, Həştərxanda saxlanmış mallarının bir ay müddətində gömrük rüsumu alınmadan buraxılmasını tələb edir, əks halda əvəzini Bakıdakı rus tacirlərindən alacağı ilə hədələyirdi [78.5, v.49]. Bu məsələ 1769-cu ilin may ayında Rusiya Xarici İşlər Kollegiyasında müzakirə olunmuş və qərara alınmışdı ki, bu dəfə Fətəli xanın malları gömrüksüz buraxılsın, ancaq bundan sonra onun mallarından da gömrük rüsumu alınsın [78.6, v.97]. Rus hakimiyyət orqanları ehtiyat edirdilər ki, digər xanlar da bu nümunədən istifadə edib onların mallarından gömrük haqqı alınmamasını tələb etsinlər.

Rusiya Xarici İşlər Kollegiyası 1784-cü il yanvarın 19-da kn. Potyomkinə məlumat verirdi ki, konsul Tumanovski Ənzəlidən 1783-cü il oktyabrın 16-da yazdığı raportda gilanlı Hidayət xanın rus təbəəsi olan tacirləri sıxışdırmasından, onların satın aldıqları ipəkdən mizan rüsumu (hər batmandan 2 man. 50 qəp.) yığdığından gileylənirdi. Xatırlanırdı ki, Rəşt müqaviləsinin üçüncü maddəsinə görə rus tacirləri hər cür gömrük rüsumundan azaddırlar [175.2, v.32].

Qeyri-bərabər münasibətlər üzündən Azərbaycan-Rusiya ticarətində ciddi ixtilaflar və şikayətlər XVIII əsrin bütün ikinci yarısı ərzində davam etmişdir. Hər dəfə də məsələ Rusiya hakimiyyət orqanlarının və Rusiya tacirlərinin xeyrinə həll olunurdu [58, s.403].

Rusiya tacirlərinin gömrüksüz ticarət hüququna malik olması bir çox sui-istifadə halları da doğururdu. Belə ki, bir çox qeyri-rus təbəələri gömrük haqqı ödəməmək üçün tez-tez müəyyən məbləğdə rüşvət verməklə gizli sövdələşmə əsasında öz mallarını Rusiya təbəələrinin adından istifadə etməklə Azərbaycana gətirirdilər [179.7, v.78]. Bir sıra hallarda Rusiya tacirlərinin işini yerli dili və adətləri yaxşı bilən qeyri-rus xidmətçiləri yerinə yetirirdilər. Bu xidmətçilər qeyri-rus tacirlərinin mallarını öz

ağalarının malları kimi təqdim etməklə gömrükdən yayınırdılar. Bu isə nəinki Azərbaycan və İran hakimlərinin maliyyə maraqları üçün zərərli idi, həm də rus tacirlərinin rəqiblərinə xeyir gətirməklə son nəticədə rus tacirlərinin rəqabət qabiliyyətinə mənfi təsir göstərirdi. Buna görə də rus hökuməti sərt cəza tədbirləri ilə hədələyərək bu cür halların qarşısını almağa çalışırdı. Belə bir qayda qoyuldu ki, Rusiya tacirləri əvvəlcədən özlərinə məxsus malların siyahısını təsdiq etdirsinlər [179.5, v.171].

Gömrük ödəməkdən yayınmaq üçün Qafqaz mənşəli tacirlər bir sıra hallarda öz əmlakı və ailələrini əvvəlki yerdə qoyaraq müəyyən müddətə Qızlar və Həştərxana köçür və Rusiya təbəəliyini qəbul edirdilər. Bəzən onlar ikili təbəəliyi və hətta ikili soyadını saxlayırdılar. Bu isə ticarətdə böyük çətinliklər yaradırdı [86.2, v.720].

Rus hökümətinin bəzi dairələri siyasi maraqlar xatirinə şərqli tacirlərə gömrük məsələsində güzəştə getməyə tərəfdar çıxırdılar. Məsələn, 1790-cı ilin dekabrında Qafqaz canişini Həştərxandan II Yekaterinaya yazırdı ki, Tarki şamxalı və qubalı Əhməd xan ondan Tarki və Quba tacirlərinə Rusiyaya gömrüksüz mal aparılmasına icazə verilməsini xahiş etmişlər. Canişin belə hesab edirdi ki, Rusiya ilə Türkiyə arasında müharibə davam etdiyi bir zamanda Azərbaycan və Dağıstan əhalisi Türkiyəyə meyl etməsin deyə bu ölkələrin tacirlərinə Rusiyaya gömrüksüz mal aparmağa icazə vermək olar [79.8, v.335-336].

Ancaq, bəzən Rusiya gömrük orqanları özbaşına Azərbaycan, Gilan, Hind və Xivə tacirlərindən alınan gömrük tariflərini artırırdılar. 70-ci illərin ortalarında bir neçə Şərq tacirinin verdiyi ərizədən məlum olur ki, onlardan idxal və ixrac edilən mallara görə qayda üzrə 1 manata 10 qəpik olduğu halda 1 manata nə az, nə çox 25 qəpik alınırmış [86.2, v.722, 731].

Hətta rus ticarət dairələrinin Bakunin, Yablonski və başqa xadimləri ticarətin genişlənməsinə şərait yaratmaq üçün Rusiya tacirlərindən də Xəzərsahili vilayətlərdə gömrük rüsumu alınmasına icazə verilməsini, Azərbaycan və İrandan gələn tacirlərdən alınan vergilərin azaldılmasını təklif edirdilər. Lakin rus hökuməti bu təkliflərlə qətiyyən hesablaşmadı.

Ehtimal ki, bir sıra Azərbaycan xanları rus tacirlərindən gömrük rüsumu alınmasını uzun müddətdən sonra olsa da qayda halına salmağa nail olmuşdular. Belə ki, 1801-ci ildə Bakı xanının Peterburqda olan səfiri Mirzə Hadı bəy bildirmişdi ki, keçmişdən bəri Bakıda Rusiya tacirlərindən aşağıdakı qaydada gömrük rüsumu alınmışdır: bir taydan (çəkisi 10-20 pud arasında) 1 rubl 5 qəpikdən 5 rubl 5 qəpiyə qədər. İndi Bakı limanında duran rus freqatının komandiri və rus konsulu bu gömrük rüsumunun toplanmasına mane olurlar. I Aleksandrın həmin məsələ ilə əlaqədar verdiyi 3 dekabr 1801-ci il tarixli fərmanında yalnız Bakıda satılacaq Rusiya mallarından gömrük rüsumu toplanmasına icazə verilirdi [114.2, v.1].

Malları verərkən gömrükxanada bir sıra süni maneələr yaradılırdı. Gömrük məmurları yüksək gömrük məbləği almaq, yaxud rüşvət almaq üçün qəsdən malların dəyərini şişirdirdilər [86.2 v.149-150; 110, v.5-7]. Bütün bunlar Şərq tacirlərinin çoxsaylı şikayətlər verməsinə səbəb olurdu. Şərq tacirlərinə qarşı özbaşınalıq və kobudluq halları o dərəcədə artmışdı ki, rus hökuməti bunun qarşısını almaq üçün xüsusi qərarlar qəbul etməli olmuşdu. Gömrükxanalarda Şərq dillərini bilən tərcüməçilər saxlanmalı, Şərq tacirlərindən onların öz dillərində yazdıqları ərizələr qəbul olunmalı idi.

Müxtəlif maneələrə baxmayaraq, Azərbaycan-Rusiya ticarət dövriyyəsi ləng də olsa artırdı.

Təkcə 1781-ci ilin may ayında Dərbənddən Həştərxana 104 467 rubl. 12 qəpik həcmində, 1784-cü ilin sentyabr ayında isə 104240 rubl. 25 qəpik dəyərində mal ixrac olunmuşdu [111.5, v. 24-36; 109, v.120-128].

## §3. 90-cı illərin sonunda iki ölkə arasında ticarətin durumu

Rus hökumətinin və bir sıra Azərbaycan xanlarının səylərinə baxmayaraq, XVIII əsrin sonunda Rusiya-Azərbaycan ticarətinin vəziyyəti heç də qənaətbəxş deyildi.

Qafqaza yeni hücumun hələlik gündəmdə olmadığı illərdə rus hökuməti Azərbaycan və İranla ticarət məsələlərinə daha çox diqqət yetirirdi. Mixail Skibinevskinin 1798-ci il iyunun 1-də Həştərxandan göndərdiyi məlumatlardan aydınlaşır ki, 1798-ci ildə Fətəli şah elçisi Mir Seyid Həsəni Peterburqa göndərərkən bir sıra başqa təkliflərlə yanaşı rus konsulluğunun Sarı adasından Ənzəliyə köçürülməsini təklif etmişdi [79.10, v.25].

Bununla əlaqədar konsul Rusiya ilə Azərbaycan və İran arasında ticarətin ümumi vəziyyətini təsvir etmişdi. Konsul yazmışdı ki, Nadir şah qətlə yetiriləndən sonrakı dövrdə Rusiyanın İranla ticarətinin vəziyyəti pisləşmişdir. Onun fikrincə XVIII əsrin ikinci yarısında İranın əsas ticarət məntəqələri İsfahan və Rəşt şəhərləri idi. Rus tacirləri İranın daxili şəhərlərinə getməyə qorxurdular. Gilanda da Rus-İran ticarətinin vəziyyəti qənaətbəxş deyildi [79.10, v.27-28].

Skibinevski ayrı-ayrı şəhərlərdə rus ticarətinin vəziyyətini təsvir edirdi. Dərbəndə Həştərxandan gəmilərlə mahud, mərsin boyası, koşenil (qırmızı boya), digər boyaq materialları, ətriyyat, şəkər, ipək və pambıq parçalar, yazı kağızı, yuft (yumşaq dəri növü), metal məmulatı, məişət əşyaları; dəmirlə haşiyələnmiş sandıqlar, ağcaqovaqdan hazırlanmış qutular, qaşıqlar, fincan, şəbəkələr, çit, quş qəfəsləri, sümükdən düzəldilmiş avarlar, balıq dişləri gətirilirdi. Mahudun nazikləri – tünd qırmızı mahud (ən çox karmazın) Dərbənddə satılırdı. Mahudun digər növləri, eləcə də yuxarıda adı xatırlanan mallar digər şəhərlərə – quru yolla Şamaxıya, Şəkiyə, gəmilərlə isə Gilana və digər yerlərə daşınırdı. Dərbəndə Şamaxıdan ipək və ipək parçalar-movlar, darayi və s. gətirilirdi. Tarki və ona qonşu yerlərdən marena, bal, meyvələr, inək yağı, pendir, burki (altı gön keçə ayaqqabı), Kubeşə mahudu, tüfəng, tapança gətirilirdi. Bakıdan Dərbəndə qətran,

neft və duz aparılırdı. Dərbənddən quru yolu ilə Qızlara və rus gəmiləri ilə Həştərxana bir ildə altı min puda qədər marena aparılırdı. Konsul yazırdı ki, Dərbənd sahillərində gəmilərin dayanması narahat və təhlükəlidir, gəmiləri yükləmək çətindir, gec başa gəlir, buna görə də Dərbənd sahilndə 1-2 gəmi qısa müddətdə dayanır. Buna görə də bir çox hallarda Həştərxana yola salınmaq üçün marenanı Dərbənddən quru yolla Bakıya aparırlar [79.10, v.30 və a.ü.].

Skibinevski yazırdı ki, XVIII əsrin birinci yarısınadək rus ticarət gəmilərinin yan aldıqları duracaqlardan biri olan Niyazabada əsrin ikinci yarısında gəmilər demək olar ki, gəlmirdilər. Buna səbəb gəmilərin əsasən Bakı, Salyan və başqa limanlara yan almaları idi [79.10, v.30 a.ü.].

Konsul Xəzərin qərb sahillərində ən əlverişli limanın Bakı olduğunu yazırdı. Bakı ticarətində Şamaxının rolu böyük idi, bura dağıstanlılar da öz mallarını gətirirdilər. Skibinevski yazırdı ki, Cənubi Azərbaycandan, Gilan və Mazandarandan da tacirlər Bakıya gəlirlər. Burada Dərbəndə nisbətən daha gur ticarət gedirdi.

Bakıda dövriyyədə olan sikkələr Gilan və rus sikkələrindən daha keyfiyyətsiz idi. Ancaq tacirlər bunun əvəzini belə üsulla çıxırdılar. Malları satmaqdan əldə etdikləri pula neft alır, onu Ənzəliyə aparır, burada nefti Gilan puluna satır, sonra da ipək və başqa məhsullar alırdılar. Bakıdan Gilan və Mazandarana neft və duz başlıca olaraq rus gəmilərində daşındığından rus gəmi sahibləri böyük gəlir əldə edirdilər. Buna görə də Bakı buxtasında həmişə çoxlu rus gəmisinə rast gəlmək olurdu. Bakıda daşınmalı mallar az olduqda gəmiçilər Niyazabad və Lənkərandan buraya odun, Ənzəli və Mazandarandan çəltik və başqa məhsullar daşıyırdılar. Bakıya Həştərxandan eynilə Dərbəndə gətirilən çeşiddə mallar, ancaq daha böyük miqdarda gətirilirdi. Bakıdan həmin mallar quru yolla Şamaxı, Gəncə və Qarabağa, hətta Tiflisə, gəmilərlə isə rus gəmilərinə, bəzən isə yayda dənizin sakit vaxtında sandallarda və kirjimlərdə Gilan və Mazandarana daşınırdı. Rus konsulu yazırdı ki, Bakıda yuxarıda adı çəkilən mallardan başqa metal təbəqələri, baltalar, çəkic, mis sırgalar, qalay şamdanlar, üzük, neştər, buğda unu, tafta, savr (qurudulmuş at

dərisi), kalmık quzu (papaqlıq) dəriləri, kazak üzəngilərini sərfəli satmaq mümkündür. Şamaxıdan Bakıya ipək və ipək parçalar, pərdələr, mov. darayı, şemaxdruz (yəqin ki, şamaxıduz – yəni Şamaxıda toxunan deməkdir), pambıq parçalar, meyvələrdən-şabalıd, şaftalı, habelə üzüm şərabı gətirilirdi.

Cənubi Azərbaycandan Bakıya mazı, badam və qoz gətirilirdi. Şəkidən ipək, Tiflisdən qırmızı mis gətirilirdi. Ənzəlidən zərbaftlar, ziba, kitayka, ipək və pambıq pərdələr və yataq örtükləri, kolenkor (qələmkar), şal, xalı, savr başmaqlar, çəltik, meyvələrdən – limon, kişmiş, şaftalı, püstə, badam, yunan və hind qozu gətirilirdi. Mazandarandan da belə mallar, ancaq daha böyük miqdarda gətirilirdi. Salyandan Bakıya aşağı keyfiyyətli ağ və zolaq-zolaq bezlər, Qubadan pambıq parçalar gətirilirdi. Bakıdan Azərbaycanın digər yerlərinə – Şamaxıya, Quba və Dərbəndə, ən çox da Ənzəli və Mazandarana Həştərxandan gətirilmiş mallar, habelə neft, duz, zəfəran, qətran, Həştərxana neft (ən çox ağ neft), zəfəran, duz aparılırdı [79.10, v.30 a.ü-31 a.ü.]

Skibinevskinin hesablamalarına görə 1793-cü ildə Həştərxandan Bakıya 340 min rubl dəyərində, Bakıdan Həştərxana isə 240 min rubl dəyərində mal (o cümlədən 55 min rubl dəyərində neft və duz) aparılmışdı. Həştərxana gətirilən mallardan 4 min rubl gömrük haqqı toplanmışdı [79.10, v.31 a.ü.].

Skibinevski yazırdı ki, rus gəmilərinin prikaşşikləri arasında olan rəqabət onların yükdaşımadan daha çox gəlir götürmələrinə mane olurdu. Belə ki onlar bir-birini qabaqlamaq məqsədilə xana, yaxud xanın məmurlarına qazanılıcaq məbləğin bir hissəsini təklif edirdilər ki, onlar digər gəmilərə mal yükləməsinə mane olsunlar. Konsulun yazdığına görə bu elə şəkil almışdı ki, Bakı xanı və onun məmurları tacirlərə daşınma üçün nəzərdə tutulan məbləğin üçdə birini, hətta yarısını onlara vermədən mallarını gəmilərə yükləməyə imkan vermirlər. Buna görə də tacirlər gəmilərə daha az pul verməli olurdular. Gəmiçilər isə yük gözləməyə xeyli vaxt itirdikdən sonra tamamilə yüksüz qalmamaq xatirinə az məbləğə də razılaşmalı olurdular. Skibinevski Bakıda konsul olarkən dəfələrlə xandan tacirlərdən gəmilərə mal yükləməyə görə pul alınmamasını tələb etdiyini yazırdı. Xan cavabında

deyirmiş ki, o rus gəmiçilərindən heç nə tələb etmir, yerli tacirlərlə öz şəhərində isə istədiyi kimi rəftar edə bilər. Skibinevski bu halın qarşısını almaq üçün rus gəmiçiləri arasında yük götürmə üçün növbə təşkil edibmiş. Sonradan gələn gəmilər növbə gözləyər, ya da yük götürmək üçün digər limanlara gedirdilər. Artıq növbəsi çatan gəmiçi heç nədən ehtiyat etmədən tacirlərdən daşınma üçün haqqın tam məbləğdə ödənilməsini tələb edirdi. Xan isə tacirlərin, xüsusən bakılı tacirlərin qəzəblənməsindən ehtiyat edərək, artıq onlardan malları gəmiyə yükləməyə görə pul tələb etmirdi [79.10, v.32].

Skibinevski Salyanda ticarətin vəziyyəti ilə bağlı məlumat verərək yazırdı ki, Kür çayı vasitəsilə rus ticarəti böyük xeyir verə bilər. Ancaq sonralar məlum olmuşdur ki, əvvəla mənsəbində bu çayın qolları lillənir və gəmiçilik üçün yararsız olur, ikincisi, iti axdıqlarına və sualtı daşlara görə Kür və Araz çayları gəmilərin hərəkəti üçün təhlükəlidir. Salyana Şamaxı, Gəncə və Muğandan olan tacirlər gəlirdilər. İrəvan tacirləri isə daha çox Qara dəniz limanlarına gedirdilər. Tiflisdən isə tacirlər daha çox quru yolla Mozdoka və Qızlara gedirdilər. Həştərxandan Salyana Bakıya gətirilən çeşiddə, ancaq daha az miqdarda mallar gətirilirdi. Rusiya gəmiləri Salyana başlıca olaraq balıq və kürü aparmaq üçün gəlirdilər. Şamaxı və Gəncədən də Bakıya gətirilən mallarla eyni çeşiddə, ancaq daha az miqdarda mallar Salyana gətirilirdi. Bakıdan Salyana kirjimlərdə neft, rus gəmilərində isə balıq duzlamaqda istifadə olunmaq üçün duz gətirilirdi. Salyandan isə gəmilərlə Həştərxana aşağı keyfiyyətli ağ və zolaqlı bezlər aparılırdı. Bu mallar quru yolla Bakıya da daşınırdı. Salyandan böyük miqdarda nar aparılırdı. Konsul yazırdı ki, Kür ətrafında çoxlu qənəfə əkib kəndir toxumaq olar. Salyanda kifayət qədər üzüm də yetişdirilirdi. Kürün mənsəbində balıqçılıq çox gəlirli peşə idi [79.10, v.32 a.ü.].

Skibinevski Lənkəranın ticari əhəmiyyətinin çox az olduğunu yazırdı. Bura nadir halda rus gəmisi, o da odun aparmaq üçün gəlirdi. Buradan çəltik, buğda unu, bal, inək yağı, pendir kimi yeyinti məhsullarını kirjimlərlə Bakıya daşıyırdılar. Əvəzində Bakıdan neft və duz gətirilirdi. 1795-ci ilin yazında rus ticarət və

hərbi gəmilərində Lənkərandan Həştərxana 4 min pud çəltik, 40 min rubl dəyərində Təbrizdə istehsal olunmuş yarım ipək parçalar, qumaşlar, müxtəlif pambıq parçalar, burmet və digər parçalar, badam və mazı aparılmışdı. Həmin ildə bir Həştərxan taciri Lənkəranda keyfiyyətcə Rəşt ipəyindən geri qalmayan 20 pud ipək almışdı. Buna görə də Skibinevski hesab edirdi ki, Lənkəranda ipəkçiliyi inkişaf etdirmək olar. Ancaq əvvəlcə gilanlıların aramsız basqınları, sonra isə Ağa Məhəmməd xan Qacarın basqınları Lənkəranda ipəkçiliyə zərbə vurmuşdur. 1795-ci ilin yayında gilanlılar Lənkərana basqın edərkən qəsdən tut ağaclarını doğramışdılar. Konsulun yazdığına görə Lənkərana gedən quru yolları tacirlər üçün təhlükəsiz deyildi; Talış dağlarının qərbində yaşayan deleqardlı adlı tayfanın üzvləri Təbrizdən gələn karvanları və Ərdəbildən ərzaq məhsulları gətirən yükdaşıyanları qarət edirdilər [79.10, v.33].

Lənkəranın yaxınlığında Xəzər dənizində Qızılağac körfəzində yerləşən Sarı adası gəmilərin yan alması üçün çox əlverişli idi. Ancaq ada adamların yaşaması üçün əlverişli deyildi, çünki, əvvəla quyulardakı şirin su şorlaşırdı, ikincisi, oradakı göllərdə su axmadığı üçün yayda iylənir və insanların sağlamlığına böyük zərər yetirirdi. Skibinevski yazırdı ki, adanı qurutmaq və isti vaxtlarda materikdən adaya içməli su gətirmək olar. Ancaq Rusiya tacirləri bu adada ticarətlə məşğul olmağa meyilli deyildilər, Azərbaycan və İranın müxtəlif şəhərlərindən Həştərxana gələn tacirlər isə buradan rus gəmilərini yükləyib gəldikləri şəhərlərə qayıdırdılar. Buna görə də Skibinevski hesab edirdi ki, Sarı adasında konsulluğun saxlanması mənasız olmuşdur. Doğrudur, Sarı adası çox təhlükəsiz yerdir. Ağa Məhəmməd xan nə qədər cəhd etsə də adanı tuta bilməmişdi. Konsulun yazdığına görə Ağa Məhəmməd xan Abbas xana buna görə qəzəblənmişdi. Sonda Skibinevski belə nəticə çıxarırdı ki, Sarı adası və Lənkəran vasitəsilə ticarət olmadığı üçün rus hökuməti Lənkəranlı Mustafa xana görə Qacarla ixtilafa girməməli, rus konsulu əvvəlkitək Ənzəlidə oturmalıdır [79.10, v.33 a.ü.].

Skibinevski Rusiyanın Xəzər ticarətinin vəziyyətini təhlil edərək aşağıdakı nəticəyə gəlmişdi:

Həştərxan tacirləri yalnız gəmilərində yük daşımaqdan gəlir götürdüklərindən onların bu gəlirdən də məhrum olmamaları üçün konsul rus gəmilərinin daha çox yan aldığı Ənzəlidə iqamət etməlidir. Konsul gəmilərin yüklənməsinə nəzarət etməli, gəmiçilərin qiyməti salmaqla bir-birilərinə zərər yetirmələrinə mane olmalıdır; Gəmilərin konstruksiyası yeniləşdirilməli, təkmilləşdirilməlidir; Rusiyanın Xəzəryanı ölkələrlə ticarətinə nəzər yetirilərsə Rusiyadan bu ölkələrə gətirildiyindən daha az mal aparldığı müşahidə olunur, bu yəqin onun nəticəsidir ki, şərqli tacirlər Rusiyaya gətirib satdıqları malların əvəzinə heç də bütünlüklə mal alıb aparmır, rus və Avropa qızıl və gümüş pullarını, xüsusən holland əşrəfilərini aparırlar. Buna görə də gömrükxanalarda, ələlxüsus Qızlar gömrükxanasında qiymətli metalların gizli keçirilməsinə mane olmalıdırlar;

Skibinevski hesab edirdi ki, Rusiyadan şərq ölkələrinə qiymətli metalların və onlardan düzəldilən pulların aparılmasının tamamilə qarısını almaq mümkün olmayacaq, buna görə təklif edilirdi ki, aparılan qiymətli metallardan bəlkə gömrük alınsın.

Xəzəryanı ölkələrdə və Hindistanda hazırlanmış müxtəlif parçaların Rusiyada gətirilib satılması Rusiyadakı manufakturaların inkişafına mane olurdu. Buna görə də Manufaktur-kollegiya rus fabrikantlarına göstəriş verməlidir ki, onlar Azərbaycan və İranda istehsal olunan parçalarla eyni keyfiyyətdə və eyni zövqlü parçalar: darai, atlas, şamandruz (şamaxıduz – T.M.), qənavat, zərbaft, kitayka, mov, bez, burmet, pərdələr, qumaş, fatı, qədifə, yataq örtükləri, dəsmallar, xalçalar istehsal etsinlər. Bu malar kifayət miqdarda Rusiyada istehsal olunduqdan sonra həmin malların Rusiyaya gətirilməsi qadağan olunsun.

Həştərxan karvansaralarında yaşayan şərqli tacirlərin gizli surətdə pərakəndə satışla məşğul olmalarının qarşısı alınmalıdır [85.2, s.711-712].

Kommers-kollegiyanın prezidenti Pyotr Semyonov Skibinevskinin təklifləri ilə bağlı aşağıdakı qeydləri etmişdi:

Bir çox hallarda rus hərbi gəmiləri şərq tacirlərini və onların mallarını daşıyırlar ki, bu nəinki mülki gəmi sahiblərinin, həm

də xəzinənin gəlirlərinin azalmasına səbəb olur, çünki hərbi gəmilərdə gələn tacirlər və onların əmlakı çox zaman gömrük baxışından yan keçirdi. Buna görə də hərbi gəmilərə (yalnız qəzaya uğramş gəmilərin sərnişinlərini xilas etmək halları istisna olmaqla) tacirlərin mallarını və onların özlərini götürmək qadağan edilməlidir [85.2, s.721-723].

1798-ci il oktyabrın 25-də Dövlət Şurasında Kommers-kollegiyanın prezidenti P.Semyonovun iştirakı ilə Skibinevskinin təklifləri müzakirə olunmuşdu. Qəbul edilən qərarda deyilirdi ki, xəzinənin gəlirlərini artırmaq üçün 1754-cü ildən qiymətlərin artdığını nəzərə alaraq gömrük tariflərini də artırmaq olar. Rusiya fabrikləri üçün Şərq ölkələrindən gətirilən xammal Avropa vilayətlərindən alınan xammaldan ucuzdur, buna görə də nə yolla olur-olsun həmin malların idxalını həvəsləndirmək lazımdır. Ənzəlidə konsulluq üçün iqamətgah tikilməsi məsələsini öyrənməli və lazımi tədbirlər görülməli idi [85.2, s.682-686].

XVIII əsrin sonlarında rus hökumətinin tapşırığı ilə Rusiyanın Xəzəryanı ölkələrlə ticarətini inkişaf etdirmək üçün təkliflər hazırlayan müəllifin (yəqin ki, V.Zubov) fikirləri çox maraqlıdır. O yazırdı ki, ehtimal ki, daha doğrusu şübhəsiz, İran körfəzindən Bakıya uzanan karvan yolu ilə mallar Gürcüstana, buradan da Qara dəniz vasitəsilə bütün Avropaya daşınırdı [86.1, v.6 və a.ü.]. Müəllif yazırdı ki, əgər Bakı lazımi qaydada qurulacaq və hər kəs burada özünün və əmlakının təhlükəsizliyinə əminlik hiss edəcəksə, şübhəsiz bu şəhər bütün İran ticarətinin mərkəzi olar, ən zəngin iş adamlarını özünə cəlb edər; Mazandaran və Ənzəli limanları öz-özünə lazımsız limanlar kimi məhv olar, həmin vilayətlərdə istehsal olunan mallar isə kirjimlərlə Bakıya daşınar [86.1, v.6 a.ü.]. Müəllif daha sonra sual verir: Bakı vasitəsilə yaxşı ticarət yolu açılarsa, bu Rusiyanın bütün İrana güclü təsir vasitəsi ola bilməzmi? [86.1, v.6 a.ü.].

İrəlidəki bölmədə qeyd olunduğu kimi, V.Zubov Bakını yenidən qurmaqla və orada ticarəti inkişaf etdirməklə buranı müqəddəs şəhərinə çevirməyi, bu yolla hind tacirlərini bu şəhərə cəlb etməyi təklif edirdi.

Müəllif belə hesab edirdi ki, rus qoşunlarının 1796-cı il yürüşünün başlıca səbəbi Xəzəryanı ölkələrdə ticarəti genişləndirmək vəzifəsi olmuşdur [86.1, v.7].

V.Zubov belə hesab edirdi ki, II Yekaterina Gürcüstanı himayəyə götürməklə həmetiqad xalqı xilas etməklə yanaşı, daha çox Rusiyanın bölgədəki ticarətini təmin etmək məqsədi güdmüşdür. Zubov təklif edirdi ki, Rusiyaya əhəmiyyətli xeyir verməkdən ötrü Gürcüstanı möhkəmləndirmək və siyasi qüvvəyə çevirmək üçün onun sərhədləri Kür və Araz çaylarının qovuşuğuna qədər uzadılmalı, Şuşa, Naxçıvan və İrəvan, Qara dənizi ətrafında Rioni çayı boyunca ərazi – İmeretiya ona birləşdirilməlidir [86.1, v.7 a.ü.] Ararat patriaxı ilə dostluq sayəsində Gürcüstan bütün "pərakəndə İran" üzərində hökmranlıq edə bilər və öz mövcudiyyəti üçün borclu olduğu Rusiyanın şadiq müttəfiqi kimi bu ölkəni, hətta türklərin mülklərini nəzarət altında saxlaya bilər. Gürcüstan Kür çayı boyunca artıq Kürün gəmiçiliyə yararlı olmağa başladığı yeri-Gəncəni öz əlinə keçirməklə yanaşı Rusiya ilə digər əlverişli rabitə yolu əldə etmiş olardı. Beləliklə bu torpaq Rusiya sərhədlərinin sakitliyi üçün mühüm dayaq, yeni zənginlik mənbəyi ola bilərdi [86.1, v.7 a.ü.8].

II Yekaterina Gürcüstanın əhəmiyyətini nəzərə alaraq regionda Rusiya təsirini və ticarətini bərqərar etmək üçün Arazın Kürə töküldüyü yerdən bir qədər aşağıda qala inşasının zərurətini dərk etmişdır. Bu qalanın, eləcə də Bakı limanının yenidən qurulmasının layihəsi bütün xırda xərclər nəzərə alınmaqla artıq hazırlanmışdı. Yekaterinaserd adlandırılacaq bu qalada Roma koloniyaları tipində 2 min gənc əsgəri məskunlaşdırmaq nəzərdə tuturdu. Gürcülər və ermənilər onlara gəlin verməli idilər. Gürcüstanla daimi dostluq əlaqələri sayəsində bu məntəqə Rusiyanın regiondakı ticarətinin təhlükəsizliyini təmin edə bilərdi [86.1, v.8]. Beləliklə, Rusiya Azərbaycan və İranın ticarətini Həştərxana yönəltmək imkanı əldə edəcək, Gürcüstanı möhkəmləndirməklə Qafqaz xəttini dağlıların basqınlarından mühafizə edəcək və hətta Türkiyə ilə müharibə təqdirində onu qüvvələrinin bir hissəsini Anadolu sərhədlərində saxlamağa məcbur edəcəkdi.

Müəllif sonda belə bir qəti nəticə çıxarırdı ki, Rusiyanın Xəzəryanı bölgədə ticarətinin çiçəklənməsi bu ticarətə inamı möhkəmləndirməyin yeganə yoludur, Qafqaz xəttinin tam sabitliyi, Gürcüstanın genişlənməsi və qüvvəsinin artması ilə möhkəm bağlıdır [86.1, v.8 a.ü.-9].

Bir çox hallarda rus gömrükxana işçilərinin özbaşınalıqlar etməsi, Azərbaycan və digər şərq tacirlərindən müəyyən olunduğundan artıq məbləğdə gömrük haqqı almaları Azərbaycan – Rusiya ticarətinin normal inkişafına mane olurdu. 1787-ci ildə Hacı ağa və digər 10 azərbaycanlı tacirin II Yekaterinanın adına yazdıqları ərizədə Həştərxan gömrükxana işçilərinin özbaşınalığından şikayət edilirdi [86.1, v.151]. Rus hökümətinin yaratdığı komissiya müəyyənləşdirmişdi ki, 1786-1787-ci illərdə Qızlar gömrükxanasında Azərbaycan və Dağıstan tacirlərindən qanunsuz olaraq 878 rubl 75 qəpik gömrük haqqı alınıb. Bu özbaşınalığa görə gömrükxananın rəisi Petrov 1789-cu ildə tutduğu vəzifədən kənarlaşdırılmışdı [86.1, v.13-14, 87].

## §4. İdxal və ixracın xarakteri. Tacirlərin milli tərkibi

İdxal və ixracın xarakteri ticari-siyasi münasibətlərə girən ölkələrin qarşılıqlı münasibətlərinin mahiyyətini əks etdirirdi.

Azərbaycandan Rusiyaya başlıca olaraq xam ipək, pambıq, pambıq iplik, pambıq bezlər, pambıq-ipək cecimlər, marena (qızıl boya), yun, qoyun dərisi, pambıq parçadan hazırlanmış örtüklər, düyü, basma, müxtəlif quru meyvə, kiçik ölçülü ipək parçalar, yarımipək süslər, balıq, kürü və s. ixrac olunurdu [111.5, v.103-107, 125-130; 109, v.120 a-ü, 122; 180, v.12, 25, 32-41; 179.11, v.3-57]. Ayrı-ayrı şəhər və bölgələrdən səciyyəvi məhsullar ixrac edilirdi. Məsələn, Bakıdan hələ XVI əsrdən başlayaraq Rusiyaya neft ixrac edilirdi. Bakı nefti Rusiya vasitəsiylə Qərbi Avropa ölkələrinə də daşınırdı [147, s.34]. Dərbənddən yun, meyvələr, qızıl boya, xam ipək, Salyan və Cavaddan balıq, kürü, duz, yun, gön məmulatı, mal-qara, Lənkərandan düyü və ipək ixrac olunurdu. Quba, Şamaxı, Qarabağ və digər yerlərdən xalçalar aparılırdı. Ən yaxşı xalçalar Quba xanlığının Çiçi, Nügədi və Rustov kəndlərində toxunurdu [163.1, v.34-35].

Rusiyadan Azərbaycana, qaçaqmalçılıqla gətirilən mallar da daxil olmaqla müxtəlif məxmərlər, yumşaq xəzlər, kətan parçalar, müxtəlif mahud parçalar, tafta, atlas, qıfıl, mismar, iynə, mis qab-qacaq, polad, balta, bal, bıçaqlar, məftillər, alman civəsi, çuqun lövhələr, sandıqlar, kağız, ağboya, başmaqlar, gön-dəri məmulatı, şüşə, sabun, mətbəx əşyaları, gil qablar, şəkər, un, müxtəlif boyalar, eynəklər və başqa mallar ixrac olunurdu [186.3, v.31-32; 86.1]. Bir sıra malların, hətta atların ixracına qadağa qoyulmuşdu. Bəzən hərbi işə yararlı olmayan atların Azərbaycana və İrana ixracına icazə verilirdi [179.3, v.7 və a.ü.]

Gömrük kitablarındakı məlumatlara görə 1766-1768-ci illərdə Həştərxandan İran və Azərbaycan şəhərlərinə məxmər, sancaqlar, Qdansk arağı, mismarlar, inbir, iynələr, ağcaqayın boyası, qənəfə toxumu, korolki (kiçik kürə şəklində olan əlvan metal külçəsi), cövüz, halqavari plitə qapaqları, xəz, parça, büllur, çini qab-qacaq və qalay, sandallar, güzgü şüşələri, karmazin mahudu, iskənə, bərk qənd və şəkər tozu, başmaqlar, yazı kağızı, ağardıcı,

divar güzgüləri, Pavlov qıfılları, balıq sümüyü, çəkmə yağı, müxtəlif heyvanların xəzləri, qaytan, sabun, inək yağı, güləbətin, mis üzüklər, Pavlov qayçıları, ağac giş (qalın kətan), at dərisindən hazırlanmış xamut, qoyun piyi, buğda unu, yuft və başqa mallar buraxılmışdı [78.2, v.15].

Bu müddət ərzində isə Azərbaycan və İrandan alaça, pambıq iplik və parça, basma, pambıq bez, qanovat boxçalar, yun yapıncılar, pambıq, birrəng parçalar, ləyənlər, su samuru dərisi, cecim, mirvari, qızıl, gümüş, pərdələr və ipək zərbaftlar, müxtəlif rəngli kamkalar, qutni, qanovat, yastıqlar, balıq yapışqanı, kiseyi, çərkəz donları, kitayka, ipək torlar, mitqal, nimtan movlar, qunduz, neft, badam, püstə, Şiraz qoyun dəriləri, müxtəlif növ yarpaqlar, yarım qələmkarlar və qələmkarlar, kolenkor (qələmkar) qapaqlar, çərkəz mahudu, pambıq fatalar, düyü, çadra, xam ipək, quru meyvələr, kişmiş, xurma, gavalı, şaftalı və albuxara gətirilmişdi [78.2, v.15 a.ü.-16].

Göründüyü kimi, Azərbaycandan Rusiyaya başlıca olaraq manufakturalar üçün xammal və yeyinti məhsulları, Rusiyadan Azərbaycana isə əsasən sənaye və sənətkarlıq məhsulları ixrac olunurdu. Rusiya özü sənaye cəhətdən zəif inkişaf etdiyi üçün buradan ixrac olunan sənaye məhsullarının əhəmiyyətli hissəsini İngiltərə, Hollandiya, İspaniya və Fransadan gətirilən mallar təşkil edirdi [167, s.104]. Ucuz və keyfiyyətli Şərq (o cümlədən Azərbaycan) pambıq parçaları rus kətan parçaları ilə uğurla rəqabət apardığından rus hökuməti gömrük tariflərini qaldırmaqla onların idxalına mane olmağa çalışırdı [166, s.104].

Azərbaycana mallar ən çox Moskvadan gətirilirdi. Sonrakı yerləri Yaroslavl, Tula, Nijni Novqorod və Kazan tuturdu. Moskvadan rus məhsulları ilə yanaşı Qərbi Avropadan gətirilmiş mallar da ixrac olunurdu. Məsələn, 1781-ci ilin mayında Moskvadan Bakıya eynəklər, kağız, ağardıcı (belila), divar və cib saatları, güzgülər, məxmər, atlas, xəzlər, mahud və başqa mallar gətirilmişdi [111.5, v.34-69].

Tuladan Bakıya çuqun qazanlar, bardaqlar, qıfıllar, samovarlar gətirilirdi [111.5, v.34-69].

Kazandan Bakıya yerli və gətirilmə xəzlər, ayaqqabı üçün gön məmulatı, yumşaq, qalın kətan, müxtəlif ucuz parçalar, qabqacaq, boşqablar, fincanlar və nəlbəkilər, qədəhlər, qrafinlər, şüşə bardaqlar, başmaqlar və sabun gətirilirdi [111.5, v.100-109; 111.4, v.203-224].

Gömrük kitablarının nəzərdən keçirilməsi, Azərbaycan və İranla ticarətdə balansın Rusiyanın xeyrinə olduğunu göstərir [52, s.1-3]. 1789-1791-ci illərdə bu balans Rusiyanın zərərinə dəyişilmiş (3.545.507 rub. 10 qəpiklik mal idxal olunduğu halda cəmi 1.375.475 rub. 48 qəpiklik (2.170.031 rub. 62 qəp az) məbləğində mal ixrac olunmuşdur) və rus hakimiyyət orqanları vəziyyəti dəyişdirmək üçün əl-ayağa düşmüşdülər [86.2].

Qeyd olunduğu kimi, Azərbaycandan Rusiyaya başlıca olaraq ipək ixrac olunurdu. XVIII yüzilliyin ikinci yarısında Şəki, Quba və Salyanda ipəkçiliklə məşğul olurdular [93.2, s.441]. Lakin Azərbaycanda ipəkçiliyin başlıca mərkəzi Şamaxı xanlığı idi. Güclü dağıntılardan sonra 60-80-ci illərdə Şamaxı şəhəri öz əvvəlki əhəmiyyətini qaytarmaqda idi [164.1, v.41; 108, s.100]. Stepan Burnaşov Ərəş, Qəbələ və Gəncədə də ipəkçiliyin inkişaf etdiyini yazırdı [96, s.15]. Mənbələrdə Gəncənnin adı Şamaxı və Gilan kimi ipəkçilik mərkəzləri ilə yanaşı çəkilir (70). S.Bronevskinin yazdığına görə Talışda az miqdarda olsa da istehsal olunan ipək keyfiyyətinə görə Gilan ipəyindən geri qalmırdı [93.2, s.441].

Əldə olunan bir məlumata görə, 1763-cü ildə Cənubi Qafqaz və İrandan Rusiyaya xam ipək idxalı bütün idxalın 64 faizini təşkil edirdi [3, s.3-4]. Digər məlumata görə bu regiondan Rusiyaya idxalın 80 faizini ipək, 7 faizini isə pambıq təşkil etmişdi [167. s.104-105]. Bəzi məlumatlara görə, 1767-ci ilin yazında Bakıdan Həştərxana dəniz yolu ilə 2000 pud xam ipək aparılmışdı [179.6, v.28 a-ü]. Digər məlumata görə isə 1765-ci ilin yazı və payızında Bakı limanı vasitəsilə Rusiyaya 3 min puda kimi xam ipək aparılmışdı [179.5, v.188 a-ü.].

1778-1781-ci illərdə Həştərxana Ənzəlidən 3705 pud, Bakıdan 6547 pud, Dərbənddən 103 pud, Salyandan 145 pud, Mazandarandan 291 pud, Cavaddan 26 pud ipək aparılmışdı.

M.Çulkovun yazdığına görə 80-ci illərin əvvəllərində Həştərxana 30 min pud xam ipək gətirilirdi [204, s.459]. Onun əhəmiyyətli hissəsi Azərbaycan və Gilanın payına düşürdü. 1784-cü ildə Azərbaycanda olmuş ingilis səyyahı C.Forsterin məlumatına təkcə Şirvanda ildə 400 ton (24539 pud) ipək istehsal olunurdu [203; Bax: 58, s.424].

Azərbaycandan Rusiyaya xam ipək demək olar bütün limanlardan, Xəzərin şimal hissəsinin donduğu qış ayları istisna olmaqla, bütün il boyu daşınırdı. Xam ipəyi Qızlardan keçməklə quru yolu ilə də aparırdılar. 1767-ci ildə yalnız bir qrup tacir iki səfərdə Şamaxı və Şəkidən Qızlar yolu ilə 2400 pud ipək aparmışdı [179.7, v.16].

Azərbaycanda əsasən ardaş (yaxud şirvani) ipək növü istehsal olunurdu. Xam ipək keyfiyyətinə görə əla, orta və aşağı növlərə bölünürdü [58, s.426-427]. Əla növ ipəyin bir pudunun qiyməti Rusiyada 1736-cı ildə 55 rubl olmuşdusa, 1777-ci ildə 140 rubla yüksəlmişdi [58, s.427]. Bu artım Türkiyə tacirlərinin rəqabətinin kəskinləşməsilə və Rusiyanın özündə ipək manufakturalarının artması ilə əlaqədar idi.

Xam ipəklə yanaşı Azərbaycandan Rusiyaya az miqdarda hazır ipək məmulatı da ixrac olunurdu. 1758-1763-cü illər arasında ipək və pambıq parçalar Azərbaycan və İrandan Rusiyaya ixrac olunan malların 6-10 faizini təşkil etmişdi [147, s.104-105; 3, v.3-4]. İxrac olunan ipək parçalardan müxtəlif yaylıqları, atlaz növlərini, darayi, kiseyi, qutni, boğça, qumaş, tafta, mitqal, kuşak, qanavuz, fata, möv, cecim, pambıq parçalardan bez, burma, bamazı, müxtəlif adyal növləri və s. göstərmək olar [179.9, 108, s.100].

İrəlidə qeyd olunduğu kimi, bir sıra malların Rusiyadan Azərbaycana ixracı qadağan olunmuşdu. 50-60-cı illərdə gəmilər, bütün silah növləri, barıt, qurğuşun, çaxmaqdaşı, qalay, mis, balta, ox, mismar, hər cür hərbi sürsat, kükürd, hərbi geyim, qoyun yunu, kanat, yelkən, qətran, yelkən üçün parça, gəmilər üçün lazım olan avadanlıq, dəvə, at və s. ixracı qadağan olunmuşdu [179.2; 179.8; 179.3; 86. 1, v.1; 108, s.23].

Sonralar bəzi mallara qadağanlar aradan götürülmüşdür. Belə ki, Rusiya təbəəsi olan kalmıklar onsuz da gömrük məntəqələrini yan keçməklə at ilxılarını Dağıstana və Azərbaycana aparıb satdığından və hökumət bunun qarşısını almağa aciz olduğundan, Senat hərbi məqsədlər üçün yararlı olmayan atların ixracına icazə vermişdi [179.3, v.12-14]. Dəmir və digər metalların (qurğuşun və s.) ixracı da əvvəl tamamilə qadağan olsa da sonralar qazanc xatirinə bu əmtəələrin yalnız xəzinə tərəfindən, həm də çox da böyük olmayan həcmdə ixracına icazə verilmişdi [58, s.437-439]. Lakin qızıl və gümüş ixracına isə rəsmi icazə verilmədi. Rus hökuməti Azərbaycan və İrana gəmi inşası üçün lazım olan materiallar, dəmir, qurğuşun, qızıl, gümüş at və s.-nin ixracına yol verməməkdə yalnız bu bölgələrdəki dövlət qurumlarının hərbi cəhətdən güclənməsinə yol verməmək məqsədi güdmürdü, həm də bu ölkələrin texniki və iqtisadi tərəqqisini istəmir, onları zəif və asılı vəziyyətdə saxlamaq məqsədi güdürdü.

Rusiya-Azərbaycan ticarəti ilə məşğul olan tacirlərin milli tərkibinə gəldikdə isə ilk növbədə rusların bu ticarətdə çox cüzi rol oynadığını qeyd etmək lazımdır. Bu, ümumiyyətlə rus ticarətinin xarici kapitalın (ilk növbədə ingilis) əlində olması ilə bağlı idi. Prof. H.Abdullayevin Həştərxan gömrükxanasının məlumatları üzrə hazırladığı cədvəldən görünür ki, 1782-ci ilin may-noyabr ayları ərzində bu şəhər vasitəsilə həyata keçirilən mal dövriyəsinin 4 faizə yaxını Rusiya təbəələrinin payına düşürdü. Həm də rus təbəələri içərisində birinci yeri erməni mənşəli tacirlər tuturdu. Mal dövriyyəsinin çox böyük hissəsi qeyri-rus təbəqələrinin payına düşürdü. Mal dövriyyəsinin, demək olar ki, yarısı Azərbaycan və İran mənşəli tacirlərə məxsus olmuşdur. H.Abdullayevin hesablamasına görə qeyd olunan dövrdə Həştərxan vasitəsilə aparılan mal dövriyyəsinin 32,5 faizi mənşəcə erməni Azərbaycan və İran tacirlərinə məxsus olmuşdur. Lakin bu zaman professorun 1784-cü ilin may ayında erməni əsilli Azərbaycan və İran tacirlərinin mal dövriyyəsini hesablayaraq yanlışlığa yol verdiyini və 101168 min rubl əvəzinə 10148 rubl göstərdiyini (idxal 43.397 r. 43 qəp., ixrac isə 57.750 r. 58 q olduğu üçün ümumi dövriyyə təbii ki, 101 168 r. 01 qəp. olmalıdır) nəzərə

alsaq, bu tacirlərin mal dövriyyəsində payının bundan çox olduğunu təxmin edə bilərik. Bu dövrdə mal dövriyyəsində hind tacirlərinin payı əvvəlki əsrlərə nisbətən xeyli azalmış və göstərilən dövrdə cəmi 6,1 faiz təşkil etmişdi [58, cədvəl. 2].

Dini etiqad müxtəlifliyi azərbaycanlı tacirlərin Rusiyada qalmasına müəyyən çətinlik törətsə də, azərbaycanlı tacirlər Rusiya ilə ticarətdə o qədər də passivlik göstərmirdilər. Həştərxan gömrükxanasının 1786-cı ilə aid bir sənədində 3 şamaxılı, 2 bakılı və və 1 təbrizli tacirin adı qeydə alınmışdır [86.2, v.16]. 1792-ci ildə rus gəmi sahibi Qriqori İvanovun gəmisinə digər tacirlərin malları ilə yanaşı bakılı Ramazan Hüseynovun 210 rubl 65 qəp., salyanlı Sadıqov Rəsulun 75 rubl 10 qəp., şamaxılı Ağa Kərimin 3 320 rubl 20 qəp., salyanlı Ağa Mirzənin 51 rubl 70 qəp., bakılı Məmmədsaleh Xələfovun 88 rubl 90 qəp., təbrizli Abutalıb Mövludovun 36 rubl, şamaxılı Hacı Qasımın 2466 rubl 50 qəp., şirvanlı Rəcəbəlinin 645 rubl məbləğində malları yüklənmişdi [86.3, v.395 a.ü.].

## §5. İpək bazarında rəqabət və Azərbaycan xanlarının pul siyasəti

XVIII yüzilin ikinci yarısında Xəzəryanı regionda xam ipək və satış bazarı uğrunda kəskin rəqabət gedirdi. Bu dövrdə rus ticarətinin başlıca məqsədi rus ticarət kapitalının inhisarçı hökmranlığına nail olmaq, rus malları və Rusiyaya gətirilmə malları xammala, ilk növbədə xam ipəyə mübadilə etmək idi. Rus tacirləri bu məqsədi həyata keçirərkən yerli Azərbaycan və Gilan tacirlərinin müqavimətinə rast gəlirdilər.

XVIII yüzilin ikinci yarısında feodal-ara müharibələri şəraitində, iqtisadiyyatın və texnikanın aşağı səviyyəsinə görə Cənubi Qafqazda və İranda qiymətli metallar-gümüş və qızıl hasil olunmurdu. Qızıl və gümüşdən əsasən pul ehtiyatı toplamaq, pul sikkələri zərb etmək, bəzək üçün, zərgərlik istehsalında və digər bahalı məmulat hazırlamaq üçün istifadə olunurdu. Qızıl və gümüşə tələbat idxal hesabına ödənilirdi. Feodal hərcmərcliyi şəraitində idxal azalmış, qızıl-gümüşün əhəmiyyətli hissəsi dövriyyədən çıxarılaraq gizlədilmiş, yaxud hifz olunmaq üçün xarici ölkələrə aparılmışdı.

Azərbaycanda qızıl-gümüşə ehtiyac artmış, pul dövriyyəsi böhranlı vəziyyətə düşmüşdü. Rusiya konsulu İqumnov 1764-cü ildə yazırdı ki, indi burada gümüşə və qızıla elə böyük ehtiyac vardır ki, puldan pul düzəldirlər. Köhnə rubldan 1 manat 30 qəpik düzəldirlər [179.5, v.7]. Rus rublu bəzi məlumata görə 1 manat 10 qəpiyə, digər məlumata görə hətta 1 manat 45-50 qəpiyə satılırdı [179.7, v.528-30] yerli abbası – 20 qəp. cəmi 12 qəpik rus rublu ilə dəyərləndirilirdi [179.9, v.51-52].

Bazar münasibətlərinin inkişafı ilə əlaqədar Azərbaycan xanları pula ehtiyac hiss etdiyindən qızıl, gümüş və digər qiymətli metalları ölkə daxilində saxlamaq və onların ölkəyə gətirilməsini həvəsləndirməyə yönəlmiş siyasət yürüdürdülər. Şəki və Şamaxı xanları öz tacirlərinə xam ipəyi yalnız gümüş pula satmağı əmr etmişdilər [179.7, v.8].

1789-cu ilin fevralında Həştərxandan qubalı Fətəli xan üçün gömrük ödənilmədən 1000 rubl rus gümüş pulu buraxılmışdı. 1790-cı ilin fevralında isə geri qayıdan Quba elçisi Mirzə Sadıq

II Yekaterinanın xana bağışladığı 1500 rus gümüş rublunu aparmışdı [86.3, v.315].

Azərbaycan xanlarının pul siyasəti təbii ki, Rus hökumətinin merkantilist siyasətinə uyğun gəlmirdi. Rus hökuməti Şərq bazarlarında ticarəti nəğd pul hesablaşması olmadan sənaye məhsullarına mübadilə yolu ilə aparmaq istəyirdi.

Bakıdakı rus konsulu M.Sulyakov 3 yanvar 1766-cı il tarixli məlumatında yazırdı ki, Qızlardan tacirlər gümüş rus pulunu Şamaxıya gətirir və burada əridib yeni yerli sikkələr zərb edirlər. Bunun qarşısının alınması üçün konsul Qızlardan Azərbaycana qayıdan müsəlman tacirlərin üzərinə ciddi nəzarət qoyulmasını təklif edirdi [ 80.1, v.4-6].

1764-cü ilin avqustunda Kommers-kollegiya göstəriş vermişdi ki, Həştərxan tacirləri və digərləri "İran"da malları pula almasınlar, mal mübadiləsi yolu ilə alsınlar, rus mallarını isə aşağı qiymətlə satmasınlar [179.5, v.125]. Bu göstərişi pozan cərimələnməli idi.

Rus hökumətinin bu cür siyasəti öz növbəsində rus tacirlərini ipək bazarında digər tacirlərə nisbətən qeyri-bərabər vəziyyətə qoyurdu. Çünki, Azərbaycan tacirləri və ipək istehsalçıları öz maraqları naminə və xanların tələblərini yerinə yetirərək xam ipəyi nağd pula satırdılar. Mübadilə yolu ilə xam ipəyi yalnız daha yüksək qiymətlə almaq olardı. Rus manufakturalarının xam ipəyə olan ehtiyacını ödəmək xatirinə bir sıra hallarda rus tacirləri və onların agentləri hökumətin göstərişini pozub xam ipəyi nağd pula alırdılar [179.5, v.125; 179.9, v.50].

Rus tacirləri bir işdə də uduzurdular. Bir çox ipək istehsalçıları yoxsul olduqları üçün istehsal edəcəkləri ipəyin dəyərini və ya bir hissəsini pul və ya ayrı mal şəklində əvvəlcədən alaraq, sonra məhsulu sövdələşdikləri şəxsə verirdilər. Xüsusən erməni tacirlər xam ipəyi almaq üçün öz mallarını kreditlə satdırırdılar. Xarici ölkələrin tacirləri də belə hərəkət edirdilər. Rus tacirlərinə isə belə hərəkət etmək qadağan idi [163.1, v.36]. Ancaq rəqabətə davam gətirə bilmək üçün rus tacirləri də bir sıra hallarda gizlincə yerli araçı – tacirlər vasitəsilə mallarını kəndlilərə kreditə verməklə xam ipək alırdılar [179.9, v.50]. Bu zaman vasi-

təçi yerli tacirlər çox qazanc əldə edirdilər. Onlar kəndlidən xam ipəyi ucuz qiymətə alıb rus tacirlərinə daha baha qiymətə satırdılar. Həm də rus tacirləri il ərzində gözləməli olurdular. Rus tacirləri kəndlilər tərəfindən aldanmaqdan qorxaraq özləri bilavasitə onlarla əlaqəyə girməkdən çəkinirdilər.

Rus tacirlərinin bilavasitə istehsalçılardan xam ipək almasına azərbaycanlı iri tacirlər, kəndxudalar və hakimiyyət orqanları da mane olurdular. Çünki onlar əvvəlcədən kəndliyə borc verməklə ondan məhsulu aşağı qiymətə alıb rus tacirlərinə baha satmaqla xeyli varlanırdılar [179.10, v.66 a-ü].

İri Azərbaycan tacirləri bir sıra hallarda qeyri-rəsmi birliklər yaradaraq, xan hakimiyyət orqanlarının dəstəyinə arxalanıb rus ticarət kapitalının təzyiqinə qarşı uğurla rəqabət aparırdılar. Həştərxan qubernatoru Yakobinin 1778-ci ilə aid məlumatında Dərbənd, Bakı, Salyan və Ənzəlidə yüz beş ildən bəri iri tacirlərin gizli surətdə yaratdıqları kommersiya kompaniyalarının mövcud olduğu bildirilirdi [179.9, v.51].

Kompaniyalar müxtəlif yollarla yaradılır və müxtəlif formalarda olurdular. Bir müasirin verdiyi məlumata görə azərbaycanlı və gilanlı tacirlər Həştərxanda birinci gildiyaya yazılır və buradan öz mallarını ticarət yoldaşlığında olduğu "iranlı"lara göndərirlər [179.10, v.25]. Həştərxan qubernatoru məlumat verirdi ki, əvvəllər Azərbaycan və Gilan tacirlərinin hər biri ayrı-ayrılıqda öz ipəyini rus tacirlərinə bir pudu 60-70 rubla satırdılarsa, indi ipək rus tacirlərinə sərbəst surətdə yox, kompaniyanın müəyyən etdiyi kimi bir pudu 120-140 və hətta 170 rubla satılır, Rusiyadan gətirilən malların kənar şəxslər tərəfindən alınmasına imkan vermir və kompaniya üzvləri istədiyi qiymətə alırlar [179.9, v.52].

Bu cür bazar konyukturası şəraitində xan hakimiyyət orqanları və onların ticarət agentləri böyük rol oynayırdılar. Bəzən xan özü bazar münasibətlərini "nizamlayaraq" və xam ipəyə, digər yerli mallara qiymətlər təyin edərək ticarət işlərinə qarışırdı. Əldə olunan bir məlumata görə xan xam ipək toplanarkən ona qiymət təyin edir və heç kim ayrı qiymətə sata bilməzdi [179.9, v.52].

Bakı, Salyan və Ənzəlidəki rus konsulları rus ticarətinin vəziyyəti haqqında öz narahatlıqlarını dəfələrlə hökumətə bildirmişdilər. Ancaq bunu da qeyd etməmək olmaz ki, bir sıra hallarda Rusiyaya qayıtmaq arzusunda olduqlarına, yaxud yerli hakimiyyət orqanları ilə soyuq münasibətdə olduğuna görə konsullar boyaları tündləşdirir, ticarətin vəziyyətini olduğundan daha ağır göstərməyə çalışırdılar.

Rus hakimiyyət orqanları və işbaz dairələri Azərbaycanda və ona qonşu ölkələrdə rus ticarətini bərpa və inkişaf etdirmək üçün yollar arayırdılar. Tacirlər ticarətə dövlət müdaxiləsini gücləndirməyi xahiş edirdilər. Onlar Azərbaycan və Gilanla ticarətdən rus təbəəliyini qəbul etmiş erməni, tatar və "iranlıların" kənarlaşdırılmasını və Xəzər dənizində ticarət etmək üçün rus tacirlərinin imtiyazlı kompaniyasının yaradılmasını təklif edirdilər [175.2, v.23-24; 200.1., s.568]. Lakin rus hökuməti bu təklifləri məqsədə uyğun gəlməyən və onun maliyyə maraqlarına cavab verməyən sayaraq qəbul etmədi.

S.Qmelinin "Xəzər ticarəti haqqında əlavə" adlı əsəri ticarətlə bağlı geniş və ümumi məsələləri əhatə edir. Qmelinin bu əsəri kitabının dördüncü hissəsinə daxildir və alman dilində yazılmışdır, rusca tərcümə olunmuşdur. Əsərin əlyazısı rusca tərcüməsi ilə birlikdə Rusiya EA-nın arxivinin Peterburq filialında (3 saylı fond, 40 saylı iş) saxlanır. (Tərcümənin bir surəti REA Sankt-Peterburq Tarix İnstitutunun elmi arxivində (86.1) saxlanır). Bu "əlavə" qraf V.Orlovun sifarişi ilə yazılmışdır. Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, professor Pallasın yazdığına görə həmin əsər S.Qmelinin ikinci səyahəti zamanı yazılmış və müəllif Dağıstanda əsirlikdə öldükdən sonra xilas edilib Rusiyaya aparılmışdır [163.1, v.1,5].

Bu əsərdə Azərbaycan və Gilanda rus ticarətini inkişaf etdirmək üçün yollar arayan rus ticarət – siyasi dairələrinin bəzi baxışları ümumiləşdirilmişdir. Əsərdə Azərbaycanda və Şimali İranda bazar konyukturası və rus ticarətinin vəziyyəti işıqlandırılırdı. Qmelinin baxışlarının əsasında fəal ticarət balansı, yaranan burjuaziyanın müstəmləkəçi meylləri, ölkənin sərvətinin əsasının xarici ticarət olduğunu elan edən merkantilist nəzəriyyə durur.

S.Qmelin Rusiyanın Xəzəryanı ölkələrlə ticarətinin tənəzzülünün əsas səbəbini erməni tacirlərin təxribatçı fəaliyyətində görürdü. Qmelin Rusiyanın inhisarçı hüquqlarına bəraət qazandıraraq onun Xəzər ticarətinə təbii hüquqlarından danışır, iddia edir ki, dünyada ruslardan savayı heç bir xalqın bu ticarətə tam hüququ çatmır [163.1, v.3-4; 86.1, v.82 a-ü.-83].

Qmelin Azərbaycan və qonşu ölkələrlə ticarət üçün rus ticarət kompaniyasının təşkil olunmasını təklif edirdi. Bu kompaniya holland və ingilis Ost-hind kompaniyaları tipində, yəni inhisarçı hüquqlar əsasında təşkil olunmalı idi. Kompaniyanın inhisarçı hökmranlığını təmin etmək üçün Xəzər dənizində üzən rus gəmiləri kompaniyanın sərəncamına verilməli, Həştərxandan aparılan mallar içərisində kompaniyaya mənsub olmayan mallar aşkar edildikdə müsadirə edilməli idi [163.1, v.28; 86.1, v.96-98 və a.ü.].

Şərq tacirlərinə yalnız Həştərxan kontorunda ticarət etməyə icazə verilməli, onların kənara getməsi qadağan olunmalı idi [163.1, v.28 a.ü. 86.1, v.107 və a.ü.].

S.Qmelin Xəzər ticarətinin mərkəzini Gilana keçirməyi təklif edir, buna görə kompaniyanın filialının yalnız burada açılmasını istəyirdi [163.1, v.41-42; 86.1, v.107 və a.ü.].

Bütövlükdə S.Qmelin Ost-hind kompaniyalarının təcrübəsini təkrar etməyə çağıraraq müstəmləkə ticarətinə səs verirdi. Rusları boş yerlərdə məskunlaşdırmaq, kənd təsərrüfatı məhsullarının, ilk növbədə xam ipəyin istehsalında ixtisaslaşmanı tətbiq etmək, sənaye mallarını gətirib satmaq təklif olunurdu.

Azərbaycan-Rusiya ticarətinin, eləcə də ümumiyyətlə ticarətin inkişafına pul və çəki vahidlərinin müxtəlifliyi də mane olurdu. S.Qmelin XVIII əsrin II yarısında Azərbaycan və İranda işlənən bir sıra pul vahidlərinin adını çəkir:

Qızıl pullar:

a) mur-əşrəfi – əvvəllər 6 rus rubluna bərabər olmuş, 60-cı illərin sonu – 70-ci illərin əvvəllərində isə 10 rubl 11 qəpiyə bərabər idi.

b) Nadir şahın zərb etdirdiyi əşrəfilər, yaxud yeni və Məşhəd əşrəfiləri əvvəllər 1 rubl 80 qəpiyə bərabər olmuş, qeyd olunan dövrdə isə 2 rubl 50 qəpiyə bərabər tutulurdu.

c) Şah Sultan Hüseyn, Şah Sultan, Şah Səfinin zərb etdirdikləri əşrəfilər – əvvəllər hər biri 2 rubl 10 qəpik dəyərində olub, 60-cı illərin sonu – 70-ci illərin əvvəllərində 3 rubl 14 qəpiyə bərabər tutulurdu [108, s.204].

Gümüş pullar:

a) Üstündə portret təsviri olan tümən 10 rus rublu dəyərində.

b) Sisədinar (yəqin ki, sesəd dinar – yəni üç yüz dinar), yaxud şeş şahı – əvvəllər 30 qəpiyə bərabər idi, sözügedən dövrdə isə 37 rus qəpiyinə bərabər tutulurdu.

c) Abbası – əvvəllər 20 qəpiyə, sözügedən dövrdə isə 25 qəpiyə bərabər idi.

ç) Səddinar (yüz dinar) – əvvəllər 10 qəpiyə, 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən isə 12 qəpiyə bərabər tutulurdu.

d) Şahı – əvvəllər 5, sözügedən dövrdə isə 6,5 qəpiyə bərabər tutulurdu.

ə) Bisti (yəni 20 dinar) – 2 qəpiyə bərabər idi. Bisti həm gümüşdən, həm də misdən olurdu.

Bunlardan başqa 0,5 qəpik, yaxud 5 dinar dəyərində olan keçbekilər işlənirdi [108, s.205].

Adı çəkilən pul vahidlərindən əlavə xanların çoxu öz pullarını zərb etdirirdildər. Həm də bir çox hallarda sikkələrdə qiymətli metalın əyarı, yaxud kütləsi lazım olduğundan çox aşağı olurdu. Məsələn, Qmelinin yazdığına görə Şamaxı, Dərbənd və Bakıda bir abbasının tərkibində 20 əvəzinə 8 qəpiklik, yarım manatın tərkibində 50 əvəzinə 22 qəpiklik gümüş var idi. Xan sikkələri kiçik, lakin qalın olurdular və onların daxilinə mis qoymaq mümkün idi [108, s.206]. Çəki və uzunluq vahidləri də müxtəlif idi.

Rusiya imperatriçəsi Yelizaveta Petrovnanın 3 aprel 1751-ci il tarixli fərmanında deyilirdi ki, hələ I Pyotrun dövründən Rusiyaya xırda gümüş və rus pullarının gətirilməsi qəti qadağan edilmişdir. Çünki saxta pulları gətirib rus pulları adı ilə dövrüyyəyə buraxırdılar. Eləcə də Rusiyadan xaricə gümüş pulların və xırda mis pulların aparılması qadağan olunurdu [114.1, v.4].

# III FƏSİL

# 70-80-Cİ İLLƏRDƏ AZƏRBAYCAN XANLIQLARININ RUSİYA İLƏ SİYASİ MÜNASİBƏTLƏRİ

## §1. 70-ci illərdə Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi əlaqələri

Məlumdur ki, XVIII yüzilliyin ikinci yarısında Rusiya Qara dənizə çıxış əldə etmək üçün Osmanlı imperiyası ilə mübarizə aparır, Ukrayna və Belorusiya torpaqlarını Reç-Pospolitadan (Polşa) qoparmağa çalışırdı. Rusiya Xəzərsahili topaqlarda möhkəmlənmək işində də Türkiyə ilə toqquşurdu. Bu ziddiyyətlər 1768-1774-cü illər Rus-Osmanlı müharibəsinə gətirib çıxartdı. Müharibədə Qafqaz problemi də mühüm əhəmiyyət kəsb edirdi. Rusiya Xəzər ticarətində hegemonluğa nail olmaq üçün Cənubi Qafqaza öz təsirini yaymağa, burada Türkiyənin təsirinə qarşı hər vasitə ilə mübarizə aparmağa çalışırdı.

Maraqlıdır ki, Kartli-Kaxeti çarı II İrakli 1769-cu il sentyabrın 4-də N.İ.Paninə yazırdı ki, əvvəllər o, Gürcüstana 15 rus alayının göndərilməsini xahiş etmişdir. İndi hələlik yalnız 5 alayın göndərilməsini xahiş edir. Çünki, Osmanlı qoşunlarının Gürcüstana doğru hərəkəti haqqında məlumat yox idi və İrakli gələcək rus qoşunlarının yardımı ilə hücuma keçib Axısqa və Qarsı almaq niyyətində idi. II İrakli daha 10 rus alayının növbəti ilin yazında göndərilməsini xahiş edirdi [73, sən.47, s.97].

XVIII əsrin 60-cı illərinin sonlarından Rusiya ilə Azərbaycan xanlıqları arasında münasibətlər daha müntəzəm xarakter almağa başlayır. 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində və dövründə Azərbaycan xanlarının bir din və eyni soykökə malik Türkiyə ilə vahid cəbhədə çıxış etmələrinin qarşısını almaq üçün rus hökuməti xanlarla əlaqələrini genişləndirir.

Rusiya Cənubi Qafqaza, o cümlədən Azərbaycana irəliləmək üçün əvvəlcə diplomatik tədbirlər həyata keçirirdi. Rus diplomatları Azərbayjan xanlarına təlqin etməyə çalışırdılar ki, guya Rusiyanın xanlıqları istila etmək niyyəti yoxdur və Azərbaycan xanları qorxmadan yardım üçün Rusiyaya müraciət edə bilərlər.

Türkiyə ilə müharibə başlayarkən Q.A.Potyomkin Qafqaz və Qaradənizətrafı xalqları Türkiyəni dəstəkləməkdən çəkindirmək üçün iki polyak qardaşı: briqadir İvan Qoriçi və general kiçik İvan Qoriçi bu regiona yollladı. Birinci, Qara dənizdən Kabardaya qədər ərazidə fəaliyyət göstərməli idi. Kiçik Qoriç müxtəlif Qafqaz xalqları arasında ədavət toxumu səpərək onları özündən asılı vəziyyətə saldı. Şeyx Mənsurun qatı tərəfdarı olan knyaz Çopalovu belə ondan ayırmışdı [78.2, iş 4, v.277-278].

Salyandakı rus konsulu Sulyakovun 1768-ci ilin sonunda Qızlar komendantı Potapova verdiyi xəbərə görə Van paşası Fətəli xana məktub göndərərək ehtiyatlı olmasını, rus qoşunlarının hücumu ehtimalına qarşı tədbirlər görməyi məsləhət görmüşdü. Sulyakovun yazdığına görə bütün sünnü məzhəb azərbaycanlılar Türkiyəyə böyük hüsn-rəğbət bəsləyirdilər və hətta osmanlı qoşunları gələrsə çox sevinərlər [78.2, v.208 və a.ü.] Salyandakı rus konsulu Sulyakov 1770-ci ildə qubernator Beketova və Xarici İşlər kollegiyasına yazırdı ki, osmanlı sultanı Tarku şamxalına Qaraqaytaq usmisinə, avar və qazıkumık xanları, Akuşa qazısına və Quba hakiminə "allah naminə Rusiyaya qarşı birgə çıxış etmələri" üçün müraciət etmişdir [78.8, v.251].

Sulyakov bununla bağlı Salyandan polkovnik Nemiçə aşağıdakı gizli məlumatı göndərmişdi: "Mən bu günlərdə xəbər almışam ki, türk sultanı 1770-ci ilin noyabrında üç nəfəri dağlı hakimlərinin, həmçinin tanınmış Fətəli xanın yanına göndərmişdi ki, həmdin olduqları üçün həmin hakimlər və Fətəli xan sultana yardım göstərsinlər. Bu zaman adı çəkilən hakimlərə kifayət məbləğdə pul göndərmək vəd olunmuşdur" [78.8, v.208 və a.ü., 434].

Türkiyə Qafqazda ruslara qarşı yerli hakimlərin cəbhəsini açmaqla başlıca hərbi əməliyyat meydanında Rusiya üçün çətinlik yaratmağa çalışırdı. Osmanlı sarayı Qarabağ və Quba xanlıq-

larını öz tərəfindən müharibəyə cəlb etməyə xüsusi səy göstərirdi. Həştərxan qubernatoru Beketov iki nəfər osmanlı məmurunun Dərbəndə gəldiyini yazırdı. Sultanın elçiləri Fətəli xandan ərazisindən və dənizdən rus qoşunlarını Azərbaycana və İrana buraxmamağı xahiş etmişdilər [78.3, v.4-7].

Çar hakimiyyət orqanları osmanlıların Qızlar və Terek rayonlarında zərbə hazırladıqlarını güman edirdilər. Bu Həştərxanı və Rusiyanın cənub rayonlarını zərbə altına qoya bilərdi. Azərbaycanlıların və dağıstanlıların Türkiyənin çağırışlarına münasibətrini öyrənmək üçün tələsik Vasili Knyazev adlı birisi Azərbaycan və Dağıstana göndərildi, O gizli surətdə bir sıra materiallar toplayıb onları Xarici İşlər kollegiyasına göndərdi. Knyazev müsəlman hakimlərinin Qızlara və Gürcüstana basqın etmək barədə planının mövcud olduğunu təsdiq etdi [78.3, v.4-7].

Azərbaycan xanları ilə Osmanlı imperiyası arasında yaxınlaşmanı narahatçılıqla müşahidə edən rus hökuməti Azərbaycanın hüdudlarının yaxınlığına öz qoşunlarını cəmləşdirdi. 1770-ci il fevralın 28-də Rusiya Xarici İşlər Kollegiyasının konsullara göndərdiyi məxvi məktubda deyilirdi ki, İmeretiya və Kartli-Kaxetiya çarları Qafqaz cəbhəsində rus qoşunlarına və artilleriyasına bəzi köməklik göstərməyə görə dəvət edilmişlər [58, s.500].

Rus hökuməti öz konsullarından və casuslarından həyəcanlı xəbərlər alırdı. Qızlar komendantı polkovnik Nemiç Salyandakı rus konsulu Sulyakova istinad edərək dağlı hakimlərin – Tarku şamxalının, Qaraqaytaq usmisinin, avar xanının, Tabasaran və Akuşa kadilərinin, həmçinin Fətəli xanın Rusiyaya qarşı əməliyyatlara kömək etməyə hazırlaşdıqlarını yazırdı [78.3, v.4, 6-7; 78.8, v.251]. Qubernator Beketov Xarici İşlər Kollegiyasına 1770-ci il avqustun 13-də hakimlərin Osmanlı hökumətinin çağırışı ilə Gürcüstana və Qızlara basqın etmək qərarına gəldiyini eşitdiyini xəbər verirdi. Şamaxı sakini erməni Arutyun Kondratyev yazırdı ki, guya Fətəli xan Osmanlı təbəəsi Qasım ağanı vəd olunmuş pul məbləğini almaq üçün sultanın yanına göndərməyi qərara almışdır [78.9, v.103]. Beketovun raportunda daha sonra deyilirdi ki, keçmiş Qızlar komendantı polkovnik Nemiç konsul

Sulyakovun məlumatı əsasında Dağıstan hakimləri və Fətəli xanın Rusiyaya qarşı hərbi əməliyyata hazırlaşdıqlarını xəbər verir [78.8, v.251].

Rus konsulu M.Sulyakov 1770-ci il oktyabrın 5-də Salyandan Həştərxan qubernatoruna yazırdı ki, həmin ilin fevral ayında o, hökümətdən göstəriş almışdır ki, əgər rus qoşunlarının Gürcüstana göndərilməsi ilə əlaqədar Azərbaycan xanlarında pis ovqatlar yaransa onların şübhələrini yox etmək üçün konsul məktublar göndərib bildirsin ki, Risiyanın onlara qarşı pis niyyəti yoxdur. Bununla əlaqədar Sulyakov Quba, Şəki, Qarabağ, Gəncə xanlarının yanına öz tərcüməçisini göndərmişdi. Oktyabrın 4-də tərçüməçi geri qayıtmışdı. Sulyakov bütün xanlardan və hətta İbrahimxəlil xanın yanında olan Ağası xandan məktub aldığını yazırdı [80.2, v.46 və a.ü.].

M.Sulyakov da qubalı Fətəli xanın Rusiyaya rəğbət bəsləmədiyini bildirirdi. Belə ki, o, Xarici işlər kollegiyasına 1772-ci ilin əvvəllərində göndərdiyi məlumatda yazırdı ki, S.Q.Qmelin Ənzəlidə olarkən geri qayıdanda Kubeçiyə və Dağıstanın bəzi dağ kəndlərinə getmək niyyətində olduğunu bildirərkən Sulyakov bundan çox narahat olmuşdu. Konsul yazırdı ki, Fətəli xan və bir çox Dağıstan hakimləri Rusiyaya qarşı zərərli niyyətlərə malikdir, buna görə də professorun adı çəkilən yerlərə getməsi təhlükəlidir. Sulyakovun məlumatına görə dvoryan Filatov demişdi ki, Qmelin Dərbənd və Qubada olarkən sakinlər onun hərəkətlərində casusluq niyyəti görüb mənfi münasibət göstərmişdilər [80 2, v.35-36].

Rus hökuməti təşvişə düşərək bir sıra əks-tədbirlər gördü, Həştərxan qubernatoru dərhal bir qrup botu (yüngül gəmi) silahlandırıb, komplektləşdirməyi və guya konsul Sulyakovun mallarını daşımaq bəhanəsi ilə ticarət bayrağı altında Xəzərin qərb sahillərinə göndərməyi təklif edirdi [78.7, v.284-285]. Kazandan və bir sıra digər Volqaboyu şəhərlərdən qoşunların bir hissəsini cəbhəyə göndərmək əvəzinə Qızlar və Terek rayonlarına göndərdilər [58, s.500-501].

Qeyd edək ki, əsasən dinbir və soydaş Osmanlı imperiyasına rəğbət göstərsələr də Rusiyanın güclü olduğunu görən Azərbaycan xanları ona qarşı açıq çıxış etməkdən ehtiyat edirdilər.

Məlum olduğu kimi 1768-1774-cü illər müharibəsi Rusiyanın qələbəsi və onun üçün əlverişli olan Kiçik Qaynarca sülh müqaviləsinin bağlanması ilə nəticələnmişdir. Rusiya Qara dənizə çıxış əldə etdi. Bu müqavilə bütövlükdə qeyri-bərabər səciyyə daşıyırdı. Rusiya Osmanlı imperiyasının xeyli ərazisini ələ keçirtdi və Qara dənizdə qeyri-məhdud miqdarda hərbi-dəniz donanması saxlamaq hüququ əldə etdi. Rusiya əvvəllər İngiltərə və Fransanın mənsub olduqları "kapitulyasiya" imtiyazı da əldə etdi. Bundan əlavə Rusiya Osmanlı imperiyasında yaşayan xristianların hüquqlarının qorunması qarantı hüququ da qazandı ki, bu da ona Türkiyənin daxili işlərinə qarışmasına zəmin yaradırdı. Doğrudur, öz növbəsində Rusiya da Osmanlı sultanını bütün müsəlmanların, o cümlədən Rusiya imperiyası ərazisində yaşayan müsəlmanların xəlifəsi kimi tanıdı ki, bu da öz növbəsində Rusiyanın daxili işlərinə qarışmaq üçün hüquqi əsas verirdi. Rusiya eləcə də Türkiyənin Qərbi Gürcüstan üzərində hakimiyyətinin qalması ilə razılaşırdı [119, s.23-36; 118, s.32-39].

Lakin, əlbəttə ki, Rusiyanın işğalçılıq planları daha uzağa gedirdi. O, bir çox başqa ərazilərə, xüsusən də Azərbaycan torpaqlarına göz dikmişdi. Yalnız öz niyyətlərini həyata keçirtmək üçün əlverişli şərait gözləyirdi. 1774-cü ilin dekabrında Qubalı Fətəli xan rəqib koalisiyası tərəfindən məğlubuiyyətə uğradıldıqdan və Dərbənd şəhəri mühasirəyə alındıqdan sonra Fətəli xanın yardım üçün Rusiyaya müraciət etməsi Rusiyanın bölgədə fəallaşmasına əlverişli zəmin yaratdı.

Hələ ki, Azərbaycanı zəbt etmək üçün real imkanı olmayan Rus hökuməti gələcəkdə məqam düşəndə niyyətini gerçəkləşdirməyi asanlaşdırmaq üçün kəşfiyyat xarakterli tədbirlər görürdü. Professor Qildenştedt 1768-1775-ci illərdə Qafqazı ətraflı öyrəndi [162.2]. Qildenştedti əsasən faydalı qazıntılar maraqlandırırdı [107, s.2].

Eyni zamanda, Rusiya Elmlər Akademiyasının üzvü professor Şamuil Qotlib Qmelin Xəzəryanı vilayətlərə iki dəfə ekspedisiyaya getdi. Qmelin və Qildenştedt ayrı-ayrı marşutlarla hərəkət etməli, məlumatlarını Rusiya Elmlər Akademiyasına təqdim etməli idilər. Qmelin Terek çayına qədər gəlib buradan Azərbaycana və

İrana, Qildenştedt isə Terek çayından Gürcüstana getməli idi. Qmelin mayın əvvəlində gəmiyə oturmalı və yarım il ərzində Xəzər dənizində sahil boyu üzməli, Xəzərin qərb sahilindəki ölkələri nəzərdən keçirməli idi [108, s.1-2]

Qildnştedt mayda Qizlardan çıxmalı idi. Tavlistan, Kuban və Kabardanı nəzərdən keçirib Tiflisə getməli, oradan qayıdıb Qızlarda Qmelinlə görüşməli idi. Qmelinin ekspedisiyasının xərclərini dövlət ödəyirdi. Üstəlik ona bir çavuşun başçılıq etdiyi 12 əsgər, 1 fleytaçı, bir barabançıdan ibarət mühafizə dəstəsi verilmişdi [108, s.3-4].

Qmelinin ekspedisiyası Həştərxandan nəzərdə tutulduğu kimi may ayında deyil, yalnız iyunun əvvəllərində yola düşdü [108, s.6]. O, iyunun 13-də Dərbənddə sahilə çıxdı. Fətəli xanın əmri ilə Qmelinə mənzil ayırdılar. Ayın 14-ü səhər tezdən onu xanın qəbuluna apardılar. Müşavir Kavtarazev, tərcüməçi student Qablis də Qmelinlə getdilər. Qmelin xana hədiyyə etmək üçün holland mahudu, bir qədər konfet və bir kompas götürdü. O, xanın qəbul zalının çox da böyük olmadığını yazırdı. Qəbul zalının qarşısında zaldan kiçik bir pilləkənlə ayrılan otaqda çoxlu adam yığışmışdı. Onlar ayaqqabılarını kandarda soyunmuşdular. Qmelin yazır ki, Fətəli xan zalın ortasında yerdə oturmuşdu, qəlyan çəkirdi və onun yanında doldurulmuş tapançalar var idi. Xanın qarşısında şəhər naibi və qonşu xanlığın hakimi oturmuşdu. Onların yanında Qmelin üçün səndəl qoyulmuşdu. Qmelinin tərcümüçiləri isə ayaq üstə durmalı idilər. Qmelin Həştərxan qubernatorunun zəmanət məktubunu xanın yavərinə təqdim etdi. Yavər məktubu alıb xana verdi. Məktuba qulaq asdıqdan sonra Fətəli xan Qmelinə hər cür köməklik edəcəyinə söz verdi. Xan söylədi ki, Qmelinin yəqin ki təbabətdən başı çıxır və buna görə də səhərisi gün gəlib onun qulağının dibindəki şişi müayinə etməsini xahiş etdi [108, s.10-11].

Ertəsi günü Qmelin yenə xanın yanına getdi və onun nəbzini yoxladı. Nəbzinin normal olduğunu söylədi. Şişə isə baxıb onun bərkimiş şiş oldugunu, iki ildən sonra yetişəcəyini bildirdi. Xan şişin müalicə olunmasını xahiş etdikdə Qmelin söylədi ki, əvvəla bu uzun sürən prosesdir və o, bu qədər zaman burada qala

bilməz. İkincisi, o, özü ilə lazımi alətləri gətirməmişdir [108, s.12-13].

Ayın 16-sı Fətəli xan yavəri ilə Qmelinə 100 manat xərclik gətirdi. Qmelin pula ehtiyacı olmadığını bildirib onu qəbul etmədi. Ancaq əvəzində sonradan göndərilən bir neçə ev quşunu məmnuniyyətlə qəbul etdi [108, s.13-14].

Qmelin Dərbənd şəhərinin ətraflı təsvirini vermişdir. O, şəhərdə 4 min ev olduğunu yazırdı [108, s.19].

Qmelin Fətəli xan haqqında yazırdı ki, onun otuza yaxın yaşı var, altı arvadı var, çox içir. Dərbənd sakinləri onu çox sevir [108, s.23].

S.Qmelin Dərbənddən səyahətini quru yolla davam etdirməyi qərara aldı. Gəmini Bakıya yola salmaq istədi. Fətəli xan ona 15 minik atı və iki araba verməyi vəd etdi. Ancaq bir müddət keçdikdən sonra atlar verilmədiyindən Qmelin gəmiyə minib səyahətini davam etdirməli oldu. Qmelin Fətəli xanın ona münasibətini dəyişdirməsini belə izah edirdi ki, yəqin xan onun ekspedisiyasının kəşfiyyat məqsədi güddüyündən şübhələnmiş, buna görə də səyahətini quru yolla davam etdirməməsini istəmişdir ki, o, xanın mülkləri haqqında daha çox material toplaya bilməsin [108, s.43-44].

İyulun 9-da Qmelinin gəmisi cənuba hərəkət etdi. İyulun 12-də Niyazabadın yaxınlığındakı Baraxum kəndi yaxınlığında Qmelin öz yoldaşları ilə sahilə çıxdı və gəmini Bakıya yola saldı. Kirayə atlar götürüb Qubaya doğru hərəkət etdi [108, s.47-48].

Ekspedisiya üzvləri iyulun 15-də Quba şəhərinə çatdılar. Qmelin Qubanın çox kiçik şəhər olduğunu yazırdı. Üç tərəfdən yonulmamış daşlardan hörülmüş hasarlarla əhatə olunmuşdur, şimal-qərb tərəfdə Qudyalçayın sərt sahili olduğu üçün hasar çəkilməyə ehtiyac yox idi. Qmelin çayın əks tərəfində yəhudilərin yaşadığı böyük qəsəbənin olduğunu qeyd edir. Xan qəsrinin həyətində iki top və fəvvarə var idi. Qmelin Qubada həm şiələrin, həm də sünnilərin yaşadığını qeyd edərək bunun Fətəli xanın hər iki məzhəbə hörmətlə yanaşması ilə izah edirdi. O, özünü şiə hesab etsə də, sünniləri də çox sevir. Xan şəhərdə olmadıqda şəhər naib tərəfindən idarə olunurdu [108, s.48-49].

Qmelinin dəstəsinə Quba şəhərinin daxilində yox, ətrafında, xristianların yaşadığı evlərin birində yer verildi. Qubada olduğu müddətdə Qmelin Şahdağa qalxmaq qərarına gəldi. Yerlilərin bələdçiliyi ilə Doqquzpara mahalının arxasında yerləşən Gülhan mahalına daxil oldu. Bəzən atla, çox vaxt isə piyada getmək lazım gəlirdi. Şahdağın ətəklərinə çatdıqda bələdçilər dağin yuxarı hissəsinə çıxmaqdan imtina etdilər və bunu onunla əsaslandırdılar ki, dağın arxasında heç kimə tabe olmayan dağlılar yaşayır və onlar ekspedisiya üzvlərini görsələr hökmən hücum edib əsir götürər və qul kimi satarlar. Qmelin bələdçilərdən aralanıb bir qədər dağın zirvəsinə doğru hərəkət etsə də bir neçə saatdan sonra geri döndü [108, s.50-51].

Ayın 21-də ekspedisiya Qubanı tərk edib cənuba doğru hərəkətini davam etdirdi. Həmin günün gecəsi Quba mahalının sonuncu kəndi olan Yerex (İqrıq) kəndində gecələdilər. Ayın 22-də isə Şabran şəhərinin xarabalıqları yanından keçdilər. Şabrançayın sahilində gecələyib 23-ü Şeşpara kəndindən keçməklə yollarını davam etdirdilər. Dəvəçi kəndində gecələdikdən sonra ayın 24-ü səhər tezdən ekspedisiya yolunu davam etdirdi. Günorta üstü Ataçaya çatdılar. Qmelin burada dəniz sahilində yerləşmiş qədim şəhərin xarabalıqlarını müşahidə etmişdi. Səyyahın dediyinə görə, hələ bu zamanda burada qəbiristanlıq vardı və Pirxəlilin qəbiri də burada idi [108, s.52-54].

Pirxəlildən hərəkət davam etdirildi və axşama yaxın dəstə kiçik bir çayın sahilinə çatdı. Çayın üzərində üç dəyirman və gömrük məntəqəsi vardı. Qmelin yazır ki, mallardan kisə hesabı ilə gömrük haqqı alınırdı. Böyük-kiçikliyindən asılı olmayaraq hər kisəyə görə 1 abbası, 1 tuluq neftə görə yarım abbası alınırdı. Həmin gecəni ekspedisiya üzvləri çayın kənarında çadır qurub gecələdilər [108, s.54]. Ayın 25-də Qmelin öz dəstəsindən bir neçə nəfərlə Beşbarmaq dağına qalxdı. Dağın yamacları çox sıldırım olduğuna görə dəstə üzvləri böyük çətinlik çəkirdilər. Nəhayət, Qmelin dağın ən hündür zirvəsinə qalxa bildi. Dəstə Beşbarmaq dağının ətəyindəki karvansarada gecələdi. Qmelin karvansaranın darvazalarında daş divarların üzərində vaxtilə burada istirahət edənlərin öz adlarını yazdığını görmüşdü. Bunlar

içərisində onun diqqətini “1738-ci il 25 avqust – Lerx”, “1738-ci il dekabr – Kempfer” yazıları cəlb etmişdi. Qmelin də öz adını karvansaraya yazdığını qeyd edir [108, s.56-58].

Beşbarmaq dağının ətəyindəki karvansarada gecələdikdən sonra dəstə səhəri gün günortadan sonra hərəkətini davam etdirdi. Axşama yaxın dəstə Hacı Məmməd adlı bir Bakı tacirinin qazdırdığı və onun adı ilə adlandırılan su quyusuna çatdı [108, s.58-59].

Ayın 26-sı günortaya yaxın dəstə bir karvansaraya çatdı. Gecə düşəndə isə Saray kəndinə çatdı. Qmelinin yazdığına görə Sarayda yalnız Fətəli xanın bir yüzbaşısının komandası altında əsgərlər yaşayırdı. Onların sayı 100 nəfərə çatırdı. Əsgərlər ildə əlli manata qədər maaş alır (yüzbaşı 200 manat) və nökərlər adlanırdılar. Dəstə gecə hərəkətini davam etdirdi və 27-si səhər tezdən Bakıya çatdı [108, s.60].

Ekspedisiya Bakıya çatdıqda öz gəmisinin artıq Bakı limanında lövbər saldığını gördü, Qmelin tərcüməçi ilə Həştərxan qubernatorunun zəmanət məktubunu Bakı xanına göndərib onu tezliklə qəbul etməsini xahiş etdi. Dəstə üçün dərhal mənzil ayrıldı. Ancaq Qmelin əvvəlcə sahildən yarım verst aralı lövbər salmış gəmidən bəzi lazımi şeyləri götürmək qərarına gəldi. Qmelin gəminin göyərtəsinə qalxdığı zaman güclü şimal-qərb küləyi əsdi və Qmelin quruya qayıda bilmədi. Qmelin yazırdı ki, Bakıda gəmilər sahilə çox yaxınlaşa bilərlər, çünki dənizin dibi xırda, parça-parça olmuş balıqqulağılarla qarışmış təmiz qumdan ibarətdir. Təcrübəsiz şturman lazımsız ehtiyatlılıq göstərərək gəmini sahildən aralı üç sajen yarım dərinlikdə saxlamışdı. Adətən gəmilər şəhər divarlarının lap önündə dururdular. Qmelin neft və duz üçün gəlmiş bir neçə salın (sandal) sahildə dayandığını görmüşdü [108, s. 60-61].

Hava bir qədər sakitləşən kimi, ayın 28-də Qmelin qayıqlarda sahilə yan aldı və bakılı Mirzə Məhəmməd xanın qəbuluna getdi. O, xana hədiyyə etmək üçün özü ilə iki paltarlıq mahud, tüfəng üçün barıt, qənd və çay götürmüşdü. Qmelinin yazdığına görə o, çox pis qəbul olundu. Qmelinin oturması üçün səndəl qoyulmuşdu, onu müşaiyət edənlər isə ayaq üstə durmalı idilər. Xan Qmelinin gəlişindən təəcübləndiyini söylədi. Qmelin

bildirdi ki, onun gəlişinin yeganə məqsədi Həştərxandan göndərilən zəmanət məktubunda göstərilən kimidir. O, Xəzər dənizinin qərb sahillərinin təbiətini öyrənir, təsvir edib Avropada maraqlananlara çatdıracaqdır. Qmelin yazır ki, xan ya sadəlövlüyündən onun izahını anlamadı, ya da inamsızlığından bunu bəhanə hesab etdi. Xan Qmelinə söylədi ki, artıq 7 ildir ki, heç bir rus gəmisi Bakıya yan almır və heç kim tərəfindən incidilməyən rus konsulu tamamilə səbəbsiz Bakıdan Salyana getmişdir; indi isə qəflətən siz gəlmisiniz və özünüz etiraf edirsiniz ki, ticarət məqsədi güdmürsünüz və mənim anlaya biləcəyim heç bir səbəb göstərmirsiniz. Belə halda mən sizdən şübhələnməyə haqlıyam. Qmelin cavabında demişdi ki, onun davranışı və məşğuliyyəti hansı niyyətlə gəldiyini sübut edəcəkdir. Qmelin xandan ona xeyirxah münasibət göstərməsini xahiş edib, sarayı tərk etdi və onun üçün ayrılmış mənzilə getdi [108, s.61-62].

Ayın 29-u Qmelin Bakının ətrafını müşahidə etdi. Ertəsi günü isə onu çox maraqlandıran neft quyularına baxdı. Qmelin quyuların ətraflı təsvirini vermişdir. Atəşgaha baxmış və onun burada gördüyü hind zəvvarlarının yaşayışının ətraflı təsvirini vermişdir [108, s.65-67].

Qmelin təkcə bir quyuda ağ neft çıxarıldığını, digər quyuların hamısından isə qara neft çıxarıldığını qeyd edir. Ağ neft daha tez yanır, tüstü çox az verirdi. Yandırmaq üçün qara neftdən istifadə edirdilər. Ağ nefti iki dəfə qatılaşdırdıqdan sonra ondan bir çox xəstəliklərə qarşı dərman kimi istifadə edirlər. Ağ neftin 8 funtluq bir batmanı 1 abbası yarıma (30 qəpiyə) satılırdı. Qara neftin 15 funtluq 1 batmanı isə 5 qəpiyə satılırdı. Həm ağ, həm də qara nefti dəri tuluqlarda saxlayır və daşıyırdılar. Duzun 1 pudu 7,5 qəpiyə satılırdı. Qmelinin aldığı məlumata görə Bakı xanı neft və duzdan ildə 40 min manata qədər gəlir götürürdü [108, s.73].

Avqustun 1-də Qmelin yenidən Mirzə Məhəmməd xanın yanına getdi. Qmelinın neft quyularını müşahidə etməsindən xanın artıq xəbəri var idi. O, səyyahın nə üçün neft quyularının yanına getdiyini və Rusiyada əcnəbiyə belə hərəkətə imkan verilə biləcəyini soruşdu. Aydın idi ki, xan Qmelini casus sayır. Xan Qmelinin verdiyi hədiyyələri də çox aşağı qiymətləndirib dedi ki,

yalnız nəzakət qaydaları hədiyyələri qaytarmaqdan onu saxlayır. Qmelin qaldığı mənzilə qayıtdıqda mənzilin qarşısına iki güdükçü qoyulduğunu gördü. Qmelin və ekspedisiya üzvlərinin, matrosların hər bir hərəkəti nəzarət altına götürülmüşdü [108, s.77].

Yeri gəlmişkən, qubalı Fətəli xanın özü də Qmelinin ekspedisiyasına etimadsızlıqla yanaşmışdı. Bir müddət sonra, avqust ayında Qmelini Şamaxıda təkrar qəbul edərkən Fətəli xan söyləmişdi ki, ona aydındır və yaxşı başa düşür ki, bitki toplanması gözdən pərdə asmaq üçündür. Fətəli xan yalnız Rusiya ilə münasibətləri korlamamaq xatirinə ekspedisiyanın işinə maneçilik göstərməmişdi [100, s.108-109]. Bəziləri Qmelinin ekspedisiyasının rus qoşunlarının Azərbaycana və Şimali İrana yürüşü niyyəti ilə əlaqələndirirdilər. Sentyabr ayında şaiyə yayılmışdı ki, Qmelinin ekspedisiyasının arxasınca rus qoşunu gələcəkdir [76.16, v.247]. Bu şayiə tam əsassız deyildi. Elə bu vaxt Xarici İşlər Kollegiyası Həştərxan qubernatorundan Qızlardan Dərbənd, Bakı və Rəşt şəhərlərinə qədər məsafə, xanlıqların gücü və vəziyyəti haqqında dəqiq məlumat verməyi tələb etmişdi [76.16, v.58, s.528].

Qmelin Bakı şəhərinin görünüşünün ətraflı təsvirini vermişdir. Bakı xanlığında başlıca olaraq neft və duz hasil olunduğunu yazan səyyah burada zəfəran və az miqdarda pambıq yetişdirildiyini qeyd edir. Onun sözlərinə görə zəfəran istehsalı əvvəlki illərə nisbətən xeyli azalmışdı. Qmelin neft və duzun kirjim və sandallarla dəniz yolu ilə, dəvə və digər heyvanlarda quru yolu ilə başqa vilayət və ölkələrə daşındığını yazır. Gilan və Mazandarandan çəltik, ipək və ipək parçalar gətirilirdi. Qmelin o, Bakıda olan zaman ticarətin çox sönük vəziyyətdə olduğunu qeyd edir [108, s.81-82]. Səyyah Bakı xanı Məlik Məhəmmədin 6 il əvvəl ölmüş atası Mirzə Məhəmmədi əvəz etdiyini, Məlik Məhəmmədin öz qaynı Qubalı Fətəli xandan tam asılı olduğunu yazır. Eyni zamanda Qmelin bildirirdi ki, Bakı xanı Quba xanına heç bir xərac ödəmir, yalnız lazım olduqda özünün təchiz etdiyi hərbi dəstəni Fətəli xanın sərəncamına verir [108, s.52-54].

Avqustun 10-da Qmelin onu gəzdirən gəmiyə Salyana üzməsini tapşırıb özü Şamaxıya doğru hərəkət etdi. Dəstə axşam

Əkməşli kəndində gecələdi. Həmin kəndə çatmamış səyyahlar bütöv bir cüyür sürüsünə rast gəlmişdilər. Ayın 12-də Qmelinin dəstəsi dağlarda daşların arasında yerləşən Ceyranbulaq adlı quyuya çatdı. Axşam isə dəstə Caylan kəndinə çatdı və burada gecələdi. 13-də dəstə artıq Şamaxıya çatdı. Şamaxı yaxınlığında "Puzaqam" adlı kiçik çayda səyyahlar çox böyük miqdarda tısbağalar görmüşdülər. Qmelin elmə az məlum olan və "Xəzər tısbağası" adlandırdığı bu tısbağa haqqında ətraflı məlumat vermişdir [108, s.87-88].

Bir müddət Köhnə Şamaxıda qalan S.Qmelin şəhərin və Şamaxı xanlığının tarixi haqqında xeyli məlumat toplamış və onları öz səyahətnaməsində vermişdir. Şamaxının Nadir şah tərəfindən dağıdıldığını və əhalisinin Yeni Şamaxıya köçürüldüyünü yazan səyyah qeyd edir ki, Nadir şah qətlə yetirilib imperiyası dağıldıqdan sonra şahın Yeni Şamaxıdakı naibi Hacı Məmmədəli özünü xan elan edərkən sərkarlar nəslindən olan Məhəmmədsəid bəy də dağıdılmış Köhnə Şamaxıya gələrək burada özünü xan elan etmişdi. Bunu eşidən bir çox sabiq Şamaxı sakinləri də Köhnə Şamaxıya qayıtmışdılar. Daha sonra Məhəmmədsəid xanın Hacı Məhəmmədəlini hakimiyyətdən kənarlaşdırıb Şamaxıda təkhakimiyyətliyə nail olduğunu qeyd edən Qmelin Fətəli xanın Şamaxı xanlığını ələ keçirməsi haqqında da məlumat verir. Səyyah yazır ki, 1769-cu ildə Fətəli xan Yeni Şamaxını dağıdıb sakinlərini də Köhnə Şamaxıya qayıtmağa məcbur etmiş və bununla da şəhər bir qədər bərpa olunmuşdu. Qmelinin yazdığına görə o zaman Şamaxıda adam yaşayan min ev var idi. Səyyah Fətəli xanın Yeni Şamaxıdan sakinləri Köhnə Şamaxıya köçürtməsini aşağıdakı səbəblərlə izah edir:

1) Yeni Şamaxının iqliminin qeyri-sağlam olması; 2) İçməli suyun qıtlığı; 3) Fətəli xan Şamaxılıların üsyan qaldıracaqlarından ehtiyat edirdi və buna görə də onları bir yerə toplayırdı ki, üzərlərində nəzarət etmək asan olsun (108, s.92-94).

Qmelin Şamaxı ticarətinin vəziyyəti haqqında da geniş məlumat vermiş və onu təhlil etmişdir. Səyyah yazır ki, əvvəllər ipək Şamaxının çiçəklənməsində və inkişafında böyük rol oynamışdır, şəhər böyük ticarət və sənət mərkəzinə dönmüşdü.

Şamaxıdan ipəyi Azərbaycanın digər yerlərinə, Gürcüstana və Rusiyaya ixrac edirdilər. Rusiyadan Şamaxıya mərsin boyası, şəkər, çay, holland mahudu, qalay, polad, dəmir, qurğuşun, ağardıcılar, müxtəlif xırdavat, güzgü, bıçaqlar, qayçılar, kiçik zərif metal külçələri və s. gətirilirdi. Qmelin yazır ki, Məhəmməd Səid xanın dövründə Şamaxıdan ipəyi Türkiyəyə də ixrac edir, orada kiçik metal külçələrinə və polada dəyişirdilər, lakin artıq 4 ildir ki, Türkiyə ilə ticarət kəsilmişdir. Dükanlarda rus və Azərbaycan tacirlərin Şamaxı emalatxanalarında istehsal olunmuş ipək və pambıq parçaları satılırdı. Səyyahın yazdığına görə Məhəmməd səid xanın dövründə çiçəklənmə vəziyyətində olan Şamaxı ticarəti Fətəli xanın hakimiyyəti dövründə tənəzzül vəziyyətində idi. Qmelin bunun səbəbini Fətəli xanın qoyduğu ağır vergilərin sakinləri var-yoxdan çıxarmasında görürdü. İmkanı olanlar alver etdikdə də gizlində edirlər ki, xan onların ən yaxşı mallarını pulunu ödəmədən əllərindən almasın. Qmelinin yazdığına görə o, Şamaxıda olan zaman bir neçə rus və hind taciri istisna olmaqla şəhərdə xarici ölkə taciri yox idi [108, s.100-101].

Səyyahın yazdığına görə Məhəmmədsəid xanın dövründə Təbrizin 100 ipəkçilik ustası Yeni Şamaxıya köçdüyündən bu şəhərdə ipəkçilik çox tərəqqi etmişdi. Fətəli xan Şamaxı xanlığını ələ keçirən zaman həmin ustalar Təbrizə qayıtmışdılar [108, s.101].

Avqustun 20-də Qmelin Yeni Şamaxıya yollanmışdı. Yolda Gülüstan qalası və Qız qalasının xarabalıqlarını gördüyünü yazır [108, s.106].

Avqustun 22-dən 26-na kimi S.Qmelin Yeni Şamaxı şəhərində qalmışdı. Bu günlərdə Fətəli xan da Yeni Şamaxıda imiş və səyyah tez-tez onunla görüşdüyünü yazır. Bir dəfə Fətəli xanın qulluqçusu xanın göstərişi ilə Qmelinin qulağına söyləmişdi xan anlayır ki, Qmelinin otları toplaması yalnız pərdələnmək üçündür, əslində o, casus məlumatları toplayır; ancaq xan Rusiyanın mərhəmətinə inanır və buna görə də Qmelinin səyahətinə mane olmur, əksinə lazımi yardım göstərəcək. Qmelin özü etiraf edirdi ki, Dərbənddəki əhvalat istisna olmaqla Fətəli xan ona səyahətində doğrudan da köməklik göstərmişdir. Fətəli xan səyahətçilərin

Yeni Şamaxıdan Salyana hərəkətinin təhlükəsizliyini təmin etmək üçün bir yüzbaşı ilə 12 əsgər göndərmişdi [108, s.109].

Ayın 27-də Qmelin Yeni Şamaxıdan Salyana doğru hərəkət etdi, O, Məhəmmədsəid xanın Fətəli xan tərəfindən kor edilmiş qardaşı Ağası xanın basqınları üzündən Muğanda hərəkət etməyin təhlükəli olduğunu yazırdı. Dəstə ayın 27-dən 28-nə keçən gecə bir dəyirmanda, 28-dən 29-na keçən gecə isə Nəvahi kəndində gecələdi. 29-u axşam Kür çayının sahilinə çatan dəstə 30-u çayın axarı istiqamətində hərəkətini davam etdirdi və sonra kirjimə minib Salyan şəhərinə gəldi. İki gün sonra ekspedisiyanın gəmisi də Salyana yan aldı [108, s.111-112].

Qmelin sentyabrın 1-dən 30-dək Salyanda qaldı. O, Salyanda belə çox qalmasını bir qədər Salyanı yaxından öyrənmək istəyi ilə, bir qədər də qızdırmaya tutulması ilə izah edir [108, s.112].

Qmelin Kür çayı, onda tutulan balıqlar haqqında məlumat verir. Kür çayında və onun qollarında balığın çox olduğunu yazır. Burada nərə balığı, uzunburun, ağ balıq, qızıl balıq, şamayı və digər balıqların bol olduğunu qeyd edir. Salyanda şirin suya görə balıqların toplandığı bir yerin olduğunu yazır [108, s.113].

Qmelinin yazdığına görə Nadir şah qətlə yetiriləndən sonra Salyanda hakimiyyəti ələ keçirmiş İbrahim xan qubalı Hüseynəli xanın ögey qardaşı imiş. O, Salyanı yaxşı idarə etmədiyindən, yaxud hansısa digər səbəbdən Hüseynəli xan İbrahim xanı hakimiyyətindən kənarlaşdırıb idarəçiliyi oğlu Fətəli bəyə tapşırıbmış [108, s.114].

Salyandan cənuba doğru hərəkət edən Qmelin Ənzəli, Rəşt və Pəribazara getmiş, 1771-ci ildə Mazandaranda və Astrabadda olmuş, 1772-ci ilin əvvəlində isə Həştərxana dönmüşdü [162.1, v.12].

Rus hökuməti Xəzər sahillərini öyrənməyi davam etdirmək qərarına gəldi. II Yekaterinanın 5 oktyabr 1772-ci il tarixli fərmanında deyilirdi ki, Qmelin 1770-ci ildə Xəzər dənizinin qərb sahillərini öyrəndiyindən indi də şərq sahillərini tədqiq etmək üçün yola düşməlidir. Bu məqsədlə bir gəmi də ayrıldı. Lakin, Xəzər dənizinin şimal hissəsi artıq donduğundan ekspedisiyanın yola salınması növbəti ilin yazına keçirildi [111.2, v.2].

1773-cü ilin iyun ayında S.Qmelinin ikinci ekspedisiyası yola başlayır. Bu dəfə ekspedisiya Həştərxandan hərbi gəmidə yola salındı. Ekspedisiya əvvəlcə Xəzər dənizinin şərq sahilləri boyunca üzdü. Sonra isə qərbə istiqamət götürdü və 1773-cü il sentyabrın 1-də Astrabada çatdı. Buradan Qmelin Xəzərin cənub-qərb sahili ilə geri qayıtdı. Əvvəlcə Lənkərana gəldi.

Müəllif Lənkəran xanlığı və Lənkəran şəhəri haqqında yazır ki, bu xanlıq Xəzər dənizi sahilində Astaradan 50 verst şimala uzanır. Qızılağac qəsəbəsi haqqında danışaraq burada tərəkəmə tatarların (türklərin) yaşadığını qeyd edir. O diyarın faunası haqqında çox maraqlı bir məlumat verir: burada pələnglərin yaşadığını (həm də Gilandakından daha çox sayda və müxtəlif növdə) qeyd edir. Talış diyarında gips və əlibastrın (alibastr) olduğunu yazır. Qmelinə görə Lənkəran xanının sərəncamında 3 min döyüşçü vardı, onlardan üçdə iki hissəsi həmişə düşmənlə müharibəyə hazır olmalı idi [162.1, v.110 a.ü.].

Səyahətnamədə yazılır ki, Talış diyarında ən çox çəltik yetişdirməklə məşğul olurlar. Pudu 25 qəpiyə satılır. Pambıq və küncüt də yetişdirilirdi (xüsusən Qızılağacda). Qmelin Talışda ipəkçiliyin daha az inkişaf etdiyini yazır. Talışda pambıqdan az miqdarda ağ parça hazırlanırdı. Bağlar da yaxşı gündə deyildi. [162.1, v.111 və a.ü.].

Qmelin Lənkəran xanlığı əhalisinin çox yoxsul olduğunu, ticarətin zəif inkişaf etdiyini yazır. Çəltik və odun Salyan və Bakıya göndərilən yeganə mallar idi, bir hissəsini dəniz yolu ilə Gilana göndərirdilər. Qmelin Talışı Rusiya ticarətinin məntəqəsi kimi seçmək üçün əlverişli saymırdı [162.1, 111 a.ü.].

Qmelinin yazdığına görə lənkəranlı Qara xanın soykökü şah nəslinə (səfəvilər nəzərdə tutulur) gedib çıxırdı. Qara xan orta yaşlı bir adam idi. 12 oğlu var idi və onlardan ikisi artıq o zaman evli idi. Qara xanın Təhmasib bəy adlı bir qardaşı vardı. Ancaq, Qara xan çoxdan idi ki, onunla və eləcə də gilanlı Hidayət xanla düşmən idi. Qmelinin yazdığına görə ətraf xanlar və hakimlər və hətta vəkil Kərim xan Zənd bu münasibətlərə tez-tez müdaxilə edirdilər. Qmelin yazır ki, Qara xan Kərim xana nadir halda xərac göndərdiyi üçün vəkil xandan xoşlanmırdı. Şimali İranın

ən varlı və ən güclü hakimi olan Hidayət xan Lənkəran xanlığını özünə tabe etməyə çalışırdı. Üç il əvvəl (1770-ci ildə), Qmelinin birinci səyahəti zamanı Hidayət xan Lənkəran xanlığına hücum edib Qara xanı ailəsi ilə birlikdə əsir almış, onu Şiraza Kərim xanın yanına göndərmişdi. Ancaq Kərim xan Qara xanı yenidən Lənkərana göndərib onun Hidayət xandan asılı olması şərtini qoymuşdu [162.1, v.112 və a.ü.]

S.Qmelin Lənkəranın iri feodallarından biri Mir Əli bəy haqqında maraqlı məlumat verir. Onun yazdığına görə Lənkəran yaxınlığında yaşayan Mir Əli bəy sünni məzhəb olmasına baxmayaraq Qara xana çox sadiq idi, o 400 döyüşçü çıxara bilirdi. Mir Əli bəy də Qara xanla birlikdə Hidayət xan tərəfindən əsir alınmışdı və sünni məzhəb olduğuna görə Hidayət xan tərəfindən ağır təhqirlərə məruz qalmışdı. Əgər Hidayət xan Mir Əli bəyin mülkündə hakimiyyəti ələ almış və Ərdəbil xanı ilə ittifaqda olan Mir Əli bəyin oğlundan qorxmasaydı, yəqin ki, o zaman Mir Əli bəyi qətlə yetirərdi. Məhz bu səbəbdən Hidayət xan Mir Əli bəyi nəinki həbsdən azad etmiş, hətta ona 2000 manat verərək yola salmış, ancaq əvəzində oğlunun Rəştə gəlməsini istəmişdi. Lakin oğlu atasının bu barədə təklifi ilə nəinki razılaşmamış, hətta onun özünü də Hidayət xana qarşı qaldırmışdı. S.Qmelin onun özünün də Mir Əli bəydən çox qorxduğunu yazırdı. Məsələ burasındadır ki, Qmelin ekspedisiya üzvləri ilə birlikdə gecələmək üçün düşərgə saldığı Astara çayı sahilindən alaf üçün Astara şəhərinə adam göndərdiyi zaman Mir Əli bəy 50 nəfərlə birlikdə Qmelini və yoldaşlarını öldürmək üçün hücum etmişdi. Ancaq ruslar Çarqoruqlu gölünü qayıqsız keçib qaçmışdılar [162.1, 20, v.113 a.ü.-114].

Qmelinin yazdığına görə 1773-cü ilin əvvəlində Hidayət xan Qara xanı xanlığın üç iri feodal hakimi Mir Əli bəy, Şahmar və Droqali (?) bəylə birlikdə Rəştə dəvət etmişdi, məqsədi onları həbs etmək idi. Qara xan və adı çəkilən bəylər Hidayət xanın niyyətini anlayıb Rəştə getməkdən imtina etdilər. Hidayət xan Lənkərana hərbi yürüş etmək qərarına gəldi. Kərim xan Zənd nəinki bu fikirlə razılaşmış, hətta Hidayət xana sərdar rütbəsi verərək, yardım üçün 4 min döyüşçü də göndərəcəyini vəd etmişdi.

Hidayət xan eyni zamanda bir il əvvəl özünün Kərim xanın göstərişi ilə Ərdəbildə hakimiyyətdən məhrum edib, yerinə bir naibi təyin etdiyi ərdəbilli Nəzərəli xanla da barışmışdı. Nəzərəli xan bu zaman Muğanda öz kürəkəninin yanında yaşayırdı. Hidayət xan 10 minlik qoşunla Ərdəbil önünə gedərək təntənə ilə Nəzərəli xanı yenidən taxta çıxarmış, hətta onu öz birinci sərkərdəsi etmişdi. Ancaq Nəzərəli xandan ondan asılı olmasını və onunla birlikdə Qara xana qarşı yürüşdə iştirak etməsini şərt şoymuşdu [162.2, v.113 a.ü.-114 a.ü.]. Qara xana qarşı yürüşə hazırlıq 3 ay çəkmişdi. Hidayət xan hətta 20-dən artıq gəmini də bu işə cəlb etmişdi. Bu gəmilərin bir çoxu rus yelkənləri, kəndirləri və lövbərləri ilə təchiz olunmuşdu. Bu gəmilər Lənkəran ilə Salyan arasındakı əlaqəni kəsmək üçün bu iki yer arasında dolaşırdılar. Qmelinin ekspedisiyası Lənkərandan Salyana dəniz vasitəsilə üzmək istərkən Hidayət xanın dənizçiləri buna mane olmaq istəmişdilər [162.2, v.115].

Qmelinin yazdığına görə o zaman Lənkərandan Salyana gedərkən Qızılağac və Həsənabad körfəzləri boyu dolayı yolu qət etməmək üçün sakinlər çox vaxt dəniz yolundan istifadə edirdilər. Bu məqsədlə Qara xan və daha 10 Lənkəran sakini 20 kirjim saxlayırdı. Kirjimlərdə daşınmaq üçün hər at yükünə görə ölçüsündən asılı olaraq birdən üç manata qədər pul alırdılar [162.1, v.115 və a.ü.].

1773-cü il noyabrın 25-də Lənkərandan yola düşən ekspedisiya bir neçə verst üzdükdən sonra dənizdə əks istiqamətdə külək başladığına görə sahilə yan almış və ayın 27-nə kimi burada dayanmışdı. Sonra avarları hərəkətə gətirməklə hərəkətə başlamış, ancaq ayın 28-də güclü yağışla müşayiət olunan şimal küləyi əsməyə başlamışdı. Buna görə də ekspedisiya yenidən hərəkətini dayandırıb noyabrın 29-na kimi gözləməli olmuşdu. 29-u səhər tezdən hava bir qədər sakitləşdi, axşama yaxın ekspedisiya yolunu davam etdiridi və 30-u axşam alatoranlıqda Qızılağac körfəzində Qızılağac kəndinin qarşısına çatdı. Qərb küləyi suyu sahildən uzaqlaşdırdığına görə gəmi sahilə yan ala bilmədi və ekspedisiya sahildən yarım verst aralı gecələməli oldu. Dekabr ayının 7-də ekspedisiya Salyana çatdı [162.1, v.115 a.ü.-116].

Qmelin yazırdı ki, o zaman Azərbaycan və İran dənizçiləri kompasdan istifadə etmədikləri üçün ancaq sahilin yaxınlığında üzürdülər ki, bu da məsafənin uzanmasına səbəb olurdu. Qmelinin yazdığına görə XVIII əsrdə Qızılağac körfəzinin cənub hissəsi Qızılağac kəndinin adı ilə Qızılağac körfəzi, şimal hissəsi isə sahildəki Həsənabad kəndinin adı ilə Həsənabad körfəzi adlanırdı. Körfəz dayaz olduğuna görə qamışlarla örtülmüş sahilləri gəminin yan alması üçün əlverişli deyildi, buna görə liman kimi istifadə üçün yararsız idi. Ancaq körfəz balıq ovlanması üçün çox əlverişli idi. Qmelin yazırdı ki, Lənkəran şəhərinin qarşısında yerləşən adada (Sarı adası) ilin müəyyən vaxtlarında adamlar yaşayır, buna görə də adada nar, əncir və başqa ağaclar vardı. Adaya körpü ilə keçmək olurdu [162.1, v.116 və a.ü.].

Qmelin yazırdı ki, şəkili Hüseyn xan və Şamaxıdan qovulmuş Ağası xan noyabr ayının 20-də Şamaxıya hücum etmişlər. Fətəli xanın hakimiyyətindən narazı qalan şamaxılılar Ağası xanla əlaqəyə girmişlər. Bu zaman Şamaxıda olan və düşmənin hücumunu gözləməyən Fətəli xan qısamüddətli müqavimətdən sonra yanında olan azsaylı salyanlı döyüşçülərlə və bu zaman Bakıda olan bakılı Məlik Məhəmməd xanla Dərbəndə qaçmalı olmuşdu. Quba xanına tabe olan ərazilərin çoxunda qarətlər və toqquşmalar baş verirdi. Lənkəran xanının nəvəsi qətlə yetirilmiş, bir çox tacirlər, hətta rus tacirləri qarət olunmuşdu. Fətəli xana xidmət edən Salyan döyüşçüləri Salyana qaçmışdılar. Dağıstanlı döyüşçülər Fətəli xanın qohumunu və sərkərdəsi Eldar bəyi xüsusilə axtarırdılar. Eldar bəy Salyana sığınmışdı. Dağıstanlılar Salyan naibindən onun verilməsini tələb etmiş, lakin mənfi cavab almışlar. Şamaxı ilə Salyan arasında olan 500 Muğan tərəkəmə ailəsi, düşmən hücum edən ərəfədə Şamaxı yaxınlığında olmuş, sonra Salyana qaçmışdı. Fətəli xanın düşmənləri onları təqib etmiş və Kür çayını keçmələrinə mane olmaq istəmişdilər [162.1, v.117 a.ü.118].

Qmelin qeyd edirdi ki, Kür çayının mənsəbdə şaxələndiyi yerdə qollar arasında adacıqlar çox alçaq səthə malikdilər və qamışla örtülmüş bu adacıqlar balıq ovlamaq üçün çox yararlıdırlar. Dənizdən Kür çayına çoxlu somğa və nərə balığı daxil olur.

Qmelin yazırdı ki, rus təbəələri müəyyən şərtlərlə asanlıqla Kür çayının sahillərində balıq ovlamaq hüququnu əldə edə bilərdilər. Sahildə dayanan gəmilər istənilən anda sığınacaq rolunu oynaya bilərdi. Qmelin belə qənaətə gəlmişdi ki, Salyan Rusiya Xəzər ticarəti üçün yaxşı liman ola bilər və doğrudan da rus konsulu burada iqamət etdiyi dövrdə ticarət tərəqqi edirdi. Ancaq indi tamamilə boşalmışdı. Kür çayından şimalda yerləşən Salyan evləri qarət olunmuş, varlı sakinlər qapalı həyat keçirirdilər, irəlidə göstərilən səbəblərə görə Lənkranla su yolu vasitəsilə rabitə kəsilmiş, dağıstanlılardan olan təhlükəyə görə quru yollarda olan hərəkət də demək olar ki, donmuşdu [162.1, v.118 a.ü. -119].

S.Qmelin Salyan ətrafında küncüt yetişdirilməsi ilə əlaqədar maraqlı məlumat verir. Mart ayında havalar istiləşməyə başlayanda adi darı kimi küncüt toxumunu tarlaya səpir və üstünü torpaqla örtürdülər. Küncütü suvarmağa ehtiyac yox idi. Küncüt həm qumlu, həm də gilli torpaqda yaxşı inkişaf edirdi. Yetişdikdə küncütü biçir, onu dəstələyib hörərək asırdılar ki, yaxşı qurusun. Sonra parçaya büküb döyərək toxumlarını çıxarırdılar. Qmelin əvvəlcə yazır ki, burada küncütdən yağ çıxarmırdılar, onu çiy, yaxud qovrulmuş halda üzüm sirkəsi, yaxud çörəklə yeyirdilər. Salyanda küncüt toxumlarının rəngi tünd qonur olurdu (Mazandaranda isə ağ). Ancaq sonra yazır ki, 1 pud toxumdan 10-15 funt yağ alınırdı. Küncüt yağını bir neçə il saxlayırdılar və bu müddət ərzində o acılaşmırdı [162.1, v.19 a.ü.].

S.Qmelin Salyanda olarkən Bakıya adam göndərmiş və həmin şəxs dekabrın 12-də ekspedisiyaya məxsus gəmini Salyan sahilinə gətirmişdi. Qmelin quru yoldakı qarətlərdən qorxurdu. Ancaq tezliklə bölgədə sakitlik bərpa olundugu üçün əvvəlcədən müəyyənləşdirdiyi plana uyğun olaraq Salyandan Bakıya yolunu quru ilə davam etdirməyi qərara almışdı. O, dekabrın 22-də gəmini Bakıya göndərmiş, 24-də isə özü quru yol ilə hərəkət etmişdi [162.1, v.120].

Ekspedisiya dekabrın 28-i Bakıya çatdı. Qmelin Salyan ilə Bakı arasındakı ərazinin səhralıq olduğunu, torpağın duzlu gil və çılpaq daşlardan ibarət olduğunu yazırdı [162.1, v.122 a.ü.].

Bakıda Qmelinin göstərişi ilə limanın və ətraf yerlərin planı çəkilirdi. Həmçinin Suraxanıdakı atəşgahın planı da çəkilirdi. Qmelin burada bir neçə yanar boru vasitəsilə neftin çıxıb daim yandığı bir neçə nöqtənin olduğunu yazırdı [162.1, v.122].

1774-cü il yanvar ayının 15-də ekspedisiya Bakıdan şimala hərəkət etdi. Yolda, ayın 18-də Qubada Fətəli xan S.Qmelini qəbul etdi. Ayın 20-də ekspedisiya Dərbəndə çatdı. Burada Qmelin Qızlar komendantına göndərdiyi məktubun cavabını gözlədi. O, komendantdan Dərbənddən Qızlara hərəkət etmək üçün icazə gözləyirdi. Ayın 29-da cavab və onunla birlikdə 20 ural kazakı, 1 rotmistr, yasavul və iki tatar murzasından ibarət müşayiətçi dəstə gəldi. Qızlar komendant dəftərxanası belə hesab edirdi ki, bu dəstə Qmelinin özünün yanında olan mühafizə dəstəsi ilə birlikdə ekspedisiyanın təhlükəsizliyini təmin etmək üçün kifayət edəcəkdir [162.1, v.122 a.ü.].

Ekspedisiya atların dincəlməsi adı ilə bir müddət Dərbənddə qaldı. Qmelin Dərbənddə olarkən rus təbəəsi olan bir neçə erməni taciri onun yanına gəlib naibin onların 20 min rus rublu dəyərində mallarını əllərindən aldığından şikayətləndilər. Qmelin Fətəli xana məktub göndərib malların tacirlərə qaytarılmasını xahiş etdi. Fevralın 4-də naib ekspedisiyanın Dərbənd şəhərini tərk etməsini tələb etdi. Qmelin hələ bir neçə gün də bu şəhərdə qalmaq istəsə də, naib onu zorla şəhərdən çıxaracağı ilə hədələdiyindən fevralın 4-də Dərbəndi tərk edib şimala doğru hərəkət etməli oldu [162.1, v.123 a.ü.-124 a.ü.].

Məlumdur ki, S.Qmelin Rusiyaya qayıdarkən Qaraqaytaqdan keçən zaman onun casus olduğundan şübhələnən usmi Əmir Həmzə Qmelini və ekspedisiya üzvlərini həbs etimişdir [58, s.527-528]. Qmelin dustaqlıqda öldü.

Qmelin əsir düşərkən bir yolla səyahətnamənin əlyazmasını Rusiyaya göndərmişdir. Alimin ölümündən sonra səyahətnaməsinin üç cildi nəşr olunmuşdur. Dördüncü cildin 136 səhifədən ibarət mətni isə, irəlidə qeyd etdiyimiz kimi, Rusiya EA arxivinin Peterbruq filialında [162.1] hifz olunur.

Qmelin səyahətnaməsinin III hissəsində İranın hazırki siyasi vəziyyəti və "idarə üsulu" adlı bölməsindən sonra Azərbaycan

və İranda baş verən siyasi hadisələr haqqında məlumat vermişdir. Digər bir bölmədə isə məhkəmə sistemi, pul, çəki və ölçü vahidləri haqqında məlumat verilir.

Qmelinin əsərində xanlıqlar dövrü Azərbaycan tarixi, ölkənin o vaxtkı flora və faunası haqqında çox maraqlı məlumatlar var. O zaman Türkiyə ilə müharibə ilə məşğul olan rus hökuməti usmiyə qarşı cəza tədbiri görə bilmədi, ancaq bu hadisəni də unutmadı.

1774-cü ilin yayında Gavduşan çölündə baş vermiş döyüşdə Fətəli xan Qubalının Qaraqaytaq usmisi Əmir Həmzənin başçılıq etdiyi düşmən koalisiya tərəfindən ağır məğlubiyyətə uğradıldığı məlumdur. Düşmənlər Dərbəndi mühasirəyə almış, Fətəli xanın mühasirəni ləğv etmək cəhdləri boşa çıxmışdı [58, s. 539].

Fətəli xan hələ Salyanda olarkən dərbəndli Mirzə Bayatı kömək və himayə xahişilə Peterburqa çariçə II Yekaterinanın yanına göndərdi [58, s. 324-325].

Çar sarayında Fətəli xanın elçiləri yaxşı qarşılandılar. İmperatriçə 5 sentyabr 1774-cü il tarixli buyruğu ilə bir neçə piyada və topçu taborunun Qaraqaytaq usmisinə qarşı Dərbəndə göndərilməsini Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemə əmr etdi [191.1, s.207-213; 21, s.15; 148, 136-137]. De-Medemin Dərbəndə göndərilməsinin başqa səbəbi də vardır. İrəlidə qeyd olunduğu kimi, S.Q.Qmelin Əmir Həmzə tərəfindən həbs edilmiş, bir qədər keçdikudən sonra həbsdə ölmüşdü. Buna görə II Yekaterina onun cəzalandırılmasını istəyirdi. Əmri yerinə yetirən De-Medem 1775-ci ilin martında qoşunu Əmir Həmzənin mülklərinə yeritdi. Fətəli xanın müttəfiqi Tarku şamxalı Murtuzəli De-Medemə qoşuldu. De-Medem Dərbənddən şimalda yerləşən və "İran xarab" adlanan yerə çatdı [148, 137].

Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkib De-Medemə qarşı çıxdı, lakin məğlubiyyətə uğradı [88, s.162]. Fətəli xan De-Medemə Dərbəndi tutmağı və Quba xanlığını Rusiya himayəsinə qəbul etməyi təklif etdi. De-Medem Dərbəndə daxil oldu [97.1, s.20-21] və bir müddət şəhərdə qaldıqdan sonra 500 nəfərlik qusar eskadronunu qoyub şəhəri tərk etdi. O, Məhəmməd Hüseyn bəyi məsum vəzifəsinə təyin etdi. Kotevanda Əlvənddə

qərar tutan Ağası xan da zahirən tabeçilik göstərdi və ətraf torpaqları idarə etməyə başladı [88, s.164].

1775-ci ilin yazında Fətəli xan Dərbənd hakimi və Quba naziri vəzifələrini daşıyan Mirzəbəy Fərhadbəyovun başçılığı ilə Rusiyaya elçilik göndərdi [40, s.124-125]. Elçilik çariçəyə Şimal-Şərqi Azərbaycanın Rusiyanın himayəsinə keçməsi barədə Fətəli xanın xahiş məktubunu aparırdı. Fətəli xan imperatiriçədən düşmənlərinə qarşı mübarizədə ona hərbi yardım göstərilməsini istəyir, əvəzində Dərbəndi Rusiyaya verəcəyini bildirir və şəhərin açarlarını rus sarayına göndərmişdi. XVIII yüzilliyin ikinci yarısında Dərbənd hələ məlum dərəcədə Rusiya, Türkiyə və İran üçün öz strateji və siyasi əhəmiyyətini saxlayırdı. S.Burnaşev yazırdı "Nəinki bütün İranda, hətta türk torpaqlarında da deyilirdi ki, Dərbənd xristianlar tərəfindən alınarsa bu Məhəmmədin etiqadı və hakimiyyətinin dağılması demək olacaqdır [96, s.7]. Quba xanın elçiləri 1775-ci ilin mayında Həştərxana, iyununda isə Moskvaya çatdılar [88, s.163].

Əslində Fətəli xan heç də xanlığın Rusiyanın tərkibinə qatılmasını istəmirdi. O, yalnız Rusiyanın ali himayəsini qəbul etmək, bununla onun hərbi yardımını qazanmaq və Rusiyaya arxalanaraq yeni torpaqlar birləşdirmək istəyirdi.

Lakin Rusiya özü bilavasitə Azərbaycanı zəbt etmək istəyirdi və buna görə Fətəli xanın xahişini yerinə yetirmədi. Dövlət Şurası qərara aldı ki, Fətəli xana bildirilsin ki, o, müstəqil qaldıqca Rusiya qoşunları Quba xanlığından qoparılmış mülklərin geri alınmasında ona kömək edə bilməz. Bu cür qərar qəbul olunmasında belə bir məsələ müəyyən rol oynamışdı ki, Rusiya Türkiyə ilə müharibəni yenicə – 1774-cü ildə bitirdiyi üçün onunla münasibətləri yenidən kəskinləşdirmək istəmirdi.

Rus qoşunlarının Dağıstana yürüşü və Dərbənddə rus hərbi hissəsinin yerləşdirilməsi Avropa dövlətlərinin və Osmanlı imperiyasının ciddi narahatlığına səbəb oldu. Bu narahatlıqları aradan qaldırmaq üçün çar hökuməti 1775-ci ilin iyulunda rəsmi məlumat verməli olmuşdu. Rusiyanın Xarici Siyasət arxivində 1775-ci ilin iyulunda Moskva qəzetlərində dərc olunmaq üçün hökumət informasiyası vardır. İnformasiyada deyilirdi ki, rus

qoşunları yalnız usmimi cəzalandırmaq məqsədi güdmüşdür [58, s. 545-547].

1775-ci il iyunun 22-də Dövlət Şurasında gen. de Medemin göndərdiyi raport oxundu. De Medem Fətəli xanın Rusiya himayəsinə keçmək istəyindən, nümayəndələr göndərərək usmi ilə müharibədən əvvəl əlində olan Kürə qədər torpaqları qaytarmaq xahişindən, generalın Dərbənddə 800 nəfərlik qarnizon qoymasından yazır, lazım gəldikdə yardıma toplar və sürsatla birlikdə daha 10 min əsgər göndərilməsini xahiş edirdi. Şura hesab etdi ki, de Medemi sonrakı hərəkətlərdən və Fətəli xanla sazişdən çəkindirmək lazımdır, çünki bu Rusiyanı sonsuz ara müharibələrinin iştirakçısına çevirə bilər [85.1, s.787-788].

XVIII yüzilliyin 70-ci illərinin ortalarında rus hökuməti Yemelyan Puqaçovun rəhbərliyi altında üsyan nəticəsində ölkənin sarsılmış vəziyyətini məhkəmləndirməyə çalışır və çox fəal xarici siyasət yürüdə bilmirdi. Rus diplomatiyası Rusiya üçün əlverişli Kiçik Qaynarca sülhünün şərtlərini pozmaq istəməyərək Türkiyəyə qarşı mülayim siyasət yeridirdi. Buna görə də bu zaman Rusiya hələ Azərbaycanda işğalçılıq niyyətini açıq büruzə verməməyə çalışırdı.

İmperatriçə Osmanlı dövlətini və İranı sakitləşdirmək üçün de-Medemə Dərbənddə saxlanmış qüvvəni tez zamanda geri qaytarmağı əmr etmişdi [191.2, s.298, 299]. Çar hökuməti Azərbaycan və Dağıstanın işlərinə qarışmaqla və Dərbənddə qoşun saxlamaqla Türkiyənin Cənubi Qafqazda cavab hərəkətlərinə səbəb olacağından qorxurdu. II Yekaterina bu münasibətdə yazırdı: "Əgər biz öz sərhədlərimizi Qızlardan İrana tərəf genişləndirmək istəsək, onda Porta öz növbəsində İranla bilavasitə qonşu olduğu üçün bu cür hərəkət edərək ona yaxın İran ərazilərini tutar" [191.1, s.473]

II Yekaterina yazırdı ki, beynəlxalq şərait indi həmin ölkələrdə rus qoşunlarının hərəkətlərini davam etdirməyi tamamilə lazımsız edir. Bu Dağıstan xalqlarını Rusiyaya qarşı qaldırır, bundan əlavə İran və Osmanlı imperiyasında, Rusiyaya qonşu dövlətlərdə Rusiyaya qarşı şübhə doğurur [191.1, s.435, 436].

General de-Medem mürəkkəb beynəlxalq şəraitdə Dərbənddə qoşun saxladığına görə töhmət aldı [58, s.534].

1775-ci il iyulun 2-də Ali Dövlət Şurasında general poruçik De-Medemdən rus qoşununu Dərbənddən çıxarmağı tələb edən buyruq qəbul olundu [77.2, v.104-108, 85.2, s.788].

Türkiyədə Dərbənddə rus hərbi hissəsinin yerləşdirilməsinə Rusiyanın Türkiyə ilə bağladığı sülh müqaviləsini pozması kimi, yeni müharibəyə hazırlanması əlaməti kimi baxırdılar [85.1, s.788; 77.1, v.134].

Osmanlı hökuməti Rusiyanın Cənubi Dağıstandakı niyyətləri və Quba xanlığına köməyinin səbəbləri barədə rəsmi sorğu verdi. Buna cavab olaraq səfir N.V.Repninə II Yekaterinanın 3 oktyabr 1775-ci il tarixli buyruğunda deyilirdi ki, "türk nazirinin... Dərbənd şəhəri və oradakı xanla bağlı bizim sarayın hərəkətləri barədə rəyi təəcüb doğurur" [81.1, v.47-48].

II Yekaterina təəcüblə soruşmuşdu ki, ola bilərmi ki, Türkiyədən bu qədər uzaqda baş verən hadisələr osmanlıları maraqlandırsın? O, Repninə sultan hökumətinə Rusiyanın Dərbənd şəhərini özünə birləşdirmək niyyətində olmadığını açıqlamaq haqqında göstəriş vermişdi. Guya Cənubi Dağıstana yürüş Rusiyanın nüfuzunu yüksəltmək və rus sarayına lazımi hörməti bərpa etmək məqsədi güdmüşdür [81.1, v.47-48].

Quba xanı Fətəli ilə Rusiya hökumət dairələrinin başçıları arasındakı münasibətin əsasən normal səciyyə daşımasına baxmayaraq, bəzən həmin münasibətlər pisləşirdi. Buna misal olaraq Müşkürdən bir qədər aralı – Samur çayının mənsəbi yaxınlığında Yemelyan Skvortsov adlı bir tacirə məxsus gəminin batması və bununla əlaqədar ixtilafı göstərmək olar. Yükü xam ipək və ipək parçalardan ibarət olan gəmidə Həştərxan, Quba, Dərbənd, Bakı, İsfahan, Tula, Gilan, gürcü, tatar və hind tacirlərinin malları vardı. H.Abdullayevin dəqiq hesablamalarına görə batan gəmidə o zaman üçün böyük məbləğ – 452442 rubl dəyərində mal olmuşdur [58, s.570].

Quba hakimiyyət orqanları bu məsələ ilə əlaqədar itmiş olan malların axtarışı və toplanması üçün qubalılardan və rus məmurlarından ibarət bir heyəti hadisə yerinə yolladı. Onların arasında

naib Bədirxan bəy, Abdulla bəy, xanın katibi Mirzə Rəhim, xanın xidmətçisi Süleyman, rus praporşiki Parabin, həmçinin Avanes, Danil Bezqulov, dərbəndlilər Həsən və Mirzə, Kəlbəli Əli və mayor İ.Kridner də vardı. Təcili görülən tədbirlər nəticəsində ətraflarda yaşayan əhalidən 25 min rubl dəyərində mal götürülərək Qızlara göndərilirdi [58, s.570].

Hadisənin ilk günlərində bu gəmi hadisəsinin təhqiqinə və oğurlanmış malların bir qisminin tapılıb qaytarılmasına görə Rusiya hökumət dairələri Fətəli xana dəfələrlə öz razılıqlarını bildirmişlər. Qraf Panin Fətəli xana göndərdiyi 10 mart 1776-cı il tarixli məktubunda yazırdı ki, Peterburda Gilandan Həştərxana doğru üzən rus ticarət gəmisinin 1775-ci ilin payızında Quba xanlığı sahillərində qəzaya uğraması, Quba xanının dalğaların sahilə atdığı malları axtarıb tapmaq və sahiblərinə qaytarılması üçün tədbirlər görməsi haqqında xəbərlər almışdır. Bu Fətəli xanın Rusiyaya sədaqətini əks etdirir [79.4, v.4 və a.ü.]. Panin Fətəli xanın bu cür hərəkətindən riqqətə gəldiyini bildirir və ona öz dərin təşəkkürünü bildirirdi [79.4, v.5-6].

Lakin az sonra vəziyyət dəyişdi, Quba xanının daxili və xarici düşmənləri, o cümlədən ermənilər belə bir şaiyə yaydılar ki, guya gəmi qəzası nəticəsində itib-batmış mallar Quba hakimiyyətinin iştirakı ilə yerli əhali tərəfindən qarət olunmuşdur. Bəziləri deyirdilər ki, qarətin izlərini itirməkdən ötrü yaxın kəndlərin sakinləri xilas olan sərnişinləri və gəmi heyətini öldürmüş, malları isə Quba xanı və naibi tərəfindən mənimsənilərək Dərbənddə, Qubada və Bakıda gizlədilmişdir. Hadisə ilə əlaqədar Həştərxan quberniya dəftərxanası erməni mənşəli mayor Mirzəbəy Vahanovu Qubaya və Dərbəndə ezam etdi. Onunla birlikdə başqa bir erməni – Minas Diqlyansov da gəlmişdi [58, s.572].

Vahanov itmiş malların sahibləri, əsasən erməni tacirləri ilə birlikdə Fətəli xanın itən malların mənimsənilməsində təqsirləndirilməsindən ötrü dəridən-qabıqdan çıxırdı. Rəngsaz Minasın, dərbəndli Arutyunun, Nazarov adlı başqa bir ermənininin, həmçinin Petrosun, Poqos Havalidovun, Səfəryanın yalan məlumatlarını həqiqət kimi qələmə verən Vahanov guya gəmi qəzasından xilas olan iki erməni və dörd azərbaycanlı tacirin Şahdağ

yaxınlığında olan bir kənddə saxlanıldığını, gəmidəki bütün malların isə yerli əhali tərəfindən mənimsənildiyini bildirir və Fətəli xanın cəzalandırılmasını tələb edirdi [58, s.572]. Quba xanı isə öz növbəsində 1776-cı ilin may ayının 20-də qeneral de-Medemə yazdığı raportda onda olan malların qaytarıldığı barədə rus hakimiyyətinə məlumat verib yazırdı ki, əgər "ona inanmırlarsa o, öz evində və xanlığın ərazisində axtarış aparılmasına razıdır" [58, s.574]

Vahanov və Diqlyansov Quba xanından qisas alınmasından ötrü bərk canfəşanlıq edir, hadisə ilə əlaqədar "yeni məlumatlar üzə çıxarırdılar". Onlar bir daha təkrar edirdilər ki, itən malların bir hissəsini Fətəli xan gizlədilmək üçün Bakı xanına göndərmiş, onların digər hissəsi isə müxtəlif yerlərdə, o cümlədən Qubada və Dərbənddə saxlanır.

Vahanovun 1776-cı ilin iyun ayının 21-də Həştərxan quberniya dəftərxanasına göndərdiyi raportda Quba xanına qarşı müxtəlif mənbələrdən toplanan və düzgünlüyü yoxlanmayan materiallar, o cümlədən Hidayət xanın guya Quba hakimiyyəti nin 700 min rubl dəyərində olan malları mənimsədiyi və gəmi heyətini isə öldürdüyü barədəki şayiəsi öz əksini tapırdı [58, s.574].

Vahanovun Dərbənddə yaşayan erməni agentləri Fətəli xana mənfi münasibət bəslədikləri üçün onun barəsində get-gedə öz şayiələrini genişləndirirlər. Bu məlumata görə, Fətəli xan Dərbəndin yuxarı hissəsində – Narınqalada əvvəlcə yüzdən çox erməni ailəsini yerləşdirmiş, sonradan isə, 1776-cı illərin əvvəllərində, məlum olmayan səbəblərə görə həmin ermənilər şəhərin aşağı hissəsinə köçürülmüş və onlar 3 min rubl cərimə olunmuşlar.

Mənşəcə erməni Petros İvanov II Yekaterinaya 1781-ci ilin noyabrında yazdığı ərznamədə əvvəlcə rus qoşunları Dərbəndə gələrkən onlara böyük məbləğdə ərzaq və sursat aldığını, hətta rusların tabasaranlılarla döyüşdə itirdikləri ştandart, bayraq və təbili 170 rubla alıb ruslara qaytardığını yazırdı. O bildirirdi ki, rus qoşunlarının əsas hissəsi Dərbənddən Qızlara çəkildikdən sonra Dərbənddə sekund-mayor Kridnerin başçılığı ilə qalmış üç muşketyor bölüyü, üç süvari eskadronu, 500 Don kazakı, 100 Terek kazakı, 75 kanonir və yükcü və 30 kalmık döyüşçüsü də

onun tərəfindən ərzaq, sursat və atla təmin olunmuşdur [184.11, v.27-38; 73, s.115, s.185-187].

Petros daha sonra yazırdı ki, 1776-cı ildə Gilandan Rusiyaya üzən üç rus qaliotu (biri balıqla, digər ikisi milyon rubl dəyərində müxtəlif mallarla yüklənmişdi) fırtına nəticəsində sahilə çırpıldığı zaman Fətəli xan qəzaya uğramış gəmilərdəki bütün malları ələ keçirmiş və bunu ört-basdır etmək üçün gəmilərdəki sərnişinləri və ekipaj üzvlərini döyə-döyə öldürməyi və meyidlərini səhralıqda basdırmağı əmr etmişdi. Petros iddia edirdi ki, guya Həştərxan tacirlərinin nümayəndəsi Minay (s) Stepanov rus xidməti mayoru Mirzəbəy Vahanovla Dərbəndə gələrkən Fətəli xan guya Petrosun yanına gəlib ona 5000 rubl təklif edərək rus tacirlərinin mallarının izini itirmək üçün məsləhət istəmiş, lakin Petrosdan rədd cavabı almışdır. Petros M.Stepanovu da məlumatlandırmış və Stepanov itmiş malları tələb edərək Fətəli xanla mübahisə etmiş, digər Həştərxan tacirləri ilə birlikdə Qızlara qayıtmışdır [184.11, v.27-38; 73, s.115, s.187]. Petros belə hesab edirdi ki, əslində bu mübahisə zahiri səciyyə daşıyırmış. Minay (s) bu yolla Həştərxan tacirlərinin geri qayıtmasına nail olmuş özü isə Dərbəndə qayıdaraq tapılmış malları gizlicə Fətəli xanla bölüşdürmüşdür. Həştərxan tacirləri üçün isə cəmi 500 pud islanmış ipək, 70 pud pambıq parça, 6 min rubl dəyərində qanauz, qutni və pambıq fitə götürülmüşdür ki, bu da qəzaya uğramış malların otuzda bir hissəsini təşkil ediridi. Fətəli xanla malları bölüşdürən Stepanov ona bu işdən xəbərdar olan Petrosu, habelə Dürəhməd və Xoci adlı iki müsəlmanı qətlə yetirməyi məsləhət görmüşdür [184.11, 38; 73, s.115, s.188]. Minasın iddia etdiyinə görə, guya adı çəkilən iki nəfər qətlə yetirilmiş, Petros isə ona qarşı hazırlanan qəsddən xəbər tutub Qızlara qaçmışdır. Petros onun Dərbənddəki əmlakı üçün Fətəli xandan 23607 rubl pul alınmasını xahiş edirdi [184.11, v.27-38; 73, sən. 115, s.189-190].

Petros daha əlavə edirdi ki, Fətəli xan devirdiyi sabiq Dərbənd xanı Məhəmməd Hüseyn xanın oğlunu Bakıda həbsxanada saxlayır və hal-hazırda onun 30 yaşı var. Petros rus hökumətinə Fətəli xanın və bakılı Məlik Məhəmməd xanın devrilməsini və

Dərbənd xanının oğlunun azad edilib Dərbənd hakimliyinə gətirilməsini təklif edirdi. Ərznamənin əvvəlki yerlərində Rusiyaya əvəzsiz xidmət etdiyini dönə-dönə vurğulayan Petros sonda rus qoşunları üçün çəkdiyi xərcin (hətta bayrağın alınması üçün xərclənmiş pul daxil olmaqla) – 3511 rubl 75 qəpiyin qaytarılmasını yalvara-yalvara xahiş edirdi [184.11, v.27-38; 73, s.115, s.190-191].

Malları bir yerə toplayıb möhürləyən Quba hakiminin məmuru Dərbənddəki rus hərbi dəstəsinin komandiri mayor İ.Kridner tərəfindən təhqirə məruz qaldı. İçərisində təkcə rusların deyil, habelə İran, Quba, Dərbənd və Bakı tacirlərinin də payı olan mallar mayor tərəfindən zorla alındı, Fətəli xanın məmuru döyüldü [58, s.575].

Ənzəlidəki rus konsulunun vəzifəsini müvəqqəti ifa edən Karp Latınsevin bu hadisə ilə bağlı verdiyi məlumata görə yanvarın 22-də Gilanda Həştərxan taciri Skvortsovun Rəştdən yola salınmış yüklə dolu gəmisinin Dərbənd yaxınlığında qəzaya uğraması xəbəri alınmışdır. Sahilə atılmış bütün malları guya Quba xanı ələ keçirmişdir. O, elan etmişdir ki, qədimdə belə qayda vardır ki, gəmi qəzaya uğradıqda sahilə atılmış mallar həmin yerin hakiminə çatır. Bu xəbər gilanlı Hidayət xana çatdıqda dərhal bu barədə Latınsevə məlumat verərək onu bir neçə rus taciri ilə öz yanına məsləhətə çağırmışdır. Latınsev həmin tacirlə Rəştə Hidayət xanın yanına getmişdir. Xan onları qəbul edib bildirmişdir ki, xanlıq etdiyi 12 ildən artıq bir müddətdə 20-dən artıq gəmi Gilan sahillərində qəzaya uğramışdır, bu zaman malların heç biri itməmiş və mənimsənilməmişdir. İndi malların yarısının İran tacirlərinə məxsus olduğu gəmi qəzaya uğradığı zaman Fətəli xan sahilə atılmış malları toplayıb ümid edir ki, rus çarlarının belə bir fərmanı vardır ki, hər hansı gəmi harada qəzaya uğrayarsa adamları çıxmaq şərtilə mallar o ərazinin sahibinə çatmalıdır. O da malları mənimsəyəcək. Hidayət xan bildirmişdir ki, o, Fətəli xanı Rusiya tabeçiliyində olan hesab etdiyinə görə İran tacirlərinin mallarının ondan alınıb sahiblərinə verilməsini tələb edir. Əgər rus hökuməti Fətəli xanı öz təbəəsi hesab etmirsə icazə versin ki, Hidayət xan Fətəli xanın təbəələrindən

özünə dəyən zərəri alsın. Fətəli xanın dediyi qayda həqiqətdirsə, Hidayət xan da bundan sonra Gilanda qəzaya uğrayacaq gəmilərdən sahilə düşən malları özünə götürəcək [79.7, v.25-25].

Qeyd edək ki, Skvortsovun gəmisinin qəzaya uğraması ilə bağlı fantastik saiyələr yayılırdı. Ənzəlidəki rus konsulu vəzifəsini ifa edən İ.Vanslov sonralar, 1777-ci il sentyabrın 15-də yazırdı ki, guya Qubalı Fətəli xan fırtınanın sahilə atdığı rus gəmisindəki 700 min rubl dəyərində malı mənimsəmiş, üstəlik izi itirmək üçün gəmidəki 72 rus təbəəsini də öldürmüşdür [79.6, v.72].

General de Medem də öz növbəsində başqa cəza üsullarına əl atdı. O, yuxarıda bəhs etdiyimiz, Rusiyadan qayıdan Quba səfiri Mirzə bəy Fərhadbəyovu, az sonra isə Fətəli xanın başqa elçisi Hacı bəyi Qızlarda altı ay müddətinə girov saxladı. De-Medem, Fətəli xana təhqiredici tərzdə bir məktub göndərib yazırdı ki, guya Fətəli xan Rusiyanı aldatmaq fikrinə düşmüş, onun belə davranışı ədəb-ərkanlı adamın hərəkətinə dəlalət etmir" [58, s.575].

Fətəli xan generala cavab məktubunda heç bir günahı olmadığını yazır və gəmi qəzası barədə belə məlumat verir: "O gəmini dalğalar dörd hissəyə bölmüş, bütün mallar isə batmışdır. Dalğalar gəmidəki qayıqları Tarkı sahilinə, yelkənləri isə Bakıya atmışdır. Belə olan halda məni nahaq yerə təqsirləndirirsiniz!" [58, s.575-576]. De-Medem hətta hökumətə Fətəli xanı və Bakı xanını cəzalandırmağı təklif edir, bunun üçün əlavə hərbi qüvvələr göndərilməsini və ona səlahiyyət verilməsini xahiş edirdi. Bu təklif Xarici İşlər Kollegiyasının iclasında müzakirə olunsa da II Yekaterina onu qəbul etmədi, Çariçə bildirdi ki, "İrana məxsus olan yerlərdə" silah işlətmək Rusiyanın siyasəti ilə düz gəlmir və arzuolunmaz hadisələrə səbəb ola bilər. De-Medemə Quba elçisini dərhal buraxmaq əmr olundu [58, s.576-578].

Qafqazdakı rus qoşunlarının komandanlığı işi bu yerə çatdırıb Fətəli xana qarşı ittihamlarını gücləndirdikdə xan da komandanlığa qarşı soyuq münasibət nümayiş etdirməyə başladı. Dərbənddəki rus hərbi dəstəsinin komandirinin Dərbəndə qaçmış 8 rus təbəəsi kəndlinin geri qaytarılması haqqında Quba xanından etdiyi xahiş rədd edildi. Hətta bu məsələ barəsində general

de Medemin ciddi təhdidinə baxmayaraq Fətəli xan cavab verdi ki, əgər ruslar onun qaçmış kəndlilərini geri verməsələr, o da heç kəsi qaytarmayacaqdır [58, s.580].

Fətəli xan Müşkür yaxınlığında tapılan və gürcülərə məxsus malları da rus hakimiyyət orqanlarına verməkdən imtina edib bildirdi ki, "gürcü çarı ilə onun arasında dostluq vardır" və özü gürcülərin mallarını qaytaracaqdır [58, s.579].

Quba xanlığı ilə Rusiya arasında qarşılıqlı münasibətlərin pisləşməsi Fətəli xanın düşmənlərini cürətə gətirdi. 1776-cı ilin iyul ayında bir neçə kəndi geri almaq niyyəti ilə Qazıqumuk xanı Quba xanına qarşı çıxış etmişdi. Cənubi Dağıstan feodalları Dərbənddə Hacı Baləbəyi Quba hakimiyyətinə qarşı çıxmağa təhrik etmişdilər. Hətta belə bir təklif də irəli sürülmüşdü ki, qoy rus hökuməti Fətəli xanı Rusiyaya daha münasib olan başqa adamla əvəz etsin. Məsələn, sabiq Dərbənd xanı Məhəmməd Hüseynin oğlu ilə.

Y.Skvortsovun qəzaya uğramış gəmisi ilə əlaqədar məsələ haqqında Fətəli xan Rusiya hökumətinə məktublar göndərərək özünün günahkar olmadığını yazırdı. Rus hökuməti Fətəli xanın haqsız yerə ittiham olunduğunu anladı və II Yekaterina 15 dekabr 1776-cı il tarixli buyruğu ilə de Medemdən bundan sonra əndazədən çıxmamağı və iki elçini – Mirzə bəyi və Hacı bəyi dərhal Qubaya buraxmağı tələb edirdi [58, s.583].

Çox keçmədən de-Medem vəzifəsindən azad edildi və 1777-ci ildə general Yakobi Qafqaz xəttindəki rus qoşunlarının komandanı təyin olundu [58, s.584-585]. Quba xanının düşmənləri, ilk növbədə gilanlı Hidayət xan onun Rusiya ilə münasibətlərinin soyumasından istifadə etdilər. 1778-ci ildə Hidayət xan Fətəli xanın himayəsində olan Cavad xanlığına basqın edib Cavad şəhərini dağıtmışdı.

Ənzəlidəki rus konsulunun tərcüməçisi İvan Vanslov 28 aprel 1778-ci il tarixli donosunda yazırdı ki, gilanlı Hidayət xan yanvar ayında Muğana basqını ərəfəsində usmiyə zəngin hədiyyələr göndərərək onu dəstəkləməsini xahiş etmişdir. Qubalı Fətəli xan Hidayət xanın Cavada hücum etməsindən xəbər tutaraq özü ona qarşı çıxmaq istəmişdir. Usmi Fətəli xanı əgər o, dostu

Hidayət xana qarşı çıxsa, Dərbəndə basqın edəcəyi ilə hədələmiş və Fətəli xan hərəkətini dayandırmağa məcbur olmuşdur. Hidayət xan cavadlı Tale Həsən xanı əsir etmiş, Cavad şəhərini tamamilə dağıtmışdır. Salyanın bir çox sakini Gilana aparılmışdır [79.5, v.155; 79.7, v.222].

İrandakı rus konsulu kollej assesoru Yablonski ölkədəki qarışıqlıqlardan qorxuya düşərək 1775-ci ildə İranı tərk edib Həştərxana gəlmiş və orada da ölmüşdü [79.5, v.9,26]. 1776-cı ilin əvvəlində bundan öncə, Kopenhagendə rus səfirliyinin müşaviri vəzifəsində çalışmış Georgi Merki Ənzəliyə konsul vəzifəsinə göndərildi. Ona ildə 500 rubl məvacib təyin olundu və İrana getməsi üçün 600 rubl ayrıldı. Merkə verilən təlimatda deyilirdi ki, o, İrana getməyə çətinlik çəkərsə Salyanda dayana bilər [79.5, v.6-7].

Kommers-kollegiyadan G.Merkə verilmiş təlimatın 23-cü bəndində ingilis, holland və fransız tacirlərinin çoxdan bəri Hörmüz və Tomron (yəqin ki, Gombrun-Gəmiburnu nəzərdə tutulur – T. M.) vasitəsilə İran körfəzində geniş ticarətlə məşğul olduqları qeyd edilir və bildirilirdi ki, Qərbi Avropa tacirləri mallarını Afrika ətrafındakı daha uzaq və çətin yol ilə daşıdıqlın üçün rus tacirləri Volqa-Xəzər yolu ilə gedib İranın içərilərindən keçməklə körfəz sahilində mallarını daha ucuz sata bilərlər. Buna görə də Merkə tapşırıldı ki, avropalı tacirlərin hansı malları gətirdiklərini və bu malları hansı qiymətə satdıqlarını öyrənsin [79.5, v.76 a.ü.].

Təlimatın 24-cü bəndində deyilirdi: "Sülh vaxtlarında iranlılar türk tacirləri ilə Aralıq dənizi və Arxipelaq vasitəsilə, habelə quru yolla Türkiyə, Suriya və Ərəbistan vasitəsilə ticarət edirdilər. Avropalılar – ingilislər, hollandlar, fransızlar və italiyanlar öz malarını Türkiyə limanlarına, ilk növbədə İzmir, İsgəndəriyyə və Hələbə gətirirdilər. İranlılar da öz malları ilə bu şəhərlərə gəlirlər. Bu yol avropalılar üçün körfəz yolu kimi uzaq olmasa da, Əlcəzair, Tunis, Tripoli və digər Aralıq dənizi quldurları üzündən çox təhlükəlidir. İranlılar üçün də karvanların qarət olunduğu səhralıq Ərəbistandan keçmək çox təhlükəlidir. Həm də iranlılar Türkiyə ilə müharibə vəziyyətində olduğundan ticarət demək olar ki, sönmüşdür. Buna görə lazımi tədbirlər görülsə, bəlkə də, həmin ticarəti Rusiyaya yönəltmək olar [79,5, 72. 5, v. 77 a.ü.].

Mənbələr göstərir ki, Kərim xan Zənd ölümünə qədər nəinki Azərbaycana, hətta Gürcüstana iddialarından əl çəkməmişdir. Belə ki, Ənzəlidəki rus konsulu Georgi Merk 2 oktyabr 1776-cı il tarixli məlumatda yazırdı ki, yanına gələn gürcü zadəganı İvan Lazarev bildirmişdir ki, Kərim xan yanında saxladığı gürcü şahzadəsi Aleksandrı taxta çıxarmaq üçün onu qoşunla Gürcüstana yollamaq qərarına gəlmişdir. Lakin II İrakli Kərim xanın nəzərinə çatdırmışdır ki, Ərzurum paşası ona kürk və qılınc göndərərək İran-Türkiyə münaqişəsində Türkiyənin tərəfini tutmağı təklif etmişdir. Əgər Kərim xan Aleksandrı gürcü taxtına oturtmaq niyyətindən əl çəkməsə İrakli türklərin tərəfinə keçə bilər. Yalnız İraklinin bu cür hədəsi Kərim xanı öz fikrindən dönməyə vadar etmişdi [79.5, v.112].

Ümumiyyətlə, konsul məlumatlarından Kərim xanın hakimiyyətinin axırlarına yaxın İranda siyasi vəziyyətin yenidən mürəkkəbləşdiyi məlum olur. Konsul Merk 30 dekabr 1776-cı il tarixli məlumatında xəbər verirdi: Mazandarandan xəbər alınmışdır ki, Məhəmməd Həsən xanın oğlu Hüseynqulu xan Kərim xana tabe olmaq istəməyərək on il əvvəl Mazandarandan Astrabada köçmüşdür. O, yenidən ata mülkünü ələ keçirməyə çalışaraq 1775-ci ildə xeyli qoşunla gəlib Mazandarana soxulmuş və Kərim xanın canisini Məhəmməd xanı öldürərək, onun oğlunu da əsir götürmüşdur. Bu xəbəri eşidən Kərim xan anabir atadan ögey qardaşı Zəki xanı 15 minlik qoşunla Mazandarana göndərmişdir. Zəki xan oktyabr ayında Mazandarana daxil olmuş və xəbərlərə görə orada ucdantutma hamını qarət etməyə başlamışdı [79.5, v.115].

Bəzi məlumatlara görə Nadir şahın böyük oğlu Rzaqulu Mirzə ilə II Təhmasibin qızının nikahından törəmiş Şahrux Mirzənin 25 yaşlı Nəsrullah Mirzə və Nadir Alcani adlı 2 oğlu var idi. Kərim xan öz qızını Nəsrullah Mirzəyə verib, sonra onu şah taxtına çıxartmaq istəmiş, lakin bu zaman Kərim xanın ölüm xəbəri yayılmış, ara qarışmışdı [79.5, v.166-167].

II Yekaterinanın 30 aprel 1777-ci il tarixli fərmanı ilə konsul G.Merkə dərhal Rusiyaya dönmək, tərcüməçi İvan Vanslova isə konsulluğun işlərini öz əlinə almaq əmr olunmuşdu [79.6, v.26]

Xarici işlər Kollegiyası 29 noyabr 1777-ci ildə Həştərxan qubernatoru Yakobiyə Merkin işini tədqiq etməyi tapşırmışdı. Məlum olmuşdu ki, Merk vəzifəsindən sui-istifadə etmiş, konsulluq işçilərini incitmiş, hətta keşişi təhqir etmiş, keşiş bu təhqirin səhəri günü vəfat etmişdi [79.6, v.143].

Vanslov 22 dekabr 1779-cu il tarixli məlumatında yazırdı ki, Kərim xan Zəndin ölümündən sonra gilanlı Hidayət xan İranın hakimi olmaq xülyasına düşmüş, lakin uğur qazanmayıb hətta Rəştdən qaçmalı olmuşdur. O, İsfahana yeni vəkil Əbdül Fəth (Fəttah) xanın yanına getmək istəmiş, lakin yolda Qəzvin yanında Əbdül Fəthin düşməni Zülfüqar xan tərəfindən tutulmuşdur [79.5, v.261 və a.ü.].

Hidayət xanın Rəştdən qaçması ilə onun əsir kimi saxladığı ərdəbilli Nəzərəli xan, Lənkəranlı Qara xan və Sücəddin xanın oğlanları azadlığa çıxaraq Hidayət xanın mülklərini qarət etmiş, hərəmxanasını ələ keçirmişdilər [79.5, v.262 və a.ü.].

Deyilənlərə görə, Əbdül Fəth xan da atası kimi Nadirin nəticəsi Nəsrullah xanı öz qızı ilə evləndirib taxta çıxarmaq istəyirdi. Lakin Nəsrullah Mirzə bu işin onun həyatı üçün təhlükəli olacağından ehtiyat edərək imtina etmişdi [79.5, v.263].

İrandan Rusiyaya qayıdan İ.Vanslov 27 iyul 1780-cı il tarixdə Həştərxandan Xarici Işlər Kollegiyasına yazırdı ki, Əbdül Fəth xan eyş-işrətlə məşğul olduğu üçün əmisi ona çox öyüd-nəsihət vermiş, bir nəticə hasil olmadığını gördükdə bir bəhanə ilə İsfahandan Şiraza çağırıb orada saxlamışdı [79.5, v.303 a.ü.].

Zülfüqar xanın əsirliyindən xilas olan Hidayət xan Əbdül Fəth xanın göndərdiyi üç minlik hərbi dəstənin köməyi ilə yenidən Rəştdə hakimiyyəti ələ keçirmişdi [79.5, v.304 a.ü.].

1779-cu ildə vəkil Kərim xan Zəndin vəfatı ilə əlaqədar şah taxtı uğrunda mübarizə yenidən qızışdı. Ənzəlidəki rus konsulu Tumanovski 27 mart 1781-ci il tarixli məlumatında yazırdı ki, Kərim xanın sağlığında iranlılar Osmanlı imperiyasına məxsus mühüm ticarət əhəmiyyətli Bəsrə şəhərini zəbt etmişdilər. Kərim xan öz doğma qardaşı Sadıq xanı Bəsrəyə vali təyin etmişdi. Sadıq xana həm də dövlətin bütün qoşunlarının sərdarı (sərkərdəsi)

vəzifəsi tapşırılmış, onun oğlu Əlimurad xanın komandasına 50 minlik ordu verilmişdi [164.2, v.23].

Ömrünün sonunun yaxınlaşdığını hiss edən Kərim xan Sadıq xana xəbər göndəribmiş ki, osmanlılarla sülh bağlayıb Bəsrə şəhərini onlara qaytarsın və ordu ilə paytaxt Şiraz şəhərinə gəlsin. Çünki Kərim xanın ölümündən sonra Bəsrəni əldə saxlamaq onsuz da mümkün olmayacaq. Kərim xan öz oğlu Əbül Fəth xana vəkilliyi vəsiyyət edib, öz əmisi oğlu Zəki xana ona qəyyumluq etməyi tapşırmışdı. Ancaq Kərim xan ölən kimi Zəki xan dərhal Əbdül Fəth xanı faktiki olaraq göz dustağı edərək İsfahana gedib Əlimurad xanı ordunun sərkərdəliyindən kənarlaşdırıb öldürmək niyyətinə düşdü. O, bundan sonra özünü İranın ali hakimi elan etmək fikrində idi. Zəki xan Yəzdə gedib orada bir çox xanları qətlə yetirdi, Şirazda da bir çox əyanları qətlə yetirmişdi. Digər xanlar Əbdül Fəth xanla razılığa gəlib Zəki xanı qətlə yetirdilər [164.2, v.23 və a.ü.].

Az sonra Sadıq xan Bəsrədən ordu ilə Şiraza gəlib, tərəfdarlarını toplayaraq bir aydan sonra Əbdül Fəth xanı hakimiyyətdən kənarlaşdırdı. Bu xəbəri eşidən Əlimurad xan Sadıq xana tabe olmaqdan imtina etdi. Tumanovski yazırdı ki, hal-hazırda Sadıq xan möhkəm Şiraz qalasında yaşayır və yeni vəkil Əbül Fəth xanı həbsdə saxlayır, Kərim xanın xəzinəsini ələ keçirib. Əlimurad xan isə 40 minlik qoşunla İsfahanda yaşayır. Onların heç biri o birinə tabe olmur, tez-tez bir-birilərinə qarşı hərbi dəstələr göndərirlər. Deyirdilər ki, Əlimurad xan 1781-ci ilin yazında bütün ordusu ilə Şiraza yürüş etmək, Sadıq xanı devirmək və Əbdül Fəth xanın vəkilliyini bərpa etmək niyyətindədir [164.2, v.24 və a.ü.].

Suvorovun topladığı məlumatlara görə Əbdül Fəth xan əyyaş və çox bədxərc idi. Atası ölən dən dərhal sonra xəzinədəki qiymətli əşyalarını dostlarına paylamışdır. Hidayət xan və başqaları əvvəlcə Əbdül Fəthi vəkil etmək istəyirdilər, sonra nəzərlərini Sadıq xana tərəf çevirdilər. Əbdül Fəth xanın ən dəyərli şeyləri Nadir şahdan qalmış "Nuri dərya" adlı çox qiymətli daşdan və beş milyon manat puldan ibarət idi [164.2, v.27 və a.ü.].

Suvorovun topladığı məlumatların birindən məlum olur ki, Kərim xanın üç oğlu olmuşdur: Böyüyü Əbdül Fəth (27 yaş);

ikincisi Məmmədrəhim (14 yaş); kiçiyi Qasım (4 yaş). Kərim xanın qardaşı Sadıq xanın isə 27 oğlu var idi. Böyük oğlunun 40 yaşı vardı, Sadıq xanın oğlanlarından 17-si onunla döyüşə gedirdi. Sadıq xan 1776-cı ildə Bəsrəni osmanlılardan zəbt etmişdi [164.2, v.34].

Əbdül Fəth xanın və Sadıq xanın xəzinəsində 4 qiymətli cəvahir vardı. 1) Nuri dərya, 2) Əli Sultan, 3) Əhmut, 4) Şəribul. İllik 4 milyon manatdan çox gəlirləri var idi. Nadir şahdan qalmış qiymətli daş-qaşdan və s.-dən ibarət 20 milyon dəyərində xəzinələri vardı. 30 min daimi süvari və piyada döyüşçüləri vardı. Bundan 20 mini süvari idi [164.2, v.34].

## §2. 80-ci illərdə Rusiya və Azərbaycan xanlıqları

Kiçik Qaynarca sülhündən sonra əl-qolu açılan Rusiya hökuməti Cənubi Qafqazı ələ keçirmək üçün fəal siyasət yeritməyə başladı.

Rus diplomatiyası Cənubi Qafqazda möhkəmlənmək üçün burada yaşayan xristianlardan bir maşa kimi istifadə edirdi. 1762-ci ildə taxta çıxan II Yekaterina I Pyotrun Şərq siyasətini davam etdirməyə başladı. II Yekaterina 1768-1774-cü illər Osmanlı-Rus müharibəsində Rusiyanın qələbəsinin yaratdığı şəraitdən istifadə etməyə çalışaraq Şərq xristianlarını müstəqillik əldə etmələri ilə şirnikləndirib Osmanlı dövlətinə qarşı qaldırmağa başladı.

XVIII əsrin ikinci yarısında Rusiyanın öz işğalçılıq məqsədlərini həyata keçirməsi üçün əlverişli beynəlxalq şərait vardı. Rusiya tənəzzül keçirən dövlətlərlə əhatə olunmuşdu – İsveç, Reç Pospolita (Polşa) və Osmanlı imperiyası. Artıq 60-70-ci illərdə Rusiya bir sıra uğurlar qazanmışdı. 1768-1774-cü illərdə Osmanlıya qalib gələrək cənubda bir sıra yeni ərazilər ələ keçirmiş, 1772-ci ildə Polşanın birinci bölüşdürülməsi nəticəsində qərbdə bir sıra yeni ərazilər zəbt etmişdi.

XVIII əsrin 80-ci illərinin əvvəllərində Şərq məsələsi rus xarici siyasətində mühüm yer tuturdu. Kiçik Qaynarca sülhü nəticəsində Rusiya Kinburn, Kerç, Yeniqala və Azovu zəbt edərək Türkiyənin Krımın müstəqilliyini tanımasına nail olmuşdu. Potyomkinin təbirincə burundakı xal kimi ləğv edilməli olan Krımın ilhaqı rus diplomatiyasının ən aktual vəzifələrindən idi.

"Yunan layihəsi"ni gerçəkləşdirmək üçün Rusiya artıq Avstriya ilə ittifaqa meyl edir. Bu layihə Osmanlı ilə yeni müharibə təqdirində Moldaviya, Valaxiya və Bessabiyadan ibarət müstəqil "Dakiya" adlı xristian dövləti yaratmaq, şərait əlverişli olduqda isə Yunan imperiyasını bərpa edib, yunan taxtına imperatriçənin nəvəsi böyük knyaz Konstantini oturtmağı nəzərdə tuturdu [134, s.12].

Beləliklə, gündəlikdə Qara dənizdə Rusiyanın mövqelərini möhkəmləndirmək, Balkanlarda və hətta boğazlarla birlikdə İs-

tanbulda Rusiya ağalığına nail olmaq vəzifəsi dururdu. Bu dövrdə Qafqaz işləri də az aktuallıq kəsb etmirdi.

Şimali və Cənubi Qafqazın qərb hissəsi Osmanlı dövlətinin hakimiyyəti altında oluğundan, artıq elə Osmanlılara qarşı mübarizənin gedişində bu regionda möhkəmlənməyi vacib edirdi. Lakin Şimali və Cənubi Qafqazın şərq hissəsi, Xəzər dənizi sahili də Rusiyanı az cəlb etmirdi. Xəzər ticarəti çoxdan idi ki, Rusiya üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi.

Qafqazın Şərq hissəsində möhkəmlənməklə Rusiya həm də Osmanlı ilə mübarizə üçün əlverişli platsdarm əldə etmiş olurdu.

Cənubi Qafqaza Rusiya həmləsi üçün əlverişli zəmin də vardı. Cənubi Qafqazın qərb hissəsində xırda gürcü dövlətlərinin olması və ümumiyyətlə Cənubi Qafqazda müəyyən sayda xristianların yaşaması çarizmin burada "xilaskar" görkəmi almasına imkan verirdi.

Azərbaycan və İranın bir-biri ilə düşmənçilik edən çoxlu xırda xanlıqlara bölünməsi Rusiyanın bu regiona doğru irəliləməsini asanlaşdırırdı.

Azərbaycan xanları arasında didişmələr gürcü Kartli-Kaxetiya çarlığının yüksəlməsinə də şərait yaradırdı. 1762-ci ildə Kartli çarı II Teymuraz öldükdən sonra onun oğlu Kaxetiya çarı olan II İraklinin hər iki çarlığı birləşdirməsi gürcü dövlətinin gücünün bir qədər də artmasına səbəb oldu. Lakin, II İraklinin mərkəzləşdirmə siyasəti iri gürcü feodallarının kəskin müqavimətinə rast gəldi. Buna görə də gürcü çarı yardım üçün öz nəzərlərini həmməzhəb pravoslav Rusiyasına yönəltdi. Lakin, II İrakli Rusiyanın köməyi ilə təkcə Gürcüstanda hakimiyyətini möhkəmləndirmək niyyəti güdmür, həm də öz hakimiyyətini qonşu Azərbaycan xanlıqlarına da yaymaq istəyirdi.

Artıq 1768-1774 Rusiya-Osmanlı müharibəsi dövründə II İrakli Rusiya ilə hərbi ittifaq bağladı və rus qoşunları ilk dəfə olaraq Gürcüstana daxil oldular. Lakin rusların gürcülərlə birlikdə osmanlılara qarşı apardıqları hərbi əməliyyatlar uğurlu olmadı və rus qoşunları üç ildən sonra Gürcüstanı tərk etməli oldular [134, s.5].

80-ci illərin əvvəllərində gürcü çarlığının ağır maliyyə və hərbi durumu II İraklini yenidən Rusiyaya müraciət etməyə vadar etdi. İrakli hətta 1781-ci ildə rus hökumətinə müraciət edərək ona 20 milyon qızıl rubl borc verməyi xahiş edir və girov kimi Gürcüstanın idarəçiliyini təklif edirdi [75].

Cənubi Qafqazın bəzi bölgələrində yaşayan azsaylı ermənilər və ermənilərin təsiri altına düşmüş alban mənşəli xristianlar da Rusiyanın bu regiona irəliləməsində mühüm rol oynaya bilərdilər və oynadılar da. O zaman erməni millətçiliyinin mühüm mərkəzi İrəvan xanlığının ərazisində yerləşən Eçmiədzin katolikosluğu idi. İri torpaq sahələrinə malik olub böyük gəlir götürən Eçmiədzin katolikosları təkcə dini deyil, həm də müəyyən dərəcədə siyasi hakimiyyətə malik idilər.

Artıq XVIII əsrin 60-cı illərində Eçmiədzin katolikosları Rusiya ilə əlaqə yaradırlar. 1768-ci ildə II Yekaterina katolikos Simeonun müraciətinə cavab olaraq qramota göndərib "katolikosa və erməni xalqına" imperator mərhəməti vəd etmişdi [134, s.15].

XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının tərkibində beş alban mənşəli xristian məlikliyi vardı (Dizaq, Çiləbörd, Talış (Gülüstan), Xaçın, Vərəndə).

Qarabağda xristianların öz müstəqil kilsə təşkilatları da vardı. Ona alban katolikosu başçılıq edirdi. Katolikosun iqamətgahı Xaçın məlikliyinin ərazisindəki yerləşən Qanzasar monastırında yerləşirdi.

II Yekaterina məşhur "Bizans layihəs"ini gerçəkləşdirməyi qərara aldı. Mahiyyəti Avstriya ilə birlikdə Osmanlı dövlətini məhv edib İstanbulda pravoslav imperatorunu oturtmaq, Osmanlı imperiyasının qalan vilayətlərini Avropa dövlətləri arasında bölüşdürmək, Qafqazda Rusiyanın himayəsi altında erməni və gürcü padşahlıqları yaratmaqdan ibarət idi. Bu layihənin ikinci hissəsini həyata keçirmək üçün Yekaterinanın sevimlisi Qriqori Potyomkin öz qohumu General Pavel Potyomkini Mozdok xəttinə göndərib gələcəkdə erməni-gürcü dövləti yaratmaq üçün gürcülərlə və ermənilərlə danışıq aparmağı tapşırdı.

Öyrənilən dövrdə bir sıra ölkələrdə, o cümlədən Rusiya və Hindistanda erməni koloniyaları vardı. Hindistandakı erməni

burjuaziyası tez bir zamanda varlandı və özü üçün Cənubi Qafqazda ayrıca dövlət qurmaq xəyalına düşdü. Bu dəstək ermənilərə öz siyasi mövqelərini möhkəmləndirmək imkanı verdi.

İranda doğulub Hindistana köçən, sonra Kəlküttədə və Londonda təhsil alan və bundan sonra Rusiyaya gələn İosif Emin 60-cı illərdə erməni dövləti yaratmaq üçün səy göstərirdi [132, s.136].

Rus hökumətindən pasport və kansler Voronsovdan gürcü çarı II İrakliyə təqdir məktubu alan İ.Emin, 1762-ci ildə Həştərxana yola düşür. 1763-cü ilin yazında Tiflisə gələn Emin II İrakli ilə, İmeretiya çarı Solomonla, bəzi Qarabağ məlikləri ilə, Alban katolikosu ilə danışıqlar aparır. Ancaq əməli bir nəticə əldə etməyib Qızlara qayıdır. Burada yerli ermənilər arasında millətçi təbliğat aparan Emin özünü artıq "erməni şahzadəsi" kimi təqdim etməyə başlayır. Onun belə avantüristliyindən və fırıldaqçılığından qəzəblənən Qızlar komendantı Emini geriyə – Həştərxana yollayır [132, s.94-95]. Emin rus hökumət üzvləri ilə danışıqlar apararaq Rusiyanın himayəsi altında "gürcü-erməni federasiyası" yaratmağı təklif edirdi [132, s.14-15, 84-85, 94-95, 102-103].

Rusiyada hələ I Pyotr dövründən erməni tacirləri bir sıra imtiyazlara malik idilər. Həştərxanda böyük erməni koloniyası yaranmışdı. Qızlar şəhərində xüsusi erməni məhəlləsi vardı, 1779-cu ildə Krım erməniləri Don çayı sahilində Yeni Naxçıvan şəhərinin əsasını qoydular [134, s.18].

Varlı ermənilər tədricən Rusiyanın mərkəzlərinə – Moskva və Peterburqa köçürdülər. Lazarev, Manüçarov, Sarafov və bir çox başqa varlı ermənilər bu şəhərlərdə məskunlaşırlar. Onların bir çoxu Rusiyada iri torpaq mülkləri əldə edir, fabrik və zavodlar tikir, hətta bəziləri rus zadəgan rütbəsi də alırlar.

Rusiyadakı erməni varlıları da müstəqil Ermənistan dövləti yaratmaq xülyasına düşürlər. Hələ 1764-cü ildə Sarafov digər varlı ermənilərin razılığı ilə Rusiya Xarici İşlər Kollegiyasına "Ermənistanın azad olunmasını" və Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılmasını nəzərdə tutan təklif etdi [134, s.19].

Rusiya ermənilləri Qarabağ məlikləri ilə rus hökuməti arasında vasitəçi rolunu oynayırdılar. Rus diplomatiyası Cənubi Qafqazda siyasi məqsədlərə çatmaq üçün onlardan öz agentləri kimi istifadə edirdi [134, s.19].

1776-cı ildə Lazarevlər ailəsi dvoryan rütbəsi almağa nail olmuşlar. Səfəvi dövlətindən Rusiyaya köçən varlı erməni tacirinin oğlu olan İ.Lazarev Peterburq sarayında zərgərliyə qəbul olunmuşdu. Müxtəlif yollarla bu hiyləgər erməni az zamanda rus hakimiyyət nümayəndələri ilə sıx əlaqələr yaradır və müxtəlif maliyyə fırıldaqları yolu ilə Rusiyanın ən varlı adamlarından birinə çevrilir. O, Stroqanovdan Perm quberniyasındakı duz mədənləri və zavodlarını satın almışdı. 1776-cı ildə Lazarevlər ailəsi hətta rus zadəganı titulu almağa müvəffəq oldular [134, s.20]. Lakin rus dvoryan və fabrikantına çevrilsə də İvan (Ovanes) Lazarev qatı erməni millətçisi kimi qalırdı. Moskvada erməni kilsəsi tikdirmiş atası kimi hərəkət edərək Peterburqda erməni kilsəsi inşa etdirir. Lazarev Rusiyadakı bütün ermənilərin himayəçisi kimi çıxış etməyə çalışır, ermənilərin müxtəlif ehtiyaclarının ödənilməsi üçün pul xərcləməkdə xəsislik etmirdi.

Böyük sərvət və nüfuz qazanan İ.Lazarev digər bütün ermənilərin himayədarı olmaq qərarına gəlir, bu yolda pul əsirgəmirdi.

Bu dövrdə Rusiyada Lazarevlə yanaşı çox fəallıq göstərən erməni xadimlərindən biri də arxiyepiskop İosif Arqutinski idi. İosif Arqutinski isə Rusiyadakı erməni kilsəsinin arxiyepiskopu idi. 1743-cü ildə Kartli-Kaxetidə doğulmuş İ.Arqutinski gəncliyində Eçmiədzin monastrına daxil olmuş və 26 yaşında yepiskop rütibəsi almışdı. 1773-cü ildə Eçmiədzin katolikosu İ.Arqutskini qriqoryan kilsəsinin fəaliyyətini nizamlamaq üçün Rusiyaya göndərir və o, Həştərxana gəlir. Arqutinski dini işlərlə kifayətlənməyərək, millətçilik fəaliyyətinə başlayır. O, Krım ermənilərinin köçürülüb Yeni Naxçıvan qəsəbəsinin salınmasında mühüm rol oynamışdı. 1775-ci ildə katolikos Arqutinskini Rusiyadakı erməni yeparxiyasının rəisi təyin etmişdi [134, s. 19-21].

1780-ci ildə rus hakimiyyət orqanları “erməni məsələsi”ni ilk dəfə gündəmə gətirdikləri zaman rus məmurları məhz İ.Lazarev və İ.Arqutinski ilə danışıqlara başladılar. 1779-cu il avqustun

5-də Arqutinski Lazarevlə birlikdə Moskvada erməni kilsəsinin inşasını başa çatdırdıqdan sonra Peterburqa gəldilər. Knyaz Q.Potyomkin onları öz yanına çağırdı. Onlarla iki saat ərzində söhbət etdi. Söhbət ümumi səciyyə daşıyırdı və əsasən kilsə məsələlərinə həsr olunmuşdu. Ertəsi gün Preobrajensk kilsəsində knyaz Potyomkin adı çəkilən erməniləri II Yekaterinaya təqdim etdi [134, s.21].

1780-ci ilin yanvarın əvvəlində hər iki erməninin "mühüm və məxfi dövlət işləri"ni müzakirə etmək üçün dəvət etdilər. Əvvəlcə yanvarın 1-də rus zabiti İvan Qoriç Arqutinskinin yanına gəlib bildirdi ki, ruslar Xəzəryanı vilayətləri tutmaq üçün yürüş etməyə hazırlaşırlar. Bununla əlaqədar İ.Qoriç İ.Arqutinskidən Cənubi Qafqaz və İran əraziləri, ayrı-ayrı şəhərlər arasında məsafə, yerli hakimlərin qüvvələri haqqında soruşdu və Arqutinski lazımi məlumatı verdi. Yanvarın 2-də Lazarevlə birlikdə A.V.Suvorov İ.Arqutinskinin yanına gəldi. 2 saat ərzində Suvorov Cənubi Qafqazda vəziyyət, Eçmiədzinin vəziyyəti barədə məlumat istədi. Suvorov erməniləri ümidləndirərək bildirdi ki, ruslar erməni dövlətini bərpa edəcəklər [134, s.22]. Ertəsi günü Q.Potyomkin İ.Arqutinski və İ.Lazarevi öz yanına çağırıb onlardan ermənilər və gürcü çarı haqqında məlumat istədi. Lazarev və Arqutinski təkidlə mərkəzi İrəvan şəhəri olmaqla erməni dövlətinin yaradılmasını xahiş etdilər. Knyaz cavab verdi ki, bu xahişi yerinə yetirmək olar, ancaq katolikos və adlı-sanlı ermənilər müvafiq vəsadətlə müraciət etməlidirlər ki, ruslar, ermənilərə yardıma gələ bilsinlər [134, s.22].

10 gün sonra, yanvarın 13-də Suvorov Lazarev və İ.Arqutinskini öz yanına çağırdı. Bu dəfə o, Qarabağ məlikləri haqqında soruşmağa başladı. Ermənilər nəinki Qarabağ məlikləri, həm də Sisyan və Qafan erməniləri, David bəyin üsyanı haqqında da danışırdılar. Sonra Gürcüstan və gürcü çarı İrakli haqqında suallara cavab verdilər. A.Suvorovun 80-ci illərin əvvəllərinə aid sənədlərinin içərisində hal-hazırda Rusiya EA-nın arxivində saxlanılan "Cənab İvan Lazarevin notası" adlı sənəd də vardır [163.1, v.23-24].

Çox da savadlı yazılmayan bu sənəd Lazarevin 1780-ci ilin yanvarında Suvorova təqdim etdiyi məlumatın surətidir.

Bu məlumatda deyilirdi ki, guya "Ermənistan" artıq neçə əsrdən bəri dövlətçilikdən məhrum olunmuşdursa da, qarabağlılar indi də müstəqildirlər və imkan olduqda Ermənistan dövləti asanlıqla bərpa oluna bilər. Ermənilərdən bir rəis təyin olunarsa ilk vaxtda o, Dərbənddə möhkəmlənə bilər və əgər Şamaxı və Gəncəni tutmaq üçün ona yardım göstərilərsə, sözsüz ki, Qarabağ və Sığnaqdan çoxlu adam onlara birləşə bilər və böyük qoşun toplanıb İrəvan və digər şəhərləri asanlıqla tuta bilər. Bunun üçün yalnız ilkin yardım və 2-3 minlik rus qoşununu regionda saxlamaq gərəkdir. Bütün bu vilayətlər ələ keçirildikdən sonra isə erməni rəisi həmin vilayətlərin gəlirləri hesabına xeyli qoşun saxlaya bilər, lakin gələcəkdə də milli orduya nizami bilikləri öyrətmək üçün rəisin sərəncamında bir qədər rus piyadası, həmçinin topçular olmalıdır. Bütün bu niyyətləri asanlıqla həyata keçirmək olar və bu nəinki Rusiyanın şöhrətini artırar, həm də Türkiyə və İrana böyük zərbə olar, çünki gələcəkdə Ermənistan öz sərhədlərini genişləndirdikdən sonra öz gəlirləri hesabına 15-25 minlik qoşun saxlaya bilər, türklərə və başqa birisinə qarşı müharibə təqdirində isə 60 minlikdən çox ordu çıxara bilər. Bundan əlavə, erməni milləti öhdəsinə götürə bilər ki, lazım olduqda Rusiyaya qoşun verə bilər və əbədi olaraq öz qurtuluşu və bərpasına görə Rusiyaya minnətdar olacaq. Türkiyəyə bu dəyişikliklərin böyük mənəvi və maddi zərəri dəyəcək. İranla ticarət isə elə vüsət alacaq ki, Rusiyaya milyonlarla gəlir gətirəcək [134, s.23-24].

Göründüyü kimi, Lazarev Azərbaycan xanlıqlarının ərazisi hesabına Rusiyanın qəyyumluğu altında erməni dövləti yaradılması planını inkişaf etdirir və planı xırda detallarla rus hökumətinə təqdim edirdi. Gələcəkdə bu dövlətin sərhədlərinin Osmanlı əraziləri hesabına genişləndirilməsi imkanına ehyam vururdu.

Suvorovun kağızları içərisində digər sənəd də diqqəti cəlb edir. Bu Qarabağ, məliklər, onların hərbi qüvvələri, Sisyan və Qafan, həmçinin Gürcüstan haqqında məlumatlardan ibarətdir. Bu sənəd, əslində, Lazarevin 1780-ci il yanvarın 13-dəki söhbəti zamanı verdiyi məlumatlardan ibarətdir [163.1, v.66-73].

Potyomkin və Suvorovla söhbətlər Arqutinski və Lazarevdə böyük ümidlər yaratdı. Fevralın 18-də Müqəddəs Yekaterinanın adına adlandırılmış yeni erməni kilsəsinin açılışında Potyomkinlə birlikdə bir çox digər rus əyanları da iştirak etdilər. Arqutinskinin moizəsində erməni xalqının tarixinə ekskurs edilir, "erməni xalqının müsibətli vəziyyətindən danışılırdı. Arxiyepiskop yaltaqlıqla bildirirdi ki, allah şərəfli Rusiya imperatoru Böyük Pyotrda Haylar ölkəsinə yardım etmək fikrini oyatmışdır". Pyotrun ermənilər xilas edib erməni dövləti yaratmaq niyyəti həyata keçməsə də allah Yekaterinanın simasında ona layiqli varis vermişdir. Arqutinski imperatriçə və əyanlarının canına dua edərək onlardan erməni xalqına "məhəbbət, mərhəmət və qayğı" göstərmələrini xahiş edirdi. Mətni əvvəlcədən ruscaya çevrilib yayımlanan bu moizə II Yekaterinaya öz sələfinin niyyətini yerinə yetirib Hay dövlətini bərpa etməsi haqqında açıq müraciət idi [134, s.23-24].

Erməni liderlərinin bu müraciəti Rus sarayının Cənubi Qafqazdakı işğalçılıq fəaliyyətini canlandırmaq istəyi ilə üst-üstə düşdü. 1780-ci il yanvarın 11-də knyaz Potyomkin A.Suvorovun adına bu cür məxvi göstəriş verdi: "Xəzər dənizi sahilində hakimlik edən xanların tez-tez baş verən ədəbsizlikləri nəhayət imperator alihəzrətlərini onları qalibiyyətli silahın gücü ilə ram etmək qərarına gətirmişdir. Sizin "əzmkar" xidmətiniz, hərbi məharətiniz və həmişə əldə etdiyiniz uğurlar monarxı sizi bu işin icraçısı seçməyə sövq etmişdir. Beləliklə Siz həzrətləri bu məqsəd üçün ayrılmış qoşunun başçısı olursunuz. Bu səbəbdən siz dərhal Həştərxana yola düşməli, donanmanı, nəqliyyat vasitəsi kimi istifadə oluna biləcək qeyri-hərbi gəmiləri nəzərdən keçirməli, onların sayı və yararlılığı barədə qasidlə mənə məlumat göndərməli, sahil boyunca Rəştə hansı əlverişli yollar olduğunu və quru ilə hərəkət edən qoşunların hərəkətini donanma ilə necə uzlaşdırmağı öyrənməli, donanmanın harada sahilə yaxınlaşmasını müəyyənləşdirməlisiniz, çünki sursatın çox hissəsinin su ilə daşınmasını ehtimal edirəm. İran, Gürcüstan, Ermənistandakı vəziyyəti öyrənib siz mənə xəbərdar etməlisiniz. Komandanızdakı qoşunların sayı, eləcə də onların gəmilərlə üzəcək, arxanı

qoruyacaq və Rəştə gedəcək hissələrə bölünməsi tezliklə müəyyənləşdiriləcək. Tam təlimatı siz həzrətləri dərhal alacaqsınız" [194. v.21-22; 73, s.89, s.152].

Xatırlanan təlimat və Yekaterinanın buyruğu Suvorovun Rusiya Milli kitabxanasında saxlanan kağızları içərisində hifz olunur. İmperatriçənin buyruğunda rus konsulunu saxlayan rəştli Hidayət xanın, rus tacirlərini sıxışdıran və qarət edən Quba və Bakı xanlarının "qaba hərəkətləri" qeyd olunur, rus ticarətini bərpa etmək və onu gələcək üçün təhlükəsiz sığıncaqla təmin etmək üçün bu xanları cilovlalamaq və cəzalandırmaqdan ötrü hərbi səfərin təşkil olunması əmr edilirdi [194. v.22-23 a.ü].

Potyomkin xüsusi təlimatda bu buyruğa istinad edərək Suvorova dərhal Həştərxana gedib oradakı quru qoşunlarına və Xəzər donanmasına komandanlığı qəbul etməyi təklif edirdi. Suvorova tapşırılırdı ki, vəziyyətə və Rusiyanın böyüklüyünə uyğun quru və dəniz əməliyyatları üçün lazım olan qoşunların miqdarını müəyyənləşdirsin, quru qoşunlarını və donanmanı artilleriya, sursat və ərzaqla təchiz etsin. Rusiyaya sadiq xanlarla mülayim, itaət göstərənlərlə "insanpərvər" davranmaq, müqavimət göstərənləri cəzalandırmaq əmr olunurdu. Suvorovun başlıca vəzifəsi rus ticarəti üçün təhlükəsiz sığınacaq təmin etmək, bu məqsədlə Gilan xanından lazımi ərazi almaq, istehkam inşa edib, orada qarnizon qoymaqdan ibarət idi. Suvorov vaxt itirmədən əməliyyata başlamalı idi, ona tapşırılırdı ki, müvəqqəti olaraq Dərbənddə rus qarnizonu yerləşdirsin, gürcü çarı İrakliyə, Şamaxı xanına (Söhbət yəqin ki, Quba xanından gedir, çünki o zaman müstəqil Şamaxı xanı yox idi. – T.M.), digər hakimlərə imperatriçənin sülhsevər niyyətləri haqqında bildirsin [194. v.222-223; 73, s.91, səh.154-155].

Beləliklə, Rusiya ilə qonşu xanlıqlara qarşı quru və dəniz səfəri təşkil etmək qərara alınmışdı. Quru qoşunları Dərbənddən keçib Gilana hərəkət etməli idi. Donanma da desant qoşunları ilə oraya hərəkət etməli idi. Bu səfərin əsas məqsədləri Quba, Bakı və Gilan xanlarını itaətə gətirmək, Cənubi Qafqazda Rusiyanın təsirini gücləndirmək və Xəzər dənizində rus ticarətini inkişaf etdirməkdən ibarət idi. Bu məqsədlərə çatmaq üçün Gilanda

möhkəmləndirilmiş rus faktoriyası salıb orada daimi rus qarnizonu saxlanmalı idi. Göründüyü kimi, Suvorovun başçılıq etməliolduğu səfər rəsmən Rusiyanın sərhədlərinin genişləndirilməsini və Cənubi Qafqazda ərazi dəyişiklikləri nəzərdə tutmurdu. Lakin bu o demək deyildi ki, uğur qazanıldığı və əlverişli şərait olduğu halda gələcəkdə bu cür məsələlər gündəmə çıxa bilməzdi. Bu xeyli dərəcədə xanların mövqeyindən də asılı olacaqdı.

Yanvarın 24-də Suvorov Moskvadan Həştərxana yola düşdü və burada yürüşə hazırlıq görməyə başladı. Aprelin 10-da dövlət katibi Turçaninova yazdığı məktubda Suvorov bildirirdi ki, xəritələr tərtib olunur, o, türk yazısını demək olar ki, öyrənmişdir [194. s.164].

Suvorovun kağızları içərisində Rəştə, İrəvana, hətta İsfahana, Şiraza və Fars körfəzinə qədər yolların ətraflı marşrutları vardır. Bu yolların üzərində olan bütün iri yaşayış məntəqələri, aralarındakı məsafə göstərilir. Sənədlərin içərisində Gürcüstan, Azərbaycan xanlıqları, xüsusən Qarabağ haqqında məlumatlar vardır. Suvorovun 15 fevral 1780-ci il tarixli məruzə məlumatında Həştərxana gəlmiş iki ermənininin Qarabağ məlikləri və İrəvan xanlığında baş verən hadisələr haqqında məlumatı var [184.6, v.5-6; 134.28].

Suvorovun məlumatına görə o zaman 45 yaşı olan qubalı Fətəli xan 8 min nəfərlik keyfiyyətli süvari qoşuna malik idi, lazım olduqda dağıstanlılardan muzdla 8 min döyüşçü dəvət edə bilərdi. Dərbəndin daş divarları olsa da, qala lazımi səviyyədə möhkəmləşdirilməmişdi. Qala divarlarında 50-yə qədər top var idi, ancaq toplar o qədər də müasir deyildi, bəziləri işlək vəziyyətdə deyildilər. Dənizə doğru divarın bəzi yerləri dağılmışdı. Suvorova görə, Dərbəndin qala divarlarını çox da çətinlik çəkmədən aşmaq olardı [164.1, v.13 və a.ü.].

Suvorovun məlumatının digər bir yerində deyilir ki, Fətəli xan varlı deyil, Dərbənddəki qarnizonun heyəti 1000 nəfərdən çox deyil, qalada divarlarda 50 top, üstəlik 100 yarımfutluq səhra topu var. Fətəli xan Şabranda yaşayan tərəkəmələrdən 100 süvari və 500 piyada, Dərbənd sakinlərindən 2 min süvari və min piyada toplaya bilər [164.1, v.19 a.ü.-20]. Yenə həmin mənbənin digər

bir yerində deyilir ki, Fətəli xan muzdla Dağıstandan 5-6 min süvari və piyada döyüşçü toplaya bilər [164.1, v.20 və a.ü.].

Suvorovun məlumatına görə Fətəli xan Qaraqaytaq usmisi Əmir Həmzə və Tabasaran hakimi ilə birləşərək 1765-ci ildə Dərbənd xanını devirmişlər (Burada Suvorov yanlışlığa yol verir, həmin hadisə 1765-ci ildə yox, 1759-cu ildə olub – T.M.). Dərbənd xanının gözləri çıxarılıb Bakıya göndərilibmiş, bir müddət sonra Dərbəndə qaytarılmışdı. Dərbənd xanlığının ərazisi Fətəli xan və usmi arasında bölüşdürülüb [164.1, v.21]. Dərbənddən 27 verst cənubda Torpaqqala adlı qədim qala var idi. Ancaq, Suvorovun məlumatına görə əvvəllər gebrlərin (atəşpərəstlərin) məskəni olan bu yerdə o zaman heç kəs yaşamırdı [164.1, v.14].

Suvorovun məlumatına görə, Quba xanlığı ərazisində olan qalalardan biri də Xıdırzində (Beşbarmaq) qalası idi. Ancaq bu qala əsasən təbii istehkam idi. Daş hasarla əhatə olunmuşdu [164.1, v.14]. Suvorovun yazdığına görə, Muğanda yaşayan şahsevən tayfaları lazım gəldikdə 4 min yaxşı süvari çıxara bilərdilər. Şahsevənlər qışda marta qədər Muğan çölündə yaşayır, yazda Ərdəbil yaylaqlarına köçürdülər (164.1, v.15).

Yenə həmin mənbənin məlumatına görə, Lənkəran xanlığının ərazisində olan Qızılağac qəsəbəsində 500 ev var idi və buradan 200 yaxşı süvari və 300 silahlı piyada toplamaq mümkün idi. Həmin xanlığın ərazisində olan 40 evlik Boradigah kəndindən də 100 nəfər süvari və piyada döyüşçü toplamaq mümkün idi [164.1, v.15 a.ü.]. Lənkəran xanlığına daxil olan Astara şəhərində isə 600 ev vardı və həmin şəhərdən asanlıqla 400 yaxşı süvari və yüngül silahlı piyada toplamaq mümkün idi [164.1, v.16].

Suvorov yazır ki, Şamaxı xanı 4 min süvari və 2 min piyada döyüşçü toplaya bilər. Onun 1 yarım futluq 30 səhra topu vardı. Dağıstandan 5-6 min muzdlu döyüşçü toplaya bilir [164.1, v.22 və a.ü.]. Aydındır ki, Suvorovun aldığı bu məlumat 1780-1782-ci illərə yox, 1768-ci ildən əvvələ aid olmuşdur. Çünki məlumdur ki, 1768-ci ildə Şamaxı xanlığı artıq Quba və Şəki xanları arasında bölüşdürülmüşdü (Daha sonra Fətəli xan Şəki xanının payını zəbt etmişdi).

Suvorovun məlumatında Bakı xanlığı ilə bağlı deyilirdi ki, Bakı böyük şəhər deyil, qədim qeyri-nizami istehkamı var. Qalada 30 işlək olmayan qala topu var. Bakı xanı mindən artıq süvari çıxara bilməz. Quba xanından ikiqat çox varlı idi. Hər birinə 10-dan 50-yə qədər adamın minə bildiyi 100-ə qədər kirjimi var idi. Həmin kirjimlərdə Salyan, Ənzəli, Gilan, Mazandarana və başqa yerlərə neft və duz aparılır, həmin yerlərdən isə odun, tikinti üçün ağac materialı gətirilirdi [164.1, v.23].

Suvorov Qarabağ xanlığı ilə bağlı yazır: Qarabağ xanı 4 min süvari və 5 minədək piyada toplamaq imkanına malikdir; Şuşa böyük, möhkəm daş hasarı olan şəhərdir, Şuşa qalasında 50 iri və xırda top var [164.1, v.28 və a.ü.].

Suvorovun məlumatında Gəncə xanlığı ilə bağlı deyilir ki, Gəncə daş hasara malik möhkəm qaladır, Gəncə xanının 3 minə qədər süvari və 5 minə qədər piyada döyüşçü toplamaq imkanı var. İrəvan xanlığı ilə bağlı məlumatda deyilir ki, İrəvan daş hasara malik möhkəm qaladır, qalada 50-yə qədər top var. İrəvan xanı 7 minə qədər süvari və piyada döyüşçü toplaya bilər [164.1, v.28 a.ü.-29]. Məlumatda Təbriz xanlığı ilə bağlı deyilir ki, Təbriz Azərbaycanda ən zəngin şəhərdir, burada çoxlu fabriklər (iri emalatxanalar) və emalatxanalar var. Təbriz xanı 3 minə qədər süvari və 5 min piyada döyüşçü toplaya bilər. Xoy şəhərinin möhkəm qala olduğu və burada 30 top olduğu qeyd edilir. Xoy əhalisi zəngin idi və Xoy xanı 6 min süvari və piyada toplaya bilərdi [164. 1, v. 29].

Suvorov lazımi informasiya almaq və əlaqələr, o cümlədən Qarabağ məlikləri ilə əlaqələr yaratmaq üçün öz xüsusi casuslarını göndərirdi. Belə casuslardan biri Həştərxan ermənisi Məlikov olmuşdur. Suvorov sentyabrın 11-də Turçaninova yazırdı ki, Məlikov hərbi xidmətə girmək istəyir və buna görə qulluq göstərir, yəni casusluq edirdi [193, s.175].

Ümumiyyətlə, A.Suvorov hər yolla ermənilərin rəğbətini qazanmağa çalışırdı. Çünki, qarşıdakı yürüşdə ermənilərin qulluğundan çox yararlanmaq fikrində idi. O, P.İ.Turçaninova 12 sentyabr 1780-ci il tarixli məktubunda bildirirdi ki, 1775-1776-cı illərdə rus hərbi dəstəsi Dərbənddə olarkən Fətəli xanın etirazına

baxmayaraq rusları ərzaq və alafla təmin etmiş erməni P.İvanovun mülkü əlindən alınmış və buna görə də o Rusiyaya köçmüşdü. İndi Suvorov həmin erməniyə dəyən zərərin ödənilməsini istəyirdi [193, s.176].

A.Suvorov knyaz Q.Potyomkinə 24 fevral 1780-ci il tarixli məktubunda əvvəllər Həştərxan liman gömrükxanasında solner vəzifəsində işləmiş erməni Boqdan Xastatovun hərbi qulluğa girmək istədiyini yazırdı. Suvorov Xastatovu tərifləyərək bildirirdi ki, qarşıdakı yürüş üçün ona Şərqi yaxşı tanıyan belə adam lazımdır. Buna görə də Suvorov Xastatovun hərbi qulluğa qəbul olunub, ona hərbi rütbə verilməsini və Suvorovun komandasına təyin olunmasını xahiş edirdi [86.4, v.73].

Sonralar – 1798-ci ildə məlik Fərudun I Pavelə ərizəsində Suvorovla apardığı danışıqlar haqqında yazırdı: 20 il bundan əvvəl general, indi sizin imperatorun feldmarşalı olan Suvorov Həştərxandan Qarabağa mənim atam Məlik Bəylər İosifə yazmış və Sizin mərhum ananızın adından təklif etmişdir ki, o, həmetiqad olduqlarına görə öz təbəələri ilə Rusiyaya gələ bilər və Rusiya imperatorunun təbəəliyinə qəbul oluna bilərlər" [82, v.115; 61.10, s.631-634].

Ancaq aylar ötsə də rus qoşunlarının səfəri 1781-ci ildə də başlamadı. Eyni zamanda İbrahimxəlil xan xəyanətkar məliklərə divan tutmağa başladı. Hələ 1780-ci ildə Həştərxana gələn Qarabağ xristianları deyirdilər ki, Məlik İsay Məlik Şahnəzərin fitnələri nəticəsində İbrahim xan tərəfindən tamam var-yoxdan çıxarılmışdır. Suvorov Potyomkinə 23 fevral 1781-ci il tarixli raportunda yazırdı: "Şuşalı İbrahim xan Dizaqlı Məlik İsaydan bir qədər pul tələb edərək onu işgəncə ilə öldürtmüşdür" [184.7, v.12]. İyunun 27-də Suvorov bu məsələ ilə bağlı əlavə məlumat verir: İbrahimxəlil xan Vərəndə məliki İsayın sərvətindən xəbər tutaraq bu keçən may ayında onu yanına çağırıb pulunun miqdarını öyrənmək istəmiş, buna nail olmadıqda isə onu işgəncə ilə öldürtmüşdür [184.7, v.36; 134, s.32]. Suvorovun yazdığına görə bu hadisədən sonra məlik Adam və məlik Bəylər İbrahimxəlil xana itaətdən imtina etmişlər [184.1, v.2; 134, s.32]. Bu məliklər İbrahimxəlil xana uzun müddət müqavimət göstərə bilməyə-

cəklərini anlayır və ümidlərini rus qoşunlarının gəlişinə bağlayırdılar. 1781-ci il sentyabrın 2-də onlar II Yekaterinanın, Potyomkinin və Suvorovun adına üç ərizə yazmışdılar. Məliklər Yekaterinaya arşaki və alban çarlarının nəslindən olduğunu bildirir, bütün təbəələri ilə birlikdə diz üstə düşərək imperatriçəyə yalvarırdılar ki, erməni millətinə yardım göstərib onları düşmənlərdən xilas etsin. Yalnız ona ümid edirlər ki, imperatriçə İusus kimi onların ruhlarını xilas edib, onları öz dövlətinin sadiq qulları edəcək. Məliklər daha sonra Qarabağın sərvətlərini təsvir edir, burada qızıl, gümüş, qurğuşun, mis və dəmir mədənlərinin, ipək, pambıq, çəltik və arı pətəkləri olduğunu, çoxlu əkinlər, çəmənliklər, çaylar, meyvə bağlarının olduğunu, çoxlu şərab istehsal olunduğunu yazırdılar. Ərizəni çox az adam imzalamışdı. Eyni məzmunda xahişlə məliklər knyaz Q.Potyomkinə də müraciət etmiş və Potyomkinə məktubda da Qarabağın təbii sərvətlərini sadalayırdılar. Məliklər rus qoşunlarının səfəri təqdirdə özlərinin müsəlmanlara qarşı silahlı mübarizəyə qalxacaqlarını vəd edir, Qarabağa 10 min nəfərə qədər piyada göndərilməsini xahiş edərək, bildirirdilər ki, əgər bu qoşunlara komandanlıq Suvorova tapşırılsa məmnun olarlar [184.10, v.6 və a.ü., 181.11, v.5 və a.ü., 7, 47, 51 a.ü., 134, 122, s.33].

Məliklər A.Suvorova da məktub yazıb bildirirdilər ki, onun çoxsaylı qoşunla Qarabağa gələcəyi haqqında sevincli xəbər almışlar. Ancaq indiyə kimi onun gəlmədiyini görüb kn. Potyomkinə müraciət edərək on minlik qoşun göndərilməsini xahiş etmişlər və Suvorovdan bu vəsadəti dəstəkləməsini xahiş edirlər. “Musa israilliləri fironun əlindən xilas etdiyi kimi, o da erməniləri müsəlmanların əlindən xilas etməlidir” [134, s.34].

Bu məktubdan aydınlaşır ki, Suvorovun yaxın köməkçilərindən biri Sərkis Aqamcan adlı bir erməni olmuşdur. Həmin Aqamcan Suvorovun adından gizli surətdə Qarabağ məlikləri ilə əlaqə yaratmışdı. Məliklər məktubları David Ter-Osipov adlı birisi ilə Həştərxana göndərmişdilər [134, s.34-35].

Sonralar, 1797-ci ilin avqustunda Vərəndə məliki Cəmşid, Gülüstan məliki Fridun və Petros yüzbaşı Georgiyevskdə olarkən Qafqaz xəttindəki rus qoşunlarının komandanı İ.V.Qudoviçə

ərizələrində yazırdılar ki, 1781-1782-ci illərdə generallar Suvorov və Potyomkin məliklərə tez-tez məktublar göndərir və hökmən onların "azad ediləcəklərini" xəbər verirdilər. Bundan ruhlanan məliklər knyaz Q.Potyomkinə və gen. P.Potyomkinə, habelə Rusiyadakı ermənilərin arxiyepiskopu İ.Arqutinskiyə tez-tez məktublar göndərərək rus qoşunlarının yürüşünün tezləşdirilməsinin xahiş etmişlər. Onlar general Potyomkinin göstərişi ilə rus qoşunları üçün ərzaq da hazırlamışdılar [82, v.7 və a.ü.].

Lakin Məlik Adam və Məlik Bəylərin müraciəti cavabsız qaldı. Artıq 1781-ci ildə rus hökuməti əvvəlcə nəzərdə tutduğu yürüş planından imtina etdi. Geniş quru və dəniz hərbi əməliyyatları əvəzinə yalnız kiçik bir dəniz səfəri gerçəkləşdirildi.

Gen. Suvorov Həştərxandan Q.Potyomkinə 24 iyun 1781-ci il tarixli məktubunda hərəkət haqqında ona heç bir sərəncam verilmədiyindən, qısa müddətə Peterburqa qayıtmasına icazə verməsini xahiş edirdi [86.4, v.74]. O, 3 avqust 1781-ci il tarixli məktubunda Q. Potyomkinə yazırdı ki, artıq ikinci ildir ki, Həştərxanda hərəkətsiz dayanır. Lakin, Q.Potyomkin Suvorova Peterburqa dönməyə hələlik icazə verməmişdi [86. 4, v.74].

Bir müddət sonra – dekabrın 15-də A.Suvorov yenə də Həştərxanda qalmasını lüzumsuz hesab edərək Simbirskə, yaxud Poltavaya göndərilməsini xahiş edirdi [86. 4, v. 76].

1780-ci ilin yazından yürüşə çox səylə hazırlaşan Suvorova hətta dəniz səfərinə komandanlığı da etibar etmədilər. 1781-ci il dekabrın 31-də A.Suvorov Həştərxandan geri çağırıldı [194. v. 27].

2-ci dərəcəli kapitan Voynoviçə verilən 10 may 1781-ci il tarixli əmrdə Həştərxana gedib ekspedisiya üçün ayrılmış gəmiləri hazırlamaq və səfərə çıxmaq barədə göstərişi gözləmək əmr edildi [86. 5, v. 4].

Ekspedisiyanın səbəbləri barədə: Xəzər ticarətini inkişaf etdimək həmişə rus hökumətinin nəzərində olub. Şimali Amerika müstəmləkələrinin İngiltərə ilə 1775-ci ildə başlayan müharibəsi Rusiyanın Xəzər ticarətini inkişaf etdirməsi üçün yaxşı imkan açdı. Çünki bu müharibə Avropa mallarının dəniz yolu ilə Hindistana aparılmasına maneçilik yaradırdı. Hind tacirləri bunun

üçün quru yol axtarmalı olurdular. Buxara və Xivədən Orenburqa keçib gəlirdilər.

Rus hökuməti bu məlumatı alıb Xəzərin sahilində Hindistanla, eləcə də digər Şərq ölkələri ilə ticarəti cəmləməli olan təhlükəsiz bir faktoriya yaratmaq qərarına gəldi. Buna görə də 1778-ci ildə Admiral kollegiyaya Kazanda eskadra hazırlamaq barədə əmr verdi. Eskadra 1780-ci ildə Həştərxana gəldi, 1781-ci ildə isə 2-ci dərəcəli donanma kapitanı qraf Voynoviç bu eskadraya komandan təyin olundu [103, s.VI-VII].

Voynoviçə verilən gizli təlimatda deyilirdi ki, o, Həştərxana gələn kimi eskadraya komandanlığı qəbul edib dərhal dənizə çıxmalı və Oqurçinsk adasını tapmalıdır. Bir qədər bundan əvvəl Sankt-Peterburqda olan türkmən elçisi həmin adanın ticarət faktoriyası salınması üçün əlverişli olduğunu bildirmişdi. Əgər bu həqiqətən belə idisə Voynoviç dərhal adanı zəbt etməli idi; əks halda İran sahillərinə gedib oradakı xanlardan birini bu məqsəd üçün ərazi verməyə razı salmalı idi [103, s.VII. VIII].

Eskadra üç 20 toplu freqatdan, bir bombardmançı gəmidən, iki göyərtə botundan ibarət idi. Eskadra Həştərxandan 1781-ci il iyulun 29-da hərəkətə başladı [103, s.1-2].

İyulun 13-də Voynoviç bir qədər dinçəlmək üçün Bakının yanındakı adalardan birinə yanaşmaq qərarına gəldi. Eskadra Jiloy adasına yaxınlaşdı. Botlardan birini kəşfiyyat üçün göndərdilər. İyulun 14-də eskadra yolunu şərqə davam etdirdi [103, s.9].

Eskadra iyulun 21-də Oqurçin adasına çatdı. Lakin tədqiqat bu adanın ticarət faktoriyası üçün yaramadığını göstərdi və Voynoviç vaxtı itirmədən Astrabad körfəzinə üzməyi qərara aldı. İyulun 25-də eskadra Astrabad körfəzinə daxil oldu [103, s.15-16; 18].

İyulun 30-da hələ Jiloy adasından kəşfiyyat üçün göndərilmiş digər bot gəldi. Kəşfiyyatçılar İran hakimləri arasında müharibələr getdiyini bildirdilər. Məlum oldu ki, Astrabad hakimi Ağa Məhəmməd xan Qəzvin ətrafında düşərgə salmışdır. Oradan tezliklə qayıtmayacaq. Buna görə də Voynoviç ora, xanın yanına qasid göndərib gəlişinin məqsədini bildirdi [103, s.20].

Başı ara müharibələrinə qarışdığından Ağa Məhəmməd xan rus komandanının məktubuna müsbət cavab verdi. 4 ay ruslara

yaxşı münasibət göstərildi. Uzun danışıqlardan sonra körfəzin sahilində Qorodovin çayı mənsəbinin ruslara verilməsi barədə razılıq edildi. 1781-ci ilin payızında burada gəmi duracağı inşa edildi, bir sıra binalar, 18 dəniz topu ilə təchiz olunmuş istehkam inşa olundu. Lakin dekabr ayında yerli xanlardan biri Voynoviçi öz yanına qonaq çağırdı. Burada onu və yoldaşlarını silahlı adamlar dövrəyə alıb, rus eskadrasanın dərhal Astrabad körfəzini tərk etməsini tələb etdilər. Voynoviç bu tələbi yerinə yetirməyə məcbur oldu [103, s.XV-XVIII].

Voynoviçin özünü hələ bir müddət saxladılar. Sonra Astrabada, iqamətgahı Sariyə gələn Qacar Voynoviçə bildirdi ki, guya İranın digər hakimləri onu ruslara hədsiz yaxınlaşmasına görə ittiham edib, ona qarşı birgə hücum edəcəkləri ilə hədələmişlər. Ağa Məhəmməd xan da buna görə belə hərəkət etməyə məcbur olmuşdur [103, s.XIX-XX].

1782-ci il yanvarın 2-də Voynoviç Sarini tərk etdi. Yalnız mart ayında baş verən hadisələr haqqında Sankt-Peterburqa xəbər göndərdi. Özü isə növbəti sərəncamlar gözləyərək hələ iyuna kimi Astrabad körfəzində qaldı [103, s.XX-XXI].

Astrabadı tərk edən Voynoviç əvvəlcə Balxan (Qaraboğaz göl?) körfəzinə üzüb, buranı nəzərdən keçirdi. Oradan Bakıya istiqamət götürdü. Bakıda, eləcə də Dərbənddə rus tacirlərini gömrük ödəməyə məcbur edirdilər. Bakı körfəzinə gələn Voynoviç qasid göndərib Fətəli xanı görüşə dəvət etdi. Bir neçə gün sonra sahildə hazırlanmış qərargahda görüş oldu. Fətəli xan əvvəlcə Voynoviçin iddialarını (o cümlədən Bakı xanına göstəriş versin ki, rus tacirlərini incitməsin) qəbul etmək istəmədi. Lakin sonradan – sonraya güzəştə getməli oldu [103, s. XXIV-XXV].

Voynoviç avqustun sonunda Bakı körfəzini tərk etdi, sentyabrda isə Həştərxana döndü [97.1, s.84-92]. Bundan əvvəl Ağa Məhəmməd xanın elçisini Həştərxana yolladı. Elçi Sankt Peterburqa getsə də, dörd ay saxlandıqdan sonra ona bildirdilər ki, xanın xəyanətkar hərəkətlərinə görə rus hökuməti onunla heç bir əlaqə saxlaya bilməz [103, s.XXV-XXVI].

Voynoviçin ekspedisiyasının uğursuzluğu Xəzər dənizində Rusiyanın mövqelərinin hələ kifayət qədər möhkəm olmadığını göstərdi.

1782-ci ilin payızında rus hökuməti "İran məsələsi"ni əsaslı surətdə həll etməyin zəruri olması nəticəsinə gəldi. Cənubi Qafqazda və Xəzər dənizi sahillərində Rusiya təsirini möhkəmləndirmək üçün nəinki Xəzəryanı vilayətləri yenidən ələ keçirmək, həm də Cənubi Qafqazda Kartli-Kaxeti çarlığı ilə yanaşı yeni bir xristian dövləti – Ermənistan yaradıb, onları Rusiyanın ön qalasına çevirib, bunlara arxalanmaq qərara alındı. Beləliklə, Kartli-Kaxeti çarlığını himayəyə almaq və erməni dövlətini yaratmaq Cənubi Qafqazdakı rus siyasətinin qarşısında ilk növbədə dayanan vəzifələrindən biri oldu.

Bu dövrdə "Şərq problemi" Rusiya üçün xüsusi aktuallıq kəsb edirdi. Krımın ilhaqı gündəmdə idi. 1781-ci ilin mayında Avstriya imperatoru II İosiflə məktublaşıb ittifaqa nail olan II Yekaterina hesab edirdi ki, nəinki Krım məsələsini həll etmək, həm də daha geniş planları həyata keçirmək üçün əlverişli ilkin şərtlər yetişmişdir [134, s.38]. Bezborodkonun məşhur memorandumunda artıq çoxdan hazırlanmaqda olan "Yunan layihəsi" qəti tərtibatını tapdı. Beləliklə də, Azərbaycan və İranla bağlı olan layihələr bütün Şərq məsələsini həll etməyə yönəlmiş daha geniş planın yalnız bir hissəsi idi.

Bütün Qafqaz və İran işləri knyaz Potyomkinə tapşırılmışdı. Knyazın qardaşı oğlu general poruçik Pavel Sergeyeviç Potyomkin onun Qafqaz işləri üzrə səlahiyyətli nümayəndəsi və Qafqaz xəttindəki rus qoşunlarının yeni komandanı təyin olundu. P.S.Potyomkinə Cənubi Qafqaza və İrana yeni yürüşü hazırlamaq, gürcülərlə və ermənilərlə bağlı planları gerçəkləşdirmək tapşırılmışdı. O, 1782-ci il sentyabrın 6-da Qafqaza yola düşmək haqqında göstəriş alıb, noyabrın 4-də Şimali Qafqazda Georgyevsk şəhərindəki qərargahına gəldi. Yeni baş komandanın əsas vəzifəsi Q.A.Potyomkinin 1782-ci il 6 sentyabr tarixli sərəncamına əsasən hər şeydən əvvəl çar İrakli və ermənilərlə əlaqələrin yaradılmasından ibarət idi [153, s.161].

Q.A.Potyomkin 1782-ci il aprelin 6-da P.S.Potyomkinə yazırdı: "...Çar İrakli ilə əlaqələrimizin möhkəmlənməsinin əhəmiyyətini dərk edəcəksiniz. Şuşalı İbrahim xanı devirməli,

Qarabağda Rusiyanın himayəsi altında müstəqil erməni vilayəti təşkil edilməlidir" [153, s.161].

Haşiyə çıxaq ki, XVIII-XIX əsrlərdə Rus dövlətinin işğalçılıq siyasətini gerçəkləşdirmək metodlarından biri hər hansı ərazidə əvvəlcə özündən asılı dövlət qurumu yaratmaq, sonra isə onu birbaşa ilhaq etmək olmuşdur.

P.S.Potyomkinin məşğul olduğu işlərdən biri "erməni məsələsi" oldu. P.S.Potyomkin Q.Qaraxanovu aşağıdakı təlimatla Qarabağa göndərdi: Qarabağa çatan kimi məliklər – İsrail, Bəylər və Usuba onların məktublarının knyaz Potyomkinə çatdığını bildirməli, İranda hansı hadisələr baş verdiyini, münaqişələr olub-olmadığını hansı hakimin daha güclü, hansının zəif olduğunu öyrənməli, Qarabağ, Qaradağ və başqa yerlərdə kifayət qədər taxıl, alaf, yulaf və hər cür sursatın olub-olmadığını, 50 minlik qoşunu yedirtməyin mümkün olub-olmadığını öyrənmək [176.1.1, v. 151 a.ü. – 152; 73, s.122, s.200]. (Dekabr ayında bu zaman Qızlardan Naxçıvana gedən İ.Arqutinski Georgiyevskə P.S.Potyomkinin yanına gəldi. Onların arasında söhbət oldu və Cənubi Qafqaza casus göndərildi, gələcək planları razılaşdırdılar [184.1, v.72-73].

Dekabrın 21-də P.S.Potyomkin, İ.Arqutinskiyə 3 maddədən ibarət yazılı bir sorğu verdi. General soruşurdu ki, ermənilərin uzun müddətdir ki, dövlətləri yoxdur, indi onlar "azad qəlblər üçün zəruri olan iradə əzmi"ni saxlamışlarmı? Ermənilərin çoxusu ticarətlə məşğul olduğu üçün, indiki vəziyyətlərini əlverişli sayıb "yaxşı gələcək"dən üstün tutmazlar ki? Potyomkin Qafqazda ermənilərin sayı, onların sosial mövqeyi ilə maraqlanırdı. Generalı patriarx və məliklərin erməni əhalisinə nə qədər təsirə malik olduğu da maraqlandırırdı [176.1, v.162-164; 73, s.123, s.201-202].

P.Potyomkin Tiflisdən, yaxud Dərbənddən hərəkət edərkən hansı şəhərlər, çaylar, göllər, dağlar və meşələr olduğunu, Tiflisdən Ağrıdağa, İrəvana və başqa yerlərə, yaxud Dərbənddən və Şamaxıdan Ağrıdağa və Naxçıvana qədər möhkəmləndirilmiş qalalar olub-olmamasını soruşurdu. General xüsusi olaraq Qarabağ xanının qalasının harada olduğunu, oraya necə getmək

mümkün olduğunu soruşur, bu qala haqqında ətraflı məlumat verilməsini istəyirdi. Potyomkin həmin yerlərdə münasibət yaradılmalı xanların və hakimlərin xüsusiyyətləri və bacarıqları haqqında məlumat istəyirdi. Çayların gəmiçiliyə yararlı olub-olmaması, Tiflisdən aşağıya doğru taxıl yüklənmiş qayıqların üzə bilib-bilməməsi haqqında soruşurdu. Bu yerlərdə qoşunlar üçün ərzaq və sursat əldə etməyin mümkün olub-olmaması ilə maraqlanırdı [176.2, v.162-164; 73, s.123, s.202-203].

Bir həftə sonra bu sorğuya ətraflı cavab verən İ.Arqutinski bildirdi ki, ermənilər xristian dininə inamlarını və ruh yüksəkliyini itirməmişlər, "əsarətdən qurtarmağı çox möhkəm arzulayırlar", lakin zülmkarların vahiməsi onları hərəkət etməkdən çəkindirir. Öz fikrini təsdiq etmək üçün İ.Arqutinski İ.Eminin fəaliyyətinə istinad edirdi. İngiltərədən gələn Emin Rusiyadan keçərək Tiflisə gəlmiş və özünün keçmiş erməni çarlarının nəslindən olduğunu iddia etmişdir, ermənilər onun ətrafına toplaşmışlar. Lakin təəsüf ki, o, Tiflisdən sürgün olunmuş və planları gerçəkləşdirilməmiş qalmışdır. Xalq ruhanilərə və məliklərə sadiqdir. Məliklər imperatriçənin himayəsini qəbul etmək istəyirlər [82, v.155-156; 73, s.125, s.204-205].

Arqutinski xristian əhalisi haqqında məlumat verir, beş məliyin adını çəkərək onların bütövlükdə on min evi olan təbəəsinin olduğunu iddia edirdi. Erməni arxiyepiskopu Tiflis və Dərbənd vasitəsilə Qarabağa gedən yolları təsvir edir və bildirirdi ki, əgər ruslar hər iki yoldan qoşun göndərmək fikrindədirlərsə yaxşı olar ki, artilleriya və hərbi sursatı Dərbənd yolu ilə göndərsinlər. İlk növbədə Dərbəndi alıb Quba xanını tutmaq lazımdır, əks halda İranın içərilərinə keçmək xatalıdır, çünki dağlı xalqları arxadan ruslara qarşı silah qaldıra bilərlər. Fətəli xanın and və vədlərinə inanmaq lazım deyil, çünki o dəyişkən adamdır, onun məmurlarından, yaxud uşaqlarından əmanətlər götürmək lazımdır. Yerli ermənilərdən bələdçi kimi istifadə etmək olar. İrəvana Tiflisdən keçməklə hərəkət etmək lazımdır, Dərbənddən və Şamaxıdan keçməklə hərəkət olunarsa Gəncədən keçmək lazımdır. Şuşa öz mövqeyinə görə alınmazdır, lakin uzun mühasirəyə tab gətirməz. Cənubi Qafqazın kənd təsərrüfatı və təbii sərvətlərini

müfəssəl təsvir edən Arqutinski bildirirdi ki, rus ordusunu taxılla təmin etmək o qədər də çətin olmaz. Generalın bütün suallarına cavab verən Arqutinski göstərirdi ki, Cənubi Qafqaza yürüşün müvəffəqiyyətini təmin etmək üçün rus hökuməti II İraklini özünə bağlamalıdır. Bunun üçün İrakliyə hər hansı bir rütbə, oğlu Yulona isə Müqəddəs Anna ordeni vermək təklif olunurdu. Əgər İraklinin özünün rus qoşunları ilə birlikdə yürüşə çıxmaq imkanı olmazsa, öz oğlanlarından birini, yaxud kürəkəni knyaz David Orbelianini göndərə bilər. Açılan perspektivlərdən qanadlanan İ.Arqutinski hər vəchlə rusların diqqətini Osmanlı imperiyasındakı ermənilərə də yönəltməyə çalışaraq orada qat-qat çox erməninin yaşadığını vurğulayırdı [176.1.1, v.162-164 a.ü.; 73, sən.125, s.206-207].

Doğrudan da, bəzi xristian məlikləri – məlik Hətəm, məlik Bəylər, məlik İsrail, məlik Yusif, Müqəddəs İlya monastrının arxiyereyi Solomon, mülkədar Stefan, hərbi rəislər Sarkis, Qriqorii, Babay və Danial 1781-ci ilin sentyabrında II Yekaterinanın adına ərznamə yazaraq "onları xilas etməyi", Rusiya himayəsinə qəbul etməyi xahiş edirdilər. Ərizə müəllifləri rus hökumətini Qarabağı zəbt etməyə həvəsləndirmək üçün yenə də diyarın sərvətlərini sadalayırdılar. Burada qızıl, gümüş və qurğuşun yataqlarının olduğu, düşmənləri cəlb etməmək üçün onların üstünün örtüldüyü, yalnız mis və dəmir yataqlarından açıq istifadə olunduğu bildirilirdi. Qarabağda kvas və kükürdün olması, xeyli miqdarda ipək, pambıq parça, qızıl boya (marena), buğda və s-nin istehsal olunduğu, münbit dağlar və çəmənlərin, balıqla zəngin çayların, bol meyvəli bağların olması haqqında məlumat verilirdi [184.11, v.50-51; 73, s.113 a, s.183-184].

Don çayı üzərindəki Naxçıvana gələn Arqutinski generalın tapşırığı ilə onun üçün Qarabağ məlikləri haqqında yeni, daha geniş məlumat tərtib etdi. Bu məlumatda Qarabağ məliklərinin XVIII əsrin əvvəlindən başlayaraq tarixi təsvir olunurdu. Qarabağda mövcud şəraiti və məliklərin İbrahimxəlil xanla münasibətlərini ətraflı təsvir edən Arqutinski etiraf edirdi ki, Məlik Şahnəzər xana sədaqətlidir, ruslar Məlik Mirzəxana da etibar edə bilməzlər. Dizaqda Məlik İsayın ölümündən sonra vəziyyət

aydın deyil. Yalnız Məlik Adama və Məlik Yusufun oğluna etibar etmək olar. Yaxşı olar ki, ilk vaxtlarda yalnız Məlik Adamla əlaqə saxlansın. Arqutinskinin bu sözlərindən aydın olur ki, hələ 80-ci illərin əvvəllərinə kimi kimi Qarabağın dağlıq hissəsinin nəinki sadə sakinləri, hətta məliklərin çoxu İbrahimxəlil xana loyal olmuşlar. Yalnız rus hakimiyyət orqanlarının təhrikləri və İ.Arqutinski tipli erməni siyasətbazlarının fitnələri nəticəsində məliklər xana qarşı ayaqlanmışlar.

Arqutinski Qarabağdakı vəziyyəti təsvir etməklə kifayətlənməyərək yenə də Türkiyədəki ermənilərlə bağlı sərsəm ideyalarını irəli sürürdü. O, yazırdı ki, Potyomkinin Ağrıdağa – İrəvana və Eçmiədzinə kimi gedəcəyinə ümid edir. Arqutinski bu yerlərdə az erməni yaşadığını etiraf edərək bildirirdi ki, Ağrıdağdan o tərəfdə, yəni Türkiyədə daha çox erməni var. Oradakı ermənilər "cəsur adamlar"dır, onlar rusları sevir və gəlişini arzulayırlar. Həmin ərazidən bir çoxu generalın yanına gəlib ordusuna daxil olar. Bundan əlavə Türkiyənin Cənubi Qafqaza yaxın yerlərində bütpərəst yezidi kürdləri yaşayır ki, hələ 1768-1774-cü illər müharibəsi zamanı onlar erməni katalikosuna məktub yazaraq rusların onları "türk zülmü"ndən azad edəcəyinə inamlarını bildirmişlər. İndi də yezidi kürdləri rusların gəlməsi xəbərini eşitsələr, onlara qoşularlar [176.1.1, v.162-164 a.ü].

Məlumatın sonunda Arqutinski generala bildirdi ki, artıq İrakliyə, katalikosa və Məlik Adama yazmışdır ki, rus qoşunlarının qarşıdakı yürüşü ilə bağlı taxıl ehtiyatı toplasınlar və qarşıdakı ildə daha çox sahədə taxıl səpsinlər. Arqutinski generala təklif edirdi ki, mənşəcə erməni primyer – mayor Stepan Sumbatovu öz yanında qulluğa götürsün, ona mütərcim kimi lazım gələr [176.1.2, v.321-323 a.ü.].

Fevralın 11-də Arqutinski P.S.Potyomkinə yeni məktub yazdı. Bu məktubda o, "erməni məsələsi"nin həlli ilə əlaqədar əvvəllər irəli sürdüyü təklifləri daha da inkişaf etdirirdi. Arqutinski təklif edirdi ki, yaxşı olardı ki, general Potyomkin bir tanınmış ermənini, məsləhətdir ki, İvan Lazarevi özü ilə götürsün. Əgər Lazarevə ləyaqətinə uyğun rütbə verilsə, o, öz ağlı və sərvəti sayəsində nəinki "farsların hakimiyyətində olan" erməniləri,

eləcə də Bayazid, Van, Ərzurum və digər yerlərdə olan ermeniləri də öz ətrafına cəlb edə bilər. Arxiyepiskop həm də təklif edirdi ki, knyaz Potyomkindən xahiş olunsun ki, Taqanroq komendantı olan erməni-polkovnik Qasparovu Qızlar komendantı təyin etsin. Qasparov öz ailəsini Qızlarda qoyub yürüşə gedə və böyük xeyir verə bilər [176.1.2, v.321-323 a.ü.].

1783-cü ildə İ.Arqutinski daha da irəli gedərək "rus-erməni müqaviləsi" layihəsi də hazırlayır. 18 maddədən ibarət olan bu sənəd əslində təkliflər, tövsiyyələr və gələcək "Ermənistanın siyasi quruluşu haqqında" xülyalar səciyyəsi daşıyır. İ.Arqutinski təklif edirdi ki, "Ermənistan" Rusiyadan asılı bir dövlət olsun və erməniləri qorumaq üçün burada bir generalın başçılığı ilə azsaylı rus qoşun dəstəsi yerləşdirilsin. "Ermənistan", əvəzində Rusiyaya xərac ödəməli, zərurət yarandıqda lazımi yardım göstərməlidir. İmperatriçə ermənilərin içərisindən, yaxud öz yaxın adamlarından birini "Ermənistan" taxtına oturda bilər. Kimin erməni çarı olmasından asılı olmayaraq erməni – qriqoryan dövlətinin paytaxtı Vaqarşapat, yaxud Ani və ya Ararat vadisində olan hər hansı bir şəhər ola bilər. Arqutinski təklif edirdi ki, erməni knyazlarının nəslindən olanlara ulu babalarının mülkləri qaytarılsın. Ermənistanda təhkimçilik hüququ olmamalıdır, unutmaq olmaz ki, bizanslılar Ermənistanı tutub erməniləri qula çevirmək istəyən zaman ermənilər azad qalmaq naminə Abbasi xəlifələrinin hakimiyyətinə üstünlük vermişdilər. Arqutinskinin fikrincə Rusiya ilə Ermənistan arasında ticarət müqaviləsi də bağlanmalı, həm də Xəzər dənizində Ermənistanın sərəncamına bir liman verilməli idi (!?). Layihənin sonunda göstərilirdi ki, knyaz Qriqori Potyomkin erməni xalqının xeyirxahı və himayəçisi olduğundan o, erməni xalqı ilə imperatriçə arasında vasitəçi kimi çıxış etməlidir. Göründüyü kimi əslində İ.Arqutinski Q.Potyomkinə erməni taxtına oturmağı təklif edirdi [134, s.47-49].

Rus hökuməti Qafqazdakı işğalçılıq planlarını gerçəkləşdirmək üçün müxtəlif adamlardan istifadə edirdi. Belə şəxslərdən biri də milliyyətcə alman, ixtisasca həkim olan Yakob Reyneqs olmuşdur. O, İstanbulda olduğu zaman Kartli-Kaxeti çarı II İrakli ilə əlaqə yaratmışdı. Çar Reyneqçi öz yanına dəvət etmişdi.

Tiflisə gələn Reyneqs gürcü dilini öyrənmiş, çarın xəstə oğlu Georgini müaləcə etmiş, Gürcüstanda metallurgiyanın inkişafında, barıt zavodu və bir sıra müəssisələrin inşasında böyük xidmət göstərmişdi. Minnətdarlıq əlaməti olaraq İrakli hətta ona Borçalı bölgəsində 7 kənddən ibarət olan malikanə bağışlamışdı [134, s.52]. Üç il Gürcüstanda yaşayan Reyneqs İraklidən hansısa bir xahiş etmiş, lakin xahişi təmin olunmadığı üçün inciyib Gürcüstanı tərk etmişdi. Reyneqs, 1780-ci ildə seçilmiş yeni erməni katalikosu Qukasa məktub yazaraq erməni – qriqoryan etiqadına keçmək istədiyini bildirmiş və onun Eçmiədzinə köçməsinə icazə verməsini xahiş etmişdi. Lakin İrakli ilə münasibətləri korlamaq istəməyən katolikos buna nəzakətlə rədd cavabı vermişdi [134, s.52].

1781-ci ilin iyulunda Rusiyaya gələn Reyneqs Mozdokda Qafqaz xəttindəki rus qoşunlarının o zamankı komandanı Fabrisianla tanış olur, sonuncu tərəfindən Peterburqa gətirilərək Q.A.Potyomkinə təqdim edilir. Potyomkin şərq dillərini bilən və uzun zaman Cənubi Qafqazda yaşamış bu ağıllı və diribaş adamdan istifadə etmək qərarına gəlir. Bir il sonra – 1782-ci ildə Reyneqs yenidən, bu dəfə artıq Rusiya emissarı kimi Qafqaza yola düşür. 1782-ci ilin sentyabrında Həştərxana gələn Reyneqs Arqutinskinin evinə düşür. Arqutinski ona Lazarevdən və bir sıra başqa ermənilərdən məktub verir. Burada Həştərxan qubernatoru Yakob Reyneqsə onun Dağıstana, Gürcüstana və İrana öz işi üçün keçdiyini göstərən pasport verir [122, 134, s.52].

1782-ci ilin dekabrında II İrakli Q.A.Potyomkinə polkovnik Y.Reyneqsin onun sarayına gəldiyini və məmnunluqla qəbul edildiyini yazırdı [115, II c., II bur, s.27; 184.2, v.99-100].

Qısa müddət Tiflisdə qaldıqdan sonra, dekabrın 26-da Reyneqs 60 nəfər dağıstanlı döyüşçüdən ibarət mühafizə dəstəsinin müşaiyəti ilə erməni katolikosu Qukas Karnetsi ilə görüşmək üçün Eçmiədzinə yola düşür [185.1, v.3-7 a.ü. ; 73, sən.132, s.215].

Reyneqs Q.Potyomkinin göndərdiyi xaçı katolikosa verib öz gəlişinin məqsədini anlatdı. Görüşün sonunda katolikos və 32 yepiskop əvvəlkitək Rusiya taxt-tacına sədaqətli olacaqları haqqında and içdilər. Bildirildi ki, bütün məliklər rus hərbi dəstələrini

öz istehkamlarına buraxmağa və onları lazımi ərzaqla və sursatla təmin etməyə hazırdılar. Məlik Adam çara ərizə tərtib etməyə başladı [184.4, v.3-7 a-ü; 134, 54; 73, s.132, s.215].

Reyneqs Eçmiədzindən İrəvana Hüseynəli xanın yanına "ticarət işlərini qaydaya salmaq üçün" gəldiyini izah etmək üçün yola düşdü. Xan Reyneqsi təmtəraqla qəbul etdi. Reyneqsin yazdığına görə Hüseynəli xan ona həm hörmətlə, həm də inamsızlıqla yanaşırdı. Lakin, Reyneqsin söhbətindən sonra sakitləşdi və hətta qalanın planını çəkməyə icazə verdi [184.4, v.3-7 a-ü; 134, s.55]. Bu da Reyneqsin həm də casus tapşırıqlarını yerinə yetirdiyini göstərir.

Reyneqs Potyomkinə göndərdiyi məktublarda "çox zəngin" İrəvan vilayətinin təsvirini vermişdir. Burada böyük miqdarda pambıq, ipək, darı və meyvələr yetişdirildiyini, yalnız pambıqdan ildə yarım milyon manat gəlir götürüldüyünü yazır. Xana toplanan məhsulun 1/7-i kimi 68 min batman, yaxud 13600 pud pambıq verilmişdi. Yanvarın axırlarında Reyneqs Tiflisə qayıtdı [184.4, v.3-7 a-ü; 134, s.56; 73, s.132, s.215].

O, özü ilə katolikosun Q.Potyomkinə məktubunu və bir sıra başqa məktublar gətirdi. Katolikos Potyomkinin məktubunu aldığını yazaraq "bədbəxt" erməni xalqına göstərdiyi qayğıya görə minnətdarlığını bildirirdi. Katolikos Qukas Lazarevə, Arqutinskiyə, Manuçarova və Sumbatova da məktublar yazmışdı [184.4, 134, s.56].

Çox güman ki, Reynqeqs Qanzasar katolikosu Qvanes və Qarabağ məliklərinin adından II Yekaterinaya yazılmış ərznaməni gətirmişdi. A.İoannisyanın yazdığına görə bu ərznamə çox güman ki, Qarabağda yazılmamış, Eçmiədzində Məlik Adam tərəfindən tərtib olunmuşdu. Məliklər, yepiskoplar, keşişlər, yüzbaşılar, əsgərlər, təbəələr adından "Qarabağ ermənilərini imperatriçənin himayəsi və hakimiyyəti altına almaq, çoxsaylı xristianları yad xalqların əsarətindən" xilas etmək xahiş olunurdu [184.4, v.89 və a-ü; 134, s.57].

Tiflisə qayıdan Y.Reyneqs Eçmiədzinə səfəri haqqında hesabatla yanaşı Q.A.Potyomkinə digər bir məktub da yazıb burada Cənubi Qafqazdakı siyasi şəraitin ümumi qiymətini verdi [184.4, v.3-7 a-ü; 134, s.57; 73, s.132, s.216-217].

Reyneqs Cənubi Qafqazdakı şəraiti Rusiya üçün çox əlverişli sayırdı. Onun sözünə görə İraklinin arzusu yalnız və yalnız Rusiyanın vassalı olmaqdan ibarət idi. Gürcülərin və ermənilərin Rusiyaya bağlılığı o qədər böyükdür ki, əgər onlara saqqallarını qırxmaq əmr olunsa belə onu edərlər. Bütün xanlar ruslardan qorxurlar. Türklər zəifdirlər, paşalar arasında didişmələr gedir, gürcülər və aysorlar arasında narazılıq hökm sürür. Reyneqs əmin edirdi ki, buna görə də rus qoşunlarının hərəkəti başlayan kimi bu ölkədə rahatlıq və sakitlik bərpa olunar. Reyneqs bildirirdi ki, "Aderbiqanın (Azərbaycanın – T.M.) müqəddəratı rus qoşunlarının İraklinin yanına gəlməsindən asılıdır. Əgər Gürcüstana rus əsgərləri gəlsə bir təkcə Qarabağ və Qaradağ dairələrindəki 30 min xristian ailəsi məliklərin sözü ilə iki gündə quldarlıq əsarətini devirərlər. Reyneqs yazırdı ki, Ənzəlidən Kür çayı ilə Qarabağa kimi gəmi ilə 3 günlük, oradan quru yolu ilə İrəvana kimi isə beş günlük məsafə var. Bu ölkəyə üç yol var: biri ən qısası, lakin çətini Qafqaz dağlarından keçir; ikincisi, əlverişli, lakin uzunu Qara dəniz və İberiyadan keçir; üçüncü yol isə Xəzər dənizindən və sonra ya quru ilə, ya da çayla. Əgər quru yolu ilə hərəkət olunarsa Muğan düzündə ilanlar tərəfindən təhlükə var. Reyneqsin qənaətinə görə Həştərxandan Qızlara qədər su yolu və sonra Qarabağa qədər quru yolu ən əlverişli yol idi.

Y.Reyneqs Eçmiədzində danışıqlar apardığı bir zamanda gen. Potyomkin də öz casusları – qarabağlılar Qabriel Qaraxanovu və Mkrtıç Qekazovu Qarabağa göndərib Qarabağ məlikləri ilə bilavasitə əlaqə yaratmağa cəhd etdi. Potyomkin casuslarına göstəriş verdi ki, Məlik Adama və Məlik Bəylərə bildirsin ki, onların 1781-ci ildə göndərdikləri məktubları almışdır. Məliklər ümidləndirilməli idilər. Qanzasar katolikosu Ovanesl ə də əlaqə yaradılmalı idi. Casuslar Azərbaycandakı vəziyyətlə əlaqədar ətraflı məlumat toplamalı idilər [176.1.4, v.151-152].

1783-cü ilin əvvəllərində geri qayıdan Qekazov bildirdi ki, Qarabağa çatan kimi ilk növbədə yeni Gülüstan məliyi – Məlik Bəylərin kiçik qardaşı Abovun yanına getmişdir. Məlik Bəylər Rusiyaya müraciətindən az sonra – 1781-ci ilin sentyabrında dağıstanlı döyüşçülərlə toqquşmada öldürülmüşdü [82, v.115;

134, s.59]. Məlik Abov Qekazovu sevinclə qarşılayaraq imperatriçəyə qulluq göstərmək arzusunda olduğunu bildirmişdi. Məlik həmçinin mülklərində gümüş yataqlarının olduğunu, lakin bunu məxvi saxladığını bildirmişdi.

Qekazov Gülüstandan Çiləbördə Məlik Adamın yanına gedərək, burada da sevinclə qarşılanmışdı [176.1.2, v.26-27].

P.Potyomkin bu zaman Georgiyevsk qalasına gəlmiş Arqutinskiyə, katolikos Ovanesə, Məlik Abova və Məlik Adama məktub yazıb onları Rusiya himayəsi ilə ümidləndirməyi tapşırmışdı. P.S.Potyomkin, casus osmanlılar tərəfindən tutularsa öz adının hallanmaması üçün ehtiyatla tərpənərək məliklərə məktubları öz adından yox, Arqutskinin adından göndərmişdi [176.1.2, v.74].

P.Potyomkin erməni və alban katolikoslarına və Qarabağ məliklərinə yazılı surətdə xəbər verdi ki, 1783-cu ildə hökmən rus-İran (oxu: rusların Azərbaycan xanlıqlarına hücumu) müharibəsi başlanacaqdır, buna görə də onlar hazır olub onun gəlişini, ermənilərin müsəlmanların əsirliyindən xilas olmalarını gözləməlidirlər. Alban katolikosu bu xəbəri alıb Qarabağ məlikləri ilə birlikdə baş məbədə toplaşdı və onlar Potyomkinə can-başla kömək etmək barədə xaça və İncilə and içdilər.

Alban katolikosu Ovanes 22 yanvar 1783-cü il tarixli məktubunda özünün və Qarabağın beş məlikinin adından Rusiya himayəsinin arzuladıqlarını bildirirdi [184.11, v.89-90; 73, s.128, s.209].

1783-cü ilin fevralında Qarabağa gələn Qaraxanov əvvəlcə məliklər Adam və Abonun yanına, sonra da katolikos Ovanesin yanına getdi. Mart ayında Qekazovla birlikdə Rusiyaya qayıtdı [134, s.61].

Casuslar Məlik Adam və Məlik Abovun, katolikos Ovanesin P.S.Potyomkinə və Arqutinskiyə məktublarını gətirdilər. Məliklər və katolikos rus qoşunlarının yürüşə hazırlaşması xəbərini alqışlayır, onlara hər cür köməklik göstərməyə hazır olduqlarını yazırdılar. Katolikos Ovanes, məliklər Adam, Abov və Danil, İsrail habelə katolikosun qardaşları və bir neçə yepiskop tərəfindən imzalanan 5 mart 1783-cü il tarixli məktubda katolikos və məliklər general Potyomkinə bildirirdilər ki, rus qoşunlarının

Qarabağa səfər edəcəyi xəbərini eşidib çox sevinmişlər. Onlara məlum olmuşdur ki, general on iki min nəfərlik qoşunla yürüş etmək fikrindədir və Qarabağda həmin qoşunun təminatı üçün lazımi miqdarda ərzaq və atlar üçün alafın olub-olmaması ilə maraqlanır. Katolikosun və məliklərin fikrincə Potyomkin Qarabağa daha böyük, otuz min nəfərlik qoşunla gəlməli idi ki, müsəlmanlarda lazımi təəsürat yaratsın. Ordunun təminatından qorxmaq lazım deyil, Qarabağda bunun üçün hər cür imkan var. Məliklər özləri ilə gələn rus qoşunu ilə birləşmək fikrindədirlər. Məliklər rus hökumətindən Qarabağa yürüşü sürətləndirməyi təkidlə xahiş edir və rus hökumətini şirnikləndirmək üçün Qarabağın təbii sərvətlərini sadalayır, burada taxıl, ət, balıq, ipək, pambıq, yağ və şərabın bol olduğunu, qızıl, gümüş, mis, dəmir, qurğuşun, hətta neft yataqları olduğunu yazırdılar [176.1.2, v.74; 73, s.139, s.227-229].

Arqutinskiyə məktublarında katolikos və iki məlik ondan xahiş edirdilər ki, Qarabağa on iki minlik yox, otuz minlik rus qoşununun göndərilməsinə nail olsun [176.1.2, v.74].

Gen. P.S.Potyomkin Eçmiədzin katolikosu ilə də əlaqə yaratmağa cəhd etdi və 1783-cü ilin fevralında katolikos Qukasa xüsusi məktub göndərdi. Məktubda o, özünün Qafqaz xəttindəki rus qoşunlarının komandanı təyin olunduğunu yazaraq katolikosun hər hansı xahişini yerinə yetirməyə hazır olduğunu bildirirdi [176.1.2, v. 37 a-ü.].

1783-cü ilin aprel ayında katolikos Qukas çox ehtiyatlı bir cavab məktubu göndərdi. O, rahat olduğu üçün "Heç nədən başı çıxmadığını" iddia edərək generala lazımi informasiyanı verməkdən imtina etmiş, yalnız ümumi sözlərlə ruslara sədaqətini və rəğbətini izhar etməklə kifayətlənmişdi. Lakin Arqutinskinin göstərişi ilə bu zaman generalın qulluğunda olan erməni M.Vahanov məktubu ruscaya çevirən zaman Qukasın dumanlı ifadələrini dəyişərək "bütün erməni xalqının qalibiyyətli rus qoşunlarının yürüşünü gözlədiyini" yazmışdı [134. s.66-67].

1783-cü ilin əvvəllərində qubalı Fətəli xanın Qarabağ və Qaradağa yürüşü haqqında məlumat alındı. Bu isə həmin bölgələri öz təsiri altına almaq istəyən rus hökumətinin niyyətlərinə

uyğun gəlmirdi. Buna görə də P.S.Potyomkin dərhal Fətəli xana məktub yazıb nəinki Rusiyanın himayəsi altında olan Gürcüstanın hüdudlarına girməməsini, eləcə də Qarabağ və Qaradağda yaşayan azsaylı xristian əhalisinə xətər yetirməməsini istədi [176.1.2, v.741-42; 173.1.2, v.52; sən.135, 136, səh.221-222].

1783-cü il aprelin 6-da knyaz Q.Potyomkin gen. P.Potyomkinə göstəriş vermişdi ki, onun komandasına verilmiş korpusla Dərbəndi zəbt etsin [176.1.3. v.26-27].

Mayın 19-da generala yeni məxvi order göndərən knyaz həmin göstərişi yenidən təsdiqlədi və həm də Fətəli xanın özünü tutmağı tövsiyyə etdi. Bu məqsədlə digər xanların ona qarşı qəzəbindən istifadə etmək, onlara imkan vermək lazım idi ki, Fətəli xana zərbə vursunlar. Q.Potyomkin hətta hələlik İbrahimxəlil xanın devrilməsi fikrindən əl çəkərək ondan Fətəli xana qarşı mübarizədə istifadə etməyi təklif edirdi.

Kartli-Kaxetiya çarlığı Rusiya himayəsindən istifadə edib bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə Gəncəni tutmağa can atırdı. II İraklinin təcavüzkar niyyətləri qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəldi. O, hətta 1782-ci ildə II İrakli ilə rəqabət aparan sabiq Kartli çarı VI Vaxtanqın nəvəsi Aleksandr Amilaxvariyə öz sarayında sığınacaq verdi.*** Fətəli xan Aleksandra gürcü taxtına yiyələnməkdə kömək edəcəyinə söz verdi. Bundan xəbər tutan Qafqaz xəttindəki rus qoşunlarının komandanı P.S.Potyomkin 1783-cü ilin payızında iki kifayət qədər güclü hərbi dəstə təşkil etməyə başladı. Bir dəstə Sulak çayının sahilində, keçmiş Svyatoy Krest qalasının yanında, başqa biri Terekin sahilində Daryal dərəsinin girəcəyində durmalı idi. Əgər Fətəli xan və Knyaz Aleksandr öz niyyətlərini həyata keçirməyə başlayardılarsa, bu dəstələrin birincisi Dərbəndə doğru, digəri isə Gürcüstana irəliləməli idi [148, s.143].

Hələ 1783-cü ilin mayından ruslar Şimali Qafqazdan Gürcüstana gedən yolu düzəltməyə başladılar. 1784-cü ilin yazında bu yolun başlanğıcında Vladikavkaz (Qafqaza yiyələn!) rəmzi

***Aleksandr Amilaxvari rus ordusunda kapitan rütbəsində xidmət edirdi. 1762-ci ildə devrilmiş və qətlə yetirilmiş III Pyotra sədaqətlə xidmət etdiyinə görə 1766-cı ildə hərbi rütbəsi əlindən alınmış və Rusiyadan deportasiya edilmişdi [97.2, 141].

adı verilən qala inşa edildi [148, s.142]. Bu cür əks tədbirlər Fətəli xanı II İrakliyə qarşı çıxış etməkdən çəkindirdi. Üstəlik P.S.Potyomkinin tələbilə Aleksandrı rus komandanlığına təslim etdi [148, s.144].

Kn. Potyomkin II Yekaterinaya 19 may 1783-cü il tarixli məktubunda yazırdı ki, gen. Potyomkinə əmr vermişdir ki, qonşu hakimlərdən, hətta qarabağlı İbrahimxəlil xandan Fətəli xana qarşı istifadə etsin, öz komandası altında olan qoşunlarla Dərbəndi tutsun [185.2, v.1 a.ü.].

Noyabrın 27-də mayor Komarski Fətəli xanın təhvil verdiyi Aleksandr Bakarovu Həştərxana gətirmişdi. Bakarov Fətəli xanın qoşun toplayıb Qaraqaytaq hakimi və usmi ilə birləşib, digər hakimləri də cəlb etməklə "Abbas Mirzə"ni şah elan etmək fikrində olduğunu təsdiq etmişdi [185.2, v.138 a.ü.].

Fətəli xanın elçisi Mirzə Sadıq yazırdı ki, əgər rus hökuməti xanın köməyinə bir-iki alay göndərsə xan bütün İranı, hətta Hindistan sərhəddinə kimi torpaqları tuta bilər [185.2, v.186].

Rusiya eyni zamanda Azərbaycan xanlıqlarının Türkiyə ilə yaxınlaşmasına hər vəchlə mane olmağa çalışırdı. P.S.Potyomkin Q.A.Potyomkinə 1783-cü ilin mayında göndərdiyi raportunda yazırdı: "Əgər Fətəli xan turklərin köməyinə arxalansa, ləzgi və dağlıları onun əleyhinə qaldırmaq çətin deyil. Onun başını qarışdırmaq lazımdır ki, türklər yadından çıxsın... mən İbrahim xana Süleyman paşadan məktub gəldiyini gizlətdim... erməni arxiyepiskopuna məktub verdim ki, əgər türklər tərəfindən onlar tutularsa mənim adımı bu məsələyə qarışdırmasın [5, s.536].

Diplomatik münasibətlərdə çox ehtiyatlı olan Rusiya hökuməti Kartli-Kaxeti çarlığı ilə müqavilə bağladıqdan sonra müsəlman xanlıqlarına "elçilər" və "hədiyyələr" göndərməklə yanaşı xəbərdarlıq etmişdi ki, onlar, yəni Azərbaycan xanları Gürcüstanla münasibətlərini nizama salsınlar [54, s.92-93].

Qubalı Fətəli xanın hakimiyyət və nüfuzunun artmasında özünün Azərbaycana qarşı işğalçılıq niyyətlərinin gerçəkləşməsi üçün təhlükə görən Rusiya hər vəchlə Quba xanının fəaliyyətini məhdudlaşdırmağa səy göstərirdi.

1783-cü il martın 28-də Peterburqda vitse-kanslerin Xarici İşlər Kollegiyası üzvləri ilə növbəti müşavirəsində başqa məsələlərlə yanaşı devrilmiş Krım xanı Şahin Gərayın "İrana" göndərilib hökmdarlığa təyin olunması məsələsi də müzakirə olundu. Bununla əlaqədar Şahin Gərayın idarə edəcəyi "dövlətin" sərhədləri də müzakirə olundu. Xarici Işlər Kollegiyası hesab edirdi ki, "İran ərazisi" Şahin Gərayın əvvəllər idarə etdiyi ərazidən çox genişdir, buna görə də ona bütün İran ərazisi yox, yalnız bir hissəsi verilməli, həm də onun varisləri ilə də müqavilə bağlanılmalıdır [74.1, v.115-119]. Müşavirənin protokolunda Qafqazdakı rus siyasətinin məqsədləri də ifadə olunmuşdu: "Xəzər dənizinə yiyələnmək" və "gürcülərlə və ermənilərlə ittifaq" [74.1, v.116-117]. Q.A.Potyomkin Bezborodkaya məktubunda yazırdı ki, onun imperatriçaya təqdim etdiyi xəritədə "İran tərəfdəki" sərhədlər cızılmışdır. Potyomkin yazırdı ki, ruslar yalnız Bakıya qədərki ərazini tutacaqlar. Qarabağ və Qaradağdan ibarət olan "İran Ermənistanı" isə İraklinin çarlığı ilə birləşər [74.2, v.104 və a.ü.].

Düşünülmüş planları gerçəkləşdirmək üçün Q.A.Potyomkin 1783-cü il aprelin 6-da P.S.Potyomkinə göstəriş göndərdi: "Şuşalı İbrahim xan devrilməli, çünki bundan sonra Qarabağ Rusiyadan başqa heç kimdən asılı olmayan erməni vilayətini təşkil edəcəkdir. Siz bütün səylərinizi göstərin ki, yeni vilayət xalq üçün ən əlverişli şəkildə təşkil olunsun. Bunun sayəsində digər güclü erməni vilayətləri də bu nümunə üzrə hərəkət edəcək, yaxud da ermənilər böyük sayda Qarabağa gələcəklər". Göstərişdə deyilirdi ki, qarşıdakı məqsədə çatmaq üçün ilk növbədə dörd tabor, müvafiq miqdarda artilleriya və süvarilərin əli ilə Dərbənd zəbt olunmalıdır. Bununla rus qoşunları Qarabağa yaxınlaşar və etibarlı arxa əldə edərlər. Xəzər donanması da P.Potyomkinin sərəncamına verilirdi. Həştərxandan Dərbəndə hərbi sursat daşımaq və rus ticarətini müdafiə etmək üçün donanmadan istifadə olunmalı idi.

Aprelin 4-ü və 6-da Q.Potyomkin gen. Potyomkinə daha iki göstəriş yazdı. Birinci göstərişdə P.Potyomkinə İbrahimxəlil xanı devirmək, Dərbəndi tutmaq əmr olunurdu. Dərbəndi zəbt

etmək üçün 4 taborun və müvafiq sayda artilleriyanın kifayət edəcəyi bildirilirdi [185.3, v.8 və a.ü; 164.2, v. 29-30; 73, sən 146, s.239; 185.2, v.1 və a.ü.]. İkinci göstərişdə bildirilirdi ki, qarşıdakı yürüş üçün nəzərdə tutulmuş yüz min əşrəfidən 59 min holland əşrəfi bir mayorun müşaiyəti ilə göndərilir. General bu pulu alıb gələcəkdə lazım olacaq xərclər üçün saxlamalı idi. İkinci göstərişdə isə deyilirdi ki, generala əlavə olaraq kəllər və arabalar almaq üçün 10 min rubl göndərilir [86.5, v.149 və a.ü.].

Aprelin 10-da isə kansler Bezborodko şəxsən özü gen. Potyomkinə məktub yazdı. Kansler yazırdı ki, bundan belə generaldan şücaətləri barədə xəbərlər gözləyəcək [189, s.429].

Qarşıdakı yürüşə diplomatik hazırlıq görmək və əlverişli siyasi şərait yaratmaq məqsədilə P.S.Potyomkin aprelin 12-də Tiflisdə olan Reyneqsə fars dilində yazılmış məktub göndərdi. Reyneqs bu məktubu Azərbaycan xanları içərisində yaymalı idi. Bu məktubda xanlar arasındakı toqquşmaların ağır nəticələri tünd boyalarla təsvir olunurdu.

"İran, qanda üzərək bərəkətli məskən yerinə biabırçı hala düşmüşdür, meyidlərlə örtülmüş, əkinlər atılmış, münbit tarlalar səhraya döndərilmiş, şəhərlərin sərvəti talan olunmuş, tacirlər qarət edilmiş və məhv edilmiş, zülm və qisasdan qaçan vətəndaşlar və əkinçilər rifah ziyasının onların üzərinə düşəcəyindən əllərini üzərək əvvəllər çiçəklənməkdə olan torpağı göz yaşları ilə suvarırlar" [176.1.4, v.62-73].

Reyneqs Azərbaycan xanlarına, ilk növbədə İrəvan, Təbriz və Xoy xanlarına təlqin etməli idi ki, onlar ara mübarizəsini dayandırıb sakit dayansınlar, bununla Rusiyanın himayəsinə nail ola bilərlər [176.1.4, v. 62-73].

Bu məktub yalnız Azərbaycan xanlarında vahimə yaradıb onları himayə üçün Rusiyaya müraciətə vadar etmək məqsədi güdmürdü, həm də xanları Türkiyə ilə yaxınlaşmaqdan çəkindirmək məqsədi güdürdü. Bu dövrdə rus hakimiyyət orqanlarına İbrahimxəlil xanın və Fətəli xanın osmanlı paşaları ilə Rusiya təcavüzünə qarşı birləşmək üçün danışıqlar aparması haqqında xəbərlər [176.1.4, v.63-74] çatmaqda idi.

Knyaz Q.Potyomkin 1783-cü il mayın 19-da II Yekaterinaya yazırdı ki, onun göstərişini yerinə yetirərək gen. P.Potyomkinə qarabağlı İbrahimxəlil xanı Rusiyaya itaətə cəlb etmək haqqında əmr vermişdir. General cavabında təklif etmişdi ki, əlverişli məqamda İbrahimxəlil xanı devirmək, onun itaətində olan xristianları hakimiyyətə gətirmək, bununla imperatricənin knyaz Potyomkin vasitəsilə məliklərə verdiyi vədə uyğun olaraq Asiyada xristian dövlətini bərpa etmək olar [164.2, v.29]. Qeyd edək ki, kn. Potyomkin də II Yekaterinaya bu təkliflə razı olduğunu bildirirdi [185.2, v.1-1a]. O, II Yekaterinaya yazırdı ki, gen.Potyomkinə qonşu hakimlərdən, eləcə də qarabağlı İbrahimxəlil xandan Fətəli xana qarşı istifadə etmək, Dərbəndi rus dəstələri ilə tutmaq barədə göstəriş vermişdir [185.2, v.1 a.ü.].

Kn. Potyomkin göstəriş vermişdi ki, əgər general Dərbənddə Fətəli xanı ələ kecirsə onu, həmcinin xanın yanında olan gürcü şahzadəsi Aleksandrı Həştərxana göndərsin [164.2, v.30]. Knyaz yazırdı ki, P.Potyomkin həm qarabağlı İbranimxəlil xana,həm qubalı Fətəli xana nəvaziş göstərməlidir ki, onları ələ ala bilsin, sonra soruşurdu ki, əgər onların hər ikisini, yaxud da birisini ələ kecirə bilsə bunu guya əhalinin onlardan narazı olması səbəbi ilə edildiyini bəyan etmək olarmı? [164.2, v.32].

Rus hakimiyyət orqanlarının gizli niyyətlərindən xəbəri olmayan qubalı Fətəli isə xan Cənubi Azərbaycana öz hakimiyyətini yaymaq istəyirdi.

Bəzi məlumatlara görə, Fətəli xan əvvəlcə Ərdəbili tutmaq, daha sonra Gilana hücum edib Hidayət xanı devirmək, yerinə ayrısını taxta çıxarmaq niyyətində imiş. Fətəli xanın Hidayət xandan narazılığının başlıca səbəbi bir müddət əvvəl Məhəmməd Həsən (əslində, Ağa Məhəmməd xan) Qacar Gilana hücum edib Hidayət xanı oradan qovduqdan sonra Fətəli xanın yardımı ilə yenidən hakimiyyətini bərpa etsə də Quba döyüşçülərinə razılaşdırılmış məbləği verməkdən imtina etməsi olmuşdu. Hidayət xan hətta döyüşçülərin atlarını əllərindən alıb özlərini buraxmışdı [184.12.1, v.7].

Rus rəsmi arxiv sənədlərindən görünür ki, doğrudan da Hidayət xan Gilanda yenidən hakimiyyətə qubalı Fətəli xanın

yardımı ilə gəlmişdir. Həştərxan qubernatoru vəzifəsini ifa edən Jukov Xarici İşlər Kollegiyasına 12 aprel 1782-ci il tarixli məlumatında yazırdı ki, onun İrandakı rus konsulu Tumanovskidən aldığı məlumata görə Ağa Məhəmməd xan Qacar qardaşı Murtuzaqulu xanı Rəştdən qovduqdan sonra Gilan müxtəlif əyanlar tərəfindən idarə olunurdu. 1782-ci il yanvarın 2-də isə Hidayət xan qubalı Fətəli xan, Qaytaq usmisi, Tarku şamxalının verdiyi dəstələrlə və başqa qoşunlardan ibarət cəmi 6 min döyüşçü ilə (o cümlədən bir hissəsi kubanlı idi) Gilana daxil olub hakimiyyəti yenidən ələ keçirmişdir [78.4, v.54].

İbrahimxəlil xanın yazdığına görə Kərim xanın kürəkəni olan gilanlı Hidayət xan qanuni hakim Nəsirəli xanı həbsdə saxlayırdı. Kərim xanın ölümündən sonra o, bir yolla azad olmuş və Məhəmməd Həsən (oxu: Ağa Məhəmməd) xanın köməyilə Gilan taxtına yiyələnmişdir. Öz xəzinəsini itirməkdən qorxan Hidayət xan onu gəmiyə yükləyib Rusiyaya qaçmaq istəmiş, lakin Fətəli xan onu qaçmağa qoymayıb bildirmişdi ki, 6 min nəfər dağıstanlı döyüşçünün köməyi ilə onu taxta bərpa edəcək. Lakin döyüşçülər Gilanda elə vəhşiliklər törətmişlər ki, Hidayət xan onları qovmalı olmuşdur [184.12.1, v. 55 a.ü.].

İbrahimxəlil xan bunu da yazırdı ki, Fətəli xan guya şah Hüseynin nəslindən olan bir qondarma şahzadəni Salyana gətirmişdir. İbrahimxəlil xan Fətəli xanın qondarma "Abbas Mirzəyə" yazdığı məktubu ələ keçirərək gen. Potyomkinə göndərmişdi [176.1.2, v.99].

Qeyd edək ki, Fətəli xanın kubanlılardan qoşun toplaması xəbəri rus hökümətini narahat etmişdi.Hökümət Krımdakı nümayəndəsi Veselovskiyə tapşırmışdı ki, bu məsələni hərtərəfli araşdırsın (78.4, v.56 və a.ü.).Veselovski məsələni araşdıraraq bildirmişdi ki, Kubanda Fətəli xan üçün qoşun toplanmır, yalnız noqaylardan kiçik bir qrup adam qubalı Fətəli xanla və bəzi Dağıstan hakimləri ilə onların təbəəliyə qəbul olunması barədə razılığa gəlmişlər [78.4, v.61 və a.ü.].

Rus hökumətini qıcıqlandıran məsələlərdən biri də Fətəli xanın gürcü şahzadəsi Aleksandrı öz yanında saxlaması idi. Fətəli xanın bir il əvvəl – 1782-ci ildə II Yekaterinaya göndərdiyi mək-

tubdan aydınlaşır ki, Qızlar komendantı Qızlar sakini Hacı Mirzə bəyi və poruçik Pyotr Petrovu Fətəli xanın yanına göndərərək yanında saxladığı gürcü şahzadəsi Aleksandr Bakarovun Rusiyaya təslim etməsini tələb edibmiş.Aleksandr yardım almaq üçün Dağıstana, oradan da Dərbəndə gəlmişdi. Fətəli xan yazırdı ki, şahzadə Aleksandr Dağıstanda olduğu zaman şamxal Murtuza Əli, Qaytaq usmisi Əmir Həmzə, cüməkəndli Əli Sultan Dərbəndə gəlib Fətəli xana birlikdə Gürcüstana hücum etməyi təklif ediblər. Fətəli xan buna razılıq verməsə də onlar Gürcüstana hücum etmiş və Fətəli xanın yazdığına görə II İraklini Tiflisdən qovub Aleksandrı gürcü taxtına çıxarmış, özləri çoxlu qənimətlə geri, Dağıstana qayıtmışlar. Eyni zamanda Fətəli xan II İraklinin hərəkətlərindən şikayətlənərək yazırdı ki, o və qarabağlı İbrahimxəlil xanla birləşib hiylə ilə gəncəli Məhəmməd xanı tutmuş(Şuşada həbsdə saxlanırdı) və Gəncənin idarəsini öz aralarında bölüşdürmüşlər. Onlar həmçinin Qaradağ hakimi Mustafa xanı əyanları ilə birlikdə həbsə alıb Qarabağda saxlayırdılar. Nəhayət, İbrahimxəlil xan Fətəli xanın yeznəsi bakılı Məlik Məhəmməd xanı da tutub həbsdə saxlayırdı. Məhz bu səbəblərə görə də Fətəli xan Dağıstan hakimlərinin Gürcüstana hücumuna mane olmamışdı.Fətəli xan yazırdı ki, II İrakli İbrahimxəlil xana yardım göstərməklə, əslində onun vasitəsilə Azərbaycana yiyələnmək istəyir. Fətəli xan tələb edirdi ki, II İrakli canişinini Gəncədən geri çağırsın, İrəvan xanlığından pul xəracı istəməsin, “ona məxsus” olan Gürcüstanla kifayətlənib, Azərbaycanın işlərinə qarışmasın, İbrahimxəlil xanla ittifaqdan əl çəksin [78.6, v.107-117; 59, s.178-182]

Fətəli xanın 1783-cü ilin aprel ayında P.S.Potyomkinə yazdığı məktubdan aydınlaşır ki, o, yəni Fətəli xan yanına gələn “Misir Abbasi”ni Salyanda saxlayır. P.S.Potyomkinin Fətəli xanın yanına göndərdiyi mayor Qauzenə xan demişdi ki, guya Gilana rus konsulu Tumanovskini azad etmək üçün gedir. Mayorun ehtimalına görə isə əslində Fətəli xan Hidayət xanın xəzinəsini ələ keçirməyə gedirdi. Sonra lənkəranlı Qara xan və Aslan xanla birləşib Ərdəbilə gedərək “Misir Abbasi”ni şah elan etmək istəyir. Sonra da “şahın” adından Rusiyaya elçi göndərəcək. Bu

məsələ ilə bağlı rus hökumətinin mövqeyini soruşan P.S.Potyomkin hələlik rus hökumətinin mövqeyini öyrənənədək II İrakliyə məktub göndərib Təbriz, İrəvan və Xoy xanlarını Fətəli xanla birləşməyə yol verməməyə çağırmışdı [184.12.1, v. 48].

II İraklinin Rusiya himayəsində olmasını nəzərə alan qubalı Fətəli xan rus hökumətindən II İrakliyə Gəncədəki nümayəndəsini geri çağırması üçün təsir etməsini xahiş edirdi. Bu məqsədlə də 1783-cü ildə elçisi Hacı bəylə Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. Potyomkinin yanına göndərmişdi [184.12.2, v.32-33]. Qızlar tərəfindən Dərbəndə göndərilmiş rus məmurları Karakozov və Batırevlə söhbətində Fətəli xan bəyan etmişdi ki, o, Gəncə və Ərdəbil şəhərlərini zəbt etdikləri üçün II İrakliyə və İbrahimxəlil xana qarşı ordu toplayır. Məmurlar bu hərəkətin II Yekaterina hökumətinin narazılığına səbəb olacağını qeyd etdikdə Fətəli xan etiraz edərək bildirmişdi ki, rus hökuməti gürcü çarını Azərbaycan xanlarının işlərinə qarışmaqdan çəkinməyə məcbur etməlidir [184.9, v.78].

Fətəli xan gen. Potyomkinə yazırdı ki, o, yəni Potyomkin Fətəli xandan II İraklini rahat buraxmağı tələb etmişdir. Buna görə xan yalnız İbrahimxəlil xanı cəzalandırıb, geri döndüyünü, Gürcüstana getmədiyini yazırdı [184.12.1, v.49]. Fətəli xan bunu da yazırdı ki, Nadir şahın oğlu Rzaqulu Mirzə Səbzəvarda şah Təhmasibi ailə üzvləri ilə birlikdə qətlə yetirərkən bir xeyirxah kəndxuda onlardan bir nəfəri – Abbas Mirzəni xilas etmişdir. Abbas Mirzə Nadirin və Kərim xanın hakimiyyəti dövründə müxtəlif yerlərdə gizlənmişdir [184.12.1, v.49]. İndi xanların taxtda Səfəvi nəslindən olan bir şəxsi görmək arzularını bilib Salyana gəlmişdir. Bu günlərdə Ərdəbilə gedəcəyik. Bir çox Azərbaycan xanları da bura gələcək və burada Abbas Mirzəyə sədaqət andı içiləcəkdir [184.12.1, v.49 a.ü.].

Gen. Potyomkin 1783-cü ilin sonlarında məlumat verirdi ki, qubalı Fətəli xan Bakıda saxladığı yalançı şahzadə Abbas Mirzəni taxta çıxartmaq üçün Ərdəbilə yürüşə hazırlaşır. General hökumətdən soruşurdu ki, əgər doğrudan da "Abbas Mirzə" taxta çıxarılarsa hansı tədbirləri görsün, yaxud sadəcə seyrçi kimi qalsın? Xüsusən əgər Əlimurad xan "Abbas Mirzə"yə qarşı qoşun göndərərsə o hansı mövqeni tutsun [185.2, v.138 a.ü.].

Qeyd edək ki, İbrahimxəlil xan da gen. Potyomkinə yazırdı ki, Fətəli xan onun dostu İraklini Azərbaycan xanları arasında ədavət yaratmaqda ittiham edir. Gəncə, Qaradağ xanlarının, Səid xanın tutulmasının səbəbini bununla əlaqələndirirdi. İbrahimxəlil xanın yazdığına görə neçə il idi ki, o və İrakli Səid xanın oğlanlarından inciklik görürdülər. Nəhayət Gəncədə (əslində mənbədə Gəncə yazılsa da söhbət Gilandan gedir (T.M.)) xalq üsyan etmiş, İraklidən və Fətəli xandan yardım istəmişlər. İbrahimxəlil xan və İrakli gəncəliləri Nəsirəli xanın zülmündən azad etmişlər. Onu həbs etmişlər. Nəsirəli xan beş il həbsdə qalmış, Kərim xan öldükdən sonra azad edilmişdir. İbrahimxəlil xan bunu da yazırdı ki, təbəələri heyvanları yaylağa apararkən qəflətən Fətəli xanın basqınına məruz qalmışdır [184.12.1, v.55 a.ü.-56].

İbrahimxəlil xan bunu da yazırdı ki, Fətəli xan şah Sultan Hüseynin nəslindən olan bir qondarma şahzadəni Şirvana gətirmişdir. İbrahimxəlil xan Fətəli xanın qondarma "Abbas Mirzəyə" yazdığı məktubu ələ keçirərək gen. Potyomkinə göndərmişdi [175.1.2, v.99]. Məktubda qondarma şahzadə "Mir Sultan Abbasi" Fətəli xana Məşhəddən Yəzdə gəldiyini, Əli Murad xan bu şəhərə hücum edərkən orada olduğunu, sonra Salyana getdiyini yazırdı [184.12.1, v.61].

1783-cü il Georgiyevsk traktatı ilə qüdrətli Rusiyanın himayəsinə sığınan gürcü çarı II İrakli rusların yardımı ilə Azərbaycan torpaqları hesabına öz mülklərini genişləndirməyə çalışırdı. Məlumdur ki, bir neçə il əvvəl II İrakli və İbrahimxəlil xan Gəncə xanlığının idarəçiliyini öz aralarında bölüşdürmüşdülər. 1783-cü ilin sonunda gəncəlilər ayağa qalxıb II İrakli və İbrahimxəlil xanın naiblərini qovmuşdular. II İrakli yenidən Gəncəyə öz təsirini bərpa etmək niyyətində idi. O, İbrahimxəlil xanın yanında əsirlikdə saxlanan Məhəmməd xanı azad edib, yenidən Gəncəyə hakim qoymaqla onu İbrahimxəlil xana qarşı qaldırmaq, həm də özündən asılı etmək istəyirdi [42, s.65; 173.1.5, v.379; 34, s.101].

II İrakli öz tituluna Şəmsəddin, Qax, Şəki, Şirvan, Gəncə, İrəvan və başqa yerlərin hakimi və valisi rütbələrini də əlavə etmişdi [184.12.1, v.171 a.ü.]. Qeyd edək ki, bu zaman rus

hökuməti də Azərbaycan xanlıqlarını ləğv edib onların ərazisinin bir hissəsini bilavasitə işğal etmək, digər hissəsini Kartli-Kaxeti çarlığına qatmaq, üçüncü hissəsində isə oyuncaq "Ermənistan" dövləti yaratmaq planı tərtib etmişdi. Dərbənd və Quba bilavasitə Rusiyanın əlinə keçəcək yerlərin sırasına daxil idi.

Fətəli xan isə Şimal-Qərbi Azərbaycan torpaqlarını – Qarabağ və Gəncə xanlıqlarını, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarını da öz dövlətinə birləşdirmək istəyirdi. Bunun üçün də nəinki Qarabağ xanlığının, eləcə də onun müttəfiqi II İraklinin müqavimətini qırmaq istəyirdi. Fətəli xan 25 minə qədər döyüşçü toplamışdı [184.8, v.34]. Hazırlanmış plana görə əvvəlcə eyni zamanda həm Qarabağ, həm də Gəncə xanlıqlarına zərbə endirilməli idi. Ancaq Qafqazdakı rus qoşunlarının komandanlığı Fətəli xandan öz niyyətindən əl çəkməyi qəti surətdə tələb etdi və xan geri çəkilməli oldu (ətraflı məlumat üçün bax: 59, s.108-112).

Rusiyanın ona qarşı gizli planlarından az-çox xəbərdar olan qarabağlı İbrahimxəlil xan narahat olmaya bilməzdi. Mənbələrin məlumatına görə 1783-cü ilin payızında xan Şuşanı möhkəmləndirdi [97.2, s.184]. Rus hakim dairələri İbrahimxəlil xanı hərbi hazırlıq tədbirlərindən çəkindirməyə çalışır, hələlik onunla diplomatik münasibətləri normal səviyyədə saxlamaq istəyirdilər. P.S.Potyomkin Qarabağ xanından onun yanına rəsmi nümayəndəsini göndərməyi tələb etdi və 1784-cü il fevralın 4-də İbrahimxəlil xanın elçisi Mirzə Vəli Rusiyaya yola salınmaq üçün Tiflisə getdi. Buradan Mirzə Vəli S.Burnaşevlə birlikdə Mozdoka P.S.Potyomkinin yanına getdi. Xan elçisi ilə göndərdiyi məktubunda Rusiya himayəsinə keçmək arzusunda olduğunu bidirir, eyni zamanda Reyneqsin hərəkətlərindən gileylənirdi. İbrahimxəlil xan həm də soruşurdu ki, o, Rusiya təbəəliyini qəbul edəcəyi təqdirdə xanlığın daxili işlərinə heç kimin qarışmayacağına, düşmənlərinə qarşı mübarizədə ona yardım göstəriləcəyinə təminat veriləcəkmi? [176.1.5, v.268-273; 134, s.98]. Çox keçməmiş, İbrahimxəlil xan nümayəndəsi Hacı İsmayılı Tiflisə göndərərək II İraklidən öyrənmək istəmişdi ki, Rusiya təbəəliyini qəbul edəcəyi halda mülklərinin hər hansı bir hissəsinin qoparılıb alınacağı haqqında o zəmanət verirmi?

İrakli bu məsələ ilə bağlı S.Burnanşevin mövqeyini öyrənmək istəmiş, sonuncu isə bildirmişdi ki, imperatriçənin himayəsini arzulayan belə kiçik hakim müstəsna tələblər irəli sürə bilməz, yalnız imperatriçənin səxavətinə ümid edə bilər [176.1.5, v.67-68; 134, s.101]

Rusiyaya elçiliyinin uğursuzluğunu görən İbrahimxəlil xan Rusiya əleyhinə ittifaq bağlamaq üçün digər xanlarla razılığa gəlmək və hətta öz köhnə rəqibi qubalı Fətəli xanla barışmaq niyyətinə düşmüşdü [176.1.5, v. 379, 173.1.6, v.74; 134, s.100].

II Irakli İbrahimxəlil xanla Fətəli xanın barışmasını istəmirdi. O, eyni zamanda bir sıra Azərbaycan xanlıqlarının Türkiyə ilə yaxınlaşmasından da narahat olur və bu haqda təşvişlə rus hakimiyyət orqandarına məlumatlar çatdırırdı [176.1.5, v.68; 134, s.102].

Knyaz Q.Potyomkin 1784-cü ildə II Yekaterinaya yazırdı ki, onun göstərişinə uyğun olaraq Qarabağ və Qaradağa adamlar göndərmişdir ki, orada yaşayan xristianlara Rusiya himayəsinə girməyi təlqin etsinlər. Bu xristianların Rusiyaya rəğbəti gündən-günə artır. Qarabağlı İbrahimxəlil xan xristianların onun hakimiyyətindən çıxacaqlarından ehtiyat edərək, bunun qarşısını almaq üçün özü Rusiya himayəsinə daxil olmağa çalışır. Ancaq imperatriçənin rəyinə görə Qarabağda müsəlman yox, xristian hakim olmalıdır, buna görə də Potyomkin xana müsbət cavab verməyib. Bu barədə hökmdara xəbər verəcəyi haqqında qeyri-müəyyən cavab göndərmişdir [79.1, v.1 və a.ü.].

Gen.Potyomkin kn.Potyomkinə 1784-cü ilin yanvarında yazdığı məktubda soruşurdu ki, Qarabağ və Qaradağ müstəqil olduqları zaman nə cür hakimiyyət təşkil olunmalıdır, general öz bildiyi kimi hərəkət edəcəkmi, yaxud bu barədə yuxarıdan məxsusi göstəriş veriləcəkmi? P.Potyomkin soruşurdu ki, İrəvan şəhəri və vilayəti "Ermənistan" dövlətini təşkil etməlimi? Yaxud gürcü çarının idarəsinə verilməlidirmi? [176.1.6, v.417-418; 73, s.183, s.286].

O yazırdı ki, Azərbaycan və Dağıstan hakimləri Misir Abbasini (Abbas Mirzə – T.M.) şah taxtına çıxarmaq istəyirlər. Aldığı məlumata görə Fətəli xan və bir çox hakimlər şahların taxta çıxdığı Ərdəbilə yollanırlar. P.Potyomkin soruşurdu ki, onun ne-

cə hərəkət etməsi, xüsusən də əgər Əlimurad xan Abbas Mirzəyə qarşı qoşun göndərərsə, necə hərəkət etməsi barədə göstəriş verilsin [185.2, v. 138 və a.ü.].

Bunu da qeyd etmək lazımdır ki, Fətəli xan Ərdəbil xanlığını və digər cənub xanlıqlarını tabe etməklə kifayətlənmək niyyətində deyildi. Onun daha uzaqgörən planları var idi. O, Rusiya ilə ittifaqda öz əlaltısı yalançı şahzadə Abbas Mirzəni şah taxtına oturtmaq istəyirdi. Quba hakimi hər vasitə ilə öz namizədinin şah II Təhmasibin oğlu olduğunu sübut etmək istəyirdi. Görünür ki, Fətəli xanla əlbir olan İsfahan, Qəzvin və Nəcəfin ali ruhaniləri Abbas Mirzəni tanıdıqlarını və ona tabe olacaqlarını təsdiq edən sənədə imza atıb, möhürlərini basmışdılar [bax: 59, s.120].

Yəqin ki, Fətəli xan anlayırdı ki, ya Ağa Məhəmməd xan Qacar, ya da Əlimurad xan şah taxtına yiyələnsələr, ona Cənubi Azərbaycan torpaqlarına birləşdirməyi imkan verməyəcəklər. “Abbas Mirzə”ni taxta oturtmaqla o, ölkənin cənubunu ələ keçirmək vəzifəsini asanlaşdırmış olurdu. Digər yandan Fətəli xan güman edirdi ki, Osmanlı dövləti, eləcə də İngiltərə və Fransa Ağa Məhəmməd xan Qacarın, ya da Əlimurad xanın tərəfindən çıxış edə bilərlər. Buna görə də o, özünü Rusiyanın regiondakı maraqlarının müdafiəçisi kimi göstərməklə sonuncunun dəstəyinə nail olmaq istəyirdi.

Rus hökümətini Abbas Mirzənin taxta çıxarılmasının vacibliyinə inandırmaq üçün Fətəli xan öz elçisi Mirzə Sadıq Məmmədvəliyevi Rusiyaya göndərmişdi.

Rus hakimiyyət dairələri Abbas Mirzənin taxt-taca iddiasının əsaslılığına şübhə ilə yanaşsalar da uzun müddət bunu büruzə vermir, Fətəli xanın planına münasibətlərini açıqlamırdılar.

Cənubda isə hadisələr sürətlə inkişaf edirdi. Rəqiblərini qabaqlayıb onlara öz qüvvələrini cəmləməyə imkan verməmək üçün Fətəli xan rus höküməti ilə danışıqların nəticələrini gözləməyərək cənuba yürüş təşkil etdi. 1784-cü ilin may ayında o, vassallarının və müttəfiqlərinin qoşunları ilə birlikdə hərəkət edib Ərdəbili, sonra da Meşkini aldı. Qoşunların ön dəstələri cənuba hərəkəti davam etdirdilər [184.5, v.31; 90.1, s.140-141; 59, s.123]. Butkov və Bakıxanov Fətəli xanın Ərdəbil və Meşkin

şəhərlərini 1784-cü ilin avqust ayında tutduğunu yazırdılar [97.2, s.141; 88, s.168].

Fətəli xanın cənuba yürüşü nəinki şahlığa iddiaçıları, eləcə də Cənubi Qafqazın və Dağıstanın bir sıra feodal hakimlərini narahat etdi.Qaraqaytaq usmisi, Avar xanı və Cənubi Dağıstanın bəzi hakimləri Dərbənd və Qubaya zərbə endirməyə hazırlaşmağa başladılar. Qarabağlı İbrahimxəlil xan və Ərdəbildən qovulmuş Nəzərəli xan da öz qoşunlarını toplayıb Ərdəbil istiqamətində hücuma keçdilər. Xoylu Əhməd xan da onlara yardıma 3 min nəfərlik dəstə göndərmişdi [59, s.123-124].

II İrakli də yürüşə açıq düşmən münasibətini göstərib rus hökümətini inandırmağa çalışdı ki, guya Fətəli xan axısxalı Süleyman paşa ilə əlaqədə hərəkət edir. Nəhayət ki, Rusiyanın bu yürüşə mənfi münasibət bəslədiyi anlaşıldı [59, s.124].

II İrakli 1785-ci ilin əvvəllərində knyaz Qarsevana məktubunda səfəvilərin bütün kişi nəsli məhv edildiyindən Fətəli xanın yanındakı şəxsin həqiqi yox, yalançı şahzadə olduğunu yazırdı [175.3, v.8 a.ü.].

II İraklinin sözlərinə görə, Fətəli xan nümayəndəsi Mirzə Mikayılı onun yanına göndərib bildiribmiş ki, təhlükəsizliyi təmin olunmaq şərtilə onunla görüşməyə hazırdır. II İrakli görüşü Qarabudaqda keçirməyi təklif edibmiş, girov verməkdən isə imtina edibmiş. İraklinin yazdığına görə o, eyham vurub ki, əgər Fətəli xan İbrahimxəlil xana qarşı getmək niyyətindədirsə İrakli qılıncını ona qarşı çevirəçəkdir [175.3, v.4 a.ü.]. İrakli iddia edirdi ki, Fətəli xan ondan Qarabağı tutmaqda yardım üçün 500 döyüşçü istəyibmiş. Guya Fətəli xan Qarabağ xanlığının ərazisinin yarısını İrakliyə təklif edirdi. Fətəli xan İbrahimxəlil xanın qardaşı Mehrəli bəyi Qarabağda hakimiyyətə gətirmək istəyirdi. II İrakli buna razı olsa Fətəli xan onun Gəncədə təkbaşına hakim olmasına etiraz etməz. Çar Fətəli xanın nümayəndəsinə bildirmişdi ki, gen. Potyomkinlə məsləhətləşmədən heç nə deyə bilməz [175.3, v. 6 a.ü.].

Ola bilər ki, II İrakli Fətəli xanın güzəşt təkliflərini şişirdirdi. Yaxud da, ola bilər ki, Fətəli xan vaxtilə şəkili Hüseyn xanla Şamaxı xanlığını bölüşdürüb, sonra isə Şəkiyə çatan hissəni özünə

götürdüyü kimi indi də bu təklifi etməklə gürcü çarını İbrahimxəlil xanı müdafiə etməkdən çəkindirmək və Qarabağ xanını məğlub etmək, sonra da hərbi qüvvəsi İraklinin qüvvəsindən üstün olduğu üçün əvvəl Qarabağın çara vəd etdiyi hissəsini, eləcə də Gəncəni öz hakimiyyətinə tabe etmək istəyirdi. Hər bir halda Fətəli xanın II İraklini Azərbaycanın daxili işlərinə cəlb etməsi yaxşı hal deyildi.

İrakli kn.Qarsevana yazırdı ki, Fətəli xan gəncəliləri çıxışa təhrik etmişdir. Buna görə də İrakli Gəncəyə qoşun göndərmək haqqında əmr vermişdir. Müəyyən olunmuş vaxtda rus qoşunları da Qazaxa daxil olmalı idi. İrakli şamaxılı Məhəmmədsəid xanla da gizli əlaqə saxlayırdı [175.3, v.31 a.ü.-32].

Arxiv sənədlərindən məlum olur ki, Fətəli xan 1784-cü ilin sonunda II İrakliyə ittifaq bağlamaq təklifi edibmiş, İrakli bildirmişdi ki, əgər Fətəli xan qarabağlı İbrahimxəlil xanla düşmənçilikdən əl çəkərsə bu ittifaqa gedə bilər.Bir qədər bundan əvvəl İbrahimxəlil xan İraklinin yanına adam göndərərək bildirmişdi ki, Fətəli xan onun mülklərindən bir hissəsini ələ keçirmək istəyir. II İrakli ittifaq haqqında danışıqlar aparmaq üçün nümayəndəsi Mirzə Qurgen Mixaylonu Quba xanının yanına göndərmişdi. Mirzə Qurgen 36 gün Fətəli xanın sarayında qalıbmış [175.4, v.37 və a.ü].

Mirzə Qurgenin yazdığına görə Fətəli xan II İrakli ilə ittifaq məsələsindən danışarkən Qurgen bildiribmiş ki, bu məsələ Qafqaz xəttindəki rus qoşunlarının komandanlığı ilə razılaşdırılmalıdır. Xan qəzəblə deyibmiş ki, bilmir ki, onlar ruslardan nə gözləyirlər, onlardan heç bir xeyir yoxdur [179.4, v.38 və a.ü.]

1785-ci ilin iyul ayında gen. P.Potyomkin qarabağlı İbrahimxəlil xanın elçisi Musa sultanı və xanın Rusiya təbəəliyinə qəbul olunmaq barədə xahişnaməsini Qafqaz xəttindən Peterburqa göndərdi. Kn. Potyomkin bu məsələ ilə əlaqədar II Yekaterinaya yazırdı ki, İmperator ali həzrətlərinin silahı qarşısında vahimə və zülm altında inləyən ermənilərin Rusiya hakimiyyəti altında olmaq arzusu İbrahimxəlil xanı bu cür addım atmağa vadar etmişdir [185.2, v.77]

Bundan bir həftə sonra göndərdiyi raportunda gen. Potyomkin yazırdı ki, Fətəli xan onun imperatriçənin himayəsinə qəbul

olunması barədə ərizə ilə məmuru Mirzə Sadığı göndərmişdir. O, həmçinin knyaz Potyomkinin adına məktub göndərmişdi [184.17.1, v.290].

II İraklı hər vəchlə Fətəli xanla İbrahimxəlil xanın arasını vurmaq, Fətəli xandan Qarabağ xanına qarşı mübarizədə istifadə etmək istəyirdi. Çar 1786-cı il noyabrın 2-də P.S.Potyomkinə yazırdı ki, bu iki xanı bir-birindən ayırmaq çox sərfəlidir, o, öz nümayəndəsini göndərmişdir ki, Fətəli xanı İbrahimxəlil xandan ayırsın. II İrakli gen. Potyomkindən xahiş edirdi ki,o da öz növbəsində Fətəli xana təsir etsin ki, gürcü çarı ilə yaxınlaşsın [184.16.2, v.253-254; 73, s.230, s.345].

Knyaz Q.Potyomkin 10 dekabr 1786-cı il tarixdə Kremençuqdan II Yekaterinaya yazırdı ki, gen. Potyomkin ona yazmışdır ki, Azərbaycan xanları və xüsusən Dağıstan hakimləri Fətəli xanın əlaltısı olan "Abbas Mirzə"nin şah seçilməsinə mane olacaqlar. Bu dövrdə "Abbas Mirzə" Bakıda Fətəli xanın nəzarəti altında idi [185.2, v.138].

Dərbənddən verilən məlumatda göstərilirdi ki, Fətəli xan öz namizədini şah elan etmək üçün Ərdəbilə yollanmaq istəyir. Gen. Potyomkin kn. Potyomkindən soruşurdu ki, əgər doğrudan da "Abbas Mirzə" şah elan olunsa o, bu məsələyə necə münasibət göstərsin [185.2, v.138 a.ü.-139].

Gen. P.S.Potyomkin knyaz Q.A.Potyomkinə 25 noyabr 1786-cı il tarixli raportunda yazırdı ki, alınan xəbərlərə görə Fətəli xanla Avar xanı arasında müharibə başlayır. Bu xəbərdən aydın olur ki qarabağlı İbrahimxəlil xan da qohumu Avar xanının tərəfindən çıxış edəcəkdir. Fətəli xanın ələ keçirdiyi məktubdan deyilirdi ki, İbrahimxəlil xan Avar xanına kömək edəcəyini vəd etmişdir [184.16. 2, v.234].

General belə hesab edirdi ki, hələlik həm Fətəli xana, həm də İbrahimxəlil xana nəvaziş göstərmək lazımdır ki, onları ələ almaq rahat olsun. P.Potyomkin soruşurdu: Əgər onların hər ikisini, yaxud birini ələ keçirmək mümkün olsa, onları hara göndərməli? Onların həbsini xalqın onlardan guya narazı olduqları ilə izah etmək olarmı?

Rusiyanın himayəsinə arxalanaraq Qarabağ xanlığı ərazisində özləri üçün "xristian dövləti" yaratmaq istəyən Qarabağ məlikləri bu dövrdə daha da fəallaşdılar. Dizaqlı Yesay, Çiləbördlü Məclum və Gülüstan məliyi Bəylər İbrahimxəlil xana tabe olmaqdan imtina etdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan xanlarının da Rusiyaya münasibəti birmənalı deyildi. S.D.Burnaşev 1786-cı ildə yazırdı ki, qubalı Fətəli xan öz vəziyyətinə, Rusiyaya yaxın olduğuna görə Rusiyanın onun mülklərini tutacağından ehtiyat edir və buna görə bir tərəfdən Türkiyəyə meyl edir, digər tərəfdən Rusiyaya sadiq olduğunu bildirir [96, s.7]. Burnaşev daha sonra yazırdı ki, nəinki İranda, eləcə də Türkiyə torpaqlarında belə bir inam hökm sürür ki, Dərbənd xristianlar tərəfindən tutulsa müsəlmanların hakimiyyəti və etiqadına son qoyulacaq [96, s.7].

Rusiyanın və Kartli-Kaxetiya çarlığının vəziyyətini yüngülləşdirən bir amil də bəzi sərhədyanı paşaların, ilk növbədə Axısxa paşasının tutduğu xəyanətkar mövqeyi idi. Burnaşev yazırdı ki, Azərbaycan xanları və Dağıstan hakimləri Kartli-Kaxetiya çarlığına qarşı birləşsələr belə ona heç nə edə bilməzlər, çünki Axısxa paşası buna yol verməz. Burnaşevin yazdığına görə, Axısxa paşası çoxdan müstəqilləşməyə can atır və II İrakli ilə gizli razılığa gəlmişdi ki, sonuncu, rus sarayından ona kömək göstərmək barədə xahiş etsin [94, s.31].

Fətəli xan əvvəlkitək Azərbaycanı birləşdirmək işində Rusiyanın dəstəyini qazanmaq, yaxud heç olmasa onu bitərəfləşdirmək istəyirdi. 1787-ci ilin iyununda göndərdiyi raportunda gen. Potyomkin yazırdı ki, Fətəli xan öz məmuru Mirzə Sadığı imperatriçənin himayəsinə qəbul olunması barədə ərizə ilə yola salmışdır. O, həmçinin knyaz Potyomkinin adına məktub göndərmişdi. Fətəli xan II Yekaterinaya məktubunda yazırdı ki, özü təbəələri ilə birlikdə himayəyə qəbul olunmasını xahiş edir, necə ki, gürcü çarı İrakli öz təbəələri ilə birlikdə qəbul olunub [184.17.1,v.290-291]. Knyaz Potyomkin kansler qraf Bezborodkaya yazırdı ki, Fətəli xan kral adı almaq istəyir [184.17.1, v.69].

II İrakli 1787-ci ilin yazında Qarabağlı İbrahimxəlil xanın Naxçıvanı tutması barədə xəbər alıb dərhal knyaz İ.Baqrationu

hərbi dəstə ilə göndərmişdi ki, İbrahimxəlil xanın Naxçıvanda möhkəmlənməsinə yol verməsin (184.17.1, v.323). Qeyd edək ki, İraklinin təcavüzkar siyasəti digər Azərbaycan xanlarının da haqlı narazılığına səbəb olurdu. Məhz bu narazılığın təzahürü idi ki, bir müddət əvvəl gürcü çarı ilə dostluq haqqında saziş bağlamış Şəki xanı indi çardan onun Tiflisə göndərdiyi zaminlərin geri buraxılmasını tələb etmişdi. İrakli Şəki xanının adamlarının yalnız yarısını buraxaraq bildirmişdi ki, digər yarısını yalnız Şəkidəki gürcü zaminləri Gürcüstana buraxıldıqdan sonra yola salacaqdır [184.17.1, v.323 a.ü.].

Naxçıvana göndərilmiş İ.Baqration may ayının 20-də yazırdı ki, Naxçıvan qalası yanında Kəlbəli bəyin qüvvələrini məğlub edib onları qalaya çəkilməyə məcbur etmişdir. Gürcülərin qoşununda kürdlər də vuruşurdu. Baqrationin kəşfiyyatı İlandağda İbrahimxəlil xanın 200 nəfərlik avanqard dəstəsi ilə rastlaşıb toqquşmuşdu [184.17.1, v.38]. Baqration Naxçıvanı tuta bilməyib ətraf kəndləri qarət edib, əsirlər götürərək geri qayıtmışdı [184.17.1, v.331].

S.Burnaşov gen. Potyomkinə 16 iyun 1787-ci il tarixli raportunda yazırdı ki, "şübhə yoxdur ki, Azərbaycan xanları Süleyman paşanın başçılığı ilə İrəvanı gürcü çarından ayırmağa çalışacaqlar" [184.17.1, v.331 a.ü.]. Osmanlı sultanı xanlara göndərdiyi fərmanda bildirirdi ki, "İrəvan Azərbaycan şəhəri olduğu üçün onun gürcü çarının hakimiyyəti altına düşməsini qəbul edə bilməz. Sultan Ərzurum paşasına və digər paşalara sərəncam göndərmişdi ki, gürcü çarı İrəvan xanlığına daxil olmaq istəsə, bunun qarşısını alsınlar [184.17.1, v.354].

Osmanlı sultanı Xoy xanına göndərdiyi fərmanda bildirirdi ki, İran şahsız olduğu üçün Tiflis valisi rusları Azərbaycanı və bizim torpaqları viran etmək üçün dəvət etmişdir; ancaq unutmuşdur ki, bizim, hökmdarı olmayan dövləti müdafiə etməyə haqqımız var və heç vaxt İranın qarət olunmasına icazə verə bilmərik. Fərmanda deyilirdi ki, sultan Bağdad, Van və Muş paşalarına əmr etmişdir ki, Azərbaycan xanlarına nə qədər lazım gəlsə qoşun versinlər. Əgər gürcü çarı sərhədləri keçməyə cəsarət edərdisə Ərzurum paşasına xanlara kömək etmək əmr olun-

muşdu. Xoy xanına 1500 əşrəfi, qılınc və xəz kürk göndərilmişdi [184.17.1, v.456].

S.Burnaşev P.Potyomkinə yazırdı ki, rus hökumətinin Ağa Məhəmməd xanın İrana dönən elçisini müşaiyət etmək üçün göndərdiyi kn. Zaxari Sisianov iyunun 14-də geri qayıdaraq bildirmişdir ki, Xoy xanı onu öz xanlığının ərazisindən keçməyə qoymamış, kobud davranmışdır. S.Burnaşevin yazdığına görə Osmanlı təlqinləri qonşu xanlarda gürcü çarına qarşı güclü nifrət və qəzəb oyatmışdır, indi qonşulardan heç biri çara dost münasibət bəsləmirlər, əvvəllər də belə münasibət bəsləməsələr də, heç olmasa zahirən özlərini belə göstərirdilər. Əvvəlcə Gürcüstanla xanlıqlar arasında ticarət və siyasi əlaqələr fasiləsiz idi, indi isə onlar tamamilə kəsilmişdir və bu Gürcüstana böyük zərər yetirir [184.17.1, v.331].

S.Burnaşev P.Potyomkinə 8 iyul 1787-ci il tarixli məlumatında yazırdı ki, aldığı xəbərlərə görə İbrahimxəlil xan Qanzasar patriarxını və bütün məlikləri həbs etmişdir; sonuncular ingəncələrə dözməyərək günahlarını boyunlarına almış və P.Potyomkindən aldıqları bütün məktubları və hədiyyələri xana vermişlər. Patriarx vahimədən ölmüşdür. İbrahimxəlil xan 15 min rubl alaraq məlikləri azad etmişdir. Məliklər gizli surətdə II İraklinin yanına adam göndərərək onlara yardıma qoşun göndərilməsini xahiş etmişdir [184.17.1, v.353; 73, s.235, s.353].

İrakli İbrahimxəlil xanla mübarizədə Qarabağ məliklərinə arxalanırdı. S.Burnaşev 1787-ci ilin sentyabrında P.S.Potyomkinə yazırdı ki, uzun illərlə İbrahimxəlil xana ədavət bəsləyən məliklər – Abo və Məlik Məcnun açıq qiyam qaldırmışlar. Onlar öz qəsrlərində gizlənərək İraklidən Gürcüstana köçməyə icazə istədilər. Gəncə xanlığı ərazisində yaşayan ermənilər də Gürcüstana köçmək niyyətində idilər [184.17.1, v.102 a-ü].

Rus diplomatiyası Cənubi Qafqazda gərginliyi azaltmaq üçün (Kartli-Kaxetini müdafiə etmək imkanı olmadığından – T.M.) İrakliyə Axısxa paşası Süleymanla danışıqlara girməyi tövsiyyə etdi. Türkiyə də Kartli-Kaxetini Rusiyadan ayırmağa ümid edərək İraklinin danışıqlara başlamaq təşəbbüsünə müsbət cavab verdi. Lakin osmanlı hökuməti sülh üçün ilkin şərt kimi rus qoşunlarının

Gürcüstandan çıxarılmasını qoydu. İrakli buna razılaşmadığından onunla Osmanlı hökuməti arasında danışıqlar baş tutmadı.

Süleyman paşa İrakliyə bir-birinə hücum etməmək haqqında separat saziş bağlamağı təklif etdi. Rus diplomatiyası Süleyman paşanı sultana qarşı qiyam qaldırmağa təhrik etmək istəsə də buna nail ola bilmədi. Süleyman paşa ilə II İrakli arasıfnda xatırlanan məzmunda saziş bağlandı [153, s.229-231].

İrakli İbrahimxəlil xanın tərəfdarı olan Cavad xanın Gəncədə hakimiyyətdən kənarlaşdırılmasını tələb etdi. Lakin gəncəlilər bu tələbi rədd etdilər. İrakli Gəncəyə yürüş elan etdi. Kartli-Kaxetidən asılılıqda olan Azərbaycan torpaqlarında – Qazax və Şəmsəddində həyəcanlar başladı: bir çox sakinlər Gəncəyə köçmək fikrinə düşdülər. Onlar rus əsgərlərinin köməyi ilə İrakli tərəfindən "sakitləşdirildilər". Buna baxmayaraq, Qazaxdan 1500 ailə, Şəmsəddindən isə daha çox – 3200 ailə Gəncə xanlığına köçdü [153, s.233].

1787-ci ilin ortalarında gürcü hərbi dəstələri və rus taboru Tiflisdən Gəncəyə doğru yola düşdülər. Avarlı Ümmə xanın xəstə olması və İrakliyə qarşı çıxa bilməməsi yürüş üçün əlverişli şərait yaradırdı. İraklinin müttəfiqi olan qubalı Fətəli xan isə Şəki xanı ilə birlikdə İbrahimxəlil xana qarşı çıxış etdilər. Lakin sonradan rus və gürcü hərbi dəstələri artıq Gəncənin üç verstliyində düşərgə saldıqları zaman Fətəli xanın və Şəki xanının elçiləri gələrək Cavad xanı rahat buraxmağı təklif etdilər. Bu təklif Fətəli xanın Ümmə xanın onun mülklərinə basqın edəcəyi xəbərini eşidib geri qayıtması ilə bağlı idi. Görünür, Fətəli xan İraklinin təkbaşına Gəncənin müqəddəratını həll etməsini istəmirdi [184.17.2, v.101].

II İrakli knyaz Çavçevazevə (Çavçevadze) yazırdı ki, o, şahzadə Yulon və sərkərdə Davidlə 8 min döyüşçünü Gəncəni almağa göndərmişdir. Mühasirəyə alınmış Gəncədə ərzaq qıtlığı yaranmışdır. Unun 1 litri (8 rus funtu) 4 abbasıdan baha satılır, aclıqdan hər gün 10-15 nəfər ölür. Qalanın taqətdən düşmüş əhalisi, onların Kartliyə köçürülməmələri şərtilə təslim olmağa hazırdırlar. II İrakli Hacı bəy və Məmməd İman bəyi danışıqlar aparmaq üçün Gəncəyə göndərmişdi [175.1, v.242 və a.ü.].

Gəncəli Cavad xanla danışıqlar gözlənilmədən qurtardı. 1787-ci il sentyabrın 13-də P.S.Potyomkinin rus qoşunlarını dərhal Gürcüstandan çıxarmaq barədə əmri gəldi. İrakli P.S.Potyomkinin yanına çapar göndərərək rus taborlarının heç olmazsa yaza kimi Gürcüstanda qalmasını xahiş etsə də bu bir nəticə vermədi. Potyomkin komandanlığı general Təkəlliyə verdiyini və Peterburqa döndüyünü, buna görə də heç bir yeni sərəncam vermək hüququnda olmadığını bildirdi [184.17.2, v.100-103].

Rus hökuməti fikirləşirdi ki, azsaylı rus qüvvələri onsuz da lazım gələrsə, Kartli-Kaxetini Osmanlı qoşunlarından müdafiə edə bilməyəcək, əksinə, Türkiyənin bura qoşun göndərməsi üçün dəstavüz verəcəkdir [153, s.234].

Sonralar məlik Cəmşid və Fridon İ.Qudoviçə yazırdılar ki, İbrahimxəlil xan məliklərin rus komandanlığı ilə gizli əlaqələrindən və rus qoşunlarının gözlənilən yürüşünə hazırlaşdıqlarından xəbər tutub katolikos İvanı öldürdü, məlik Bahtamı həbsxanada öldürtdü, məlik Məclum və Abovu isə həbs etdi. Ancaq sonuncular fürsət tapıb qaçdılar və bu zaman Gəncə yaxınlığında dayanmış II İraklinin və rus hərbi dəstəsinin düşərgəsinə getdilər. Məliklər rus hərbi dəstəsinin komandanı polkovnik Burnaşevdən təkidlə xahiş etdilər ki, Şuşaya doğru hərəkət etsin, yaxud heç olmazsa üç gün gözləsin ki, məliklər Qarabağın xristian sakinlərini toplayıb rus qoşunları ilə birlikdə Rusiyaya aparsınlar. Lakin Burnaşev gen. Qudoviçdən dərhal Rusiyaya qayıtmaq haqqında əmr aldığından onların bu xahişini yerinə yetirmədi. Məliklər rus qoşunları ilə birlikdə Qafqaz xəttinə getdilər [82, v.7 a.ü.-8].

Gah osmanlıların, gah da iranlıların Gürcüstana hücum edəcəkləri haqqında yayılan şayiələri bəhanə edən II İrakli Georgiyevsk müqaviləsinə əsasən 22 noyabr 1787-ci il tarixdə rus Qafqaz xəttindəki qoşunlarının komandanı A.A.Təkəllidən yardım istəmişdi [47, 26]. İrakli rus qoşunlarının yardımı ilə nəinki özünü müdafiə etmək, həm də Azərbaycan xanlıqları barəsində çoxdan bəslədiyi işğalçılıq niyyətlərini həyata keçirmək istəyirdi.

Gəncə xanlığı ilə Kartli-Kaxetii çarlığı arasında kompromis saziş bağlandı. Qazaxlılar və şəmşəddinlilər öz yurdlarına

qayıtdılar. Ermənilər də Qarabağda qaldılar və yenidən İbrahimxəlil xana itaətlərini bildirdilər [154, s.234].

Rus taborlarının Gürcüstandan çıxarılması, Vladiqafqaz qalasının da dağıdılması, gürcü səfiri Çavçavadzenin Rusiyadan geri çağırılması və knyaz Potyomkinin başçılığı ilə rus qoşunlarının İstanbula tərəf hərəkət etməsi haqqında qəsdən buraxılan şaiyələr öz nəticəsini verdi. Osmanlılar Cənubi Qafqazda cəbhə açmayaraq əsas diqqətlərini Avropadakı ərazilərə yönəltdilər.

Rusiyanın müqaviməti üzündən II İrakliyə qarşı yürüşə başlaya bilməyən Fətəli xan da manevr etdi. O, II İrakliyə Cənubi Azərbaycana və İrana birgə yürüş etməyi təklif etdi. II İrakli də Fətəli xanla ittifaqa girmək, onunla birlikdə Cənubi Azərbaycanda və hətta İranda öz təsirini yaymağa çalışırdı. Nadir şahın nəvəsi, şah taxtına iddiaçılardan biri olan Nəzərəli xana Tiflisdə sığınacaq verilmişdi [153, s.267].

Yeni yaranmış şəraitdə Fətəli xanın cənuba yürüşü Rusiya üçün sərfəli olardı, çünki Fətəli xanla Ağa Məhəmməd xan toqquşar, beləliklə də hər ikisi zəifləyər, Rusiyanın regionda möhkəmlənməsinə mane ola biləcək ciddi qüvvə qalmazdı. Osmanlı dövləti ilə yeni müharibənin yaxınlaşması da Rusiyanı Fətəli xanla yanaşmağa məcbur edirdi. P.S.Potyomkin 1786-cı ilin sonlarında Fətəli xana məktub yazaraq onu Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsi ilə əlaqədar II İrakli ilə barışmağa çağırırdı [184.14.2, v. 255 və a.ü.].

Beləliklə də Fətəli xan qarşıdakı yürüşlə bağlı Rusiya və Kartli-Kaxetiyanı bitərəfləşdirməyə nail oldu. Məlumdur ki, 1789-cu ilin yanvarında Fətəli xanın təşəbbüsü ilə onun II İrakli ilə Şəmkir çayının sol sahilində görüşü olmuşdu. Görüşdə Gürcüstanın zəbt etdiyi Şəmşəddin sultanlığının Gəncə xanına qaytarılması barədə razılıq əldə edildi [21, s.68-69]. Tərəflər qərara aldılar: “Gürcüstan çarı Cənubi Qafqazda “asayişi qorusun” (yəni, bu region onun nəzarətinə verilir) Fətəli xan isə gələn il Cənubi Azərbaycana hərəkət etsin” [21, s.69].

Lakin, Fətəli xan görüş zamanı qəfil xəstələndi. Şamaxıya qayıdan zaman xəstəliyi şiddətləndi. Fətəli xan tələsik Bakıya bacısı Xədicə Bikənin yanına getdi. O, burada 1789-cu ildə martın 22-də vəfat etdi [88, s.269].

# IV FƏSİL

# XVIII ƏSRİN 90-CI İLLƏRİNDƏ RUSİYANIN AZƏRBAYCANI İŞĞAL ETMƏK CƏHDİ

## §1. Cənubi Qafqazda Rusiya-Qacar qarşıdurması

1783-cü ildə Krım xanlığını ilhaq edərək ləğv etdikdən və Kartli-Kaxetiya çarlığını himayəyə aldıqdan sonra Rusiya cənub istiqamətində, o cümlədən Qafqazda daha fəal işğalçı siyasət yürütməyə başladı. Osmanlı-Rusiya münasibətləri yenidən kəskinləşdi və bu 1787-ci ildə iki imperiya arasında müharibənin başlanması ilə nəticələndi. II Yekaterinanın 1788-ci il fevralın 17-də verdiyi 3 manifestdə riyakarcasına guya Rusiyanın türklər tərəfindən zülm edilən slavyan xalqları və yunanların müdafiəsinə qalxdığı bəyan olunurdu. Manifestdə deyilirdi ki, feldmarşal P.A.Rumyantsevin və knyaz Q.A.Potyomkinin başçılığı ilə iki güclü ordu "xristianlığın əbədi düşməni"-ni məhv etməyə göndərilmişdir, admiral Qreyqin başçılıq etdiyi dəniz qüvvələri də düşmənə zərbə endirmək üçün Aralıq dənizinə göndərilir [175.4, v.3-6, 8 a.ü.-9].

Müharibədə qalib gələn Rusiya 1792-ci il Yassı müqaviləsi ilə Osmanlını Cənubi Qafqazda fəal siyasət yürütməkdən, onun bu regionda təsirinin gücləndirilməsinə mane olmaq imkanından məhrum etdi. Lakin bu zaman bölgədə vəziyyət əsaslı surətdə dəyişdi. İndi Cənubi Qafqazda hökmranlıq uğrunda mübarizəyə yeni bir namizəd qoşuldu. Bu qacarlar tayfasından olan Ağa Məhəmməd xan idi. O, tədricən şah taxtını ələ keçirmək məqsədinə yaxınlaşırdı.

Ağa Məhəmməd xan Qacar adlı Azərbaycan türk tayfasından çıxmışdı və birinci fəsildə haqqında danışılan Məhəmmədhəsən

xanın oğlu idi. 1758-ci ildə Məhəmmədhəsən xan öz soydaşları tərəfindən qətlə yetirildikdən sonra, 1762-ci ildə yeniyetmə Ağa Məhəmməd xan və qardaşı Hüseynqulu xan girov kimi Şiraza Kərim xan Zəndin sarayına göndərildilər. Bir müddət sonra Hüseynqulu xan Kərim xan tərəfindən Damqana hakim təyin edildi. O, 1774-cü ildə türkmənlərlə toqquşmada həlak oldu. Ağa Məhəmməd xan isə 1779-cu ilə Kərim xanın ölümünə qədər Şirazda qalmışdır. 1762-ci ildən 1779-cu ilədək müddətdə Astrabad və Mazandaran qacarlarına Ağa Məhəmməd xanın anadan ögey qardaşları başçılıq etmişdir.

Kərim xanın ölümündən sonra 36 yaşlı Ağa Məhəmməd xan gizli şəkildə 6 nəfərin müşaiyəti ilə Şirazı tərk edərək Mazandarana gəldi və hakimiyyət uğrunda mübarizəyə başladı. Ağa Məhəmməd xan siyasi müdriklik göstərərək atasının qətlində və onun əsir düşməsində günahkar olan soydaşları ilə düşmənçilik aparmayıb, onlarla barışdı [124, s.277-278]. Qacarların çoxusu ona qoşuldular, tezliklə Ağa Məhəmməd xan bütün qacarların başçısı oldu. 80-ci illərin əvvəllərində qardaşı Murtuzaqulu xanı Astrabad və Gilanın hakimi təyin etdi.

Ağa Məhəmməd xan hakimiyyət uğrunda ilk növbədə qacarlara və habelə digər türk tayfalarına arxalanırdı. O, öz məqsədlərinə çatmaq üçün türkçülüyü ön plana çəkirdi. Məsələn, urmiyalı Əli xana məktubunda yazırdı ki, İranda olan türk tayfaları birləşməli və farsları hakimiyyət başına buraxmamalıdırlar.

Ağa Məhəmməd xan Kərim xan Zəndin tacir və sənətkarları himayə siyasətini davam etdirərək şəhər əhalisinin xeyli hissəsinin rəğbətini qazanmağa nail olmuşdu.

Eyni zamanda qeyd etməmək olmaz ki, Ağa Məhəmməd xanın hakimiyyət uğrunda apardığı mübarizə daha çox öz qəddarlığı ilə fərqlənirdi. Ağa Məhəmməd xan ona qarşı çıxan qardaşları ilə də çox amansız davranmışdır. Tarixi məlumatlara görə Ağa Məhəmməd xanın 8 qardaşı olmuşdur. Hüseynqulu, Rzaqulu, Murtuzaqulu, Mustafaqulu, Cəfərqulu, Əliqulu, Mehdiqulu və Abbasqulu, C.Malkolmun yazdığına görə qəddarlığı üzündən "Cahansuz" (dünyanı yandıran) adlandırılan Hüseynqulu xan 1774-cü ildə özünün türkmən qulluqçuları tərəfindən öldürülmü-

şdü. Rzaqulu xan Ağa Məhəmməd xana qarşı uğursuz çıxışdan sonra Xorasana qaçmış və tezliklə orada öldürülmüşdü. Murtuzaqulu xan əvvəllər Ağa Məhəmməd xana xeyli yardım etsə də sonradan aralarında ixtilaf yaranmış, uzun mübarizədən sonra Rusiyaya qaçmış və orada var-dövlətini ələ keçirtmək məqsədi güdən Qafqazdakı rus qoşunlarının komandanı general Qudoviçin əmri ilə öldürülmüşdü. Mustafaqulu xan Ağa Məhəmməd xana qarşı uğursuz çıxışından sonra kor edilmişdi. Cəfərqulu xan da Ağa Məhəmməd xana böyük xidmət göstərmişdi, əhalinin və ordunun sevimlisi idi. Lakin Mazandaranda kiçik bir mahala rəis təyin olunduğundan öz narazılığını bildirmiş və saraya gəlməkdən imtina etmişdi. Ağa Məhəmməd xan hiylə ilə onu Tehrana dəvət etmiş və öldürmüşdü. O, öz varisi təyin etdiyi qardaşı Hüseynqulu xanın oğlu Fətəli xana bildirmişdi ki, bunu onun gələcəkdə sakit hökmranlıq edə bilməsi naminə edir. Cəfərqulu xanın öldürülməsi xəbərini alan digər qardaşı Əliqulu xan Fətəli xan vasitəsilə Ağa Məhəmməd xana bildirmişdi ki, "Mən eşitmişəm ki, Siz öz yaxın adamlarınızdan birinə demisiniz ki, qardaşlarınızı bu dünyadan yox etməyincə öz hakimiyyətimi möhkəm saymayacağam. İndi mən görürəm və bilirəm ki, Siz məndən də yan keçməyəcəksiniz. Odur ki, nə edəcəksinizsə tez edin" [146, s.12]. Ağa Məhəmməd xan cavabında Fətəli xana demişdi: "öz əmin Əliqulu xana bildir ki, eşitdiklərinin hamısı doğrudur. Ancaq mən bu sözləri atamın qızları yox, oğulları haqqında demişəm. Mən onu Məhəmmədhəsən xanın qızı hesab edirəm". Bundan sonra Ağa Məhəmməd xan öz qardaşı oğluna müraciətlə bildirmişdi: nə qədər ki, mən sağam, qardaşım Əliqulu xan Məhəmmədhəsən xanın qızıdır. Hökmranlıq etmək növbəsi sənə çatanda isə Məhəmmədhəsən xanın oğlu olacaqdır; Odur ki, tezliklə onun gözlərini çıxart. Qacar əyanları və başçıları gördükdə ki, sən mənim qardaşımı və Məhəmmədhəsən xanın oğlunu kor etmisən, onda sən güclü və möhtəşəm olacaqsan". Fətəli xan da hakimiyyətə keçən kimi Ağa Məhəmməd xanın vəsiyyətini yerinə yetirmiş və Əliqulu xanı kor etdirmişdi [146, s.13]. Mehdiqulu xan da Ağa Məhəmməd xana qarşı mübarizə aparmışdı, lakin öz əcəli ilə ölmüşdü. Səkkizinci qardaş Abbasqulu isə hələ 7 yaşında ikən ölmüşdü [146, s.13].

Şah taxtı uğrunda mübarizənin ilk illəri Ağa Məhəmməd xan üçün bir elə də uğurlu olmamışdı. Xüsusən 1782-ci il onun üçün çox ağır olmuşdu. Həmin il zəndlər Qacara qarşı açıq çıxış etdilər, Gilanlı Hidayət xan qubalı Fətəli xanın yardımı ilə yenidən qayıdıb Gilanda hakimiyyətini bərpa etdi. Ağa Məhəmməd xanın qardaşı Murtuzaqulu xan isə zəndlərin tərəfinə keçdi, daha sonra Şimali Azərbaycan xanlıqlarını Ağa Məhəmməd xana qarşı qaldırmağa başladı. Həmin ildə Rusiya ilə münasibətlər də xeyli gərginləşmişdi.

Ağa Məhəmməd xanın başlıca rəqibi zəndlər idi. Doğrudur, Kərim xanın ölümündən sonra zəndlərin öz arasında hakimiyyət uğrunda mübarizə gedirdi və bu Ağa Məhəmməd xanın işini xeyli yüngülləşdirirdi. Ancaq bununla belə 80-ci illərin əvvəllərində zəndlər arasında Əlimurad xanın güclənməsi Ağa Məhəmməd xan üçün ciddi təhlükə yaratmışdı. Əlimurad xan öz tayfasından olan rəqibləri, eləcə də Ağa Məhəmməd xan üzərində bir neçə qələbə çalaraq İranın şimal-şərqində öz hakimiyyətini bərqərar etdi.

Bu dövrdə Volqa-Xəzər yolunu Qərblə Şərqi birləşdirən əsas magistral xəttə çevirməyə çalışan rus hökuməti də Xəzər dənizinin cənub sahillərində möhkəmlənməyə çalışırdı və əvvəlki fəsildə qeyd olunduğu kimi bu niyyəti həyata keçirtmək üçün II Yekaterina hökuməti 1781-ci ilin may ayında qraf Voynoviçin başçılığı ilə hərbi donanma göndərdi. Rus hərbi eskadrasının Xəzər dənizinin cənub sahillərində görünməsini Ağa Məhəmməd xan rusların Hidayət xana yardım göstərmək niyyəti kimi anladı.

Ağa Məhəmməd xanın bu dövrdəki başlıca rəqibi Əlimurad xan onun Rusiya ilə münasibətlərinin kəskinləşməsindən öz xeyrinə istifadə etmək qərarına gəldi.

İrandakı rus konsulu İ.Tumanovski 1785-ci il fevralın 12-də Ənzəlidən yazırdı ki, Tehranda olan Əlimurad xan oğlu Şıxveys xanı ordu ilə Mazandarana göndərmişdir. Şıxveys Mazandaranı zəbt etmiş, Mazandaran hakimi Ağa Məhəmməd xan Qacar isə Astrabada qaçmışdır. Qacarın qardaşlarından ikisi – Murtuzaqulu və Mustafaqulu xanlar ona xəyanət edib Əlimurad xanın tərəfinə keçmişdilər. Əlimurad xanın oğlu Şıxveys xan Mirzə xan adlı

bir sərkərdəsini 6 minlik qoşunla Ağa Məhəmməd xanı tutmaq üçün göndərmişdir. Ancaq bu dəstə meşəni keçərkən Ağa Məhəmməd xan qalan qoşunu ilə qəflətən dəstəyə hücum edib darmadağın etmiş, dəstə üzvlərinin çoxunu ya məhv etmiş, ya da əsir götürmüşdü, yalnız 5 nəfər qaçıb canını qurtara bilmişdi. Bundan sonra Ağa Məhəmməd xan Şıxveys xanın özünü tutmaq üçün hərəkət etmişdi. Şıxveys xan tələsik Tehrana – atasının yanına qaçmışdı [184.15.2, v.16].

Tumanovskinin yazdığına görə Əlimurad xanın özü Ağa Məhəmməd xana qarşı çıxmış, lakin uğur qazanmamışdı. Konsul yazırdı ki, Əlimurad xan Tehrana qayıdıb, Ağa Məhəmməd xana qarşı yeni ordu toplamaq istəmişdisə də tabeçiliyindəkilər Ağa Məhəmməd xana qarşı döyüşə getməkdən imtina etmişdilər. Belə olduqda Əlimurad xan yanındakı qüvvələrlə qiyam qaldırıb İsfahanı tutmuş öz qardaşı Cəfər xana qarşı yürüş etmək istəmişdi. Lakin qəfil xəstələnməsi və sonra da ölməsi bu niyyətini gerçəkləşdirməyə imkan verməmişdi [184.15.2, v.16]. Konsul Tumanovski yazırdı ki, Ağa Məhəmməd xan hamıdan güclüdür və yəqin ki, o, şah olacaqdır [184.15.2, v.17].

Əlimurad xan öləndən sonra Ağa Məhəmməd xan qardaşı Cəfərqulu xanı sərkərdəsi Əmiraslan xanla birlikdə Tehrana tərəf göndərmiş və onlar Tehranı tutmuşdular. Onun Rəşt istiqamətində göndərdiyi digər dəstə isə artıq Rudaseri tutmuşdu [184.15.2, v.18].

Şimali İranda möhkəmləndikdən sonra Ağa Məhəmməd xan nəzərini Azərbaycana, ilk növbədə onun cənubuna yönəltdi.

Bu dövrdə Xoylu Əhməd xanın qardaşı oğulları tərəfindən qətlə yetirilməsi nəticəsində Cənubi Azərbaycanda vəziyyət kəskin şəkildə dəyişmişdi. Xoy xanından asılı olan xanlar yenidən müstəqilləşmiş, Xoyda əsir kimi saxlanılan Xudadad xan Təbrizə qayıdıb yenidən hakimiyyətə yiyələnmişdi. Qaradağlı Mustafa xan da azadlığa çıxıb öz hakimiyyətini bərpa etmiş, İrəvan xanlığı da Xoy xanlığının təsirindən çıxmışdı.

Eyni zamanda Cənubi Azərbaycanda xanlıqlar arası müharibələr yenidən qızışmışdı. II İraklinin Ağa Məhəmməd xanın sarayına göndərdiyi elçiləri Zadori Sisianov və Osip Baratov hə-

min dövrdə Cənubi Azərbaycanda iki düşmən qruplaşmanın olması haqqında məlumat verirdilər. Qaradağ, Sərab və Xoy xanlarının daxil olduğu birinci qruplaşmaya Sadıq xan Səqqaqi başçılıq edirdi. Qarabağlı İbrahimxəlil xan da bu qruplaşmaya yardım edirdi. İkinci qruplaşmaya Urmiya, Marağa və Təbriz xanları daxil idi. Qruplaşmalar arasında əsas mübahisə obyekti Təbriz şəhəri idi. Sadıq xanın başçılığı ilə Qaradağ, Sərab və Xoy xanlığının birləşmiş qüvvələri Təbrizə hücum edib şəhəri mühasirəyə almış, lakin onu ələ keçirə bilməmişdilər. Xoy hakimi Hüseynqulu xan öz qardaşı Cəfərqulu xanı Urmiyalı Əli (bəzi rus mənbələrində onun adı Məhəmmədqulu kimi göstərilir) xanın yanına göndərərək Təbrizə yardım göstərməkdən imtina etməyə çağırmışdı. Əli xan nəinki bu çağırışı qəbul etməmiş, əksinə Cəfərqulu xanı geri buraxmayaraq öz yanında girov kimi saxlamışdı. O, Hüseynqulu xana bildirmişdi ki, Azərbaycanın birinci şəhəri olan Təbrizin Şəqqaqi kürdünün və qaradağlıların əlinə keçməsinə razı ola bilməz və əgər Hüseynqulu xan ordusunu Təbriz ətrafından geri çəkməsə Cəfərqulu xanı buraxmayacaq. Ağa Məhəmməd xan da Təbriz xanına məktub göndərərək 20 gün dözməsini məsləhət görmüş, yardımına hərbi qüvvə göndərəcəyini vəd etmişdi [184.17.1, v.355 və a.ü.].

Cənub xanları arasında gedən mübarizə onları zəiflədir və Ağa Məhəmməd xan tərəfindən tabe edilmələrini asanlaşdırırdı. Ağa Məhəmməd xan öz rəqibləri arasında nifaq salmaq və birinin qüvvəsindən digərinə qarşı istifadə etmək taktikasından maksimum yararlanmağa çalışırdı. O, hələ 1763-cü ildə Kərim xan Zəndin qətlə yetirdiyi Urmiyalı Fətəli xanın oğlanları Cahangir və Rzaquluya müraciət edərək onları Urmiyada hakimiyyəti ələ keçirtməyə çağırdı. Ancaq qardaşlar həmin çağırışı qəbul etmədilər [14, s.246].

Z.Sisianov və O.Baratov 1787-ci il tarixli məlumatlarında Ağa Məhəmməd xan Qacarın Novruz bayramından sonra Azərbaycan xanlıqlarına hücum etmək niyyətində olduğunu bildirirdilər [184.17.1, v.355]. Bu isə Azərbaycan xanlarının ciddi narahatlığına səbəb olmuşdu. Qarabağlı İbrahimxəlil xan Urmiyalı Əli xana yazmışdı ki, Qacarı dəf etmək üçün ona pul və hərbi

qüvvə göndərməyə hazırdır. Bu təklifdən ruhlanan Əli xan digər Azərbaycan xanlarından da onun köməyinə hərbi qüvvələr göndərməyi tələb etmişdi. Eyni zamanda Cəfər xan Zəndə Ağa Məhəmməd xanı birdəfəlik məhv etmək üçün birləşməyi təklif etmişdi [184.17.1, v.355].

Z.Sisianov bildirirdi ki, Təbrizli Xudadad xan zəncanlı Əli xanın Ağa Məhəmməd xana qarşı müharibəyə çağıran məktubunu sonuncuya göndərmiş, Tehrandan İsfahana gedən yolda olan Ağa Məhəmməd xan Əli xanı yanına çağırtdırıb gözlərini çıxartdırmış, özünü isə Tehrana göndərmişdi. Zəncandan bir neçə nüfuzlu şəxsi girov kimi götürüb qacarlardan olan bir şəxsi ora hakim təyin etmişdi. Bundan sonra Ağa Məhəmməd xan qardaşını qoşunla Cəfər xana qarşı göndərmişdi. Cəfər xan məğlubiyyətə uğrayıb Şiraza qaçmışdı [184.17.1, v.355 və a.ü.].

C.Malkolmun yazdığına görə artıq 1788-ci ildə Cənubi Azərbaycanın və İranın bir çox güclü tayfa başçıları Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etmişdilər [124, s.278]. Lakin hələ tərəddüd edən hakimlər də var idi. Ağa Məhəmməd xan belələrini məhv etmək üçün silaha əl atmazdan əvvəl müxtəlif diplomatik vasitələrdən istifadə edirdi. Məsələn o, urmiyalı Əli xanın Cənubi Azərbaycanda böyük nüfuza malik olduğunu nəzərə alaraq onunla özü ilə bərabər bir şəxs kimi davranırdı. Görüş zamanı Əli xana demişdi ki, türk tayfaları bir-biriləriylə vuruşmaqdansa zəndlərə qarşı birləşsələr daha yaxşı olar [124, s.278].

Lakin Ağa Məhəmməd xana inanmayan Əli xan bu təklifi qəbul etmədi. İki xanın ordusu Urmiya xanlığının sərhəddində yerləşən Salmas düzənliyində qarşılaşdılar. Ağa Məhəmməd xan məsələni dinc yolla nizamlamaq üçün son cəhd göstərdi. Qardaşı Cəfərqulu xanı iki qacar sərkərdəsi ilə birlikdə Əli xanın düşərgəsinə göndərib bildirdi ki, əgər Əli xan döyüşsüz onun hakimiyyətini qəbul edərsə Ağa Məhəmməd xanın vəziri təyin ediləcək və Cənubi Azərbaycanın idarəçiliyi ona tapşırılacaq [146, s.8]. Cəfərqulu xan öz qardaşının adından bildirdi ki, iki türk eli olan əfşarlarla qacarların vuruşması dözülməz bir hadisədir, bu iş onların düşmənlərinə qalib gəlmək imkanı yarada bilər. Əfşar tayfaları ancaq Qacar tayfaları ilə müttəfiq olduğu təqdirdə öz

vilayətlərini müstəqil idarə edə bilərlər və heç kəs onlara təcavüz etməyə cəsarət etməz [14, s.247-248; 124, s.278-279]. Ağa Məhəmməd xanın bu diplomatik gedişi öz bəhrəsini verdi, Urmiya döyüşçülərinə çox ciddi təsir göstərdi. Onlar təzyiq edərək Əli xanı Ağa Məhəmməd xanla barışmağa və ittifaq bağlamağa vadar etdilər. Bir müddət Əli xanla mehriban davranaraq onun tam etimadını qazanan Ağa Məhəmməd xan daha sonra onun gözlərini çıxartdırdı [124, s.278-279]. Bundan sonra Əli xanın ordusu tərksilah edildi, Əli xanın qohumu Məhəmmədqulu xan Urmiya hakimi elan olundu [41, s.209].

Ancaq, Ağa Məhəmməd xan Urmiya xanlığının ərazisini tərk edən kimi Məhəmmədqulu xan ona tabe olmaqdan imtina etdi və qonşu xanlıqlarla Ağa Məhəmməd xana qarşı mübarizədə birləşmək üçün danışıqlar aparmağa başladı. Sərablı Sadıq xan Səqqaqi və xoylu Cəfərqulu xan Dünbüli ilə ittifaq bağladı [14, s.249].

Ağa Məhəmməd xan Urmiya hakimliyini Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu xana söz verərək onu öz tərəfinə çəkdi. Hüseynqulu xan öz əmisinə qarşı silahlı mübarizə aparmağa başladı. Daha sonra Ağa Məhəmməd xanın ordusu ilə birləşib Urmiya şəhərinə həmlədə iştirak etdi [14, s.249-250].

Cənubi Azərbaycan xanları Qacar təhlükəsini yaxşı dərk etsələr də ona qarşı lazımi surətdə birləşə bilmir və xaricdə kömək arayırdılar. Onlar öz nəzərlərini ilk növbədə Osmanlı imperiyasına yönəltdilər. 1790-cı ilin əvvəllərində Mustafaqulu xan, marağalı Əhməd xan, xoylu Hüseyn xan və İrəvanlı Məhəmməd xan Sultan III Səlimə müraciət edərək Ağa Məhəmməd xana qarşı mübarizədə onlara yardım göstərməsini xahiş etmişdilər [55, s.33-34]. Ancaq sultan müxtəlif bəhanələrlə Azərbaycan xanlarına yardım göstərməkdən imtina etdi. Məsələ, burasındadır ki, bu zaman osmanlı sarayını daha çox əzəli rəqibi Rusiyanın onun sərhədlərində – Cənubi Qafqazda irəliləməsi narahat edirdi. Buna görə də Ağa Məhəmməd xanda Rusiyanın irəliləyişinə mane olacaq bir qüvvə görərək ona qarşı çıxış etmək istəmirdi.

1790-cı ildə Ağa Məhəmməd xan həmçinin öz sərkərdəsi Mustafa xan Qacarı 6 minlik qüvvə ilə Sadıq xanın üzərinə Səraba doğru göndərdi. Qəfil hücuma məruz qalmış və təklənmiş

Sadıq xan Sərab yaxınlığında baş verən ağır döyüşdə məğlubiyyətə uğradı və Qarabağa qaçdı [146, s.8].

1791-ci ildə Təbriz istiqamətində hərəkət edən Ağa Məhəmməd xan yolüstü Seyidabad kəndində düşərgə salıb dayandı və Cənubi Azərbaycan xanlarından ona itaət etməyi və sədaqət əlaməti olaraq öz uşaqlarını, arvadlarını və qardaşlarını girov kimi onun yanına göndərməyi tələb etdi. Cənub xanlarının çoxu bu tələbi yerinə yetirməyə məcbur oldular. Xoy, Təbriz, Ərdəbil, Qaradağ, habelə Naxçıvan xanları öz yaxın adamlarını Qacarın düşərgəsinə göndərdilər. Qaradağda gizlənən Sadıq xan şəqqaqi də öz qoşunu ilə birlikdə Ağa Məhəmməd xanın düşərgəsinə getməyə məcbur oldu. Xanların hər birinin üzərinə illik xərac vermək öhdəliyə qoyuldu [39, s.61]. Beləliklə də, Azərbaycanın cənub xanlıqları Ağa Məhəmməd xandan asılı vəziyyətə düşdülər. Ancaq onlar öz daxili müstəqilliklərini hələ bir müddət qoruyub saxlaya bildilər.

Ənənəyə görə şah tacını qoymaq istəyən şəxs keçmiş imperiyanın sərhədlərini bütövlükdə bərpa etməli idi. Tacqoyma mərasimi isə Ərdəbildə keçirilməli idi.

Məlumdur ki, Səfəvi dövlətinin tərkibinə bəylərbəyliklərlə yanaşı dörd valilik də daxil olmuşdur: Ərəbistan, Gürcüstan, Luristan və Kürdüstan. Onların hamısı şahın başına tac qoyma mərasimində iştirak etməli idilər. Ərəbistan valisi əlində cıqqanı (tacı əvəz edən lələkli papaq) Gürcüstan valisi qılınc, Luristan valisi uzun qırmızı xələt və Kürdüstan valisi almazlarla bəzənmiş bəzək tuturdu. Bu dörd valinin hamısı İranın yeni hökmdarının hakimiyyətini tanımalıydı. Əks halda şah öz başına tac qoya bilməzdi. Buna görə Ağa Məhəmməd Gürcüstanı tutmağa can atırdı [122.2, s.7].

O.P.Markovanın yazdığına görə, Ağa Məhəmməd xan 1791-ci ildə özünü şah elan etmiş, tacqoyma mərasimini isə təxirə salmışdı [136, s.283].

Ağa Məhəmməd xan ağıllı və hiyləgər, öz dövrünə görə kifayət qədər yüksək təhsil almış bir adam idi. Bütün bunlar ona XVIII əsrin sonlarında kifayət qədər dəyişmiş beynəlxalq vəziyyətdən baş çıxartmağa, dünya siyasətinin yeni əlamətlərini anlamağa və qonşu dövlətlərin real qüvvəsini dərk etməyə kömək edirdi.

Ağa Məhəmməd xan regionda kifayət qədər təsirli olan Rusiyanın mövqe və maraqlarını yaxşı anlayırdı. Lakin onun Rusiya ilə münasibətləri, demək olar ki, həmişə gərgin olmuşdur. Bu gərginliyin yaranmasının başlanğıcı Ağa Məhəmməd xanın qraf Voynoviçin ekspedisiyasına qarşı göstərdiyi zorakılıq olmuşdur. Ağa Məhəmməd xan Rusiya ilə olan gərginlikləri aradan qaldırmaq üçün müəyyən addımlar atır, ilk növbədə isə rus tacirləri üçün əlverişli şərait yaratmağa çalışırdı. Ancaq Ağa Məhəmməd xan İsfahanlı Əlimurad xan tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra Rusiya onunla əlaqə yaratmağa tələsmirdi.

İranda hakimiyyət uğrunda mübarizəni diqqətlə izləyən Rusiya hər şeydən əvvəl bu mübarizənin iştirakçılarının qüvvələr nisbətini və hansının özü üçün əlverişli olacağını müəyyənləşdirməyə çalışırdı.

Qeyd edək ki, Ağa Məhəmməd xan zəndlərin tərəfinə keçdiyi üçün qardaşı Murtuzaqulu xanı Mazandarandan qovmuşdu. Onunla birlikdə digər qardaş Mustafaqulu xan da Mazandaranı tərk etmişdi. Öz mülklərindən qovulan Murtuzaqulu xan Şimali Azərbaycana gələrək Quba, Şəki və Lənkəran xanlarından kömək istəmişdi [123, s.188]. Murtuzaqulu xan yardım üçün həm də Rusiyaya müraciət etmiş və göstəriləcək yardımın müqabilində Rusiyaya ərazi güzəştləri edəcəyinə, rus tacirləri üçün idarə etdiyi ərazilərdə əlverişli şərait yaradacağına söz vermişdi [156, s.71].

Rus hökuməti əvvəlcə Murtuzaqulu xana yardım göstərmək qərarına gəldi. II Yekaterina 1785-ci ilin oktyabrında yazırdı ki, Murtuzaqulu xan və Şimali Azərbaycana qaçmış Mustafaqulu xan xalqın və qonşu türkmən tayfalarının arasında böyük hörmətə malikdirlər və onlar Rusiyanın mənafeyi üçün faydalı ola bilərlər. İmperatriçə belə hesab edirdi ki, Ağa Məhəmməd xanın güclənəcəyi təqdirdə onunla düşmənçilik edən qardaşlarını barışdırmağa çalışmaq lazımdır. Əgər sonuncu Rusiyanın İrandakı mənafelərini nəzərə almasa, onda qardaşlardan ona qarşı istifadə etmək olar.

1786-cı ildə İsfahan və Gilanı ələ keçirən Ağa Məhəmməd xan Q.A.Potyomkinə məktub göndərərək Əlimurad xan və Cəfər xan üzərində çaldığı qələbələr haqqında məlumat verərək İsfa-

handa zəndlər tərəfindən həbs olunmuş bir gürcünü azad etdiyini bildirdi. Ağa Məhəmməd xan rusları inandırmağa çalışırdı ki, onun təbəələri ruslara düşmən münasibət bəsləməmişlər [185.2, v.23].

Bu xəbər artıq Ağa Məhəmməd xanın qardaşlarına yardım göstərmək qərarına gəlmiş rus hökumətində bir tərəddüd yaratdı. Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. P.S.Potyomkin kn. Q.A.Potyomkindən Murtuzaqulu və Mustafaqulu xanlarla necə rəftar etmək lazım olduğu barədə soruşur və bildirirdi ki, onlar Rusiyanın yardımını almadan öz vətənlərinə qayıdacaqları halda edam olunacaqlar [184.16.1, v.71].

Q.Potyomkin P.Potyomkinə cavab məktubunda yazırdı ki, Ağa Məhəmməd xanın davranışı Rusiya və İran arasında yaxşı münasibətlər qurulacağına ümid verir. 1787-ci ilin əvvəllərində Q.A.Potyomkinin və P.S.Potyomkinin adından Ağa Məhəmməd xana çaldığı qələbələr münasibətilə təbrik məktubu və qiymətli hədiyyə göndərildi [186.1, v.105-106; 153, 136, s.217].

Rusiya ilə dostluq münasibətləri yaratmağa çalışan Ağa Məhəmməd xan gürcü səfiri Zaxari Sişişvili (Sisianov) vasitəsilə II İraklidən onun Rusiya ilə ittifaq bağlamasına yardım göstərməyi xahiş etdi. Göstərəcəyi vasitəçiliyə görə Ağa Məhəmməd xan II İrakliyə minnətdarlıq əlaməti olaraq dostluq və Şimali Azərbaycan hesabına ərazi güzəştləri təklif edirdi [184.17.1, v.476 a.ü.]. Lakin nəinki, Şimali Azərbaycanı, eləcə də Şərqi Gürcüstanı yeni yaratmaqda olan dövlətin tərkibinə qatmaq niyyətində olan Ağa Məhəmməd xanın bu təklifinin səmimiyyətinə inanmaq çətin idi. Yəqin ki, bu sadəcə Ağa Məhəmməd tərəfindən edilən diplomatik bir gediş idi və bu yolla o, Rusiyanın rəğbətini qazanmaq, Rusiyanın Murtuzaqulu xana yardım göstərməsinin qarşısını almaq istəyirdi.

Ağa Məhəmməd xan Potyomkinlərin təbrikinə cavab olaraq 1787-ci ilin yayında öz elçisi Mirzə Məhəmməd xanı Rusiyaya göndərdi. Elçi ilə göndərdiyi məktubunda o, Rusiya ilə dostluğu özü üçün xoşbəxtlik saydığını bəyan edir və bu dostluğun müqavilə ilə möhkəmlənməsinin zəruri sayırdı [184.17.1, v.311].

Ağa Məhəmməd xan sonrakı illərdə də Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. O, II Yekaterinaya göndərdiyi mək-

tublarından birində Rusiya ilə İran arasında dostluğun şöhrətinin bütün dünyaya yayılmasını arzu etdiyini bildirirdi [153, s.218].

Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışsa da, Ağa Məhəmməd xanın XVIII əsrin sonlarına yaxın şah taxtına iddia edən digər hakimlərdən bir fərqi var idi. O, Rusiyaya ərazi güzəşti edəcəyi barədə heç bir ümid vermirdi. Rusiyanın hakim dairələri də tədricən bunu anlamağa başladılar. Elə bu səbəbdən də onun elçisini Peterburqa göndərməkdən imtina etdilər. Q.Potyomkin P.Potyomkinə yazırdı ki, Ağa Məhəmməd xanın və onun elçisinin hərəkətləri yaxşı heç nə vəd etmədiyindən Rusiyaya daha çox bağlı olan qardaşı Murtuzaqulu xanı dəstəkləməlidir [184.17.1, v. 476 a.ü.].

Ancaq, Ağa Məhəmməd xan rus hökuməti ilə əlaqələri intensivləşdirməklə onun Murtuzaqulu xana yardım göstərməsinə mane ola bilmişdi. Gilanın çox uzaq olduğunu bəhanə göstərən rus hökuməti Murtuzaqulu xana əməli yardım etmədi [123, s.188].

Rusiyadan gözlədiyi yardımı ala bilməyən Murtuzaqulu xan öz mülklərini Quba və Lənkəran xanlarının köməyi ilə geri qaytarmaq qərarına gəldi. Qubadan 230, Lənkərandan isə 680 nəfərlik qüvvələr göndərilmişdi [178, v.5].

Bu dəstələrin yardımı ilə Murtuzaqulu xan 1788-ci ildə Süleyman xan Qacarın dəstələrini məğlub edərək Rəşt şəhərini ələ keçirtdi [156, s.71]. Bu xəbəri eşidən Ağa Məhəmməd xan 5 xanın başçılığı ilə yeni, daha böyük qüvvə göndərdi. Lakin həmin qüvvələr də məğlubiyyətə uğradıldılar və beş xanın hamısı əsir alındı [123, s.188]. Malkolmun yazdığına görə Ağa Məhəmməd xan Qacar öz qardaşı Rzaqulunun xəyanəti nəticəsində əsir alınıbmış. Lakin mühafizəçilər içərisində dostlarının olması və başqa iki qardaşın – Cəfərqulu və Mustafaqulunun köməyi sayəsində xilas ola bilmişdi [124, s.277].

Murtuzaqulu xanın 1791-ci ildə Rusiyaya göndərdiyi nümayəndəsi Ağa Məhəmməd bəy məlumat verirdi ki, 1788-ci ildə gilanlı Hidayət xan öldükdən sonra Murtuzaqulu xan qubalı Fətəli xandan qoşun alıb asanlıqla Gilanı tutmuş və Ağa Məhəmməd xanın Gilandakı qoşunlarının başçısı Süleyman xan qaçmışdı [79.8, v.439-440]. Ağa Məhəmməd xan Süleyman xanı

6 min nəfərlik qoşunla Gilanı yenidən tutmağa göndər-miş, lakin baş vermiş döyüşdə Murtuzaqulu xan qalib gəlmişdi [79,8. v.441]. Belə olduqda Ağa Məhəmməd xan qardaşı Cəfərqulu xanı yeni qüvvə ilə Gilana göndərmişdi. Muzdlu döyüşçüləri Murtuzaqulu xanı tərk etdiyi üçün o, Rəşti tərk edib Kəskərə çəkilməli olmuşdu. Daha sonra Murtuzaqulu xan Kəskərdə möhkəmlənmişdi [79.8, v.441 a.ü.].

1788-ci ilin noyabrında Cəfərqulu xan Ənzəliyə hücum etmiş, ancaq məğlubiyyətə uğramışdı. Sonra Cəfərqulu xan Murtuzaqulu xanla barışmış və öz qoşununu buraxmışdı. Bundan xəbər tutan Ağa Məhəmməd xan Cəfərqulu xanı öz yanına çağırmışdı. Ancaq Cəfərqulu xan bildirmişdi ki, Ağa Məhəmməd xan doğma qardaşlarından birinin artıq gözünü çıxartdığı üçün onun yanına gəlməyə qorxur. Üç qardaş – Cəfərqulu, Murtuzaqulu və Rzaqulu Ağa Məhəmməd xanı devirmək barədə razılığa gəlmişdilər. Bundan sonra Murtuzaqulu xan Talışdan qoşunla gəlib 1790-cı ilin oktyabrında əvvəlcə Kəskəri, sonra isə qanlı döyüşdən sonra Rəşti tutmuşdu [79.8, v. 442 a.ü.].

Alınan məlumata görə Ağa Məhəmməd xan hiylə ilə Cəfərqulu xanı yanına çağırıb gecə boğdurub öldürmüşdü [79.8, v.445].

Ağa Məhəmməd xan yenə də Rəştə qoşun göndərmişdi. Bu zaman Lənkəran qoşunları Murtuzaqulu xanı tərk edib getdilər. Qüvvəsi qalmamış Murtuzaqulu xan 1790-cı ilin noyabrında Rəştdən getməli oldu. Murtuzaqulu xan Lənkərana gəlib Lənkəran xanının qoşunları ilə yenidən Gilana yönəldi və üçüncü dəfə 1791-ci ilin fevralında Rəşti tutdu. Ağa Məhəmməd xan yenidən qoşun göndərib Rəşti ələ keçirdi. Ancaq bu zaman Murtuzaqulu xan Ənzəlidə idi [79.8, v.444-445]. Ağa Məhəmməd xanın qoşunları Murtuzaqulu xanı təqib edərək Lənkəran xanlığının ərazisinə daxil oldular. Lakin burada məğlub olub geri qayıtdılar.

Bundan sonra Murtuzaqulu xan 1791-ci ildə elçisi Məhəmməd bəyi Həştərxana – Qafqaz canişini Bryançininovun yanına göndərib Rusiya himayəsinə girmək istədiyini bildirmişdi. Murtuzaqulu xan Rusiya tacirlərini həmişəlik gömrük və digər rüsumlardan azad edəcəyini, Ənzəlini də ətrafı ilə birlikdə Rusiy-

aya güzəştə gedəcəyini vəd edirdi. Üstəlik Ənzəlidəki rus qarnizonunun saxlanması üçün ildə 10 min manat verməyi öhdəsinə götürürdü. Murtuzaqulu xan bildirirdi ki, ruslar Ənzəlidə qala inşa etməyi qərara alsalar lazımi materialları verər və işçi qüvvəsi ilə yardım göstərər. Bunların əvəzində Murtuzaqulu xan kapitan-leytenant Alekçeyevin başçılığı ilə Ənzəliyə iki freqat, bir bot və 300 əsgər göndərilməsini xahiş edirdi [79.8, v.444].

1792-ci il yanvarın 12-də Rusiya Dövlət Şurasında Murtuzaqulu xanın elçisi Ağa Məhəmməd bəyin izahatı oxundu. Elçi bildirirdi ki, Murtuzaqulu xan rus qoşunlarının yardımı ilə bir neçə dəfə Gilana daxil olmuşdursa da, rus freqatları vaxtından əvvəl geri döndükləri üçün möhkəmlənə bilməmişdir. İzahatı dinləyən şura hesab etdi ki, Rusiya ilə yaxşı münasibətlər yaratmaq istəməyən Ağa Məhəmməd xanın ona qarşı olan qardaşının möhkəmlənməsi Rusiyanın xeyrinə olar. Həm də Murtuzaqulu xan sərfəli güzəştlər təklif edir. Eyni zamanda, Şura hələlik hər şeyi aydınlaşdırmağı qərara aldı [85.2, s.790-791].

1792-ci il martın 22-də Dövlət Şurasında Murtuzaqulu xanın və anası Şərəfnisə xanımın mərhum knyaz Q.Potyomkinə məktubları oxundu [85.2, s.791].

1792-ci il aprelin 12-də qraf Bezborodko Şurada elan etdi ki, II Yekaterina bu fikirdədir ki, gen. Qudoviç Murtuzaqulu xana gecikmədən kömək etsə yaxşıdır [85.2, s.792].

1792-ci il avqustun 12-də Dövlət Şurasında gen. Qudoviçin 26 iyul 1792-ci il tarixli raportu oxundu. Qudoviç Şeyxəli xan, avar hakimi Umma xana və bakılı Hüseynqulu xana yazmışdır ki, əgər onlar Rusiya himayəsini istəyirlərsə, öz səlahiyyətli nümayəndələrini göndərsinlər. Qudoviç xanların daxili mübarizələrinə qarışmamaq şərtilə himayəyə qəbul olunmalarını istəyirdi. Qudoviç hesab edirdi ki, indi Murtuzaqulu xana açıq hərbi yardım göstərmək əlverişli deyil, yalnız artilleriya və mütəxəssislərlə yardım etmək olar. Quba, Avar və Bakı xanları Rusiya himayəsini qəbul edərlərsə Qudoviç onları Murtuzaqulu xana kömək göstərməyə vadar edə bilər. Şura bu məsələdə, yəni Murtuzaqulu xana Azərbaycan xanlarının əli ilə yardım göstərmək məsələsində Qudoviçin rəyi ilə razılaşdı [85.2, s.793-794].

1792-ci ilin payızında Murtuzaqulu xan rus freqatına minib Gilandan qaçdı və bir neçə ay Azərbaycanda qaldıqdan sonra 1793-cü ilin aprelin sonunda Həştərxana gəldi. O, II Yekaterina ilə görüşmək üçün Peterburqa getməsinə icazə istədi. Lakin imperatriçə buna razılıq vermədi. Yekaterina belə hesab edirdi ki, Murtuzaqulu xanı Qızlarda saxlamaq və məqam gəldikdə yenidən ondan Ağa Məhəmməd xana qarşı mübarizədə istifadə etmək lazımdır. Bir müddət Murtuzaqulu xan Qızlarda qaldı. Rus hökuməti onu və xidmətçilərini saxlamaq üçün ayda min rubl müavinət təyin etmişdi. Ancaq Qızların havası Murtuzaqulu xana düşmədi və xəstələndi. O, Həştərxana dönməsinə icazə verilməsini xahiş etdi [122.2, 5-6].

1793-cü il fevralın 23-də Dövlət Şurasında gen. Qudoviçin bakılı Hüseynqulu xanı himayəyə qəbul edib-etməmək barədə sorğusu dinlənildi. Şura bildirdi ki, Bakı əvvəllər Quba xanından asılı olduğundan indi öyrənmək lazımdır ki, Quba xanı güclüdürmü və Bakını öz asılılığında saxlaya bilərmi? Onda Quba xanını və ondan asılı kimi Hüseynqulu xanı himayəyə qəbul etmək olar. Bakı xanı tamamilə müstəqildirsə, onları ayrı-ayrılıqda himayəyə qəbul etmək lazımdır [85.2, s.93].

Avqustun 11-də Dövlət Şurasında Qudoviçin raportu oxundu. Şeyxəli xanın nümayəndəsi Mirzə Həsən gəlib II Yekaterinaya xanının adından sədaqət andı içmişdir. Lakin Qudoviç Hüseynqulu xan haqqında hökumətin rəyini gözlədiyindən hələlik nümayəndənin and mətnini göndərməyib və nümayəndəni də öz yanında saxlayıb. Qudoviçin şuraya 1794-cü ilin əvvəlinə aid digər raportundan məlum olurdu ki, Şeyxəli xan öz nümayəndəsinin qəbul etdiyi sədaqət andını təsdiqləməkdən boyun qaçırırdı [85.2, s.795-796].

Rusiyanın ona mənfi münasibət göstərməsinə, bəzi vaxtlar düşmənlərinə kömək göstərməsinə baxmayaraq Ağa Məhəmməd xan onunla ticarət əlaqələrini gücləndirməyə çalışırdı. Xəzər dənizindəki rus hərbi donanmasının kapitanı Şişkin yazırdı ki, son yeddi il ərzində Ağa Məhəmməd xanın Rusiyaya mənfi münasibətini əks etdirən hər hansı hərəkətin şahidi olmamışdır [185.4, v.27 və a.ü.]. Qafqaz xəttindəki rus qoşunlarının baş komandanı

gen. Qudoviç elə 1791-ci ildə II Yekaterinaya göndərdiyi məlumatda yazırdı ki, Ağa Məhəmməd xan hakimiyyəti altında olan Ənzəlidə ticarət edən rus tacirlərinə qarşı heç bir düşmənçilik göstərmir [98, s.422]. Bu cür məlumatlar çar hökumətində Ağa Məhəmməd xana qarşı münasibətdə bir arxayınçılıq yaratdı ki, bu da zəndlərlə həlledici mübarizəyə hazırlaşan Ağa Məhəmməd xana olduqca sərfəli idi.

Ağa Məhəmməd xan qardaşı Murtuzaqulu xana qarşı mübarizə apardığı bir zamanda zəndlərlə də mübarizəni davam etdirirdi. 1790-cı ildə Ağa Məhəmməd xan Lütfəli xan Zəndin iqamətgahı Şiraz şəhərini tutmağa cəhd etdi. İngilis Ost-Hind kompaniyası 60 dəvə və 40 qatır yükü silahı yardım kimi Ağa Məhəmməd xana göndərmişdi [183.3, v.191].

Lütfəli xan bir aylıq mühasirəyə duruş gətirdi. 1791-ci ildə Ağa Məhəmməd xan Şirazı tutmaq üçün təkrar cəhd göstərdi. Bu dəfə o, Lütfəli xanın ən çox etibar etdiyi adamlardan olan şəhərin kələntəri Hacı İbrahimi ələ ala bildi [146, s.110]. Hacı İbrahim şəhəri qoruyan elatları tərksilah etdi. Ağa Məhəmməd xanın sənətkarlar və tacirlərə himayədarlıq etməsindən xəbərdar olan Şirazın sənətkar və tacirləri onun tərəfinə keçdilər. Ağa Məhəmməd xan şəhərə daxil oldu və əhalinin müqavimətinə rast gəlmədi. Şəhərdə tərəfdarı qalmayan Lütfəli xan Kirmana qaçdı. Elə həmin il Lütfəli xan yeni ordu toplasa da Ağa Məhəmməd xanın qardaşı oğlu Fətəli xan tərəfindən məğlubiyyətə uğradıldı [146, s.9].

General Qudoviç Şirazın alınmasını bir qədər fərqli təsvir edir. Generalın yazdığına görə Şirazı almaqda düçar olduğu birinci uğursuzluqdan sonra Qacar əsas diqqətini Cənubi Azərbaycana yönəltmişdi. Lütfəli xan onun Azərbaycanda olmasından istifadə edib İsfahanı almağa cəhd göstərmişdir. Lakin Fətəli xanın müdafiə etdiyi bu şəhəri ala bilmədi. Lütfəli xanın Qudoviç tərəfindən "zarçıbaşi" adlandırılan bir sərkərdəsi qiyam qaldırmış və ordunun böyük hissəsini götürərək Şiraza qayıtmışdı. Lütfəli xan qayıdıb Şiraza daxil olmaq istəsə də qiyam etmiş sərkərdəsi buna imkan verməmiş və Lütfəli xan Bağdada getməyə məcbur olmuşdu. "Zarçıbaşı" Ağa Məhəmməd xanla danışıq-

lara başlayıb bildirmişdi ki, şəhərin idarəsini ona həvalə etməyə söz verərsə Qacara tabe olar. Ağa Məhəmməd xan bu təklifi qəbul etmiş və beləliklə şəhəri müqavimətsiz ala bilmişdi [84, v.158 a.ü.].

1794-cü ildə Ağa Məhəmməd xan çox böyük bir ordu ilə Lütfəli xanın sığındığı Kirman şəhərini mühasirəyə aldı. O, bir həmlə ilə şəhəri ala bilməyib mühasirəyə başladı. Beş aylıq mühasirədən sonra şəhərdə aclıq başladı. Lütfəli xan gizli yolla şəhərdən qaçdı [142, s.246]. 1794-cü ilin avqustunda Ağa Məhəmməd xan şəhərə daxil olub əhaliyə divan tutdu. Müqavimət göstərmiş kişilərin əksəriyyəti məhv edildi. Qadın və uşaqlar qul edilib satıldı. Lütfəli xan Bəm şəhərində ələ keçirildi və qətlə yetirildi. Onun öldürüldüyü yerdə kəsilmiş insan başlarından ehram quruldu [142, s.248; 146, s.9].

Beləliklə, Ağa Məhəmməd xan 90-cı illərin ortalarına artıq bütün əsas rəqiblərini məhv etmiş, bütün İranı və Cənubi Azərbaycanı özünə tabe etmişdi. O, bundan sonra Şimali Azərbaycan xanlarını və Kartli-Kaxeti çarlığını itaətə gətirmək qərarına gəldi.

Bu isə onunla Şimali Azərbaycan xanları arasında münasibətlərin pisləşməsinə səbəb oldu. Ağa Məhəmməd xanla ilk düşmənçilik münasibətində olan Şimali Azərbaycan xanı Lənkəranlı Mir Mustafa xan olmuşdur. İrəlidə qeyd olunduğu kimi Mir Mustafa xan Murtuzaqulu xana yardım göstərdiyinə görə Ağa Məhəmməd xanın qoşunları ilə toqquşmuşdu.

Tezliklə Qarabağlı İbrahimxəlil xanın fəal iştirakı ilə Qafqaz hakimlərinin antiqacar ittifaqı yarandı. İttifaqa Qarabağ və İrəvan xanları ilə yanaşı Ömər (Ümmə) xan, II İrakli və lənkəranlı Mir Mustafa xan daxil idi [35, s.50].

Şimali Azərbaycan xanları yalnız öz qüvvələri ilə Qacardan qoruna biləcəklərinə əmin deyildilər. Buna görə də onlar yardım üçün ayrı-ayrılıqda həm də Osmanlı sarayına müraciət edirdilər [56.1, s.131-132]. Ancaq Rusiya ilə 1787-1791-ci illər müharibəsində ağır məğlubiyyəti Osmanlı dövlətini Cənubi Qafqazda fəal siyasət yürütmək imkanından məhrum etmişdi. Buna görə də Azərbaycan xanlarına yardım haqqında vədlər verməklə kifayətlənib real bir yardım göstərmədi.

Hələ 1792-ci ildə zəndlərə qarşı mübarizənin növbəti mərhələsi başa çatdıqdan sonra Ağa Məhəmməd xan Şimali Azərbaycana yürüşə hazırlaşmağa başlamışdı. Əvvəlcə diplomatik yolla Şimali Azərbaycan xanlarını özündən asılılığa salmağa cəhd göstərdi. Ağa Məhəmməd xan sərkərdəsi Süleyman xanı 20 minlik qoşunla Təbriz şəhərinə göndərdi. Süleyman xan Azərbaycan xanlarının Ağa Məhəmməd xanın hakimiyyətini tanımalarına nail olmalı, sonra onların qüvvələrini də birləşdirib Kartli-Kaxetiya çarlığına hücum etməli idi [122.2, s.7-8; 123, s.13]. Lakin Qarabağ, Lənkəran və Şamaxı xanları bu təklifi nəinki rədd etdilər, hətta Qacarı şah kimi tanımaqdan itmtina etdilər. Yalnız gəncəli Cavad xan bu çağırışa cavab verdi [115, s.102; 123, s.13]. Bundan qəzəblənən Ağa Məhəmməd xanın əmrilə 4 minlik qacar ordusu 1794-cü ildə Xudafərin körpüsündən keçərək Qarabağa soxuldu. Lakin gürcü qoşunlarının da kömək etdiyi Qarabağ ordusu Qacar qoşununu məğlubiyyətə uğradıb Cənubi Azərbaycana çəkilməyə vadar etdi [67, s.77].

Qubalı Fətəli xanın ölümündən sonra Bakı xanlığı öz müstəqilliyini bərpa etsə də qubalı Şeyxəli xan yenidən bu xanlığı tabe etməyə çalışırdı ki, bu da həmin xanlıqda hakimiyyət uğrunda mübarizə ilə əlaqədar pozulmuş siyasi sabitliyi daha da pisləşdirdi. 1792-ci ildə Bakıda hakimiyyətə gəlmiş Hüseynqulu xan xanlıq daxilindəki rəqiblərinə qarşı mübarizə aparmaqla yanaşı həm də Şeyxəli xana qarşı mübarizə aparmalı olurdu. Hərbi cəhətdən xeyli zəif olan Hüseynqulu xan daha güclü Şeyxəli xanla mübarizədə Rusiya himayəsinə arxalanmağa çalışırdı. Hüseynqulu xan 1792-1795-ci illərdə Rusiya ilə saxladığı əlaqələrdə Bakı xanlığının Qubadan asılı olmayan bir dövlət olduğunu sübut etməyə çalışırdı. Bununla belə Hüseynqulu xan heç də Rusiya himayəsinə girmək istəmirdi.

Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. İ.Qudoviç II Yekaterinaya 7 may 1795-ci il tarixli raportunda yazırdı ki, alınan dürüst məlumatlara görə Ağa Məhəmməd xan Qacar üç illik mübarizədən sonra öz rəqibi Lütfəli xana qalib gəlmiş, məmurlarının xəyanəti sayəsində əsir aldığı Lütfəli xanı qətlə yetirmişdir. Şah olmaq iddiasını daha da gücləndirən Ağa Məhəm-

məd xan Tehrana gəlib qoşunlarını Ərdəbilə cəmləşdirir, Təbriz və Ərdəbildə çoxlu sursat tədarük edilməsini əmr etmişdir. Bir çox xanlardan, ilk növbədə İrəvan xanından ona tabe olmalarını tələb edərək, müqavimət göstərəcəkləri halda onları məhv edəcəyi ilə hədələmişdir. Qudoviçin aldığı məlumata görə Qacar öz ordusunu iki hissəyə bölüb bir hissəsini İrəvana göndərmək, digər hissəsini isə Muğana yeritmək istəyirdi. Muğandan keçərək Şamaxı, Şəki, Qarabağ və Lənkəran xanlıqlarını tabe etdikdən sonra Qarabağdan keçib Gürcüstana hücum etmək niyyətində idi [84, v.169 və a.ü. 73, s.278, s.410].

Qudoviç Ağa Məhəmməd xanın qubalı Şeyxəli xanın yanına ona tabe olması tələbi ilə nümayəndə göndərdiyini eşidib Şeyxəli xana təlqin etməyə çalışırdı ki, o Rusiya himayəsində olduğundan Qudoviçlə məsləhətləşməmiş Qacarın nümayəndəsinə heç bir cavab verməsin. Sarı adasının ruslar tərəfindən tutulmasına köməklik göstərmiş lənkəranlı Mir Mustafa xan Ağa Məhəmməd xanın Lütfəli xan üzərində qələbəsindən sonra Rusiya himayəsinə girmək, Ağa Mənəmməd xanın Lənkərana hücumu təqdirində ailəsi ilə birlikdə Salyana sığınmaq istəyir [84, v.169, 73, s.278, s.411].

Qudoviç yazırdı ki, hələlik Ağa Məhəmməd xan tərəfindən Rusiya tacirlərinə qarşı açıq düşmənçilik hərəkətləri müşahidə olunmamışdırsa da, o, Ənzəlidəki tacirlərə tapşırmışdır ki, artıq mallarını təhlükəsizlik naminə Sarı adasına gətirib saxlasınlar, hərbi gəmilərin rəislərinə əmr olumuşdur ki, ehtiyat naminə Ənzəli buxtasına daxil olmasınlar, Ağa Məhəmməd xanın tələblərinə qarşı düşmənçilik hərəkətlərinə yol verməsinlər. Qudoviçin aldığı digər məlumatlara görə Ağa Məhəmməd xan Şeyxəli xanın yanına adam göndərib ona tabe olmasını istəmiş və bu halda bütün Şirvanın idarəsini ona verəcəyini vəd etmişdir. Ancaq, Şamaxılı Mustafa xan Qacarın elçisini Qubaya buraxmamış və Qarabağlı İbrahimxəlil xanla Ağa Məhəmməd xana birgə müqavimət göstərmək haqqında razılığa gəlmişdir [84, v.169 a.ü.73, s.272, s.412].

II İrakli də Ağa Məhəmməd xanın Gürcüstana hücum niyyətindən narahat olub, yalnız İbrahimxəlil xanın və bir neçə başqa

Azərbaycan xanının Qacara qarşı Kartli-Kaxetiya çarlığı ilə birlikdə mübarizə aparmaq əzmində olduğunu bildirmişdi. Onun sözlərinə görə Gürcüstana yaxın olan Gəncə xanlığının hakimi isə hətta Ağa Məhəmməd xana rəğbət bəsləyirdi. Gen. Qudoviç II İraklini arxayınlaşdıraraq yazmışdı ki, Qacar əsas qüvvələrini Muğana yeridəcək, buradan yalnız bir sıra Azərbaycan xanlarının, ilk növbədə Qarabağ xanının müqavimətini qırdıqdan sonra Gürcüstana hücum edə bilər. O vaxta kimi isə Qudoviç imperatriçəyə məlumat çatdırıb necə hərəkət edəcəyi haqqında təlimat alacaq [84, v.169 a.ü, 73, s.278, s.411-412].

Qudoviç hal-hazırda İran sahillərində 4 rus hərbi gəmisinin üzdüyünü, onlardan ikisinin Sarı adasını qoruduğunu, hər ehtimala qarşı dənizə çıxmaq üçün bombardmançı gəminin hazırlıq vəziyyətinə gətirilməsini əmr etdiyini yazırdı.

İrəvanlı Məhəmməd xan Qacarın yürüşü ərəfəsində erməni yüzbaşı Qavrili çağırıb ona demişdi ki, Ağa Məhəmməd xan Məhəmməd xanı öz sarayına çağırır. Əgər rusların Gürcüstana yeni hərbi qüvvələr göndərəcəyi haqqında xəbərlər doğrudursa o, Qacarın yanına getməkdən imtina edər [83, v.16-17; 73, s.83, s.416].

Eyni zamanda Cənubi Qafqaza hücum ərəfəsində Ağa Məhəmməd xan da Rusiya ilə münasibətləri normalaşdırmağa və onu bitərfləşdirməyə çalışırdlı. O, 1795-ci ildə özünün iki elçisini Rusiyaya göndərdi. Elçilər dəniz yolu ilə Həştərxana, oradan da Qafqazdakı rus qoşunlarının komandanı gen. Qudoviçin Georgiyevsk şəhərindəki qərargahına gəldilər. Onlar Qudoviçə Gilan hakiminin və Ağa Məhəmməd xanın vəziri Hacı İbrahimin məktublarını təqdim etdilər [123, s.193].

Bu dövrdə yaranmış beynəlxalq şərait Qacarın Cənubi Qafqaza hücumu üçün əlverişli idi. Qərbi Avropa dövlətləri, ilk növbədə Fransa Qacarın köməyi ilə Rusiyanın cənuba hərəkətinin qarşısını almağa çalışırdılar. 1792-ci ildə Fransa hökuməti təbiətşünaslar Olivye və Bürgeri Türkiyə, İran və Misirə göndərdi. Onlar bu ölkələrlə Fransa arasında ticarət və siyasi münasibətlər yaradılması pərdəsi altında İranda xüsusi tapşırıq yerinə yetirməli idilər. Bununla əlaqədar İstanbuldakı rus səfiri öz hökumətinə xəbər verirdi ki, fransız "təbiətşünasları" iranlıları Tür-

kiyənin köməyi ilə Rusiyaya qarşı mübarizəyə təhrik edirlər [115, s.5, 130, s.40].

1794-cü ildə səyyah adı altında bir neçə fransız hərbiçisi İran və Cənubi Qafqaza gəldi. Onlardan biri – Feryer Sövbef Ağa Məhəmməd xanı Fransa-Türkiyə-İran ittifaqı yaratmağın zəruriliyinə inandırmağa çalışırdı [197, s.5].

Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşü haqqında xəbər fransız hökuməti tərəfindən məmnunluqla qarşılandı. Fransız hökuməti 1796-cı ilin yanvarında İstanbuldakı konsuluna Ağa Məhəmməd xanın yanına elçi göndərməyi və Rusiya hüdudlarında yaşayan müsəlmanları ruslara qarşı qaldırmağa cəhd etməyi tapşırdı [197, s.5].

Ağa Məhəmməd xan 1795-ci ilin yazında Cənubi Qafqaza yürüşə hazırlaşmağa başladı. Qacarın ordusu bəzi məlumatlara görə 45 min nəfərdən ibarət idi, digər məlumatlara görə isə 60 minə [124, s.290], hətta 60-100 minə [127, s.60; 97.1, s.331] çatırdı. Yürüş başlanana qədər onun məqsədi və istiqaməti gizli saxlanırdı [124, s.289-290].

Ordusunu Təbriz və Ərbədilə toplamış Ağa Məhəmməd xan yürüşə son hazırlıq tədbirlərini görməyə başladı. Gəncəli Cavad xan Qacarın yürüşünü dəstəkləyirdi. Xeyli tərəddüd edən Şəki, Şamaxı və Bakı xanları son nəticədə öz mülklərini Qacar ordusunun talanlarından xilas etmək xatirinə Ağa Məhəmməd xandan asılılığı qəbul etdiklərini bildirdilər. Qubalı Şeyxəli xan da Ağa Məhəmməd xanın hakimiyyətini tanıdığını bildirdi. Ağa Məhəmməd xan ona bütün Şirvanın hakimiyyətini verəcəyini vəd etmişdi [120, s.10].

Ağa Məhəmməd xan özü əsas qüvvələri ilə yürüşə başlamazdan əvvəl bir hərbi dəstəni Lənkəran xanlığının ərazisinə yeritdi. Həmin dəstə bir neçə kəndi talan edib, Mir Mustafa xanın ailəsini və bir çox adamı əsir götürdü. Müqavimət göstərmək imkanında olmayan Mir Mustafa xan dağlara qaçdı, əhalinin xeyli hissəsi isə Sarı qalasına qaçaraq buradakı rus hərbi gəmilərinin himayəsinə sığındılar [123, s.200].

1795-ci il mayın 28-də Dövlət Şurasında Qudoviçin raportu dinlənildi. Qudoviç Ağa Məhəmməd xan Qacarın isfahanlı Lüt-

fəli xanı məğlub etdiyini, bir tərəfdən İrəvana basqın etmək fikrində, digər tərəfdən də Nadir şahın tac qoyduğu Muğan çölünə gəlmək, Şamaxı, Şəki, Talış (Lənkəran) xanlıqlarına, sonra isə Gürcüstana hücum etmək fikrində olduğunu yazırdı. Qudoviç bildirirdi ki, ehtiyat tədbirləri görüb rus tacirlərinə rus qoşunları tərəfindən zəbt olunmuş Sarı adasına toplaşmağı təklif etmişdir [85.2, s.798].

Şura raportu dinləyib bildirdi ki, Rusiya himayəsini qəbul edən və etmək istəyən bütün hakimləri Ağa Məhəmməd xana qarşı birləşdirmək lazımdır. Bu məqsədə nail olmaq üçün lənkəranlı Mir Mustafa xanın himayə xahişini yerinə yetirmək olar. Qudoviç lazım bilsə öz qoşunlarından İrakliyə və ya xanlara yardıma göndərə bilər, ancaq bu zaman Şimali Qafqazdakı rus mülklərinin müdafiəsini zəiflətməməlidir. Şura bunu da bildirmişdi ki, hələlik Ağa Məhəmməd xanın Rusiyaya qarşı düşmənçilik münasibətini bildirən açıq sübutlar yoxdur. Əgər o, Rusiya tərəfə hər hansı addım atarsa, general bunu mehribanlıqla qəbul etməli, Qacarı Rusiya himayəsini qəbul etmiş xanları əsarətə almaqdan çəkindirməlidir [85.2, s.798-799].

Ordunun Ağa Məhəmməd xanın özünün başçılıq etdiyi əsas hissəsi mərkəzdən Qarabağ xanlığına zərbə endirməli, daha sonra Tiflisə doğru hərəkət etməli idi [170. s.261].

Ağa Məhəmməd xan mayın sonlarında yürüşə başlayıb iyunun sonlarında Şuşadan 8 verst aralıda düşərgə saldı. Şuşa qalasını birbaşa həmlə ilə ələ keçirtməyin mümkün olmadığını görən Ağa Məhəmməd xan İbrahimxəlil xanı hərbi hiylə yolu ilə qaladan çıxardıb açıq döyüşdə məğlub etməyə cəhd göstərdi, lakin buna nail olmadı. Qacar 33 gün Şuşanı mühasirədə saxlayıb, böyük itkilər versə də, qalanı ələ keçirə bilmədi.

Ağa Məhəmməd xan anlayırdı ki, İbrahimxəlil xanın və qarabağlıların inadlı müqaviməti şəraitində, başlıca olaraq süvarilərdən ibarət ordusu ilə Şuşa kimi möhkəmləndirilmiş qalanı almaq çətindir. Buna görə də vaxtı boş yerə itirmək istəməyərək Qarabağı tərk edib sürətlə Gürcüstana hərəkət etmək qərarına gəldi. O, qardaşı Cəfərqulu xana yazırdı ki, Süleyman xanı qoşunlarla Şuşanın yanında qoyub 20 min döyüşçü ilə Gürcüstana

getmək niyyətindədir. Cəfərqulu xan da İrəvan ətrafında 4 min döyüşçü qoyub əmr olduqda Ağa Məhəmməd xanın yanına getməyə hazır olmalı idi. Ağa Məhəmməd xanın bu fərmanı II İraklinin əlinə keçmiş və fərman gen. Qudoviçə göndərilmişdi. Tezliklə Qudoviç Ağa Məhəmməd xanın Şuşanın mühasirəsindən əl çəkib əvvəlcə Xatunarxa, sonra Gəncəyə getməsi haqqında məlumat aldı. Gəncədən Ağa Məhəmməd xan nümayəndəsini II İraklinin yanına göndərib tabe olmasını tələb etdi. Lakin çar Rusiyanın yardımına ümid edərək rədd cavabı verdi. II İraklinin arvadı Dara Qriqoryevna da öz tərəfindən hərbi yardım üçün Qudoviçə müraciət etdi [122.2, s.34-35].

1795-ci il sentyabrın əvvəllərində Qacarın ordusu Tiflisə yaxınlaşdı. Ağa Məhəmməd xanın sürətli hərəkəti II İraklini sarıtdı. Qüvvələr də qeyri-bərabər idi. Ağa Məhəmməd xanın qoşunlarının sayı 40 minə, II İraklinin qoşunlarının sayı isə 10 min nəfərə çatırdı. Ancaq çar döyüşə girməyi qərara aldı. Tiflisdən təxminən 16 verst məsafədə baş verən vuruşmada gürcülər darmadağın edildilər və döyüş meydanından qaçdılar. II İrakli ailəsinin və tərəfdarlarının bir hissəsi ilə dağlarda gizləndi. Xanın qoşunları Tiflisə girdilər, şəhər qarət olundu. 16 min əsir ələ keçirildi. Qızları və qadınları hərəmxanalara verdilər, müsəlmanlığı qəbul edən gürcü oğlanları isə dərhal azad olunmuşdular. Əsirlikdə doğulan gürcü uşaqları tamhüquqlu təbəə olur və orduya qəbul edilirdilər [124, s.332-333].

Tiflisi zəbt etdikdən sonra Ağa Məhəmməd şah gözlənilmədən Muğan çölünə tərəf çəkildi. Ağa Məhəmməd xan İrakliyə ona tabe olması şərtilə "sülh və dostluq" təklif etdi. Qudoviç gürcü çarına vəd olunmuş rus yardımını gözləyərək danışıqlarla vaxtı uzatmağı məsləhət gördü [122.2, s.54].

Çar ailəsinin bəzi üzvləri Qacarın ali hakimiyyətini qəbul etməyə razı idilər. İraklinin kiçik oğlu Aleksandr Ağa Məhəmməd xandan Tiflisə qayıtmağa icazə almışdı. O, Qacardan asılılığı qəbul edərək həm öz yerinə, həm də atasının yerinə sədaqət andı içmişdi [153, s.289].

Ağa Məhəmməd xanın Muğanda düşərgə salması bir sıra Azərbaycan xanlarını, o cümlədən Şeyxəli xanı ehtiyatlı davran-

mağa vadar edirdi. O, bir yandan Ağa Məhəmməd xanı qarşılamaq üçün bahalı hədiyyələr hazırlayır, digər tərəfdən də Rusiyanın Qacar hökmdarına mənfi münasibətindən öz xeyrinə faydalanmağa çalışırdı. Şeyxəli xan 1795-ci ilin oktyabrında öz elçisi Hacı Murtuzaqulu bəyi İ.Qudoviçin qərargahına göndərərək Ağa Məhəmməd xana qarşı mübarizəyə hazırlaşmaq üçün pul göndərməsini istədi. Şeyxəli xan hədələyirdi ki, on günə qədər tələb olunan məbləğ ona çatmazsa Ağa Məhəmməd xana tabe olmaqdan savayı çarəsi qalmayacaq. Eyni zamanda Quba xanı Qudoviçin ona yardım üçün rus hərbi dəstəsi göndərməsi təklifini də rədd etmişdi. Görünür bunun onun müstəqilliyi üçün təhlükə törədəcəyindən ehtiyat edirdi.

Qafqazdakı rus qoşunlarının komandanlığı Şeyxəli xana bir qədər sonra pul göndəriləcəyini, tezliklə rus qoşunlarının Xəzəryanı ərazilərə göndəriləcəyini bildirir və heç bir halda Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etməməsini tövsiyyə edirdi [4, v.13]

Muğanda olan Ağa Məhəmməd xan öz qohumlarından birini – Mustafa xan Dəvəlini Şamaxıya hakim təyin etdi. Lakin Musatafa Dəvəli yerli sakinləri sıxışdırdığına görə onlar tərəfindən qətlə yetirildi. Hamı gözləyirdi ki, Ağa Məhəmməd xan sakinlərə divan tutacaq. Lakin Ağa Məhəmməd xan nadir hallarda hisslərinin əsiri olurdu. O, yalnız siyasi məqsədlər tələb etdikdə qəddar olurdu. Buna görə də Şamaxı sakinləri onun yanına gəlib aman diləyən kimi, dərhal onları əfv etdi. İrəvan xanı da öz tabeçiliyini bildirdi [124, s.334-335]. Ağa Məhəmməd xan Pəmbək, Borçalı və Qazaxı da İrəvan xanının idarəçiliyinə verdi [122.2, 65].

1796-cı ilin sonunda Ağa Məhəmməd nəhayət ki, tacqoyma mərasimi keçirdi. O, Nadir şahın bahalı tacını başına qoymaqdan imtina etdi (bu tacın üstündə olan 4 qəşəng lələk tabe olunmuş Əfqanıstan, Hindistan, Türküstan və İranın rəmzi idi) və yüngül bir tacı başına qoydu. Ancaq, Şeyx Səfəvi məqbərəsində xeyirdua verilmiş qılıncı belindən asmağa razı oldu [124, s. 335-336].

Ağa Məhəmməd şah Xorasana hərəkət etdi. Yolüstü basqınçılıqla məşğul olan türkmən tayfalarını cəzalandırmaq üçün

Astrabad vilayətinə daxil oldu. Astrabad türkmənlərinin başçısı İshaq xan Turbu Heydəri şahın hüzuruna gəldi və öz itaətini bildirdi [124, s.337].

Ağa Məhəmməd şah Astrabaddan Məşhədə hərəkət etdi. Məşhəd əhalisi Nadir şahın nəvəsi Nadir Mirzənin hakimiyyətindən çox narazı idi və buna görə də Ağa Məhəmməd şahın gəlişini sevinclə gözləyirdi. Nadir Mirzə şahın yaxınlaşması xəbərini eşidib şəhərin idarəsini kor atası Şahruxa tapşırıb qaçdı. Şah qoşunları Məşhədə yaxınlaşdıqda Şahrux öz əyanları ilə Ağa Məhəmməd şahın pişvazına çıxdı və öz itaətini bildirdi [124, s.337-338].

Ağa Məhəmməd şah Şahruxdan Nadir şahın gizlədilmiş sərvətini tələb etdi. Şahruxa işgəncələr verdikcə bir-bir daş-qaşların yerini deyirdi. Ən sonda xəmiri başına yapıb içinə əridilmiş qurğuşun tökdülər. Qurğuşun soyuduqca bərkiməyə başlayıb Şahruxun başını sıxmağa başladı. Bu cür dəhşətli işkəncəyə dözməyən Şahrux Ağa Məhəmməd şahın ən çox axtardığı, bir vaxtlar Ayrəngzabın tacını bəzəmiş olan yaqutun yerini dedi. Yalnız bundan sonra işgəncələri dayandırdılar. Şahrux ailəsi ilə birlikdə Mazandarana göndərildi və bir neçə gündən sonra 63 yaşında öldü [124, s.340-341].

Ağa Məhəmməd şah Məşhəddən Buxara hakimi Əbdülqazı xana elçi göndərib İran ərazisinə basqınların dayandırılmasını, Buxara bazarlarında satılan iranlıların azad olunmasını tələb etdi. Lakin müsbət cavab almadı və Əfqan hökmdarı Zaman şaha məktub yazıb birlikdə Türküstana hücum etməyi təklif etdi. Ağa Məhəmməd şahın saray tarixçisinin yazdığına görə Zaman şah bu təkliflə razılaşmış, yalnız rus ordusunun Cənubi Qafqaza yürüşü düşünülən bu tədbiri həyata keçirməyə imkan verməmişdi [124, s.341].

Ağa Məhəmməd şah rusların Cənubi Qafqaza yürüşü haqqında eşidib, bir nəfər qohumunu Məşhədə hakim təyin edib, dərhal Tehrana qayıtdı (sentyabrın 20-də). Vaxt hərbi əməliyyatlara başlamaq üçün əlverişli deyildi [124, s.343].

## §2. V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycanı işğal etmək cəhdi

Ağa Məhəmmədin hücumu zamanı rus qoşunlarının yardım göstərməməsini müxtəlif cür izah edirlər. Bəziləri belə hesab edir ki, qoşunlar bütün Qafqaz xətti boyunca səpələndiyindən gen. Qudoviç 3-4 həftədən tez onları toplayıb köməyə gedə bilməzdi. Digərləri hesab edirlər ki, II İrakli rus ordusunun gəlməsinin Gürcüstan üçün ağır yük olacağını və Ağa Məhəmməd xanın hansı bir səbəbdənsə nəzərdə tutduğu yürüşdən imtina edəcəyini fikirləşərək Rusiyaya yardım üçün müraciət etməkdə çox tərəddüd etmiş, bununla da vaxt əldən verilmişdi [124, s.341-342].

O.P.Markovanın yazdığına görə Peterburqda ümid edirdilər ki, rus tacirlərinə loyal münasibət bəsləyən Ağa Məhəmməd xan Rusiyanın himayə etdiyi ərazilərə hücum etməz. Fikrimizcə, ola bilsin ki, rus hökuməti Qacarın Azərbaycana, eləcə də onun himayəsində olan Gürcüstana hücum hazırlıqlarına qəsdən göz yumurdu ki, sonra Qacar təhlükəsini bəhanə edərək bu yerləri zəbt edə bilsin.

İlk vaxtlar Rusiya Qacara qarşı ikiüzlü siyasət yeridirdi. Ona düşmən münasibət bəsləsə də, hələlik üzdə mehribanlıq göstərməyə çalışırdı. Bununla bərabər Qacarın Cənubi Qafqaza hücumunun qarşısını almaq üçün müəyyən ehtiyat tədbirləri də görürdü.

Bu zaman Azərbaycan xanlarının Rusiyaya münasibəti birmənalı deyildi. Qubalı Şeyxəli xan hakimiyyətə gəldiyi ilk vaxtlardan Rusiyanın Cənubi Qafqaza qarşı yeritdiyi işğalçı siyasətdən narazılığını büruzə verirdi. Hətta o, uzun müddət Quba xanlığının Rusiyada nümayəndəsi olmuş Mirzə Sadığı sıxışdırmağa başlamışdı.

Yalnız Ağa Məhəmməd xan Qacarın Şimali Azərbaycan xanlarından tabe olmalarını tələb etməsi Şeyxəli xanı Rusiya ilə Qacarlar dövləti arasında manevr etməyə, zahiri də olsa Rusiyaya müsbət münasibət bildirməyə vadar etdi. 1793-cü ilin martında Şeyxəli xanın nümayəndəsi Qafqazdakı rus qoşunlarının komandanı gen. İ.Qudoviçin Georgiyevsk şəhərində yerləşən

qərargahına gəldi və Rusiya himayəsinə keçmək barəsində and içdi. Qudoviç Şeyxəli xanın Rusiya himayəsinə keçməsini rəsmiləşdirməyi təklif edərək tərtib edilmiş andlı öhdəliyi ona göndərdi. Ancaq, Şeyxəli xan, guya yerli adətlərə zidd olduğundan andlı öhdəliyi imzalamaqdan qəti surətdə imtina etdi və Rusiya hakimiyyətinə ünvanladığı məktubda yazılanların həqiqət olduğunu sübut etmək üçün Quranı öpməklə kifayətləndi [6, v.30-33; 85. 2, s.796].

Rus hökuməti Quba xanlığının və xüsusən Dərbənd şəhərinin mühüm strateji əhəmiyyətə malik olmasını nəzərə alaraq, Şeyxəli xanla münasibətdə daha mülayim siyasət yürüdürdü. Qudoviçin raportunu müzakirə edən Dövlət Şurası qərara aldı ki, bundan sonra andlı öhdəliyi imzalatdırmaq üçün Şeyxəli xana təzyiq göstərilməsin və general Qudoviçə icazə verilsin ki, xanın nümayəndəsini Peterburqa yola salsın.

Gen. Qudoviçin 1795-ci il martın 19-da Dövlət Şurasında dinlənilən raportunda bakılı Hüseynqulu xanın nümayəndəsinin gələrək sədaqət andını içmək üçün Peterburqa göndərilməsini xahiş etdiyi bildirilirdi. Şura bildirdi ki, nümayəndələrin Peterburqa göndərilmələri çox xərc tələb edir, eyni zamanda bu çox zaman tələb edir. Buna görə də Qudoviç çalışmalıdır ki, yerli hakimlərin nümayəndələri elə onun yanında and içsinlər [85.2, s.797].

Çox keçmədən lənkəranlı Mir Mustafa xan Rusiyaya elçi – Mir Əsədulla bəyi göndərdi. Elçi 1796-cı ilin əvvələrində Qafqaz xəttinə gəldi. Mir Əsədulla bəy martın 20-də Xarici işlər kollegiyasının vise-kansleri tərəfindən qəbul olundu. Elçi xanın kollegiyanın başçısına ünvanladığı məktubu təqdim etdi [122.2, v.8]. Belə məlum olurdu ki, Mir Mustafa xan hələ Rusiya himayəsini qəbul etmək haqqında qəti qərara gəlməyib.

Xan yazırdı ki, Ağa Məhəmməd xan onun Rusiyaya meylindən xəbər tutub çoxsaylı qoşunla Lənkəran xanlığına basqın etmişdir. Mir Mustafa xan Salyanın rus qoşunlarının himayəsində olduğuna əmin olub, bura sığınmaq niyyətinə düşmüşdür, ancaq əvvəlcə xanlığın bir neçə sakinini ora göndərmişdir. Lənkəran xanı yazırdı ki, Lənkəran sakinləri Salyanda qəbul olunmuşdurlar,

ancaq onlarla neçə rəftar olunduğu, kolegiyaya məlumdur. Xan daha sonra yazırdı ki, o, hal-hazırda rusların nəzarəti altında olan Sarı adasındadır. Əsədulla bəyi Rusiya sarayına göndərərək Tarkı Şamxalı ilə bərabər hüquqda himayəyə qəbul olunmasını xahiş edir [79.2, v.11 və a.ü.].

Əsədulla bəy Mir Mustafa xanın adından Rusiyaya sədaqət andı içmişdi [79.2, v.19-20].

Bir neçə gün sonra martın 31-də vitse-kansler elçini çağırıb bildirmişdi ki, o, xanın məktubu haqqında imperatriçəyə məlumat vermişdir. İmperatriçə Lənkəran xanlığından Salyana sığınmış bir neçə yüz ailə ilə necə rəftar olunması haqqında məlumat tələb etmişdir. Doğrudan da Mir Mustafa xanın məktubunun rusca tərcüməsinin mətni üzərində ikinci Yekaterinanın əli ilə yazılmış belə bir qeyd var, "Bu haqda xahiş edirəm mənə məlumat göndərilsin!" [79.2, v.11-21].

Arxivdə Mir Mustafa xanın Əsədulla bəyi göndərməsindən əvvəl Dərbənd vasitəsi ilə Qudoviçə çatdırılmış məktubu durur. Həmin məktubdan aydın olur ki, Salyana sığınan Lənkəran ailələri ilə pis rəftar edilmişdir. Mir Mustafa xan Salyan sakinlərinin narazılığını görüb Talışa qayıtmışdır [79.2, v.14].

Qeyd edək ki, Lənkəran xanının elçisinin saxlanmasına o zaman üçün kifayət qədər çox olan vəsait xərclənmişdir. Belə ki, 6 aylıq müddət üçün səfirin özünə 1440 rubl xərclik verilmiş, bundan əlavə ona xidmət edənlərə, mənzil və s.-əyə 2481 rubl xərclənmişdi. Eləcə də səfirin şəhərdən kənar yerlərdə gəzinti və bu kimi digər nəzərdə tutulmayan tədbirlərinə daha 500 rubl xərclənmişdir. Əsədulla bəy və onu müşaiyət edənlərin geri Yeqorovska dönməsi üçün 3894 rubl 442 qəp xərclənmişdi. Bunlardan əlavə bəxşiş kimi Əsədulla bəyə 1000 rubl və brilyant üzük, oğluna 300 rubl və göy rəngli daş qaşlı (yəni, firuzə) üzük, səfirin qulluqçusuna 50 rubl, səfiri müşaiyət edən rus pristavına 150 rubl, tərcüməçi vəzifəsini ifa edən kazaka 30 rubl verilmişdir.

Bakının Rusiya ticarəti üçün çox böyük əhəmiyyətini nəzərə alan gen. Qudoviç Bakı xanının ayrılıqda Rusiya himayəsinə qəbul olunmasını təklif edərək bunun nəhayət ki, Şeyxəli xanın Bakıya iddiasına son qoyacağını bildirdi. 1795-ci ilin sentyab-

rında II Yekaterina Bakı xanının ayrıca olaraq Rusiya təbəəliyinə qəbul olunmasına icazə verdi və dekabrın 5-də xanın nümayəndəsi Peterburqa yola salındı. Qudoviç xanın özünün şəxsən sədaqət andı içməsini, xanın rus hakimiyyət orqanları ilə razılaşdırmadan heç bir xarici siyasi tədbir görməməsini, Bakıda rus tacirlərinə imtiyazlar verilməsini, Bakıda rus konsuluna iqamətgah verilməsini və rus hökumətinin lazım bildiyi sayda rus hərbi gəmilərinin Bakı limanında durmasına icazə verilməsini, tələb edirdi [122.2, s.14].

II Yekaterinanın gen. Qudoviçə 4 sentyabr 1795-ci il tarixli buyruğunda deyilirdi ki, Ağa Məhəmməd xan tərəfindən təhlükə artdığı bir zamanda Rusiya himayəsində olan Kartli-Kaxetiya çarlığını qorumaq üçün tədbirlər görülməlidir. Qudoviçə II İrakliyə yardım üçün artilleriya ilə birlikdə iki piyada taboru göndərmək barədə sərəncamı verilmişdi. Vəziyyət tələb edərdisə yenə iki tabor göndərmək olardı. Buyruqda Azərbaycan xanlarına xüsusi yer ayrılmışdı. Vaxtilə Əlimurad xanın Azərbaycan ərazilərini Rusiyaya güzəştə getməyə hazır olduğunu xatırladan imperatriçə bildirirdi ki, bu ölkəni ələ keçirmək haqqında planı dəyişilməz qalır. Qudoviç Qacarın nümayəndələrinə üçüncü şəxs vasitəsilə təlqin etməli idi ki, əgər Rusiya tərəfindən dəstəklənməsini istəyirsə, o da Gürcüstana və Azərbaycana iddialarından əl çəkməlidir. Yaxşı olar ki, Ağa Məhəmməd xan hərbi əməliyyatları Bağdad və digər osmanlı ərazilərinə tərəfə yönəltsin, bu təqdirdə Rusiyanın loyal münasibətinə ümid bəsləyə bilər [122.2, s.22-25].

Fərmanda deyilirdi: "hərgah o, (Ağa Məhəmməd – T.M.) Şirvana daxil olub, Şamaxı və Bakını tutaraq və bununla Xəzər dənizinə və bizim hüdudlarımıza yaxınlaşsa, zəruri hazırlıqları və bütün lazımi tədbirləri görmək yolu ilə onun Dağıstana mümkün hərəkətinin qarşısı alınmalı və Dərbəndin bizim qoşunlar tərəfindən tutulması yolu ilə təbəələrimiz Tarki şamxalı, Qaraqaytaq usmisi və Dərbənd xanının təhlükəsizliyi təmin edilməli və himayəsiz qoyulmamalıdır. Sonrakı yürüşdə isə Ağa Məhəmməd xanın qoşun yığıntısını məğlub və təqib etməyə çalışmalı, əgər axıradək mənafelərimizə və iradəmizə müqavimət göstərməyə

cəhd edərsə onu hakimiyyətdən kənar etməli!” [122.2, s.60-61; 9,550]. Böyük hərbi qüvvəlləri toplayıb, onları səfərə hazırlayıb göndərmək vaxt tələb edirdi. Buna görə də rus hökuməti əvvəlcə daha kiçik hərbi dəstələri Cənubi Qafqaza göndərməyi qərara aldı. 1795-ci ilin noyabrında Şərqi Gürcüstana, dekabrında isə Xəzərsahili ərazilərə hərbi dəstələr göndərdi. Gürcüstana göndərilən 1500 nəfərdən ibarət 6 topu olan iki tabora polkovnik Sıroxnev başçılıq edirdi [122.2, s.61]. Xəzəryanına göndərilən dəstəyə general İ.Savelyev başçılıq edirdi. Savelyevin hərbi birləşməsində 3 piyada taboru, bir nizami kazak eskadronu, 400 kazak, 500 kalmık və 6 səhra topu vardı [183.1, v.18 a.ü.-19; 123, s.216]. Birləşmədə cəmi 3365 nəfər var idi, sonralar bu birləşmə daha iki taborla gücləndirilmişdi.

Savelyevin başçılıq etdiyi qüvvələr 1795-ci ilin dekabrın 19-da Qızlardan hərəkətə başlayıb, 1796-cı il fevral ayının ortalarında Dərbənd şəhərinə yaxınlaşdı.

Elə görünürdü ki, rus hökuməti Ağa Məhəmməd xana qarşı mübarizəni əsasən Qafqazın yerli hakimlərinin qüvvələri ilə aparmaq niyyətində idi. Belə ki, İ.Qudoviçin İ.Salayevə verdiyi əmrdə deyilirdi ki, sonuncu öz dəstəsilə Buynaka gedib bütün Dağıstan hakimlərini toplamalı və onlara Ağa Məhəmməd xana qarşı mübarizə üçün qoşun hazırlamağı tapşırmalı idi. Bundan sonra Savelyev sürətlə hərəkət edib Dərbəndi ələ keçirtməli və Şeyxəli xanı Ağa Məhəmməd xana qarşı hərbi əməliyyatlara qoşulmağa vadar etməli idi [145, s.109].

Dərbənd şəhəri o zaman məlum olduğu kimi şərqdən qərbə dəniz sahilindən qayalara və alçaq dağlara qədər uzanan qabarıq dördbucaqlı formasına malik idi. Dərbənd Xəzər dənizi ilə Böyük Qafqaz dağları arasında keçidin daha ensiz hissəsində yerləşir. Şəhər şimal və cənub tərəflərdən hündür və qalın daş divarlar və bürclərlə əhatə olunmuşdur. Beləliklə, Dərbəndin 1796-cı ildə tərtib edilmiş təsvirindən görünür ki, bu o zaman çox möhkəm qala olmuşdur [148, s.178]. Qala divarlarının hündürlüyü bəzi yerlərdə 7 sajenə çatırdı. Özülündə qalınlığı iki sajenə yaxın olub, yuxarıya doğru daralır və üstü dişlidir. Qalanın divarları boyu 80-ə qədər bürc qurulmuşdu. Şəhərin qərb və dağlıq his-

səsi qəsrdir. Dərbənd qalası mühüm strateji məntəqə idi, oranı Cənubi Qafqazın və hətta İranın açarı hesab edirdilər.

1796-cı ilin fevralın ortalarında Dərbəndə yaxınlaşan Savelyev Şeyxəli xandan Rusiya təbəəliyini qəbul etmiş bir hakim kimi şəhəri təslim etməsini tələb etdi. Lakin xan nəinki bu tələbi qəbul etmədi, hətta Quba qoşunları Darbağ çayı tərəfindən Dərbəndə sarı hərəkət edən rus qoşunlarını güclü atəşə tutdu [4, s.31]. Ancaq ruslar Dərbəndin 2 verstliyinə yaxınlaşıb burada düşərgə saldılar. Savelyev başa düşdü ki, şəhər ətrafındakı hakim yüksəklikləri almadan qalanı ələ keçirtmək mümkün olmayacaq. Buna görə də bütün qüvvələrin yüksəkliklərin ələ keçirilməsinə yönəldilməsi qərara alındı. Fevralın 19-da başlayan və 3 gün fasiləsiz yağan güclü qar Savelyevə düşünülən planı həyata keçirtməyə imkan vermədi. Fevralın 21-də ruslar səhər tezdən gizlincə qala divarlarına yaxınlaşmağa cəhd göstərdilər. Lakin vaxtında düşmənin niyyətini anlayan dərbəndlilər qaladan güclü atəş açmaqla bu cəhdin qarşısını aldılar [4, s.31-32]. Belə olduqda şəhər uzaq məsafədən top atəşinə tutuldu və 12 saat davam edən bu atəşin də bir elə təsiri olmadı. Rus artilleriyasının ciddi dağıntı törətdiyini görən dərbəndlilər gizli yolla şəhərdən çıxaraq qəflətən rusların üzərinə hücum etdilər. Savelyev bəzi Dağıstan hakimlərinin yardımı ilə bu hücumun qarşısını ala bildi [4, s.24].

Dərbənd müdafiəçilərinin müqavimətini qıra bilməyəcəyini anlayan İ.Savelyev atəşə ara verib, danışıqlara başladı. Onun təklifilə fevralın 22-də Şeyxəli xanın yüksək rütbəli məmurları Əhməd bəy və İmamqulu bəy rus hərbi düşərgəsinə gəldilər, tezliklə mayor Qolyaxotski və poruçik Savelyevi də özlərilə götürüb Dərbəndə qayıtdılar [4, s.34].

Danışıqlar zamanı ruslar riyakarcasına bildirdilər ki, onların əsas məqsədi heç də Dərbəndi işğal etmək olmayıb, guya Ağa Məhəmməd xanın Azərbaycan xanlıqlarını ələ keçirtməsinin qarşısını almaqdan ibarətdir. Buna görə də Quba xanı nəinki rus qoşunlarını Dərbəndə buraxmalı, həm də onlarla birləşərək Ağa Məhəmməd xan Qacara qarşı yürüşdə iştirak etməlidir. Savelyev Şeyxəli xanın əvvəllər rus himayəsinə keçmək haqqında öhdəlik götürdüyünü və bu səbəbdən də guya Dərdəndin artıq Rusiya tabeliyinə keçdiyini tez-tez vurğulayırdı.

Lakin Şeyxəli xan bildirdi ki, rusların nəinki bütün ordusunu, hətta 10 nəfər əsgərini belə Dərbəndə buraxa bilməz, çünki Ağa Məhəmməd xan bundan xəbər tutsa Quba xanlığına məxsus olan Salyan şəhərini zəbt edib dağıda bilər [4, s.35].

Əslində, Şeyxəli xan danışıqlarla vaxt qazanmaq və öz mövqelərini möhkəmləndirməyə çalışırdı. Əldə olan məlumatlara görə o, öz nümayəndəsini Ağa Məhəmməd xanın Muğandakı düşərgəsinə göndərmiş və ondan ruslara qarşı yardım istəmişdi [4, s.24]. Lakin güman ki, ruslarla hərbi toqquşmaya girmək istəməyən Ağa Məhəmməd xan Şeyxəli xana yardım göstərmədi.

Fevralın 23-də danışıqlar davam etdirildi. Şeyxəli xan öz nümayəndəsi Sultan Məhəmməd vasitəsilə bildirdi ki, rus əsgərlərinin Dərbəndə buraxılması həm də müsəlman qaydalarına ziddir. Çünki şəhərə buraxılan rus əsgərləri yerli sakinlərin evlərində məskunlaşacaqlar. İslam dini isə müsəlmanlarla xristianların eyni evdə yaşamalarını qadağan edir [4, s.36-37].

İ.Savelyevin yürüşünün tam boşa çıxdığını görən rus komandanlığı bu dəstənin tamamilə məhvinin qarşısını almaq üçün onun Dərbənddən xeyli geri çəkilib, təhlükəsiz bir yerdə düşərgə salaraq ordunun əsas hissələrini gözləməsini əmr etdi [183.1, v.41 və a.ü.].

Gürcüstana və Azərbaycanın Xəzəryanı ərazilərinə göndərilmiş azsaylı hərbi birləşmələrin qarşıya qoyulan vəzifələri yerinə yetirə bilmədiyini görən rus hökuməti 1796-cı ilin əvvəllərində regiona böyük ordu göndərmək qərarına gəldi. O.Markovanın yazdığına görə yürüşə başçılıq general feldmarşal A.V.Suvorova təklif olunsa da o bu təklifdən boyun qaçırdı [153, s.201]. Əslində isə tarixi qaynaqlarda bu barədə heç bir məlumata rast gəlməmişik. II Yekaterinanın məşuqlarından biri olan Platon Zubovun 24 yaşlı gənc qardaşı qraf general Valerian Zubov həmin orduya komandan təyin edildi. 1796-cı il fevralın 19-da imperatriçənin bu ordu qarşısında qoyulan vəzifələri göstərən buyruğu dərc olundu [181, v.3-29 a.ü.122. 2, s.85].

II Yekaterinanın 19 fevral buyruğunun giriş hissəsi İranda hakimiyyət uğrunda mübarizənin və Ağa Məhəmməd xanın yük-

səlişinin təsvirinə həsr olunmuşdur. Qacarın Rusiyaya və onun himayəsində olan hakimlərə göstərdiyi düşmənçilik münasibətləri önə çəkilir, bununla rus qoşunlarının yürüşü bir növ əsaslandırılırdı. Buyruğun xeyli hissəsi Ağa Məhəmməd xanın 1795-ci ildə Cənubi Qafqaza etdiyi yürüşə həsr olunmuşdur. Buyruğun mətnindən aydın olur ki, rus hakim dairələri Qacarla Osmanlı sarayı arasında hansısa razılaşmanın olduğuna şübhə etmirdilər. Buyruqdan aydın olur ki, V.Zubovun qarşısında yalnız Ağa Məhəmməd xanı Cənubi Qafqazdan sıxışdırıb çıxartmaq deyil, həm də İrandan keçməklə Hind okeanına çıxmaq kimi uzağa gedən vəzifə qoyulubmuş.

Rus hərbi tarixçisi V.Potto qeyd edir ki, V.Zubovun başçılığı ilə rus qoşunlarının yürüşü əslində "yunan layihəsi"nin yeniləşdirilmiş variantı idi. Bu layihəyə görə V.Zubov Qacarı darmadağın edib İranı ələ keçirtdikdən sonra Kiçik Asiyanı zəbt etməli və buradan hərəkət edib İstanbul şəhərini mühasirəyə almalı idi. Eyni zamanda A.Suvorovun başçılıq etdiyi digər ordu Balkan yarımadası və Ədirnə istiqamətindən, P.Zubovun başçılıq etdiyi rus donanması isə Qara dənizdən həmlə edərək İstanbulun işğalını başa çatdırmalı idilər [169.1, s.286].

Mənbələrin təhlili göstərir ki, rus qoşunlarının başlıca məqsədlərindən biri də Cənubi Qafqazda xristian amilini gücləndirmək olmuşdur. Bunun üçün də Kartli-Kaxetiya çarlığının gücləndirilməsinə xüsusi fikir verilirdi.

P.Zubov II İrakliyə 30 aprel 1796-cı il tarixli məktubunda yazırdı ki, Gürcüstandakı dağınıqlığa son qoymaq lazımdır ki, onun hakimiyyəti Araz çayından Osmanlı imperiyasının sərhədlərinə qədər uzansın. II Yekaterina V.Zubovun qarşısında Gəncə və İrəvan xanlıqlarını Kartli-Kaxetiya çarlığına birləşdirmək vəzifəsini qoymuşdu [115, s.140-142].

Bunu da qeyd etmək lazımdır ki, rus hökuməti Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq məsələsini də diqqətdə saxlayırdı. Planın həyata keçirilməsində böyük canfəşanlıq edən erməni arxiyepiskopu İ.Arqutinskinin V.Zubovun rəsmi məsləhətçisi təyin edilməsi də buna sübut idi. İ.Arqutinski Dərbəndə gəldikdən sonra Qarabağ məliklərinə müraciətlə bildirmişdi ki,

rus qoşunlarının yürüşünün başlıca məqsədi "ermənilərі müsəlmanların əsarətindən xilas etməkdir" [122.2, s.147-148]. Yeri gəlmişkən V.Zubov bir qədər sonra Gəncəni zəbt etmək üçün göndərdiyi gen. Rimski-Korsakova ünvanladığı təlimatda yazırdı ki, "bizim provaslav" məzhəbimiz xristianları müsəlmanın əsarətindən tezliklə xilas etməyi tələb edir [152, s.50].

Rus komandanlığı yerli müsəlman əhalisinin müqavimətindən qorxaraq bu məkrli niyyətləri gizlətməyə çalışırdı. V.Zubovun irəlidə xatırlanan təlimatında deyilirdi ki, müsəlmanlarda bu məsələ haqqında vaxtından əvvəl şübhə yaranmasına imkan verməmək gərəkdir. O, Rimski-Korsakova məsləhət görürdü ki, bu məsələdən artıq xəbərdar olan Qarabağ məliklərini və digər xristianların vaxtından əvvəl çıxış etmələrinə yol vermək olmaz [152, s.50]. Ancaq nə qədər səy göstərilsə də yürüşün gedişi zamanı bir sıra Azərbaycan xanları bu məsələ ilə bağlı məlumat əldə etdilər.

Buyruqda deyilirdi ki, Ağa Məhəmməd xan bir çox yerləri özünə tabe etdikdən sonra öz qoşunlarının sayını 200 min nəfərə çatdırmaq fikrinə gəlsə də, nə bu, nə də iranlıların Kürdüstana gəlməsi Osmanlı sarayını narahat etməmişdir. Maraqlıdır ki, 1795-ci ildə Ağa Məhəmməd xan öz qoşunlarını Osmanlı sərhədlərinin yanı ilə apararaq, heç yerdə Osmanlı imperiyasının sərhədlərinə toxunmamışdır. Buyruqda qeyd olunurdu ki, Osmanlı sarayı özünü narahat və qayğılanmış göstərirsə də bir yandan iranlıların osmanlı torpaqlarına toxunmamaları, digər yandan paşaların Ağa Məhəmməd xanın bütün tələblərini yerinə yetirmələri və ona hər zaman rəğbət göstərmələri, hətta onun tələbi ilə qoşunları üçün ərzaq göndərmələri aydın şəkildə onların arasında razılıq olduğunu göstərir. Rus hökuməti belə hesab edirdi ki, osmanlıların öz təhlükəsizliyini təmin etmək pərdəsi altında, Asiyadakı sərhəd paşalarına artilleriya, zəruri ehtiyatlar, xüsusən də hərbi sürsat göndərmələri "yırtıcının" (Ağa Məhəmməd xanın – T.M.) əli ilə Rusiya mənafelərinə zərbə endirilməsi üçün bu ehtiyatların qacarların əlinə keçməsi məqsədini güdür [78.1, v.304 a.ü. – 305].

Buyruğun əsas hissəsi hərbi əməliyyatların istiqamətlərinin müəyyənləşdirilməsinə və hərbi əməliyyatların keçirilməsi plan-

larına həsr edilmişdir. Yürüşü iki istiqamətdən – Dəryal keçidi vasitəsilə Gürcüstan və Dərbənd keçidi vasitəsilə Azərbaycan istiqamətində keçirmək planlaşdırılırdı. Dəryal keçidi vasitəsilə hərəkət edən hərbi birləşmə Qafqaz korpusu adlandılırdı və onun qarşısında Gürcüstandan keçib Gəncə xanlığını zəbt etmək və Qarabağ xanlığının ərazisinə daxil olmaq vəzifəsi qoyulmuşdu. Bu korpus Qarabağda xristianları hakimiyyətə gətirməli və sonra Xəzər korpusu adlandırılan əsas korpusla birləşməli idi [184.1, v. 8-9].

II Yekaterina general Qudoviçə və kontradmiral Fyodorova dərhal Həştərxana – öz dislokasiya yerlərinə getmələrini əmr edirdi. V.Zubova göstəriş verilirdi ki, dərhal Qafqaz quberniyasına yollansın, Qudoviçin qərargahına gedib yürüş üçün lazım olan bütün əlavə məlumatları ondan alsın [78.1, v.310 a.ü.-311]. Gen.-mayorlar Serqey Bulqakov, İvan Savelyev, Aleksandr Rimski-Korsakov, Qavriil Raxmetov, knyaz Pavel Sisianov, baron fon Beniksen və briqadir qraf Apraksin Zubovun tabeçiliyinə verilirdi. Gen.-mayor Matvey Platov da komandasında olan Birinci Çuquyev alayı ilə şəxsən V.Zubovun özü tərəfindən başçılıq ediləcək qoşunlarla birləşmək üçün göndərilirdi [78.1, v.311 a.ü.-312].

Yürüşə göndərilən birləşmələrin tərkibinə qrenader alayı, iki muşketyor alayı, bir yeger korpusu, 30 draqun eskadronu, 3 min yüksək hazırlıqlı yüngül döyüşçü, 33 səhra topu daxil idi. Qudoviç gələcəkdə desant kimi istifadə olunmaq üçün Həştərxana iki muşketyor taboru göndərməli idi [122.2, s.68-69].

V.Zubova tapşırılırdı ki, hərbi hissələri təşkil edib, yürüşə hazırladıqdan sonra hərəkətə başlasın. Yürüşü yazın lap əvvəlində başlamaq nəzərdə tutulurdu ki, hərbi əməliyyatların əsas mərhələsini möhkəm istilər düşənə kimi bitirmək olsun [78.1, v.312 a.ü.-313].

Buyruqda yürüşün əsl məqsədləri pərdələnərək belə ifadə olunurdu: Gütcüstanı azad etmək, gürcü çarını, Qarabağ məliklərini, Ağa Məhəmməd xana qətiyyətlə və mərdanə müqavimət göstərmiş şuşalı İbrahimxəlil xanı və digər sıxışdırılmış və Rusiyaya xeyirxah münasibət bəsləyən xanları gücləndirmək [78.1, v. 314].

Əsas hərbi əməliyyatları Xəzər korpusu Xəzər dənizi sahili boyunca cənub istiqamətində aparmalı idi. Bu zaman isə Qafqaz korpusu Tiflisdən Qarabağa doğru hərəkət etməli, sonra Xəzər korpusu ilə əlaqə yaratmalı idi. Daha sonra rus qoşunları Araz çayını keçib Ağa Məhəmməd xana qarşı əməliyyat aparmalı idilər [78.1, v.314 a.ü.-315].

Bakı zəbt olunmalı və rus ordusunun təchizat bazasına çevrilməli idi. Burada Xəzər korpusunun qüvvələri hərbi dəniz qüvvələri ilə əlaqə yaratmalı və kontradmiral Fyodorovun quruya çıxardığı qüvvələrlə birləşməli idilər [78.1, v.314 a. ü. – 316].

Kaspi və Qafqaz korpusları birləşib Kür ilə Araz arasında əməliyyatlar aparmalı idilər. Xəzər donanması quru qoşunlarını dəstəkləməli idi. Mühüm vəzifələrdən biri kimi Bakını almaq qoyulurdu [78.1, v.315-316]. Ağa Məhəmməd xan Arazın o biri sahilinə sıxışdırılmalı və Arazdan o tərəfdə yaşayan əhali xana qarşı qalxmağa çağırılmalı idi.

Bakını almaqla V.Zubov dəniz qüvvələri ilə birləşməklə yanaşı burada ordunun başlıca təchizat bazasını yaratmalı idi; Əgər Ağa Məhəmməd xanı məğlub etmək mümkün olsa rus ordusunun irəliyə hərəkəti davam etdirilməli, hərbi əməliyyatlar yaz girən kimi başlamalı və möhkəm istilər düşənə kimi həyata keçirilməli idi. Yürüşün birinci mərhələsi bütün hissələrin Araz sahilində birləşməsi ilə başa çatacaqdı [78.1, v.310-317].

Fəal hərbi əməliyyatların keçirilmədiyi dövrdə gürcülərin və ermənilərin mövqeləri daha da möhkəmləndirilməli, Azərbaycan və Dağıstan əhalisi inandırılmalı idi ki, rus hökumətinin Ağa Məhəmməd xanı cəzalandırmaqdan başqa, heç bir niyyəti yoxdur. Bu zaman əsas diqqət Gilanın tutulması üçün hazırlıq işlərinin başa çatdırılmasına yönəldilməli idi. Xəzər dənizindəki rus hərbi donanmasının komandanı admiral Fyodorov 1796-cı ilin sentyabr ayınadək Rusiyada sığınacaq tapmış Murtuzaqulu xanın iştirakı ilə Gilana desant çıxartmaq üçün bütün lazımi tədbirləri görməli idi.

1796-cı ilin payızında yürüşün ikinci mərhələsi başlamalı idi. Bu mərhələdə rus ordusunun əsas qüvvəsi Araz çayını keçərək Azərbaycan xanlarının yardımı ilə Qacarın ordusunu darmadağın

etməli, dənizdən və qurudan həmlə etməklə Gilanı ələ keçirtməli və burada Murtuzaqulu xanın hakimiyyətini bərpa etməli idi. Əlverişli şərait yaranardısa rus ordusu Astrabad və Mazandaran vilayətlərini, Xəzər dənizinin şərq sahillərini ələ keçirtməli idi. Çariçə yazırdı ki, "bununla Xəzər dənizinin nəinki bütün suları, həm də bütün limanlar və sahilləri bizim əlimizdə olacaq [115, s.147-149]. Görünür II Yekaterina sələfi I Pyotrun Xəzər dənizini Rusiyanın daxili gölünə çevirmək planını gerçəkləşdirmək istəyirdi.

V.A.Zubova çox ətraflı – 30 maddədən ibarət bir təlimat verilmişdi. Təlimatda deyilirdi ki, V. Zubov Qafqaz xəttinə gedib komandanlığı qəbul edib yürüşə hazırlıqları başa çatdırmalı, generallar S.Bulqakovu, Q.Raxmanovu, İ.Savelyevi, A.Rimski – Korsakovu, knyaz P. Sisianovu, baron fon-Benikseni və briqadır A.F.Apraksini Kaspi korpusuna birləşdirməlidir. Yürüşün vaxtını Zubov özü təyin etməli idi. Təlimatın beşinci bəndində deyilirdi ki, Gürcüstandakı iki rus taboru əlavə qüvvələrlə möhkəmləndirilməli, Tiflis alınmalı və II İraklinin hakimiyyəti bərpa edilməlidir. 6-cı bənddə deyilirdi ki, Qafqaz korpusu Tiflisdən Kür çayının axarı boyunca Gəncəyə istiqamətlənməli, bu şəhərdən Qarabağ istiqamətində hərəkət edib bilavasitə V.Zubovun özünün başçılıq etdliyi Kaspi korpusu ilə əlaqə yaratmalı, qoşunların əsas gücü Xəzər dənizi sahillərinə yönəlməlidir, Rus ordusu Arazın cənubuna keçib Ağa Məhəmməd xanın hakimiyyətini ləğv etməyə çalışmalıdır. Qafqaz korpusu isə hərəkətlərini Kür və Araz çaylarının qovuşuğuna kimi davam etdirməlidir [186.4, v.1-7 a.ü; 73, s.286, s.418-419].

Təlimatın yeddinci bəndinə əsasən Bakı alındıqdan sonra quru qoşunları dəniz qüvvələri ilə birləşməli, Bakıda ordunun təchizat bazası təsis olunmalıdır. Təlimatda daha sonra deyilirdi ki, Xəzər donanması ilə Rusiyaya rəğbət bəsləyən Bakı və Lənkəran xanlarını dəstəkləmək üçün kontr – admiral Fyodorovun başçılığı ilə quruya çıxarılan qüvvələrlə Qafqaz korpusu ilə fasiləsiz və etibarlı əlaqə yaradılıb, bu yolla bütün qüvvələr birləşdirildikdən sonra Araz çayına qədər bütün ərazilər nəzarət altına alınmalı, bununla da, güclü istilər düşənədək hərbi əməliyyatların birinci

mərhələsi başa çatdırılmalı, qoşunlar payızadək dincəlmək üçün Araz kənarında yerləşdirilməli idilər. Yay ərzində Fyodorov Gilana dəniz ekspedisiyasına hazırlıq görməli, avqust, yaxud sentyabr aylarında Gilana güclü desant çıxarmalı idi. Payızda V.Zubov hərbi əməliyyatları Kür və Araz çaylarından cənuba keçirməli idi. Başlıca vəzifə Ağa Məhəmməd xanın qüvvələrini və hakimiyyətini ləğv etməkdən ibarət olmalı idi [186.4, v.1-7 a.ü.; 73, s.286, s.419-420].

Rus qoşunları Xəzəryanı vilayətlərə daxil olmazdan əvvəl həmin yerlərin əhalisi içərisində imperatriçənin bəyannaməsi və V.Zubovun bildirişləri yerli dillərə tərcümə olunub yayılmalı idi. Sakinlərə təlqin olunmalı idi ki, rus qoşunlarının məqsədi onları Qacarın zülm və işgəncələrindən qurtarmaqdır [122.2, 124]. Sənəddə deyilirdi: "...bizim himayəmizə meyl edən, müqavimət göstərməyəcək bütün xanlar, şəhərlər və xalqlar, xüsusilə də Ağa Məhəmməd tərəfindən qovulmuş və onun zalimliyindən zərər çəkənlərin səylərinə mükafat olaraq şəhərlərin hakimliyi, mülk sahibliyi təsdiq olunmalı və sonrakı xidmətlərinə görə istədiyiniz kimi müqavimət göstərənlərin hesabına təltif edilməlidirlər. Açıq düşmən olanlar digərlərinə görk olmaq üçün tezliklə hakimiyyətdən kənar edilməlidirlər, müqavimət göstərən şəhərlərdən isə onların imkanlarına uyğyn və siz necə düzgün hesab edirsinizsə xərac toplaya bilərsiniz" [97.1, s.370]. Təlimatın 15-ci maddəsi xüsusi olaraq qubalı Şeyxəli xana həsr olunmuşdu. Qeyd olunurdu ki, dəyişkən xasiyyətli cavan xana atasının yolu ilə gedib Rusiyaya sədaqət göstərməsinin zəruriliyini anlatmaq, əhatəsindəki Rusiyaya düşmən münasibət bəsləyən şəxsləri Həştərxana sürgün etmək lazımdır [186.4, v.1-7 a.ü; 73, s.286, s.420-421].

Təlimatda deyilirdi ki, Qafqaz korpusunun qüvvələrini əsas istiqamətdən yayındırmamaq, eləcə də Türkiyəni narahat etməmək üçün Türkiyəyə qonşuluqda yerləşən İrəvan xanlığı II İrakli və ona müttəfiq xanların qüvvələri tərəfindən nəzarət altına alınmalıdır [186.4, v.1-7, 73, s.286, s.421-422].

1796-cı ilin martında II Yekaterinanın yürüşlə bağlı bəyannaməsi nəşr olundu. Yürüşün keçəcəyi yerlərin hakimlərinə və

sakinlərinə ünvalanmış manifestdə yürüşün həqiqi məqsədləri pərdələnir, yürüşün əsas məqsədinin guya Ağa Məhəmməd xanı cəzalandırmaq, xalqları onun zülmündən qurtarmaq olduğu bəyan edilirdi [186.4, v.367-375; 122.2, s.124-129, s.290, s.425-427]. Rus qoşunları Cənubi Qafqaza daxil olduqdan sonra açıqlanmalı olan İmperator manifesti həm rusca, həm də türkcə çap olunmuşdu [78.1, v.360-372]. V.Zubovun 1796-cı ilin may ayında Cənubi Qafqaz xalqlarına etdiyi müraciət də təxminən Yekaterinanın manifestindəki fikirləri təkrarlayırdı [73, s.293, s.431].

V.Zubova təkcə hərbi hakimiyyət deyil, həm də siyasi hakimiyyət də verilmişdi. II Yekaterina 1796-cı il iyulun 27-də V.Zubova yazırdı ki, polkovnik Kovalenskini İran və Cənubi Qafqazda Rusiyanın işlər vəkili təyin etmişdir və Kovalenski də V.Zubova tabedir. Murtuzaqulu xan da Kovalenski ilə Qafqaza göndərilməli idi [79.9, v.8.32].

Lakin II Yekaterinanın nəzərdə tutduğu planın çox az hissəsini həyata keçirtmək mümkün oldu. Lazımi miqdarda hərbi qüvvəni vaxtında toplamaq mümkün olmadığından Qafqaz xəttinə gələn V.Zubovla G.Qudoviçin məşvərətində Qafqaz korpusunun yaradılması və onun Gürcüstana yeridilməsi planı təxirə salındı [122.2, s.86-87]. V.Zubovun başılıq etdiyi Xəzər korpusunun kompleklləşdirilməsi də çox ləng gedirdi.

Yürüşdə iştirak etməli olan rus qoşunları Qızlar ətrafında toplanmalı idi. General – poruçik V.A.Zubovun başçılıq etdiyi ordu 30 min nəfər əsgər və 100-ə qədər topa malik olmalı idi. Qoşunun bir hissəsi ordu artıq Azərbaycanda olduğu zaman, yəni 1796-cı ilin yayında və payızında gəldi [148, s.177].

Yürüşdə iştirak etməli olan bütün qüvvələrin toplanmasını gözləmədən V.Zubov 22.305 nəfərlik ordu ilə 1796-cı il aprelin 13-də Qızlardan Dərbəndə tərəf hərəkət etdi. Aprelin 27-də V.Zubov Urusbulaq adlı yerə çatıb dayandı. Qaraqaytaq usmisinin qardaşı və Tabasaran kadisinin oğlu itaətlərini bildirmək üçün Zubovun yanına gəldilər. Zubov onlardan öyrəndi ki, çətin də olsa Qaraqaytaq və Tabasaran ərazisindən Dərbəndin cənubuna keçmək üçün yol var. Zubov gen.-mayor Bulqakova əmr etdi ki, bələd verilən yolla öz briqadası ilə hərəkət edib şəhərin

cənubuna çıxsın [122.2, s.102-103]. Aprelin 29-da bundan əvvəl Dərbəndi almağa cəhd göstərmiş, uğur qazanmayıb Dərbənddən geriyə çəkilmiş Savelyevin dəstəsi Zubovun ordusuna birləşdi. Bununla da rus ordusunun sayı 26 min nəfərə çatdı [183.2, v.66; 180.3, v.10 a.ü.-11].

Aprelin 30-da gen.Bulqakovun 6 səhra topu ilə təchiz olunmuş birləşməsi hərəkətə başladı və Rusiya meylli Qaraqaytaq və Tabasaran hakimlərinin bələdçiliyi ilə 84 km-lik dağlıq məsafəni keçib mayın 3-də Dərbəndin cənubuna çıxdı. Ayın 4-də Bulqakovun dəstəsi Dərbəndin Dubarı adlanan hissəsinin qarşısında düşərgə saldı [181, v.46-48; 91, 64]. Şeyxəli xan əsas qüvvələri şimal istiqamətində cəmləşdirdiyindən Bulqakova qarşı əhəmiyyətli qüvvə ayıra bilmədi.

Qeyd edək ki, o zaman Dərbənd Azərbaycanın şimalında ən çox əhalisi olan şəhər idi. XIX əsrin lap əvvələrinə aid bir mənbədə şəhərdə 4 min evin olduğu yazılırdı [131, s.8]. Bu o deməkdir ki, o zaman Dərbənddə 20 mindən çox adam yaşayırdı. Şəhərin ən möhkəmləndirilmiş hissəsi olan Narınqalanın uzunu 102, eni isə 97 sajenə çatırdı [131, s.2].

Bir il əvvəl Rusiyaya sədaqət andı içsə də Şeyxəli xan şəhəri ruslara təslim etmədi [88, s.175]. Qeyd edək ki, şamaxılı Mustafa xan ümumi düşmənə qarşı mübarizədə qubalılara yardım göstərmək əvəzinə hətta Şeyxəli xanı ona yardım etmək istəyən Bakı xanlığı ilə təcrid etmişdi [80.4, v.9]. Şeyxəli xan Kürə və Qazıkumuk hakimi II Surxay xanla birlikdə 30 minə qədər süvari və piyada döyüşçü toplayıb rus düşərgəsinə hücum etmək istədilər. Eyni zamanda Şeyxəli xan yardım xahişi ilə öz nümayəndəsini Türkiyəyə göndərdi [122.2, s.102].

Dərbəndə yaxınlaşan Zubov gördü ki, şimal tərəfdən 60 sajen uzunluğunda qabağa çıxmış bürc nəinki qala divarlarını qoruyur, həm də rus əsgərlərinin yerdəyişməsini təhlükə altına alır. Buna görə də həmin bürcü güclü artilleriya atəşinə tutmağı əmr etdi. Lakin mərmilər bürcə qəti təsir göstərmir, geri sıçrayırdılar. Onda Zubov bu bürcdə yüzdən artıq döyüşçü yerləşməyəcəyini ehtimal edərək bürcü həmlə ilə almağı əmr etdi [80.3, v.44].

Gecə Voronej piyada alayının bir taboru və iki bölüyü bürcü almağa təşəbbüs etdi, lakin 25 döyüşçü itirdi, 31 nəfər isə ağır yaralandı; demək olar bütün zabitlər yaralanmışdılar [80.3, v.44 a.ü.].

Mayın 1-də Zubov Dərbəndə hücum təşkil etdi. Şəhərdən bir mil aralıda Quba və Dərbənd süvariləri kazakları qarşıladılar, lakin qubalılar müvəffəqiyyətsizliyə uğradılar [88, s.175].

Mayın 3-dən 4-nə keçən Bulqakovun dəstəsi cənubdan qalaya yaxınlaşdı. Bulqakovun əsgərləri 15 nəfər dərbəndlini əsir götürmüşdülər. Dərbəndlilər dindirilən zaman bildirmişdilər ki, onları Şeyxəli xan yardım xahişli məktublarla Bakıya və digər yerlərə yola salıbmış. Dərbəndlilərin söylədiyinə görə şəhərdə 2500 ev vardı və hər evdən bəzən üç nəfər hərbi xidmətə çıxırdı. Bütün sakinlər silahlı idilər. Ümumiyyətlə hesab edirdilər ki, Dərbənddə silahlıların ümumi sayı 10 min nəfərə çatır. O cümlədən, 400 kazıkumuk suvarisi, 1200-1300 qubalı, 90 qaraqaytaqlı, 800 akuşalı, 900 nəfər piyada və süvari xarbuxlar vardı [80.3, v.53-54]. Gecə hamı divarların üstünə və bürclərə qalxırdılar. Gündüz isə demək olar hamı yatırdı. Qalada hər birində 100 və daha artıq döyüşçünün yerləşdiyi 10 iri, hər birində 50-yə qədər döyüşçünün yerləşdiyi bir neçə ortahəcmli və hər birini 15-20 nəfərin qoruduğu 60-a qədər kiçik bürc vardı. Söylənilənlərə görə qalanın dənizə tərəf hissəsində hərəsi 1000 döyüşçüdən ibarət iki dəstə mövqe tutmuşdu. Divarlar özüldən yarıya qədər çox qalın idilər. Şəhərdə cəmi 4 su quyusu vardı, bir bu qədərdə bulaq şəhər ərazisindən axırdı.

Əsirlərin söylədiyindən məlum olurdu ki, dərbəndlilər Ağa Məhəmməd xan Qacarın yardımına ümid edirlərmiş. Ağa Məhəmməd xan vəd edibmiş ki, ruslar yaxınlaşan kimi Dərbəndə yardım göndərəcək [80.3, v.54].

Mayın 6-dan 7-nə keçən gecə ruslar üç topdan ibarət batareyanı qurdular və sübh tezdən həmin batareya 12 funtluq toplardan qalanın ön bürcünü atəşə tutdu. Ancaq 80 atəşdən sonra bürcə demək olar ki, xətər yetirilmədiyi məlum oldu. Bürcün qarşısında da torpaq daşlıq olduğundan səngər qazımaq mümkün deyildi. Yeganə çıxış yolu bürcə həmlə etməkdə görüldü. Mayın

7-də səhər saat 9 radələrində V. Zubov bürcü həmlə ilə almağı əmr etdi. Müdafiəçilərin qəhrəman müqavimətinə baxmayaraq bürc alındı [122.2, s.111-112].

Bundan sonra qala divarlarının lap yaxınlığına kimi səngər qazımaq imkanı yarandı. Mayın 8-də səhər tezdən ruslar şəhəri güclü artilleriya atəşinə tutdular [122.2, s.113-114].

Mayın 9-da şəhərdən bir ruhani xadim çıxıb Bulqakovun düşərgəsinə gəldi və Azərbaycan dilini bilən bir nəfəri danışıqlar aparmaq üçün Dərbəndə göndərməyi təklif etdi [122.2, s.114].

Rus qoşunları bir neçə gün ərzində qalanı top atəşinə tutdular, divar dağıdan batareyalar divarlara atəş açıb yarıq əmələ gətirirdidlər. Nəhayət mayın 10-da künc bürcündə deşik açıldı [80.3, v. 55-56].

Qərb qülləsində yarıq əmələ gəldikdən sonra şəhər əhalisinin bir hissəsi əhalini qırğından xilas etmək, şəhəri tamamilə dağılmaqdan qurtarmaq üçün Şeyxəli xandan şəhərin təslim olunmasını tələb etdi. Şeyxəli xan öz məiyyəti ilə qaladan çıxıb təslim olduğunu bildirdi [80.3, v.56 a-ü.].

Dərbəndin belə asanlıqla ələ keçirilməsində şəhərin müdafiəsindəki çətinliklə bərabər ermənilərin satqınlığı da böyük rol oynadı. V.Zubovun ordusunda olan A.Araratski adlı bir erməni Dərbəndin alınması barədə yazırdı:

"Qraf V.A.Zubov ordu ilə birgə Dərbəndə gəlməzdən əvvəl kazak generalı Savelyev kiçik bir korpusla artıq orada idi. Tezliklə böyük ordunun gəldiyinin şahidi olan Dərbəndin yüz evdən ibarət varlı erməniləri Rusiyanın bəyannamələrinin bihudə qalmayacağını, tez və ya gec şəhərin işğal olunacağını görüb özlərini təhlükədən qorumaq məqsədilə dərhal gizli məşvərət keçirdilər və qərara aldılar ki, rus ordusuna şəhəri qan tökmədən almağa kömək etsinlər. Bunun üçün onlar bir ermənini gecə iplə qaladan aşağı endirdilər ki, o, ruslara qalaya atəş açmaq üçün əlverişli olan nöqtələri, qalanı su ilə təmin edən bulağın yerini göstərsin, çünki, bulağın yönünü dəyişdikdə camaat bir gün də susuz qala bilməz, həmin erməni sağ-salamat gəlib rusların düşərgəsinə çatdı və qrafa təqdim olunduqdan sonra tərcüməçi vasitəsilə öz gəlişinin məqsədini izah etdi.

Qrafın əmri ilə ayın 6-da axşam çağı nişan verilmiş mühüm yabançı top birlikləri hücumla alındı. Artıq buradan qalanın içi görünürdü. Ayın 9-da isə bulağın yönünü dəyişdilər və şəhəri, əsasən də xan evinin yerləşdiyi ərazini bombardman etməyə başladılar... həmin gün onlar gördülər ki, suları əllərindən alınıb... Xan yüksək rütbəli əyanlar ilə məsləhətləşdikdən sonra təslim olmağı qərara aldı" [9, s.551].

Mayın 10-da gündüz saat 3-də şəhərin qapıları düşmənin üzünə açıldı və qala qapısının açarı general Savelyevə təqdim olundu. Tarixi ədəbiyyatda olan məlumata görə vaxtilə qalanın açarlarını I Pyotra təqdim etmiş 120 yaşlı qoca kişi indi də həmin açarları yenə ruslara təqim etmişdi. Şeyxəli xan məiyyəti ilə birlikdə Zubovun hüzuruna gətirildi. Qraf imperatriçə adından onun bağışlanacağını vəd etdi. Sonralar Şeyxəli xan xanlıqdan devrildi və Fətəli xanın qızı Pəricahan xanım Dərbəndə hakim, şəhərin I Pyotr dövründə işğalı zamanı onun idarəçiliyində iştirak edənlərdən birinin oğlu isə naib təyin edildi [122.2, s.115; 148, s.179-180]. Dərbəndin alınmasına görə V.Zubov 2-ci dərəcəli Georgi ordeni, xaç və almaz qələm ilə təltif olundu.

V.Zubov 1796-cı ilin mayın 15-də Dərbənddən knyaz P.Zubova yazırdı ki, II Yekaterinanın buyruğunda yazılmışdır ki, gənc və dəyişkən xasiyyətli Şeyxəli xan Rusiyaya xidmətə vadar edilməlidir. Əgər görünsə ki, ətrafındakılar onun Rusiyadan üz çevirməsinə çalışırlar, bələlərini uzaqlaşdırıb Həştərxana sürgün etməli, xanı bizə rəğbət bəsləyənlərlə əhatə etmək lazımdır [80.4, v.14]. V.Zubov yazırdı ki, Dərbənd qüvvəsi tükənənə qədər müqavimət göstərmiş və rus əsgərlərinin həyatları qurban getmişdir. Qubalı Şeyxəli xan əvvəllər Rusiyaya sədaqət andı içsə də sonra onun qoşunlarına qarşı silah qaldırmışdır. Xan qiyamçıdır, xanlıq əhalisi açıq bizə düşməndir. Buna görə də qalibin humanistliyi hissindən başqa heç bir aman və hörmətə layiq deyil. Dərbəndlilər top atəşləri hesabına, çoxlu və amansız döyüşlərdən sonra silahı yerə qoymağa məcbur edildiklərinə görə qarnizon hərbi əsir sayılır, Dərbəndin sakinləri və torpaqları isə qaliblərin sərəncamına keçir. Lakin V.Zubov hesab edirdi ki, onları öz sərəncamında saxlamaqdan heç bir fayda, bu şəhərdən

kiçicik bir xeyirlə istifadə imkanı yoxdur. V.Zubov yazırdı ki, yalnız bu şəhəri itaətdə saxlamaq və öz arxasının təhlükəsizliyini təmin etmək üçün nə xanla, nə də onun yaxınları ilə onları qıcıqlandırmamaq üçün belə rəftar etmək istəmir, onları sakitləşdirmək lazımdır, eyni zamanda dərbəndlilər üzərində nəzarəti o qədər də zəiflədə də bilmərəm. Onların bundan sonra hər hansı narahatlıq gətirə bilməməz üçün yalnız aşağıdakı vasitələri var: bu şəhər çox böyük olduğu üçün burada general Qudoviçin məsləhət gördüyü kimi 2 bölük yox, üç tabor saxlamaq, sakinləri isə tərkisilah etmək lazımdır.

V.Zubov ehtiyat xatirinə, həm də dərbəndlilərin rəğbətini qazanmaq məqsədilə onların Şeyxəli xanın taleyindən çox narahat olduqlarını görərək, fikirləşdi ki, əvvəl nəzərdə tutduğu kimi Şeyxəli xanı Həştərxana göndərsə bununla şəhəri təlatümə gətirə bilər. Dağıstan vasitəsilə göndərmək təhlükəlidir, böyük hərbi qüvvəni mühafizə dəstəsi kimi göndərməyin isə mənası yoxdur. V.Zubov həm də hesab edirdi ki, xanı Rusiyaya göndərsə mahal naibləri fürsətdən istifadə edib müstəqilləşərlər. Bu isə ruslar üçün əlverişli deyil. Şeyxəli xanı Dərbənddə qoymaq da təhlükəli idi, çünki hələ onun peşimançılığının həqiqiliyi sınaqdan keçirilməmişdi. Şeyxəli xanı taxtdan salmağı da V.Zubov məqsədəuyğun hesab etmirdi. Buna görə də o, hesab edirdi ki, Şeyxəli xanın Bakı xanı ilə əlaqələri olduğuna və başqa işlərlə bağlı faydalı ola biləcəyini, onun özünün də sədaqətini sübut etmək üçün bunu istədiyini bildirərək xanı özü ilə götürmək daha yaxşıdır; bu zaman xanı və əhalini ruslara müqavimətə təhrik edən məmurlar da götürüləcək. Əhalini və xanın ailəsini tamamilə sakitləşdirmək üçün V.Zubov hesab edirdi ki, xanlığın idarəsini xanın böyük bacısına tapşırıb, ruslar üçün nisbətən etibarlı məmurları, xüsusən Xıdır bəyi, ona köməkçi vermək məqsədə uyğundur, ancaq hamısına rus qarnizon rəisi nəzarət etməli idi. V.Zubov nəzərdə tuturdu ki, adı xatırlanan Xıdır bəydən və Dərbənddə saxlanan digər məmurlardan əmanətlər alacaq və əmr edəcək ki, qarnizon rəisinin əmrlərini yerinə yetirsinlər [80.4, v.17 və a.ü.].

V.Zubov güman edirdi ki, bu yolla sakinlər sakitləşdiriləcək, əsir alınmış xanın özü və bacısı isə rus komandanlığının "huma-

nistliyinə" əmin olacaq və onlarda ümid yaradacaq ki, imperatriçə onların taleyini rəhmli surətdə həll edəcək, bu yolla onlar sədaqətli olacaqlar [80.4, v.17 və a.ü.].

V.Zubov Dərbəndi rus ordusunun təchizat bazasına çevirmək, əsir götürülmüş muzdla xidmət edən dağıstanlı döyüşçüləri evlərinə buraxıb, silahlarını isə Dərbənddə saxlamaq fikrində idi [80.4, v.17 və a.ü.].

Şeyxəli xanı Rusiyaya qarşı mübarizəyə təhrik etməkdə təqsirli bilinib Həştərxana sürgün edilən məmurlar aşağıdakılar idi: Əhməd bəy, Hacı Tahir, İbrahim bəy, Əlimuxtar, Məmmədseyid, Hacı Allahqulu, İmamqulu, Zülfüqar, Mirzə Əsgər, Züılfüqar, Hacı Abi-cəmi 11 nəfər [80.4, v. 20 və a.ü.].

V.Zubov doğrudan da Dərbəndin idarəsini Pəricahan xanıma – Şeyxəli xanın böyük bacısına həvalə edib, Xıdır bəyi də ona köməkçi təyin etdi. Xıdır bəydən və digər məmurlardan girovlar alındı. Həm Pəricahan xanım, həm də Xıdır bəy qaladakı rus qarnizonunun rəisinin nəzarəti altında hərəkət etməli idilər [80.4, v.7].

Dərbəndin işğalının şahidlərindən biri olan V.İ.Bakunina yazırdı ki, Pəricahan xanım həmişə rusların tərəfində olmuşdur. Mühasirə zamanı o, bir neçə dəfə öz sədaqətini izhar edərək nümayəndəsini qrafın düşərgəsinə göndərmiş və ona bir neçə vacib məsləhət vermişdi [90, s.357]. Göründüyü kimi, ruslar Pəricahan xanıma Dərbəndin idarəsini təsadüfi tapşırmamışdılar.

V.Zubov yazırdı ki, Dərbənd və ətraf kəndlərdən təzminat almaq məsələsinə gəldikdə isə sakinlər çox yoxsuldurlar, zəruri yeməklərindən başqa heç nələri yoxdur, onların mal-qarası mühasirə zamanı divarlar arasında qapandığından çox üzülmüş vəziyyətdədir, əkin və bağlar düşərgə yerlərinə çevrildiklərindən məhv olmuşlar [80.4, v.21 və a.ü.].

V.Zubov imperatriçəyə 10 may 1796-cı il tarixli relyasiyasında yazırdı ki, Dərbənd alınarkən orada 150 müxtəlif top aşkar edilmişdir. Narınqalada barıt zavodu, 2 xan sarayı və hərəmxanalar var. Şəhərdə dirəklər üzərində qurulmuş məscid var. Sakinlər həmin binanın guya Makedoniyalı İsgəndərin dövründə tikildiyini iddia edirdilər. Bunlardan əlavə şəhərdə daha 15 məscid,

I qriqoryan kilsəsi, 6 yararlı karvansara, 450 dükan, daşdan inşa olunmuş zərbxana, 2096 müsəlman evi, 30 ipək parça emalatxanası, 115 pambıq parça emalatxanası; 50 müxtəlif emalatxana var. Şəhərdə cəmi 6 kişi və 1 nəfər qadın gürcü yaşayırmış. Çox qəribədir, Dərbənddə bu qədər cüzi pravoslav məzhəbli xristian olduğu halda V.Zubov burada pravoslav məzhəbinin sıxışdırıldığını iddia edərək "bu məzlumların hüquqlarını bərpa etməyi öz borcu saydığını" yazırdı [80.5, v.18 və a.ü.].

V.Zubov 15 may 1796-cı il tarixli relyasiyasında Dərbənddən yazırdı ki, aldığı məlumatlara görə Ağa Məhəmməd xan həmişə qubalılara və bakılılara ümid verib ki, rusların təcavüzünə qarşı mübarizədə onlara kifayət qədər yardım göndərəcək. Bakı və Quba xanları həmişə həmrəy olmuşlar [80.5, v.21 və a.ü.]. Yeri gəlmişkən, vədlər verməkdən savayı heç nə ilə qubalılara kömək göstərməyən Ağa Məhəmməd xan Dərbənd süqut etdikdən sonra, 1796-cı ilin avqustunda Məşhəddən şamaxılı Mustafa xana və şəkili Səlim xana yazırdı ki, o, Dərbəndin ruslara təslim edilməsindən çox qəzəblənmişdir. Tezliklə öz paytaxtına dönəcək və oradan bir sərkərdəsini rusları Azərbaycandan qovmaq üçün göndərəcəkdir [79.8, v.339]. Şeyxəli xan dəfələrlə Ağa Məhəmməd xanın yanına öz elçilərini göndərmişdir. Sonuncu dəfə Xıdır bəyi göndərərək öz sədaqətini izhar etmiş və yardım xahiş etmişdi. Qazıkumuklular və tabasaranlılar həmişə dərbəndlilərin müttəfiqi olmuşlar. Bir çox qaraqaytaqlılar və tarkililər də Dərbənddə xidmət edirdilər [80.5, v.24].

Şeyxəli xanın mirzəsi Əsgərin izahatına görə Quba xanı və xanlıq əhalisi Ağa Məhəmməd xan Salyana gəldikdə vahiməyə düşərək rus hökmdarına içdikləri sədaqət andından imtina etmişlər ki, Ağa Məhəmməd xan onların torpaqlarını var-yoxdan çıxartmasın [80.3, v. 80 və a.ü.; 80.5, v.25 a.ü.].

Mirzə Əsgərin dediyinə görə Şeyxəli xanın əvvəllər Ağa Məhəmməd xanla heç bir əlaqəsi olmamış və hətta onun ilk əmrini yerinə yetirməmişdir. Yalnız Ağa Məhəmməd xan bir çox yerləri tutub Qarabağa həmlə edib Şeyxəli xana Qızlara kimi getmək niyyətində olduğu barədə xəbər göndərəndən sonra, Quba xanı

ona hədiyyə olaraq 20 dəvə, 15 at, 500 yapıncı və xeyli ərzaq göndərmişdir [80.5, v.26; 80.3, v.80].

Mirzə Əsgərin söylədiyinə görə Quba xanının osmanlılarla heç bir əlaqəsi olmamışdır, yalnız 8 ay bundan əvvəl Məkkəyə ziyarətə getmiş xanlıq təbəələri vasitəsilə Yusif paşadan rus qoşunlarının basqına hazırlanması barədə xəbərdarlıq almışdır. Sonra təxminən 3 ay bundan əvvəl Şeyxəli xan İstanbula öz elçisini göndərmişdir [80.3, v.26; 80.3, v.81].

Mirzə Əsgərin sözlərindən belə məlum olur ki, əvvəllər Şeyxəli xan öz bibisi oğlu Mirzə Məhəmmədi Bakı xanlığının taxtına çıxartmağa çalışdığından Bakı xanı Hüseynqulu xan ilə araları soyuq olmuşdur. Lakin Hüseynqulu xanla uğursuz müharibədən sonra barışmış və bibisini ona ərə vermişdir. O vaxtdan dost münasibətdədirlər. Ruslar Dərbəndi mühasirədə saxladıqları zaman Bakı xanı bir qədər barıt və öz topçularını göndərmişdir. Mirzə Əsgərin dediyinə görə Şeyxəli xan Tarki şamxalının qızını almaqdan imtina etdiyi üçün Dağıstan hakimləri ilə düşmən münasibətdə idi. Şeyxəli xan Qazıkumuklu Xambutaydan və akuşalılardan yardım gözləyirdi. [80.5, v. 26 a.ü.-27; 80.3, v. 81 a.ü., 82].

Xanın möhürdarı Zülfüqar Mirzə Əsgərin söylədiklərini təsdiqləyərək əlavə etmişdir ki, 3-4 ay bundan əvvəl Qubadan Türkiyəyə göndərilmiş Hacı adlı şəxsin yolda öldürüldüyü haqda xəbər yayılmışdır. Şeyxəli xanın Ağa Məhəmməd xanın yanına göndərdiyi şəxsin adı isə Qədir bəydir. Qədir bəy geri dönüb demişdir ki, Ağa Məhəmməd xanın yanında 50 min nəfərə qədər döyüşçü var, rus ordusu yaxınlaşanda Quba xanına yardım göndərəcəyinə söz vermişdir [80.3, v.82; 80.5, v.27].

Şeyxəli xan özü dindirilmə zamanı etiraf etmişdi ki, aprel ayında Hacı adlı məmurunu Ərzurum vasitəsilə İstanbula göndərmişdir. Nümayəndə sultana Şeyxəli xanın sədaqətini izhar etməli və yardım xahiş etməli idi. Bu məmura hədiyyə üçün təqribən 30 min manat məbləğində bahalı hədiyyələr və 10 min qızıl manat verilmişdi. Bundan sonra Ağa Məhəmməd xana da məktub göndərmiş, ancaq hədiyyələr göndərməmişdir [80.3, v.82 a.ü.].

Mayın sonu (iyunun əvvəlində) Salyanda olan qubalı məmur Həsəndən Şeyxəli xanın adına məktub alınmışdı. Məktubda

deyilirdi ki, Lənkərandan Salyana gələn gəmi vasitəsilə xəbər alınmışdır ki, Ağa Məhəmməd xan ordu ilə Ərdəbilə daxil olmuşdur və guya Allahqulu və Sadıq xanları 40 min nəfərlik qoşunla Muğana göndərmişdir. Ağa Məhəmməd xan özü isə 2-3 günə Qarabağa hərəkət edəcəkdir [80.5, v.83 və a.ü.]. İrandakı rus konsulu Skibinevskinin 11 may tarixli məktubunda deyilirdi ki, Ağa Məhəmməd xan öz xəzinəsi ilə Tehrandan Mazandarana – Sara şəhərinə keçmişdir. Ona sui-qəsddə iştirak edən qardaşı Əliqulu xanı və bir çox başqa xanları edam etdirmişdir [80.5, v.95 və a.ü.-96].

Çox maraqlıdır ki, Dərbənd rus qoşunlarına muqavimət göstərdiyinə görə Həştərxanda ticarətlə məşğul olan nəinki Quba tacirləri, hətta Azərbaycanın digər yerlərindən olan tacirlər, o cümlədən Qarabağ tacirləri də həbs olunmuşdular. Qarabağ tacirləri ilə birlikdə İbrahimxəlil xanın məmuru Əbdürrəhim də həbs edilmişdi. Sonralar, yürüş bitdikdən sonra, V.Zubov həbs olunmuş tacirlərin azad edilməsini rus hökumətinə məsləhət görmüşdü [113, v.2, 24-25].

Dərbəndi aldıqdan sonra Zubovun korpusu iki həftə yerində qalıb öz arxasının təmin edilməsini gözlədi [122.2, s.318]. General – mayor Çuquyevin komandasında gələn Birinci Çuquyev alayını və gen. mayor Platovun komandasında gələn Orlovun Don alayını öz qüvvələrinə birləşdirən Zubov mayın 24-də Bakı istiqamətində hərəkət etdi. Gen. Savelyevi 3 piyada taboru, 200 kazak və 4 səhra topu ilə Dərbənddə saxladı [122.2, s.124].

Qubaya yollanan general Zubov şəhərdən yarım mil aralı olan Təpələr adlı bir yerdə üç gün dayandıqdan sonra Şabrana gəldi, oradan da Bakıya tərəf üz tutdu. O, hakimiyyətdən devrilmiş Şeyxəli xanı da özü ilə aparırdı.

Mayın 24-də, yəni Dərbəndə daxil olmasından iki həftə sonra rus qoşunları cənuba hərəkət etdilər. İyunun əvvəlində onlar Samur çayını keçdilər [148, s.180].

Zubov Dərbənddən cənuba hərəkət edərkən müvəqqəti olaraq gen. Savelyevi bir dəstə qoşunla orada qoydu. Gen. Qudoviç öz komandası ilə gəlib Dərbəndə yerləşməli idi [80.3, iş 94].

İyunun 6-da rus ordusu demək olar ki, heç bir müqavimətə rast gəlmədən Qubanı ələ keçirtdi və Bakı istiqamətində hərəkətini davam etdirdi [174, v.234].

Bakı ərazicə kiçik, lakin mühüm strateji əhəmiyyətə malik bir xanlıq idi. Bakılı Hüseynqulu xan hələ İ.Savelyevin birləşməsi Dərbəndi mühasirədə saxladığı zaman Şeyxəli xana kömək üçün topçularla birlikdə iki top göndərmişdi. Yəqin ki, rus qoşunlarının işğalçılıq yürüşünə birgə müqavimət göstərmək zərurətini anladığından Hüseynqulu xan Şeyxəli xana yardım göstərmişdi.

Hərbi qüvvəsi xeyli az olduğu üçün Hüseynqulu xan ehtiyatlı davranırdı. O, eyni zamanda müdafiəyə hazırlıq görür və Şamaxılı Mustafa xanla öz qüvvələrini birləşdirməyə çalışırdı [177, v.199-202]. Ancaq qüvvələrin hədsiz qeyri-bərabər olması Hüseynqulu xanı vadar etdi ki, 1796-cı il iyun ayının 13-də rus qoşunlarının Gilgilçay sahilindəki düşərgəsinə getsin və qala darvazalarının açarlarını Zubova təqdim etsin. Bir neçə gün sonra general-mayor Raxmanovun başçılıq etdiyi hərbi birləşmə Bakı şəhərinə daxil oldu [122.2, s.133].

Zubovun özünün başçılıq etdiyi əsas qüvvələr isə Şamaxı xanlığının ərazisinə daxil oldular.

V.Zubov iyulun 1-də gen. Qudoviçə yazırdı ki, qoşunu Bakıda yerləşdirə bilməz. Çünki ətrafda nəinki meşə, otlaq, hətta ümumiyyətlə bitki yoxdur. Buna görə də düşərgə yeri kimi Köhnə Şamaxını seçir [80.5, v.109 və a.ü.].

Rus ordusu ilə hərəkət etməyə məcbur olan Şeyxəli xan qaçmaq və ruslara qarşı mübarizəni davam etdirmək barədə düşünürdü. Poruçik Kraşnoşenkonun gözətçi dəstəsinə Şeyxəli xana göz qoymaq, xanın tərcüməçisi təyin edilmiş erməni mənşəli mayor A.Serebrova isə xanın hər bir addımına diqqət yetirmək tapşırılmışdı [122.2, s.135-136].

Vaxtının çoxunu at çapmaqla keçirən və bu zaman öz ustalığı ilə rusları heyran edən Şeyxəli xan tədricən onların sayıqlığını zəiflətməyə nail oldu. 1796-cı il iyun ayının 19-da A.Bakıxanovun yazdığına görə, Pir Xəlilə yaxın bir yerdə növbəti at çapması zamanı Şeyxəli xan rusların düşərgəsindən xeyli uzaqlaşdı və

qəflətən atını yaxınlıqda yerləşən kəndə tərəf döndərdi. Ruslar yalnız son anda xanın qaçdığını anlayıb onu təqib etməyə başladılar. Ancaq Şeyxəli xan əvvəlcədən kənddə onu gözləyən süvarilərə qarışdı və onlarla birlikdə kəndi tərk etdi. Süvarilər üç dəstə şəklində hərəkət etdiyindən ruslar xanın hansı dəstədə olduğunu müəyyənləşdirə və onu tuta bilmədilər [123, s.207-208; 122.2, s.136-137]. Şeyxəli xan öz ailəsini də Qubadan götürüb özü ilə apardı [122.2, s.139].

Şeyxəli xanın rusların nəzarəti altından qaçması Quba xanlığı ərazisində işğalçılara qarşı mübarizənin güclənməsinə təkan verdi. V.Zubov P.Zubova 7 avqust 1796-cı il tarixdə yazırdı ki, Şeyxəli xan qaçdığı üçün Dərbənddə və Qubada hər cür ehtiyat tədbirləri görülmüşdür. V.Zubov güman edirdi ki, Şeyxəli xanın qaçmasında Pəricahan xanımın və Dərbənd naibi Xıdır bəyin rolu olmuşdur. Yəqin ki, bu yolla onlar xanlıqda hakimiyyətin onlara keçəcəyini güman edirlərmiş. V.Zubov hər ehtimala qarşı Şeyxəli xanın anadan ögey qardaşı Həsən ağanı Dərbəndə gətirtdiyini yazırdı [80.4, v.149].

Ruslarla şamaxılı Mustafa xan arasında münasibətlər birmənalı deyildi. Azərbaycanın bir çox xanlıqları kimi Şamaxı xanlığı da Ağa Məhəmməd xanın dağıdıcı basqınına məruz qalmışdı. Qacarın üstün qüvvələrinə qarşı açıq döyüşə girməyə cəsarət etməyən şamaxılı Mustafa xan əlçatmaz qayalar üzərində yerləşən Fitdağ qalasına çəkilmiş və düşmənə qarşı partizan mübarizəsinə başlamışdı [185.1, v.23 a.ü.]. Qacarın ordusunun Şamaxı xanlığının ərazisində yerləşdiyi və sərt cəza tədbirləri gördüyü bir vaxtda İ.Savelyevin başçılıq etdiyi rus qoşunlarının Dərbəndə yanaşması Mustafa xanda rus qoşunlarından kömək almaq ümidi yaratmışdı. Hələ Savelyev Dərbəndi mühasirəyə aldığı zaman Mustafa xan ona məktub göndərərək rus qoşunlarının gəlişinə müsbət münasibətini bildirmiş və özünün Ağa Məhəmməd xana qarşı apardığı mübarizə haqqında məlumat vermişdi [183.1, v.73-75]. Zubov II Yekaterinaya ünvanladığı məktubunda Mustafa xanı az qala rusların müttəfiqi kimi təqdim edir və ondan qubalı Şeyxəli xana qarşı mübarizədə istifadə etmək niyyətində olduğunu yazırdı [183.1, v.75].

Mayın 19-da V.Zubov Mustafa xan Şamaxılının məktubunu almışdı. Mustafa xan sözdə Rusiyaya sədaqətini izhar etsə də, öz qardaşını girov göndərmək barədə Zubovun tələbini rədd etmiş, bunu özü üçün həqarət saymışdı. O, Ağa Məhəmməd xanın yanına da heç bir girov göndərmədiyini qürurla bildirirdi [80.3, v.177 a.ü.].

Sonralar V.Zubov məlumat almışdı ki, şamaxılı Mustafa xanın elçisi Qazıqumuq hakimi Xanbutayın yanında olub xahiş etmişdir ki, əgər Xanbutay Rusiyaya qarşı çıxmaq niyyətindədirsə ona da xəbər versin [80.3, v.206]. Ancaq rus qoşunları Dərbəndi aldıqdan sonra Ağa Məhəmməd xan Qacarın qoşunları Şimali Azərbaycan ərazisini tərk etmiş, beləliklə də rus ordusunun köməyinə ehtiyac qalmamışdı. Digər yandan İ.Arqutskinin Qarabağ xristianlarına müraciətindən rus qoşunlarının başlıca məqsədinin xristianların müsəlmanlar üzərində hakimiyyətini qurmaq olduğunu öyrənməsi də Mustafa xanın ruslara olan münasibətinə mənfi təsir göstərmişdi. Məsələ burasındadır ki, V.Zubovun qoşunları tərkibində ermənilər də var idi. Onlardan biri İosif Arqutinski Cənubi Qafqaz xristianrlarını, xüsusilə Qarabağ məliklərini Rusiyanın tərəfinə çəkmək üçün onlara məktub yazaraq, burada xristian dövləti yaratmağın zəruriliyindən söz açırdı [9, s.551]. Dərbəndə gələn erməni yepiskopu İosif Arqutinski buradakı xristianları müsəlmanlara qarşı qaldırmağa, müsəlmanları ermənilərin qarşısında alçaltmağa başladı. İosif Eçmiədzin patriarxı ilə əlaqəyə girib Qarabağda və Cənubi Qafqazın digər yerlərində yaşayan ermənilərə birgə məktublar yazdı. Məktubda deyilirdi ki, rus qoşunları ermənilərin müstəqil dövlətini yaratmaq, "Böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsinə kömək etmək üçün gəlmişlər [80.4, v.147-148]. Zubov etiraf edirdi ki, uzun müddət bir-birilərilə düşmənçilik edən bakılı Hüsyenqulu xan və şamaxılı Mustafa xan rus ordusunun yaxınlaşdığını görərək birləşmişdilər [152, s.50].

Rus ordusunun mütləq Şamaxı xanlığı ərazisinə daxil olacağını anlayan Mustafa xan öz hakimiyyətini qorumaq üçün bəzi ehtiyat tədbirləri gördü. Onun elçisi V.Zubovun düşərgəsinə gedərək generalı Mustafa xanın adından Şamaxıya dəvət etdi

[183.2, v.204]. 1796-cı il iyul ayının əvvəllərində rus ordusu Şamaxı xanlığının ərazisinə daxil olub Qurbbulaq yaylağında düşərgə saldığı zaman Mustafa xan V.Zubovun görüşünə getməkdən imtina etdi. Yaranmış vəziyyəti əlverişli hesab etməyən V.Zubov Mustafa xanla münasibətləri nizama salmaq qərarına gəldi. V.Zubov nümayəndələr göndərib Mustafa xanda ruslara qarşı olan inamsızlığı aradan qaldırmağa çalışırdı. Erməni arxiyepiskopu İ.Arqutinski xanın yanına göndərildi. Saqian kəndində baş tutan görüşdə Arqutinski Mustafa xanı inandırmağa çalışdı ki, Zubovla görüş onun üçün təhlükəli deyil və xan istədiyi vaxt öz yerinə qayıda bilər [71, s.134]. Daha sonra V.Zubov podpolkovnik Akleçeyevi Mustafa xanın yanına göndərdi və yalnız bundan sonra xan V.Zubovun görüşünə getməyə razılaşdı. Ancaq bu zaman ehtiyatı əldən vermədi. Qarşılıqlı razılığa əsasən Mustafa xan V.Zubovla görüş keçirtdiyi bütün müddət ərzində İ.Arqutinski onun təhlükəsizliyinin təminatçısı kimi xanın düşərgəsində qalmalı idi [123, s.12; 122.2, s.145].

Nəhayət, 1796-cı il iyulun 7-də Mustafa xan öz məiyyəti ilə V.Zubovun düşərgəsinə gəldi. Zubov imperatriçənin adından Mustafa xana himayədarlıq edəcəyinə söz verdi. Mustafa xan da öz növbəsində Rusiyaya sadiq olmağı vəd edirdi. Zubov Mustafa xana qiymətli hədiyyələr bağışladı [183.2, v.316]. Əslində Mustafa xan Rusiyaya sədaqətini yalnız sözdə izhar edir, güclü düşmən qarşısında sadəcə manevr edirdi.

Rus ordusu artıq xanlıqların bir hissəsini ələ keçirib Azərbaycanın içərilərinə irəlilədiyindən açıq müqavimət göstərmək imkanı olmayan xanlar rus ordusuna qarşı ehtiyatlı davranmaq məcburiyyətində idilər. Rus qoşunlarının Şamaxı xanlığının ərazisinə daxil olduğundan xəbər tutan şəkili Səlim xan gizlincə Qazıqumuq xanı ilə birləşməyə cəhd göstərsə də üzdə rus komandanlığı ilə dostluq münasibətləri yaratmağa çalışırdı. Onun nümayəndəsi iyulun 7-də Zubovun düşərgəsinə gedib xanın məktubunu təqdim etdi: Səlim xan xahiş edirdi ki, Rusiya himayəsinə keçməsi üçün Zubov andlı öhdəliyin mətnini ona göndərsin [183.2, v.316 a.ü.; 122.2, s.144-145]. İyul ayının axırlarına yaxın

Səlim xan Rusiya himayəsinə keçmək haqqında öhdəliyi imzaladı [183.2, v.142-144; 122.2, s.144-145].

Qarabağlı İbrahimxəlil xan da rus qoşunlarının yürüşündən çox narahat olmuşdu. O, rus hökumətinin XVIII əsrin 80-ci illərində gerçəkləşdirməyə çalışdığı xanlıq ərazisində xristian dövləti yaratmaq planını da unutmaya bilməzdi. 1796-cı il yürüşü zamanı baş verən bir sıra hadisələr Rusiyanın hələ də bu plandan imtina etmədiyini göstərirdi. Üstəlik keçmiş müttəfiqi II İrakli İbrahimxəlil xanın ondan xəbərsiz gəncəli Cavad xanla barışmasından qəzəbləndiyi zaman İbrahimxəlil xanı hədələyərək bildirmişdi ki, rus ordusunun yürüşünün başlıca məqsədi Kartli-Kaxetiya çarlığını gücləndirib bütün müsəlman hakimlərini ona tabe etməkdən ibarətdir [123, s.16].

Bu zaman Köhnə Şamaxı istiqamətində hərəkət edən rus qoşunları Qurdbulaq yaylağında düşərgə saldılar və istilər düşdüyündən bütün iyul ayını burada qaldılar. Avqustda Pirsaat çayını keçib qışlamaq üçün Cavada getdilər [148, s.182].

V.Zubov iyunun ortalarında baş ştabın kvartermeysteri Tixonovu Qurdbulaqdan Gəncəyədək olan yolu öyrənmək üçün göndərmişdi. Tixonov bu sərəncamı yerinə yetirərək yolu öyrənmiş və təsvirini vermişdi. Tixonov yazırdı ki, Qurdbulaq çayından Yeni Şamaxıya kimi yol dağlıq ərazidən keçir, yolun üstündə bir çox xırda çaylar və arxlar vardır. Köhnə Şamaxıya qədər olan yol artıq təmizlənmişdir, Köhnə Şamaxıdan Yeni Şamaxıya kimi olan yolu isə təmir etmək lazımdır. Yeni Şamaxıdan Gəncəyə kimi iki yol vardır. Sol yol, əvvəla, uzundur, ikincisi, çökəklik və xeyli hissəsi bataqlıq yerlə keçir və buna görə də qoşunların hərəkəti üçün böyük çətinlik törədə bilər, sağ yol isə dağların lap yanı ilə daha düz istiqamətlidir, bir neçə kiçik çayla kəsişsə də Gəncənin özünə qədər qurudur. Çayların və bəzi arxların sahilləri dik olduğu üçün onları hamarlamaq lazım gələcəkdir [80.3, v.128].

Göyçay çayı sürətlə axır və eni 40 sajenə çatır, lakin onun dərinliyi bir arşından artıq deyil və çayın dibi daşlıqdır. Çəldigələn (yəqin ki, Girdiman) çayı sürətlə axır, eni 60 sajendən çoxdur, dərinliyi bəzi yerlərdə 0,5, bəzi yerlərdə bir arşındır. Keçmək asandır, ancaq həm bu, həm də Göyçayın sahillərini

hamarlamaq lazım gələcəkdir. Axçıqan çayı da iti axır, eni 10 sajendən, dərinliyi isə yarım arşından çox deyil, dibi daşlıqdır.

Kür çayı orta sürətlə axır, dibi daşlıqdır, onun eni ən yuxarı keçiddə 60 sajendir, keçidlər arasında məsafə 2,5 verstdən çox deyil. Çayın sağ sahili bir qədər az enişlidir və sahildən 5 sajen sonra artıq dərinləşməyə başlayır, sol tərəfi dikdir, dayazlığına görə lap sahilə yaxınlaşmaq olmur, bir sajen çayın içərisinə kimi hərəkət etdikdən sonra panton qurmaq olar, dayaz yerdə isə qozla (eşşək) düzəltmək lazımdır. Ancaq çayın dibi daşlıq olduğu üçün qozla düzəltmək mümkün deyil, ən yaxşı üsul sakinlərdən balıq tutmaq üçün istifadə etdiyi qayıqları toplamaq dır. Ən yuxarı keçid ikincidən yaxşıdır, birincisi, ona görə ki, sahilləri o qədər dik deyil, ikincisi, həm sağ, həm də sol tərəfdə sahil təmiz və qurudur. Bu keçiddə meşə yoxdur, ətrafı açıqlıq olduğu üçün düşərgə salmaq olar. Bir qədər aralıda sıx meşəlik olduğu üçün arabaların keçməsindən ötrü ağacları kəsmək lazım gələcək. Çayın sağ sahilində 2 verst, sol sahilində isə 2,5 verst enində zolaqda meşəni qırmaq lazım gələcək. Yer çöllük və bataqlıq olduğu üçün çayın sahilində uzun müddətə düşərgə salmaq olmaz. Ağcaqanad və milçəklər də çoxdur. Ətrafda balıq ovlamaqla məşğul olan sakinlər də yay gələn kimi evlərini tərk edib dağlara qalxır və yalnız sentyabr ayında geri qayıdırlar [80.3, v.129 a.ü.].

Yeddincisi, Kür çayından keçiddən Gəncəyə qədər 50 verstdən çox deyil, yol hamardır, Kürə tökülən Koroğluçay adlı kiçik çayla kəsişir; bu kiçik çayın eni cəmi 1½ sajendir, lakin dərinliyi bir qədər çox olduğu üçün üstündən körpü salmaq lazım gələcək. Buradan sonra yol bir qədər meşəlikdən keçir, bəzi yerlərdə meşəni qırmaq lazım gələcək (əsasən pöhrəlikdən ibarətdir). Təxminən 7 verstdən sonra Kürəkçay adlı kiçik bir çay var. Eni 1½ arşından çox olmadığı üçün onu keçmək asandır. Buradan Gəncəyə kimi yol təmizdir və hamar çöllükdən keçir.

Səkkizincisi, Gəncə şəhəri düzgün, hamar yerdə yerləşmişdir, lap yaxınlıqda dağlar yoxdur, yalnız 15-30 verst uzaqlıqda dağlar var. Şəhər Gəncə və Qoşqar çaylarının arasında yerləşir. Gəncəçay enli deyil və dayazdır, şəhərin lap yanından, qala divarlarının önündən axır. Çaydan qalaya arxlar çəkilmişdir. Qoşqar-

çaydan İrəvan tərəfə doğru, Gəncədən 3 və daha çox verst aralı hər iki çayın suları çox təmizdir. Gəncə qalasının uzunu 400, eni 300 sajendən artıq deyil. Ətrafında xəndək və alçaq torpaq səddi var. Qala divarının hündürlüyü 2 sajen, eni 1 ½ arşındır. Qala divarlarının önündə dəyələr var, sakinlərin hamısı qalaya yerləşə bilmədiklərinə görə bir hissəsi onlarda sığınırdı. Ətrafına divar hörülmüşdü. Bu yer Şiras (z) adlanır. Şirasın divarından qala divarına qədər 60 sajenə yaxın məsafə var. Onun divarları bişmiş qırmızı kərpicdən hörülmüşdür, hündürlüyü 12 arşından az deyil, eni bəzi yerlərdə 2 arşına çatır, bəzi yerlərdə isə daha çoxdur. Şəhərin bayır hissəsi Narınqala adlanır. Bütün qalada üç divar var, orada Canqurtaran adlı xan sarayı yerləşir. Qalanın ətrafında forştat var, burada evlərin, daş dükanların çoxu boşdur. Forştat hər tərəfə 70 sajendən çox olmayan sahəyə malikdir. Forştatın divarlarından tüfəng atəşindən bir zərər görmədən qalanı top atəşinə tutmaq olar. Forştatın ətrafında bağlar var və indiki mühasirə zamanı bir çox ağaclar qırılmışdır, ancaq çox ağac qalır, belə ki, şəhərə yaxınlaşan zaman bağların arxasından tikililəri görmək olmur [80.3, v.129-130].

Doqquzuncusu, indiki baş düşərgədən Kür çayına qədər düşərgə üçün əlverişli yerlər yoxdur (bataqlıq və meşəlik olduğuna görə).

Onuncusu, Yeni Şamaxıdan Gəncəyə qədər yolda otlaqlar olsa da, çox deyil, həm də ancaq çökəklik yerlərdədir. Buna görə də bəzi yerlərdə iki, digər yerlərdə ancaq üç gün dayanmaq olar. Yüksəkliklərdə ot çox olmuşdursa da istilərdən yanmışdır; yaxud da yerli əhali yağışlar yağanda yeni ot bitsin deyə onu yandırmışdır. Oduncaq isə kifayət qədər vardır, bəzi yerlərdə oduncaq olmasa da əvəzinə çoxlu miqdarda qalın qamışlar var ki, onlardan xörək və çörək bişirmək üçün istifadə etmək olar [80.3, v. 131 a.ü.].

Azərbaycan xanları V.Zubova böyük inamsızlıqla yanaşırdılar. Şəkiyə göndərilmiş rus casusu qayıdıb xəbər vermişdi ki, 4 gündür ki, gecələr məmurlar xanın yanına toplaşırlar və nəhayət hamının silahlanması haqqında əmr verilmişdir. V.Zubov Şamaxıdan da

buna oxşar xəbər almışdı. Həm də xəbər alınmışdı ki, Qarabağ xanının oğlu iki gün Şamaxı xanının yanında olmuş, ona bildirmişdir ki, səhər V.Zubovun düşərgəsinə gedəcək və orada iki gündən çox qalmayacaqdır [80.3, v.172].

İbrahimxəlil xanın oğlu Əbülfət ağa xanın məktubu ilə rus qoşunlarının düşərgəsinə gəldi. Məktubda xan ümumi sözlərlə rus dövlətinə rəğbətini izhar edirdi [80.3, v.172]. Mirzə Camal Qarabaği yazırdı: "Məhrum İbrahim xan oğlu Əbülfət xanı Qarabağın bir neçə əsilzadəsi ilə birlikdə zəngin töhfə, hədiyyələr və cins atlarla, tam bir razılıq və böyük rəğbətlə sərdar Valerian Zubovun hüzuruna göndərib, yüksək Rusiya dövlətinə səmimi qəlbdən itaət edəcəyini və sədaqətini bildirdi. Əzəmətli imperatriçənin adına səmimiyyət və sədaqəti andı ilə bir ərizə də yazdı. Böyük sərdar Əbülfət xanı və Qarabağ bəyzadələrini lazımi hörmət və təzimlə qarşılayıb İbrahim xanın ərizəsini xanın etimadlı adamı və öz eşik ağası ilə birlikdə Dərbənd və Qızlar yolu vasitəsilə əzəmətli imperatriçənin hüzuruna göndərdi. Bir knyaz vasitəsilə İbrahim xana qiymətli töhfə və hədiyyələr göndərib, onu əzəmətli padşahın mərhəmətinə ümidvar etdi" [36, s.28-29]. Zubov iri qiymətli daşlarla bəzənmiş bir əsanı Molla Pənah Vaqifə göndərdi [35, s.55]. Əslində İbrahimxəlil xanın bu addımı yalnız diplomptik səciyyə daşıyırdı.

Mayın 28-də Zubov İbrahimxəlil xandan məktub almışdı. İbrahimxəlil xan bildirirdi ki, irəvanlı Məhəmməd xan ondan xahiş etmişdir ki, ya özünün, ya da rusların 1000 döyüşçüsünü göndərsin ki, Ağa Məhəmməd xanın İrəvanda qoyduğu Təvəkkül xanı qovub şəhəri azad etmək mümkün olsun. Zubov cavab məktubunda bildirirdi ki, imkan yarandığı zaman bu yardımı göndərə bilər [80.3, v.488 və a.ü.].

Peterburqdan verilən göstərişə uyğun olaraq V.Zubov kontr-admiral Fyodorova Lənkəran xanlığı ərazisinə və Salyana desant çıxarmağı əmr etdi və bu əmr yerinə yetirildi [156, s.98].

Şamaxılı Mustafa xan V.Zubova böyük inamsızlıqla yanaşırdı. O, təzyiq altında II Yekaterinaya sədaqət andı içsə də onu hakimiyyətdən kənar edəçəklərini güman edir və rus qoşunlarına

müqavimət göstərmək üçün müttəfiqlər axtarırdı. Onun təbii müttəfiqi bu cür vəziyyətdə olan şəkili Səlim xan idi. Lakin keçmiş Şamaxı hakimi, xanlığı özünə qaytarmaq üçün fürsət axtaran Qasım xan Şəki mülklərində gizləndiyindən Səlim xanla Mustafa xan arasında çoxdan bəri ədavət mövcud idi. Bununla belə yeni şərait bu iki xanı barışmağa məcbur etdi [148, s.182-183].

İbrahimxəlil xan öz şübhələrini açıq bildirmirdi. Əksinə özünü tam sakit və Rusiyaya sədaqətli kimi aparır, ancaq zərbə endirməyə hazırlaşırdı. Məqsədini həyata keçirmək üçün rus qoşunu qərargahında olan Nurəli xan adlı bir cavandan istifadə etməyi qərara aldı.

Nurəli xan Zəndlər nəslinə mənsub idi və Lütfəli xan Zəndin əmisi oğlu idi [79.8, v.37a]. Ağa Məhəmməd xan bu ailənin demək olar ki, bütün kişi üzvlərini təqib və məhv etdiyindən Rusiyaya qaçmışdı. V.Zubov 1796-cı il 4 aprel tarixində yazırdı ki, Qızlara çatarkən burada Kərim xan Zəndin qardaşı oğlu Nurəlini tapıb öz yanına götürüb ki, faydalı ola bilər [80.5, v.4]. Güman edilirdi ki, lazım gələrsə, Nurəli xan hansısa xanlığa hakim təyin ediləcək.

Nurəli xanın özünün rus hökümətinə yazdığı ərizəsinə görə Ağa Məhəmməd xan onun əmisi Lütfəli xanı məğlub etdikdən sonra Zənd ailəsinin bütün kişi üzvlərini məhv etmiş, yalnız Lütfəli xanın qaynatası nüfuzlu bir şəxs olan Hacı İbrahim xanın xahişi ilə Ağa Məhəmməd xan Nurəli xana dəyməmişdir. Ancaq, Nurəli xan bir gün onun da qətlə yetiriləcəyindən qorxurdu. Buna görə də Ağa Məhəmməd xan 1795-ci ilin yayında Qarabağa hücum edərkən onun ordusundan qaçaraq qarabağlı İbrahimxəlil xanın yanına pənah aparmışdı [79.9, v.226-227; 79.8, v.386-389]. Nurəli xan 4 ay Şuşada qaldıqdan sonra Rusiyaya keçmək üçün yola düşmüşdür. Tarki yaxınlığında Dərbəndə tərəf hərəkət edən Savelyevin dəstəsi ilə qarşılaşmış, Savelyev onu öz dəstəsinə qatmışdır [79.9, v.228 və a.ü.] O zaman Qızlarda olan gen. Qudoviç Nurəli xan haqqında eşidib onu öz yanına dəvət etmişdir. Qudoviç Nurəli xanı Rusiyaya yola salmağa hazırlaşdığı zamanda yerinə təyin olunmuş V.Zubov Qafqaz xəttinə gəlib Nurəli

xana onunla birlikdə Dərbəndə getməyi təklif edibmiş [79.9, v.229].

Nurəli xan rus düşərgəsində yaşayır, yaxşı təmin olunurdu. 100 nəfərə qədər məiyyəti var idi, demək olar ki, tamamilə sərbəst idi. Tarixi ədəbiyyatda olan məlumata görə Nurəli xan Zubova qarşı qəsdi gerçəkləşdirməli idi. Zubovun yanına gəlmiş Qarabağ elçiləri Nurəli xanla gizli əlaqəyə girdilər, İbrahimxəlil xanın göndərdiyi 3 min rubl məbləğində pulu ona verdilər. Elçilər bildirdilər ki, əgər Nurəli xan Mustafa xan və Səlim xanın qüvvələrini birləşdirməyə kömək etsə və onların köməyi ilə Zubovun qətlini təşkil etsə İbrahimxəlil xan özünün Cənubi Qafqazın birinci gözəli hesab edilən qızını ona ərə verəcəkdir [148, s.183].

Bu vədlərdən ruhlanan Nurəli xan təklifə razılıq verdi. O, Səlim xan və Mustafa xana ruslar tərəfindən hakimiyyətdən kənar ediləcəklərini, mülklərinin isə Nurəli xana veriləcəyini xəbər verərək onları ruslara qarşı çıxış etməyə çağırdı. Düşünülmüş plana görə xanların birləşmiş qüvvələri rus ordusunun düşərgəsini mühasirəyə almalı, Nurəli xan baş komandanın çadırına soxulub onu öldürməli, bundan sonra isə xanların birləşmiş qüvvələri rus qoşununu məhv etməli idi. Lakin axmaq təsadüf nəticəsində Azərbaycan xanlarının V.Zubova qarşı təşkil etdikləri qəsdin üstü açıldı. Nurəli xan at çaparkən papağı başından düşmüş, papağın içindəki məktub da yerə düşmüşdü. Nurəli xan bunu görməmiş, məktub Zubova çatdırılmışdı. Nurəli xan həbs edildi və Həştərxana sürgün olundu. Zubov xanlara münasibətinin dəyişdiyini büruzə vermədi [97.1, s.397-398; 123, s.6; 122.2, s.49-153].

Arxiv sənədində bu məsələ ilə əlaqədar belə yazılır: "Bu gün (avqustun 7-si – T.M.) baş komandan Nurəli xanın dünən gecə öz qaldığı yerdən çıxaraq İbrahim xanın elçisinin yanında gizləndiyini bilib onu istintaq etməyi tapşırdı. O, bildirdi ki, [xan] böyük cehizlə birlikdə qızını ona verməyə vəd edərək xahiş etmişdir ki, rusların düşərgəsində baş verən hər şey haqqında məlumat versin" [80.3, v.160].

İbrahimxəlil xanın ruslara qarşı münasibətinin kəskin surətdə dəyişməsinin səbəbi rusların melikləri ona qarşı çıxışa təhrik etməsi olmuşdu. Avqustun 8-də Şuşadan düşərgəyə qayıdan rus

casusu Həştərxan sakini Sergey Boqdanov məlumat vermişdi ki, Ararat patriarxından və arxiyepiskop İ.Arqutinskidən rus qoşunlarının gəlməsi ilə əlaqədar diyarda xristianların "müsəlman zülmündən xilas olacağı haqqında" məktublar alınması ilə bağlı iğtişaş baş vermişdir. Bu İbrahimxəlil xanı çox qayğılandırmış və o, iğtişaş sakitləşməsə Məlik Cəmşidi edam edəcəyi ilə hədələmişdir. Xan demişdir ki, "o ruslardan heç qorxmur". İbrahimxəlil xan daha sonra deyibmiş ki, bilir ki, rus qoşunu Cənubi Qafqaza göndərilmişdir ki, gürcü çarı güclənsin, İbrahimxəlil xanı və digər müsəlman hakimlərini özünə tabe etsin. Casusun dediyinə görə İbrahimxəlil xan şamaxılı Mustafa xanın və şəkili Səlim xanın yanına gizli əmrlərlə nümayəndələr göndərmişdir [80.5, v.160 a.ü.-161]. 1797-ci ildə İ.Qudoviçə təqdim etdikləri ərizədə məliklər Cəmşid və Fridun, yüzbaşı Petros yazırdılar ki, 1796-cı ildə V.Zubovun başçılığı ilə rus qoşunları Azərbaycana yürüş etdiyi zaman Zubov məliklərə məktub göndərərək yürüşünün məqsədinin xristianları azad etməkdən və Rusiya himayəsinə qəbul etməkdən ibarət olduğunu bildirib. Bundan ruhlanan bütün beş məlik xana qarşı mübarizəyə hazırlaşmağa başlamışlar. Ancaq rus qoşunlarının geri qayıtması məlikləri pis vəziyyətə qoymuşdur. İbrahimxəlil xan məliklərin xəyanətkarlığından xəbər tutub onları cəzalandırmışdır. Məlik Cəmşidi 70 min rubl verməyə məcbur etmişdir [82, v.8. a.ü.].

Bundan sonra məliklər məlik Abovu Tiflisə gen. Rimski-Korsakovun və sonra polkovnik Nemidovun yanına göndərərək xahiş etmişlər ki, Gəncədə yerləşən rus hərbi dəstəsinin Gülüstan məlikliyinə yaxınlaşmasına icazə versin ki, Abovun ailəsini, nökərlərini, əmlakını götürmələrinə imkan yaratsınlar. Ancaq, yuxarıdan əmr olmadığı üçün rus komandirləri bu xahişi yerinə yetirməkdən imtina etmişlər [82, v.8-9].

Məliklər yazırdılar ki, sonrakı 1797-ci ildə Ağa Məhəmməd xan Qacar ikinci dəfə Şuşaya yürüş edərkən məlik Cəmşidi həbs edib 70 min rubl ödənməsini tələb etmişdir. Ağa Məhəmməd şahın tezliklə sui-qəsd nəticəsində ödürülməsindən istifadə edən məlik fürsət tapıb Gəncəyə qaçmışdır, sonra ailəsini bura gətirmişdir [82, v.9]. Məlik Cəmşid adı çəkilən casus Boqdanova

yazılı məlumat göndərmişdi. Həmin məlumatda deyilirdi ki, bir müddətdir ki, İbrahimxəlil xan Səlim və Mustafa xanlarla yazışır. Uzun müddətdən bəri Səlim xanla düşmən münasibətində olan İbrahimxəlil xan onun bacısını alır, Nurəli xana pul göndərmişdir və öz elçisi Mirzə Məmmədəliyə tapşırmışdı ki, onu Qarabağ xanının tərəfinə çəksin. Nurəli xan təkrar istintaq zamanı ona 3000 xan manatının bəxşiş edildiyini etiraf etmişdi [80.3, v.161 və a.ü.].

Ancaq maraqlıdır ki, sonralar Nurəli xan V.Zubova sui-qəsd hazırladığını tamamilə inkar etmişdir. O, 1798-ci ildə rus hökumətinə yazdığı ərizəsində yazırdı ki, bir müddət V.Zubovun düşərgəsində qaldıqdan sonra o, Rusiyaya göndərilməsini xahiş etmiş, baş komandan da bu xahişdən qəzəblənərək 1796-cı il avqustun sonlarında Nurəli xanı və nökərlərini həbs etmiş, əmlakını əlindən almışdır. Nurəli xan şikayət edirdi ki, onu Həştərxanda çox pis saxlayırlar və nökərlərinin hər birinə gündəlik cəmi 2 rubl verirlər. Buna görə də özünü dolandırmaq üçün paltarlarını satır. Nurəli xan onun günahsız həbsinə son qoyulmasını və alınmış əmlakının geri qaytarılmasını xahiş edirdi [79.9, 230 a.ü.-231].

Knyaz Bezborodko 1797-ci il aprelin 30-da Həştərxan qubernatoru Arsenyevə yazırdı ki, imperator I Pavel Nurəli xanın həbsdən azad edilməsi və istənilən yerə qayıtmasına icazə verilməsi barədə göstəriş vermişdir [79.9, v.235].

Qəsdin üstünün açılması İbrahimxəlil xanın da vəziyyətini ağırlaşdırdı. O, özündən şübhələri uzaqlaşdırmaq üçün oğlu Əbülfət xanla Zubova əvvəl yolladığı məktubla yanaşı əlavə məktub da göndərdi. Zubovun rəğbətini qazanmağa çalışan İbrahimxəlil xan 12 minlik rus qoşununu göndərilməsini xahiş edir, bu qoşunla birlikdə Naxçıvan istiqamətində hərəkət edərək Rusiyaya qarşı olan qüvvələri cəzalandıracağını bildirdi. Xan tövsiyə edirdi ki, II İrakli İrəvan yolunu tutsun, Zubov isə Təbriz istiqamətində hərəkət etsin [97.1, s.405].

Rus ordusunun Azərbaycanın içərilərinə doğru irəliləməsi erməni arxiyepiskopu İ.Arqutinskinin daha da fəallaşmasına səbəb oldu. Məlumdur ki, arxiyepiskop 1793-cü ildə hazırladığı rus-erməni müqaviləsinin layihəsini 1796-cı il yürüşü zamanı rus

hakimiyyətinə təqdim etmişdi. Həmin lahiyəyə görə Azərbaycan ərazisində erməni çarlığı yaradılmalı və bu dövlətin hakimini təyin etmək hüququ rus imperatoruna verilməli idi. Çar burada ordusunu saxlaya bilərdi. Arqutinski Zubova məsləhət görürdü ki, Kür çayını keçib Muğanda düşərgə salsın və İbrahimxəlil xandan böyük oğlunun və beş məliyin komandası altında qoşun göndərməsini tələb etsin. İbrahimxəlil xan qoşun göndərməkdən imtina edərdisə məliklərin köməyi ilə o, hakimiyyətdən kənarlaşdırılmalı və Şuşa şəhəri işğal olunmalı idi [156, s.96].

V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana işğalçı yürüşü Osmanlı imperiyasını və şəxsən sultan III Səlimi xeyli narahat etdi. Türkiyə bütün vasitələrlə rusların Cənubi Qafqazdakı əməliyyatına mane olmağa çalışırdı. Rus qoşunlarının Azərbaycanda hərəkətinə mane olmaq üçün osmanlı ordusunun komandanlığı karvan yolları və körpüləri sıradan çıxartmağa çalışır və bu işə yerli feodalları cəlb edirdi. Bu məqsədlə Axısxa paşası Şamaxı və Şəki xanlıqlarına öz adamlarını göndərdi [47, s.40-41]. Rus ordusunun cəzasından ehtiyat edən Şamaxılı Mustafa xan və Şəkili Səlim xan osmanlı komandanlığının səsinə bu dəfə səs vermədilər. Şeyxəli xan və qazıkumuklu Surxay xan isə fəal surətdə ruslara qarşı mübarizə aparırdılar. Rus komandanlığı hər ehtimala qarşı tədbirlər hazırlamışdı; Qubada general-mayor Bulqakovun komandası altında Qafqaz korpusu və altı piyada taboru yerləşdirilmişdi. Rus ordusu bu tədbirləri o qədər məxfi şəkildə həyata keçirirdi ki, əks tərəf rusların Qubada bu qədər böyük qüvvəyə malik olmalarından xəbər tuta bilmədi.

Əslində Azərbaycan xanları V.Zubovun başçılığı ilə rus qoşunlarının yürüşünün işğalçı mahiyyətini artıq dərk etmişdilər və rus ordusunu dəf etmək üçün birləşməyə cəhd etdilər. Rus ordusunun baş komandanı yazırdı ki, xanlar onu özlərinin ümumi düşməni hesab edərək öz aralarında davam edən çəkişmələrə son qoydular və rus ordusuna qarşı düşmənçilik hərəkətlərinə başladılar. Amma, yalnız Şeyxəli xan fəal mübarizəni davam etdirirdi.

1796-cı il sentyabrın 24-də gen. Savelyev bildirirdi ki, Şeyxəli xan hələ də Axtıparadadır, anası İlisuda yaşayan ögey oğlu Həsən bəyin yanına getmişdir [80.3, v.217].

Gen. Savelyev sentyabrın 28-də yazırdı ki, Maqsud hakimi Kostyuk Mustafa bəy onu xəbərdar etmişdir ki, Qazıkumuklu Xanbutay sentyabrın 29, yaxud 30-na keçən gecə Quba ətrafında müxtəlif yerlərdə yerləşən rus dəstələrinə eyni zamanda basqın etmək niyyətindədir [80.3, v.229].

Bir neçə kəndin sakinləri də evlərini tərk edib dağlara qaçdılar. Şeyxəli xan Quba xanlığının bütün əhalisini rus qoşunlarına qarşı qaldırmaq istəyirdi. O, Qrız kəndində məskən salıb buradan xanlığı idarə etməyə başlalı [122.2, s.139].

Bulqakova xəbər çatmışdı ki, öz ailəsini Qrız kəndində yerləşdirən Şeyxəli xan hər gejə Çərəkə adlı kiçik çayın kənarında yerləşən eyni adlı kəndə gəlir və burada öz sadiq alamları ilə məsləhətləşmələr aparır. Zubovun razılığı ilə Bulqakov Şeyxəli xanı həmin kənddə olarkən tutmaq üçün iki yüngül silahlı dəstə təşkil etdi. Sübh açılmamış Bulqakovun özünün başçılıq etdiyi 450 nəfərlik dəstə Çərəkə kəndinə qarşı tərəfdən, Platovun başçılıq etdiyi min nəfərlik dəstə isə arxa tərəfdən eyni zamanda basqın etməli idilər. Quba naibi Vəli bəy bu plandan xəbər tutub öz bələdçiliyini təklif etmiş, məşəl ilə rus dəstəsinin önündə getmişdir. Əslində isə N.Dubrovinin yazdığına görə Vəli bəy məşəli yandırmaqla Şeyxəli xanın adamlarını duyuq salmış və ruslar çatana kimi xan artıq kəndi tərk etmişdir [122.2, s.140-141].

Bulqakov Xınalıq və Qrız kəndlərinə qasid göndərərək sakinlərdən xanın ailəsini tutub verməyi tələb etsə də heç bir nəticə hasil olmamış və kəndliləri cəzalandıraraq, 8 nəfəri əmanət götürmüş, 150 iri buynuzlu mal-qara və 100 qoyun almışdı [80.4, v.49].

Rusların təqibindən qurtarmaq istəyən Şeyxəli xan Şəki xanlığı ərazisinə qaçmış, lakin Səlim xandan lazımi vəsait ala bilmədiyinə görə anası və arvadı ilə dağlıq Fəmazə kəndinə getmiş, orada Samurun yuxarı axarındakı sakinləri öz ətrafına toplamağa başlamışdır [80.4, v.142].

Şeyxəli xan rus ordusuna qarşı təkbaşına mübarizə aparmağın çətinliyini anlayaraq, digər Azərbaycan xanlarını və Cənubi Dağıstan hakimlərini öz ətrafında birləşdirməyə çalışırdı. O, öz

müttəfiqi Surxay xan vasitəsi ilə şamaxılı Mustafa xanla və şəkili Səlim xanla əlaqə yaratmışdı [123, s.25].

Osmanlı sarayı da Azərbaycanda rus işğalına qarşı müqavimət hərəkatını diqqətlə izləyirdi. Azərbaycan xanları və Cənubi Dağıstan hakimləri yardım üçün tez-tez Türkiyəyə müraciət edirdilər. Osmanlı hökuməti Rusiya ilə açıq hərbi münaqişəyə girməkdən çəkinsə də dolayı vasitələrlə onun Cənubi Qafqazı işğal etməsinə mane olmağa çalışırdı. Rusiyaya qarşı vuruşan qüvvələrə hərbi yardım göstərməyin silahlı toqquşmaya səbəb olacağından ehtiyat edən sultan Səlim, maliyyə yardımı göstərməklə kifayətlənirdi. 1796-cı il sentiyabrın 17-də sultan sarayının nümayəndəsi Surxay xanla görüşərək ona sultanın məktubunu və göndərdiyi pul məbləğini vermişdi [42, s.100].

Rus işğalçılarına qarşı mübarizədə Quba və Qazıqumuq xanları sakinlərindən başqa Car-Balakən camaatları, tabasaranlılar, akuşalılar, rutullular və başqaları da iştirak edirdilər.

Sentyabrın sonunda Qazıkumuk xanı və Şeyxəli xanın 13-15 min nəfərlik qoşunu Quba xanlığının şimal hissəsinə daxil oldu. Dəstələr Alpan kəndinə yaxınlaşdılar.

Vəziyyətin getdikcə ağırlaşdığını görən gen. Bulqakov Şeyxəli xanın qüvvələrini məhv etmək üçün polkovnik Bakuninin başçılığı altında xüsusi dəstə göndərdi. Üsyançılar rusları onlar üçün əlverişli olmayan yerə çəkib tamamilə məhv etmək planı düşünmüşdülər. Dərbənd komendantı İ.Savelyevdən Alpan kəndində üsyançıların cəmləşməsi haqqında məlumat alan Bulqakov həmin məlumatın doğruluğunu yoxlamaq üçün kapitan Semyonovun başçılığı ilə 100 nəfərlik kəşfiyyat dəstəsi göndərdi. Bu dəstə Alpan kəndinə gedən dərədə üsyançıların gözətçi dəstəsi ilə rastlaşdı. Rus zabiti döyüşə girməyib yardım üçün gen. Bulqakova müraciət etdi. Bulqakov polkovnik-leytenant Bakuninin başçılığı ilə əlavə 400 nəfərlik dəstəni iki topla Alpan dərəsinə göndərdi [186.2, v.14].

Gecə ikən Semyonovun dəstəsi ilə birləşən Bakuninin dəstəsi Alpan dərəsi ilə irəliləmyə başladı. Üsyançıların gözətçi dəstəsi ruslara ara-sıra atəş açaraq geri çəkilib bununla onları arxalarınca getməyə vadar edirdilər. Heç nədən şübhələnməyən ruslar

oktyabr ayının 1-də Alpan kəndinə yaxınlaşdılar və tələyə düşdülər. Birləşmiş Quba və Dağıstan qüvvələri qəfildən rusların üzərinə atıldılar. Hücum o qədər qəfil və surətli oldu ki, ruslar toplardan cəmi bir neçə dəfə atəş açmağa macal tapdılar. Müttəfiqlər topları ələ keçirtdilər. P.K.Bobrovskinin yazdığına görə polkovnik-leytenant Bakunin, kapitan Semyonov, daha 5 zabit və 245 əsgər öldürüldü. Müttəfiqlər 274 tüfəng və 174 tapança qənimət götürdülər [91a, s.68]. Ancaq müttəfiqlər qələbəni axıra qədər qoruyub saxlaya bilmədilər. Gen. Bulqakov toqquşmadan xəbər tutub, döyüş meydanına polk. Stoyanovun başçılığı ilə bir alay göndərdi. Həmin alay qəflətən üsyançıların üzərinə həmlə etdi. Çaşbaş qalmış üsyançılar geri çəkilməli oldular [91a, s.68].

Gen. Bulqakovun verdiyi məlumata görə vuruşma nəticəsində 700 dağıstanlı döyüşçü və 900 muzdlu döyüşçü də həlak olmuş, Surxay xanın oğlu Bayram, birinci məsləhətçisi Molla Tağı, baş məmurları Məhəmməd Sami bəy, Ağa Məhəmməd bəy, Aşurov Qurban, Nəbi, kəndxuda Yusifin oğlu, Surxay xanın 310 təbəəsi həlak olmuşdur. Qənimət kimi 2013 tüfəng, tapança, habelə çoxlu soyuq silah ələ keçirilmişdi. Alpan kəndinin yanında 68 yaralı əsgər əsir götürüldü [80.3, v.223 a.ü.-232]. Ruslardan polkovnik Bakunin həlak oldu, kapitanlar Semyonov və Karaşev, poruçiklər Zlodeyev, Filatov, praporşik Krivpinov, unter zabitlər və sıravi yegerlər, qrenader və muşketyorlar cəmi 46 nəfər həlak olmuş, 94 nəfər yaralanmışdır [80.3, v.239].

Rus qoşunlarının qələbəsinə baxmayaraq, V.Zubov Rusiya dövlətinə itaət edən Dağıstan feodallarından Qaytaq usmisinə və Tarki şamxalına tapşırdı ki, Qazıkumuk xanlığına basqın edib, rusların əleyhinə çıxdıqlarına görə oranı darmadağın etsinlər. Yeri gəlmişkən, qazıkumuklular hələ rus qoşunlarının yürüşünün ilk çağı düşmən qoşunları Samur çayını keçərkən onlara qəfildən zərbə endirmişdilər [80.3, v.42].

A.Bakıxanovun yazdığına görə, Alpan döyüşündə Şeyxəli xanın ruslar tərəfindən "Quba xanı" təyin edilən kiçik qardaşı Həsən xan da öz böyük qardaşına qarşı döyüşmüşdü. Oktyabrın 14-də Pəricə xanım, 16-da isə Fətəli xanın İlusu Sultanının qızından doğulmuş kiçik oğlu Həsən bəy anası ilə birlikdə Qax

kəndindən Qubaya gəlmişdilər [122.2, s.167]. Noyabrın 3-də Həsən xan Quba xanı elan olundu. Baş komandanın müəyyənləşdirdiyi bir neçə ağsaqqal Quba xanlığının idarəsini həyata keçirməli idi [122.2, s.167].

Qubada baş verən hadisələrdən sonra Rus ordusu komandanlığı öz mövqelərini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. İlk növbədə ordunun arxa hissəsi möhkəmləndirildi. Dərbənd qalasında yerləşən Narınqala tamamilə rus qarnizonunun ixtiyarına verildi və qalanın müdafiəsi xeyli möhkəmləndirildi [80.3, v.43].

Xorasanda üsyanı yatıran və Nadir şahın varislərindən biri olan Şahruxun külli sərvətini ələ keçirən Ağa Məhəmməd şah /o, 1796-cı ildə artıq şah taxtına oturmuşdu, daha böyük ordu təşkil etməyə, Gilan və Mazandaranı möhkəmləndirməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Azərbaycana soxulacağını güman edir və onları dəf etməyə hazırlaşırdı. Ağa Məhəmməd şah Qarabağı tabe etmək cəhdindən əl çəkməmiş və 1796-cı ilin avqustunda Şuşanı tutmaq üçün dəstə göndərmişdi. Bu dəstə uğur qazanmadı və yalnız iki kəndi qarət edə bildi. Lakin, İbrahimxəlil xan bir daha Ağa Məhəmmədin Qarabağa iddialarından əl çəkmədiyini hiss etdi. Qacar təhlükəsinin yenidən meydana çıxması bəzi Azərbaycan xanlarını, ilk növbədə İbrahimxəlil xanı yenidən Rusiya ilə yaxınlaşmağa məcbur etdi. Bununla əlaqədar o, Zubova müraciət edərək, Şuşaya hərbi qüvvə göndərməsini xahiş etdi [148, s.184].

Gəncəli Cavad xan da ruslara münasibətini dəyişməli oldu. II İrakli və İbrahimxəlil xan onun mülklərini tutmağa çalışırdılar. Zubov sentyabr ayının 30-da II İraklinin yanına adam göndərib bildirmişdi ki, bu günlərdə gürcü çarının məqsədlərinə çatmasına kömək etmək və Gəncəni almaq üçün qüvvə göndərəcəkdir. İrəvanı isə çar öz qüvvəsi ilə almalıdır [80.3, v.225]. Belə şəraitdə rus korpusu ilə gərgin münasibətlər Cavad xan üçün yeni, daha güclü düşmən meydana gətirərdi. Çətin vəziyyətdən çıxış yolu axtaran xan sentyabr ayında guya Ağa Məhəmməd şah onun mülklərini hədələdiyi üçün Gəncəyə rus hərbi dəstəsinin göndərilməsini xahiş etdi [62.6, s.589]. Əlbəttə ki, bu həqiqətə

uyğun deyildi. Ağa Məhəmməd şah Cavad xana mənfi münasibət bəsləmirdi. Sadəcə olaraq Cavad xan özünü II İrakli və İbrahimxəlil xan tərəfindən gözlənilən təhlükədən qorumaq üçün rus himayəsini qəbul etmək istəyirdi və buna nail olmaq üçün özünü Ağa Məhəmməd şahın düşməni kimi qələmə verməyə çalışırdı. Cavad xanın rus planlarında onun mülklərinin II İrakliyə verilməsi ehtimalı haqqında məlumatı vardı. Rusiya himayəsini qəbul etməklə Cavad xan rus komandanlığının bu cür hərəkətlərinin mümkünlüyünü aradan qaldırmaq istəyirdi.

Bir neçə il sonra, 1803-cü ildə Cavad xan bu hadisələri xatırlayaraq Sisianova yazırdı: "... o zaman mən Gəncəni sənin padşahına verdiyim zaman, İran şahı Xorasanda idi, mənim əlim ona çatmırdı və böyük padşah kimi rus padşahına itaət etməyi lazım bildim" [148, s.185].

1796-cı il oktyabrın əvvəllərində V.A.Zubov Rusiyadan yeni qüvvələr aldı. Knyaz Sisianovun başçılığı ilə iki süvari alayı, bir piyada taboru yanında 6 səhra topu olmaqla Dərbənd-Quba yolu ilə Rusiyadan gəldi [148, s.185]. Uzun müddət Qurdbulaq yaylağında dincələn rus ordusu oktyabr ayının əvvəllərində Yeni Şamaxıya hərəkət etdi. Min nəfərlik güclü bir dəstə ayrıldı və ona 3 aylıq azuqə verilib Gəncəyə hərəkət edərək şəhəri tutmaq tapşırıldı. Dəstəyə general-mayor Rimski-Korsakov başçılıq edirdi. Rimski-Korsakovun dəstəsi oktyabrın 21-də Pirsaat yaxınlığındakı rus düşərgəsindən çıxaraq Şəki xanlığının ərazisi ilə Gəncəyə tərəf irəlilədi. Dəstə Mingəçevirdə üzən körpülərlə Kür çayını keçdi və dekabrın 13-də Gəncəyə çatdı. Cavad xan Gəncə qalasının qapılarını Rimski-Korsakov üçün açdı [182.3, v.1 və a.ü.; 156, s.96].

Rus hökumətinin planına görə bu dəstə Gəncədə dayanmalı, II İraklini Ağa Məhəmməd şahla mübarizəyə ruhlandıraraq çarın öz qüvvələrini Ağa Məhəmmədin zəbt etdiyi İrəvan xanlığını almaq üçün yönəltməyə sövq etməli idi. Bu dəstə həm də Azərbaycanın şimal xanlarına, hamıdan əvvəl İbrahimxəlil xana öz qoşunları ilə Ərdəbil və Təbrizə hərəkət etmələrindən ötrü təzyiq göstərməli idi. Dənizdən desant çıxarmaq yolu ilə rus eskadrasının onlara kömək göstərəcəyi güman edilirdi. Rusiyanın nəzərlə-

ri artıq Cənubi Azərbaycana və Xəzər dənizinin cənub sahillərinə yönəlmişdi [62.38, s.185]. Bu hərəkətlər Ağa Məhəmməd şahın hakimiyyətinə güclü zərbə endirməli idi. Haqqında danışılan planı 1797-ci ilin yazında gerçəkləşdirmək nəzərdə tutulurdu.

Qafqaz korpusunu Gəncəyə yola salan Zubov oktyabrın 26-da Pirsaat çayı yanındakı düşərgəsindən Yeni Şamaxı istiqamətində hərəkət etdi. Ayın 28-də ordunun ön dəstələri gen. Platovun komandanlığı altında Yeni Şamaxıya yaxınlaşdı [122.2, s.190-191].

Nurəli xanın həyata keçirtməli olduğu qəsdin üstünün açılması şamaxılı Mustafa xanla rus komandanlığı arasındakı münasibətləri daha da korlamışdı. Rusların cəza tədbirləri görəcəyini gözləyən Mustafa xan tələsik Yeni Şamaxını tərk edib Fitdağa çəkildi [156, s.37]. Dubrovin yazır ki, V.Zubov özünü elə göstərdi ki, guya Mustafa xanın qəsddə iştirakından xəbəri yoxdur. Məktub göndərib onun ruslarla yaxşı münasibətdə qalmasını arzuladığını bildirdi [122.2, 152-153].

V.Zubov Mustafa xanı hakimiyyətdən kənarlaşdırmağı qət etdi. Qasım xan Zubovun hüzuruna dəvət edildi və noyabrın 2-dən Şamaxı xanı elan olundu [88, s.145-146; 97.1, s.414]. Yeni xan rus qoşunlarının himayəsi altında qardaşı Mustafa xana qarşı çıxdı [92, s.139].

V.Zubov Yeni Şamaxıdan hərəkət etdi və noyabrın 21-də Cavad şəhərinin yanındakı düzənlikdə düşərgə saldı.

Noyabr ayında rus hərbi düşərgəsi Kür və Araz çaylarının qovuşduğu yerə keçirildi. Düşərgə qovuşuqdan bir qədər aralı Kürün sol sahilində yerləşirdi.

Rus qoşunları burada yaxşı istirahət etdilər, çünki, Bakıdan dəniz, sonra da çay vasitəsilə sursat gətirilməsi çətinlik törətmirdi; Kür çayında kifayət qədər balıq var idi. Gürcüstandan bütöv donuz sürüləri gətirildi. Qoşqu heyvanları və atlar üçün kifayət qədər ot var idi.

Azərbaycanda möhkəmlənməyi qarşısına məqsəd qoymuş rus hakimiyyət orqanları bir sıra siyasi-iqtisadi tədbirlər həyata keçirməyə çalışırdılar. İşğal olunmuş ərazilərdə Rusiyanın səlahiyyətli nümayəndəsi təyin edilmiş polkovnik Kovalenski yerli

hakimlərlə münasibətləri qaydaya salmalı idi. Zubov rus qoşunlarının mövqeyini möhkəmləndirmək və diyarın iqtisadi mənimsənilməsini təmin etmək üçün layihə hazırlamışdı. Bu layihəyə görə Kürlə Arazın qovuşduğu yerin yaxınlığında – Cavadın yanında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlanan qala salınmalı idi. Bura iki min cavan rus əsgəri göndərilməli, gürcü və ermənilər onlara gəlin verməyə məcbur edilməli idilər [128, s.122.2, s.193; 148, s.187]. Bu qala cənuba qarşı yönəlmiş dayaq məntəqəsi olmalı idi. Bununla yanaşı, bura ticarət qovşağı, Xəzər, Cənubi Qafqaz, qismən də Orta Asiya və İran ticarətinin iri bazarı olmalı idi [148, s.187].

Murtuzaqulu xan da V.Zubovun Muğandakı düşərgəsinə gəldi. Rus komandanlığı yenə də ondan qardaşı Ağa Məhəmməd xana qarşı mübarizədə istifadə etmək istəyirdi [122, s.192-193].

1796-cı ilin noyabrın 6-da II Yekaterinanın ölümü hadisələrin gedişini dəyişdirdi. Hakimiyyətə gələn I Pavel əks siyasət yeritməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Qafqazdan çıxarılması barədə sərəncam verdi.

V.Zubova II Yekaterinanın vəzifəyə təyin etdiyi adam kimi nifrət bəsləyən I Pavel bütün alay komandirlərinə qoşunların Qafqaz xəttinə geri qayıtması barədə buyruqlar göndərdi. V.Zubov istefaya çıxdı. Qafqaz xəttinə gələn bütün qoşunlara komandanlıq qraf Qudoviçə tapşırıldı [122.2, s.195; 148, s.188].

Rus qoşunlarının çıxarılması başlandı, lakin bəzi hissələr 1797-ci ilin martına kimi Muğanda qaldılar [148, s.188]. Bu qışda hərəkətin çətinliyi, atların yolda hərəkətinin, artilleriya və qoşunların aparılmasının çətinliyi ilə bağlı idi.

Bulqakov 1797-ci il martın 12-də yazırdı ki, Qubalı Həsən xan əhalinin Şeyxəli xana tərəfdar olduğunu görüb Qubadan Dərbəndə köçmüşdür. Şeyxəli xan əhaliyə məktublar göndərərək rus qoşunları xanlıq ərazisini tərk etməkdə olduğu üçün yenidən ona tabe olmalarını tələb edirdi [182.2, v.43].

Martın 13-də Bulqakov Şeyxəli xanın artıq Qubada olduğunu, ətrafına xeyli döyüşçü topladığını yazırdı [182.2, v.43].

İstefaya çıxan V.Zubov Bakıdan Həştərxana yola düşdü. Qoşunların Azərbaycandan çıxarılmasına gen. Bulqakov başçılıq

etdi. Qubalı Şeyxəli xan, Qazıkumuk xanı və bir sıra başqa hakimlər geri çəkilən rus qoşunlarını təqib etməyə cəhd göstərdilər. Bir neçə dəfə rus qoşunlarını mühasirəyə almaq cəhdləri, Dərbənd yanında yolu bağlamaq cəhdi oldu. Aprel ayında bütün qoşunlar Qafqaz xəttinə çıxdılar [122.2, s.202; 148, s.188].

Xeyli ərazini işğal etmiş rus qoşunlarının I Pavel tərəfindən geri çağırılması bir tərəfdən böyük xərclər – 31.700 min rubl, digər tərəfdən Avropada vəziyyətin mürəkkəbliyi ilə izah oluna bilər. Yerli xalqların işğalçı rus qoşunlarına münasibəti, hakimiyyətdən kənar edilmiş xanların fəaliyyəti, İranda Ağa Məhəmməd şahın güclənməsi də öz təsirini göstərmişdi.

Rus hökuməti eyni zamanda yürüş zamanı rus qoşunlarına hər cür kömək göstərmiş ermənilərin "xidmətlərini" də unutmadı. I Pavel 1797-ci il 1 may tarixli fərmanı ilə Qafqaz xəttindəki rus qoşunlarının komandanı İ.Qudoviçə Dərbənd və onun ətrafında yaşayan ermənilər rus qoşunları Azərbaycanı tərk etdikləri zaman Həştərxan və yaxud Qızlara keçmək istərlərsə onlara şərait yaradıb, torpaq sahəsi ilə təmin olunmalarını əmr edirdi [168.2, s.601; 73, s.313, s.449].

# V FƏSİL

# XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ. ŞİMALİ AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALININ BAŞLANMASI

Rus qoşunları Azərbaycanın hüdudlarını tərk etdikdən sonra Ağa Məhəmməd şah Qacar yenə də Cənubi Qafqazı itaət altına almaq qərarına gəldi. 1796-cı ilin martında şah tacını başına qoymuş Qacarın bu zaman mövqeləri xeyli möhkəmlənmişdi. 1797-ci ildə şahın ordusu Cənubi Qafqaza tərəf hərəkətə başladı. Azərbaycan xanlarına ünvalanmış fərmanlarda onlardan qeyd-şərtsiz tabe olmaq tələb edilir, əks təqdirdə sərt şəkildə cəzalandırılacaqları ilə hədələnirdilər. Ağa Məhəmməd şahın qarabağlı İbrahimxəlil xana ünvanlanmış fərmanı daha qəzəbli xarakter daşıyırdı. Fərmanda deyilirdi ki, əgər İbrahimxəlil xan sağ qalmaq istəyirsə, hakimiyyəti oğluna təhvil verib Məkkə ziyarətinə getməlidir [124, s.24].

Yazın əvvəllərində Qacar ordusunun Əliqulu xan tərəfindən başçılıq edilən ön dəstələri Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə daxil oldu. Naxçıvanlı Kəlbəli xanın gözləri çıxarıldı [14, s.66-67]. İrəvan xanlığı isə amansız şəkildə qarət edildi və əhalisinin bir hissəsi İrana köçürüldü [124, s.24].

Ordunun Ağa Məhəmməd şahın özünün başçılıq etdiyi əsas hissəsi Qarabağa daxil oldu. O dövrdə bir çox xanlıqlarda, o cümlədən Qarabağ xanlığında baş vermiş quraqlıq dəhşətli aclığa səbəb olmuşdu. Sakinlərin bir hissəsi öz ev-eşiklərini tərk edib bir tikə çörək dalınca başqa yerlərə köçməyə məcbur olmuşdular [36, s.125]. Ərzaq ehtiyatı olmayan İbrahimxəlil xan şəhəri tərk edib ailəsi ilə birlikdə Car-Balakən camaatlarına, qohumu Ümmə xanın yanına getdi (35, s.57).

Xanın Şuşanı tərk etməsi şəhər sakinləri arasında ümidsizlik və vahimə yaratdı. Şəhər əyanları müqavimət göstərməyin mənasız olduğunu fikirləşərək, əhalinin təhlükəsizliyi üçün təminat verilməsi şərtilə qalanı təslim etdilər. Ağa Məhəmməd şah Şuşaya daxil oldu. O, şəhərə daxil olan kimi verdiyi vədi pozaraq bir sıra adamları cəzalandırdı. Yüzlərlə adam, o cümlədən İbrahimxəlil xanın vəziri M.P.Vaqif həbs edildi. Şah Gürcüstana yeni səfərə hazırlaşdı. Lakin Şuşaya daxil olmasının yeddinci günündə, 1797-ci il iyulun 4-də Ağa Məhəmməd şah ola bilsin ki, İbrahimxəlil xanın şəhərdə qalmış qardaşı oğlu Məhəmməd bəyin təşəbbüsü ilə öz nökərləri Səfərəli və Abbas bəy tərəfindən qətlə yetirildi. Qatillər şahın tacını, həmayilini və bazubəndini götürüb qəsdin əsas təşkilatçısı olan Sadıq xan Şəqqaqinin yanına getdilər. Sadıq xan guya şahın tapşırığı ilə İbrahimxəlil xanın dalınca getdiyini söyləyib qalanı tərk etdi və Tehrana yola düşdü [35, s.58].

Malkolmun yazdığına görə Ağa Məhəmməd şah Şuşaya daxil olduqdan 3 gün sonra gecə iki nökəri Səfərəli bəy (Malkolm onun mənşəcə gürcü olduğunu yazır) və fərraş Xudadad itmiş kiçik bir məbləğ üstündə (bəzi məlumatlara görə şuşalıların şaha bağışladığı qovunlara görə) mübahisə etmiş, bununla şahın rahatlığını pozmuşdular. Şah qəzəblənərək onları edam edəcəyini bildirmişdi. Ümidsizlikdən nökərlər şahı qətlə yetirmək qərarına gəlmişdilər [124, s.347]. Az inandırıcıdır ki, şah açılacaq səhər edamına hökm verdiyi şəxsləri gecə həbs etdirməyərək, hətta öz yaxınlığında qalmalarına imkan vermişdir.

Şahın ölüm xəbəri onun döyüşçülərinin dağılışıb öz evlərinə dönməsinə səbəb oldu.

Ağa Məhəmməd şah Qacarın öldürülməsindən sonra hakimiyyətə öz sağlığında özünə vəliəhd təyin etdiyi qardaşı oğlu Fətəli xan gəldi. O, Ağa Məhəmmədin babasının adı ilə adlandırıldığından nəvazişlə Baba xan deyə çağırılırdı. Eyni zamanda sərablı Sadıq xan Cənubi Azərbaycan hakimlərini özündən asılı etdikdən sonra Qəzvin üzərinə yeridi. Fətəli şahla toqquşmada məğlub olub Səraba döndü. Sadıq xan şahın sarayından ələ

keçirtdiyi bütün şeyləri Fətəli şaha göndərib üzr istədi və bağışlandı [30, s.338].

1798-ci ildə Fətəli şah təbrizli Cəfər xanı hakimiyyətdən kənarlaşdırıb yerinə Azərbaycan xanlarına qarşı daha yaxşı mübarizə apara bilən, hərbi qabiliyyətli kiçik qardaşını Təbriz hakimi təyin etmək qərarına gəldi. Lakin Cəfər xan Fətəli şahın əmrinə tabe olmaqdan imtina edib, qarabağlı İbrahimxəlil xanla və Sadıq xan Şəqqaqi ilə ittifaqa girərək Fətəli şaha müqavimət göstərmək qərarına gəlmişdi. Fətəli şah öz əmisi oğlu Süleyman xanın başçılığı ilə 10 minlik qoşun göndərmişdi [79.2, v.113].

Fətəli şah bir müddət öz hakimiyyətini möhkəmləndirməklə məşğul olduğundan qısa müddətə də olsa xarici işğal təhlükəsi Azərbaycanın şimal xanlıqlarının üstündən sovuşmuş du. Ancaq məlum idi ki, müəyyən bir müddətdən sonra həm qacarlar, həm də Rusiya yenidən Azərbaycanı tabe etməyə girişəcəklər. Gözləmək olardı ki, Azərbaycan xanları aralarındakı incikliyi unudub gələcək təhlükələrdən qorunmaq üçün qüvvələrini birləşdirmək yolunda addımlar atacaqlar. Ancaq belə olmadı. Xanlar arasındakı ixtilaf və münaqişələr yenidən, daha böyük qüvvə ilə alovlandı.

1795-ci ildə Hüseynqulu xan tərəfindən Bakıdan sıxışdırılmış II Mirzə Məhəmməd xan 1797-ci ildə yenidən Şeyxəli xanın köməyi ilə Bakıya hücuma keçdi. A.Bakıxanov yazır ki, bu dəfə uğur qazanmayan xan Maştağa kəndində yaşamalı oldu [88, s.181]. Rus konsulu M.Skibinevski 1797-ci il oktyabrın 1-də Sarı adasından göndərdiyi məlumatda yazırdı ki, 1794-cü ildə o, Bakıda yaşadıdığı zaman şəhər qubalı Şeyxəli xan tərəfindən mühasirəyə alınmışdır. Bakı xanı konsuldan xahiş etmişdi ki, sahilə yaxın yerdə dayanan rus freqatındakı toplardan Şeyxəli xanın qoşunlarına bir neçə atəş açılsın, ancaq belə bir bəhanə ilə xahiş rədd olunmuşdu ki, hərbi gəminin rəisinə yalnız ticarət gəmilərini müdafiə etmək əmr olunmuş, xanlar arasındakı məsələlərə qarışmaq isə qadağan edilmişdir. Belə olduqda Bakı xanı və ağsaqqalları konsula demişdilər: ruslar həmişə bizim düşmənimiz olmadığı zaman yardım vəd edirlər, düşmənimiz olduqda isə imtina edirlər: biz rusların bu davranışını artıq çoxdan başa düşmüşük. Xan bildirmişdi ki, ruslar əbəs yerə belə fikirləşirlər ki,

bakılılar rus ticarət gəmilərinə hər hansı xətər yetirərlər, çünki, Rusiya ilə ticarətdən onlar daha çox xeyir götürürlər. Skibenevskinin yazdığına görə o vaxtdan Bakı xanı qonşuları Şamaxı və Quba xanları ilə münaqişədən qaçınmağa çalışır.

Konsul Skibinevski yazırdı ki, hal-hazırda Fətəli şah Xəzər sahilində yerləşən xanlıqların hakimlərindən zahiri itaətdən başqa heç nə tələb etmir. Deməli sahilyanı xanların rus hərbi gəmilərinin yardımına ehtiyacı yoxdur. Skibineviski hesab edirdi ki, Xəzər dənizində Azərbaycan və İran limanlarında çox sayda rus hərbi gəmilərinin, xüsusən də Bakı yanında bombardmançı gəminin və Sarı adasının yanında botun saxlanması gərəksizdir [79.11, v.311-312].

Şeyxəli xan Quba xanlığında öz əvvəlki hakimiyyətini tamamilə bərpa etdikdən sonra, özünün irsi mülkü saydığı Salyanı da ələ keçirmək fikrinə düşdü. 1798-ci ildə rus sənayeçilərinin qayıqları vasitəsilə Kür çayı ilə hərəkət edən Quba qoşunları Salyanı ələ keçirdilər. Lakin, o, Dərbəndə qayıdan kimi Salyan şamaxılı Mustafa xan tərəfindən tutuldu.

Sarı adasındakı rus konsulu M.Skibinevski Azərbaycan xanları arasında münaqişələrdən bəhs edərək 29 oktyabr 1798-ci il tarixli məlumatında yazırdı: şamaxılı Mustafa xan qubalı Şeyxəli xanla Salyana görə ixtilafdadırlar. Mustafa xan qarabağlı İbrahimxəlil xanla da düşmən münasibətdədir. Buna görə də Fətəli şahın sarayına öz oğlunu girov göndərən İbrahimxəlil xan şahdan Mustafa xana qarşı mübarizə üçün yardım istəmişdir, eyni zamanda Mustafa xan da şaha İbrahimxəlil xandan şikayət məktubu göndərmişdir. Bakı xanı Şamaxı xanı ilə ittifaqdadır və Quba xanına da zahiri hörmət göstərir, eyni zamanda şahdan hər iki xana qarşı mübarizə üçün kömək istəyir. Şəki xanı Şamaxı xanı ilə sıx ittifaqdadır, lənkəranlı Mustafa xan Qarabağ və Şamaxı xanlarına rəğbət nümayiş etdirir [79.11, v.176 a.ü.].

Həm Rusiyada, həm də İranda dövlət başçılarının ölümü bu dövlətlər arasındakı münasibətlərə, onların Azərbaycana qarşı siyasətlərinə təsir göstərməyə bilməzdi. I Pavel və Fətəli şah öz sələflərinin müharibə taktikalarından əl çəkib strateji məqsədlərinə siyasi yolu ilə çatmaq siyasətinə keçdi.

I Pavel İ.Qudoviçə 1797-ci il 5 yanvar fərmanı ilə Rusiyaya, "xeyirxah olan" Azərbaycan və Dağıstan hakimlərinə bir federativ dövlət halında birləşməyi təklif etməsini buyurdu, bu hakimlərdən Rusiyaya sədaqət tələb olunur, rus hökuməti onlardan xərac tələb etməyəcəyini, daxili işlərinə qarışmayacağını vəd edirdi [145, s.123; 148, s.193].

I Pavelin gen. Qudoviçə 9 mart 1797-ci il tarixli məktubundan görünür ki, Sarı adasının qarşısındakı sahildə quru ərazisi tutulub möhkəmləndirilməsi artıq sayıldı. Adanın yanında bir-iki rus hərbi gəmisi dayana bilərdi. Xəzər dənizində Azərbaycan və İran hərbi gəmilərinin üzməsinə icazə vermək olar; Rus ticarətini himayə etmək üçün əvvəlki vaxtardakı kimi bir neçə hərb gəmisi göndərilə bilərdi [122.2, s.202-203].

1798-ci ildə lənkəranlı Mir Mustafa xan Mirzə Məhəmməd bəy adlı yeni elçisini Rusiyaya yola saldı. Ola bilsin ki, Mirzə Məhəmməd bəy Mir Mustafa şahın qardaşı idi. O, Həştərxana 1797-ci ilin sentyabrında çatmışdı [79.2, v.97-99]. Mir Mustafa xan yazırdı ki, Ağa Məhəmməd xanın göstərişi ilə Gilana aparılmış Lənkəran ailələrini geri qaytarmaq üçün yürüş etməyə hazırlaşır və bu zaman oradakı Rusiya konsulu Skibinevskini də özü ilə Lənkərana gətirməyə icazə istəyir. Qafqaz xəttindəki rus qoşunlarının komandanı general Qudoviç konsulun Gilandan Lənkərana aparılmasına icazə verməmişdi. Çünki Qudoviçin fikrincə bir sıra xanların Gilana iddiaları olduğundan Mir Mustafa xanın buraya yürüşü onun düşmənlərinin artmasına səbəb olar və onlar arasında silahlı mübarizə başlaya bilər. Qudoviç 1797-ci il sentyabrın 22-də yazırdı ki, hələ Ağa Məhəmməd xanın ölümündən əvvəl Lənkəran xanı elçisini Rusiyaya yola salmışdı. İndi həmin elçi Həştərxandadır. Qudoviç hesab edir ki, vəziyyət dəyişdiyindən xan indi elçilərinə yeni etimadnamə verməlidir [79.2, v.89-90 a.ü.].

Mir Mustafa xan elçisinə rus hökumətinə vermək üçün yeni etimadnamə məktubu göndərmişdi. Xan yazırdı ki, Qacar qoşunları üç dəfə onun mülklərinə basqın etmiş və qarət törətmişlər. Bu vaxtlarda o, öz elçisi Mirzə bəyi Rusiya sarayına göndərmişdi. İndi Ağa Məhəmməd şahın Qarabağda qətlə yetirilməsi ilə

bütün təhlükələr sovuşmuşdur. Xan yazırdı ki, təhlükəli anlarda Gilandakı rus konsulu ona yardım göstərmişdir. İndi əlverişli məqam düşdüyünə görə o, yəni xan Gilana aparılmış təbəələrini geri qaytarmaq üçün yürüş etmək fikrindədir. O, istəyir ki, konsul da onun yanında olsun [79.2, v.91 və a.ü.].

Skibinevski özü Xarici işlər kollegiyasına məlumatında yazırdı ki, Ağa Məhəmməd şahın yerinə taxta çıxmış qardaşı oğlu Fətəli şah lənkəranlı Mir Mustafa xanı Rəştdən sıxışdırmaq və yaxud da həbs etmək istəyir. Konsul belə hesab edirdi ki, Mir Mustafa xan yaxınlıqda rus hərb gəmilərindən himayə xahiş etməyə məcbur olacaqdır. Skibinevski hesab edirdi ki, bu halda rus hərbi gəmiləri Lənkəran sahillərinin yaxınlğında üzməklə xana dəstək göstərməlidirlər [79.2, v.94 və a.ü.]. General Qudoviç Skibinevskinin bu təklifinə qarşı çıxaraq yazdı ki, 1797-ci ilin martın 9-da I Pavel ona buyurmuşdur: Talış sahillərinə yaxınlıqda yerləşən Sarı adasında bundan sonra qoşun saxlamamalı və adanı möhkəmləndirməməli, yalnız adanın yaxınlığında bir-iki hərbi gəmi dayanmalıdır; Xəzər dənizində İran hərbi gəmilərinin üzməsinə dözmək və mane olmamaq, rus ticarətini mudafiə etmək üçün bir neçə rus hərbi gəmisi göndərmək. Bu buyruğu alan Qudoviç aprelin 7-də Həştərxanda olan kontr-admiral Kileninə xəbər vermişdir ki, bu yüksək buyruğa müfafiq olaraq hərəkət etsin, hərbi gəmilərə yerlilərin ixtilaflarına qarışmaq, onların hansınınsa marağını müdafiə etmək qadağan olunsun. Mir Mustafa xana gəlincə isə o, Fətəli şahın təqibindən xilas olmaq üçün Sarı adasına sığınmaq istəsə də buna mane olmamalı, lakin onu müdafiə etmək, yaxud hərbi gəmilərlə ona dəstək göstərməyə heç bir zərurət yoxdur [79.2, v.95-96].

I Pavel Azərbaycan xanları və Dağıstan hakimlərini Rusiyanın başçılıq etdiyi federasiyada birləşdirmək istəyirdi. Federativ birləşmə yolu ilə ayrı-ayrı xanlıqların Qacarların təsiri altına keçməsinə yol verməmək, yumşaq davranışla onları Rusiyaya daha sıx bağlamaq nəzərdə tutulurdu. Əslində belə bir siyasət onların Rusiyanın tərkibinə qatılması üçün özül hazırlamalı idi.

Rus çarının 28 avqust 1800-ci il tarixli buyruğunda bir çox Azərbaycan xanlarına və Dağıstan hakimlərinə, o cümlədən

qubalı Şeyxəli xana və dərbəndli Həsən xana öz aralarında sülh münasibətləri yaratmaları məsləhət görülmüşdü. Şeyxəli xan və Həsən xan Samur çayının sahilində görüşüb barışdılar və onların hər biri öz mülklərində qaldı. Lakin, 1802-ci ildə Həsən xan ağır xəstələndi və vəfat etdi. Şeyxəli xan Dərbəndə gəldi, Həsən xanı dəfn etdi. İmamqulu bəyi Dərbənd naibi təyin edib Bakıya qayıtdı [88, s.184].

I Pavelin federasiya haqqında təklifinin gerçəkləşməsi üçün Qafqaz ordusunun yeni komandanı yerli hakimləri və yaxud onların nümayəndələrini dəvət edib, rəqabət aparmağın zərərini və əmin-amanlıq şəraitində yaşamağın zərurətini başa salmalı, onların aralarında baş verən çəkişmələri adət-ənənə, qanun və ya münsiflər məhkəməsi vasitəsilə həll etməyə çağırmalı idi. Bu da mümkün olmasa onlar Rusiya imperatoruna müraciət etməliydilər. Yerli hakimlər şahın basqınına qarşı birləşməli, bu ittifaqa şamxalın, usminin və Tabasaran qazisinin təbəələrini cəlb etməli, öz təbəələrinin digər hakimlərin təbəələrini qarət etməkdən əl çəkəcəklərinə and içməli idilər.

Rus hökuməti eyni zamanda xanlıqların daxili işlərinə qarışmaqda, Azərbaycanın bəzi yerlərində yaşayan xristianları dəstəkləməkdə davam edirdi. Georgiyevskə qaçmış məliklər – Cəmşid, Fridun və yüzbaşı Petros 1797-ci il avqustun 1-də yazırdılar ki, arxiyepiskop Arqutinskidən eşitmişlər ki, I Pavel əmr etmişdir ki, "İranda" (yəni Azərbaycanda) yaşayan xristianlar yaşamaq üçün Rusiyaya köçmək istəsələr, qəbul olunsunlar və onlara torpaq ayrılsın. Dərbənddən və Müşkürdən köçmüş ermənilər artıq Şimali Qafqazda məskunlaşdırılmışdılar [82, v.9. a.ü.]. Bunu eşidən məliklər Cəmşid və Firidun Qudoviçə ərizə yazaraq bildirirdilər ki, beş məlikin hakimiyyəti altında 6 minə qədər ailə vardır. Cəmşid əlavə olaraq guya onun 5 min ailədən ibarət təbəəsinin Şəki və Şirvana qaçdığını yazırdı; Hal-hazırda İranda güclü mərkəzi hakimiyyət olmadığı üçün İbrahimxəlil xan gücsüzdür və özü dağıstanlılardan kömək umur. Digər müsəlman hakimlərindən isə müqavimət gözləmək olmaz. Buna görə də indi xristianları azad etməyin əlverişli məqamıdır. Məliklər məsləhət görürdülər ki, Gürcüstandakı rus qoşunları Şuşaya doğru

hərəkət etsinlər ki, məliklər öz təbəələrini və əmlakını toplayıb Rusiyaya köçə bilsinlər. Əks halda Gürcüstandakı rus hissələrinin Rusiyaya qayıtması ilə xristianların azad olunması ümidləri puça çıxacaq [82, v.10 a.ü.].

Məliklərin ərizəsi I Pavelə çatdırılmış, çar 1797-ci il oktyabr ayının 7-də bu məsələ ilə əlaqədar İ.Qudoviçə buyruq göndərmişdi. Pavel məliklərin 11 min təbəəsi ilə birlikdə Rusiya təbəəliyinə qəbul edilmələrinə və Rusiyaya köçmələrinə razılıq verirdi. Qudoviçə əmr olunurdu ki, bu məsələni həll etmək üçün lazım olan bütün tədbirləri görsün. O, köçərkən xristianları və onların əmlakını qorumaq üçün zəruri tədbirlər görməli, köçənlər üçün lazımi qədər torpaq ayırmalıdır [82, v.11 və a.ü.].

Qarabağlı İbrahimxəlil xan 1798-ci ildə Fətəli şaha məlumat vermişdi ki, rus qoşunları Qarabağa yürüş etmək, oradakı xristianları Gürcüstana, yaxud Mozdoka köçürtmək istəyirlər. Fətəli şah bu məsələ ilə əlaqədar öz elçisi vasitəsiylə rus hakimiyyət orqanlarından izahat istəmişdi. Ruslar həmin xəbəri təkzib etmişdilər [79.11, v.24].

Eyni zamanda İbrahimxəlil xan Rusiyanı qəzəbləndirə biləcək hər hansı hərəkət etməkdən çəkinirdi. Konsul Skibinevski 1800-cü il 16 noyabr tarixli məxfi məlumatında yazırdı ki, İbrahimxəlil xan onun yanına gəlmiş gürcü şahzadəsini dərhal Ümmə xanın yanına göndərmişdir. Qarabağ xanı şahzadənin Fətəli şahla sıx əlaqə yaratmasını, bununla onun xan üçün əlavə problemlər yaratmasını istəmirdi. Konsul yazırdı ki, "Adırbaycandakı (Azərbaycan – T.M.) və Şirvandakı hakimlərin heç biri istəmir ki, Qacarlar və yaxud hər hansı güclü dövlət öz qoşunlarını onun ərazisindən keçirsin [79.11,v.401].

1800-cü ilin ortalarında Peterburqa, imperatorun yanına bir sıra şimal-şərqi Azərbaycan xanlıqlarının, habelə Dağıstan və Lənkəran (Talış) hakimlərinin böyük bir elçi heyəti yollandı. Məqsədləri Rusiya dövləti tərəfindən himayəyə nail olmaq idi. Bu elçi heyətinin tərkibinə Şeyxəli xanın nümayəndəsi Mirzə Əsgər, dərbəndli Həsən xanın nümayəndəsi Hacı Tağı, bakılı Hüseynqulu xanın nümayəndəsi Mirzə Hadı bəy, habelə lənkəranlı Mir Mustafanın, şamxal Mehdi xanın, usmi Rüstəm xanın,

avarlı Ümmə xanın və Tabasaran qazisi Rüstəmin nümayəndələri daxil idilər. Çar sarayında aparılan danışıqlardan sonra həmin elçi heyəti üzvlərinin hər birinə öz xan və hakimlərinə təqdim olunmaq üçün məzmunları eyni olan ayrı-ayrı məktublar verilmiş və onlar yola salınmışdı. 1800-ci ilin avqust ayının 28-də imzalanan məktublarda yuxarıda adları çəkilən feodallara öz aralarında ümumi bir razılığa gəlmək və ittifaq yaratmaq təklif edilmişdi. Rusiyaya ayrı-ayrı xanlıqlar deyil, birləşmiş Azərbaycan xanlıqlarından və Dağıstan hakimlərindən ibarət ittifaq ona görə lazım idi. Güman edilirdi ki, Rusiyanın himayəsi altında belə bir ittifaqın olması onun regionda öz məqsədlərinə çatmasına kömək edər. Xatırlatmaq istərdik ki, belə bir təklif I Pavel tərəfindən 3 il əvvəl də Qafqaz qoşunları komandanı general Qudoviç vasitəsilə Azərbaycan və Dağıstan hakimlərinə bildirilmişdi. Bu zaman Rusiyanın başı Avropada bir sıra qlobal məsələlərə qarışmışdı. 1798-ci ildə Rusiya, İngiltərə və Avstriyanın iştirakı ilə, o zamanlar Avropa və Aralıq dənizi hövzəsində geniş işğalçılıq siyasətinə keçən Fransaya qarşı yeni birlik yaranmışdı. O vaxta qədər iki ənənəvi müttəfiq sayılan Fransa və Türkiyə arasında ixtilafın yaranması Osmanlı imperiyasını Rusiyaya yaxınlaşdırdı və tarixdə ilk dəfə olaraq bu iki dövlət arasında 1799-cu ilin yanvar ayının 3-də İstanbulda ittifaq müqaviləsi imzalandı. "Əbədi ittifaq" müqavilənaməsi adlandırılan həmin sənədlə "padşahi-Ale-Osman həzrətləriylə bütün rusiyalıların imperatoru arasında əbədi dostluğun yaranmasından bəhs edilir, Avstriya, İngiltərə və Prussiya da bu ittifaqa qoşulmağa dəvət edilirdi [88, s.182].

Bütün bu siyasi dəyişikliklərə baxmayaraq XVIII yüzilliyin sonu – XIX əsrin başlanğıcında yaranan belə mürəkkəb vəziyyət heç də Qafqazın, o cümlədən Azərbaycanın Rusiya tərəfindən "unudulması" demək deyildi [88, s.272-273].

XIX əsrin astanasında Cənubi Qafqazda, eləcə də Avropada yaranmış vəziyyət Rusiyanın Azərbaycana dair işğalçılıq planlarını gercəkləşdirmək üçün imkan yaradırdı.

Azərbaycanda siyasi dağınıqlıq vəziyyəti davam etdiyindən burada xarici işğalçılara qarşı mütəşəkkil ciddi müqavimətin olmayacağı ehtimalını yaradırdı. Qərbi Avropanın aparıcı dövlətləri –

İngiltərə və Fransa Rusiyanın cənuba doğru irəliləməsinə mane olmaq istəsələr də bu dövrdə onlar arasında gedən ölüm-dirim mübarizəsi Rusiyanın hərəkətinə qarşı təsirli tədbirlər görməyə imkan vermirdi.

1800-ci ilin sonunda Ost-Hind şirkətinin Hindistan general-qubernatoru lord Uezli kapitan Con Malholmun başçılıq ilə diplomatik missiyanı Fətəli şahın yanına göndərdi. 1801-ci il yanvarın 4-də Malholmun Qacar vəziri Hacı İbrahimlə apardığı danışıqlar nəticəsində biri siyasi, digəri ticari olmaqla iki müqavilə imzalanmışdır. Ticarət müqaviləsinə görə tərəflərə tacirlərə öz mallarını hər iki dövlətin ərazisinə azad daşımaq hüququ verirdi. İngiltərə tacirlərinə Qacarlar dövlətinin istənilən şəhər və limanında məskən salmağa icazə verilir, onların malları isə hər cür vergilərdən azad olunurdu [130, s.63-65].

Siyasi müqaviləyə görə Cənubi Qafqazda möhkəmlənmək üçün İngiltərənin Qacarlara yardım edəcəyi vədi verilirdi. İngiltərə höküməti heç bir reallığı nəzərə almadan Qacarların müstəqil Azərbaycan xanlıqlarına iddialarını qeyd-şərtsiz dəstəkləyirdi. Müqavilədə İngiltərənin qacarlara Cənubi Qafqaz istiqamətində hərəkət sərbəstliyi verməsi müstəqil Azərbaycan xanlıqlarına, eləcə də Rusiyaya qarşı çevrilmişdi [46, s.93]. Tarixi qaynaqlarda olan məlumata görə müqavilədə Lənkəranda gəmilər inşa edilməsi razılaşdırılmışdı [61.12, s.240]. Yeri gəlmişkən, ticarət müqaviləsində Bakı xanının razılığı belə soruşulmadan İranla Bakı arasında ticarətdə ingilislərin vasitəçiliyi nəzərdə tutulurdu [46, s.94].

Malholmun bağladığı müqavilənin həm şimali Azərbaycan xanlarına, həm də Rusiyaya qarşı çevrilməsini Rusiyanın hakim dairələri və bəzi Azərbaycan xanları da anlayırdılar.

Bakıdakı rus konsulu M.Skibinevskinin sözlərinə görə o, bu müqavilənin bağlanmasından narahat olmuş və lənkəranlı Mir Mustafa xandan C.Malholmun hərəkətləri haqqında məlumat toplayıb ona göndərilməsini xahiş etmiş, xan bu xahişi yerinə yetirmişdi [61.12, s.240].

1801-ci ilin mart ayının 12-də Rusiya imperatoru I Pavel sui-qəsd nəticəsində həlak oldu və onun yerinə oğlu I Aleksandr

/1801-1825/ çar oldu. Yeni çar Rusiyanın Avropa siyasətində köklü dəyişiklik etdi.

I Aleksandr Fransa ilə yaxınlaşmaqdan imtina edib, ona qarşı İngiltərə ilə ittifaq siyasətinə üstünlük verdi. Rusiya onun müttəfiqinə çevrildiyi üçün İngiltərə artıq açıq surətdə Qacarlar dövlətini müdafiə edə bilmədi və Malholmla bağlanan müqavilə lazımsız bir kağıza çevrildi.

Fransa məqamdan istifadə etməyi qərara aldı. Napoleon Azərbaycan və İranı da Fransanın ticarət orbitinə daxil etmək istəyirdi. 1805-ci ilin may ayında Napoleon öz emissarı Amadey Joberi Şərqə göndərir. Jobere verilən təlimatda İran, Türkiyə və Azərbaycan ərazilərini öyrənmək və rus sərhəddindəki vəziyyət haqqında məlumat toplamaq tapşırığı da var idi. Belə bir tapşırıq digər bir emissara-Romyeyə də tapşırılmışdı. Romyenin şaha təqdim etdiyi məktubda Qacarlara Xəzər dənizində gəmilər inşa etməyə Fransanın yardımı təklif olunurdu [46, s.97].

Qeyd edək ki, Kartli-Kaxeti çarlığının ləğv edilib Rusiyaya birləşdirilməsi haqqında çar manifesti 1801-ci il fevralın 16-da Tiflisdə xalqa oxunan zaman əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Pəmbək, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarının Gürcüstanın tərkibində Rusiyaya birləşdirildiyi bəyan edildi [122.2, s.372]. Bununla da Azərbaycanın çar Rusiyası tərəfindən işğalının əsası qoyuldu. Bu yerli əhalinin kəskin narazılığına səbəb oldu. Borçalı və Qazaxda həyəcanlar başlandı. Lazarev qazaxlılara məktub yazaraq onlardan gürcü şahzadəsi Davidə itaət göstərməyi tələb etdi, əks təqdirdə güclü qoşunla gəlib cəzalandıracağını bildirdi [61.2, 1. s.592]. 6000 pəmbəkli öz kəndlərini tərk edərək İrəvan xanlığına köçdü [122.2, s.403]. Pəmbəkdə həyəcanları yatırmaq üçün gen.-mayor Lazarevin başçılıq etdiyi qoşun hissələri iyunun 30-da Pəmbəkə gəldi [61.5, s.699]. Ruslar, demək olar ki, bütün 14 kəndin əhalisini geri qaytardılar [61.6, s.699]. Bu ərazilərdə həmişəlik möhkəmlənmək və əhalini itaətdə saxlamaq üçün Pəmbəkdə 3 bölük yerləşdirildi.

Şəmşəddil sultanlığının da əhalisi Rusiyaya qatıldığını eşidib oranı tərk edərək Gəncə xanlığına sığındı [122.2, s.404]. Laza-

rev Şəmşəddilə Solomon Avalov başda olmaqla qoşun göndərdi [61.4, s.788]. Gəncəli Cavad xan öz nümayəndəsini Lazarevin yanına göndərərək ondan rus qoşunlarının Şəmşəddildən getməsini tələb etdi. Eyni zamanda o, Knorrinqə məktubla bildirdi ki, Şəmşəddil ta qədimdən Gəncəyə məxsus olmuşdur: "Şəmşəddili heç kim bizə verməyib və ona görə də onu bizdən almağa və ya başqasına verməyə heç kimin haqqı yoxdur. 700 ildir ki Şəmşəddil torpağı mənim nəslimə mənsub olmuş və bizə qulluq etmişdir" [61.9, s.819].

Rus hakimiyyət orqanları Azərbaycan ərazilərini ələ keçirmək üçün müxtəlif vasitələrdən – şirnikdirmək, aldatmaq, qorxutmaq və bilavasitə silah tətbiq etməkdən çəkinmirdilər.

Çar I Aleksandrın Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqındakı manifesti təsdiq edən 1801-ci il 12 sentyabr tarixli fərmanda deyilirdi: "...Ətrafların hakimləri və xalqları ilə münasibətləri saxlamaqla yanaşı, Rusiyanın himayəsində olmaq istəyənlərin sayını artırmaq lazımdır. Xüsusilə İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqları cəlb etmək lazımdır, çünki onların üzərində hələ Baba xanın (yəni Fətəli şahın) hakimiyyəti möhkəmlənməmişdir, buna görə də hazırkı vəziyyətdə onlar öz təhlükəsizlikləri üçün, əlbəttə, Rusiyaya meylli olacaqlar" [61.1, s.436].

Sultanlıqların əraziləri rus qoşunları tərəfindən tutulduqdan sonra, Qazax, Borçalı və Pəmbəyə gürcü knyazlarından pristav təyin edildi və ona rus məmurlarından bir köməkçi ayrıldı.

1802-ci ildə Qafqazdakı rus qoşunlarının komandanı təyin olunmuş, keçmiş gürcü knyazları nəslindən olan, müstəmləkə siyasətinin fəal tərəfdarı knyaz gen.-anşef, mənşəcə gürcü olsa da, tərbiyə etibarilə rus olan qəddar Pavel Sisianov özünün əsas vəzifəsini Rusiyanın Cənubi Qafqazda əldə etdiyi strateji əməliyyat meydanını genişləndirərək, sərhədləri Kür və Araz çaylarına çatdırmaqda, və işğal edilmiş əraziləri Türkiyə və İrandan olan xristianlarla məskunlaşdırmaqda görürdü. Ümumiyyətlə, qafqazlılara ikinci növ adamlar kimi baxan və onları nifrətlə "kafir xalq", "kafir asiyalı", "kafir yaramazlar" adlandıran bu qəddar general bütün yerli hakimlərlə öz əlaltısı kimi davranmağı üstün tuturdu. I Aleksandr Sisianova tam fəaliyyət azadlığı

vermiş və Xəzər donanmasının ixtiyarını da ona tapşırmışdı [139, s.141].

Azərbaycanın onlarla xırda feodal dövlət qurumlarına parçalanmış şəkildə olması onun Rusiya tərəfindən işğalı üçün əlverişli imkan yaradırdı. Bundan əlavə işğal ərəfəsində Rusiyanın Cənubi Qafqazda siyasi rəqibləri çox zəif idilər və işğala mane olmaq iqtidarında deyildilər. Gürcüstanın Rusiyaya birləşdirilməsi və Qacar dövlətinin buna seyrçi qalması artıq bu dövlətin siyasi nüfuz dairəsinin xeyli zəif olduğunu göstərirdi. Həmin dövlət XIX əsrin əvvəllərində Cənubi Qafqazda Rusiyaya mane olacaq siyasi və hərbi qüvvəyə malik deyildi.

Real siyasi vəziyyət o zaman Fətəli şahı da Rusiya və Azərbaycan xanları ilə yumşaq davranmağa vadar edirdi. O, 1797-ci ilin sonunda I Pavelin yanına elçi göndərdi. Elçilərin ticarət haqqındakı təqdimatına Rusiya hökuməti müsbət yanaşdı, lakin bildirdi ki, şah Gürcüstana, Tarki şamxallığına, Dərbənd və Bakı xanlıqlarına, Xəzər dənizi ilə Gürcüstan arasında yerləşən torpaqlara qarşı iddialarından əl çəkməlidir [88, s.574-575].

Bu dövrdə Rusiya Osmanlı dövlətini Cənubi Qafqazda nəinki ciddi rəqib hesab etmir, əksinə "Rusiyanın Türkiyəyə münasibəti işğalçılıq xarakteri daşıyırdı və o, Osmanlı imperiyasının zəifliyindən istifadə edib, ərazilərini öz əlinə keçirməyə çalışırdı" [141, s.7].

İngiltərə və Fransanın bölgədəki siyasi və diplomatik fəaliyyəti, İran və Türkiyə ilə yaxınlaşmaları və ya hər hansı siyasi uğurları və diplomatik gedişləri Rusiya işğalının qarşısını ala biləcək gücə malik deyildi. Eyni zamanda İngiltərə ilə Fransa arasında tez-tez baş verən ciddi ixtilaf və qarşıdurmalar da vəziyyətə mənfi təsir göstərirdi.

Xəzərsahili vilayətlərin tutulmasına birinci dərəcəli əhəmiyyət verən çar hökuməti Dərbənd, Quba, Bakı və Lənkəran xanlarını öz tərəfinə çəkmək üçün bütün vasitələrdən istifadə edirdi. Məsələn, lənkəranlı Mir Mustafa xana Fətəli şahdan müdafiə olunmaq üçün kömək etmək vəd edilirdi [63.16, s.]. Dərbəndli Həsən xana müxtəlif hədiyyələr göndərilir [190, s.251], Bakı hakimi Hüseynqulu xana "düşmənlərdən" qorunmaq üçün Bakı

mahalına daxil olan bütün kənd və yerlərlə birlikdə Rusiyanın himayəsinə keçmək tövsiyə edilirdi [89, s.764].

I Aleksandr əvvəlcə atası I Pavel kimi Rusiyanın himayəsi altında Şimali Qafqaz və Azərbaycan hakimlərinin birliyini yaratmağa cəhd edirdi. Onun tapşırığı ilə general Sisianov xanlarla danışıq aparmaq üçün Georgiyevsk şəhərində görüş təşkil etdi. Orada Quba, Bakı, Lənkəran (Talış) xanları, Tərki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran qazisi toplaşmalı idilər. 1802-ci ilin sentyabr ayına təyin edilən görüş baş tutmadı. Dekabrın 26-da Bakı xanının gəlmədiyi görüşdə "Georgiyevsk müqaviləsi" imzalandı. Giriş və 12 maddədən ibarət olan bu sənəd üzrə xanlar və hakimlər söz verdilər ki, aralarında olan düşmənçilik, narazılıq və çəkişmələr bir tərəfə qoyulacaq, mübahisələri dinc yolla həll edəcək, şah qoşunlarının hücum edəcəyi halda ona qarşı birgə çıxış edəcək, ticarəti artıracaqlar.

Müqavilənin bəndlərindən beşi ticarət məsələlərinin tənzimlənməsinə həsr edilmişdi. Müqavilənin yerdə qalan maddələri hərbi-siyasi məsələlərdən, ilk növbədə güclənməkdə olan İran təhlükəsinin dəf edilməsindən bəhs edirdi. Müqaviləni imzalayan tərəflər belə bir təhlükənin yarandığı şəraitdə Qafqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirməyi öhdələrinə götürdülər. Əslində bu müqavilənin imzalanması XVIII əsrin 80-ci illərində rus diplomatiyasının aludə olduğu Rusiyanın cənub sərhədlərində İran və Türkiyə təhlükəsinə qarşı "sədd" yaratmaq ideyasının davamı idi [156, s.142].

Dərbəndi yenə Qubaya birləşdirdikdən sonra bir qədər güclənmiş Şeyxəli xan Bakıya da öz iddiasını bildirdi [121, s.77]. Qeyd edək ki, P.D.Sisianov da Dərbəndi tutmaq niyyətində idi [62.25, s.729-730]. Lakin bütün dağlı hakimlərin rus hökümətinə olan inamını itirməkdən qorxan çar hököməti hələlik Sisianovun Dərbəndi tutmaq təklifinə razılıq vermədi. Bakıya, Salyana və Dərbəndə ekspedisiyalar həyata keçirilməsini də hələ təxirə salmaq məsləhət görülürdü [62. 36, s.783]. Beləliklə, Sisianovun Car-Balakənə hücumu qərarlaşdırıldı.

Car-Balakən sərhəddində xeyli qoşun toplayan Sisianov gen.-mayor Qulyakovu qarşıdakı əməliyyata başçı təyin etdi.

1803-cü ilin martın 2-də Qulyakov başda olmaqla 3 tabor piyada, 8 top, 200 kazak, 4500 gürcü piyadası və atlısından ibarət dəstə Cara tərəf hərəkətə başladı [121, s.93].

Şəki xanından, gürcü şahzadələri Aleksandr və Teymurazdan, eləcə də Dağıstanın bəzi feodal hakimlərindən kömək vədi alan car-balakənlilər özlərini müdafiə etmək əzmində idilər, səngərlər qazır, meşələrdə sədlər düzəldirdilər. Ancaq müttəfiqlərindən lazımi köməyi görməyən car-balakənlilər rus qoşunlarının hücumunun qarşısını ala bilmədilər və güclü top atəşlərindən sonra geri çəkilməyə məcbur oldular. Rusiya qoşunları Qanıq (Alazan) çayını keçdilər [35, s.65].

Balakənə qədər bütün kəndlər boşaldıldı və sakinlər Balakənə toplaşdılar. Ancaq rus qoşunları kiçik döyüşdən sonra Balakəni alaraq yerlə-yeksan etdilər [121, s.95].

Tezliklə qalan bütün ərazilərin tutulacağını və rus qoşunlarının Şəkiyə yaxınlaşacaqlarını anlayan şəkili Məhəmməd Həsən xan tələsik Sisianova məktub yazaraq, tərəfləri barışdırmaq üçün öz vasitəçiliyini təklif etdi. Sisianov rus qarnizonunun Car-Balakəndə yerləşdirilməsinə razılıq verilməsi, car-balakənlilərin ipəklə xərac ödəmələri və girov vermələri şərtilə hərbi əməliyyatın dayandıracağını bildirdi. Car-balakənlilər bu şərtləri yerinə yetirməkdən imtina etdilər. Ancaq güclü müqavimət təşkil etmək mümkün olmadı və rus qoşunları Carı tutdular. Tamamilə məhv olmaqdan qurtulmaq üçün camaatlar öz nümayəndələrini Qulyakovun yanına göndərdilər. Qulyakov nümayəndələri Tiflisə Sisianovun yanına yola saldı.

1803-cü il aprelin 12-də Sisianov camaatların nümayəndələrinə elan etdi ki, camaatlar Rusiyanın himayəsini qəbul etməli, ildə 200 pud ipək verməlidirlər. Camaatlar girov verməli, ruslara istədikləri kəndlərdə qoşun yerləşdirmək hüququ verilməli idi [51, s.40]. İlisu sultanlığı da Car-Balakənlə birlikdə Rusiyanın himayəsinə alındı [62.27, s.685].

Bundan sonra Sisianov əsas zərbəni Gəncəyə endirmək qərarına gəldi. Qeyd edək ki, 1802-ci ildə Kartli-Kaxetiya çarlığı ilə birlikdə Gəncə xanlığına məxsus Şəmsəddil sultanlığının Rusiyaya birləşdirilməsi Cavad xanla Sisianov arasında münasibətlə-

rin kəskinləşməsinə səbəb olmuşdu. General nəinki Şəmsəddili tərk etməsi barədə xanın tələblərinə məhəl qoymurdu, üstəlik ondan Rusiyaya sədaqət əlaməti olaraq oğlu Uğurlu ağanı Tiflisə göndərməyi tələb edirdi [62.5, s.588]. Sisianovun əmri ilə 6 tabor və 12 topdan ibarət rus hərbi birləşməsi noyabrın 20-də Gürcüstanın Soğanlıq kəndinə toplaşdı [51, s.42]. Noyabrın 29-da bu qoşunlarla Şəmkirə gələn Sisianov hədə-qorxu dolu məktub göndərərək Cavad xandan Gəncəni təslim etməyi tələb etdi. Məktubda Gəncənin keçmişlərdə guya Gürcüstana məxsus olması iddia edilir, indi Gürcüstan Rusiyanın himayəsinə keçdiyindən Gəncənin də Rusiya hakimiyyətinə verilməsi tələb edilirdi. Sisianov əks təqdirdə Gəncə ətrafına od və qılınc gətirəcəyi ilə hədələyirdi [62.6, s.588-589].

Cavad xan isə əlbəttə Gəncənin Gürcüstana məxsus olmasını nəinki inkar edir, hətta, Gürcüstanın özünün belə vaxtilə Gəncə bəyləri tərəfindən idarə olunduğunu yazır, təslim olmaq tələbini qətiyyətlə rədd edirdi [62.6, s.589]. Cavad xan öz qüvvələri ilə ruslara qarşı çıxdı, Gəncənin iki verstliyində Quru qobu adlı yerdə baş verən döyüşdə məğlub oldu və geri dönüb Gəncə qalasında müdafiəyə hazırlaşdı [35, s.65]. Həmin döyüşddə gəncəlilər 250 adam itirdilər [121, s.229].

Bir ay mühasirədən sonra gen. Sisianov dekabrın 29-da qalanın təslim olmasını ultimatum qaydasında tələb etdi. Onun irəli sürdüyü şərtlərə görə Cavad xan, bütün əhali ilə Rusiya himayəçiliyinə keçməli, qalanı təslim etməli, ildə 20 min rubl bac verməli, Gürcüstandakı rus qoşunlarını ərzaqla təchiz etməli, nəhayət oğlu Hüseynqulu ağanı girov verməli idi [62.8, s.591]. Qalanı təslim etmək haqda tələbə Cavad xan cavab olaraq bildirdi ki, o, döyüşməyə hazırdır [62.8, s.590].

1804-cü il yanvar ayının 2-dən 3-nə keçən gecə, orucluq bayramı ərəfəsində rus qoşunları şəhərə qəti həmlə etdilər. Əvvəlcə, Portnyaginin başçılığı ilə qoşunlarının birinci cərgəsi gəncəlilərin cəbhəsini yarıb keçməyə təşəbbüs göstərdi, lakin bu mümkün olmadı, sonra rus əsgərləri nərdivanlar qoyub onlara qalxmaqla qala divarlarına hücuma keçdilər. Rus qoşunları hər iki həmlədə böyük itki verərək geri oturdular. Lakin bu vaxt

rusların ikinci cərgəsi hücuma qoşularaq əsas qüllələri tutdu [170, s.91]. Düşmən şəhərə soxulsa da gəncəlilər Cavad xan başda olmaqla mərdliklə müqaviməti davam etdirirdi. Cavad xan qala divarlarının üstünə çıxanları igidlik və qoçaqlıqla dəf edirdi. Axırda mayor Lisaneviç tapançadan açdığı atəşlə Cavad xanı öldürdü [35, s.66]. Qanlı döyüşlərdən sonra qala rus qoşunları tərəfiindən tutuldu.

Gəncə alındıqdan sonra, Cavad xandan asılı olan Samux hakimi Şirin bəy Rusiya tabeçiliyinə keçməyə məcbur oldu [7, s.5]. Gəncə I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı [62.10 s.593-594].

Qeyd edək ki, hələ Gəncənin işğalından əvvəl öz vəziyyətləri ilə barışmaq istəməyən car-balakənlilər Sisianovun şərtlərini yerinə yetirməkdən imtina etmişdilər. Onlar vergi verməkdən, girovları göndərməkdən və başqa tələbləri yerinə yetirməkdən müxtəlif vasitələrlə yayınır, qonşuları ilə ittifaqa girərək tez-tez rus qoşunlarına qarşı çıxış edirdilər. Buna görə də rus komandanlığı car-balakənliləri cəzalandırmaq qərarına gəldi. Qulyakov kifayət qədər böyük qüvvə ilə hərəkət etdi, Alazan çayı sahilində camaatların müqavimətini qırıb, 1804-cü il yanvarın 10-da Carı tutaraq yandırdı [121, s.377; 167.1, s.96]. Yerli əhali Carı və bütün ətraf kəndləri tərk edərək dağlara və meşələrə çəkilmişdi. Qulyakov əhalini təqib etməyə başladı. Lakin Zaqatala dərəsindəki döyüşdə ruslar toplardan istifadə edə bilmədilər və ruslar dərəyə yetişən kimi onlara hər tərəfdən atəş açıldı. İlk atəşdən Qulyakov öldürüldü. İrəlidə gedən kazaklar və gürcülər intizamsız halda geri qaçmağa başladılar. Bəzi məlumatlara görə 8 saat davam edən döyüşdə ruslardan 118 zabit və əsgər öldürülmüş, 134 zabit və əsgər yaralanmışdı [50, s.44]. Potto Zaqatala döyüşündə rusların 20 zabit və 526 sıravi itirdiklərini yazır [169.1, s.99]. Rus qoşunlarının itkilər verərək geri çəkilməsinə baxmayaraq, cəzasız qalmayacaqlarını anlayan carlılar nümayəndələrini xəracın bir hissəsi ilə baş komandanın yanına göndərdilər.

Sisianov yaxşı anlayırdı ki, camaatlar manevr edirlər, imkan düşən kimi itaətdən imtina edəcəklər. Ancaq Car-Balakəndə möh-

kəmlənmək hələlik mümkün olmadığından o, carlıların zahiri itaətləri ilə kifayətlənməli oldu.

Gəncə və Car-Balakənin işğalından sonra rus komandanlığı diqqətini İrəvan xanlığına yönəltdi. İrəvanda katolikos taxtı uğrunda mübarizədən bir bəhanə kimi istifadə olundu. Bu mübarizədə xan Davidin, ruslar isə Danilin tərəfində idilər. Sisianov 1803-cü ilin martında çar I Aleksandra göndərdiyi raportunda yazırdı ki, Məhəmməd xanı cəzalandırmaq və Danili erməni patriarxı etmək üçün İrəvana getməyi vacib sayır [62.11, s.610].

Sisianov İrəvana yürüşü uğurla başa çatdırmaq üçün daha 4 alay və 100.000 rubl gümüş pul lazım olduğunu bildirirdi. Bu qüvvələrlə o nəinki İrəvanı, həmçinin Naxçıvan və Şuşanı almağı və Kür-Araz boyu həyata keçiriləcək işğal planının bir hissəsini bu kampaniyada başa çatdırmağı vəd edirdi [62.11, s.610].

İrəvanlı Məhəmməd xana göndərilən məktubunda Sisianov xandan danışıqlara başlamaq üçün Danilin patriarx elan edilməsi və Davidin Tiflisə göndərilməsini, qalada Rusiya qoşunlarının yerləşdirilməsinə razılıq verməsini, xərac ödəməsini və sadiq qalması üçün and içməsini tələb edirdi. Bu zaman şahdan formal asılı olan Məhəmməd xanın Fətəli şahla münasibətləri yaxşı deyildi və Fətəli şah xanlığı müstəqil idarə edən Məhəmməd xanı oradan uzaqlaşdımağa çalışırdı [62.12, s.613]. Bu cür vəziyyət İrəvan xanını ehtiyatlı olmağa, siyasi manevrlər etməyə məcbur edirdi.

İyunun əvvəlində Tuçkovun komandanlıq etdiyi 1 alay, 2 tabor və 8 topdan ibarət dəstə İrəvan xanlığına məxsus olan Şoragölü (Şorayel) tutdu [195, s.50].

Artıq qacarların tezliklə müharibəyə qoşulacağı aydın idi. Rusların irəliləməsinə seyrçi qalmaq nəinki Cənubi Qafqazın, eləcə də Cənubi Azərbaycanın və bir sıra İran vilayətlərinin itirilməsi ilə nəticələnə bilərdi. Həm də rus qoşunlarının dövlətin mərkəzindən uzaqda qarşısını almaq daha sərfəli idi.

1804-cü ilin iyununda şah Rusiyaya müharibə elan etdi. Gümrü və Eçmiədzini tutan rus qoşunları iyulun 2-də İrəvan qalasını mühasirəyə aldı. Ancaq tezliklə qacar qoşunları İrəvanı mühasirə etmiş rusların özünü mühasirəyə aldılar [35, s.2]. Qa-

ladakılar mühasirədə olmalarına baxmayaraq rus qoşunları üzərinə uğurlu həmlələr edirdilər. Bu həmlələr nəticəsində rusların 163 zabiti və sıravi döyüşçüsü öldürüldü [169.1, s.368-370].

Məhəmməd xan rusların ərzaq və sursatlarının tükənəcəyinə, Tiflisdən ərzaq və sursat gətirincəyə qədər yolların keçilməz olacağına əmin idi və təslim olmaqdan qəti imtina etdi.

Qacarların müharibəyə girməsilə xalqın işğalçılara qarşı mübarizəsi genişləndi. Əvvəlcə Qazax və Borçalı elatı Rusiya dövlətindən üz çevirdilər, itaətdən boyun qaçırdılar. Hətta İmeretiyaya gedən gürcü şahzadələri də gəlib İran tərəfdən vuruşan vəliəhd Aleksandrın tərəfinə keçdilər [35, s.69]. Car-balakənlilərin üsyanları və qarabağlıların işğal altındakı Yelizavetpol vilayətinə hücumu [169.1, s.372] Cənubi Qafqazda rusların mövqeyini xeyli sarsıtdı. Gürcü vəliəhdi Aleksandrın başçılıq etdiyi qoşunlarla üsyan etmiş yerli əhalinin Tiflis-İrəvan yolunu bağlaması rus qoşunlarının vəziyyətini daha da ağırlaşdırdı.

Tiflisdən gələcək ərzağı qarşılamaq üçün göndərilən Montrezorun dəstəsi Qarakilsədə demək olar ki, bütünlüklə məhv edildi. Yalnız bir neçə gürcü qaçaraq canını qurtardı, 2 yaralı zabit, o cümlədən biri kn. Orbeliani və 10 əsgər əsir götürüldü [51, s.54]. Ərzaq çatışmaması üzündən Sisianov tərəfindən Gürcüstana qaytarılan 300 gürcü tavadı da mühasirəyə alındı. Onlardan 10 nəfəri öldürüldü və 190 nəfəri əsir alınaraq Tehrana göndərildi.

1804-cü ilin avqustun axırında çağırılan hərbi Şura sentyabrın 2-də mühasirənin götürülməsini və qoşunların geri çəkilməsini qərara aldı [51, s.54].

Uğursuz İrəvan yürüşündən Tiflisə qayıdan Sisianov əvvəlcə İmeretiya və Minqreliyada Rusiya əleyhinə qalxan üsyanları yatırtmaqla məşğul oldu. Gürcüstanda vəziyyəti bir qədər sakitləşdirdikdən sonra o, yenidən işğal əməliyyatlarını davam etdirmək qərarına gəldi. İndi o, qarşısına Qarabağ, Şəki və Şamaxı xanlıqlarını tabe etmək vəzifəsini qoymuşdu.

XIX yüzilliyin əvvvəllərində Qarabağ xanlığının daxili vəziyyəti yaxşı deyildi. Çoxlu dağıntılara səbəb olmuş Ağa Məhəmməd şah Qacarın hücumlarından sonra, əhali var-yoxdan çıxmış, məhsul qıtlığı yaranmışdı. Xanlığın müdafiə qüdrəti isə

xeyli zəifləmişdi. Rusiya və Qacarlar dövləti üçün Qarabağın strateji mövqeyinin böyük əhəmiyyəti var idi. O zamankı İran sərkərdələrinin, o cümlədən şahın özünün rəyinə görə alınmaz qala olan Şuşa şəhəri qacarlar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab olunurdu [16, s.182].

Əgər şah Qarabağda öz mövqeyini möhkəmləndirərdisə bütün Cənubi Qafqazı öz təsiri dairəsində saxlamaq imkanı əldə edəcək və rusları buradan qovub çıxarmaq üçün gerçək imkan yaranacaqdı. Yox əgər Rusiya bu əraziyə sahib olardısa nəinki Arazın şimalındakı xanlıqlar, hətta İranın özü üçün də təhlükə yaranacaqdı [51, s.52].

İbrahimxəlil xanın getdikcə Qafqazdakı rus qoşunlarının komandanı ilə yaxınlaşdığını və onun yanına elçilər göndərdiyini eşidən Fətəli şah bu yaxınlaşmaya mane olmaq üçün İbrahimxəlil xanın oğlu Əbülfət xanı 1805-ci ilin yanvarında 5 min nəfərlik qoşunla Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan həmin qoşunları məğlub edərək Arazın o tayına sıxışdırmağa nail oldu [45, s.231-232].

Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının daha böyük dəstəsinin Qarabağa hücumu ehtimalı İbrahimxəlil xanı yardım üçün gen. Sisianova müraciət etməyə vadar etdi. O, zahirən Rusiyaya itaət etmək niyyətində olduğunu bildirirdi [62.28, s.697-698].

Sisianov Qarabağ xanlığının Rusiya himayəsinə qəbul olunması haqqında müqavilənin şərtləri ilə İbrahimxəlil xanı tanış etmək və həmin müqavilənin imzalanması üçün xanın Gəncəyə gəlişini təşkil etmək məqsədilə mayor Lisaneviçi xüsusi tapşırıqla Şuşaya göndərdi [62.29, s.698-699].

Eyni zamanda Fətəli şah Kərim xanı və Abdulla xanı İbrahimxəlil xanın yanına göndərib heç vəchlə Rusiyaya tabe olmamasını, rus qoşunlarını Qarabağa buraxmamasını, İranın giriş qapısı sayılan Xudafərin körpüsünün rusların nəzarəti altına verilməməsini xahiş etmişdi [34, s.167]. İbrahimxəlil xandan qaneedici cavab almayan şah Rəhim xan da daxil olmaqla nümayəndələrini yenidən Şuşaya göndərir və rus qoşununun qarşısını almaq üçün Əsgəran qalalarının möhkəmləndirilməsini, Şuşanın üç verstliyində qurulacaq istehkamlarda və Şahbulaqda qızılbaş

qoşunlarının yerləşdirilməsini təklif edirdi. Həm də onlar İbrahimxəlil xanın əmrinə tabe olmalı idi. Bütün xərclərin şahın xəzinəsindən ödənilməsinə təminat verilirdi [45, s.232]. Lakin İbrahimxəlil xan şah nümayəndələrini həbs edərək Rusiyaya "öz sədaqətini" nümayiş etdirdi [34, s.168].

Şəki xanlığında da şərait Rusiyanın xeyrinə dəyişirdi. Xanlıq taxtına can atan və Rusiya tərəfindən şirniklədirilən Səlim xan qardaşı Məhəmmədhəsən xanı devirmək üçün Sisianova və Şamaxı xanı Mustafa xana müraciət etdi [121, s.407]. Mustafa xanın qoşunları 1804-cü ilin fevralında Şəki xanlığına daxil oldular. Məhəmmədhəsən xan tutulub Şamaxıya göndərildi və Mustafa xan öz naibini Şəkiyə hakim təyin etdi. Aldadıldığını görən Səlim xan şamaxılıların yanından qaçaraq Şuşaya gəldi və özünü Şəki xanı elan etdi [121, s.408-409]. Öz hakimiyyətini möhkəmləndirmək və şamaxılı Mustafa xandan qorunmaq üçün Səlim xan yardım üçün Sisianova müraciət etdi. Sisianov isə yaranmış məqamdan məharətlə istifadə etdi. O, 1805-ci ilin fevralında Rusiya himayəsinə qəbul olunmaq üçün şərtləri Səlim xana göndərdi. Səlim xan isə şərtlərdən yalnız təzminatı ödəyə bilməyəcəyini bildirdi [62.13, s.643; 62.14, s.643].

Tezliklə Mustafa xanın qoşunları Şəki sərhədlərinə yaxınlaşdı. Bu hadisədən bütün şərtləri Səlim xana qəbul etdirmək üçün bir vasitə kimi istifadə etməyə çalışan Sisianov 2 topla 300 nəfərlik dəstəni Səlim xanın köməyinə göndərdi [62.16, s.643]. Mustafa xan geri çəkilməli oldu.

Lisaneviçin Qarabağa gəlişi ilə əlaqədar İbrahimxəlil xan bütün bəylərin iştirakı ilə şura çağırır. Altı gün davam edən məsləhətləşmədən sonra bütün bəylər Rusiyanın himayəsinə keçmək haqda təklifi rədd etdilər. Lakin İbrahimxəlil xan müqavilənin layihəsindəki bütün bəndlərlə razılaşdığını Lisaneviçə bildirdi [121, s.406].

1805-ci il mayın 14-də Sisianovun Gəncə yaxınlığındakı Kürəkçay sahilindəki düşərgəsində Sisianovla İbrahimxəlil xan arasında bağlanan müqaviləyə görə Qarabağ xanı Rusiyanın ali hakimiyyətini qəbul edir və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan imtina edirdi. Xan Şuşada 500 nəfərlik rus qarni-

zonunu yerləşdirməli, ildə 8000 rubl bac ödəməli və nəvəsini həmişəlik Tiflisdə qalmaq şərtilə girov verməli idi. Əvəzində xanın və bütün xələflərinin əbədi hakimiyyətinə, ərazisinin bütöv saxlanılmasına təminat verilirdi [62.30, s.704-705].

Qarabağ xanlığının dinc yolla itaət altına alınması digər xanlıqların işğalı üçün əlverişli şərait yaratdı.

İbrahimxəlil xanla müqavilənin imzalandığını Səlim xana bildirən Sisianov tezliklə onun da Kürəkçaya gəlməsini tələb etdi [62.17, s.646]. 1805-ci il mayın 21-də Kürəkçayda Şəki xanı ilə bağlanan müqavilə Qarabağ xanlığı ilə bağlanan müqavilənin eyni olub, yeganə fərqi illik xəracın miqdarında idi. Şəki xanı ildə 7000 rubl xərac ödəməli idi [62.18, s.647]. Son dövrdə meydana çıxan bəzi əsərlərdə İbrahimxəlil xanla və Səlim xanla müqavilələrin eyni gündə, yəni mayın 14-də bağlandığı iddia edilir. Belə hesab edilir ki, Sisianov qəsdən öz xidmətlərini şişirtmək üçün müqavilələrin müxtəlif vaxtda imzaladıqlarını yazmışdır [9, s.591]. Doğrudan da Səlim xanın da İbrahimxəlil xanla müqavilə bağlanarkən Kürəkçay düşərgəsində olmasını nəzərə alsaq bu mülahizəyə haqq qazandırmaq olar.

Qarabağ və Şəki xanlıqlarının tabe edilməsi və rus qoşunlarının Araz çayına yaxınlaşmasını görən, İngiltərə və Fransa nümayəndələri ilə aparılan danışıqlardan gerçək bir sonluq əldə etməyən şah rusların Qarabağda möhkəmlənməsinə imkan verməmək üçün Abbas Mirzəyə Qarabağa hərəkət etməyi əmr etdi. Kürəkçay müqaviləsinə əsasən mayor Lisaneviçin başçılıq etdiyi 6 bölükdən ibarət Şuşada yerləşmiş rus qarnizonundan əlavə bir dəstə də Araz çayı sahilində Qacar dövləti ilə sərhəddə Qarabağ qoşunları ilə birgə keşik çəkirdi. 1805-ci ilin ortalarında Xudafərin körpüsü yanında bu dəstə ilə qacarların qoşunu arasında döyüş baş verdi. Ruslar məğlubiyyətə uğrayıb Şuşaya çəkildilər [37, s.268].

Bu vaxt artıq Şuşada qacar qoşunlarının yaxınlaşması ilə əlaqədar itaətsizlik başlamışdı [169.1, s.199]. Əhalinin əksəriyyətinin qacarları səbirsizliklə gözlədiyindən xəbərdar olan Sisianov İbrahimxəlil xana məktubunda heç bir əsas olmadan onun da sadiqliyinə inanmadığını bildirir və onu gah o tərəfə, gah da bu

tərəfə meyl etməkdə günahlandırırdı [62.31, s.709-710]. İbrahimxəlil xanın bütün hərəkətləri ruslar tərəfindən izlənilir və bu haqdakı məlumatlar Lisaneviç tərəfindən qərəzli şəkildə baş komandana çatdırılırdı.

Əsgəran qalasını tutaraq Şuşanı mühasirədə saxlayan Qacar qoşunları Lisaneviçin köməyinə göndərilən Karyaginin dəstəsinin qarşısını kəsərək ona ağır zərbə endirdilər. Lakin məlik Vanyanın bələdçiliyi ilə ruslar qacar qoşunlarının arxasına keçərək Şahbulağı tutdular. Eyni zamanda yeni qüvvə alan Sisianov Abbas Mirzəni Qarabağdan uzaqlaşdıraraq Şuşaya hərəkət etdi [169.1, s.201-217]. Abbas Mirzə isə gözlənilmədən Yelizavetpol əyalətinə daxil olaraq Yelizavetpol (Gəncə) qalasını mühasirəyə aldı.

1805-ci ilin martında general Nesvetayev tərəfindən itaətə gətirilən [139, s.14] şəmşəddillilər əvvəlcədən öz girovlarını qaçıraraq iranlılara qoşuldular [121, 111, s.433]. Gəncə əhalisi nəinki qacarlara müqavimət göstərmədi, əksinə çoxları Abbas Mirzənin düşərgəsinə getdilər və iyulun 17-də qacar qoşunları ilə birləşib qalanı atəşə tutdular [50, s.59].

1805-ci ilin iyulunda narazılıq dalğası, demək olar ki, bütün Şimali Azərbaycanı bürüdü. Sisianovun yazdığına görə Şeyxəli xan, Tarku şamxalı, Avar xanı və atası, Canqutay sultanı, şamaxılı Mustafa xan birləşərək öz nümayəndələrini Fətəli şahın yanına göndərmiş və Rusiyaya qarşı onunla əlbir olacaqlarını söyləmişdilər. Şəmşəddillilərin üsyanı daha ciddi xarakter almışdı. Abbas Mirzənin məğlub olaraq İrəvana çəkilməsinə baxmayaraq onlar mübarizəni davam etdirirdilər.

Şah qoşunlarını ruslar tərəfindən işğal olunmuş ərazilərdən çıxarmağa və narazılıqları müxtəlif vasitələrlə boğmağa nail olan Sisianov Şamaxı xanlığını tabe etmək qərarına gəldi. O zaman bu xanlıq həm ərazisinin böyüklüyünə, həm də əhalisinin çoxluğuna görə Azərbaycan xanlıqları içərisində öncül yerlərdən birini tuturdu. Qubalı Fətəli xanın ölümündən sonra Şamaxı xanlığı nəinki öz müstəqilliyini bərpa etmiş, hətta bilavasitə Quba xanlığının tərkibində olan Salyan mahalını, habelə Cavad xanlığının ərazisini də özünə birləşdirmişdi. XIX əsrin əvvələrində

Şamaxı xanlığının ərazisi 14 500 kvadrat verstə çatırdı. 1831-ci il siyahiya almasına görə artıq ləğv olunmuş xanlığın ərazisində 69 627 kişi və oğlan uşağı qeydə alınmışdı ki, bu da təqribən 140 min sakin demək idi [160.2, s.37, 62].

Qonşu xanlıqlara nisbətən Şamaxı xanlığının daxili vəziyyəti daha sabit idi. Lakin XVIII əsrin 90-cı illərindən başlayaraq Şamaxı və Lənkəran xanlıqları arasında əvvəllər Quba xanlığına mənsub olmuş Salyana sahib olmaqla bağlı kəskin mübarizə edirdi.

Sisianov Lisaneviçə göstəriş verdi ki, şamaxılı Mustafa xanı Rusiya təəbəliyinə sövq etdirmək üçün İbrahimxəlil xanı dilə tutsun [62.19, s.663]. Eyni zamanda Sisianov özü Ərəş qalasını nəzərdən keçirmək bəhanəsi ilə bir neçə taborla Şamaxı xanlığına yaxınlaşdı [62.20, s.667]. Mustafa xan isə öz elatı və təbəələrini yığıb Fit dağındakı qalasına çəkildi [35, s.72]. Heç bir şeyə nail olmayan Sisianov noyabrın 29-da Qarabağ xanına müraciət etdi: "Ona (Mustafa xana – T.M.) Rusiyanın gücünü göstərmək lazımdır. Xahiş edirəm 1000 atlı hazırlayıb bizim dəstəyə qoşasınız" [62.21, s.671]. Noyabrın axırında Sisianov Mingəçevirə yollandı və Yeni Şamaxının (indiki Ağsu) beş verstliyindəki Burumarxda durdu [167.1, s.221]. Döyüşə girməzdən qabaq Sisianov 48 saat müddətində cavab verməyi Mustafa xandan tələb etdi [62.22, s.672]. Eyni zamanda Mustafa xanın qardaşı Həşim bəylə danışıqlara girən Sisianov xanlığı ona vəd edərək qardaşının tutulmasında ruslara yardımçı şərt qoydu [62.23, s.673].

Çıxılmaz vəziyyətdə qalan Mustafa xan 1805-ci il dekabrın 27-də (1806-cı il yanvarın 8-də) Rusiya himayəsini qəbul etmək haqqında müqaviləni imzaladı. Bu müqavilənin şərtləri Kürəkçay müqavilələri ilə eyni idi [62.25, s.666-667]. Şamaxı xanlığını tabe etmək sayəsində rus komandanlığı Bakı və Lənkəran xanlarını işğal etmək üçün quru yolu əldə etdi. Həmçinin Şamaxı xanlığının tərkibinə daxil olan Cavadda bolluq rus qoşunların hiss etdiyi ərzaq çatışmazlığını aradan qaldırmağa imkan verəcəkdi.

Mustafa xanın Rusiya təbəəliyini qəbul etməsinə nail olan Sisianov vaxt itirmədən Bakıya yola düşəcəyini I Aleksandra bildirdi [62.24, s.674]. Rus komandanlığının planlarında Bakıya

mühüm yer ayrılırdı. Sisianov 1803-cü ilin yanvarında Bakıda olan Rusiyanın İrandakı konsulu Skibinevskiyə məktubunda Bakı limanının Rusiya üçün nə qədər vacib olduğunu qeyd edərək yazırdı ki, şəhər öz limanı ilə birlikdə ilk əlverişli məqamda rus qoşunları tərəfindən tutulmalıdır [62.32, s.728].

Sisianov Bakının tutulması haqqında plan hazırladı və bu plan I Aleksandr tərəfindən bəyənilmişdi. 1803-cü ilin payızında həmin planı həyata keçirməyi nəzərdə tutan Sisianov Xəzərdəki hərbi donanmanın onun ixtiyarına verilməsini imperatordan xahiş etdi və eyni zamanda bildirdi ki, 3 hərbi gəmi hazırlanması haqqında göstəriş vermişdir [62.34, s.732]. Onun istəyinə əməl edən I Aleksandr daha 2 alay və hərbi xərclər üçün 100.000 rublu Sisianovun sərəncamına göndərdi [62.35, s.733]. Lakin şərait 1803-cü ilin payızında Bakını tutmağa imkan verməmişdi. Eyni zamanda bakılı Hüseynqulu xanı Rusiya təbəliyinə sövq etmək tapşırığı alan konsul Skibinevski də yaramaz fəaliyyətinə görə 1804-cü ilin əvvəlində Bakıdan qovulmuşdu [97.1, s.371].

1805-ci ilin yayında Gilana göndərilən ekspedisiyaya əmr olunmuşdu ki, geri qayıdanda Bakını tutsun [62.3, s.720]. Gilan sahillərində uğur qazanmayan gen. mayor Zavalişinin başçılıq etdiyi desant dəstəsi avqustun ortalarında Bakıya yaxınlaşaraq onu mühasirəyə aldı [88, s.153]. Lakin qubalı Şeyxəli xandan kömək gözləyən Bakı sakinləri mərdliklə döyüşərək şəhəri müdafiə etdilər [139, s.166]. Şeyxəli xan Qazıkumuklu II Surxay xanın oğlu Nuh bəylə birlikdə rusları sıxışdırdı və onlar Sarı adasına çəkildilər. Sarı adasına geri çəkilən Zavalişinin hərəkətindən narazı qalan baş komandan yenidən həmin dəstənin Bakıya hərəkət etməsini əmr etdi [62.36].

Şamaxı xanlığı tabe olunduqdan sonra Bakı xanlığı Xəzərdə hərbi donanmaya malik Rusiyanın həm dənizdən, həm də qurudan təhdidi altına düşdü. Xanlığın ərazisini, eləcə də şəhəri qorumaq çətinləşdi.

1806-cı il yanvarın axırında öz qoşunu ilə Bakı ətrafına gələn Sisianov Hüseynqulu xandan qeyd-şərtsiz təslim olmasını tələb etdi [121, s.475]. Sisianovla birləşərək yeni kömək alan

Zavalişin şəhərə təzyiqi gücləndirdi və şəhər yenidən rus qoşunları tərəfindən mühasirəyə alındı. Ümumiyyətlə, bu yürüşdə Sisianovun sərəncamında 2500-dən çox rus zabit və əsgəri, 14 top, həmçinin yerli xanların verdiyi süvarilər var idi [151, s.69].

Sisianov hərbi əməliyyata başlamazdan öncə Hüseynqulu xandan Bakının açarlarını tələb etdi. Düşmən qüvvələrinin hədsiz üstünlüyünü nəzərə alan Hüseynqulu xan danışıqlara getməyi üstün tutdu və hər iki tərəfin razılığı ilə görüş təyin edildi.

1806-cı il fevralın 8-də şəhər darvazası yaxınlığında polkovnik-leytenant kn. Eristov və bir kazak tərəfindən müşaiyət olunan Sisianovla öz əmisi oğlu İbrahim bəy, habelə Qasım bəy, Ağakərim bəy, Seyid bəy və Əmir Həmzə tərəfindən müşaiyət edilən Hüseynqulu xanın görüşü oldu. Görüş zamanı gözlənilmədən Sisianov İbrahim bəy, Elizbar Eristov isə Seyid bəy və Əmir Həmzə tərəfindən öldürüldü [121, s.477]. Generalın qətlindən sonra onun kəsilmiş başı Fətəli şaha göndərildi. Rus qoşunları vahimə içində gəmilərə minərək Sarı adasına qaçdılar [102.1, s.224].

Sisianovun öldürülməsi və Zavalişinin geri çəkilməsi Rusiyanın Cənubi Qafqazdakı nüfuzuna mənfi təsir göstərdi, bütün xanlıqlarda həyəcanlar başladı. Xanlar üsyan etdilər. Hətta həmişə qacarlardan qorxduğu üçün Rusiyanın himayəsini axtaran lənkəranlı Mir Mustafa xan belə qacarların tərəfinə keçdi və ruslarla düşmənçilik etməyə başladı [88, s.188].

Bir mənbədə deyilir ki, Sisianov öldürülən kimi Dərbənddə qiyam gündən-günə gücləndi, qiyam qığılcımı parıldadı və qiyam xanın özü tərəfindən dəstəklənirdi və yanğına keçməyə hazır idi [131, s.23-24].

Rus qoşununun Hüseynqulu xan tərəfindən Bakı ətrafından qovulmasında qacar döyüşçülərinin və Şeyxəli xanın da rolu olmuşdu. Qeyd etmək gərəkdir ki, o dövrdə Quba xanının Qacar sarayı ilə əlaqəsi xeyli artmışdı. Fətəli şah tez-tez Qafqaz hakimlərinə, o cümlədən Şeyxəli xana onları Rusiya əleyhinə çıxışa təhrik edən fərman və məktublar yollayırdı. Şeyxəli xan da öz növbəsində Tehrana bir elçi yollayaraq şaha "Rusiyaya qarşı hərəkətə hazır olduğunu" ərz edirdi. Quba xanı rus kafirlərinə qarşı

çıxmaq üçün öz müttəfiqlərini də təşviq edir, onlara səadətin "islam padşahından yetişəcəyini" ərz edirdi. 1805-ci ilin iyul ayının 1-də Şeyxəli xan və bir sıra Dağıstan hakimləri Tehrana elçi yollamış, Rusiya ilə müharibə baş verəcəyi təqdirdə şaha tərəfdar olacaqlarını bildirmişdilər. General Qlazenapın 1805-ci il avqustunda çara göndərdiyi bir raportda deyilirdi ki, "Şeyxəli xan İran şahı Baba xanla /Fətəli şahla – T.M./ ittifaqa girib, başqa xanları da bu işə təhrik edir" [151, s. 30].

Şeyxəli xan tezliklə ruslara qarşı çıxmaq üçün Bakı səmtinə irəlilədi. Həmin ilin avqust ayının sonunda Bakını mühasirəyə alan general – mayor Zavalişinin qoşununu dəf etməyə yollanan Şeyxəli xan yuxarıda yazılan kimi, Qazıkumuklu Surxay xanla birlikdə Bakıya yaxınlaşıb, generala Bakıdan əl çəkməsini təklif etdi [151, s.31-32].

Rus tarixçisinin yazdığına görə Şamaxı, Şəki və Qarabağ xanları vəziyyətdən istifadə edərək Rusiyadan aralanmağı və öz müstəqilliklərini bərpa etməyi qərara aldılar [169.1, s.235]. Cavad xanın oğlu Uğurlu ağa Gəncədə öz müstəqilliyini elan etdi [196, s.42]. Özünü Rusiyanın vassalı hesab edən lənkəranlı Mir Mustafa xan da qacarların tərəfinə keçdi [88, s.154]. İrəvan xanı isə zəbt olunmuş Şoragil mahalını geri qaytarmağa hazırlıq görürdü [169.1, s.235]. Rusiyanın Qafqazda ən qatı əleyhdarları hesab olunan car-balakənlilər, Borçalı və pəmbəklilərin, eləcə də şəmşəddillilərin üsyanları, demək olar, ara vermir, müxtəlif formalarda davam edirdi [122.4, s.17].

Yerli əhalinin müqavimətinin artdığını görən çarizm Cənubi Qafqazda öz silahlı qüvvələrini artırdı. 2 tabor Kürəkçay sahilində dayanan Karyaginin yardımına, 2 bölük isə Şəmşəddil distansiyasına göndərildi [169.1, s.239]. Qafqazdakı rus qoşunlarının komandanı vəzifəsini icra edən Nesvetayev Sarı adasındakı rus qoşunlarını Həştərxana çağıraraq yeni hücuma hazırlaşmaq üçün göstəriş verdi. Mayın əvvəlində isə gen.-mayor Qlazenap çarın göstərişi ilə 3000 nəfərlik dəstə və 10 topla Hüseynqulu xanı cəzalandırmaq və Bakını zəbt etmək üçün Georgiyevskdən Bakıya hərəkətə başladı [122.5, s.61-62]. Həmin birləşmə yol üstü Quba xanlığını da itaətə gətirməli idi. Eyni zamanda 200 gəmi-

dən ibarət Xəzər donanmasına Həştərxandan mühasirə artilleriyasını götürmək tapşırılmışdı [145, s.131].

1806-cı ilin yazında Qafqazdakı qarışıqlıqdan istifadə edən Qacar qoşunları rusları Azərbaycandan çıxarmaq üçün iki istiqamətdə hücuma başladılar. Birinci dəstə Şuşa yaxınlığında düşərgə saldı, ikinci dəstə isə Ağsuya gəldi. Qubalı Şeyxəli xan bakılı Hüseynqulu xanla birlikdə Abbas Mirzənin yanına getdi [88, s.156].

Qatı Rusiya tərəfdarı və rusların xidmətində olan, 1800-cü ildən general-leytenant rütbəsi daşıyan Mehdi şamxal Fətəli xanın qızı, Şeyxəli xanın bacısı Pəricahan xanımla evləndiyindən Dərbənd və onun ətrafına iddia edir və bu işdə rusların köməyinə bel bağlayırdı. Rus qoşunlarının Dərbəndə daxil olması ərəfəsində şamxalın agentləri bura gələrək Şeyxəli xana qarşı təbliğat aparırdılar [145, s.131]. Onlar əhaliyə Şeyxəli xandan üz döndərməyi, Rusiya himayəsinə girməyi təlqin edirdilər. Şamxal öz istəyinə nail oldu. Şeyxəli xanın əhalini incitməsi bunda az rol oynamamışdı. Dubrovinin yazdığına görə xan "xoşuna gələn qızları qaçırır, qadınları ərlərindən alır, sonra isə onları yenidən evlərinə qaytarırdı" [122.5, s.63]. Ancaq bizcə Şeyxəli xan islam qanunlarını belə kobud şəkildə poza bilməzdi. Əgər belə etsəydi, onu qovmaq yox, öldürərdilər.

Qlazenapın və ruslara qulluq göstərən şamxal Mehdi xanın Buynaka gəlməsi ilə gözlənilən cəzadan qurtarmaq istəyən dərbəndlilər Əli Pənah bəyin başçılığı ilə ayağa qalxıb Şeyxəli xanı Dərbənddən çıxardılar, rus generalının yanına nümayəndələr göndərib himayə xahiş etdilər. 1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən tutuldu. Ulus mahalı şamxal Mehdi xanın idarəsinə, Dərbənd şəhəri isə mayor rütbəsi verilmiş Əli pənah bəyin idarəsinə verildi [88, s.189]. Bundan bir ay sonra general Bulqakov Qubaya, oradan Bakıya gəldi. Bakıdan yenidən Qubaya qayıdıb zahirən itaət göstərən Şeyxəli xandan əmanətlər tələb etdi [88, s.189].

Əslində rus qoşunları Qubaya gedərkən orada sakinlər çox az qalmışdı. Şeyxəli xan şəhər əhalisini təhlükəsiz, dağlıq ərazidə yerləşən mahallara köçürmüşdü [151, s.33].

Rus döyüşçülərinin Dərbəndə və Bakıya daxil olması və bu yerlərin Rusiya tərkibinə keçməsinin elan olunmasından sonra Şeyxəli xanın ruslara qarşı öz taktikasını dəyişməkdən və əfv xahiş etməkdən başqa çarəsi qalmamışdı [88, s.268]. Şeyxəli xan hakimiyyətdən kənarlaşdırıldı və xanlığın idarəsi naib titulu ilə Hacı bəyə verildi.

1806-cı ilin yayında ruslar Qarabağda qanlı faciə törətdilər. İyunun 14-də gecə mayor Lisaneviç mayor Corayev və 200 nəfər əsgərlə birlikdə xanın düşərgəsinə gələrək Rusiya qarşısında heç bir günahı olmayan İbrahimxəlil xanı, arvadı Tuba xanımı, qızı Səltənət bəyimi, 12 yaşlı oğlu Abasqulu ağanı, ümumiyyətlə isə xanla olan 17 nəfəri qətlə yetirdi [45, s.236; 23, s.337].

Lisaneviçi bu vəhşi hərəkəti etməyə nə sövq etmişdi?

Məlumdur ki, o zaman Qarabağa hücum edən Qacar qoşunları Ağoğlanda düşərgə salmışdılar. Onların yaxınlaşmasından narahat olan İbrahimxəlil xan tez-tez Lisaneviçlə məsləhətləşir, Nesvetayevdən yeni qoşun hissələri göndərilməsini tələb edirdi. Şuşada olan qarnizonla şah qoşunlarının qarşısını ala bilməyəcəyini görən İbrahimxəlil xan manevr edərək qacarların nümayəndələri ilə danışıqlar aparır və bu barədə Lisaneviçə məlumat verirdi. Ancaq xanın düşmənləri ilk növbədə məliklər xanın qacarlarla birləşmək istəməsi haqqında şaiyələr yayırdılar. Onlar İbrahimxəlil xanın Xan bağından Qaraqaya adlanan yerə keçməsini də bununla bağlayırdılar. Ancaq sonralar Şuşa bəyləri xanın belə hərəkətini bu cür izah etmişdilər ki, mayor Lisaneviç və mayor Corayev camaatla pis rəftar etdiyindən, müqavilənin şərtlərini pozub xəbərimiz olmadan onlara aid olmayan işlərə qarışdıqlarından xan bundan hiddətlənmiş, qalanın kənarında çadır qurmağı əmr etmişdi [50, s.70]. Əgər xan qacar qoşunları ilə birləşmək fikrində olsaydı ailə üzvlərinin bir hissəsini yox, hamısını, habelə, hərbi qüvvə götürərdi. Rus qoşunlarının müvəqqəti baş komandanı Nesvetayev özü etiraf edirdi ki, xanın yanında heç bir döyüşçü olmamış və xan özü heç bir atəş açmadan rus qoşunlarının qarşısına çıxmışdır. Əsgərlər isə heç nəyə baxmadan xanı və çadırını gülləyə tutmuşdular. General həmçinin qeyd

edirdi ki, hücum edənlər xanın bütün əmlakını qənimət kim ələ keçirmişdilər [50, s.71].

Lisaneviçin hərəkətlərinin qarabağlılar arasında yaratdığı hiddəti bir qədər azaltmaq üçün çar hakimiyyət orqanları Lisaneviçi və mayor Corayevi başqa xanlıq ərazisinə keçirdilər. Xanlığın idarəçiliyi atasının qətlinə laqeyd qalan general-mayor Mehdiqulu xana tapşırıldı.

Qarabağda törədilən faciə ölkədəki narazılığı son həddə çatdırdı. Hər yerdə kütləvi itaətsizlik baş alıb gedirdi. Vəziyyəti sabitləşdirmək üçün hərbi hakimiyyət orqanları Tiflisdən Gəncəyədək bütün ərazi boyu keşikçi dəstələri yerləşdirdilər [169.3.50, s.244]. Bəylər təbəələri olan elatlarla birlikdə Əbülfət xana qoşulurdular.

Mürəkkəb vəziyyətə düşmüş rus komandanlığı vəziyyəti düzəltmək üçün general-mayor Nebolsinin başçılıq etdiyi hərbi dəstəni Qarabağa göndərdi. Mehdiqulu xan qaladan çıxıb bu dəstə ilə birləşdi. Ruslar və Mehdiqulu xanın atlıları iyulun ortalarında qacar qoşunlarını məğlub etdilər. Sonuncular Arazdan o tərəfə çəkildilər. Əbülfət xan da məğlub olaraq Qarabağı tərk etməyə məcbur oldu. Ruslar iyulun axırlarında Qarabağda öz hakimiyyətlərini möhkəmləndirdilər.

Bu zaman Şəkidə üsyan baş verdi. Məlumdur ki, İbrahimxəlil xanla öldürülən arvadı Səlim xanın bacısı idi. Qəzəblənmiş silahlı şəkililər rus kazakları üzərinə atılıb onların bir qismini öldürərək, qalanlarını tərkisilah etdilər [122.4, s.57]. Səlim xan Şəkidəki rus qoşunlarının başçısı mayor Parfyonovdan bu ərazidən çıxmasını tələb etdi və ertəsi gün rus qoşunları Şəki xanlığını tərk etdilər [169.3, s.245].

Rus qoşunlarının Şəki xanlığının ərazisindən çıxarılması rusların mövqeyini xeyli sarsıdaraq, onların Azərbaycandakı nüfuzuna ciddi zərbə vurdu. Gen.Qudoviç yenidən Qafqaza baş komandan təyin olundu və 1806-cı il iyunun 27-də Georgiyevskə gəldi [63.14, s.606].

Şəkililərin qələbəsindən ruhlanan qonşu Car-Balakən camaatları da üsyan etdilər [169.2, s.405].

Azərbaycanda rusların mövqelərinin ciddi sarsıldığı belə bir vaxtda 1806-cı ilin avqustunda Rusiyanın Osmanlı imperiyası ilə münasibətləri daha da kəskinləşdi. I Aleksandr Türkiyə ilə sərhəddəki qoşunları müharibəyə hazır vəziyyətə gətirdi [46, s.62]. Həmçinin Fransa ilə kəskin münasibətlər Rusiyanı cənubdakı fəal hərbi əməliyyatları nisbətən səngitməyə məcbur etdi. Rus hakimiyyəti vəziyyəti nəzərə alıb Bakı istisna olmaqla yeni ərazilərin işğal olunmasını əlverişli vaxtadək təxirə salıb hərbi əməliyyatları dayandırmağı qərara aldı. Bakı xanlığı ləngimədən işğal edilməli, sonra isə Salyan və Cavad tutularaq burada istehkamlar qurulmalı və Kür çayı boyunca yeni sərhəd xətti qurulmalıydı [51, s.80-81].

Baş komandan general Qudoviç Bakının alınması vəzifəsini general Qlazenapın üstündən götürüb gen. Bulqakova tapşırdı. Sentyabrın 9-da yürüşə çıxmaq üçün Bulqakova göstəriş verdi [63.1, 1, s.16]. Yürüşə çoxlu sayda hərbi qüvvə və silah-sursat toplandı. Şamxal da öz qoşunu ilə ruslara kömək edirdi.

Bakıya yaxınlaşan Bulqakov əhaliyə təslim təklifi ilə müraciət edərək bildirdi ki, əks təqdirdə şəhər dağıdılacaqdır [169.3, s. 258].

Müqavimət göstərməyin lüzumsuz olduğunu anlayan Hüseynqulu xan öz yaxın adamları ilə Bakını tərk etdi. Əhalinin bir qismi də şəhəri tərk etdi [196, s.43].

Rusların intiqamından qorxan bəzi Bakı bəyləri və şəhərdə qalan əhali müqavimət göstərmədi və şəhər oktyabrın 3-də rus qoşunları tərəfindən tutuldu. Bakı xanlığı ləğv edilərək Rusiyanın bir əyalətinə çevrildi. Onun idarə olunması gen.-mayor Quryevə tapşırıldı [137, s.157-158].

Bakıda bir tabor və limanda hərbi donanma qoyan Bulqakov noyabrın 11-də Qubaya tərəf hərəkət etdi. Bundan xəbər tutan Şeyxəli xan başda olmaqla Quba əhalisi dağlara, meşələrə çəkildi. Rus qoşunları boşalmış şəhərə daxil oldular. Bulqakov Şeyxəli xanın həmişəlik Quba xanlığından uzaqlaşdırıldığını və xanlığın Rusiyaya birləşdirildiyini elan etdi [186.5, v.140-144].

Lakin bu xanlığın idarə olunmasının çətin olacağını və rus qoşunlarının hücumlara məruz qalacağını dərk edən Qudoviç

xanlığın idarəçiliyini "qiyabi olaraq öz itaətini bildirən" Şeyxəli xana tapşırmağı qərara aldı [169.3, s.260]. Daha sonra isə Əlipənah bəy adlı birisinə mayor rütbəsi verib şəhərin idarəsini ona tapşırdı [129, s.3-4].

Bakını alandan sonra rus qoşunları əsas qüvvələrini üsyanların yatırılmasına yönəltdilər. Oktyabrın 22-də Nebolsin 900 döyüşçü, 5 topla Şəkiyə Səlim xanın üstünə göndərildi. Şəhərin iki verstliyində qanlı döyüşdə şəkililər məğlub olub qalaya çəkildilər [122.4, s.86]. Lakin ruslar şəhərə soxula bildilər. 500 nəfərə qədər itki verən şəkililər Səlim xanla birlikdə şəhəri tərk etdilər [169.3, s.263; 122.4, s.86]. Şəki xanlığı yenidən işğal edildi. Xanlığın idarəçiliyi Səlim xanın qardaşı Fətəli xana tapşırıldı [20, s.30].

Şəki alındıqdan sonra noyabrın 7-də knyaz Orbeliani 3 alayla car-balakənlilərə qarşı hücum etdi [63.12, s.588]. Knyaz Eristovun başçılıq etdiyi 2000 nəfər gürcü atlısı da ona kömək etməli idi [63.18, s.683]. İlisu sultanı Əhməd xan öz döyüşçüləri ilə Carı tərk etdi. Rusların amansızlığından qorxan Car ağsaqqalları öz itaətlərini bildirdilər. Orbeliani gen. Qudoviçə raportunda yazırdı: "Əhali o dərəcədə qorxdu ki, ağsaqqallar göz yaşları ilə aman dilədilər" [63.13, s.588]. Beləliklə dekabrın axırına yaxın Car-Balakən də yenidən işğal edildi. Lakin rus ordusu bu əməliyyatlarda bir general daxil olmaqla 600 nəfər itki vermişdi. Car-Balakənə hərbi ekspedisiya başa çatan kimi İlisu sultanı Əhməd xan Tiflisə gələrək öz itaətini bildirdi [63.12, s.534].

Beləliklə, 1806-cı ildə Azərbaycanın şimal hissəsinin işğalının əsas mərhələsi başa çatdırıldı. Rus qoşunları qısa müddət ərzində İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimaldakı bütün Azərbaycan ərazilərini zəbt etdilər.

Rus hökuməti Quba və Bakı xanlıqları işğal olunduqdan sonra, Osmanlı imperiyası ilə də müharibə başladığından Qacarlarla sülh bağlamağa çalışırdı. Şah hökuməti də onun üçün əlverişli şərtlərlə sülh bağlanacağına ümid edirdi və 1806-cı il sentyabrın ortalarında öz nümayəndəsini rus qoşunlarının baş komandanı gen. Qudoviçin yanına göndərdi. Ancaq çar hökuməti zəbt etdiyi ərazilərin heç birini güzəştə getmək fikrində deyildi, əksinə Naxçıvan və İrəvan xanlıqlarının da ona verilməsini tələb etdi [7, s.28].

Gen. İ.Qudoviçin nümayəndəsi mayor Stepanov 1807-ci ilin əvvəllərində Tehrana gəlib danışıqlara başladı. Lakin ilk vaxtdan, danışıqlarda ciddi fikir ayrıldığı meydana çıxdı. Şah tərəfi nəinki güzəştə getmək istəmir, əksinə rus qoşunlarının Cənubi Qafqazdan çıxarılması tələbi ilə yanaşı Qızlara qədərki Dağıstan torpaqlarının da ona güzəştə gedilməsini tələb edirdi. [46, s.142]. Əlbəttə, bu cür tələb rus tərəfini heç cürə qane edə bilməzdi və tezliklə danışıqlara ara verildi.

XIX yüzilliyin əvvəllərində Rusiya ilə şah hökuməti arasındakı danışıqlarda Azərbaycan əraziləri mübahisələrin mərkəzində olmuşdur. Bu danışıqların qeyri-adiliyi ondan ibarətdir ki, müstəqil Azərbaycan xanlıqlarının müqəddəratı onların iştirakı olmadan həll edilirdi.

Gen. Qudoviç 1808-ci ilin martındda öz nümayəndəsi polkovnik-leytenant Vredeni Təbrizə və Tehrana göndərdi. Vredeyə verilmiş təlimatdan görünür ki, Avropadakı problemlər üzündən Rusiya Qacarlarla müharibəni tez yekunlaşdırmaq istəyirdi [63.22, s.460-461]. Lakin şah hökuməti Napoleon Fransasının yardımına ümid edərək Rusiyanın irəli sürdüyü şərtlə razılaşmadı – Kür, Araz və Arpaçayın iki dövlət arasında sərhəd olması təklifini rədd etdi. Abbas Mirzə bildirdi ki, sərhəd Mozdok yaxınlığındakı çaydan (yəni Terekdən) keçməlidir [46, s.120].

Fransız nümayəndəsi gen. Qardanın təhriki ilə şah Rusiya ilə danışıqların Parisə keçirilməsinə razılıq verdi və bildirdi ki, Napeolonu danışıqlarda öz vəkili elan edir və onun razılaşdığı hər bir təklifi qəbul edəcəkdir [46, s.121-122]. Lakin Rusiya danışıqlarda Napeolonun vasitəçiliyini rədd etdi.

Ruslar demək olar bütün Şimali Azərbaycan ərazisində nəzarətə yiyələnsələr də xalqın müqavimət ruhu hələ tamam qırılmamışdı və müstəmləkəçilərə qarşı müqavimət uzun müddət, on illərlə davam etmişdir.

Məlumdur ki, Xoy xanı Cəfərqulu xan qacarla xəyanət edərək minlərlə təbəəsi ilə Rusiya tərəfə keçmişdi. Rus hökuməti onu şəkinin yeni xanı təyin etdi. Əhalinin yeni xana müqavimət göstərəcəyindən qorxan Qudoviç Cəfərqulu xanın təhlükəsizliyini qorumaq üçün xeyli qüvvə ayırmış [63.6a, s.274-275], həmçi-

nin Cəfərqulu xana inanmadığı adamları tərkisilah etməyi və 500 nəfər etibarlı adamı silahlandırıb öz yanında saxlamağı tapşırmışdı [63.7, s.276].

Ancaq, bütün görülən tədbirlərə baxmayaraq 1807-ci ilin yazında Şəkidə üsyan başladı. Üsyan Aşağı və Yuxarı Göynük kəndlərini, həmçinin Burci kəndini əhatə etdi. Üsyana yüzbaşı Sultan Murad başçılıq edirdi [63.8, s.279]. Üsyanın tezliklə kütləvi hal alacağından təşvişə düşən Cəfərqulu xan üsyanı öz qüvvəsi ilə yatıra bilməyəcəyini dərk edib yardıma rus qoşunları tələb etdi. Rus qoşunları ilə müqayisədə çox zəif olan üsyançılar hücuma tab gətirməyib dağlara çəkilməyə məcbur oldular. Bir neçə gündən sonra ruslar üsyanı yatıra bildilər və yüzbaşı Sultan Muradı ələ keçirdilər [63.8, s.279].

Üsyançıların məğlubiyyətinə baxmayaraq, Şəkidə ruslara qarşı itaətsizlik ovqatı davam edirdi. 1808-ci ilin yayında yenidən Şəki xanlığını üsyan dalğası bürüdü. Bu üsyanın əsas təşkilatçıları Səlim xan tərəfindən Şəkiyə göndərilən qohumu Mahmud ağa və bir neçə bəy idi [63.10, s.514]. Lakin ruslar və Cəfərqulu xan üsyanın bütün xanlığa yayılmasının qarşısını ala bildilər. Üsyançılar məğlubiyyətə uğradılar [63.9, s.513]. Üsyanın yatırılmasından sonra Ağdaş və Kür çayı sahilindəki bir çox kəndlərin əhalisi meşələrə çəkildi. [63.10, s.514].

Qarabağ xanlığında İrana qaçmış Əbülfət xanın təsiri çox güclü idi. Əbülfət xanın yaxınlaşması haqqındakı hər xəbər əhali arasında çaxnaşmaya səbəb olurdu. Bərgüşad, Mehri, Güney əhalisi ona tabe olmaqda davam edirdi [63.16, s.345-346].

İrəvanı, Naxçıvanı ələ keçirmək, bununla da Şimali Azərbaycanda işğal kampaniyasını başa çatdırmaq üçün 1808-ci ilin payızında rus komandanlığı İrəvana yeni yürüşə başladı. 1808-ci il sentyabrın 25-də hərəkətə başlayan və baş komandan Qudoviçin özünün rəhbərlik etdiyi bu yürüşdə 8 minə yaxın zabit və əsgər iştirak edirdi [122.4, s.209]. General-mayor Nebolsin oktyabrın əvvəllərində 78 zabit, 3052 əsgərdən ibarət 9 taborla və 4 topla Qarabağdan Naxçıvana hərəkətə başladı [122.4, s.215]. Cəfərqulu xan da öz dəstəsilə Naxçıvana yollandı [63.11, s.290].

İrəvan qalası fransız hərbi mühəndisi və irəvanlılar tərəfə keçən polkovnik-leytenant Koçnev tərəfindən xeyli möhkəmləndirilmişdi [171, s.462]. Qala divarlarının önündə xəndəklər qazılmış və ora toplar düzülmüşdü. Rusların yürüşü haqqında xəbər alan İrəvanlı Hüseynqulu xan qardaşı Həsən xanı 2 min nəfərlə qalada qoyub özü 4 min nəfər piyada ilə rusların qarşısına çıxdı. Lakin Aştarakda məğlub olub geri çəkildi. Sentyabrın 30-da Eçmiədzini tutan rus hərbi dəstəsi ali erməni ruhaniləri tərəfindən sevinclə qarşılandı [63.4, s.243; 51, s.90]. Oktyabrın 9-da ruslar İrəvan qalasını mühasirəyə aldılar. Qudoviç Həsən xandan qalanı təslim etməyi tələb etdi [63.3, s.239]. Bu zaman Hüseynqulu xan qalanın mühasirəsini yarmağa çalışaraq düşmənə zərbələr endirdi. Qudoviç qalanın mühasirəsini müvəqqəti dayandırıb Hüseynqulu xanın üzərinə böyük bir dəstə göndərdi. Xan qüvvələrini qorumaq naminə Arazın o tayına çəkildi. Qudoviçin təslim haqda müraciətinə cavab məktubu gətirən İrəvan elçisi bildirdi ki, qala qarnizonu tamamilə məhv oluncaya qədər silahı yerə qoymayacaq [122.4, s.222; 48, s.102-103].

Naxçıvanın müdafiəsini təşkil etmək mümkün olmadı, çünki əhali arasında böyük nüfuza malik olan Kəlbəli xan 1808-ci ilin yazında xanlıqdan məhrum edilərək ailəsi ilə birlikdə İrana aparılmışdı. Oğlu Şıxəli bəy isə öz yaxın adamları ilə Qarabağa qaçaraq ruslara qoşulmuş və Naxçıvan yürüşündə onlara bələdçilik etmişdi. Noyabrın 1-də Naxçıvan tutuldu. Qudoviç xanlığın Rusiya himayəsinə keçdiyini elan etdi [63.6, s.267; 51, s.91; 48, s.107].

Lakin ruslar İrəvanı ala bilmirdilər. Qalaya gedən suyun kəsilərək düzənliyə axıdılması da irəvanlıların döyüş ruhunu qıra bilmədi. Soyuqların düşməsi və ərzaq çatışmazlığı rus qoşunlarının vəziyyətini getdikcə ağırlaşdırırdı. Nəhayət, Qudoviç qalaya həmlə etməyi qərara aldı. Noyabrın 17-də saat 5-də həmlə başladı. Rus qoşunları beş dəstəyə bölündülər. Dörd dəstə müxtəlif istiqamətlərdən hücum etdi, beşinci dəstə isə ehtiyatda idi. Hücum başlanan kimi irəvanlılar top atəşləri ilə rusları böyük itki verib geri çəkilməyə vadar etdilər. Butkova görə 1000 nəfərə yaxın itki verən ruslar geri çəkilməyə məcbur oldular [97.2, s.390].

Digər sənəddə isə deyilir ki, həmlə zamanı rusların 17 zabit və 269 əsgəri ölmüş, 64 zabit və 829 əsgər isə yaralanmışdı [63.5, s.262]. Qudoviç qoşunlara geri çəkilmək haqda əmr verdi. Noyabrın 30-da rus qoşunları İrəvan və Naxçıvan xanlıqlarını tərk etməyə başladı. Təqiblər və güclü qar yağması nəticəsində rus qoşunları daha 1000 nəfərə yaxın itki verərək geri qayıtdılar [169.1, s.305].

Nebolsin Naxçıvanı tərk edən kimi Abbasqulu xan Naxçıvana daxil oldu [122.4, s.226].

Ruslara qarşı mübarizənin getdikcə daha ciddi xarakter almasından istifadə edən Şeyxəli xan ruslara Quba xanlığı ərazisində möhkəmlənməyə imkan vermirdi. Şeyxəli xan İran və Türkiyə ilə əlaqə saxlayır, Dağıstan hakimlərinin, eləcə də ruslara nifrət bəsləyən yerli sakinlərin hərbi yardımı ilə öz qüvvələrini möhkəmləndirirdi. Şeyxəli xana qarşı mübarizədə ruslara kömək edən şamaxılı Mustafa xanın qoşunları əks zərbələr alıb geri oturduldu. Belə ki, 1808-ci ilin oktyabrında Mustafa xanın qoruduğu piketə hücum edən Şeyxəli xan onu 2 verst qovaraq Qudyal qalasına çəkilməyə məcbur etmişdi. Şamaxı qoşunlarının əks-hücumu da qubalılar tərəfindən dəf olundu. Qubalıların uğurundan narahat olan Tixonovski 2 bölük və 1 topla, həmçinin Şamaxı və Şəki atlıları ilə Şeyxəli xanın üzərinə yeridi. Kiçik döyüşdən sonra qubalılar meşələrə çəkildilər. Quba əyalətinə daxil olan Tixonovski bəyləri və əhalini Şeyxəli xandan üz döndərməyə, öz evlərinə qayıtmağa və Rusiyanın himayəsini qəbul etməyə çağırdı. Amma əhali Rusiyanın heç bir himayəsini qəbul etməyəcəyini və lazım gəlsə müdafiə olunacağını bildirdi [63.19, s.398]. Əhalinin meşələrə çəkilməsindən istifadə edən ruslar və onların əlaltıları noyabr ayında Quba xanlığı ərazisini, o cümlədən Quba şəhərini yenidən işğal etdilər.

Xanın qoşununun Qubaya yaxınlaşması xəbərini eşidən general-mayor Quryev təcili ona qarşı çıxmaq üçün yola düşdü. Quryevin qoşunu ilə savaşda məğlub olan Şeyxəli xan Sərxi kəndinin yaxınlığında uğursuzluğa düçar olub yenidən Tabasarana getdi [88, s.191]. Akuşada xeyli qüvvə toplayan Şeyxəli xan 1809-cu il yanvarın əvvəllərində yenidən Quba xanlığı ərazisinə

qayıtdı [63.22, s.402] və rus qoşunları ilə uzunmüddətli döyüşlərə girdi. Ancaq son nəticədə Dağıstana çəkilməli oldu.

Qudoviç 11 yanvar 1809-cu il tarixli bir məlumatında çar sarayına yazırdı: "Mən Quba mülkiyyətinin... xəzinəmizin adına yazılması və gəlirlərinin xəzinəyə yığılması barədə sərəncam verdim" [151, s.34].

1809-cu ildə Quba xanlığı rəsmən ləğv edilib əyalətə çevrildi. Əyaləti idarə etmək üçün Bakı və Qubanın alınmasında xidmətlər göstərmiş Mirzə Məhəmməd xanın başçılığı ilə dörd nüfuzlu bəydən ibarət idarə heyəti yaradıldı. Mayor Ryabin bu heyətin fəaliyyətinə nəzarət edirdi. 1810-cu ildə Qubada ruslara qarşı ümumi üsyandan sonra əyalətdə komendant üsul-idarəsi tətbiq olundu [63.20, s.401-402; 88, s.157].

İrəvan ətrafında tam uğursuzluğa düçar olan, Quba ətrafında sakitliyi bərqərar edə bilməyən Qudoviç 1809-cu ilin aprelində erməni mənşəli Tormasovla əvəz edildi. Tormasov əsas diqqətini Şeyxəli xanı zərərsizləşdirməyə yönəltdi. Əvvəlcə Şeyxəli xanın tutulması qazıkumuklu Aslan bəyə həvalə edildi. Bunun üçün Aslan bəyə və onun adamlarına xeyli hədiyyə, pul vəd edildi [190, s.287-288]. Repin Şeyxəli xanı tutan adama 500 əşrəfi mükafat təyin etdi [63.25a, s.638]. Lakin bunlar bir nəticə vermədikdə Tormasov Şeyxəli xanın tutulmasına 1500, öldürülməsinə isə 700 əşrəfi pul ayırdı. Üçüncü variant isə Şeyxəli xanı Rusiya himayəsinə qəbul etməklə Quba ərazisinin idarəsini ona verməkdən ibarət idi [63.25b, s.639].

Gen. Repin gen. Tormasova 25 iyun 1809-cu il tarixli 4 saylı raportunda yazırdı ki, Şeyxəli xanın öldürülməsi və ya tutulması üçün əlindən gələni edir, çünki, Quba və Dərbənddə böyük nüfuzu olan bu adam Rusiya üçün böyük təhlükədir və o, nə qədər sağdırsa diyarda sakitlik yaratmaq mümkün olmayacaqdır. Repin Tormosova daha sonra Şeyxəli xanı öldürmək üçün iki nəfər adam seçdiyini yazırdı. Bunlar Dərbənd şəhərinin naibi Alfan bəy və qubalı Xambutay bəy idi. Onların hər ikisi Şeyxəli xanla qan düşməni idilər. Repin Şeyxəli xanı öldürənə dərhal 1500 əşrəfi (çervon) verəcəyini vəd etmişdi [64.7, s.641].

Eyni zamanda gen. Repin hesab edirdi ki, Şeyxəli xanı öldürtmək mümkün olmadığı halda, Rusiyanın eyni vaxtda həm İranla, həm də Türkiyə ilə müharibə apardığını nəzərə alaraq manevr etmək olar, yəni Şeyxəli xanı yenidən Quba xanı kimi tanımaq olar. Repin bu məsələ ilə bağlı yazırdı: "Onu öldürə bilmədiyimiz halda axırıncı vasitə kimi Şeyxəli xana Quba xanlığını mahalları ilə birlikdə vermək və başqa xanlıqlar kimi əlavə traktat ilə Rusiyanın təbəəliyinə qəbul etmək lazım gələcəkdir. Ancaq ümid etmirəm ki, Şeyxəli xan bu qədər bədbəxt hadisələrdən sonra Tiflisə və ya Bakıya gəlsin" [64.7, s.641].

Mayın 17-də Dərbənd naibinin qardaşı Tahir bəylə qanlı döyüşə girən Şeyxəli xan qalib gəldi [64.6, s.610]. Qisas əlaməti olaraq Repin xanın müvəqqəti yaşadığı Marağa kəndinə divan tutdu [63.25 q, s.641].

1810-cu ildə Fətəli şah Qafqazdakı rus işğalları ilə razılaşmayaraq yeni hücum təşkil etdi. Bu məqsədlə Qafqaza gələn şah nümayəndələri Şeyxəli xanın da yanında olmuş, ruslara qarşı döyüşdüyünə görə ona qiymətli hədiyyələr və pul göndərmişdilər. Osmanlı sultanı da Azərbaycan və Dağıstan hakimlərini öz tərəfinə çəkmək üçün "şirnikləşdirmə" üsulundan istifadə edirdi. Şeyxəli xan ruslara qarşı fəal mübarizəyə başlasa da ümumi üsyan hazırlaya bilmədi. O, il yarım Tabasaranda qaldıqdan sonra Xanbutay bəylə və Quba əyanları ilə birlikdə hərəkət edib, 1810-cu ildə rusları keçmiş Quba xanlığı ərazisindən qovub çıxarmağa müvəffəq oldu və 4 ay müddətində Quba vilayətini idarə etdi. Rusların hamısı onun qorxusundan Quba şəhərinə sığındılar [64.10, s.685]. Quba şəhərində yerləşən 2 alaydan ibarət rus qoşunu üsyançılara qarşı çıxmağa cəsarət etmədi. Onlar yalnız şəhərdə qalan əhalini tərkisilah edərək möhkəmləndilər.

Şeyxəli xan gündən-günə artan tərəfdarları ilə Qubanı mühasirəyə aldı. Bakıdan rusların köməyinə göndərilən dəstə Gilgilçay sahilində üsyançılar tərəfindən mühasirəyə alındı. Üç tərəfdən mühasirədə qalan mayor Levitskinin 234 nəfərlik dəstəsi irəli getməyin mümkün olmadığını görüb, geri çəkilməyə məcbur oldu [122.4, s.374]. Yürüşdə iştirak edən 74 Bakı süvarisindən 69 nəfəri öz bəyləri ilə birlikdə Şeyxəli xanın tərəfinə keçdi

[69.10, s.65]. Üsyançıların ovqatını yaxşılaşdıran bu qələbə onların sıralarını daha da möhkəmlətdi. Butkovun verdiyi məlumata görə bu hadisədən sonra Bakı və Dərbəndlə bütün əlaqələr kəsildi və rusların bu vilayətə yolu bağlandı [97.2, s.393]. Repin qubalıları susdurmaq üçün heç bir yolu olmadığını bildirdi və baş komandan Tormasovdan kömək istədi [64.10, s.656].

Üsyanın geniş miqyas aldığını görən Tormasov üsyançılara qarşı mübarizə üçün xeyli hərbi qüvvə və vəsait ayırdı. Bu işə ümumi rəhbərlik Repinə tapşırıldı. Sentyabrın ortalarında o, 4 bölük və 2 topla, habelə Şəki və Şamaxı süvariləri iki istiqamətdə Qubaya hərəkət etdi. Tormasovun yürüş iştirakçılarına göstərişində deyilirdi ki, "...əvvəlcə diqqət Şeyxəli xana yönəlməli, ya onu tutmalı, ya öldürməli ya da qovulmalıdır" [64.11, s.660]. Üsyançılar tərəfindən Beşbarmaq dağı yaxınlığında rus qoşunları üzərinə ciddi həmlələr edildi [122.4, s.376]. Tormasov üsyançılara qarşı mübarizədə ümumi komandanlığı yerli dili bilən və öz qəddarlığı ilə ad çıxaran polkovnik Lisaneviçə həvalə etdi. Üsyançılar sayca çox olmalarına baxmayaraq rus hərbçilərinə nisbətən çox pis silahlanmışdılar. Xüsusən də düşmənin topları qarşısında heç nə edə bilmir, buna görə meşə və dağlarda döyüşməyə üstünlük verirdilər. Bir aya yaxın davam edən qanlı döyüşlərdən sonra xeyli itki verən Şeyxəli xan öz dəstəsi ilə Dağıstana çəkilməyə məcbur oldu. Onu təqib etməyə başlayan Lisaneviç Tabasaran vilayətində bir neçə kəndi yandırdı, lakin Şeyxəli xanı ələ keçirə bilmədi [64.13, s.669-670].

Beləliklə, keçmiş Quba xanlığı ərazisində rus müstəmləkəçilərinə qarşı xalq üsyan başlamışdı. Şeyxəli xanın başçılıq etdiyi bu üsyanda bəylər, maaflar, ruhanilər, kəndlilər iştirak edirdilər.

Gen.Tormasov özü şəxsən Quba üsyanını yatırmaq əməliyyatlarına rəhbərlik edirdi. O, gen. Nobelsinə Şəkiyə bir bölük əsgər göndərmək barədə göstəriş vermişdi. Bu bölük Şəkidə Cəfərqulu xanın topladığı min nəfər Şəki süvarisi ilə birləşib Xınalıq dağlarında Şeyxəli xanın cəbhə arxasına zərbələr endirməli idi. Qarabağdan yeger /atıcı/ alayının 2 bölüyü toplarla birgə Şamaxıya göndərilmişdi, həmin bölüklər Mustafa xanın başçılığı ilə Quba üzərinə hücuma keçməli idi. Mustafa xan yolda Bakı-

dan gələn ikinci bölüyü də qəbul edib, mayor Ryabinin taboru ilə birləşərək Quba üzərinə qəti hücum təşkil etməli idi [64.12, s.662].

Qeyd edək ki, Cahangir xan Şəqqaqi də Cəfərqulu xanın yanında olmalı idi. Şeyxəli xanı qətlə yetirmək şəxsən ona tapşırılmışdı. Rus komandanlığı Cahangir xanı Quba xanı təyin etmək niyyətində idi.

Tormasov Şeyxəli xana və Quba üsyançılarına qarşı amansız olmağı tələb edirdi: "Çalışın Şeyxəli xanı diri tutun, əgər mümkün olmasa onun quldur dəstəsini Quba əyalətindən qovub çıxarın, Şeyxəli xanla qurtarıb qiyamçıları müharibə dövrünün qanunları ilə cəzalandırın, aman diləyənlərə silah qaldırmayın, müqavimət göstərənləri qırın. Qubalıları nə vaxtsa Şeyxəlinin onların xanı olacağı haqqındakı xülyalardan, təsəvvürlərdən məhrum edin" [64.12, s.661].

Cəfərqulu xanın Şəki süvarilərinin və əlavə qüvvələrin Xınalıq mahalından keçməklə arxadan Şeyxəli xana zərbə endirmək cəhdi baş tutmadı. Cahangir xan Şəqqaqi Xınalıq dağlarına güclü qar düşdüyündən oradan Qubaya tərəf hərəkətini davam etdirə bilməmişdi [64.12, s.665]. Rus qoşunları ilə Şeyxəli xanın qüvvələri arasında ilk toqquşma sentyabrın 20-də Beşbarmaq dağından 200 üsyançının rus əsgərlərinə atəş açması ilə başladı. Yarım saat davam edən atışmada hər iki tərəfdən itkilər olmuşdu. Sentyabrın 23-də isə Şeyxəli xanın min nəfərə qədərlik qüvvəsi rus hərbi dəstələrinə iki dəfə ağır zərbə endirmiş və yalnız topçuların müdaxiləsindən sonra üsyançılar geri çəkilməli olmuşdular.

Lisaneviçin və əlavə qüvvələrin Quba bölgəsinə gəlməsindən sonra da döyüşlər hələ bir müddət davam etdi. Polkovnik Lisaneviç 21 oktyabr 1810-cu il tarixli raportunda yazırdı ki, Qrız və Yuxarıbaş mahalları üsyançılardan təmizlənib, əyalətdə sakitlik bərpa olunub, Şeyxəli xan isə öz tərəfdarları ilə Tabasarana qaçmış, hal-hazırda Yersi kəndindədir [64.14, s.666].

Oktyabr ayının 25-də Lisaneviçin başçılığı ilə rus hərbi hissələri Yersi kəndinə soxuldular. Burada qanlı döyüş baş verdi. Rus mənbələri üsyançıların 100 nəfər itki verdiyini yazır, lakin

rus hərbçilərinin itkiləri barədə susurlar [64.14, s.669]. Lisaneviç 6 gün Yersi kəndində qalmış, kənd rus əsgərləri tərəfindən qarət olunmuşdu. Bundan sonra Lisaneviç Qubaya qayıtmışdı. Üsyanda iştirak edən bütün bəylər həbs edilmişdi. Gen. Tormasov başqalarına da görk olsun deyə günahkar sayılanların üzərində məhkəmə qurulub, hamısını Sibirə sürgün etməyi, mülklərini isə ruslara xidmət göstərənlərə verməyi əmr etmişdi [64.14.670].

1810-cu il Quba üsyanı məğlubiyyətə uğrasa da, Şeyxəli xan işğalçılara qarşı mübarizəni dayanlırmadı və bu mübarizə hələ bir neçə il davam etdi.

Digər yerlərdə işğalçılara qarşı müqavimət göstərə bilməyən əhali etiraz əlaməti olaraq itaət etmir, yaşayış yerlərini tərk edirdi. Bu hal İrəvan yürüşündən sonra daha da gücləndi.

Rusların yeganə sədaqətli adam hesab etdikləri və həqiqətən də əvvəllər ruslara xidmət edən Cəfərqulu ağa 1811-ci ilin axırlarında iranlıları Qarabağa çağırmaqda ittiham edilərək həbs edildi. 181 nəfərin müşayiəti ilə Tiflisə göndərilən Cəfərqulu ağa Tərtər çayını keçərkən qaçmağa müvəffəq oldu. Sonra o, Abbas Mirzənin başçılıq etdiyi qoşunların tərkibində Sultan-Bud məntəqəsində dayanan rus qoşunlarının mühasirəsində iştirak etdi. Fevralın 1-də baş verən döyüşdə mühasirəyə düşən rusların əksəriyyəti məhv edildi, qalanları isə əsir düşdü [88, s.160].

Bundan qəzəblənən rus komandanlığı Kotlyarevskini Qarabağa göndərdi və o əhaliyə divan tutmağa başladı. Cəfərqulu ağanın anası Xeyrənisə bəyim həbs edilərək Tiflisə göndərildi. Markiz Pauluççi azad olunması üçün ondan 150 min rubl tələb etdi, əks təqdirdə Rusiyaya göndəriləcəyi ilə hədələdi. Lakin Xeyrənisə bəyimdən götürülən qiymətli daş-qaşların dəyəri yalnız 20 min rubl təşkil edirdi. Həmçinin Mehdiqulu xanın anası, qardaşı tutuldu, görkəmli nəsillərin ailəsindən girovlar götürüldü [122.4, s.451-452].

1812-ci ilin martında Tuğ kəndinin əhalisi başqa kəndlərin sakinləri ilə (200 ev) Arazı keçərək Cəfərqulu ağaya qoşuldu [50, s.101]. Əhali kütləvi surətdə ev-eşiyini tərk edib İrana keçirdi. Mənbələrə görə rus işğalı ərəfəsində xanlıqda 10.000 ailə var idisə, 1812-ci ilin axırlarına yaxın bu rəqəm 3080-ə enmişdi.

Həmin 3080 ailədən 1000-i nəinki vergi ödəmək, hətta özünü dolandırmaq iqtidarında deyildir [50, s. 101].

Rusiya Fransa ilə yaxınlaşan böyük müharibə ərəfəsində Qacar dövləti ilə də sülh bağlamağı qərara aldı. 1812-ci ilin aprelində Qafqazın hakimi və buradakı rus qoşunlarının komandanı təyin olunan gen. Rtişşevə şah hökuməti ilə sülh bağlamaq tapşırığı verildi. İndi artıq Rusiya sərhəd xəttinin Kür, Araz və Arpa çayları boyunca keçməsi haqqında əvvəllər irəli sürdüyü təklifdən imtina edir və işğal olunan bütün ərazilərin onda qalmasını tələb edirdi [11, s. 34].

Bu zaman beynəlxalq münasibətlərdə yeni dəyişikliklər baş verdi. 1812-ci ilin iyun ayında Napoleon 600 minlik ordu ilə Rusiyaya soxuldu. Abbas Mirzə rus ordusunun əsas qüvvələrinin Napoleona qarşı müharibəyə yönəldilməsindən istifadə edərək öz ordusunu yeni hücuma hazırlamağa başladı. O, hər şeydən əvvəl gen. Kotlyarevskinin dəstəsinin yerləşdiyi Mehrini tutmaq qərarına gəldi. İyulun 12-də şah qoşunları Qarabağa soxuldular, lakin məğlub olub geri qayıtdılar [11, s.35].

1811-ci ildə general Tormasovun Rusiyaya geri qaytarılmasından sonra onun əvəzinə Qafqaz baş komandanı vəzifəsinə general-leytenant F.O.Pauluççi təyin edildi. O, bu vəzifədə bircə il – 1812-ci ilə kimi qalmışdır.

1812-ci ilin aprelində şahın təklifi ilə Əsgəranda Rusiya ilə İran arasında danışıqlar başlandı. Danışıqlarda ruslar Naxçıvan və İrəvan xanlıqlarını, qacarlar isə Lənkəran xanlığını tələb edirdilər. Danışıqlar uğursuz başa çatdı.

İrəvan xanını öz himayəsinə girməyə məcbur etmək üçün Rusiya komandanlığı bir-birinin ardınca İrəvana qarətçi və dağıdıcı ekspedisiyalar göndərməyə başladı. Lisaneviç 4 tabor və 200 atlı ilə qəfil hücum edərək 10 gün müddətində çoxlu adamı öldürtdü, kəndləri dağıtdı [65.1, s.121]. 1813-cü ilin martında polkovnik Pestel İrəvan xanlığına yeni basqın etdi [171, s.616].

1812-ci ilin oktyabrında Kotlyarevski Araz çayını keçərək Aslandüz məntəqəsinə yürüş etdi. Lənkəran xanlığını güzəştə getmək istəməyən Rusiya buradakı qoşunlarının sayını artırırdı. 1810-cu ilin axırlarında Xəzər eskadrası, 1812-ci ilin əvvəllərində

isə daha 200 əsgər bu xanlığa göndərildi [65.3, s.591]. Amma buna baxmayaraq Lənkəran istisna olmaqla demək olar ki, bütün xanlıq ərazisi üsyançıların əlində idi. Avqustun 9-da əhali Qacar qoşunlarının köməyilə Lənkərana hücum etdi. Ailəsini və mülkünü Sara adasına köçürən xan müqavimət göstərməyin mənasız olduğunu görüb ruslarla birlikdə Qamışavana çəkildi. Xanla qaçanların evlərini yandıran üsyançılar Qamışavanı mühasirəyə aldılar. Mühasirə 4 aydan çox davam etdi [112.4, s.89-90]. Pauliççinin göstərişilə Kotlyarevski dekabrın 26-da Lənkəran şəhərini mühasirəyə aldı. Qalanın komendantı Sadıq xan təslim olmayacağını bildirdi. Şəhər 5 gün top atəşinə tutuldu. Yanvarın 1-də ruslar dörd istiqamətdən qalaya hücum etdilər. Güclü müqavimət göstərən 2500 nəfərlik qala qarnizonu axırıncı dəqiqəyə kimi vuruşaraq bütünlüklə məhv oldu. Ruslar 41 zabit və 909 əsgər itirdilər [50, s.105].

Xalqın rus işğalçılarına qarşı mübarizədə Qacarlar və Osmanlı dövlətlərindən gözlədiyi ümidlər özünü doğrultmadı. Həmin dövlətlər aralarındakı müəyyən ixtilaflara görə Rusiyaya qarşı birləşə bilmədilər. Rusiya bu ixtilaflardan məharətlə istifadə edərək onların arasında nifaq toxumu səpirdi.

1812-ci ilin mayın 6 (17)-da Buxarestdə Türkiyə ilə sülh bağlayan Rusiya əsas diqqəti cənub sərhədlərinə yönəldərək Qacar dövlətinə ciddi zərbələr endirdi. Bu zərbələr qacarları sülh danışıqlarına başlamağa vadar etdi.

1813-cü ilin yanvarın axırlarında şahın nümayəndəsi Mirzə Şəfi İranın sülh danışıqlarına hazır olduğunu bəyan etdi [65.5, s.717]. Sentyabrın 27-də Qarabağda – Zeyvə çayı sahilindəki Gülüstan kəndində İranla Rusiya arasında sülh danışıqları başlandı. Danışıqlarda İranı Mirzə Əbülhəsən xan Şirazlı, Rusiyanı isə Qafqazdakı rus qoşunlarının baş komandanı Nikolay Rtişşev təmsil edirdi. Danışıqlar oktyabrın 12-də (noyabrın 2-də) on bir maddəlik müqavilə ilə tamamlandı. İkinci maddəyə görə tərəflər "status quo ad prezentem", yəni həmin anda hakimiyyətləri altında olan ərazilərə sahib olurdular, bir sözlə "Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Lənkəran xanlıqları" həmçinin, "bütün Dağıstan, Gürcüstan, Şoragil əyaləti ilə birlikdə

İmeretiya", Quriya, Minqreliya və Abxaziyanın artıq Rusiyaya məxsus olduğu İran Qacar dövləti tərəfindən qəbul edildi [187, v.2].

İki dövlət arasında sərhəd Odinabazardan başlayıb düz xətlə Muğan çölündən keçərək Arazın Yeddibulaq qoluna kimi, oradan Araz boyu yuxarı Qapançayın Araza töküldüyü yerədək, daha sonra Qapançayın sağ tərəfi ilə Meqri dağlarına qədər, oradan Alagöz dağı silsiləsi ilə Dərələyəz çayına qədər uzanır, sonra Eşşək meydan çayından keçir, daha sonra dağ silsiləsi ilə Həmzəçimən çayı boyunca, sonra Pəmbək dağları ilə, buradan Alagöz dağının qarlı zirvəsinədək, buradan dağ silsiləsi boyunca Arpaçayadək uzanırdı [187, v.2]. Müqavilənin ikinci bəndində qeyd olunurdu ki, Lənkəran xanlığı müharibə dövründə dəfələrlə əldən-ələ keçdiyinə görə bu xanqlığın Ənzəli və Ərdəbil tərəfdəki sərhədləri müqavilə ratifikasiya olunduqdan sonra hər iki tərəfdən göndərilən nümayəndələr tərəfindən dəqiqləşdiriləcəkdir. Bu nümayəndələr hər iki tərəfin ali baş komandanlarının rəhbərliyi altında hər tərəfin hakimiyyəti altında olan yerlərin dəqiq xəritəsini və planını tərtib edərək və o zaman "Status quo ad prezentem" əsasında Lənkəran xanlığının sərhəddi müəyyənləşdiriləcəkdir [187, v.2].

Müqavilənin beşinci maddəsinə görə hər iki dövlətin ticarət gəmilərinə Xəzər dənizində sərbəst üzmək, rus gəmilərinə İran sahillərinə, İran gəmilərinə isə Rusiya sahillərinə yan almaq icazəsi verilirdi. Hərbi gəmilərə gəldikdə isə Xəzər dənizində yalnız rus hərbi gəmiləri üzə bilərdi [187, v.3].

Rusiya tacirlərinə İranda, İran tacirlərinə isə Rusiyada sərbəst ticarət etmək hüququ verilir, hər iki ölkənin tacirləri üçün beş faizli gömrük müəyyən edilirdi [187, v.3].

Qeyd edək ki, Gülüstan müqaviləsi çox gec, 1818-ci il avqustun 7-də çap edilib elan olunmuşdur [187, v.1]. Bu da xeyli dərəcədə keçmiş Lənkəran xanlığı ərazisinin bölüşdürülməsində fikir ayrılıqlarının qalması ilə bağlı idi.

# NƏTİCƏ

Beləliklə, çoxlu ilk mənbələri cəlb etməklə XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərini tədqiq edərək aşağıdakı qısa nəticələrə gəlmək mümkündür:

İki ölkə xalqları arasındakı münasibətlər qədim tarixə malik olub kökləri hələ erkən orta əsrlərə gedib çıxır. XVI əsrdə vahid Azərbaycan Səfəvi dövləti yarandıqdan və rus torpaqları Moskva ətrafında birləşdirildikdən sonra bu əlaqələr daha da intensivləşmiş, davamlı səciyyə daşımağa başlamışdır.

XVII yüzilliyin sonlarında uzağagedən işğalçı planları quran I Pyotr Rusiyada hakimiyyətə gəldikdən sonra Rus dövlətinin xarici siyasətində Azərbaycan və ona qonşu ölkələrə münasibətdə işğalçılıq meylləri özünü qabarıq surətdə büruzə verməyə başlayır. İsti dənizlərə çıxış əldə etməyə, Hindistana gedən yolları ələ keçirməyə can atan, 1711-ci ildə Prut çayı sahilində Osmanlı dövləti tərəfindən ağır məğlubiyyətə uğradıldığı üçün Qara dəniz istiqamətində irəliləmək imkanından məhrum olan Pyotr diqqətini Xəzər dənizi və onun ətrafındakı ölkələrə yönəltmişdi. 1722-ci ildə Səfəvi dövlətinin faktiki olaraq dağılmasından istifadə edən çar öz niyyətlərini gerçəkləşdirmək üçün yüz minlik ordu ilə cənuba hücuma keçdi. Lakin Osmanlı imperiyasının kəskin etirazları və bir sıra başqa səbəblər üzündən yalnız ensiz Xəzəryanı zolağın ələ keçirilməsi ilə kifayətlənməli oldu. I Pyotrun ölümündən sonra isə xələfləri bu zolağı da əllərində saxlaya bilmədilər.

Səfəvi torpaqlarını öz hakimiyyəti altında yenidən birləşdirən Nadir şah Əfşar 1747-ci ildə sui-qəsd nəticəsində qətlə yetirildikdən sonra onun imperiyasına daxil olan xalqların, o cümlədən Azərbaycan xalqının müstəbidə qarşı apardıqları mübarizə yerlərdə şah hakimiyyətinin ləğvi ilə nəticələndi. Lakin bir sıra obyektiv səbəblər üzündən o zaman Azərbaycanda vahid dövlət bərpa olunmadı, iyirmiyə qədər xırda dövlət-xanlıqlar meydana çıxdı.

Rus dövlətinin Azərbaycan xanlıqlarına münasibəti birmənalı olmamışdır. O, bir yandan xanlıqlar ilə ticarət əlaqələrinin ge-

nişlənməsində maraqlı idi, digər yandan xanlıqların müstəqilliyini tanımaq istəmir, onlarla diplomatik münasibətlər yaradılmasına həvəs göstərmirdi, çünki xanların hakimiyyətinin legitimliyini tanımaqla gələcəkdə Azərbaycan ərazilərini işğal edərkən özünə hüquqi əngəl yaratmaq istəmirdi.

XVIII əsrin ikinci yarısında Xəzər ticarəti Rusiya üçün ən əlverişli ticarət idi, bu ticarətin çox mühüm hissəsi isə Azərbaycanın payına düşürdü. Rusiyanı Şərq ölkələri, o cümlədən Azərbaycanla birləşdirən əsas mərkəz Volqa ticarət yolunun Xəzər dənizinə çıxışında yerləşən Həştərxan şəhəri idi. Bu şəhərdəki karvansaraların daimi qonaqları içərisində azərbaycanlı tacirlər də az deyildi.

Azərbaycan-Rusiya ticarəti həm Həştərxanı Bakı, Dərbənd və digər Azərbaycan limanları ilə birləşdirən dəniz yolu, həm də Qızlardan keçən quru yolla aparılırdı. Həştərxan ətrafında dəniz donduğundan bu liman vasitəsilə hərəkət noyabr ayından mart ayınadək kəsilirdi, Qızlar yolu ticarət isə il boyu davam edirdi. Azərbaycanda Rusiya ticarətinin əsas mərkəzləri Bakı, Şamaxı, Dərbənd, Lənkəran və qismən Salyan idi.

Azərbaycan Rusiya üçün həm də tranzit məntəqəsi idi. Gəmilərlə və quru yolu ilə Azərbaycan şəhərlərinə gətirilən rus və Avropa malları Gürcüstana, İrana və digər şərq ölkələrinə də daşınırdı. Xəzər dənizində ticarət başlıca olaraq rus gəmiləri ilə həyata keçirilirdi. Rus hökuməti Xəzəryanı xanlıqların öz gəmilərini quraşdırmaq təşəbbüslərinə qısqanclıqla yanaşır və hər vasitə ilə maneçilik törədirdi.

Rusiya tacirlərinin maraqlarını qorumaq üçün rus hökuməti Azərbaycanda öz konsulluq xidmətini təşkil etmişdi. Konsulun iqamətgahı Bakı şəhəri idi. 1768-ci ildə konsul müvəqqəti olaraq Salyana köçmüşdü.

Azərbaycan-Rusiya ticarətində əsas mübahisə problemi gömrük və ticarət şərtləri məsələsi idi. Rus hökuməti 1732-ci ildə şahla bağlanmış Rəşt müqaviləsinin müvafiq maddələrinə əsaslanaraq Azərbaycanda və İranda rus tacirlərindən gömrük alınmamasını tələb edirdi. Lakin müstəqil xanlar təbii ki, vaxtilə şahın götürdüyü öhdəliyə görə öz gəlirlərindən məhrum olmaq istəmir

və rus tacirlərindən gömrük rüsumu almağa çalışırdılar. Yalnız qubalı Fətəli xan siyasi məqsədlərlə – Azərbaycanı birləşdirmək siyasətində Rusiyanın dəstəyini qazanmaq ümidilə rus tacirlərinə böyük imtiyazlar, gömrüksüz ticarət etmək hüququ vermişdi. Eyni zamanda Rus hökuməti Şərq ölkələrindən, o cümlədən Azərbaycandan idxal olunan, eləcə də bu ölkələrə ixrac olunan bəzi mallara yüksək gömrük tarifi tətbiq edirdi ki, bu da Azərbaycan-Rusiya ticarətinə mənfi təsir göstərirdi.

Azərbaycandan Rusiyaya başlıca olaraq xam ipək, pambıq, pambıq iplik, pambıq bezlər, pambıq-ipək cecimlər, qızıl (qırmızı) boya, yun, qoyun dərisi, pambıq parçalardan hazırlanmış örtüklər, düyü, basma, müxtəlif quru meyvə, kiçik ölçülü ipək parçalar, yarımipək süslər, balıq, kürü və s. ixrac olunurdu. Rusiyadan Azərbaycana, qaçaqmalçılıqla aparılan mallar da daxil olmaqla müxtəlif məxmərlər, yumşaq xəzlər, kətan parçalar, müxtəlif mahud parçalar, tafta, atlas, qıfıl, mismar, iynə, mis qab-qacaq, polad, balta, bal, bıçaqlar, məftillər, alman civəsi, çuqun lövhələr, sandıqlar, ağ boya, başmaqlar, gön-dəri məmulatı, şüşə, sabun, mətbəx əşyaları, saxsı qablar, şəkər, un, müxtəlif boyalar, eynəklər və başqa mallar ixrac olunurdu. Göründüyü kimi Azərbaycandan Rusiyaya başlıca olaraq manufakturalar üçün xammal, Rusiyadan Azərbaycana isə əsasən sənaye və sənətkarlıq məhsulları ixrac olunurdu. Rusiya özü sənaye cəhətdən zəif inkişaf etdiyi üçün buradan ixrac olunan sənaye məhsullarının əhəmiyyətli hissəsini İngiltərə, Hollandiya, İspaniya və Fransadan gətirilən mallar təşkil edirdi.

XVIII yüzilliyin ikinci yarısında Xəzəryanı regionda xam ipək və satış bazarı uğrunda kəskin rəqabət gedirdi. Rus hakimiyyət orqanları, işbaz dairələri Azərbaycanda və ona qonşu ölkələrdə rus ticarətini necə bərpa və inkişaf etdirmək üçün yollar arayırdılar. Rus ticarət-siyasi dairələrinin baxışlarını ifadə edən prof. S.Qmelin 70-ci illərin əvvəllərində Rusiyanın Xəzər ticarətinin tənəzzülünün əsas səbəbini erməni tacirlərin təxribatçı fəaliyyətində görürdü. Qmelin Azərbaycan və ona qonşu ölkələrlə ticarət üçün rus ticarət kompaniyasının təşkil olunmasını təklif

etmişdi. Bu kompaniya holland və ingilis Ost-hind kompaniyaları tipində, yəni inhisarçı hüquqlar əsasında təşkil olunmalı idi.

Pul, çəki və ölçü vahidlərinin müxtəlifliyi də Azərbaycan-Rusiya ticarətinin inkişafına mane olurdu.

Rus hökumətinin və bir sıra Azərbaycan xanlarının səylərinə baxmayaraq XVIII əsrin sonunda Rusiya-Azərbaycan ticarətinin vəziyyəti heç də qənaətəxş deyildi.

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində və dövründə Azərbaycan xanlarının eyni dinə və soykökünə malik Türkiyə ilə vahid cəbhədə çıxış etmələrinin qarşısını almaq üçün rus hökuməti xanlarla əlaqələri genişləndirir. Azərbaycan xanları bu müharibədə Osmanlı dövlətinə rəğbət bəsləsələr də Rusiyanın daha güclü olduğunu görüb ona qarşı açıq çıxış etməkdən ehtiyat etdilər.

Hələ ki, Azərbaycanı zəbt etmək üçün real imkanı olmayan rus hökuməti gələcəkdə fürsət düşəndə niyyətlərini gerçəkləşdirməyi asanlaşdırmaq üçün kəşfiyyat səciyyəli tədbirlər görürdü. Professor Qildenştedt 1768-1774-cü illərdə Qafqazı ətraflı öyrəndi. Eyni zamanda professor S.Q.Qmelin Azərbaycanın Xəzəryanı vilayətlərinię iki dəfə ekspedisiyaya getdi. 1768-ci ilin yazında hərəkətə başlamış Qmelin, Dərbənddə, Qubada, Bakıda, Şamaxıda, Salyanda, Lənkəranda olmuşdu.

Ikinci səyahətdən geri qayıdarkən 1774-cü ildə Qaraqaytaq usmisi Əmir Həmzə tərəfindən həbs olunan S.Qmelin dustaqlıqda ölmüşdür. Bunu unutmayan çar hökuməti 1775-ci ildə qubalı Fətəli xan usmiyə qarşı hərbi yardım istədikdə gen. de-Medemin komandanlıq etdiyi hərbi hissəsini Qaraqaytaqa yeritdi. Usmi öz mülklərini qorumağa çəkildiyi üçün Fətəli xan Dərbəndi mühasirədən qurtara bildi. De-Medemin başçılıq etdiyi rus qoşunu müvəqqəti Dərbənddə yerləşdi. Lakin bu Osmanlı imperiyasının kəskin narazılığına səbəb olduğundan yenicə bağlanmış Kiçik Qaynarca sülhünü pozmaq istəməyərək Rusiya de-Medemin dəstəsini Dərbənddən çıxardı.

Qubalı Fətəli xanla rus hakimiyyət orqanları arasında münasibətlər əsasən normal səciyyə daşısa da, bəzən həmin münasibətlər pisləşirdi. Məsələn, 1776-cı ildə Müşkürdən bir qədər

aralıda dənizdə Y.Skvorsova məxsus ticarət gəmisinin qəzaya uğrayıb batmasından sonra rus təbəəsi olan erməni tacirlərinin və bəzi rus məmurlarının yersiz ittihamları üzündən bu münasibətlər pisləmişdi.

Mərkəzi İranda hakimiyyəti öz əlində saxlayan Kərim xan Zəndin 1779-cu ildə vəfatı ilə əlaqədar şah taxtı uğrunda mübarizə yenidən güclənir. Bu, Kiçik Qaynarca sülhündən sonra əlqolu açılan Rusiyanın Azərbaycanı ələ keçirmək siyasətini fəallaşdırmaq üçün əlverişli şərait yaratdı. Rus diplomatiyası Cənubi Qafqazda möhkəmlənmək üçün burada yaşayan xirstianlardan bir alət kimi istifadə etməyə çalışırdı. Rus hökümətinin reallaşdırmaq istədiyi geniş "Şərq layihəsinin" bir hissəsi Azərbaycan torpaqları hesabına oyuncaq xristian Albaniya və Ermənistan dövlətləri yaratmaqdan ibarət idi.

Bu layihəyə görə Arazdan şimaldakı Azərbaycan torpaqları hesabına yaradılacaq "Albaniya"nın hökmdarı II Yekaterinanın sevimlisi knyaz Q.A.Potyomkin olmalı idi. İrəvan xanlığı və onun ətrafındakı torpaqlar hesabına isə oyuncaq erməni dövləti yaradılmalı idi.

Nəzərdə tutulan planı gerçəkləşdirmək üçün 80-cı illərin əvvəllərində böyük hərbi yürüş keçirmək nəzərdə tutulurdu.Yürüşə general A.V.Suvorov başçılıq etməli idi. Lakin bu illərdə rus hökümətinin əsas diqqəti Krımın işğalına yönəldiyindən nəzərdə tutulan yürüş təxirə salındı və qraf M.Voynoviçın başçılıq etdiyi dəniz ekspedisiyası ilə əvəz olundu. 1783-cü ildə gürcü Kartli-Kaxetiya çarlığını öz himayəsinə alıb Cənubi Qafqazda platsdarm əldə etdikdən sonra rus sarayı regiondakı siyasətini fəallaşdırdı. Bu zaman İsfahan və onun ətraf yerlərində hakimiyyəti ələ alan Əlimurad xan Zənd hakimiyyətini möhkəmləndirmək, şah taxtı uğrunda mübarizədə Rusiyanın dəstəyini qazanmaq məqsədi ilə Şimali Azərbaycanı ona "güzəştə" getdiyini bildirdiyindən Rusiya yenə hərbi qüvvədən istifadə etmədən regionda möhkəmlənmək xülyasına düşdü və dərhal Əlimurad xanla sövdələşməyə başladı. Lakin 1785-ci ilin əvvəllərində Əlimurad xanın ölümü ilə bu sövdələşmə baş tutmadı.

Kartlı-Kaxetiya çarlığı Rusiya himayəsindən istifadə edib bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə İrəvan və Gəncəni tutmağa çalışırdı. İraklinin təcavüzkar niyyətləri qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəldi. Qeyd edək ki, Quba xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında ixtilafda Rusiya birmənalı II İraklini müdafiə etmişdir. Rusiyanın Azərbaycan torpaqlarını, o cümlədən də Quba xanlığının ərazisini ələ keçirmək barədə gizli niyyətlərindən xəbərdar olmayan Fətəli xan 1784-cü ildə Azərbaycanın cənub torpaqlarını birləşdirmək üçün yürüş etdi. Lakin Azərbaycan torpaqlarının birləşdirilməsi II Yekaterinanın planlarına uyğun gəlmədiyindən o, Fətəli xandan geri qayıtmağı tələb etdi və qonşu hakimləri xana qarşı qaldırmağa başladı. Fətəli xan Cənubi Azərbaycandan geri çəkilməli oldu.

Rusiyanın qarabağlı İbrahimxəlil xanla münasibətləri ziddiyyətli və mürəkkəb idi. O, bir yandan Qarabağ xanını II İraklı ilə ittifaqa şirnikləndirir, onu da Fətəli xana qarşı mübarizəyə təhrik edirdi, digər yandan da Qarabağın dağlıq ərazisində yaşayan alban soyköklü, lakin qriqoryan etiqadlı və buna görə də xeyli dərəcədə erməniləşməyə məruz qalmış məlikləri İbrahimxəlil xana qarşı qaldırırdı.

80-ci illərin ikinci yarısında yeni Osmanlı-Rusiya müharibəsi ərəfəsi və müharibə dövründə Rusiya Azərbaycan xanlarına münasibətdə taktikanı dəyişir. 1768-1774-cü illər müharibəsinin təcrübəsinə əsaslanaraq uzaq Gürcüstanı müdafiə etməyin çətinliyini nəzərə alan rus höküməti çalışırdı ki, Kartli-Kaxetiya çarı Osmanlı paşaları və Azərbaycan xanları ilə münasibətlərini normallaşdırsın. Buna görə də II İraklinin qoşunlarının və Gürcüstandakı rus hərbi dəstəsinin 1787-ci ilin yayında Gəncəni tutmağa, eləcə də Qarabağa qarşı yönəlmiş yürüşü Gəncə yaxınlığında dayandırlıdı və qoşunlar geri qaytarıldı. Üstəlik rus hakimiyyət orqanlarının tövsiyyəsi ilə II İrakli qubalı Fətəli xanı danışıqlara dəvət etdi. 1789-cu ilin yanvarında iki hakimin arasında Şəmkirçayın sahilində keçirilən görüşdə nüfuz dairələrini bölmək haqqında razılıq əldə edildi.

Rusiyanın 1783-cü ildə Krımı zəbt etməsi, Osmanlı imperiyasının böyründə yerləşən Kartlı-Kaxetiya çarlığını öz himayəsinə

alıb onu Türkiyəyə və Azərbaycan xanlarına qarşı təhrik etməsi iki imperiya arasında münasibətlərin kəskinləşməsinə və yeni müharibənin başlanmasına gətirib çıxaran səbəblərdən biri oldu. Osmanlı dövləti yenə məğlubiyyətə uğradı və 1792-ci il Yassı sülh müqaviləsinə görə nəinki Krımın Rusiyaya ilhaqını qəbul etdi, eləcə də Cənubi Qafqazda fəal siyasət yürütməkdən məhrum edildi. Bundan sonra Ağa Məhəmməd xan Qacar Cənubi Qafqaz, ilk növbədə Azərbaycan uğrunda Rusiyanın başlıca rəqibinə çevrilir.

Əlimurad xandan və şah taxtına digər iddiaçılardan fərqli olaraq Qacar Rusiyaya ərazi güzəştləri vəd etmədiyi üçün rus hökuməti əvvəldən ona mənfi münasibət bəsləyirdi. Buna görə də Ağa Məhəmməd xana qarşı düşmənçilik edən qardaşı Murtuzaqulu xanı dəstəkləyirdi. Ancaq Ağa Məhəmməd xan diplomatik manevrlər edərək Rusiyanın onun qardaşına açıq hərbi yardım göstərməsinə mane ola bildi. 1792-ci ildə qardaşını qəti olaraq Çilandan qovdu.

90-cı illərin ortalarına Ağa Məhəmməd xan əsas rəqiblərini məhv etmiş, bütün İranı və Azərbaycanın cənub hissəsini özünə tabe etmişdi. Bundan sonra o, Azərbaycanın şimal xanlıqlarını və Kartli-Kaxetiya çarlığını itaətə gətirmək qərarına gəldi. Ağa Məhəmməd xana qarşı şimal xanlıqlarının vahid mövqeyi yox idi. Qarabağlı İbrahimxəlil xan, lənkəranlı Mir Mustafa xan, şamaxalı Mustafa xan və İrəvanlı Məhəmməd xan Qacara müqavimət göstərmək qətiyyəti göstərdikləri halda, gəncəli Cavad xan və qubalı Şeyxəli xan Qacara qarşı müəyyən rəğbət büruzə verirdilər, bakılı Hüseynqulu xan və bəzi başqa xanlar isə aydın mövqe tutmayaraq tərəddüd göstərməkdə idilər.

Öz qüvvələri az olan bir sıra Azərbaycan xanlıqları yardım xahişi ilə Osmanlı gövlətinə və Rusiyaya müraciət etdilər. Lakin bu dövlətlərdən heç biri xanlıqlara görə Qacarla münasibətlərini pisləşdirmək istəmirdi.

İlk vaxtlar Rusiya hökuməti Ağa Məhəmməd xan Qacara münasibətdə ikiüzlü siyasət yeridirdi, üzdə mehribançılıq göstərməyə çalışırdı. Eyni zamanda Qacarın Cənubi Qafqaza hücumu ehtimalına qarşı müəyyən ehtiyat tədbirləri nəzərdən keçirilirdi.

Lakin rus hökümәti lәng tәrpәndi vә Qacarın hücumunun qarşısını ala bilmәdi.

Ağa Mәhәmmәd xan 1795-ci ilin yazında öz ordusu ilә üç istiqamәtdә Azәrbaycanın şimalına hәrәkәt edib, Şuşa şәhәrini mühasirә etsә dә, 33 günlük mühasirә bir nәticә vermәdiyindәn ordusu ilә Tiflisә istiqamәt götürdü. 1795-ci ilin sentyabrında çar II İraklinin qoşunlarını darmadağın edәn Qacar Tiflisi alıb dağıtdı. Lakin burada çox qalmayıb sentyabrın sonunda Gәncәyә çәkildi, oradan da Muğana getdi. Buradan da Xorasandakı qiyamı yatırmaq üçün yönәldi. 1796-cı ildә Ağa Mәhәmmәd nәhayәt ki, tacqoyma mәrasimi keçirdi.

Tiflisin Qacar tәrәfindәn alınıb yandırılması Rusiya hökumәtinә Cәnubi Qafqazı tutmaq üçün çoxdan hazırladığı planı hәyata keçirmәk üçün bәhanә verdi. Gen. Qudoviçә verilәn 16 noyabr 1795-ci il tarixli fәrmanla tәkcә Gürcüstanı deyil, hәm dә Şirvanı vә elәcә dә Bakını "müdafiә etmәk" әmr olunurdu. Böyük sayda hәrbi qüvvәni toplayıb, hazırlamaq vaxt tәlәb edirdi. Buna görә dә rus hökumәti әvvәlcә daha kiçik dәstәlәri Cәnubi Qafqaza göndәrmәk qәrarına gәldi. 1795-ci ilin noyabrında polkovnik Sıroxnevin başçılığı ilә Şәrqi Gürcüstana, dekabrda isә general Savelyerin başçılığı ilә Dәrbәndә tәrәf hәrbi dәstәlәr göndәrildi.

Savelyevin birlәşmәsi 1796-cı ilin fevralın ortalarında Dәrbәndә yaxınlaşaraq şәhәrin tәslim edilmәsini tәlәb edәrkәn Şeyxәli xan bu tәlәbi yerinә yetirmәkdәn imtina etdi. Dәrbәndi hücumla almağa gücü çatmayan Savelyev şәhәrin önündә düşәrgә salıb әsas qüvvәlәrin gәlmәsini gözlәdi.

II Yekaterinanın 1796-cı il 19 fevral tarixli buyruğu ilә imperatriçәnin mәşuqlarından biri olan Platon Zubovun 24 yaşlı gәnc qardaşı Valerian Zubov yürüşә gedәcәk ordunun komandanı tәyin olunur vә yürüşün vәzifәlәri müәyyәnlәşdirilirdi. V.Zubov Ağa Mәhәmmәd xanı Cәnubi Qafqazdan sıxışdırıb çıxartmaqla kifayәtlәnmәmәli, hәm dә İrana hәrәkәt etmәli vә hәtta Hind okeanına çıxmalı idi. Bәzi tarixçilәrin fikrincә İran әlә keçirildikdәn sonra rus ordusu Osmanlı dövlәtinin Kiçik Asiya hissәsini zәbt etmәli, eyni zamanda A.Suvorovun başçılıq etdiyi digәr

ordu Balkan yarımadası istiqamətindən hərəkət etməli, iki ordu birgə səylərlə İstanbulu fəth etməli idi.

Rus qoşunlarının başlıca məqsədlərindən biri Cənubi Qafqazda xristian amilini gücləndirmək idi. Gəncə və İrəvan xanlıqları Kartli-Kaxetiya çarlığına birləşdirilməli idi. Rus hökuməti Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq məsələsini də diqqətdə saxlayırdı. Rusiyadakı ermənilərin arxiyepiskopu İ.Arqutinski V.Zubova məsləhətçi təyin olunmuşdu.

Lakin nəzərdə tutulan planın çox az hissəsini həyata keçirmək mümkün oldu. 1796-cı il aprelin 13-də Qızlardan Dərbəndə tərəf hərəkət edən V.Zubov aprelin sonunda Dərbənd yaxınlığında Savelyelin dəstəsi ilə birləşdi və mayın 10-da şəhəri təslim aldı. Rus komandanlığı Şeyxəli xanın əhali içərisindəki nüfuzunu nəzərə alaraq onu rəsmən hakimiyyətdən kənarlaşdırmadı və həbs etmədi, lakin onu azad da qoymaq istəmirdi. Buna görə də V.Zubov bir bəhanə ilə gənc xanı öz düşərgəsində saxladı. Dərbənd şəhərinin idarəsi isə Şeyxəli xanın bacısı, öz ruspərəst mövqeyi ilə fərqlənən Pəricə xanıma həvalə olundu.

Dərbəndi aldıqdan iki həftə sonra rus ordusu demək olar ki, heç bir müqavimətə rast gəlmədən iyunun 6-da Quba şəhərini ələ keçirdi. Hərbi qüvvəsi az olduğu üçün bakılı Hüseynqulu xan əvvəlcə Şamaxılı Mustafa xanla birgə müdafiə olunmağa çalışsa da, sonra qüvvələrin hədsiz qeyri-bərabər olmasını görüb qala qapılarının açarlarını V.Zubova təqdim etdi. Bakıda rus hərbi dəstəsi yerləşdirildi.

V.Zubovun özünün başçılıq etdiyi əsas qüvvələr Şamaxı xanlığının ərazisinə daxil oldular. Zubovla birlikdə hərəkət etməyə məcbur olan qubalı Şeyxəli xan yolda rusların sayıqlığını zəiflədib qaçmağa nail oldu və işğalçılara qarşı partizan mübarizəsi təşkil etdi. Zubov Şeyxəli xanın ögey qardaşı azsaylı Həsən ağanı Quba xanı təyin etmək qərarına gəldi. Digər yandan da Quba xanlığını zəiflətmək üçün Dərbənd şəhəri və onun ətrafının Tarki şamxallığına birləşdirilməsi haqqında qərar qəbul etdi.

Şamaxılı Mustafa xan rus komandanlığı ilə münasibətlərində çox ehtiyatlı davranırdı və Zubovun xeyli təkidindən sonra iyulun 7-də onun düşərgəsinə gəlmişdi. Zubov imperatriçənin adın-

dan Mustafa xana himayə vəd etdi. Xan da öz növbəsində Rusiyaya sadiq olacağına söz verdi. Əslində Mustafa xan Rusiyaya sədaqətini yalnız sözdə izah edir, özündən güclü düşmən qarşısında sadəcə manevr edirdi. Şəkili Səlim xan da zahirən ruslara sədaqətini izhar etməli oldu.

Qarabağlı İbrahimxəlil xan da rus qoşunlarının hücumundan çox narahat olmuşdu. O, rusların 80-ci illərdə onun xanlığının yerində oyuncaq xristian dövləti yaratmaq planını unutmamış deyildi. Ancaq xan ehtiyatlı davranmağa məhkum idi və oğlu Əbülfət ağanı Zubovun düşərgəsinə göndərdi.

İbrahimxəlil xan və bəzi başqa xanlar təhlükəni özlərindən sovuşdurmaq üçün V.Zubovu aradan qaldırmağa yönəlmiş suiqəsd təşkil etmək qərarına gəldilər. Qəsdi Zəndlər ailəsindən olub, Ağa Məhəmməd xanın təqibindən yaxa qurtarmaq üçün Rusiyaya sığınan və yürüş vaxtı Zubovun qərargahında olan Nurəli xan adlı bir cavan gerçəkləşdirməli idi. Axmaq bir təsadüf nəticəsində planın üstü açıldığından qəsd baş tutmadı. Ancaq Zubov xanları açıq çıxışa vadar etməmək, onlarla münasibətələri tamamilə korlamamaq üçün diplomatik hərəkət edərək özünü elə göstərdi ki, guya qəsddən xəbəri yoxdur.

V.Zubovun yürüşü Osmanlı sarayını çox narahat etsə də buna fəal müqavimət göstərmək imkanı olmadığından yalnız xanların Rusiyaya qarşı mübarizəsinə mənəvi dəstək və pul yardımı göstərməklə kifayətləndi.

Yalnız qubalı Şeyxəli xan bəzi Dağıstan hakimlərindən də yardım almaqla fəal mübarizəni davam etdirirdi. Oktyabrın əvvəllərində qubalılar Alpan yaxınlığında polkovnik-leytenant Bakuninin başçılıq etdiyi dəstəni tələyə saldılar. Əlavə qüvvələrin özlərini çatdırmaları Bakuninin dəstəsini məhv olmaqdan xilas etdi. II İrakli və İbrahimxəlil xan Gəncə mülklərini ələ keçirməyə çalışdıqlarından Cavad xan əlavə olaraq Rusiya kimi güclü bir düşmən qazanmaq istəmədi və Gəncə qalasının qapılarını rus dəstəsinin üzünə açdı.

Rus hökumətinin planlarına görə Rimski-Korsakovun dəstəsi Gəncədə dayanaraq II İraklini Ağa Məhəmmədə qarqşı mübarizəyə, qacarların nəzarəti altında olan İrəvan qalasını ələ keçirməyə

ruhlandırmalı idi. Rus hökuməti həm də Azərbaycanın şimal xanlarını, ilk növbədə İbrahimxəlil xanı Ərdəbil və Təbrizə yürüşə vadar etməyi nəzərdə tuturdu: Rus sarayının nəzərləri, artıq Azərbaycanın cənub hissəsinə və Xəzər dənizinin cənub sahillərinə yönəlmişdi. Bütün bu tədbirləri 1797-ci ilin yazında gerçəkləşdirmək nəzərdə tutulurdu.

Oktyabr ayının 28-də rus ordusunun ön hissələri Yeni Şamaxı şəhərinə yaxınlaşdı. Şamaxılı Mustafa xan şəhəri tərk etdi. Zubov onun qardaşı Qasımı Şamaxı xanı təyin etdi.

Rus hakimiyyət orqanları Azərbaycanda möhkəmlənmək üçün bir sıra siyasi-iqtisadi tədbirlər həyata keçirməyə çalışırdılar. Hazırlanmış layihəyə görə Kürlə Arazın qovuşuğunun yaxınlığında-Cavadın yanında Yeketerinaserd adlanan qala salınmalı idi. Bura iki min rus əsgəri göndərilməli, gürcü və ermənilər onlara gəlin verməyə məcbur edilməi idilər. Bu qala cənuba qarşı yönəlmiş dayaq məntəqəsi olmaqla yanaşı, həm də Xəzər, Cənubi Qafqaz, qismən də İran və Orta Asiya ticarətinin iri bazarı olmalı idi. Digər qəsr-liman və iri ticarət mərkəzi isə Bakı olmalı idi.

Lakin 1796-cı il noyabrın 6-da II Yekaterinanın qəfil ölümü hadisələrin gedişini dəyişdi. Anasının siyasətinə əks siyasət yürüdən I Pavel V.Zubovun sərəncamında olan alay komandirlərinə birbaşa sərəncam verib Qafqaz xəttinə qayıtmalarını əmr etdi. Rus qoşunlarının Cənubi Qafqazdan geri çağırılması səbəblərindən biri Zubovun yürüşünün xəzinəyə böyük xərclər hesabına başa gəlməsi, digər səbəbi isə I Pavelin əsas səylərini Avropa işlərinə yönəltmək istəyi olmuşdu.

Rus qoşunlarının Cənubi Qafqazı tərk etməsi artıq özünü şah elan etmiş Ağa Məhəmmədin bu regiona yeni yürüşünə imkan vermişdir. Lakin 1797-ci ilin iyun ayında Şuşanı tutmağa müvəffəq olan şah burada sui-qəsd nəticəsində həlak oldu və şah qoşunları tələsik Azərbaycanın şimal hissəsini tərk etdilər.

Hakimiyyətə gələn Fətəli şah bir müddət öz hakimiyyətini möhkəmləndirməklə məşğul olduğundan Cənubi Qafqaza münasibətdə fəal siyasət yürütmürdü.

I Pavel Azərbaycan xanlarının "nazı ilə oynamaq" siyasəti yürüdür, diplomatik yollarla xanları öz siyasətinin orbitinə daxil

etmək istəyirdi. O, Rusiyanın himayəsi altında Şimal-Şərqi Qafqazın və Şimali Azərbaycan hakimlərinin federasiyasını təşkil etmək planını irəli sürdü. Bu yolla ayrı-ayrı xanların Qacarların təsiri altına düşməsinə yol verməmək, onları Rusiyaya daha sıx bağlamaq nəzərdə tutulurdu.

1801-ci ilin mart ayında I Pavel saray sui-qəsdi nəticəsində qətlə yetirildikdən və oğlu I Aleksandr taxta çıxandan sonra Rusiyanın xarici siyasət kursu yenidən dəyişdi. İngiltərə ilə ittifaq və Napoleon Fransasına qarşı mübarizə kursu götürüldü. I Aleksandr Azərbaycan xanlarının "nazı ilə oynamaq" siyasətinldən də əl çəkuib, Azərbaycan torpaqlarını qəti işğal siyasətinə keçdi. Beynəlxalq şərait də bu siyasətin gercəkləşdirlməsinə şərait yaradırdı. Belə ki, Qərbi Avropanın ölüm-dirim mübarizəsi aparan aparıcı dövlətləri İngiltərə və Fransanın bu zaman Rusiyanın cənuba ekspansiyasinin qarşısını almaq imkanları yox idi.

Rusiyaya birləşdirilən ilk Azərbaycan torpaqları Qazax, Borcalı və Şəmsəddil olmuşdur. 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya ilhaq edilən zaman Kartli-Kaxetiya çarlığından asılılığı iddia edilərək həmin ərazilər də Rusiyaya birləşdirilmiş elan olunmuşdu.

1802-ci ildə rus müstəmləkəçilik siyasətinin ifrat icraçısı və Azərbaycan xanlarına dərin nifrəti olan, əslən gürcü olub ruslaşmış gen. Sisianovu Qafqaz xəttindəki rus qoşunlarının komandanı təyin edən I Aleksandr ona tam fəaliyyət azadlığı verərək Xəzər donanmasının idarəçiliyini də ona həvalə etmişdi.

İşğal ərəfəsində Cənubi Qafqazda Rusiyanın rəqibləri oolan Qacarlar və Osmanlı dövlətləri zəif durumda olduğundan Rusiyaya güclü müqavimət göstərmək imkanında deyildilər.

1802-ci ilin dekabr ayının 26-da Georgiyevskdə Quba, Lənkəran, Tarki, Qaraqaytaq və Tabasaran hakimlərinin görüşü oldu və müqavilə imzalandı. Xanlar və hakimlər aralarındaki düşmənçiliyi unudub münaqişələri dinc yolla həll etməyi, şah qoşunlarının hücumu təqdirində rus qoşunlarının baş komandanının başçılığı altında birgə çıxış etməyi öz öhtələrinə götürdülər. "Georgiyevsk müqaviləsi" əslində Azərbaycan hakimlərinin sayıqlığını azaltmaq, onların qacarlarla yaxınlaşmasına imkan verməmək məqsədi güdürdü.

1803-cü ilin martın əvvəllərində gen.-mayor Qulyakovun başçılığı ilə kifayət qədər güclü rus hərbi birləşməsi Cara tərəf hərəkət etdi. Əvvəlcə Balakən alınıb dağıdıldı, sonra Car tutuldu. Camaatlar tamamilə məhv olmaqdan qurtulmaq üçün Rusiya himayəsini qəbul etməyə və ildə 200 pud ipək verməyə razı oldular.

Sisianov güclü hərbi birləşməni Gəncə istiqamətində göndərdi və təhqiramiz şəkildə Cavad xandan tabe olmasını tələb etdi. Bir aylıq mühasirədən sonra 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları qəti həmlə edib qanlı döyüşdən sonra Gəncə qalasını aldular. Cavad xan və oğlu qəhrəmancasına həlak oldu. Gəncə alınandan sonra rus komandanlığı qüvvələrini İrəvan xanlığı istiqamətinə yönəltdi. İyunun əvvəllərində rus hərbi birləşməsi xanlıq ərazisinə daxil oldu. Qacar sarayı rusların Cənubi Qafqazda sürətlə irəliləməsinə artıq seyrçi mövqedə qala bilmədi və şah Rusiyaya müharibə elan etdi. Sisianovun İrəvan yürüşü uğursuz oldu və o, geri, Tiflisə qayıtdı. Sisianov, indi qarşısına Qarabağ, Şəki və Şamaxı xanlıqlarını tabe etmək vəzifəsini qoydu.

Qarabağ xanlığı həm Rusiya, həm də Qacarlar dövləti üçün çox önəmli strateji mövqeyə malik idi. Ağa Məhəmməd Qacarın iki dağıdıcı yürüşündən sonra Qarabağ xanlığının vəziyyəti yaxşı deyildi. İki güclü düşmən arasında qalan İbrahimxəlil xan çarəni bunların ən güclüsü ilə, yəni Rusiya ilə yaxınldaşmaqda gördü.

1805-ci il mayın 14-də (yeni üslubla 26-da) Sisianovun Gəncə yaxınlığındakı Kürəkçay sahilindəki düşərgəsində rus komandanlığı ilə bura gələn İbrahimxəlil xan arasında andlı müqavilə imzalandı. Qarabağ xanı Rusiya himayəsini qəbul edir, ildə 8 min əşrəfi xərac verməyi, Şuşa şəhərində 500 nəfərlik rus qarnizonunu saxlamağı öhdəsinə götürürdü. Rus hökuməti də xanlığın ərazi bütövlüyünü, xanın özünün və varislərinin hakimiyyətini təmin edəcəyinə söz verirdi. Bir həftə sonra İbrahimxəlil xanın qohumu şəkili Səlim xan da Sisianovla eyni məzmunda müqavilə imzaladı. Qacarlar rusların Qarabağda möhkəmlənməsinə yol verməmək üçün bura böyük qüvvə yeritdilər, lakin uğur qazana bilmədilər.

Çıxılmaz vəziyyətə düşən Şamaxılı Mustafa xan da 1805-ci ilin dekabrın 27-də (1806-cı il yanvarın 8-də) Rusiya himayəsini

qəbul etmək haqqında müqavilə imzaladı. Şamaxı xanlığının itaətinə nail olan Sisianov Bakıya istiqamət götürdü. 1806-cı il yanvarın sonlarında Sisianov Bakı önünə gəldi. Düşmən qüvvələrinin hədsiz üstünlüyünü nəzərə alan bakılı Hüseynqulu xan Sisianovla danışıqlara getməyi üstün tutdu. Lakin fevralın 8-də qala darvazası önündə keçirilən görüşdə qəflətən xanı müşayiət edən şəxslər Sisiyanovu qətlə yetirdilər. Başçısız qalmış rus qoşunları vahimə içərisində gəmilərə minib Sara adasına qaçdılar.

Sisianovun öldürülməsi xanlıqlarda Rusiya əleyhinə ovqatların güclənməsinə təkan verdi. Eyni zamanda Qacar qoşunları Qafqazdakı qarışıqlıqdan istifadə edib rusları Azərbaycandan sıxışdırıb çıxarmaq üçün iki istiqamətdə hücuma keçdilər.

Lakin öz qüvvələrini artıran rus komandanlığı 1806-cı ilin iyunun 21-də Dərbəndi ələ keçirdi, bundan bir ay sonra Quba təslim oldu. Rus qoşunları Bakıya yaxınlaşıb bu şəhəri də aldı.

Qismən xristian məliklərinin təhrikçiliyi ilə, qismən də digər səbəblərdən iyunun 14-də mayor Lisaneviç İbrahimxəlil xanı, heç bir günahı olmayan daha 17 ailə üzvünü və xidmətçisini qətlə yetirdi. Xanlığın idarəçiliyi atasının qətlinə laqeyd qalan Mehdiqulu ağaya tapşırıldı.

Bu zaman İbrahimxəlil xanla birlikdə qətlə yetirilmiş arvadının qardaşı Səlim xan Şəkidə üsyan qaldırdı. Çətin vəziyyətə düşmüş rus hərbi dəstəsi Şəkini tərk etməli oldu.

1806-cı ildə Azərbaycanın şimalının işğalı əsasən başa çatmışdır.

1806-cı ilin avqustunda Osmanlı dövləti ilə də müharibənin başlanması Rusiyanın Cənubi Qafqazdakı vəziyyətini daha da ağırlaşdırırdı. Eyni zamanda həm Osmanlı imperiyası, həm də Qacarlar dövləti ilə müharibə aparmaqdan xilas olmaq üçün rus hökuməti şahla müqavilə bağlamağa cəhd etdi. Ancaq Qudoviçin nümayəndəsi 1807-ci ilin əvvəllərində Tehrana gəlib danışıqlara başlasa da, şah tərəfi rus qoşunlarının nəinki Azərbaycandan, eləcə də Qızlara qədər Dağıstan torpaqlarından çıxarılmasının tələb etdiyindən tezliklə danışıqlara ara verildi. Bu danışıqların qəribəliyi ondan ibarət idi ki, müstəqil Azərbaycan xanlıqlarının müqəddəratı onların nümayəndələrinin iştirakı olmadan həll olunurdu.

İngiltərənin vədlərindən ruhlanan şah hökuməti hərbi əməliyyatları davam etdirirdi. 1810-cu ildə baş vermiş döyüşlər də şah qoşunlarının məğlubiyyəti ilə nəticələndi.

Rusiya Osmanlı dövlətini məğlubiyyətə uğradıb onu 1812-ci ilin mayında Buxarest müqaviləsini imzalamağa vadar etdi.

1812-ci ilin iyununda Napoleon ordusunun Rusiyaya soxulması şah sarayına yeni ümidlər verdi. İyulda şah qoşunları yenidən Qarabağa soxuldular. Avqust ayında isə Lənkəran şəhəri və xanlığın ərazisi şah qoşunlarının nəzarəti altına keçdi.

Lakin 1812-ci ilin oktyabrında gen. Kotlyarevskinin başçılığı ilə rus qoşunları Aslandüzdə qacar qoşunlarını həlledici məğlubiyyətə uğratdılar. 1813-cü ilin yanvarın 1-də amansız döyüşlərdən sonra Lənkəran rusların əlinə keçdi.

1813-cü il yanvarın axırlarında şah hökuməti yenidən sülh danışıqlarına başlamağa hazır olduğunu bildirdi. Sentyabrın 27-də sülh danışıqları bərpa olundu. Şah tərəfini Mirzə Əbülhəsən xan Şirazlı, Rusiyanı isə Qafqazdakı rus qoşunlarının baş komandanı gen. N.Rtişşev təmsil edirdi.

Nəhayət, 1813-cü il oktyabr ayının 12 (24)-də Qarabağda Zeyvəçay sahilindəki Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Şah hökuməti İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimaldakı Azərbaycan xanlıqlarına iddialarından Rusiyanın xeyrinə imtina etdi. Lənkəran xanlığı müharibə dövründə dəfələrlə əldən-ələ keçdiyinə görə bu xanlığın Ənzəli və Ərdəbil tərəfdəki sərhədlərini müqavilə rafikasiya olunduqdan sonra hər iki tərəfdən göndərilən nümayəndələr dəqiqləşdiriləcəkdi. Müqavilənin şərtlərinə görə hər iki dövlətin ticarət gəmilərinə Xəzər dənizində sərbəst üzmək, rus gəmilərinə İran sahillərinə, şah gəmilərinə isə Rusiya sahillərinə yan almaq icazəsi verildi. Xəzər dənizində yalnız rus hərbi gəmiləri üzə bilərdi.

Beləliklə, tarixin ən böyük ədalətsizliklərindən biri baş verdi. Azərbaycan ərazisi ona heç bir hüququ çatmayan iki dövlət arasında bölüşdürüldü və bunun nəticəsində iki yüz ilə yaxın vaxt keçməsinə baxmayaraq, indi də Azərbaycan parçalanmış vəziyyətdə qalır.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

## Azərbaycan dillində


1. Ağamalı F. XVIII əsrin II yarısı – XIX əsrin əvvələrində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı "Azərbaycan Ensiklopediyası", 1999. 304 s.
2. Ağamalı Y. Qarabağ xanlığının qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri. Bakı "Azərbaycan Ensiklopedi yası", 1998. 142 s.
3. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA Tİ EA), iş 1399.
4. AMEA TİEA, iş 1795, 1 his.
5. Yenə orada iş 1795, III his.
6. Yenə orada iş. 3612
7. Azərbaycan tarixi (üç cilddə), II c., (İ.A.Hüseynov və b. redaktəsi ilə), Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1961. 448 s.
8. Azərbaycan tarixi. İ.H.Əliyev və b. redaktəsi ilə. Bakı, Elm, 1993. 284 s.
9. Azərbaycan tarixi (Uzaq keçmişlərdən 1870-ci illərə qədər). S.Əliyarlının redaktəsi ilə. Bakı, Azərbaycan nəşriyyatı, 1996. 872 s.
10. Azərbaycan tarixi (7 cilddə). III cild. (İ.O.Əfəndiyev və b. redaktəsi ilə), Bakı, Elm, 1999. 584 s.
11. Azərbaycan tarixi (7 cilddə). IV cild. M.Ə.İsmayılov və b. redaktəsi ilə. Elm. Bakı. 2000. 584 s.
12. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun iqtisadi və mədəni mütərəqqi nəticələri (XIX-XX əsrin əvvəlləri) (Ə.N.Quliyevvə b. redaktəsi ilə), Bakı, 1995, Azərb. SSR EA Nəşriyyatı. 286 s.
13. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin II yarısında), Bakı, Elm, 1979. 144 s.
14. Dəlili H.Ə. Urmiya xanlığının tarixi oçerki (XVIII əsrin II yarısı XIX əsrin 30-cu illərində). Namizədlik dissertasiyası. B., 1967 // AMEA Tİ EA f. 1, siy. 1, sax. vah.125, inv. 6371.
15. Əfəndizadə R. Şəki torpağında ipəkçilik tarixi haqqında materiallar. 1933//AMEA Tİ EA, əşya 11.
16. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair//Qarabağnamələr, I kitab, Bakı, "Yazıçı", 1989. s. 149-190.
17. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996. 108 s.
18. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997. 124 s.
19. Əliyev M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı, Adiloğlu, 2001. 316 s.

20. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri // Şəki-xanlığının tarixindən. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1958. s.23-31.
21. Hacinski İ.B. Qubalı Fətəli xanın həyatı (tərcüməçi F.Babayev), B., Azərb. SSR EA Nəşriyyatı, 1959. 54 s.
22. Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən, Bakı, Elm, 1985. 100 s.
23. Həsən Əli İxta Əlizadə. Şuşa şəhərinin tarixi // Qarabağnamələr, II kitab, Bakı, 1991. s.309-342.
24. Hüseynov Y. "Qarabağnamələr" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, Elm, 2007. 216 s.
25. İshaqi M. Makı xanlığı. Tarix elmləri namizədi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 1968.
26. İsmayıl M., Bağırova M. Şəki xanlığı, Bakı, Azərb. Döv. Nəşriyyatı, 1995. 76 s.
27. Jan Gevr. Xacə şah (tarixi roman). II kitab, Bakı, Gənclik, 1994. 224 səh.
28. Kərim ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi // Şəki tarixindən. Bakı, 1958. s.11-22.
29. Qarabağnamələr (tərtibçi Fərzəliyev A.) I kitab, Bakı, Yazıçı, 1989. 192 s.
30. Qarabağnamələr (tərtibçi Axundov N.) II kitab, Bakı, Yazıçı, 1991. 450 s.
31. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005. 160 s.
32. Quliyev Ə.N. Azərbaycan-Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlər). Bakı, 1958. 53 s.
33. Məmmədova İ.M. Lənkəran xanlığı I Rusiya-İran müharibəsi dövründə. Bakı, Elm, 2007. 496 s.
34. Mir Mehdi Xəzani. Qarabağ tarixi // Qarabağnamələr, II kitab, s.93-202.
35. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab (tərtib edən və çapa hazırlayanı A.Fərzəliyev). Bakı, Yazıçı, 1989. s.5-102.
36. Mirzə Camal Qarabaği. Tarixi-Qarabağ. Bakı, 1959. 139 s.
37. Mirzə Rəhim Fəna. Tarixi-Cədidi-Qarabağ // Qarabağnamələr, II kitab (tərtib edən və çapa hazırlayan Nazim Axundov), Bakı, 1991. s. 247-308.
38. Mustafayev C. XVIII əsrin sonu – XIX əsrin əvvəlində Azərbaycan xanlarının Rusiya ilə diplomatik əlaqələri // Azərbaycan Beynəlxalq çoxcəhətli qarşılıqlı əlaqələrdə. İkinci Bakı Beynəlxalq Simpoziumunun məruzələri. B., Elm, 1997.

39. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. B., Azərnəşr. 1995.
40. Mustafazadə T.T. Quba xanlığı. Bakı, Elm, 2005. 474 s.
41. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. B., Elm, 2002. 372 s.
42. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələri (XVIII əsrin II yarısı). Bakı, Nurlan, 2002. 132 s.
43. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, Nurlan, 2007. 248 s.
44. Paşayeva E. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi, Nurlan, 2004. 160 s.
45. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri // Qarabağnamələr, II kitab, Bakı, 1991. s. 203-246.
46. Sadıqov H. Azərbaycan Avropa dövlətlərinin diplomatiya sında (1747-1829), Bakı, Təfəkkür, 2004. 376 s.
47. Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi. Bakı, 1991. 176 s.
48. Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi Nəşriyyat, 1997. 160 s.
49. Şükürzadə Ə.B. Qacar işğalçılarına qarşı mübarizə tarixindən. Bakı. 1943. 28 s.
50. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). B., Elm, 2004. 180 s.
51. Umudov V. Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması və müstəkəmləçilik əleyhinə mübarizə (Namizədlik dissertasiyası), Bakı, 1995. 164 s.

## Türk dilində

52. Başbakanlıq Osmanlı Arşivi (BOA), Hattı-Humayun (HH). Sənəd 35.
53. Cemal Gökçe. Kafkasya ve Osmanlı imperatorluğunun Kafkasya siyaseti (Doktora tezi). İstanbul, 1979. 253 s.
54. Kafkas araştırmaları, I h, İstanbul, 1988. vəs. № 10.
55. Yenə orada, s.77
56.1. Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasebetlere dair arşiv belgeleri, c. I, Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). Ankara,1992. 427 s.
56.2. C. II (1575-1918). Ankara, 1994. 483 s.

## Rus dilində


57. Абасов Ф. Гарабагское ханство. Баку, Тахсил, 2007. 280 с.
58. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, Изд-во АН Азерб. ССР 1965. 621 с.
59. Абдуллаев Г. Из истории Северо-Восточного Азербайджана в 60-80-е годы XVIII века. Баку, 1958, Изд-во АН Азерб. ССР, 1958. 211 с.
59.1. Абдуллаев Г. Из истории Азербайджана во второй половине XVIII в. Баку, 1960. Отд. Из Труды Ин-та Истории АН Азерб. ССР, т. 14, с. 57-114.
60. Абдуллаев Г. Некоторые вопросы русско-азербайджанской торговли //Изв. АН Азерб. ССР, 1960. № 5, с.?.
61. Акты собранные Кавказской Археографической Комиссией (АКАК), т. Ы, Тифлис, 1866. док. 548.
61.1. Там же, док. 757
61.2. Там же, док. 792.
61.3. там же, док. 782.
61.4. там же, док. 789.
61.5. там же, док. 799.
61.6. там же, док. 800.
61.7. там же, док. 801.
61.8. там же, док.819.
61.9. там же, док. 824.
61.10. там же, док. 872.
61.11. там же, док. 1689.
61.12. там же, док. 222.
62. АКАК, т. II, Тифлис, 1868. док. 604.
62.1. там же, док. 624.
62.2. там же, док. 720.
62.3. там же, док. 1169.
62.4. там же, док. 1171.
62.5. там же, док. 1173.
62.6. там же, док. 1178.
62.7. там же, док. 1179.
62.8. там же, док. 1182.
62.9. там же, док. 1186.
62.10. там же, док. 1216.
62.11. там же, док. 1224.
62.12. там же, док. 1289.
62.13. там же, док. 1290.

62.14. там же, док. 1291
62.15. там же, док. 1292.
62.16. там же, док. 1300.
62.17. там же, док. 1301.
62.18. там же, док. 1346.
62.19. там же, док. 1352.
62.20. там же, док. 1356.
62.21. там же, док. 1359.
62.22. там же, док. 1363.
62.23. там же, док. 1365.
62.24. там же, док. 1366
62.25. там же, док. 1383
62.26. там же, док. 1387.
62.27. там же, док. 1421.
62.28. там же, док. 1425.
62.29. там же, док. 1436.
62.30. там же, док. 1447.
62.31. там же, док. 1496.
62.32. там же, док. 1498
62.33. там же, док. 1501.
62.34. там же, док. 1502.
62.35. там же, док. 1511.
62.36. там же, док. 1610
62.37. там же, док. 38.
63. АКАК т.III, Тифлис, 1869. док. 166.
63.1. там же, док.315.
63.2. там же, док. 447.
63.3. там же, док. 453.
63.4. там же, док. 467.
63.6. там же, док. 474.
63.7. там же, док. 495.
63.8. там же, док. 497.
63.9. там же, док. 501.
63.10. там же, док. 513
63.11. там же, док. 514.
63.12. там же, док. 520.
63.13. там же, док. 534.
63.14. там же, док. 588.
63.15. там же, док. 604
63.16. там же, док. 605
63.17. там же, док. 634.

63.18. там же, док. 641.
63.19. там же, док. 683
63.20. там же, док. 753.
63.21. там же, док. 755.
63.22. там же, док. 756.
63.23. там же, док. 758.
63.24. там же, док. 832
63.25. там же, док. 873.
63.26. там же, док. 974.
63.27. там же, док. 985.
63.28. там же, док. 988.
63.29. там же, док. 989.
63.30 там же, док. 1010.
64. АКАК т.IV, Тифлис, 1870. док. 416.
64.1. там же, док. 785.
64.2. там же, док. 791.
64.3. там же, док. 985
64.4. там же, док. 988
64.5. там же, док. 989
64.6. там же, док. 992.
64.7. там же, док. 993
64.8. там же, док. 1012.
64.9. там же, док. 1013.
64.10. там же, док. 1017.
64.11. там же, док. 1019.
64.12. там же, док. 1028.
64.13. там же, док. 1075.
65. АКАК т .V, Тифлис, 1873. док. 172.
65.1. там же, док. 198.
65.2. там же, док. 709.
65.3. там же, док. 716.
65.4. там же, док. 861.
66. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века. Баку, Элм, 1975. 232 с.
67. Алиев Ф. Карабахское ханство (XVIII век) // Карабах. Очерки истории и культуры. Под общ. ред. А.А.Аббасова. Б., Чашыоглу, 2004. с.71-84.
68. Алиев С.М. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха // Иран (история и культура в средние века и новое время). Издательство "Наука". М., 1980. с.27-66.

69. Алкадари Г. Асари Дагестан. Исторические сведения о Дагестана. Махачкала, (Из-во Даг. НИИ) 1929. 164 с.
70. Альтман М. Гянджа (1606-1804)// НА ИИ НАН Азербайджана, инв. 1399,
71. Араратский А. Жизнь Артемия Араратского, уроженца сель Вагаршапад, писанная и переведенная им самим с армянского на россиской (две части в одном томе). СПб 1813.
72. Армяно-русские отношения в XVIII веке, (Сб. документов), т.3 (вторая треть XVIII в.), Ереван, 1978. 409 с.
73. Армяно-русские отношения в XVIII веке (1760-1800 гг.). Сборник документов. т. IV (под редак. М. Г. Нерсисяна). Из-во АН Арм. ССР, Ереван, 1990. 590 с.
74. Архив Внешней Политики Российской Империи (АВПРИ), ф.5 (Секретные мнения иностранной коллегии), дело 580.
74.1. там же, д. 582.
75. АВПРИ, фонд 8, оп.1
76. АВПРИ, фонд 77 (Сношения России с Персией – СРП), оп.1, 1749 г., д 3.
76.1. там же, д.13
76.2 .там же, 1750 г. д 6.
76.3. там же, 1750 г. д 8.
76.4. там же, 1751 г. д 3.
76.5. там же, 1753 г., д 3.
76.6. там же, 1753 г., д. 4
76.7. там же, 1765 г. д 12.
76.8. там же, 1765 г. д 15.
76.9. там же, 1768 г. д 12.
76.10. там же, 1768 г., д.17
76.11. там же, 1768 г. д 15.
76.12. там же, 1768 г. д 16.
76.13. там же, 1770 г. д 11.
76.14. там же, 1770 г., д.13
76.15. там же, 1780 г. д 17.
77. АВПРИ, ф. 77, (СРП), оп. 2, д 438
77.1. там же, д. 470
78. АВПРИ, ф. 77, (СРП), оп. 5, д 2.
78.1. там же, д. 4 (1728-1803 гг)
78.2. там же, д. 6
78.3. там же, д. 8
78.4. там же, д. 12 (1768 г.)
78.5. там же, д. 15 (1765-1797 гг.)
78.6. там же, д. 16

78.7. там же, д. 17
78.8. там же, д. 18
79. АВПРИ, ф. 77 (СРП), оп. 6. д 469
79.1. там же, д. 474
79.2. там же, д. 476
79.3. там же, д. 478
79.4. там же, д. 479
79.5. там же, д. 480
79.6. там же, д. 481
79.7. там же, д. 482
79.8. там же, д. 487
79.9. там же, д. 489
79.10.там же, д. 490
80. АВПРИ, ф. 77 (СРП), оп. 7. д. 137
80.1. там же, д. 150
80.2. там же, д. 158
80.3. там же, д. 159
80.4. там же, д. 160
80.5. там же, д. 94
80.6. там же, д.194
81. АВПРИ, ф. 89 (Сношения России с Турцией). оп. 8, д. 443.
82. АВПРИ, ф. 100 (Сношения России с Арменией), оп. 3, д. 464.
83. АВПРИ, ф. 110 (Сношения России с Грузией), оп. 1, 1752, 24. г., д.4
84. АВПРИ, ф. 110, оп. 3, д. 455
85. Архив Государственного Совета, т. 1. Совет в царствование императрицы Екатерины II (1768-1796 гг.), СПб., 1869, ч. I (Отделение историческое). 1036 с.+указатели, LXXC.
85.2. там же, ч. II (Отделение юридическое). СПб., 1869, 932 с. +указатели XLVIII с.
86. Архив Института Истории Петербургского филиала Российской Академии Наук ф. 36 (Воронцовы). д.553, ч.1
86.1. там же, д. 587.
86.2. там же, д. 588.
86.3. там же, д.1309
86.4. там же, д. 1310/185, ч.1.
87. Бабаев Э. Из истории Гянджинского ханства. Баку, Нурлан, 2003. 234 с.
88. Бакиханов А.А. Гюлистани Ирам (ред. комментарии и примечания акад. З.Буниятова), Б., 1991.304 с.
89. Баку и его окрестности. Тифлис, 1891, 99 с.

90. Бакунина В.И. Персидский поход 1796 год. Воспоминания Варвары И.Бакуниной (Перевела с французского языка В.В.Тимощук) // Русская старина, 1887. т. 53, с.343-374.
91. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира, Баку, 1925. 150 с.
91.1. Бобровский П.О. История 13-го Лейб-гренадерского эриванского его величества полка за 250 лет (1642-1892 гг.), ч.3 Егеря (1786-1816). СПБ. 1893. 313 с.
92. Броневский С.М. Исторические выписки о сношениях России с Персией, Грузией и вообще с горскими народами, в Кавказе обитающими со времени с Ивана Васильевича до ныне. СПб., "Петер востоковедение", 1996. 232 с. (переиздание).
93. Броневский С.М. Новейшие географические и исторические известия о Кавказе, ч.1, М., 1823. с.352.
93.1. там же, ч.2, М.,1823. 468 с.
94. Бурнашев С. Картина Грузии или описание политического состояния царств Карталинского и Кахетинского. Курск, 1793. 38 с.
95. Бурнашев С.Н. Новые материалы для жизнеописания и деятельности С.Д.Бурнашева, бывшего в Грузии с 1783 по 1787 г. СПб., 1901. 64 с.
96. Бурнашев С. Описание областей Адирбеджанских в Персии и их политического состояниях в 1786 г., Курск, 1793. 28 с.
97. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 г. по 1803 гг., ч. 2, СПб., 1869. 548 с.
97.1. там же, ч.3, СПб., 1869. 620 с.
98. Бутков П.Г. Неизданные документы. // Кавказкий сборник. Т. 18, Приложение Тифлис, 1897 год. с. 415-432.
99. Бушуев С.К. Из истории внешнеполитических отношений в период присоединения Кавказа к России (20-70-е годы XIX века). Изд-во МГУ. М., 1955. 116 с.
100. Валуев П.М. Фатали хан Кубинский. Из-во Азфан. Баку, 1942. 28 с.
101. Виноградьев Б.В. Кавказ в политике Павла. АКД, Армавир, 1997.
102. Военная энциклопедия, т. XI. Под. Ред. В.Ф.Новицкого. XI, СПБ. 1913.
102.2. там же, т.XIV. СПБ. 1914 г.
103. Габлиц К. Исторический журнал бывшего в 1781-1782 гг. на Каспийском море под командованием флота капитана второго ранга графа Войновича. Сочинение Карла Габлица. М., 1809. 120 с.
104. Гаджиева С.М. Азербайджан во внешней политике правительства Екатерины II. Баку, "Елм", 2004. 148 с.

105. Гарабаг. Кюрекчайский договор – 200 (Сб.статей). Баку, Тахсил, 2005. 176 с.
106. Гасанов Г.Н., Умудлу В.У. Из истории Кюрекчайских договоров // Гарабаг: Кюрекчайский договор, с. 135-144.
107. Гильденштедт Т.А. Географическое и статическое описание Грузии и Кавказа, СПб., 1809. 384 с.
108. Гмелин С.Г. Путешествие по России (для исследования трех царств в естества), т. III, половина первая. СПб., 1785. 336 с.
109. Государственный Архив Астраханской Области (ГААО), ф. 1, док.18, с. 336.
109.1. там же, ф.13, д.64
109.2. там же, ф.101, д.64.
110. ГААО, ф.394, оп.1, д.1962
110.1. там же, д. 3572
110.2. там же, 4173
110.3. там же, д. 5299
110.4. там же, д. 5509
111. ГААО, ф.394, оп.1 (дополнения), д.20
111.1. там же, д.90
111.2. там же, д.201
111.3. там же, д. 302а (1749 г)
112. ГААО, ф.476, оп.3, д.1028
113. ГААО, ф.681, оп.1, д.31
113.1. там же, д.44
114. Грамоты и другие исторические документы XVIII столетия относящиеся к Грузии. т. 1, (с 1768 по 1774 год). Под ред. А.А.Цагарели (с картою Закавказья 1771 года). СПб., 1891; т.2, вып. 2, Тифлис, 1902.
114.1. Там же, т. 2, вып. 2, Тифлис, 1902.
115. Григорян З.Т. Присоединение Восточной Армении к России в начале ХЫХ века. 1959.
116. Гулиа Д.Г. В истории восточного вопроса (русско-турецкая война 180-1812 гг. и Англия) Сухуми, Алашара, 1978. 111 с.
117. Джахиева Э.Г. Договоры России с Турцией, Ираном и правителями Кавказа 1774-1813 гг. Махачкала, 2006. 198 с.
118. Дневные записки путешествии Российского Импера торского посолство в Персию 1816 и 1817 годах, М., 1910.
119. Договоры России с Востоком, политические и торговые (сост. Т.Д.Юзефович). СПб., 1869. 294 с.
120. Дубровин Н.Ф. Георгий XII, последний царь Грузии и присоединении ее к России, СПб., 1807. 245 с.

121. Дубровин Н.Ф. Закавказье от 1803 по1806 году, СПб., 1866. 543 с.
122. Дубровин Н.Ф. История войны и владычество русских на Кавказе, т. I, СПб., 1871. 640 с.
122.1. там же, т.3.СПБ. 1886. 550 с.
122.2. там же, т.4. СПБ. 1886. 536 с.
122.3. там же, т.5. СПБ. 1886. 495 с.
122.4. там же, т.6. СПБ. 1886. 756 с.
123. Дубровин Н.Ф. Поход Графа В. А. Зубова в Персию 1796 году. // Военный сборник, 1874. №№ 2-6. (Отд. оттиск) 140 с.
124. Жизнеописание Ага-Магомет-хана Каджара, основателя ныне царствующей в Персии династия, с кратким обозрением последовавших по его смерти главнейших происшествий Сын Отчества и Северный Архив (Журнал Словесности политики и истории). Том XLIX (Сына Отечества часть 171-ая, Северного Архива 85-я), СПб., 1835.
125. Зевакин Е. Экономические отношения России с Персией во второй половине XV и XVIII века //НА ИИ НАН Азерб., инв. 153 (135).
126. Зевакин Е., К истории прикаспийского вопроса. Тифлис, 1933.
127. Зубов В. Персидский поход Зубова (написано В.А.Потто). СПБ., 1898. 16 с.
128. Зубов В. Общее обозрение торговли с Азиею (записка) // Русский Архив, 1873. кн. 5, ч. 8, с.
129. Иваненко В.Н. Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества Великого князя Михаила Николаевича (Исторический очерк). Составил В.Н. Иваненко. Тифлис, 1901. 525 с.
130. Игамбердыев М.А. Иран в международных отношениях первой трети XIX в. Самарканд, Из-во Самарк. Ун-та. 1961. 297 с.
131. Известие о взятии Дербента российско-императорскими войсками, воспоследовавшим 21 июня 1806 г. СПб., 1806. 32 с.
132. Иоаннисян А.Г. Иосиф Емин. Ереван, Из-во Ерев. Гос. Унив., 1945. 352 с.
133. Иоаннисян А.Р. Присоединения Закавказья к России и международные отношения в начале XIX столетия Ереван, Из.-во АН Арм. ССР, 1958. 508 с.
134. Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия. Изд-во АН Арм. ССР, Ереван, 1947. 195 с.
135. Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия (переиздание). Ереван, 1990.

136. Искендерова М. Бакинское Ханство. Баку, Чапыоглу, 1999. 212 с.
